Məhəmməd Əmin Rəsulzadə

# Əsərləri

## V cild

(1918 – aprel 1920)

*Araşdırıb toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi, lüğətin tərtibçisi*
**ŞİRMƏMMƏD HÜSEYNOV**

Transliterasiya redaktorları: *professor* **ŞAMİL VƏLİYEV**
*elmi işçi* **SAMİR XALİDOĞLU (Mirzəyev)**

Kitabın texniki redaktorları: *f.d.* **AYGÜN ƏZİMOVA**
*elmi işçi* **SAMİR XALİDOĞLU (Mirzəyev)**

**Kitab Qanun Nəşriyyatı hesabına nəşr olunub**

**Rəsulzadə M.Ə. ƏSƏRLƏRİ, V cild,** –
Bakı, Qanun Nəşriyyatı, 2014, 564 səh., tiraj 500

*Neçə min illik dövlətçilik tarixi və ənənəsi olan Azərbaycanda ilk dəfə "Azərbaycan" adlı müstəqil, demokratik Xalq Cümhuriyyəti dövlərinin banisi, istiqlal hərəkatının bayraqdarı, "Müsavat" partiyasının lideri və ideoloqu M.Ə.Rəsulzadənin əsərlərinin V cildinə onun 1918-ci il fevral – 1920-ci il aprel aylarında mətbuatda və rəsmi sənədlərdə dərc edilmiş 100-dən artıq əsəri daxil edilmişdir.*

*Tariximizin bu mötəbər dövrünün həm böyük yaradıcı memarı və həm də istedadlı tarixçisi olan M.Ə.Rəsulzadənin zəngin irsinin tədqiqi, öyrənilməsi və təbliğində bu əsərlər ən qiymətli mənbələrdən sayıla bilər.*

ISBN 978-9952-26-794-5

© Qanun Nəşriyyatı, 2014
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mob.: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

# Ön söz

28 May 1918-ci il. "Xalq bir gündə qərinələrin sevincini yaşadı". Bu sözlər M.Ə.Rəsulzadənin – bütün şüurlu həyatını vətənin müstəqilliyi, millətin azadlığı, səadət və xoşbəxtliyi uğrunda mübarizəyə həsr etmiş bir vətən övladı, istiqlal fədaisinin ürək sözləri idi. Bu əsri sevinc asan başa gəlməmişdi. O, "üsulunu başqa mütərəqqi millətlərin elmi və ədəbi hərəkatından, ənənəsini Mirzə Fətəlilər, Həsənbəylər, 1905-ci il inqilabı ilə müvəqqəti istiqbal dövrünün milliyyətpərvər mühərrir və ədiblərindən, hərarətini əsrin ən qüvvətli və ən həyati məfkurəsini təşkil edən xalqçılıqdan, həyəcanını ən incə tellərə toxunan milliyyət hiss və duyğusundan" (M.Ə.Rəsulzadə) alan fədakar və məfkurəçi bir nəslin ölüm-dirim savaşının bəhrəsi idi. Milli müqəddəslərimizdən Üzeyir bəyin yazdığı kimi "müstəqil dövlətin yaranması çətinliklə əmələ gəldi. Bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdılıb, minlərcə xanimanlarımız xaraba qoyulmuşdu"

İstiqlal hərəkatı bir nəslin deyil, nəsillərin arzu və istəklərinin, fədakarlıq və qətiyyətlərinin, səy və bacarıqlarının, öyrənmək istedadının bəhrəsi idi. M.Ə.Rəsulzadə bu keyfiyyətləri bir sözlə, istiqlal – deyə səciyyələndirib.

M.Ə.Rəsulzadənin əsərlərinin növbəti 5-ci cildinə onun Zaqafqaziya Seyminin iclaslarındakı (1918-ci ilin fevral-aprel ayları) əsas çıxışları, Batumdan Tiflis və Gəncəyə qayıtması və Gəncədə Milli Şuranın iclaslarındakı çıxışları, İstanbul səfəri və oradakı fəaliyyətini əks etdirən bəyanat, müsahibə və məktublarından

sətirlər, 1918-ci il noyabrın 7-də Bakıya gəlişi haqqında xəbər, Milli Şuranın fəaliyyətinin bərpası və "Azərbaycan" qəzetində bununla bağlı dərc olunmuş yazılar, "Azərbaycan" qəzetində rəsmi əməkdaş kimi fəaliyyətə başlaması, "Müsavat" partiyasının işinin yenidən qurulmasında göstərdiyi fədakarlıq, Parlamentin iclaslarındakı çıxışlarından bəzi seçmələr, Azərbaycan hökumətinin daxili və xarici siyasəti haqqında "Azərbaycan", "İstiqlal", "Naş put" qəzetləri və "İstiqlal" məcmuəsində dərc olunmuş məqalələri, o cümlədən "Azərbaycan paytaxtı" və "Azərbaycan Cümhuriyyəti" və s. daxil edilmişdir.

Məlumdur ki, 1918-ci il fevralın 23-dən Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlardan və əlavə seçilmiş nümayəndələrdən ibarət Zaqafqaziya Seymi fəaliyyətə başlamışdı. Seymdə Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi vardı. Zaqafqaziya Seyminin müsəlman fraksiyasının rəhbəri M.Ə.Rəsulzadə idi. 1918-ci il fevralın 23-dən mayın 26-dək fəaliyyət göstərmiş Seymin iclaslarında M.Ə.Rəsulzadə dəfələrlə mühüm əsas məsələlər və problemlər üzrə çıxışlar etmişdir. 1918-ci ildə Seymin stenoqrafik hesabatları ayrıca kitabça halında nəşr olunmuşdur. M.Ə.Rəsulzadənin bu iclaslarda rus dilində əsas çıxışlarını əsərlərinin bu cildində ilk dəfədir ki, həm ruscasını, həm də ana dilində tərcüməsini dərc edirik.

1919-cu il fevralın 17-də Bakıda "Müsavat" partiyasının rus dilində həftəlik "Наш путь" (Yolumuz) adlı mətbuat orqanı nəşrə başlamışdı. Qəzetin 1919-cu ilin aprelinədək 10 sayı buraxılmışdı. Bu nömrələrdə M.Ə.Rəsulzadənin 4 əsəri dərc olunmuşdur. Onları da cildə daxil etmişik. Qeyd edim ki, bu mətbuat orqanı tədqiqatçıların diqqətindən də kənarda qalıb.

Bildiyimiz kimi, Xalq Cümhuriyyəti dövrü Azərbaycan tarixi salnaməsinə "Müsavat dövrü", "Müsavat hakimiyyəti" kimi anlayışlarla daxil olmuşdur. Müsavatçılıq təkcə partiya deyil, həmçinin müstəqillik, azərbaycançılıq, müasirlik, dünyanın demokratik dövlətləri cərgəsində öz yerini tutmaq anlayışıdır. Rəsulzadənin bu dövr fəaliyyətinin əsasında 110 illik fasilədən sonra müstəqil Azərbaycan dövlətçiliyinin Azərbaycan adı ilə



həqiqi demokratik parlament respublikası kimi bərpasına nail olmaq prinsipi dayanırdı. Azərbaycanın coğrafi məfhumdan dövlət məfhumuna çevrilməsi işində, Türk və İslam aləmində, hətta beynəlxalq miqyasda ilk demokratik cümhuriyyət kimi tanınması M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır.

M.Ə.Rəsulzadə öz dövrünün cərəyan edən hadisələrinə yeni baxış nümayiş etdirirdi. Bu baxışlar indinin özündə də çox böyük elmi-nəzəri və tarixi əhəmiyyətə malikdir. Məsələn, M.Ə.Rəsulzadə 1918-1920-ci illəri "dövri-hürriyyat", yəni azadlıq dövrü adlandırırdı. O, eyni adlı məqaləsində ("Azərbaycan" qəzeti, 14 mart 1920, №54) yazırdı: "Böyük Fransa inqilabı (1789-1793-cü illər inqilabından söhbət gedir. – Ş.H.) "hüquqi-bəşər"i elan eləmişdi. Böyük Rusiya inqilabı da (1917-ci il fevral inqilabı – Ş.H.) "hüquqi-miləl"i elan etdi". M.Ə.Rəsulzadə bu yazıda 1905-1907-ci illər inqilabını rus yox, məhz Rusiya inqilabı adlandırmışdı. Eyni ilə 1917-ci il fevral inqilabını da təkcə rus yox, Rusiya zülmü altında əziyyət çəkən bütün xalqların inqilabı kimi səciyyələndirirdi. Rəsulzadə qeyd edirdi: "Rusiyada fevral inqilabına mütəaqib bir də oktyabr inqilabı (bolşevik xürucu) vaqe oldu ki, bu da artıq Rusiya degil, rus inqilabı idi... Nəticədə görüyoruz ki, Rusiya inqilabı bütün sabiq Rusiya xalqlarına şamil ikən, rus inqilabı yalnız ruslara şamil olunuyordu". M.Ə.Rəsulzadənin bu dövr yazdığı məqalələrin mövzu dairəsi çox genişdir. Burada Azərbaycan hökumətinin, Azərbaycan parlamentinin fəaliyyətinə dair çox ətraflı, dəqiq təhlil və şərhlər verilir, hökumətin gördüyü işlər qiymətləndirilir, müstəqillik əleyhdarlarının təxribatçılıq fəaliyyəti çox kəskin və ciddi şəkildə ifşa olunurdu.

Məlumdur ki, bu dövrdə 23 ay fəaliyyət göstərmiş Azərbaycanın müstəqil dövlət hakimiyyətinin fəaliyyəti çox kəskin daxili və xarici şəraitdə cərəyan edirdi. Müstəqillik düşmənləri həddindən artıq çox idi. Müstəqilliyin ilk 6 ayında Azərbaycan hökuməti Qafqaz İslam Ordusunun varlığı şəraitində fəaliyyət göstərirdi. 1918-ci il noyabrın birinci yarısında Qafqaz İslam Or-

dusu Azərbaycanı tərk etdikdən sonra, noyabrın ikinci yarısında müttəfiq qoşunları Vətənimizə gəldi və 1919-cu ilin avqustunadək burada qaldı. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayın yalnız 8-ni xarici hərbi qüvvələrsiz fəaliyyət göstərmişdir. Bu cür mürəkkəb şəraitdə dövlətin müstəqilliyini qorumaq, onun 1920-ci ilin yanvarında Paris sülh konfransında müttəfiq dövlətlər tərəfindən tanınmasına nail olmaq M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan istiqlalçılarının nə qədər savadlı, dərin təfəkkürlü, vətənə sədaqətli fəaliyyət göstərmələrinin nümunəsidir.

Oxucular təqdim etdiyimiz əsərlərlə tanış olduqda özləri bunun şahidi olacaqlar. M.Ə.Rəsulzadənin Cümhuriyyət dövrü fəaliyyəti onun bir dövlət xadimi, siyasətçi kimi fəaliyyətinin əsas mərhələsini təşkil edir.

M.Ə.Rəsulzadə 71 il ömür sürmüşdür. Onun yalnız 32 ilini bilavasitə vətənində yaşamışdır. Bu müddətdə onun göstərdiyi nəhəng fəaliyyət Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir. Bu dövr haqqında çox yazılıb, xeyli dissertasiya işləri müdafiə edilib. Əlbəttə, sovet dövründə yazılanların hamısı məlum ideoloji və siyasi amillər səbəbilə düşmənçilik, saxtakarlıq, böhtan və iftira ilə müşayiət olunub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə Rəsulzadə irsinə münasibət tam olmasa da dəyişib. Məqsədim M.Ə.Rəsulzadənin vətənindəki fəaliyyətini, xüsusilə onun dövri mətbuatda dərc edilmiş məqalələrini, imzası ilə dərc olunmuş sənədləri toplamaq və nəşr etdirməkdir. M.Ə.Rəsulzadənin Cümhuriyyət dövrünü əhatə edən əsərlərinin əlavə 2 cildini də hazırlayıram. 6-cı cild onun parlamentdəki çıxışları, 7-ci cild isə ədəbi-bədii və tərcümə əsərlərindən ibarət olacaqdır.

Zənnimcə bu əsərlər tariximizin bu möhtəşəm dövrünün tədqiqi və təbliğində ən möntəbər mənbələrdən sayıla bilər.

**Şirməmməd Hüseynov**



# AZƏRBAYCAN İSTİQLALINI MÜBƏYYİN ƏQDNAMƏ

## Azərbaycan İstiqlalını Mübəyyin Əqdnamə

Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqasiyanın rus orduları tərəfindən tərkini mucib bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qüvvəyi-məxsusələrinə tərk olunan Zaqafqasiya millətləri, müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqasiya Qoşma Xəlq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqasiya Qoşma Xəlq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xəlq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi cənub-şərqi Zaqafqasiyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arayi-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

**1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənubi-Şərqi Zaqafqasiyadan ibarət Azərbaycan dəxi kamilülhüquq müstəqil bir dövlətdir.**

**2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xəlq Cümhuriyyəti olaraq təqərrür ediyor.**

**3. Azərbaycan Xəlq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcivar olduğu millət və dövlərlərlə münasibati-həsənə təsisinə əzm edər.**

**4. Azərbaycan Xəlq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.**

**5. Azərbaycan Xəlq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.**

**6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur.**

Bu əqdnamə 1918 sənəsi Mayıs ayının 28-də Tiflisdə elan olunmuşdur.

**"İstiqlal" məcmuəsi,**
**28 Mayıs 1919, №1**

**Qeyd:** 1918-ci il mayın 11-dən M.Ə.Rəsulzadə Zaqafqaziya Seymi nümayəndə heyəti tərkibində Osmanlı Türkiyəsi ilə sülh danışıqlarında iştirak edirdi. Bu danışıqlar da Trabzon danışıqları kimi bir nəticə vermirdi. M.Ə.Rəsulzadənin yazdığı kimi "Batum müzakiratı uzun sürmüş, gürcülər artıq Zaqafqasiya hökumətində qalmağı kəndi hesablarına zərərli görərək əl altından Almaniya ilə anlaşmışlardı". Mayın 25-də nümayəndə heyətinin rəhbəri Noy Jordaniya Batumu tərk edərək Tiflisə döndü. M.Ə.Rəsulzadə gürcülərin birtərəfli istiqlal elanı etmək planlarından xəbərdar idi. O, türklərlə ikitərəfli danışıqlar aparmaq üçün Batumda qalaraq elə mayın 25-də Nəsib bəy Yusifbəylini də təcili Tiflisə yola saldı. N.Yusifbəyli Tiflisdə Seymdəki müsəlman fraksiyasını toplayaraq fraksiyanın rəhbəri M.Ə.Rəsulzadənin məktubunu onlara oxudu, o cümlədən "İstiqlal Bəyannaməsi"nin mətni ilə onları tanış etdi. Mayın 26-da gürcülər Seymdən çıxıb öz müstəqilliklərini elan edən gün müsəlman fraksiyası Seymin buraxılması ilə əlaqədar kəndilərini Azərbaycan Şurayi-Millisi elan edərək 2 gün sonra Mayısın 28-də daxi Azərbaycanın istiqlalını elan etmişlərdi".



Beləliklə, Azərbaycan Milli Şurasının və Azərbaycanın müstəqilliyinin elanı məsələsi mayın 26-da Seymin müsəlman fraksiyasında müzakirə edilmiş və iki gün sonra mayın 28-də İstiqlal Bəyannaməsi elan edilmişdir. Bütün bunlar 1919-cu ildə Cümhuriyyətin bir illik yubileyi münasibətilə M.Ə.Rəsulzadənin hazırladığı "İstiqlal" toplusundakı "Azərbaycan Cümhuriyyəti" məqaləsində verilib. Azərbaycan Milli Şurasının protokollarında isə bu tarix mayın 27-si kimi göstərilir.

M.Ə.Rəsulzadənin Batumdan N.Yusifbəyli ilə göndərdiyi və Milli Şurada oxunan məktubu, onun teleqramı 2006-cı ildə nəşr olunmuş sənədlər toplusunda yoxdur. Xüsusi qeyd edilib ki, "işdə yoxdur". Niyə yoxdur? Axı olub. Məsələnin araşdırılması vacibdir.

M.Ə.Rəsulzadə 1929-cu il mayın 28-də Cümhuriyyətin 11-ci il dönümü münasibətilə "Odlu Yurd" məcmuəsində dərc edilmiş "Bu günün ilhamı" sərlövhəli məqaləsində yazırdı:

"İslam dünyasında ilk dəfə olaraq təəssüs edən bir Türk Cümhuriyyətinin istiqlalını təsbit etmiş 28 May Bəyannaməsi... Böyük Fransız ixtilalı, Böyük Amerika istiqlal hərbi, Böyük Almaniya istixlası, Böyük İtalyan ittihadı kibi hürriyyət və milliyyət hərəkatlarında əsas təşkil edən və nəhayət, Vilsonun 14 maddəsində yer bulan və Millətlər Cəmiyyəti fikrinin əsasını təşkil edən böyük fikir müqtəziyatının Azərbaycan xüsusiyyətilə imtizac etdiyini göstərən bir vəsiqədir." ("Odlu Yurd", 28 may 1929, №4, səh.118-121)

Milli Şuranın 1918-ci il Mayın 28-də Tiflisdə elan edilmiş İstiqlal Bəyannaməsinin müəllifinin Milli Şura sədri M.Ə.Rəsulzadə olduğu heç bir şübhə doğurmur.

Adı çəkilən "Bu günün ilhamı" məqaləsini də oxuculara təqdim edirəm – ***Ş.H.***

# Bu günün ilhamı

28 MAY!.. İştə idealist Azərbaycan nəslinə ilham verən bir gün!.. Hürriyyət və istiqlal günü!

Əsrin ən qiymətli şüarını təşkil edən milliyyət prinsipi və milli istiqlal haqqında bilistifadə bundan 11 il əvvəl kəndi istiqlalın elan edən Azərbaycan xalqı 28 May Bəyannaməsilə bir milliyyət olaraq əsrlərdən bəri təəzzüv edən və sənələrdən bəri genişlənərək nəhayət, siyasi şüur və milli ehtiyac halına gələn davasını təsbit ilə mədəni millətlər ailəsi içində bir millət olaraq yaşamaq əzmində olduğunu bütün cahana elan etdi.

Bu gündən etibarən 28 May Azərbaycan xalqının həyatında siyasi ən mühüm bir amil oldu.

Hər hansı bir müəssisədə olduğu kimi, fikir müəssisələrinin də sənəlik blanço günləri var. 11 sənədən bəri milli Azərbaycan fikri yaşadığı həyat blançosunu 28 Mayda yoxlar və kəndi ilhamını bu tarixi gündən alır.

28 May, müasir Azərbaycan cəmiyyətinin dahi Mirzə Fətəlilə başlayan milli tərəqiyyat və harsi inkişaf seyrini icmal edərək, ona yaşadığımız milli istiqlal məfkurəsilə məşbu böyük dövr ilə mütənasib bir şəkil və istiqamət vermişdir;

Bu şəklin hansı ümidlərə istinad etdiyilə bu istiqamətin hansı hədəflərə doğru getdiyini bilmək istəyənlər ilk səhifəmizdəki Bəyannaməni oxusunlar. Bu Bəyannamə milliyyət, cümhuriyyət, demokratik və müasirlik kimi dörd böyük rüknün üzərinə qaim bir fikir mənzuməsindən mülhəmdir.

Öylə bir ilham ki, bu gün ən Uzaq Şərqdəki Çindən tutmuş, Qərbin ən son nöqtəsindəki İrlandiya, cənubdakı Hindistandan tutmuş Şimaldakı fin kaymalarına qədər dünyanın hər tərəfindən böyük hərəkətlər yaradır, insan kütlələrini xətir və xəyala gəlməyən bir enerji ilə tərəqqi və inkişaf yoluna sövq edir.

18-ci əsrin sonları və 19-cu əsrin əvvəllərindən etibarən mədəniyyət dünyası tarixində ən böyük rol oynayan bu ilham verən fikir, milliyyət ümdəsi, 20-ci əsrin hülulu ilə daha ziyadə qüvvət almış, Avropa və Amerika hüdudunu aşaraq, Yaxın və Uzaq Şərq məmləkətlərini dəxi kəndi təsirilə sarmışdır.



Cahanı içindən gəmirən təzadların zəruri çarpazlaşmasından vücuda gələn böyük müharibə əsasında bu böyük qüvvətin icra etdiyi təsiri gördük. Cahan hərbi kəndisini doğuran böyük təzadları tamamilə həll edəmədi. Bu, tamamilə həll edilməyən məsələlər miyanında milliyyət məsələsi də var. Fəqət bu məsələ tamamilə həll edilməmişsə də, qismən həll olunmuş, qismən də həlli önünə keçilməz bir inad və israrla vəz edilmişdir. Bu üzərində israr edilən məsələlərdən biri də 28 Mayda vəz olunan Azərbaycan məsələsidir.

İslam dünyasında ilk dəfə olaraq təəssüs edən bir türk cümhuriyyətinin istiqlalını təsbit etmiş 28 May Bəyannaməsi, Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin hürriyyət və istiqlalını təzəmmün edən "Misaqi milli" növündən bir vəsiqədir. Bu vəsiqə, böyük Fransız ixtilalı, böyük Amerika istiqlal hərbi, böyük Almaniya istixlası, böyük italyan ittihadı kibi hürriyyət və milliyyət hərəkatlarında əsas təşkil edən və nəhayət, Vilsonun 14 maddəsində yer bulan və Millətlər Cəmiyyəti fikrinin əsasını təşkil edən böyük fikir müqtəziyatının Azərbaycan xüsusiyyətilə imtizac etdiyini göstərən bir vəsiqədir.

Milli istiqlal davası mədəni millətlər ailəsi miyanında kəndinə məxsus bir evə, bir yuvaya malik olmaq davası deməkdir. Cahan millətlərindən mühüm bir qismi bu sərih haqqına malik deyildir. Bunlardan bir qismi bu haqqını qazanmaq, bir qismi də onu idarə etməklə məşğuldur. Azərbaycan xalqı ikinci növə daxildir.

Əvət, 11 sənə əvvəl biz bu haqqımızı iqtisab etmiş, kəndi yuvamızı qurmuş, kəndi həyatımızı kəndimiz idarəyə başlamışdıq. Bizim böylə bir haqqa malik olduğumuzu və özümüz-özümüzü idarəyə layiq olduğumuzu mədəniyyət dünyası da qəbul eyləmiş, Azərbaycan Cümhuriyyətinin iştiqlalı böyük dövlətlər tərəfindən dəxi tanınmışdı.

Fəqət, sözdə millətlərin kəndi müqəddəratlarını bizzat hələ haqlı olduqlarını qəbul edən bolşeviklər, işdə təvarüs etdikləri rus imperializminin ənənəsinə sadiq qalaraq, o zamankı siyasi vəziyyətdən istifadə edərək böyük bir qüvvə ilə Azərbaycan hüdudunu keçərək hürriyyət və istiqlalımıza təcavüz etdilər,

milliyyət, cümhuriyyət və demokrasi ümidlərini təhqir ilə milli müqəddəsatımızı kirli ayaqları altında çeynədilər.

Onlar bu ani zərbə ilə həyatı durdurmaq, tarixi çevirmək istədilər. Fəqət bihudə!..

Tətbiq olunan bütün məzalimə, təcrübə olunan şeytani sistemlərə rəğmən, Azərbaycan həyati-müstəvili bolşevizmin deyil, xilaskar millətçiliyin hədəfi üzərində inkişaf etməkdədir. Kommunizm ixtilalının ixfal şüarları ilə aldadılaraq mücadilə həyatına cəlb etdiyi xalq kütlələri həqiqi əsasdan ari olub, xəyallar üzərində qurulan sistemin iflası nisbətində tarixin təbii yolundan getməyi bolşeviklərə rəğmən öyrənir, milli müqavimət gündən-günə qüvvətlənir. Qismi-məxsusumuzda təsbit edildiyi kimi, millət başına çökən bu kabusa müsəlləh qiyamlar, siyasi mücadilələr və harsi müqavimətlərlə qarşı gəlir.

Belə ki, müqəddəs cidalın 11-ci ildönümünə aid blançonu yaparkən bax nələri qeyd edə biliyoruz:

Köylülər əkin sahələrini azaldır, hökumətə ərzaq satmaq istəmirlər; sovet seçkiləri bolşeviziyada hökmfərma olan o müdhiş terrora rəğmən, sovet əleyhində bir nümayiş şəklinə girir. Kommunistləri öldürürlər, komisiyonları basırlar, köylü kommunistlərin verdiyi vərəqdəkiləri deyil, öz adamlarını seçdirmək istəyir.

Gənclər milliyyət ruhu ilə mütəhəssisdir. Bu ehtisas gəncliyə qarşı tətbiq olunan təqibat sistemilə məkusən mütənasib olaraq artır. Komsomollar belə milliyyətçi olurlar. Nə sürgünlər, nə həbslər, nə də qətllər bu gəncliyi milli məfkurəyə məcburiyyətdən qopara bilmir. Böyük qafilə şəklində Şimali Rusiyaya sürülən mücahidlər "Yaşasın Azərbaycan!" - deyə vaqonlara atılır və arxasınca ağlayan gəlinə "türk qızı ağlamaz!" bağırırlar!..

İstiqlal qüvvəsi gün keçdikcə sistemin həyatın canlı qüvvətlərilə mücadilədə olduğunu görür və öz istinad etdiyi qüvvələrdən də şübhələnməyə başlayır. Nəticədə biz qızıl ordu nəfərləri arasında dəxi həbslər, sürgünlər və qətllər icra edildiyini xəbər alırıq. Duyuruq ki, kommunistlər hələ silahlarından təcrid olunurlar.



Əvət, zaman milli istiqlal fikrinin lehinə işləyir. Qəlblərini bu qayəyə bağlayan və cəhdlərini bu uğurda sərf edən azərbaycanlılar hər sənə 28 Mayda keçdikləri cidal yolunu seyr edir, hədəfə varacaq məsafəni tədqiq edirlər. Hərəkatın aktiv və passivini ölçərək illik blançonu yapdıq-dan sonra yeni bir qüvvət və ilham ilə mücadiləyi davam etdirirlər!

Bu gün bizə nə ilham ediyor? On bir illik mücadilə nəticəsində nə görürük?

Mücadilə əzm və iradəsi mətinləşən bir millət görürük ki, hər dürlü maneələrə rəğmən, bir dəfə təsbit olunan böyük hədəfə doğru durmadan yürüyür. Cahan tarixinin təcrübəsindən, milliyyət fikrinin qüvvətindən və türkün əzəli qabiliyyətindən ilhamlanan bu yürüş mütləqa zəfərə nail olacaq, bu gün "Çeka"nın qapalı zirzəmilərində, Sibiriyanın günəş görməyən tunduralarında, mühacirətin səfalət və məhrumiyyətə dolu şəraiti daxilində hürriyyət, istiqlal və vətən eşqi və həsrətilə döyünən həzin qəlblər, çox çəkməz vətənin ağuşunda yerləşər, istiqlal və hürriyyət bayramını müzəffər bir surətdə qeyd edərlər!

Hər 28 Mayı dərk etdikcə biz arzuladığımız günə bir az daha yaxınlaşdığımızı hiss edir, bu böyük gündə çarpan qəlblərin müştərək duyğusundan qüvvət və ilham alaraq yeni həmlələrlə yolümuza davam edəriz!

Bəli, vətəndaşlar, yürüyəlim, durmadan, yorulmadan, sarsılmadan daim yürüyəlim, məqsədə çatacağımız gün yaxınlaşır!..

İştə bü günün ilhamı, onu həqiqətə çevirəlim!

**"Odlu Yurd", 28 may 1929, № 4**

Təəzzüv – danışılan
Məşbu – doymuş
Müqtəziyat – lazımi şeylər
İmtizac – uyğunluq
Təvarüs – varies olma
İxfal – gizli, örtülü
Məkus – bir şeyin tərsi, əksi

# M.Ə.Rəsulzadənin öz səsilə 1953-cü ilin 28 Mayında "Amerikanın səsi radiosu"ndan Azərbaycana xitabı

Əziz vətəndaşlarım!

"Amerikanın səsi" radiosunun verdiyi imkanlardan istifadə edərək, bu gün, Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayısda, Sizlərə xitab edirəm. 100 il sürən çar əsarətindən sonra bundan 35 il əvvəl Azərbaycan Şurayi-Millisi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır. Mədəni bütün bir tərəkəyə (mirasa) malik olan Vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir. İstiqlal uğrunda yapılan tarixi savaşların ən qanlısı XIX əsrin başlanğıcında Rusiya çarlığına qarşı yapılmışdır. 30 il qədər sürən bu savaş qəhrəmanlıqlarla doludur. Cavad xanın 1804-də Gəncədəki Şanlı qəzası dillərdə dastandır. "Ölmək var, dönmək yoxdur!" Bu, həqiqi vətənpərvərlərin tətbiq etdikləri ən müqəddəs şüardır.

28 Mayıs 1918ci ildə istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. Eyni zamanda o, zəmanəyə hakim olan əsrin böyük şüarından istifadə edirdi. "Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyətdardır" düsturunu xalqın ümumi rəyinə uyaraq istiqlalını elan edirdi.

İstiqlal elanı üzərində qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü:

**100 ildən bəri əsgərlikdən mən edilən Azərbaycanda bir ordu yaratdı;**

**Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan zabit və əmniyyət qüvvələri vücuda gətirdi;**

**Sosial sahədə əsaslı islahata girişdi;**

**Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladı;**



**Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldı;**

**Xalqı az zamanda oxutmağa başladı;**

**Türkcəni dövlətin rəsmi dili elan etdi;**

**Orta və ali məktəblər açdı;**

**Qərbi Avropa demokratiyaları tipində xalq nümayəndələri cavabdeh bir hökumət üsuli-idarəsi yaratdı;**

**Hakimiyyət Milli Məclisinin əlində idi. Parlamentodan etimad almadıqca heç bir hökumət iş başında qala bilməzdi;**

**Məmləkətdə tam bir azadlıq vardı;**

**O zaman indi sovet zamanında olduğu kimi terror deyilən şeydən bir əsər yoxdu;**

**Şəxslər də, məskənlər də əmin və amanda idi;**

**Vətənin qapıları indi olduğu kimi bütün dünyaya qapalı deyildi. Hər azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi;**

**Qonşu və Avropa dövlətləri ilə dostluq münasibətləri təsis edilmişdi;**

**Bütün millətlərlə alış-veriş vardı;**

**Bütün bunların nəticəsində idi ki, Cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən böyük bir çox dövlətlər də istiqlalımızı tanıdılar.**

**Türkiyə ilə İran Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq müqavilələri imzalandı.**

**12 yanvar 1920-ci il Cümhuriyyətin dövlətlər tərəfindən tanınması günü idi.**

**Bu günü Azərbaycan xalqı candan bayram etdi. Haqlı idi. Bu, həqiqətən böyük bir bayramdı. Çünki bu gündən etibarən Azərbaycan davası Rusiyanın bir iç məsələsi olmaqdan çıxmış, millətlərarası bir məsələ olmuşdur.**

Mədəniyyət tariximizin şanlı fikir adamları tərəfindən alqışlanan azadlıq və istiqlal fikri məmləkətimizdə yerləşdi və bu iləri dünya demokratiyası tərəfindən təqdirlə qarşılandı. 100 ildən bəri üstümüzə çökən istibdad və istila artıq bizdən uzaqlaşdı.

Heyhat! Qədər imtahanları tamam deyildi. Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu.

Beləcə istiqlalımız qızıl istilaçıların ayaqları altında əzildi. Müqavimət edən məmləkətdə qan gövdəyə çıxdı. Bundan bir ay əvvəl, 28 aprel Sovet propaqandaçıları bu qanlı istila hərəkatını sizə azadlıq və istiqlal hadisəsi kimi göstərdilər.

Sözdə sizə dünyanın ən azad və demokrat rejimi kimi qələmə verilən sovet quruluşu işdə qəddar və ən yalançı bir istibdad rejimidir. Müqayisə etmək imkanında olsaydınız, bunun nə qədər doğru olduğunu gözünüzlə görərdiniz.

Azadlığımızı əlimizdən alanlar millətdən qorxmurlarsa, dəmir pərdəni qaldırsınlar. Azadlıq elan etsinlər. Edə bilməzlər! Çünki ağla-qara meydana çıxar. Onlar şəbpərə kimidirlər, günəşdən qaçarlar.

Azərbaycan, onunla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-in Mayısında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvələrlə, qanla və atəşlə basdırıldı. Faciələr və qəhrəmanlıqlarla dolu olan bu mücadilədə on minlərlə vətəndaş şəhid oldu. 1920-ci il istilasına qarşı 1918 istiqlal haqqını müdafiə edən Qafqasiya millətləri indi 33 ildir ki, müxtəlif vasitələrlə mücadilə edirlər. Zaman-zaman dramatik şəkillər alan bu mücadilədə vaxtilə yalançı kommunist şüarlarına aldanan, yol azmış bəzi vətəndaşlar belə, bu gün həqiqi milliyyətçilər və vətənpərvərlər cəbhəsinə keçmişlərdir. Yabançı istilası üzərinə əcnəbi məmləkətlərə çıxmış olan Qafqasiya emiqrantları milli istiqlal davasını mədəni dünya əfkari-ümumiyyəsinə anlatmaqdadırlar. Bu vəzifəni ifadədə nə kimi müşküllərə uğradığımızdan bəhs etmənin burada yeri deyildir. Bu qədər demək lazımdır ki, sovetlərdə kommunist rejiminə düşən millətlərin hər dürlü haqq və hüquqdan məhrum qullardan ibarət cəmiyyətlər halına gəldiyini azad dünyaya anlatmaq çox çətin olmamışdır. Şükür ki, hadisələr bizə kömək edir. Dünya Sovet həqiqətini görməyə başlayır. Səkkiz ildən bəri hərbi bitirmişkən sülhə qovuşa bilməyən dünya artıq məsələni anlayır. Bilir ki, azadlıq və insan haqlarını inkar edən kommunistlər müəzzəm bir dövlət halında ayaqda durduqca və dünya



inqilabı atəşi ilə yandırmaq könlündən keçdikcə yer üzündə heç bir zaman sülh və asayiş buluna bilməyəcəkdir.

Azadlıq cahanşümul bir fikirdir. "Bir tək əsir insan, bir tək əsir millət qaldıqca, dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz".

1918 Mayısındakı tarixi qərarları ilə azad millətlər cəbhəsində yer alan Qafqasiya millətlərinin müqəddəratları azad millətlərin müqəddəratları ilə bağlanmışdır.

Rusiyadan ayrılmanın bir irtica, başqalarından ayrılmanın bir inqilab olduğunu söyləyən sovet diktatoru Stalin ölmüşdür, amma onun ikiüzlü sistemi – stalinizm hələ ayaqdadır. Bu sistem gün keçdikcə dünya həqiqətləri ilə daha çox qarşılaşmaqda, həqq ilə batil, yalan ilə doğru üz-üzə gəlməkdədir. Şübhəsiz ki, bir gün həqiqət parıldayacaq, azadlıq əsasını, Birləşmiş Millətlər prinsipini və insan haqqlarını tutan tərəf qalib gələcəkdir.

Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz Vətənimizdə 1918-ci ilin 28 Mayısı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyiniz.

**Vətəndaşlar! Üçrəngli istiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən, orada hər türlü qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpınan azadlıq ayrısı sizlərə candan salamlar göndərir, 28 Mayıs istiqlal qurbanlarının əziz ruhları hüzurunda hörmətlə əyilir və hər iki tərəfi birləşdirən milli böyük həsrəti şairin deyişi ilə dilə gətirirəm:**

**"Sən bizimsən, bizimsən, durduqca**
**bədəndə can.**
**Yaşa, yaşa, çox yaşa, ey, şanlı**
**Azərbaycan!"**

**"Azərbaycan" jurnalı, 1984, №247**
**Ankara**

## Azərbaycanda milli hərəkat

Azərbaycanda milli hərəkat ideya mənbələrinə görə Şərqin milli-azadlıq ideyaları ilə Qərbin mədəni-demokratik cərəyanlarını özündə birləşdirir.

Müsəlman və türk elementləri ilə məskunlaşmış, nə mədəni, nə də dini baxımdan Rusiya ilə heç bir ortaq cəhəti olmayan və Rusiyanın yalnız silah gücünə işğal edilmiş Qafqaz Azərbaycanı mənən heç zaman rus dövlətçiliyi ilə barışmayıb, çünki o dövlətçiliyin ənənələri, məlum olduğu kimi, müsəlman və türk aləminə ədavət üzərində qurulmuş, bunun da nəticəsində panislamizm və pantürkizm ideyaları bu aləmdə həmişə canlı maraq doğurmuşdur.

Zaman keçdikcə, cəmiyyət qüvvələri inkişaf etdikcə, getgedə əhalinin daha geniş dairələri ictimai hərəkata qoşulduqca müsəlman Şərqinin başqa yerlərinə nisbətən milli hərəkat Azərbaycanda daha tez Avropa xarakteri almışdır.

Tarixən Şərq ədəbiyyatına Füzuli (xristian erasının XV əsrinin sonlarında böyük türk şairi) kimi məşhur, parlaq ulduzlar vermiş Azərbaycan ədəbiyyatı artıq XIX əsrin əvvəllərində modernləşməyə başlayır. Böyük novator Mirzə Fətəli Axundzadə anlaşıqlı xalq dilində yazdığı ölməz əsərləri ilə Azərbaycan cəmiyyətinə yeni təkan verir. O, yeni formalı yaradıcılığında (Müsəlman dünyasında ilk dram əsərlərini o yazmışdır) XVIII əsrin liberal-maarifçi ideologiyasından qaynaqlanan tam yeni ideyalar təbliğ edir.

Mirzə Fətəlidən başlayaraq Azərbaycan ədəbiyyatı Qərb ideyalarına meyl etməyə və həyat hadisələrinə tənqidi yanaşmağa başlayır.

Mirzə Fətəlidən sonra liberalizm yönlü böyük şairlər, yazıçılar və dramaturqlar nəsli meydana gəlir və onlar öz qarşılarına xalqda Avropa anlayışlarına həvəs yaratmaq, onun daxilində ictimai özfəaliyyət hissi oyatmaq vəzifəsini qoyurlar.

1875-ci ildə Bakı şəhərində (Azərbaycan paytaxtı) Azərbaycan dilində ilk qəzet meydana gəlir; bu, Rusiyada nəşr olunan ilk



türk-müsəlman qəzeti idi. Həsən bəy Zərdabinin bu "Əkinçi" qəzetində Mirzə Fətəlinin maarifçilik ideyaları mütəmadi qaydada müdafiə edilirdi. Mirzə Fətəli və onun davamçıları "Əkinçi"yə qədər bu ideyaları mücərrəd şəkildə, müəyyən siyasi tendensiya olmadan yaydıqları halda Azərbaycanın ilk publisistinin yazılarında bu ideyalar konkret siyasi məqsədə xidmət edirdi. "Azərbaycanlılar müasir sivilizasiyadan bəhrələnməli və Avropa mədəniyyəti ilə ünsiyyətdə olmalıdırlar, əks halda həmişəlik əsarət altında qalmağa məhkumdurlar..."

Mirzə Fətəlinin mücərrəd yazılarına səbrlə yanaşan çar hökuməti, ilk siyasi qəzetin istiqamətinə laqeyd qala bilməzdi. "Əkinçi" bağlandı. Onun redaktoruna Bakıda Müsəlman Xeyriyyə Cəmiyyəti yaratmağa da icazə verilmədi.

1905-ci ilə qədər Azərbaycan ictimaiyyəti çar senzurasının tikanlı pəncəsində idi. Yalnız çar ordusu Mancuriyada məğlub olduqdan sonra baş vermiş birinci rus inqilabı sayəsində azərbaycanlıların ictimai həyatında yeni dövr başlanır. Gündəlik qəzetlər və müxtəlif dövri nəşrlər meydana gəlir. Ədəbiyyat, musiqi və səhnə rəngarəng formalarda inkişaf edir. Mətbəələr açılır; müxtəlif ictimai-maarifçi cəmiyyətlər, siyasi dərnəklər və partiyalar təşkil olunur. Möhkəm zəmin üstündə dayandığını hiss edən ictimai hərəkat açıq-aşkar milli xarakter alır, bütün imperiyada liberal-inqilabi hərəkatla həmahəng olaraq həm ümumsiyasi islahatların həyata keçirilməsinə, həm də Rusiya ərazisində yaşayan müsəlmanlar üçün xüsusi milli-mədəni hüquqlara nail olur.

Həm də o vaxt cəmiyyətdə iki əsas təmayül özünü göstərirdi. Köhnə zadəgan təbəqələrindən çıxmış, universitet təhsili almış nisbətən yaşlı nəsil Rusiya liberalları ilə bir sırada addımlayır, əksəriyyəti milli tərbiyə görmüş gənc nəsil isə Rusiya ictimaiyyətindəki radikal və inqilabi cərəyanlara rəğbət bəsləyirdi.

Məlum antimüsəlman siyasəti yeridən Rusiya imperiyasının zülmü altındakı türk xalqları siyasi cəhətdən bir istiqamətdə, həm də öz aralarında sıx ideya-təşkilat əlaqələri yaradaraq fəaliyyət göstərirdilər. Ümumrusiya müsəlman hərəkatına

müəyyən dərəcədə Azərbaycan cəmiyyətinin nümayəndələri rəhbərlik edirdilər.

Rusiya müsəlmanlarının siyasi cəhdlərini formalaşdıran iki tarixi fakt Rusiya müsəlmanlarının siyasi həyatının inkişafında iki mühüm məqamı müəyyənləşdirir: bunlardan birincisi 1905-ci ildə çağırılmış Nijni Novqorod qurultayı, ikincisi isə 1917-ci il Moskva qurultayıdır.

Taktiki cəhətdən rus liberalizmi ilə əməkdaşlıq şüarı altında keçən Nijni Novqorod qurultayı siyasi baxımdan milli-mədəni və mülki-hüquqi xarakterli tələblərlə məhdudlaşırdı. Moskva qurultayı isə Rusiyanın muxtar milli-ərazi vahidlərinə bölünməsi tələb olunan qətnamə qəbul etmişdi. Həm birinci, həm də ikinci qurultayda siyasi formulirovkaları Azərbaycan nümayəndələri (birincisində – ilk Dövlət Duması Müsəlman Fraksiyasının sədri Ə.M.Topçubaşı, ikincisində – Azərbaycan milli-demokrat "Müsavat" partiyasının sədri M.Ə.Rəsulzadə) irəli sürmüşdülər.

Nijni Novqorod qurultayı keçirilən zaman təkcə qurultayın özündə deyil, həm də yerlərdə, yəni Azərbaycanda əksəriyyət liberalların tərəfində idi; Moskva qurultayında isə liberallar heç yada düşmürdü, əvəzində "rus inqilabi demokratiyası" deyilən koalisiyanın tərəfdarları var idi; lakin onlar demokratik Rusiyanın unitar quruluşuna dair tələbləri ilə azlıqda qaldılar. Əksəriyyət imperiya hüdudlarında yaşayan bütün millətlərin milli-ərazi baxımdan ayrılmasını tələb edən inqilabi millətçilərin arxasınca getdi.

Nijni Novqorod qurultayında həlledici rol oynamış Azərbaycan inqilabi milliyyətçiliyini Moskva qurultayında "Müsavat" partiyası təmsil edirdi; bu partiya hələ Qafqaz müsəlmanlarının Bakıda keçirilmiş qurultayında (1917-ci ilin aprelində) öz proqramını açıqlayaraq tələb etmişdi ki, təkcə Azərbaycanın deyil, Rusiyanın hakimiyyəti altında olan digər türk millətlərinin də öz dövlətləri formalaşmalıdır.

**"Müsavat" partiyasının xadimləri yaşlı nəsildən fərqli olaraq Azərbaycanın ilk rus inqilabı dövründə Rusiya ictimai fikrinin inqilabçı qanadına rəğbət bəsləyən gənc nəslinin nümayəndələrindən ibarət idi. Çarizmlə mübarizədə onlar inqilabi sosializmə, tam sadiq olmasa da, ən münasib müttəfiq kimi baxırdılar.**

Ölkələrini kölə vəziyyətinə saldığına görə Rusiyaya nifrət bəslədikləri üçün bu gənclər dərin təxribati fəaliyyətlə məşğul olan ifratçı partiyaların taktikasını daha asanlıqla qəbul edirdilər.

**İslamçılığın və türkçülüyün ideya ənənələrinin modernləşdirilmiş anlayışlarını özündə saxlamış milli ideologiyanın, xalqçı-sosialist yönlü sosial proqramın, bir də Azərbaycanın və bütün Qafqazın Rusiyadan ayrılmasına cəhd mənasında inqilabçı taktikanın birləşməsi kimi fəaliyyət göstərən müsavatçılıq qısa müddətdə Azərbaycan xalq kütlələrinin içində böyük populyarlıq qazanmışdı. Rusiya Müəssislər Məclisinə, Zaqafqaziya Seyminə, Azərbaycan Parlamentinə və hətta Bakı Fəhlə Deputatları Sovetinə seçki zamanı "Müsavat" partiyası və onunla blok yaradan qruplar həmişə böyük əksəriyyət təşkil edirdi. Bu andan etibarən, "müsavatçılıq" Azərbaycan milliyyətçiliyinin sinonimine çevrilir.**

Dirçəlmiş milli ədəbiyyatın yaydığı, müxtəlif yönlü ictimai-siyasi təşkilatların və cərəyanların müdafiə etdiyi, nəhayət, "Müsavat" partiyasının proqramında konkret siyasi formulirovka almış Azərbaycanın millətçilik-dövlətçilik baxımından öz müqəddəratını təyin etməsi ideyası, ümumxalq tələbinə çevrilərək gerçəkləşmiş oldu. Azərbaycan Milli Şurası ümumxalq iradəsinə uyğun olaraq 1918-ci il Mayın 28-də Azərbaycanı müstəqil demokratik respublika elan etdi...

**Varşava, 1933**

**"Voprosı istorii" jurnalı, Moskva, 2002, №2**

**"Elm" nəşriyyatı, 2009, səh.23-27**

# M.Ə.Rəsulzadənin Tiflisdə Zaqafqaziya Seymindəki çıxışları
## 4-cü iclas 16 fevral 1918

Seym üzvü olan vətəndaşlar! Mən xüsusi olaraq ona görə söz aldım ki, burada Daşnaksütyun partiyasının ünvanına deyilmiş məzəmmətli sözlərə münasibətimi bildirim. Rusiya imperializminin, Xalq azadlığı partiyasının nümayəndələri hələ də yerli xalqlara təklif edirlər ki, öz şəxsi talelərini beynəlxalq siyasi intriqa vasitəsilə həll etsinlər (*səs-küylü alqışlar*). Zavallı Şərq xalqları bu siyasətin bütün dəhşətlərini və nəticələrini yaşamışlar. Onlar çox bəlalara düçar olublar, indi isə üzlərini xalqları oyuncağa çevirən, kiçik xalqlar haqqında yalnız öz qərəzli niyyətlərinə lazım olanda düşünən Londona, Parisə, Berlinə və digər kapital mərkəzlərinə deyil, qonşularına, demokratiyaya çevirirlər (*alqışlar*). Qanlı müharibənin başlanğıcında bu və ya başqa partiyalar belə bir səhvə yol verdilər ki, dünya müharibəsinin bu kapital intriqalarının nəticəsi olduğunu nəzərə almadılar və beynəlxalq avantüraya cəlb edildilər, xalq ruhunun ayıldığı indiki məqamda isə Xalq azadlığı partiyası istəyir, bu xalqlar daha böyük çaşqınlıqda qalsınlar. Burada, əsasən, Xalq azadlığı partiyasının nümayəndəsi danışdı və Daşnaksütyun partiyasına hücum edərək bildirdi ki, bu partiyanın təmsilçisi bir neçə saatdır öz mövqeyinə xəyanət edir. Amma mən belə fikirləşirəm ki, onu qəzəbləndirən Daşnaksütyun partiyası nümayəndəsinin bir neçə saat ərzində öz əqidəsinə dönük çıxması deyil. Bu qəzəbin əsas səbəbi ondan irəli gəlir ki, onların mövqeyi şərait başqalaşdığına, Zaqafqaziya xalqlarının mənafeyi düzgün anlaşıldığına görə saat 3-lə saat 10 arasında deyil, 1914-cü illə 1918-ci il arasında, Zaqafqaziya Seyminin açılışı zamanı dəyişib. Məsələ bax bundadır. Xalqların öz müqəddəratlarını təyin etmək arzusunda olduqları, Zaqafqaziya xalqlarının öz həqiqi mənafelərini dostcasına dinc yanaşı yaşamaqda, demokratiyanın gücünə daha çox inanmaqda gördükləri, çiyin-çiyinə yaşamağın tarixi zərurətə çevrildiyi, öz talelərini onlarla ittifaqda həll etmək istədikləri indiki məqamda Xalq azadlığı partiyasının nümayəndələri bizi məcbur edib deyirlər – "İngiltərə kapitalının, Fransa kapitalının nümayəndələrini, köləlik siyasəti olan Avropa siyasətinin intriqaçılarını özünüzlə götürüb sülh danışıqlarına gedin"; yox, biz onlarla birlikdə sülh danışıqları aparmağa gəlməyəcəyik, çünki əvvəlcədən bilirik ki, onlar oraya sülh danışıqarında bizə kömək etməyə deyil, başlıca olaraq mane olmağa gedəcəklər (*alqışlar*).

Mənim təmsil etdiyim partiya xalqların öz müqəddəratlarını tam təyin etməsi prinsipinə söykənir, milli-məhəlli federasiya tərəfdarıdır. Bu prinsip əsasında tələb edirik ki, bizə tam özünüidarə səlahiyyəti verilsin. Tələb edirik ki, bir xalq kimi biz özümüz özümüzü təmsil edək. Biz taleyimizi öz arzumuza uyğun, əlbəttə, "Özün də yaşa, başqalarına da yaşamaq imkanı ver" prinsipi əsasında qurmalıyıq. Bu prinsipi biz bütün xalqlara və Türkiyədəki ermənilərə də şamil edirik (*alqışlar*).

Biz özümüzə tələb etdiyimizi başqaları üçün də tələb edəcəyik və başqaları da özlərinə tələb etdiklərini bizim üçün də tələb edəcəklər; o zaman biz ümumi demokratik dil tapmış olacağıq. Bax bu ümumi demokratik dil, bax həqiqi maraqlarımızın bu anlaşması sülhə nail olmaq üçün bizə yetərincə təminat verəcək. Biz öz gücümüzə inanmamaqda davam etsək, üzümüzü harayasa çevirsək, haradansa kömək gözləsək, heç vaxt bu köməyi görməyəcəyik, çünki tarixdə elə hallar olub: baxışlar uzaqlara tuşlanıb, uzaqlardan kömək tələb olunub və gözlənilib, oradan isə tanıdığınız bu bədbəxt xalqa, əzabkeş erməni xalqına həmin Londondan nə cavab göndərsələr yaxşıdır? Deyiblər ki, İngiltərə gəmiləri Ararata qalxa bilməz. Bax indi də erməni xalqına eyni şey təklif edilir (*səs-küylü alqışlar*).

Yox, bütün Rusiya demokratiyası kimi, Rusiyanın bütün xalqları kimi erməni demokratiyası da ağır günlər keçirib, rus sentralizminin, rus imperializminin, ümumiyyətlə hər cür sentralizmə və imperializmə xas olan həqiqi mənasına, həqiqi fizionomiyasına yetərincə bələddir və buna görə də o öz taleyini Milyukovun bağlamış olduğu müqəddəs müqavilələrə, siz həmişə

bu müqəddəsliyi qorumağı bizə təklif edirsiniz, əsasən qurmayacaq. Yox, biz bu müqavilələrə müqəddəs bir şey kimi baxa bilmərik, çünki bu müqəddəslik bizə çox baha başa gəlib. Biz əsl demokratik maraqlara, əsl demokratik azadlığa zidd olmayan müqavilələrdən müqəddəscəsinə yapışacağıq. Budur xalqların həmrəyliyi, budur bir-birinin hüquqlarına qarşılıqlı hörmət (*bütün skamyalardan səs-küylü alqışlar*).



## 7-ci iclas. 19 fevral 1918

Burada cəbhə nümayəndələrinin və eser partiyası təmsilçilərinin Məclisə buraxılmasını dəstəkləyən fraksiyanın nümayəndələri var. Bu məsələnin formal tərəfi bizim üçün, yəni bir qrup bitərəflə birlikdə Müsavat partiyası üçün onun məğzi qədər önəmli deyil. Məsələnin məğzini araşdırmazdan öncə formal cəhətə toxunmağı lazım bilirəm. Məndən əvvəlki natiq Məclisi-Müəssisan üzvlərinin yığıncağını bizim mövcudluğumuzun başlanğıc yığıncağı kimi dəyərləndirdi. O deyir ki, bu yığıncaq Seymi toplamaq qərarı verib. Deyir ki, o yığıncaqda cəbhə nümayəndələri iştirak ediblər və bu məsələ həm formal, həm də hüquqi cəhətdən həll olunur. Mən bu məsələni qəti şəkildə həll etməyə hazırlaşmıram, amma fikirləşirəm ki, məntiqin qəbul və tələb etdiyi şeyi hüquq da tələb etməlidir. Məntiqi nöqteyi-nəzərdən yanaşdıqda həmin yığıncaqda, əsasən, cəbhə nümayəndələrinin olması və partiyalardan olan nümayəndələrin çox hissəsinin orada iştirak etməməsi təsadüfi xarakter daşıyır və bu səbəbdən indi Zaqafqaziya Seymi yaratmaq istəyənlər mexaniki çoxluq əldə ediblər. Siz anlasanız ki, əsası təbii yolla qoyulmayan rüşeym inkişaf edə bilməz, onda biləcəksiniz ki, sizin hüquq özözünə sıradan çıxacaq, ayaqları altından yer qaçan adamların vəziyyətinə düşəcəksiniz. Zaqafqaziyada taun ola biləcəyi haqqında burada çox danışdılar, Polşadan, cəbhədən bəhs etdilər, Fransada səs vermiş əsgərlərdən söz açdılar. Bu faktların hamısı ilə hesablaşmaq lazımdır. Bu faktlarla onların Rusiya Məclisi-Müəssisanına aid olduğu qədər hesablaşmaq lazımdır. Lakin söhbət Zaqafqaziyadan, hakimiyyət yaradılmasından, Qanunverici orqan kimi yerli məsələləri həll etməli olan Zaqafqaziya Məclisi-Müəssisanından gedirsə, bu cür nümunələr gətirmək məntiqsizlikdir. Burada bir məsələdən də danışdılar. Dedilər ki, cəbhə düz üç il Zaqafqaziyanı qoruyub, indi onları Zaqafqaziya Seymində iştirak hüququndan məhrum etmək ədalətsizlikdir. Dedilər ki, Zaqafqaziyanın müdafiəçilərinə biz Zaqafqaziya Seymində iştirak hüququ verməliyik. Bəli, vətəni qoruyanların,

başqalarını müdafiə edərkən öz qanlarını axıtmış insanların xidməti böyükdür, amma bu hələ o demək deyil ki, həmin xidmətlərinin əvəzinə biz onlara hüquqi anlamda hədiyyə verməliyik. Mən bilirəm ki, bizim əlil cəbhə müdafiəçilərimiz var – buna görə onlar xüsusi imtiyazlara malikdirər. Ailələrini təmin etmək üçün onlara iqtisadi imtiyazlar verilir. Vətəni müdafiə etmiş şəxslərə belə imtiyazı verməmək də olar, lakin bu insanlara imtiyaz vermək onlara nəsə bağışlamaq hüququdur – bu hüquq isə heç kimə verilməyib.

Bu cür imtiyazları vətəni həqiqətən müdafiə edənlərə vermək lazımdır, çünki biri vətəni müdafiə edibsə, başqa biri etməyib. Heç kəs bu imtiyazları bağışlamaq hüququna malik deyil, bu, təbii olaraq belədir, lakin məsələyə hüquq nöqteyi-nəzərindən yanaşsaq görəririk ki, bizə belə hüquq verilməyib – bu, qeyri-demokratikdir. İşin məğzinə gəlincə, biz bilməliyik ki, əslində mövcud olmayan, üzvləri evlərinə çıxıb getmiş cəbhəyə Seymdə iştirak hüququ veririksə, onda biz seçiciləri olmayan üzvlərin Seymdə təmsilçiliyinə yol verməliyik. Seçiciləri olmayan deputatları təsəvvür edə bilərsinizmi? Bu, məntiqə ziddir. Siz nəzərə almalısınız ki, Qafqaz cəbhəsinin, Qafqaz ordusunun Rusiyanın müxtəlif guşələrinə qayıdan nümayəndələri orada öz mülki həyatlarını qurmaqla məşğul olmalıdırlar. Deməli, bununla biz Qafqaz cəbhəsinə xüsusi imtiyaz vermiş olarıq, yəni onların həm burada, həm də Rusiyanın bütün başqa yerlərində nümayəndəlikləri olacaq. Bunu nəzərə almağın Zaqafqaziya üçün böyük əhəmiyyəti var, çünki Seym Zaqafqaziyanın bütün cərəyanlarını, bütün maraqlarını bərabər səviyyədə əks etdirməlidir. Deyilənlə nəzərə alınmasa, Seymdə qüvvələr nisbətini kökündən dəyişdirə biləcək, bizi yanlış yola yönəldə biləcək mexaniki çoxluq yaranar və bunun nəticəsində yaradacağımız təşkilat Zaqafqaziyanın bütün niyyətlərinə və maraqlarına xidmət etməyə qadir olmayacaq. Bu məsələ sadə görkəmdə, hamının aydın görə biləcəyi bir müstəvidədir, lakin eser partiyasının nümayəndələri nədənsə bunu partiya məsələsinə çevirmək istəyirlər. Onlar elə bilirlər ki, cəbhə haqqında danışanda eser partiyasının sol cinahı barədə, inqilabi Rusiyanın sülh məsələlərini həll edərkən böyük önəm verilməli olan nümayəndələri haqqında danışırlar. Sülh məsələsini onlar diyar məsələsi deyil, ümumdövlət məsələsi hesab edirlər. Ümumdövlət anlamında Zaqafqaziyada sülh məsələləri, aydındır ki, Zaqafqaziya miqyasında həll olunmalıdır və məhz buna görə də Zaqafqaziya Seymində mexaniki nümayəndələrin olmaması zəruridir. Bir faktı qeyd etməliyəm ki, eser partiyasının nümayəndələri bu məsələdən partiya məsələsi düzəltmək və "Müsavat" partiyasının burjua partiyası olduğunu, onlar aqrar məsələni bütün torpaqları təmənnasız olaraq əməkçi xalqa verməklə həll etməyə çalışdıqları halda, bizim pay torpaqların maksimal normasını müəyyənləşdirmək niyyətində olduğumuzu nəzərə çarpdırmaq istəyirdilər. Eserlər aqrar məsələni özlərinə əlverişli mənada, yəni torpağı sosialistləşdirmək mənasında həll etmək istəyirlər, amma mən düşünürəm ki, daha çox başqa partiyanın – sosial-demokratlar partiyasının arxasınca gedən Zaqafqaziya demokratiyasının mənafeyi eser partiyasının maraqları ilə üst-üstə düşmür. Bu mexaniki çoxluğun Zaqafqaziyanın zərərinə, yoxsa xeyirinə xidmət edəcəyini sos.-dem partiyası yaxşı bilir. Torpaqların sosialistləşdirilməsi eksperimenti belədir. Torpaqların sosialistləşdirilməsi eksperimentinin Zaqafqaziya demokratiyasının xeyirinə olub-olmaması məsələsinə mən bunun eser partiyasına aidiyyatı olduğu qədər toxunacağam. Eser partiyası həmişə deyir ki, onları bu zaldan, yəni Zaqafqaziya Seymindən çölə atmaq istəyirlər. Yox, heç kimi Zaqafqaziya Seymindən çölə atmaq istəmirlər, sadəcə, onu mahiyyət etibarilə buradakı iclaslarda iştirak etmək hüququna malik olmayan çoxluqdan təmizləmək istəyirlər, mövcud olmayan və seçiciləri olmayan cəbhənin nümayəndələrini buraya buraxmaq istəmirlər. Mən həm də Zaqafqaziyanın müstəqilliyi məsələsinə toxunacağam. Eser partiyasının nümayəndələri vurğuladılar ki, sülh məsələsində onların burada iştirakı zəruridir və bu məsələ ümumrusiya miqyasında həll edilməlidir. Onlar istəyirlər ki, sülh məsələsi Rusiyanın müttəfiqləri ilə birgə həll olunsun. Axı elə bir vəziyyət yaranıb ki, biz özümüz heç olmazsa sülh məsələsində Petroq-

radın qərarına tabe olmamaq fikrinə gəlirik. Sülh müqaviləsini özümüz müstəqil bağlamalıyıq. Biz bu sülh müqaviləsini bağlamağa özümüzün səlahiyyətli olduğumuzu elan etmişik.

Bizim fikrimizin əleyhinə olaraq Zaqafqaziyanın taleyini və maraqlarını həll etmək niyyətində olan kəslər zorla bizim sıralarımıza soxulmaq istəyirlərsə, onda belə mexaniki çoxluğun yaradılması təbii qüvvələr nisbətinin zərərinə olacaq. O qüvvələrin ki, yalnız onlar Zaqafqaziyanın taleyini həll etməli olan xalqların həmrəyliyinin təminatçısı ola bilərlər.

Müsavat partiyasının fraksiyası və bitərəflər qrupu məsələni bu şəkildə nəzərdən keçirərək bəyan etməyi lazım bilir ki, cəbhənin təmsilçiliyi məsələsi, yəni Zaqafqaziya Seymində mexaniki çoxluq yaradılmasına vasitəçilik edəcək nümayəndələr məsələsi müsbət həllini taparsa, bu, Zaqafqaziya Seymində işin düzgün gedişini ləngidəcək və bizi vadar edəcək ki, Zaqafqaziya Seymində sonrakı mövqeyimiz məsələsini nəzərdən keçirək.



## 8-ci iclas. 20 fevral 1918

Ölkədə hakimiyyətin təşkili məsələsini ilk növbədə bizim Zaqafqaziya Seyminə münasibətimiz baxımından nəzərdən keçirmək lazımdır. Bu seym əsl qanuni orqan, yəni parlamentdir, yoxsa Məclisi-Müəssisan? Bizim fikrimizcə, Zaqafqaziya Seymi Məclisi-Müəssisandır və bir Məclisi-Müəssisan kimi o, ilk növbədə öz səlahiyyətini, hansı məsələləri həll etməyə ixtiyarı olduğunu müəyyənləşdirməlidir. Deməli, öncə Zaqafqaziya Seyminin səlahiyyətini müəyyənləşdirmək lazımdır, necə ki səlahiyyət müəyyənləşdirilməyib, Zaqafqaziyada qəti qaydada təşkil edilməli olan hakimiyyət formasını qəti qaydada qurmağa imkan olmayacaq. Əlbəttə, Məclisi-Müəssisan əsas məsələlərin həlli ilə, Zaqafqaziya Konstitusiyasını, federasiyanı hazırlamaqla, ayrı-ayrı ərazi vahidlərinin funksiyalarını müəyyənləşdirməklə məşğul olduğu müddətdə də Zaqafqaziya idarə edilməlidir. Deməli, indi təşkil edilməli olan hakimiyyət müvəqqəti xarakterdə olacaq. Əsl hakimiyyət gələcəkdə yaradılıcaq. İndi bizim yaratdığımız hakimiyyət Müvəqqəti Hökumət xarakteri daşımalıdır. Müvəqqəti Hökumətin tərkibinə, məqsəd və vəzifələri məsələsinə toxunmuram. “Bu hökumət anarxiya ilə mübarizə aparmalıdır, yol çəkməli, ərzaq təminatı ilə məşğul olmalıdır” deməklə onun funksiyalarını müəyyənləşdirmək istəmirəm. Bunlar məlum məsələlərdir. Hakimiyyətin başlıca funksiyası anarxiyaya qarşı mübarizə aparmaqdır. Bu cür ümumi məsələləri xüsusi vurğulamağa ehtiyac yoxdur. Aydındır ki, hakimiyyət bir demokratiya orqanı kimi demokratiyanın xeyirinə işləyəcək. Bu barədə söhbət gedə bilməz. Bu hakimiyyəti, bu icra orqanını kim tərtib etməlidir? Haqqında söhbət gedəcək vəziyyətin biz mahiyyətini anlamalıyıq. Mərkəzi ölkə hakimiyyətininin əsasını federativ hakimiyyət təşkil edir, deməli, biz bütün Zaqafqaziya xalqları federasiyasının əsaslarının mahiyyətini nəzərə almalıyıq. Hakimiyyət koalisiyalı olmalıdır və Zaqafqaziya xalqlarının hamısının federasiyasını və koordinasiyasını təmin edə biləcək bütün digər elementlər bu koalisiyaya daxil edilməlidir. Buna görə də Məclisi-Müəssisa-

nımızın səlahiyyətlərini müəyyənləşdirəndən sonra biz əsas partiyaları birləşdirəcək ümumi dil, ümumi düstur əldə edəcəyik. Bu bizə hakimiyyəti və onun tərkibini təşkil etməyə imkan verən yolu göstərəcək. Bax bu mövqedə dayanmaqla biz menşeviklər partiyasından olan nümayəndələrin burada irəli sürdükləri bəzi müddəalara münasibət bildirməliyik. Sülh və 1914-cü ildəki sərhəd Zaqafqaziya Seyminin və Zaqafqaziya hakimiyyətinin ən əsas mövcudluq bazası olmalıdır. Şübhəsiz, demokratik sülhün və 1914-cü il sərhədinin düsturlaşdırılması bizim siyasətimizin təməl daşı olmalıdır. Bir məsələni də vurğulamağı lazım bilirəm ki, bu düstura demokratik sülhün həqiqi anlamı daxil edilməlidir. Eləcə də aqrar məsələ mümkün qədər tez həllini tapmalı, bütün torpaqlar dərhal əməkçi xalqa verilməlidir. Zənnimcə, bu məsələdə Seymdəki ən əsas partiyalar arasında fikir ayrılığı olmayacaq. Zaqafqaziya xalqları arasında federativ həmrəylik həyatı yarada biləcək bir hakimiyyət qurmaq istəyiriksə, ilk növbədə mövqeyimiz belə olmalıdır ki, bizim Seym, bir Məclisi-Müəssisan kimi, öz səlahiyyətini müəyyənləşdirsin. O, səlahiyyətini müəyyənləşdirəndən və Məclisi-Müəssisan tərəfindən tanındıqdan sonra bizim həmrəy işləmək, ölkə hakimiyyəti təşkil etmək imkanımız olacaq. Hələliksə koalisiyalı və müvəqqəti olmalıdır (*Müsavat fraksiyasının skamyalarından alqışlar*).

... Zaqafqaziya Seyminin üzvü olan vətəndaşlar. Bəyannaməmizdən məlumdur ki, biz Zaqafqaziya Seyminə Məclisi-Müəssisan kimi, Seymin təşkil etdiyi hökumətə isə müvəqqəti hökumət kimi baxırıq. Zaqafqaziya Məclisi-Müəssisanı və müvəqqəti hökumət Zaqafqaziya konstitusiyasının əsaslarını və demokratik təminatları elə hazırlamalıdır ki, Zaqafqaziya xalqlarının həmrəy mövcudluğu mümkün olsun. Biz bu mövqedə dayanaraq hökumətin bu yöndə atacağı addımları var gücümüzlə dəstəkləyəcəyik. Şübhəsiz, Zaqafqaziyanın gələcək quruluşunun əsas dayaqlarını işləyib hazırlamalı, qurmalı və qorumalı olan müvəqqəti hökumət və Zaqafqaziya Seymi ilk növbədə azad Zaqafqaziyanın bütövlüyünün keşiyində dayanmalıdır. Bu nöqteyi-nəzərdən Zaqafqaziyanın bütün xalqları, Zaqafqaziya Seyminə daxil olan bütün partiyalar, o cümlədən Müsavat partiyası, göstərilən məqsədlərə çatmaq üçün Hökumətin atacağı bütün addımları dəstəkləyəcək. Bu mənada Zaqafqaziya xalqları bir nəfər kimi Zaqafqaziyanın azad müstəqil dövlətçiliyini təhdid edən bütün təhlükələri dəf etməyə hazırdırlar. İndi azad Zaqafqaziyanı daha çox xarici təhlükə narahat edir, lakin Zaqafqaziyanın müstəqilliyinin itirilməsi təhlükəsi təkcə xaricdən gəlmir. Zaqafqaziya Seyminin məsul fraksiyalarının bəyannaməsində ifadə olunub ki, şimalda siyasi vəziyyət irticaya gətirib çıxardarsa, onda biz bu qara irticaya qarşı mübarizə aparmağa məcbur olacağıq. Bu da Zaqafqaziya üçün xarici təhlükədir. Buna görə də bütün Zaqafqaziya xalqları səslərini ucaldaraq və Zaqafqaziyanın müdafiəsinə qalxaraq öz daxili psixikalarını kökündən dəyişməlidirlər. Daxili psixikanın bu cür dəyişməsi öz ifadəsini bunda tapmalıdır ki, biz "xarici təhlükə" deyəndə həm cənubu, həm də şimalı nəzərdə tuturuq. Biz xarici təhlükəyə bu yöndən yanaşmasaq, Zaqafqaziyanı müstəqil, vahid, azad, bütöv dövlət kimi təsəvvür etməsək, bu vəziyyət müdafiəmizin obyektinə çevrilməsə, gözlərimizi naməlum nöqtəyə zilləyərək xarici təhlükəni şərti olaraq qəbul etsək, mən belə düşünürəm ki, onda Zaqafqaziyadakı xalqların birliyinə və həmrəyliyinə nail ola bilməyəcəyik. Hökumətin bəyannaməsinə bu nöqteyi-nəzərdən yanaşanda biz tam əmin oluruq ki, həm müvəqqəti hökumət, həm də Zaqafqaziya Seymi öz məsul partiyalarının şəxsində Zaqafqaziyanın müstəqilliyini hər cür xarici təhlükədən birlikdə qoruyacaqlar. Əlimizdə belə yekdil həmrəylik qərarı və müstəqil, azad, vahid Zaqafqaziya olduğu təqdirdə biz bütün Zaqafqaziya xalqlarının onun müdafiəsinə qalxacağına təminat verə bilərik. Biz düşünürük ki, inqilabın Zaqafqaziya xalqlarının sərbəst inkişafını, əhalimizin demokratik təbəqələrinin hüquqlarını təmin edən bütün nailiyyətlərini mövcud şəraitdə, azad Zaqafqaziyanın olduğu bir durumda qoruyb saxlamaq mümkündür. Bu bizim siyasətimizin alfası və omeqası olmalıdır. Hökumət bəyannaməsini bu baxımdan nəzərdən keçirərək və hökumətin məhz bu yolla gedəcəyinə, Zaqafqaziyanın demokratik hüquqlarının qorunmasını bu yolda görəcəyinə inanaraq biz təşkil edilən hökuməti qətiyyətlə dəstəkləyəcəyimizi bəyan edirik.

## "Müsavat"da Rəsulzadənin istefası yalandır.

Son günlərdə "Müsavat" nümayəndələrindən Məhəmməd Əmin Rəsulzadə cənablarının Zaqafqasiya Seymindən istefa verdigi həqqində bir xəbər çıxmışdır. Aldığımız mövsuq (mötəbər) və mühəqqəq xəbərlərə görə Məhəmməd Əmin əfəndi hal-hazırda sülh murəxxəslərilə bərabər Trabzondadır və Seym əzalığından istefa verməmişdir.

**"Açıq söz",**
**13 mart 1918, №700**



## 18-ci iclas. 17 mart 1918

Sadaxlı hadisələrinin yolverilməz olması, Seymdəki bütün fraksiyaların bunu eyni dərəcədə pisləyəcəyi ilə bağlı iki fikir ola bilməz, amma bu, ilk belə hadisə deyil. Bu, çoxsaylı hadisələrdən biridir, onların haqqında burada xeyli danışılıb. Deyilib ki, bunlar bu və ya digər partiyaların ümumi siyasətinin əlahiddə təzahürləridir. Menşeviklər partiyasının möhtərəm nümayəndəsi, hörmətli Sereteli öz nitqində sinfi maksimalizmdən bəhs edərək bildirdi ki, Rusiyadakı maksimalizm Rusiyanın süqutuna səbəb oldu, milli maksimalizm isə Zaqafqaziyanı çökdürəcək. Milli maksimalizmdən danışarkən o, Müsavat partiyasını və müsəlman millətini də suçlandırdı. Deməliyəm ki, bu irad yersizdir, çünki müsəlman maksimalizminin nədən ibarət olduğu bilinmir. Axı burada bizə deyirlər ki, mütəşəkkil qırmızı qvardiya erməniliyindən, gürcülüyündən, müsəlmanlığından asılı olmayaraq bütün cinayətkarları, bütün xalq düşmənlərini eyni dərəcədə cəzalandırır. Burada bizə deyirlər ki, erməni hərbi hissələrinə, erməni qoşunlarına cəbhənin köməyinə getməyə imkan vermirlər. Göstərirlər ki, bu, başlıca olaraq Zaqafqaziyanın müsəlmanlar yaşayan yerlərində baş verir; bu yerlərdəki anarxiya nəticəsində vətən müdafiəçilərini Zaqafqaziyamızın sərhədlərini qorumaq üçün göndərməyə imkan vermirlər. Bütün bunlardan danışarkən mən bilmək istərdim: müsəlmanların aqressiv maksimalizmi nədən ibarətdir, bu millətçilik hansı üstünlüklərlə, hansı vasitələrlə silahlanıb, onun hansı maksimal tələbləri yerinə yetirilib? Elə bir yerdə maksimalizmdən danışmaq olarmı ki, milis yaratmaq üçün dəfələrlə bu mərkəzi hökumətə müraciət olunub, hər dəfə də cavab veriblər ki, silah yoxdur. Axı düz bir ay Bakı quberniya komissarlığı nümayəndələrinin döymədiyi qapı qalmayıb, bu günə qədər 500 vintovka ala bilmirlər ki, quberniyada qayda-qanun yaratsınlar. Müsəlman hissələri belə vəziyyətdədir, halbuki milli maksimalizmə yoluxmamış kimi görünən partiyalar öz tələblərinin maksimum ödənməsinə imkan qazanıblar. İttiham olunan müsəlman maksimalizminin isə yerlərdə

qayda-qanunu qorumaq üçün tələb olunan şeylərin heç minimumunu da almaq imkanı olmayıb. Bir tərəfdən belə bir vəziyyətin, digər tərəfdən Daşnaksütyun partiyasının nümayəndəsinin bu kürsüdən müdafiə edərək bəraət qazandırdığı vəziyyətlə bağlı mən bəyan etməliyəm ki, Zaqafqaziya xalqlarının qarşılıqlı münasibətlərini və həmrəyliyini ayrı-ayrı təsadüfi hadisələrdən, fakt və olaylardan asılı vəziyyətə salmaq olmaz, burada ümumi böyük siyasət diqqətdə saxlanılmalıdır. Məsələyə bu nöqteyi-nəzərdən, yəni böyük siyasət nöqteyi-nəzərindən yanaşdıqda bəzi milli dairələrin nə ilə məşğul olduqlarını görmək lazımdır. Sizcə, kütlələrin psixikasına təsir edən bu siyasət deyilmi? Fərqi yoxdur, ya burada, Zaqafqaziyada, ya da onun hüdudlarından kənarda törədilən kütləvi zorakılıq, istər sərhədlərin qorunması adı ilə məlum hissələrin bu kütləvi çıxışlardakı özbaşına hərəkətləri, istər 1914-cü ildə rus imperializminin avanqardı şəklində olmuş, istərsə də kimin döyüşüb – kimin döyüşmədiyi bilinməyən indiki məqamda baş verən qırğınlar kütlələrin psixologiyasına məlum psixi təsir göstərir. Bu təsir hər cür asayiş pozuntuları və kədərli olaylar doğura bilər. Biz ayrı-ayrı halların, ayrı-ayrı fakt və hadisələrin şahidi oluruqsa, deməli, bunların dərin psixoloji kökləri var. Burada bizim qarşımızda müəyyən konkret faktlar və bu konkret faktlarda iki cinayət, iki cinayət faktı görürük. Bir fakt – hakimiyyət nümayəndələrinə cinayətkarcasına hücum və onların sərhədlərin müdafiəsi üçün nəzərdə tutulmuş silahlarının alınması. Bu cinayətə görə cəzanı qanuni hakimiyyət qüvvələri verir. Bunun üçün qırmızı qvardiya var, başqa sözlə, hakimiyyət orqanları bu cinayətə görə cəza tətbiq edir. Bu hücumda, bu cinayətdə təşkilatçı əli olduğu müəyyənləşərsə, hökumətin borcu, biz bunu tələb edirik, həmin cinayətkarı da tapmaq, qanunun bütün şiddəti ilə qəti bir şəkildə cəzalandırmaqdır, belə hallarda heç bir rəhmdillikdən söhbət gedə bilməz (*Səslər*: "doğrudur"). Bununla belə, burada bütün mümkün faktlardan, bütün mümkün hadisələrdən danışarkən və onları birtərəfli qaydada işıqlandırarkən bizim uzaq illərə və aylara getməyimiz, daha qatı cinayətin, yəni heç nəyə



qarışmayan, müsəlmanların məskunlaşdığı kəndlərin qarət və məhv etmək cinayətinin məğzini zəiflətmək üçün "Orada filan şey olmuşdu, burada filan hadisə baş vermişdi" deməyimiz lazım deyil (*Səslər*: "doğrudur"). Verilmiş konkret sualı konkret cavablandırmaq əvəzinə siz o tərəf – bu tərəfə vurnuxur, konkret faktdan deyil, tamam ayrı şeydən danışırsınız. Sadaxlıdan danışın. Bu və ya başqa cinayətləri kimin icazəsi ilə edirsiniz, başıaşağı, heç bir suçu olmayan kəndləri kimin icazəsi ilə çapıb talayırsınız? Özbaşına bu cür cinayətlər törədən qoşun hissələri var, hökumət bu qoşun hissələrinin ipini yığmaq iqtidarında deyil, onları ciddi intizama tabe etdirmək iqtidarında deyil, onların yalnız bir hökumətə qulaq asaraq heç bir şuluqluq etməməsinə nail olmaq iqtidarında deyil. Neçə ki vəziyyət belədir, müntəzəm olaraq bu qoşun hissələrinin özbaşınalığına məruz qalan kütlələrin də özbaşına iğtişaşlar törətməyəciyinə zəmanət vermək olmaz. Bir neçə söz də Seymin bəzi fraksiyalarına göstərilən, mənim zənnimcə, qeyri-məntiqi münasibət barədə demək istəyirəm. Biz – xalqın seçmiş olduğu Zaqafqaziya Seyminin üzvləri, müxtəlif partiyaların nümayəndələri vahid hökumət təşkil etmişik, ona tam etimad rəyi vermişik; bizim etimadımızla təmin olunmuş bu hökumət bütün bu hallarda öz hakimiyyətindən istifadə etməli, həm indiki, həm də sonrakı hallarda hökumət kimi hərəkət etməlidir. Bu hökumət ixtiyarında olan qüvvələrin, istər qırmızı qvardiyanın, istər hər hansı bir qoşun hissəsinin, yaxud icbari aparatın bir hissəsinin vasitəsi ilə qayda-qanunu bərpa edərkən burada özünü bizə müəyyən məlum partiyanın müəyyən qüvvəsi kimi təqdim etməməlidir, bizə – həmrəy şəkildə fəaliyyət göstərən xalq nümayəndələrinə, müxtəlif fraksiyalara hökuməti necə dəstəkləmək, demokratiyanı necə qorumaq barədə öyüd vermək, hökuməti yalnız bir fraksiyanın müdafiə etdiyini, digər milli fraksiyaların və milli partiyaların filan işləri görməli olduğunu söyləmək lazım deyil. Mənim fikrimcə, burada demokratiyanı, kəndliləri hamı eyni dərəcədə müdafiə edir (*Səslər*: "doğrudur", "düzdür"). Demokratiyanın və kəndlilərin mənafeyi menşeviklər fraksi-

yasının nümayəndələrinə nə qədər əzizdirsə, mənə də o qədər əzizdir; Seymə elə baxmaq olmaz ki, guya burada demokratiya nümayəndələri yalnız menşeviklərdir, qalan fraksiyalar isə bütün bu hərəkətlərdə müqəssirdir və başqa fraksiyalar qarşısında məsulyyət daşıyırlar. Seymin işinə həmrəyliyi poza biləcək belə ton vermək olmaz (*Səs:* "Siz düz başa düşməmisiniz"). Mənim fikrim belədir ki, ictimai işə razılıq vermiş və Müvəqqəti Zaqafqaziya hökumətini (*Səs:* "müvəqqəti niyə, daimi") irəli sürmüş hər bir fraksiya bütün digər fraksiyalarla bahəm bu hökumətin bütün addımlarını dəstəkləyəcək və indiki halda onun gördüyü tədbirə bənzər bütün tədbirləri alqışlayacaq. Buna görə "Qayda-qanun naminə yalnız bir fraksiya mübarizə aparır" fikrini xüsusi vurğulamağa ehtiyac yoxdur. Məsələni belə qoymaq olmaz. Məsələ o vaxt belə qoyula bilər ki, hökuməti yalnız bir fraksiya təşkil etmiş olsun və o, bütün məsuliyyəti öz üzərinə götürsün. Hələ belə bir şey yoxdur, hələ hökuməti bütün fraksiyalar birlikdə təşkil edirlər və hökumət Seymdəki bütün fraksiyaları təmsil edir, bu fraksiyalar bu hökumətin atdığı addımlarla eyni dərəcədə maraqlanırlar və bu hökumətin demokratiyanın müdafiəsinə yönəlmiş hər bir addımı müsəlmanlar partiyasına da əzizdir, bu partiya hökumətin bu yöndə hər bir addımını alqışlayır (*Səslər*: "doğrudur")...

... Mən şəxsi məsələyə görə söz almışam, lakin fürsətdən istifadə edib buradakı bəzi həmlələrdən danışacağam. Menşeviklər fraksiyasının nümayəndəsi elə tonda danışır ki, elə bil başqa fraksiyaların buradakı skamyalarda oturmuş nümayəndələri, daxili işlər nazirinin dediyi kimi, məhkəmə skamyasında əyləşiblər. Mən cavab nitqinə məlum münasibətimi bildirdim və dedim ki, hökumət başçısına məlum fraksiyanın təmsilçisi kimi baxıram.

Natiqə diqqətlə qulaq asılsa, belə səhvə yol verilməyə bilər. Burada tez-tez deyirlər ki, siz səhvə, cinayətə yol verirsiniz, ola bilər ki, siz çox səmimisiniz, vicdanlısınız, lakin sizin siyasətiniz anarxiyaya aparır. Burada deyildi ki, bizim və Zaqafqaziya Seyminin başının üstündən bütün demokratiyaya elan edilsin ki, onların siyasəti yeganə nicatverici siyasətdir, başqalarının arxasınca getməyin. Siz guya hər bir milli ixtilafdan kənar olan öz sosial-demokratiya siyasətiniz haqqında danışmağı bu qədər sevirsinizsə, onda icazə verin bildirim ki, bu beynəlmiləl siyasətin nələri gizlətməsi yetərincə bəllidir. Burada nədən danışaq ki? Burada Rusiya irsinin bölüşdürülməsindən danışmağa dəyməz. Hökumət nümayəndəsi bunu heç bir dəlil-sübut olmadan təkzib etdi, əslində isə bunu rəqəmlərlə təkzib etmək daha yaxşı olardı: hansı millət nə qədər silah alıb. Bu halda biz bunun həqiqətə nə qədər uyğun gəldiyini görərdik (*Alqışlar*).

## 19-cu iclas. 20 mart 1918

Seym üzvü olan vətəndaşlar. Bakı şəhərində Müsavat partiyasının bolşevikləri dəstəkləməsi ilə bağlı bir qədər izahat verməliyəm. Bu məsələnin, göründüyü kimi, öz tarixi var. Bizim nümayəndələrin bir neçə dəfə bu tribunadan bildirdikləri kimi, Bakı quberniyasının təşkili, milisin, silah-sursatın təşkili və s. baxımından Bakı şəhəri, qismən də Bakı quberniyası Tiflisdən heç vaxt lütfkarlıq görməmişdir. Belə sırf spesifik, əlahiddə şəraitə görə Bakı böyük qarnizon məntəqəsi kimi həmişə bolşeviklərin, yaxud bolşevik ovqatlı şəxslərin tərəfində olub və ona görə bu siyasəti dəstəkləmək məcburiyyətində qalıb ki, bütün Zaqafqaziyada qanlı əks-səda doğura biləcək asayiş pozuntularına məruz qalmasın. Bolşeviklərin öz əsgər kütlələri ilə təkcə Bakı üçün deyil, həm də bütün Zaqafqaziya üçün təhlükəli olduğu bir vaxtda, hətta bolşeviklərin qatı düşməni olan partiyaların da bu və ya başqa taktiki gedişlər etdiyi bir zamanda Müsavat partiyası belə bir taktiki mülahizədən çıxış edərək məlum taktiki üsullardan bəhrələnmək zorunda idi. Sizin çoxunuza yəqin bəllidir ki, Fəhlə və Əsgər Deputatları Sovetinə ilk seçki zamanı təkrar seçki təyin olundu və bu seçki dördhədli düstur əsasında – ümumi, bərabər, gizli, birbaşa – keçirildi; o vaxt Müsavat partiyası səs çoxluğu qazana bilmədi. Belə bir vəziyyətdə "Genişləndirilmiş Şura" deyilən qurum müsəlman demokratiyasını təcrid etmək üçün hər cür tədbirə əl atırdı. Bu özünü onda göstərdi ki, onlar "yerlərdən seçim" deyilən ayrıca seçki texnikası işlətməklə demokratik seçki üsulunu ləğv etdilər, bununla da Bakıdakı fəhlə kütləsinin əsasən müsəlmanlardan ibarət hissəsi seçkidən kənarda qaldı. Bu belə olurdu: seçki zavodlardan, yəni "yerlərdən" təyin edilirdi. Siz bilirsiniz ki, müsəlman kütləsi, müsəlman fəhlələr başlıca olaraq şaxtada işləyirlər. Onların arasında zavodlarda çalışan azdır və bu cür seçki üsulunda ən çox müsəlmanlar uduzdu. Bundan əlavə, burada belə bir texniki özəllik də var: yığıncaq zavodda keçirilir, boşboğaz bir natiq gəlib anlaşılmaz rus dilində danışır, yığıncaq 2 saat davam edir,



dili başa düşməyən fəhləni seçkiqabağı yığıncaqların sonunadək heç bir qüvvə ilə saxlamaq olmur. Beləliklə, xüsusi bir obstruksiya (şuluqluq salmaqla iclasın qəsdən pozulması) qurulur, orada yalnız dili yaxşı bilən, seçkidə marağı olan, müzakirələrdə iştirak edən fəhlələr və partiya adamları qalır. Nəticədə sol eserlər və bolşeviklər seçkidə qalib gəlirlər. Müsəlman fəhlələr və Müsavat partiyası bu cür qeyri-demokratik seçkiyə etiraz etsələr də, heç bir digər partiya onların etirazına qoşulmadı, Müsavat partiyası və müsəlman fəhlələr tək qaldılar, etiraz etsək də, bolşeviklərin ideyasını müdafiə etmədən, onlara rəğbət bəsləmədən başqa millətlərdən olan fəhlələrlə münaqişə yaratmamaq üçün sovetə daxil olmağı, fəhlə və əsgər deputatları sovetinin ideyasını dəstəkləməyi lazım bildik. İkinci seçkidən sonra Müsavat partiyasının və müsəlman demokratiyasının nümayəndələri bu cür eybəcər seçki forması nəticəsində xeyli azlıqda qaldılar, birinci seçkidə sovetin tərkibinin 60 faizini təşkil etdikləri halda, bolşeviklərin keçirdikləri ikinci seçkidə cəmi 15 faiz səs topladılar. Müsavat partiyası bu 15 faiz səslə Sovetin işinin gedişinə heç bir təsir göstərməyə qadir deyildi və bu halda bolşevizmin dəstəklənməsindən söhbət də gedə bilməzdi. Üstəlik də Müsavat partiyası özünün Fəhlə və Əsgər Deputatları Sovetindəki bəyanatında bu çatışmazlığı Sovetin nəzərinə çatdıraraq göstərmişdi ki, bu Sovet fəhlə kütləsinin nüfuzlu bir təşkilatına çevrilmək iddiasında bulunan orqanı ola bilməz; Sovetdə müsəlman kəndlilərin nümayəndələri yox idi, halbuki o, "Fəhlə, Əsgər və Kəndli Deputatları Soveti" adlanır. Nəticədə həmin Sovet özlərinə bərabər sayda nümayəndəlik tələb edən matroslara və əsgərlərə güzəştə getdi. Fəhlələrin hər 300 nəfərə 1 nümayəndəsi vardı, əsgərlər isə tələb edirdilər ki, hər 100 nəfərə 1 nümayəndə olsun. Menşeviklər partiyasının və eserlərin Sovetdəki nümayəndələri də bunun normal olmadığını bildirmişdilər. Sovet bu məsələni müzakirə edərək belə anormallığa yol verməmək, əsgər nümayəndələri ilə fəhlə nümayəndələrinin sayını bərabərləşdirmək, yəni 300 nümayəndə yerindən birini əsgərə vermək qərarına gəldi. Bundan sonra matroslardan biri hərbi seksiya adından qəti

surətdə bəyan etdi ki, bu halda hərbi seksiya Soveti tərk edəcək. Bu tələb qarşısında qalan Sovet güzəştə gedərək öz qərarını geri götürdü. Müsavat partiyası buna etiraz etdi. Menşeviklər fraksiyası istisna olmaqla yerdə qalan bütün fraksiyalar bunu normal hesab etdilər və bu güzəşti məqsədəuyğun saydılar. Əsas fraksiyaların bu cür münasibəti və çoxluğun belə, necə deyərlər, "demokratik" taktikası, güc qarşısında belə mütilik müqabilində Sovetlərin hakimiyyətini tanımadıqlarına baxmayaraq başqa partiyaların və təşkilatların hamısının fikri qəti olduğu üçün Sovetin cəmi 15 faizini təşkil edən Müsavat fraksiyası buna qarşı çıxsaydı belə, bolşeviklərə qarşı heç nə edə və bu riskə gedə bilməzdi. Məclisi-Müəssisanı bombalarla, pulemyotlarla və toplarla müdafiə etməyə hazır olduqlarını bildirən Mərkəzlər, bununla belə, bolşeviklərin Bakıdakı hakimiyyətini tanıdılar – biz sovetlərin siyasəti əleyhinə getsəydik, bu, toqquşmaya səbəb olardı, belə toqquşma isə dərhal millətlərarası toqquşmaya çevrilər və mövcud zaman şəraitində bütün Zaqafqaziyanı alova bürüyərdi. Biz bu yanğını törətmək istəmədik və Müsavat partiyasının bütün obyektiv tənqidçiləri bu taktikaya qiymət verərkən o halda haqlı olacaqlar ki, təsdiq etsinlər: belə siyasi şəraitdə Müsavat partiyası başqa taktika seçə bilməzdi. Son dövrə gəlincə, Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin məşhur qətnaməsi sizə artıq məlumdur, o qətnamə ki, orada Zaqafqaziya Seyminə qəti müharibə elan olunmuşdu, o qətnamə ki, orada Tiflisə hazır yürüş tələb edilir və bu qətnaməni xırda bir qeydlə imzalamışdılar ki, Daşnaksütyun partiyası da sovet hakimiyyətini qəbul etmir. Daşnaksütyun partiyasının nümayəndələri indi də deyirlər ki, bolşeviklərin qoşun hissələri bu Bakı toqquşmalarında iştirak edirlər. Bu qoşun hissələri erməni hissələrindən, erməni əsgərlərindən başqa bir şey deyildi. Daşnaksütyun partiyası onlara çox böyük təsir gücünə malikdir və onları bu riskli addımdan çəkindirə bilərdi. Amma necə çəkindirə bilərdi ki, bu partiya bolşeviklərlə birlikdə Zaqafqaziya Seyminə və Zaqafqaziya Komissarlığına qarşı müharibə elan edib. Mən bu kürsüdən çıxış edərək hökumət bəyannaməsi haqqında danışanda demişdim



ki, Zaqafqaziyanın müstəqilliyinə təhlükə təkcə cənubdan deyil, həm də şimaldan gəlir. Bəzi qəzetlər bu sözləri yersiz hesab etmişdi. Yazmışdılar ki, indi təhlükə cənubdandır, hələ olmayan təhlükədən danışmaq nəyə lazımdır. Əslində Zaqafqaziyaya təhlükə bilavasitə şimaldandır, onlar bizim üstümüzə atəşlə, qılıncla gəlirlər. Zaqafqaziya Hökuməti, Zaqafqaziya Seymi bu məqamla hesablaşmırsa, Müsəlman sosialist blokunun buradan tələb etdiyi qəti addımları atmayacaqsa, onda yadda saxlayın ki, biz burada oturub müstəqil olaraq həmrəy iş görə bilməyəcəyik. Müstəqil, həmrəy həyatımızı yarımçıq qoya biləcək bolşeviklərə qarşı, şimaldan basqıya qarşı bütün tədbirləri görməklə mübarizə aparmaq lazımır. Biz bu işə həmrəyliklə qoşulmasaq, heç bir həmrəylik, Zaqafqaziya üçün heç bir xoşbəxtlik mümkün olmayacaq.

# 22-ci iclas. 09 aprel 1918

Zaqafqaziya Seyminin üzvü olan vətəndaşlar. Zaqafqaziya xalqları uzun müddət despotizm zülmü altında bu despotizmə qarşı birgə, həmrəy mübarizə apararaq ümumi arzu və ideallara malik olublar. Və bu ümumi arzu və ideallar ondan ibarət olub ki, despotik Rusiya azad Rusiyaya çevrilsin, azad Rusiyada milliyyətindən, dinindən asılı olmayaraq bütün xalqlar özlərini bərabərhüquqlu hiss etsinlər, onlara ögey ananın fərqli münasibəti bəslənilməsin. Birgə mübarizə apararaq və uzun müddət bu böyük günü gözləyərək onlar Böyük Rusiya inqilabının şahidi oldular və bu inqilab Rusiyanın bütün xalqlarına çoxdan gözlənilən azadlıq gətirməli idi. Bu inqilab bütün zalqlarım əməkçi kütlələrini əsrlik zülmdən qurtarmalı idi. Rusiya xalqları ürəklərində bəslədikləri arzulara yenicə yaxınlaşmışdılar ki, Rusiyada dəhşətli bir möcüzə baş verdi, lakin bu dəhşətli möcüzə bütün xalqları, Rusiyanı azad, demokratik ölkə kimi görmək istəyən hər kəsi məyus etdi. Bizim azadlığımız, bizim demokratik ideallarımız, təəssüf ki, eybəcər görkəm aldı, çoxmillətli Rusiyanın bütün xalqları öz talelərini Rusiya ilə birlikdə həll etmək istədikləri bir vaxtda bu Rusiya və Rusiya demokratiyası elə vəziyyətə düşdü ki, demokratiya prinsipləri və idealları arzulanan sanksiyanı ala bilmədi, azadlıq əvəzinə Rusiyada biz anarxiya və bərbadlıq görürük. İnqilabın bütün xalqlara öz müqəddəratını azad şəkildə təyin etmək hüququ vəd edən böyük şüarları öz müqəddəratını Mərkəzin əmri və tapşırığı ilə təyinetmə şüarına çevrildi. Bu təyinetmə formasını dəyişərək öz müqəddəratını təyin edən millətlərin hamısını əzməyə, cəzalandırmağa başladı.

Azadlıq elan etdilər, amma bu azadlıq nəticə etibarilə özlərini "demokrat" adlandıran istismarçıların əlinə keçərək əsarət formasını aldı. Rusiya daxilində millətlərarası münasibətlər belə eybəcər formaya düşəndə, təəssüf ki, əlimiz hər yerdən üzüldü. Nə həqiqi vətəndaş azadlığı, nə də həqiqi demokratik prinsiplər qazana bildik. Yerli xalqların hüquqları despotların vaxtında



olduğundan da çox tapdandı. Zaqafqaziya xalqları bax belə faktlar, belə gerçəklik qarşısında qaldılar, halbuki onlar Mərkəzdən fərqli olaraq, nəyin bahasına olur-olsun, yeni böyük demokratik Rusiya yaratmaq istəyirdilər; məqsədlərinə çata bilmədilər və həmin böyük demokratik Rusiya onların əvəzinə sülh müqaviləsi bağladı; onların əvəzinə sülh müqaviləsi bağladı və təəssüf ki, onları istinadgahlardan məhrum etdi, müəyyən ərazilərdən məhrum etdi, Karsdan, Ardahandan və Batumdan məhrum etdi. Elə vəziyyət yarandı ki, zərurətə görə, rus dövlətçiliyinin inkişafına görə bir-birinə Mərkəzin bağlandığı qədər bağlana bilməyən Rusiya xalqları şimalda anarxiyanın və zülmət qaranlığın tüğyan etdiyi, bunun nə ilə bitəcəyinin bilinmədiyi bir vaxtda başlı-başına buraxıldılar. Bizim qarşımızda böyük bir təhlükə durur ki, anarxiya mərkəziyyətçi Rusiya formasını ala bilər və demokratiya prinsipləri deyil, imperializm prinsipləri qələbə çala bilər (*yerdən səslər*: "heç vaxt"). Digər tərəfdən, görürük ki, bundan sonra da bu vəziyyətə dözsək, bizim üstümüzə gələn şimal imperializmi Zaqafqaziya demokratiyasının sıralarına qarışıqlıq gətirər, eyni zamanda cənubdan gözlənilən yürüş – türkiyəlilərin yürüşü də bizim sıralarımızı parçalaya bilər. Bu parçalanma Zaqafqaziya demokratiyasının məhvi deməkdir. Zaqafqaziya demokratiyası özünü müdafiə etməlidir; inqilabın bütün nailiyyətlərini qoruyub saxlamalıdır; Zaqafqaziya demokratiyası böyük Rusiya inqilabının nemətlərindən, böyük demokratik prinsiplərdən bəhrələnməli, bu nailiyyətləri bizə yalnız irtica gətirən Rusiyaya qurban verməməlidir (*səslər*: "doğrudur"). Zaqafqaziya müstəqil olmalıdır (*səslər*: "doğrudur"). Bu müstəqillik zərurətə çevrilir. Dostcasına yaşamaq üçün, Zaqafqaziya xalqlarının həmrəy yaşaya bilməsi, inqilabın verdiyi azadlıq nemətlərindən istifadə edə bilməsi üçün müstəqillik elan etmək lazımdır. Zaqafqaziya yalnız doğuşla müqayisə edilə biləcək bir vəziyyətdədir. Zaqafqaziya doğuşun bütün əzablarını yaşayır, Zaqafqaziya doğur və buna görə də biz bu əzablardan qorxmamalıyıq. Körpənin – Zaqafqaziyanın sağlamlığı üçün Zaqafqaziyanın müstəqilliyini qorxudan deyil, vicdanla qəbul etmək la-

zımdır. Biz müstəqilliyimizi qorxudan deyil, vicdanla elan etsək, ümidvaram ki, bu müstəqillik Zaqafqaziya xalqlarını birləşdirən ən yaxşı lehim olacaq və dostcasına birgə iş, dostcasına birgə yaşayış şəraitində Zaqafqaziya demokratiyası ona öz azadlığını hər cür qəsddən qorumaq üçün qüvvət və enerji verən nemətlər əldə edəcəkdir. Təəssüf etməli oluruq ki, Zaqafqaziyanın müstəqilliyi Batumun, Ardahanın və Karsın əlimizdən çıxmış olduğu bir vaxtda elan edilir. Lakin məndə dərin bir əminlik var ki, səmimiyyət olarsa, Zaqafqaziyanın müstəqilliyini qorxudan deyil, vicdanla qəbul etsək, Zaqafqaziya demokratiyasının azad inkişafına verilən zəmanətlə biz bu itkilərin yerini doldura bilərik (*Alqışlar*)...

... Zaqafqaziya Seyminin üzvü olan vətəndaşlar. Mən Zaqafqaziya Seyminin Zaqafqaziyanın müstəqilliyi əleyhinə çıxış edən üzvlərinin münasibətini nəzərə çarpdırmaq üçün ikinci dəfə söz aldım. Onlardan biri Kadetlər partiyasının və başqa bir partiyanın, onun özünü təqdim etdiyi kimi, Rusiya inqilab partiyasının nümayəndəsidir. Burada qəribə bir birləşmə, qəribə bir alyans müşahidə olunur. Bolşeviklər partiyasında Rusiyanın mövcudluğu üçün təhlükə duyaraq bolşevik Rusiyasına qarşı var gücü ilə mübarizə aparmış Kadetlər partiyası, onun Tiflis orqanına fikir vermisinizsə, görəcəksiniz ki, bu partiyanın əhval-ruhiyyəsində köklü dəyişiklik baş verib, o, bolşeviklər partiyasında Rusiyanın hansısa nicatını görür və ümid edir ki, bu partiya Böyük Rusiyanı bərpa edə biləcək yeni ordu yaradacaqdır. Bu birləşmə təəccüblüdürmü? Bolşevklərlə kadetlərin birləşməsi. Bu, səciyyəvi deyil ki? Bax burada, fikir verdinizsə, Seym üzvü Semyonov Bakı haqqında danışarkən bir qədər hədələyici poza alaraq "Siz Bakını görməyəcəksiniz", - dedi. Bəli, bizə qarşı belə hədə əvvəllər də var idi. Biz belə bir hədəni Bakıda Kadet partiyasının nümayəndəsindən eşitmişdik. O deyirdi; muxtariyyatınızı elan edin, federasiyanızı elan edin, amma Bakı, qoyun, bizə qalsın, biz Moskvadan imtina edərik, amma Bakıdan heç vaxt imtina etmərik. Bu bəyanatdan əlavə bizdə bolşeviklərin də bəyanatı vardı: "Siz muxtar federasiya haqqında düşünməyin, çünki sizin muxtariyyat tamam başqa motivlərə görə Rusiya demokratiyası və Rusiya burjuaziyası üçün qəbuledilməz olacaq və nəticədə siz muxtariyyat yox, ermənilərin, daşnaksakanların Türkiyədə əldə etdikləri kimi qalaq-qalaq xarabalıqlar əldə edəcəksiniz". Görün, bolşeviklər hansı dillə danışırdılar, indi onlar həmin hədəni icra edirlər və kadetlər partiyası bunu "öz müqəddəratını təyinetmə" adlandırır (*səs-küylü alqışlar*). Bax, bolşeviklər bizə belə bir "öz müqəddəratını təyinetmə" vəd edirdilər və kadet partiyasının nümayəndəsi də bu təyinetməni bəyənir. Mülkədar Tumanovun burada Müsavat partiyasından danışması anlaşılandır. Onun psixikası tam anlaşılandır. Özünü inqilabçı adlandırmasına baxmayaraq bu mülkədar Tumanovun içində mülkədarsayağı imperializm ehtirasları yuva qurub (*gülüşmə*) və buna görə də onlar müxtəlif bəhanələrlə öz partiyalarından asanlıqla ayrılıb kadetlər partiyasına birləşə bilərlər (*Müsavat skamyalarında səs-küylü alqışlar*). Menşeviklər fraksiyasından olan əvvəlki natiq və başqa natiqlər suallar verirdilər, - Seym üzvü Semyonov bizə nə təklif edir? Cənab Tumanov bizə nə təklif edir? Mən bu sualları sadəlövh hesab edirəm. Onların bizə nə təklif etdikləri məlum deyil bəyəm? Seym üzvü Semyonovun nitqinə diqqət etmədinizmi? Onlar sizə açıq şəkildə deyirdilər: sizin oriyentasiyanız hansıdır – özünüzə oriyentasiya? (*Semyonova müraciət edir*). Bu Sizə gülməli görünür? Siz düşünə bilmirsiniz, belə bir fikri özünüzə yaxın buraxmaq istəmirsiniz ki, xalqların müəyyən müstəqil oriyentasiyası ola bilər? (*səs-küylü alqışlar, səslər* "afərin"). İcazə verin, bildirək ki, onlar bu hüququ sizdən gözləmirlər və heç vaxt gözləməyiblər. İstərdiniz ki, biz sizdən soruşaq: siz bizə nə təklif edirsiniz? Amma soruşmuruq. Bizə nə təklif etdiyinizi bilirik. Siz bizə nə təklif edirsiniz ki, həmin vəziyyətdə qalaq. Siz hesab edirsiniz ki, bu, ən zəruri vəziyyətdir, əlbəttə, bizə yox, sizə zəruridir, çünki bu halda biz əvvəlki vəziyyətimizə qayıtmış olarıq. Sol eser, mülkədar Tumanovdan sonra kadet Semyonovun tribunada görünməsi və "Biz ağacların arxasında meşəni görmürük" deməsi simptomatikdir. Biz sol eserlərə deyəcəyik ki, biz kadetlərin gəldiyini

görürük, bu kadetlərə isə zəif Zaqafqaziya lazımdır ki, öz imperialist pəncələrini yenidən bizim üstümüzə qoysunlar. Budur onların təklifi. Onların təklifi aydındır. Onlar deyirlər ki, guya özlüyündə sizə müstəqillik lazım deyil. Bu müstəqilliyi bax oradan diktə edirlər. Bəli, bu üsullar bizə bəllidir, bu, daim "ayır, buyur" şüarı ilə hərəkət edən imperialistlərin üsullarıdır. İndi isə bizi ayırmaq istəyirlər. Onlar bir vaxtlar bunu bacarırdılar. İndi o vaxtlar keçib gedib. İndi onlar bunu bacarmırlar (*alqışlar*). Eser partiyası haqqında mülkədar Tumanov da danışdı, görünür, onlar özlərinin yeni müttəfiqlərindən nümunə götürürlər və onlar kimi ayırmaq istəyirlər. Onların başqa arqumenti yoxdur. Müstəqillik əleyhinə ağıllı heç nə demək mümkün deyil. Deməli, müstəqilliyin tərəfində duran partiyaya hücum etmək gərəkdir. İndi bu, dəbdədir.

İmperialistlərin keçmişdə dedikləri kimi desək, hansısa bir millət panislamistdirsə - bu, yaxşı deyil, demokratik dövrün dəbinə uyğun gəlmir; təqsiri müəyyən millətin yox, müəyyən partiyanın üstünə atmaq və onu "Bu, bəy partiyasıdır" deməklə hörmətdən salmaq lazımdır. Bu, demoqogiyadır, onun burada yeri olmamalıdır. Başqa bir yerdə kadet partiyası, ola bilər ki, sizə inansın, lakin siz burada öz prinsiplərinizi müdafiə edə bilmisinizsə, öz partiyanızın prinsipinə xəyanət edirsinizsə, onda belə xəyanətkarın sözünə inanmazlar. Bu, bəy partiyasıdır, yoxsa demokratik partiyadır, bu barədə onun qərarı, bəyannaməsi və s. yetərincə məlumat verir. Burada bu partiyanı siz mühakimə etməli deyilsiniz, onun irəli sürdüyü sizin ideyalar deyildir. Siz kadetlərin imperialist partiyasının arxasınca gedirsiniz. Mən Seym üzvü Semyonovun bu sözlərini xatırlatmağı lazım bilirəm: burada Zaqafqaziyanın müstəqilliyindən danışanda elə bil hər tərəfə məzar sükutu çökür, belə təəssürat yaranır ki, biz mərhumun cənazəsinin yanındayıq; bu, belə deyil, bu o ovqat deyil, indiki halda ovqatı bu cür müəyyənləşdirmək ona əl verir. Siz Seymdə çoxluğun səsinə qulaq assaydınız, görərdiniz ki, bunu görməmək mümkün deyil. Onlar ölümü görmürlər, müstəqilliyin elan olunmasından həyat gözləyirlər. Biz bu məsələyə həyəcanla



yanaşırıqsa, bu sizin cənazə yanında keçirdiyiniz həyəcan deyil. Bu, zahı qadının yanında keçirilən həyəcandır. Mən əminəm ki, biz öz çağamızın ad gününü keçirəcəyik və o məclisdə bütün azad ölkələrin, o cümlədən azad Rusiyanın da nümayəndələri iştirak edəcəklər...

... Orada bu aktı Seymə nə vaxt təqdim etmək lazım olduğu müəyyən edilməyib...

... Təklif olunmuş düsturda sülh nümayəndə heyətinin fəaliyyətinə Seymin münasibəti haqqında heç nə deyilmir. Axı biz bilirik ki, bu müharibəyə son qoymaq lazımdır. Onu da bilirik ki, müharibəyə yalnız o zaman son qoymaq olar ki, sülh nümayəndə heyətinin mövqeyində olaq. Bu mövqeni ictimai rəy bəyənib, buna görə də biz sülh nümayəndə heyətinin fəaliyyətini aydın və qəti şəkildə bəyənməliyik. Sülh nümayəndə heyətinin fəaliyyətininin bu sanksiyası olmadan bizi çıxılmaz vəziyyətə sala biləcək addımlardan qarantiyamız olmayacaq. Axı türklər Batuma hücum edəndə burada söylənən ehtiraslı nitqlər bizə kömək etmədi. Biz real yol seçməli, Brest-Litva müqaviləsinin, Trapezond sülh nümayəndə heyətinin tərəfində olmalıyıq. Bu nümayəndə heyətinin fəaliyyətinə etimad göstərməlik, yalnız bu halda sülh müqaviləsi bağlamaq və Zaqafqaziya dövlətini qorumaq mümkün olacaqdır. Buna görə də mən başqa, bu gün səhər fraksiyaların çoxunun bəyəndiyi formulirovkanı təklif edirəm. Mənim təklifim belədir (*oxuyur*): "Sülh nümayəndə heyətinin məruzəsini dinləyərək Seym onun fəaliyyətini bəyənir, ona dayandırılmş danışıqları davam etdirməyi təklif edir, hökumətə tapşırır ki, hərbi əməliyyatların tezliklə dayandırılması və möhkəm sülh bağlanması üçün tədbirlər görsün"...

... Beynəlxalq münasibətlər təcrübəsində mövcud olan üsullar üzərində xüsusi israr göstərməyə burada ehtiyac yoxdur. Heç bir parlamentdə sülh nümayəndə heyətinin geri çağırılmasına dair belə nümunələr olmayıb. Hökumət öz nümayəndələrinə tapşırıq verir və onlar sülh danışıqlarını axıra qədər apardıqdan sonra həmin danışıqları son ratifikasiyaya təqdim edirlər. Bunu nəzərə almaq gərəkdir, beynəlxalq üsullardan danışırıqsa, onlara həmişə əməl etmək lazımdır.

Əvvəllər Seymin müəyyən qərarı vardı, sülh nümayəndə heyətinə etimadsızlıq irəli sürülmüşdü; indi bıhran yaranıb və yeni vəziyyət, məntiq tələb edir ki, biz sülh nümayəndə heyətinin fəaliyyətini bəyənək. Diplomatik gedişlər, ola bilsin, Trapezondda, dövlətlərin beynəlxalq münasibətlərində zəruridir, lakin burada heç bir diplomatiya lazım deyil. Aydın və qəti şəkildə demək lazımdır ki, əvvəlki məlum vəziyyət indi yoxdur. Biz hər şeyə müsbət yanaşmalıyıq və mən öz düsturumda israrlıyam.



## M.Ə.Rəsulzadənin Zaqafqaziya Seyminin 25-ci iclas. 13 aprel 1918

Azad Zaqafqaziya vətəndaşları. Böyük dövlətlərin demaqoqlarının provokasion fəaliyyətlə məşğul olduqları, ölkənin anarxiya alovuna büründüyü, müəyyən ərazilərin özlərini sovet hakimiyyətinin ideya yayıcıları adlandıran talançıların zülmü altında olduğu, Bakı və Suxum kimi məntəqələrin dövlət ərazisindən kənarda qaldığı, ölkədə qanuni hakimiyyətlə yanaşı, özlərini Zaqafqaziyanın fövqəladə komissarları adlandıran əcnəbi agentlərin olduğu, ölkənin millətlərarası qırğından əziyyət çəkdiyi indiki məqamda hamı məhz müstəqil Zaqafqaziyanın birinci kabinet başçısının indicə bizə məlumat verdiyi addımların atılmasını gözləyirdi. Aprelin 9-da qəbul etdiyimiz böyük niyyəti hökumətin səyi ilə gerçəkləşdirmək, bəyannamədə deyildiyi kimi, bizi əhatə edən dövlətlərlə ən səmimi münasibətləri bərpa etmək məhz belə bir məqamda mümkün olacaq. Bu aktı, hansı şəkildə olur-olsun, bütün əks-inqilabçılara və anarxistlərə qarşı elan edilmiş müharibə şəraitində həyata keçirməliyik. Hökumətin bu addımını alqışlamaqla biz bəyannamədəki bütün bəndlərin yerinə yetirilməsində ona yardım etməyə hazır olduğumuzu tam şəkildə bəyan edirik. Hökumətin vahid hakimiyyətin yaradılmasından bəhs edən bənddəki qərarını xüsusi olaraq alqışlayırıq. Vahid, möhkəm hakimiyyətin bərpasında və bu hakimiyyətin, əlbəttə, Dağıstanın da daxil olduğu bütün dövlət ərazilərinə yayılmasında ona uğur diləyirik. Hökumətin bəyannaməsində Şimali Qafqazdan bəhs olunmaması sırf formal mülahizələrlə bağlıdır, belə ki, Zaqafqaziya Respublikasının astanasında məskunlaşmış bu xalqların rəsmən ifadə olunmuş iradəsi hələlik əlimizdə yoxdur. Ümidvarıq ki, hökumət bu yöndə də lazımi addımlar atacaqdır; hökumətin bəyannaməsini tam dəstəkləyərək onu dəstəkləməyə hazır olduğumuzu bu tribunadan bir daha bildiririk *(Daşnaksütyun fraksiyasının skamyasından başqa bütün skamyalardan alqışlar yüksəlir)*

***Qeyd:*** *M.Ə.Rəsulzadənin Zaqafqaziya Seymindəki çıxışlarını rus dilindən filologiya elmləri doktoru, professor Nəsir Əhmədli tərcümə edib. – red.*

# Milli məsələlər

## Azərbaycan Heyəti-Mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm bəyanatı

Axirən darülfünun müdərrislərindən Halim Sabit bəy, möhtərəm Rəsulzadə Əmin bəy əfəndiyə bir məktub göndərmiş, Qafqasiyada, həmçinin bütün Şərq və Şimal türk aləmlərindəki milli cərəyanlar haqqında istizahatda bulunmuş, cavablarının bir qəzetəyə və ya məcmuələrdən birinə verilməsini də rica etmiş olduqlarından Rəsulzadə Əmin bəy əfəndi də məcmuəmizi tənsib buyuraraq izahatnamələrini göndərmişlərdir. Böyük bir məmnuniyyətlə eynən dərc ediyoruz.

Soruşulan suallar bunlardır:

**1. Qafqasiya müsəlmanları arasındakı siyasi cərəyanlar və firqələr haqqında məlumat.**

**2. İttihadi-islam cərəyanı nə haldadır?**

**3. İttihadi-islam ətrafında toplananların sünnilik və şiəlik məsələsinə nəzərləri necədir?**

**4. Türkçülük cərəyanı nə zaman başladı və bugünki hal və təzahüratı nə yoldadır?**

**5. Bizim İstanbul qəzetəçilərindən birinin şübhə etdiyi vəchlə sünnilik və şiəlik əqidəsinin türkçülük cərəyanına qarşı ziyanı varmı və bu möhtərəm əqidələr haqq ərbabının bir-birinə yaxınlaşmalarına mane olacaq surətdə var olaraqmı izah ediyor?**

❂ ❂ ❂

Möhtərəm Halim Sabit bəy!

Qafqasiya əhvali-siyasiyyəsi ilə ora əhali-islamiyyəsi haqqında bir takım istizahatı mütəzəmmin məktubunuzu Bursaya getmək üzrə aldığımdan cavabını bir az təxirlə yolladığım üçün məzur görünməmi rica edərim əfəndim.



1. Qafqasiya müsəlmanları arasında ən qüvvətli cərəyan milliyyət cərəyanıdır. Milliyyətpərvərliyin Qafqasiya islamlarınca iki növü təbəllür etməkdədir: türkçülük, islamçılıq. Türkçülüyü tərvic edən qüvvət Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"-dır. Müsavat daha Rusiya hürriyyətinin ibtidasında ikən milli-məhəlli prinsiplər üzərinə qurulu Qoşma Xalq Cümhuriyyəti (Cəmahiri-Müttəfiqəyi-Ənam) əsasını müdafiə etdi. Firqənin nəzəriyyəsi bütün dünyanın milli hökumətlərə təqsim ediləcəyi həqiqətinə istinad ediyor. Bu firqəcə ideal olaraq böyük bir Turan mütəsəvvirdir. Bu Turan Türk hökuməti-müttəfiqəsi şəklində vücudpəzir ola biləcəkdir. Müsavat firqəsi türkçü olmaqla bərabər, islamiyyətdəki camiəi-diniyyəyi dəxi təqdir edər, beynəlmilliyyəti-islamiyyə fikrinin müdafeidir. İttihadi-islamı o üç yüz milyonluq əfradın ittihadından ibarət bilmək, ona görə mühal və xəyaldır. Halbuki mədəniyyəti, hürriyyəti və həyati-siyasiyyəsiylə bərabər diri vücud halına gələn miləli-islamiyyənin mənfəətləri iktizası olaraq ittihadları həm təbii, həm də mümkün-vüqudur. Bu iki əsasla bərabər Müsavat firqəsi, türkçülüyün də, beynəlmilliyyəti-islamiyyənin də yalnız müasir olmaq və əsrimizdəki fünun və sənaye ile mücəhhiz bulunmaq surətiylə vücudpəzir olacağına əmindir. Bunun üçün də demokratdır, radikaldir. Türkləşmək, islamlaşmaq, müasirləşmək firqənin düsturi-əsasını təşkil edər.

Müsavat firqəsi sosialist bir firqə deyildir; fəqət "şovinist" bir milliyyətçilikdən də uzaqdır. Qafqasiya islamları tərəqqiyyati-iqtisadiyyə nöqteyi-nəzərindən feodalizm halından çıxaraq sərmayədarlıq üsuli-iqtisadına keçiyorlar. Burjua qismi burada bir amili-tərəqqidir. Müsavat firqəsinin tərzi-hərəkəti də iştə bu cəhətə mətufdur. Hüquqi-ənamı muhafizə etmək üzrə firqə tərəqqipərvər bulunan növ-zühur burjua qismilə biletilaf maneyi-tərəqqi bulunan əski feodalizm təsirində bulunan qüvvətlərə qarşı müariz və mübariz bulunmaqdadır. Firqənin bu xüsusiyyəti bilxassə ərazi məsələsinə aid olan proqramından anlaşılır. Firqə əski xan və bəylərin əlində faidəsiz bir surətdə qalan böyük torpaqlar əleyhindədir. Bu kimi ərazinin cəbrən alınıb da möhtac bulunan kəndlilərə paylanması tərəfdarıdır.

Fəqət eyni zamanda paylanacaq ərazinin köylünün mülkiyyətinə verilməsini bilxassə iltizam edər. Çünki mülkiyyət əsasının ifasında bir amili-tərəqqi görür. Möhtac olduğu torpağı köylü pulsuz alır. Fəzlə ərazisi müsadirə edilməsi üzündən hasardidə olan torpaq sahibi də təmin olunur, gərək iman etdiyi uzaq əməl, gərək istehsalına çalışdığı yaxın məqsəd və gərək bunların hüsuli üçün tutduğu yol az bir zamanda firqəyə böyük bir əksəriyyət qazandırdı. Gərək Birinci Qafqasiya Müsəlman qurultayında və gərək onu mütəaqibən Moskvada toplanan Böyük Müsəlman qurultayında firqənin tərvic etdiyi nəzəriyyə və təqdim etdiyi siyasi qərarnamələr əksəriyyət qazandı. Milli-məhəlli muxtariyyətlər əsasına müstənid bir Rusiya cümhuriyyəti-müttəfiqəsi haqqındakı mətləbi mütəzəmmin bulunan qərarnamənin Moskva qurultayınca bir əksəriyyəti-qahirə ilə qəbulu, Müsavat firqəsinin zəfəri-nihaisini təşkil ediyordu.

Moskvada firqənin əməli-siyasiyyəsinə qarşı mücadilə edən cərəyan, islamçı və mərkəziyyətçi cərəyan idi. Bu cərəyana görə müsəlmanlar bir millətdirlər. İslamın tərəqqisi də Rusiya demokratiyasının tərəqqipərvəranə və mücəddidanə təsirinə bağlıdır. Bunun üçün də ayrı-ayrı türk və ya müsəlman muxtariyəti-milliyyələrinə ərzi-ehtiyac etmədən Moskva və ya Petroqradda milli və mədəni işlərin röyəti üçün bir müsəlman parlamanı dəvətilə iktifa etməli. Başqa xüsuslarda isə Rusiya Cümhuriyyətinin kamilül-hüquq bir vətəndaşı olub qalmalıdır. Moskva müzəffəriyyətindən sonra türkçülüklə ədəmi-mərkəziyyət fikri Rusiya islamları arasında olduqca yol aldı. Müsavat firqəsinin təsiri Qafqasiya daxilindən çıxaraq Volqaboylarına, Krıma, Türküstana qədər nüfuz etdi. Türküstanda xüsusi surətdə şöbələri açıldı. Dağıstanda qəza hövzələri təsis edildi. Qafqasiya Azərbaycanı bulunan Bakı, Gəncə, İrəvan vilayətləri isə az bir zamanda firqə təşkilatlarının şəbəkələrilə əhatələndi. Nəhayət, Bakıda ilk Qafqasiya qurultayını andıracak dərəcə şükuhlu bir firqə qurultayı təsis edildi. Bu qurultayda millətin bütün sünufi-mütərəqqisi iştirak ediyordu. Qurultay nümayəndələrinin nisfindən ziyadəsi köylü və əmələ olaraq zəhmətkeş xalqın nümayəndələri, nisfidigəri də ürəfa qismi ilə gənclik idi.



Türkiyədəki Türk Ocaqlarının proqramına siyasət dəxi əlavə etsəniz haman Müsavat firqəsi haqqında bir fikir əldə edə bilərsiniz. Müsavat firqəsinin əmrnaməsi boyunca tələb olunan Azərbaycan, Krım, Qırğızıstan, Başqırdıstan, Türküstan muxtariyətləri bu gün yaxşı-pis bir həqiqət halını almış oldu.

Türk federalizmi başda "Açıq söz" olmaq üzrə gərək Qafqasiya və gərək sair yerlərdə nəşr olunan mətbuati-islamiyyənin əksəriyyəti tərəfindən müdafiə olunuyor. Gənclik əksəriyyət etibarilə bu milli firqəyə mənsubiyyəti ilə kəndisinə mənəvi bir qüvvət iktisab ediyordu. Firqənin mərkəzi Bakıda bulunuyordu. Bakı sənaye və ticarət mərkəzidir. Son zamanlarda nüfusi-ümumiyyəsi dörd yüz mini keçməktə olan bu şəhər ticarət və sənayecə çox irəliləmişdir. Burada yüz minə yaxın təkcə əmələ vardır. Bütün Rusiya fabrik və zavodlarına verdiyi neft vasitəsilə Rusiya həyati-iqtisadiyyə və sənayesinin mühərriki məqamında bulunan mədənlərdə çalışan bu say ordusu sosializm fikirlərində çox irəliləmiş olan beynəl-milliyyət fikrinin bir amili-müəssiridir. Əmələdən əlavə burada tüccar və sair mütəvəssit siniflərə mənsub olmaq üzrə dəxi bir çox xaricdən gəlmə ənasir vardır. Böylə ki, əslində bir türk şəhəri ikən Bakı, Amerika şəhərlərinə bənzər əqvam məhşəridir. Böylə ikən şayani-diqqətdir ki, müsəlman əmələsinin əksəri haman Müsavat firqəsinə mənsubdurlar. Bakı əmələsinin haman nisfi müsəlmandır.

Müsavat firqəsi Qafqasiya həyat və şəraiti-islamiyyəsi nöqteyi-nəzərindən bir mərkəz firqəsini təşkil ediyordu. İbtidayi-hürriyyətdə hər yanda təəssüs etməyə başlayan milli komitələrdə bu firqənin bir amili-müəssir olduğu görülüyordu. Hər mərkəz kimi Müsavat iki cinahdan düçari-təərrüz oluyordu. Sağ cinahda "İttihadi-islam" əməli ilə təşəkkül etmiş mühafizəkarlar duruyorlardı. Bunlar əksərən mollalardan, böyük mülkədarlardan, feodalizm ənənatı ilə qəti-əlaqə etmək istəməyən ərbabi-axərdən ibarət idilər. Əvvəlcə "Rusiyada müsəlmanlıq" ünvanilə təəssüs edib nəzəriyyəcə islamiyyətin qövmiyyət prinsiplərinə mütəhəmmil olmadığını iləri sürüyor, türkçülüyü bir təfriqə kimi tələqqi ediyorlardı. Məsaili-ictimaiyyə babında isə müvafiqi-

şəri-şərif həll olunacaq deyə işin içindən çıxıyorlardı. Bədə bu firqə "İttihad" ünvanilə adlanmışdır.

Sol cinahda əvvəl başda müsəlman bolşevikləri, daha sonra menşevikləri gəliyor. Üçüncü dərəcədə müsəlman sosialistlər ittifaqı duruyordu. Müsəlman bolşeviklərinin başında doktor Nərimanov[1] durmuşdur. Siyasiyyətcə pək kütah-nəzər olan Nərimanovla arkadaşları rus, erməni və sair beynəlmiləl bolşevik heyətilə təşriki-məsai edərək Müsavatın milliyyətpərvərliyinə qarşı bütün hiddət və şiddətlərilə mübarizə ediyorlardı. Onlar əvvəldə Azərbaycan və sair xüsusi türk və müsəlman muxtariyyətlərinə zidd olub türk müqəddərati-siyasiyyəsinin rus əmələ və köylüsü təqziratından ayrı olmadığını iddia ediyor. Müsəlman əmələsi ilə köylünü ağaları, bəyləri, xanları və onlara xidmət edən "namussuz" əhli-irfan və mühərrirləri tərd və nəfy etməyə dəvət ediyorlardı. Hətta rus bolşevikləri əsas etibarilə müqəddərati-milliyyəyi millətin kəndisi təyin etməyə müvafiqət etməkdə ikən bunlar müsəlman kütləsinin böylə bir təyini-müqəddərat keyfiyyətindən istifadələrinə belə razı olmuyorlardı. Çünki böylə olursa cəmaət avam olduğundan ağaların mövqeyi-iqtidara keçəcəklərini təxminlə müsəlman "müftəxor"unun təğəllübündənsə beynəlmiləl "proletariat" hakimiyyəti daha islahdır, diyorlardı. Bunlar ibtidadan axıra qədər hər növ təşkiati-milliyəyə müariz olub Müsavatı dəxi əksixtilalçı bir qüvvət olmaq üzrə ənzari-əcanibində təşhir etməyə səy ediyorlardı. Böylə ikən bərəkət versin ki, nüfuz və etibarları yalnız kəndilərindən istifadə edən bolşeviklər nəzdinə münhəsir qalaraq, müsəlman kütləsi hüzurunda isə etibar və nüfuzları yoxdu. Əmələ məhəllələrində müsəlman bolşeviklərini müsəlman əmələlər hər zaman ədavətlə qarşılıyorlardı. Bolşevik socialist-demokratlardan sonra sol cinah partilərindən menşeviklər gəliyor. Bunlar dəxi bolşeviklər kimi milliyyət cərəyanını mənfi bir nəzərlə görüyor; fəqət onlar qədər ifrata varmayaraq etidalla hərəkət ediyorlardı. Bunlar da zəif bir mövqedədirlər.

[1] Mətndə Nərimanovun adı mürəttib xətasından olsa gərək Zeymanov olaraq verilmişdir. (*M.G.*)



Sol cinaha mənsub olmaq üzrə üçüncü dərəcədə müsəlman sosialistlər ittifaqı gəliyor. Bu müəyyən bir parti deyil, sosialist-məşrəb, radikal düşünən bəzi gənclərin ittihadından ibarət bir uyuşmadır. İçlərində islamçı da var, türkçü də. Bunların sosializmi hər halda milliyyət rəng və ruhuyla məşbudur. Nəzəriyyətcə sosialist olsalar da, əməliyyət və fəaliyyətcə haman milliyyətpərvərdirlər. Bunların Müsavata qarşı vaqe olan tənqidatı digərləri qədər ədavətkaranə deyildir. Məsaili-milliyyədə və əksər məsaili-ictimaiyyədə mərkəz firqəsilə tövfiqi-hərəkət etmək tərəfdarıdırlar. Bu firqələr xaricində bir takım əhalicə məruf cəmaət xadimləri dəxi vardır ki, firqələrin heç birisinə mənsub olmayıb bitərəf namilə məşhur olmuşlardır. Bu bitərəflər dəxi əksərən tərzi-hərəkət etibarilə "müsavatçı" olub əksərən də onunla təşriki-məsai və tövhidi-hərəkətdə bulunmuşlardır. Bu mütəfərrik cərəyanların Qafqasiya müsəlmanları arasındakı dərəcəyi-etibarları isə aşağıdakı adətdən anlaşıla bilər.

Mavərayi-Qafqaz Seymində 44 müsəlman əzadan otuzu Müsavat firqəsilə bitəraflərə, yeddisi sosialist ittifaqına, dördü menşeviklərə, üçü də İttihada mənsub olub içlərində bir nəfər də olsun bolşevik yox idi. Azərbaycan Şurayi-Millisinin firqələrcə təqsimatı dəxi bu haldadır.[1]

Bakı bolşeviklər istilasına keçdikdən sonra mərkəzi təşkilati-siyasiyyələri yağma və tarac edildikdən sonra Qafqasiya əhali-islamiyyəsi bir tərəfdən Bakıda intişar edən mətbuatdan, digər tərəfdən də mütərəqqi və əməlpərvər bir mərkəzi-idarədən məhrum qaldılar. Bu sayədə mühit sağlaşdıqca sağlaşdı ki, bu da nüfuzi-siyasinin radikallardan mühafizəkarlara keçməsini intac elədi. Bunun təsirində olaraq yeni bir takım təşəübati-siyasiyyə görünməyə başladı ki, bunun dərəcəyi-etibar və əhəmiyyətini göstərəcək bir fürsət və vaxt daha zühur etməmişdir.

[1] Xalqın böyük əksəriyyətini fərqli millətlərdən insanların meydana gətirdiyi Bakıda 22 oktyabr 1917-ci ildə keçirilən seçkilərdə Müsavat səslərin 40 %-ni alarkən bolşeviklər sadəcə 15 % səs ala bildi. (Nesrin Sarıahmetoğlu "Azerbaycan Tarihçiliğinde Bakü Mart Olaylarının Yeniden Değerlendirilmesi [31 Mart 1918], *Büyük Devletler Kıskancında Bağımsız Azerbaycan*, s. 23, IQ Kültür Sanat Yayıncılık, İst. 2010)

Cənubi Qafqasiyada həyati-siyasiyyə bu halda ikən, Şimali Qafqasiyada siyasi cərəyanlar bir az başqa bir yolda cərəyan eləmişdir. Burada Əmanət və Müridlik əsasına müstənid dini bir cərəyan çox qüvvət peyda edərək hər şeyi şəriətə tabe etdirmək istəyən bir, müasir bir mədəniyyət üzərinə müntəzəm bir üsuli-idarə təsis ilə bütün dağlıları yaşadıqları şəraiti-həyatiyyənin müştərək mənafeyi üzərinə tövhid etdirməkdən və Şimali Qafqasiya ilə Dağıstandan mürəkkəb bir vəhdaniyyəti-siyasiyyə icadından ibarət digər cərəyanla bərabər bir də Dağlı bolşeviklərdən ibarət üçüncü bir məsləki-qərib vardır. Axırıncı hər yanda olduğu kimi burada da təhribkar bir rol oynamaqdan başqa bir işə yaramaz. Əvvəlincisi isə əsrə uymaz vəhmiyyat ilə möhriqdir. Ortadakı mərkəz cərəyanı isə Şimali Qafqasiya namına hərəkət edən hökuməti təsis edənlərdən ibarətdir. Bunlar birincinin mətləbini tədil ilə təmini-nüfuz və etibar edərək bir həyati-siyasiyyə təsisinə müvəffəq ola biləcək mahiyyətdədirlər. Bolşeviklər xaricində dəxi Şimali Qafqasiya münəvvəranı miyanında Rusiya mütəmayilləri bulunub onlarla təşriki-məsai etmək tərəfdaranı bulunmuşsa da, heç bir zaman kütleyi-nas tərəfindən məzhəri-qəbul olmamış, bolşevik xürucundan sonra isə tamamilə ortadan qaldırılmışdır. Şimdiki halda Qafqasiyanın gərək şimalında və gərək cənubunda olsun Türkiyə təvəccühatından, Türkiyə təmayülatından qüvvətli bir cərəyan təsəvvür olunamaz, qəlbi-millətdən qopan bu arzu adətən ünsüri bir mahiyyət iktisab eləməktədir. Azərbaycan hökumətinin dəvəti üzərinə Gəncəyə gəlmiş olan orduyi-Osmaniyyə komandanı möhtərəm Nuri Paşa həzrətlərinə qarşı əmsalı naməsbuq bir surətdə göstərilən istiqbal, milli gənc şairlərimizdən Ə.Cavad əfəndinin "Niyə gəlmədin?" itabi-aşiqanəsilə xitab elədiyi Türkiyə haqqında bəslədiyi hissiyyatı ilə arzuyi-ümumiyə nə dərəcə sadiq bir tərcüman olduğunu göstəriyordu.

2. İttihadi-islam Qafqasiya üçün artıq bir əməl və arzu şəklindən çıxaraq tətbiqat və əməliyyat məsələsi təşkil eləmişdir. İftiraqi-islam bir çoxlarının düşündüyü kimi məzhəblərin təəddüdündən hasil olma bir məsələ deyil, bəlkə ərbabi-məzahib



arasındakı ədəmi-təhəmmül və yekdigərinə qarşı ibraz olunan ehtiramsızlıq məsələsi idi. Hürriyyəti-məzahib hürriyyəti-vicdan məsələsidir. Əhli-məzahib arasında müsahilə və ehtiram mövcud olursa ixtilaf vaqe olsa da rəhmətlik olur. Bu hal Qafqasiyada tamamilə hasil olmuşdur. İndiki halda Qafqasiyada şiələr də var, sünnilər də; fəqət şiə və sünni məsələsi yoxdur.

3. Şiəlik və sünnilik birər ictihad məsələsidir. Qafqasiya ittihadçılarınca ictihadlar möhtərəm tutulmalı, kimsə kəndi ictihadından dolayı müaxizə edilməməlidir. İttihadı tövhidi-məzahib şəklində tələqqi edib də Qafqasiya ittihadçılarından bəzi müfritləri sünniliyi də şiəliyi də inkar edərək: "Mən nə sünni, nə də şiə deyil, islamam" deyənlər varsa da, inad və təəssüb olmayınca fürunun əsli unutdurmayacağına qane olanlar və ittihadın hüsuli üçün yalnız təəssübün ortadan qalxmasıyla iktifa edənlər daha çoxdur.

4. Türkçülük cərəyanı əslinə baxılsa Bakıda yövmi türkcə qəzetələr təsis olunduğu andan etibarən zimni bir surətdə başlanmışdır. Ana dili məktəbi, ana dili yazısı tələb edərkən Qafqasiya camaəti-islamiyyəsi haman türkçülüklə süluk ediyordu. Möhtərəm Ağaoğlu Əhməd bəy kəndi "İrşad"ı ilə islam, islam deyə bağırıyor və ittihadi-islamdan bəhs ediyordu isə də bu bir sözdü. Məna etibarilə dönüb dolaşıb islamçılık və türkçülük şəklini alıyordu. 1905-ci ildə Hüseynzadə Əli bəy əfəndi Bakıda nəşr olunan "Füyuzat"ı ilə "Türk qanlı, islam etiqadlı və firəng qiyafətli olalım" derkən daha sərih bulunan "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunu ilham etmək istiyordu. Hər nə qədər Əhməd bəylə Əli bəy türkləri təlqin ediyorlardısa da aşkar türkçülük etdikləri yoxdu. Bu fikir sonradan qüvvət bulmaya başladı. "Türk yurdu"nun yurdçuluğunun Qafqasiya üzərinə təsiri oldu. Nəhayət, "Açıq söz" qəzetəsi yövmi qəzetə olmaq üzrə Qafqasiyada türkçülük cərəyanının vasiteyi-nəşri-əfkarı bulundu. Bir çox gənc şair və mühərrirlərimiz türkçülük məsləkinin müridi kəsildilər. Mehmed Emin bəy türkcəsini hər kəs təqlidə başladı. Bu yolda Cavad bəy nam gənc bir şairimizin "Qoşma" namilə nəşr elədiyi nümunələr, barmaq üsulu şeir yazmada azərbaycan-

lı türklərin müvəffəqiyyətlərini göstərir. Digər müqtədir şairlərimiz bulunan Hüseyn Cavid əfəndinin dəxi barmaq üsuluyla yazdığı qiymətdar parçaları vardır. Qafqasiya türkçüləri eyni zamanda xalqçıdırlar. Xalq ədəbiyyatını tədqiq edən müdəqqiqlərimiz, həyati-milliyəyi təsvirlə uğraşan mühərrirlərimiz və türklüyü ruhuna yabancı bulunan təsiratdan xilasa çalışan mücahidlərimiz vardır.

Siyasət sahəsində isə türkçülüyün nə dərəcə müəssir olduğu yuxarıda zikr elədiyimdən bir daha təkrara lüzum görmüyorum.

5. Şiəliklə sünniliyin türkçülük cərəyanına ziyanını bilmiyorum. Şiəliklə sünnilik cərəyanlarının türkçülükdən pək çox zərər gördükləri isə meydandadır. İttihadi-islam fikri hər yerdən ziyadə Qafqasiyada ruyi-qəbul gördü. Çünki bu fikir eyni zamanda milliyyət fikrilə də bir gəliyordu. Çünki şiə də, sünni də kəndisinin türk olduğunu dərk etdikcə mucibi-ixtilaf bir şeyi qalmıyor. İkisi də qatı ittihadi-islamçı kəsiliyordu. Doğrusu, məzkur qəzetənin mülahizəyi-məlumesini oxurkən Şimali Azərbaycan türklüyü namına hissiyatım rəncidə olmuş, ürəyimdə bir acı duymuş idim. Sualınızla məzkur acının ürəyimdə qalmadığına səbəb olduğunuz üçün sizə təşəkkürlər edərim.

**Azərbaycan Heyəti-Mürəxxəsəsi rəisi**
**Rəsulzadə Məhəmməd Əmin**
***"Yeni məcmuə"*, 25 temmuz (iyul) 1918, №54,**
**İstanbul, səh. 26-28**

***Yazını bizə Türkiyənin Mərmərə Universitetinin əməkdaşı, həmyerlimiz Mehdi Gəncəli təqdim etmişdir.***

İstizah – açıq izah tələb etmə
Tənsib – münasib görmə, uyğun hesab etmə
Mütəzəmmin – əhatə edən, içərisinə alan
Mühal – qeyri-mümkün, çətin
Mətuf – əyilmiş, bir tərəfə doğru dönmüş
Qahirə – üstün gələn; qalib



Nisf – yarı, yarım
Mütəvəssit – orta, mərkəzi; vasitəçi
Məşrəb – gediş, hərəkət; həvəs, meyl
İntac – nəticələnmək
Təşəüb – şöbələrə ayrılma, qollara ayrılma

## Bakı məsələsinə dair mülaqat

Bakı alınmamışdan əqdəm bizim bədxahlarımız tərəfindən Bakını Azərbaycandan ayırmaq üçün cürbəcür vəsilələr, dürlü-dürlü hiylələr aranıyordu.

Bu xüsusda Tiflis "məhafili" ən ciddi iqdamatda bulunur idi. Həmin "məhafildən" Bakı Azərbaycanın olmuyub, "sərbəst" şəhər (volni qorod) olsun şüarı dəxi çıxmış idi. Həmin şüara Tiflis saxta sosialist vərəqələri və erməni qəzetləri rövnəq verib, Avropa siyasi məhafilinin diqqətlərini Bakı məsələsinə cəlb etmək iddiasında bulunuyorlardı.

Həmin məsələ xüsusunda İstanbulda nəşr edilən "Tərcümani-həqiqət" qəzetəsi mühərrirlərindən birini İstanbulda Azərbaycan heyəti-mürəxxəsəsi rəisi Məhəmməd Əmin Rəsulzadə əfəndilərinin nəzdinə göndərib, bəyanat istəmişdir.

Bakı alınmış isə də Məhəmməd Əmin cənablarının Bəyanatının əhəmiyyəti itməmiş. Buna görə də onun Bəyanatını burada dərc ediriz.

Məhəmməd Əmin bəy demişdir:

Bolşeviklərlə azərbaycanlılar arasında axıdılan qan yalnız Azərbaycan müstəqilliyinin hüsulunu təmin etmək şərtilə dayandırıla bilər. Bunu biz səmim qəlb ilə arzu edəriz. Çünki məqsədimiz qan axıtmaq degil, Bakıya malik olmaqdır. Çünki əfəndim, Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunamaz. Bakı tarixən də, halən də bir türk şəhəri və müsəlman bələdəsidir. İstiqbalən də öylə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir. Azərbaycan ismi belə ehtimal ki, Bakının petrol ocaqlarından ol dünyanın uzaq guşələrindən kəndisinə zairlər cəlb edən daim yanar təbii atəşlərindən alınmışdır. Azərbaycan bugünkü milli və mənəvi işığını dəxi Bakıdan alıyor. Burası Qafqasiya islamlarının mərkəzi-ürfanıdır. Azərbaycanın qabiliyyəti-həyatiyyəsini təmin edən varidati-mühümmə buradan hasil oluyor. Burası məmləkətimizin yeganə limanıdır. Bakı Azərbaycanın qapısıdır.



Bütün aləmin iştəhasını cəlb edən petrolu olmadığı zamanlar belə Bakı Şimali Azərbaycandan ötrü əhəmiyyəti-ticariyyəyə malik mühüm bir nöqtə təşkil edirdi. İndi dəxi o əhəmiyyəti haizdir. Bunların həpsinə bərabər Bakı, əksəriyyət nüfuz etibarı ilə müsəlmandır. Bakıda mövcud bulunan ərazinin, əmlakın, əfar və müstəqfatın qismi-küllisi müsəlmanlardadır.

Ətrafında bulunan köylər tamamilə müsəlman köyləridir, azəri türkləridir. Xülasə, Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə Azərbaycan üçün də Bakı ondan artıq olmasa da, odur. Bu o qədər aydın bir məsələdir ki, bunu məsələ olaraq ortaya qoymaq həqiqətən də mövcübi-heyrətdir. Bakı bolşeviklərinin – rus imperialistlərinin Qafqaziyadakı yardaqçılarının bu fikirdə olduqlarını, azərbaycanlıların haqlarını inkar üçün bu şəkli iltizam etdiklərini bilirdik. Əksəriyyəti kimlərdən ibarət olduğu məlum bulunan Bakı bolşeviklərinin ingilislər tərəfindən dəxi müzahirət görərək bu yolda təhrikatda bulunduqlarını duymuşuq. Fəqət Almaniya dövləti-fəxməsinin bu fikrə zahir və mühyi olacağını qətiyyən kəsdirəməzdik. Tiflis qəzetəsindən nəql etmiş olduğunuz xəbərdə mütləqə bir yanlışlıq olacaqdır. Şübhəsiz ki, Bakı petrollarının aləmşümul bir əhəmiyyəti vardır. Əlbəttə ki, bu petrol məsələsi rusları da, Qafqaziyadakı məktəbləri də, Türkiyə ilə müttəfiqlərin də əlaqədar ediyor.

Madam ki, Bakı ilə əlaqə petrola bağlı bir əlaqədir, demək ki, iqtisadi və ticari məsələ qarşısında bulunuyoruz. Bəhri-Xəzər kənarında bulunan Azərbaycan petrolu su yerində işlədəcək deyildir. Petrol Azərbaycanın ən böyük ixracatını təşkil edir. Şübhəsizdir ki, Azərbaycan əcnəbi sərmayəsindən istifadə edəcək və bu sərmayənin Bakı ərazisində tətbiqin dəxi hər dürlü vasitələrlə təshil və təminə çalışacaqdır. Petrolun əhəmiyyəti-beynəlmiləliyəsindən istifadə üçün Azərbaycan hökuməti ilə anlaşmaq və bağlaşmaq mümkün ikən qafanı bədəndən ayıracaq qədər qanlı tədabirə əcəba, nədən ehtiyac görülsün? İştə bunun üçün bu etiqaddayam ki, Tiflis qəzetələri ilə nəşr olunan şayiə qərini-həqiqət olmasa gərək. Çünki düşünüyoram: sərbəst bir şəhər elan etmək surət ilə təmini təsəvvür olunan fəvaidi-müştə-

rəkə Azərbaycan hakimiyyəti təxtində dəxi təmin edildikdən sonra Almaniya diplomasisi əcəba, nə üçün Azərbaycan həyati-milliyyə və mənafeyi-həyatlarına səbəbsiz bir surətdə qəsd etsin?!

**"Azərbaycan", 3 təşrini-əvvəl (oktyabr) 1918, №5**

Zəhir – arxa, kömək
Mühyi – həyat verən, canlandıran



## M.Ə.Rəsulzadənin Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi xüsusi məktubdan

"... Berlindən alınan məlumatlara görə bolşeviklərlə Almaniya arasında əlavə müqavilə imzalanmışdır. Qafqaz dövlətlərindən bolşeviklər yalnız Gürcüstanın müstəqilliyini tanımışlar və almanlar isə Bakıda çıxarılan neftin bir hissəsini almaq müqabilində Bakını və onun neft rayonlarını özündə saxlamaq arzularına etiraz etməmişlər. Bu xəbər hamımızı sarsıtdı, qəzetlər onu hiddətlə çap edir. Tələt Paşa Berlinə getməyə hazırlaşır. Necə olursa-olsun Bakını almaq, almaq və almaq lazımdır" *(Bu barədə daha ətraflı bax. C.Həsənli "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920)" B., 2009, səh.152-155).*

# Təbrik teleqramları

Bakının süqutu münasibətilə Azərbaycan hökumət rəisi Fətəli Xan cənabları naminə İstanbuldan atidəki teleqram gəlmişdir:

Paytaxtımızın istirdadından dolayı təhti-idareyi-alilərində bulunan hökumətimizi səmim təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qəleyi-mətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşürsünüz.

**Azərbaycan heyəti-mürəxxəsəsi naminə**
**Rəsulzadə Məhəmməd Əmin**
**"Azərbaycan", 3 təşrini-əvvəl (oktyabr) 1918, №5**



# Bakı həqqində Azərbaycan hökumətinin notası

İstanbul qəzetələrində sentyabr ayı ortalarında Azərbaycan sülh heyətinin sədri Məhəmməd Əmin Rəsulzadə tərəfindən təqdim edilmiş və eyni zamanda surəti bitərəf və Mərkəzi Hökumətlər səfarətlərinə göndərilmiş bir nota dərc edilmişdir. Almaniya ilə Rusiya arasında əqd edilən əlavə müahidənamədə Bakının Şura hökuməti əlində saxlanması həqqindəki maddəyə görə məzkur notada Azərbaycan hökumətinin Bakı şəhərinə tarixi bir həqqi olduğunu isbat etmək üçün şəhərin tarixi həqqində müfəssəl məlumat verilmişdir. Bu tarixi hüquq, coğrafi, iqtisadi və milli təsəvvürat ilə isbat edilməkdədir. Həmçinin notada göstərilir ki, Bakı şəhəri elm, mədəniyyət və sənaye cəhətincə də Azərbaycan ilə əlaqədardır. Çünki ümumsiyasi, iqtisadi, ictimai, dini və xeyri müsəlman müəssisələri Bakıdadırlar.

Məzkur notada Almaniya ilə Rusiya arasında əqd edilən əlavə müahidənamə və millətlərin istiqlaliyyəti əsasına istinad edilməsi həqqində təəccüb izhar edilir. Rusiya inqilabı tərəfindən elan edilib və Brest-Litovsk əhdnaməsində təsdiq olunmuş əsasa istinadən ki bu əsas üzərinə hər millət öz müqəddəratını həll etmək ixtiyarına malik olur, Azərbaycan milləti Mərkəzi Dövlətlərin hüsni-münasibatına etimad edərək əsrlərdən bəri təzyiqi altında qaldığı Rusiya istibdadını yıxıb özünü müstəqil elan etdi. Azərbaycan milləti Almaniya hökumətini əlavə müahidənamə ilə Azərbaycanın ruhani, iqtisadi və siyasi mərkəzi, paytaxtı olan Bakı şəhərinin Rusiya əlində qalmasına rizasından xeyli narahat olmuş idi.

Notanın axırında ümidvarlıq bəyan edilir ki, Almaniya dövləti Azərbaycan hökuməti və millətinin Bakı şəhərinə malik olmaları hüququnu ciddi surətdə nəzərə alar.

**"Azərbaycan",**
**5 təşrini-sani (noyabr) 1918, №31**

## Bakı xəbərləri

Azərbaycan Cümhuriyyətinin İstanbul konfransı mürəxxəsləri Məhəmməd Əmin Rəsulzadə, Aslan bəy Səfikürdski, Əhməd bəy Pepinov və Şüyxülislamov cənabları dün təşrini-saninin 7-də Bakıya varid olmuşlardır.

Məşhur mühərrir və camaat xadimi Əhməd bəy cənabları dəxi Bakıya gəlmişlərdir.

**"Azərbaycan",**
**8 təşrini-sani (noyabr) 1918, №34**



## Vətənimizin iki simayi-möhtərəmi[1] Rəsulzadə Məhəmməd Əmin

Sevgili mühərririmiz, istəkli natiqimiz, millət yolunda həyatını nisar edən, camaat xadimimiz Rəsulzadə Məhəmməd Əmin cənabları 3 gündür şəhərimizə varid olmuşdur.

Azərbaycan imarətinin binasını qoyan, bu uğurda kəraətlə həyatını təhlükəyə atmış olan Məhəmməd Əmin əfəndi biz Azərbaycan türkləri üçün işıqlı bir ulduz rolu oynayaraq istiqlali-milli yolunu Nikolay və Protopoviç dövrünün müzəlləm gecələrində belə milliyyət müsafirlərinə göstərməsi, rəhbərlik etməsilə vətənimizə böyük bir xidmət göstərmişdir. Hələ novcavan ikən 1905 inqilabından sonra meydani-siyasət və ictimaiyyəyə atılaraq o vəqt yenicə təsisə başlayan milli-siyasi təşkilatımızda mühüm mövqelər tutduqdan sonra irtica dövrünün hüluli ilə rus qaragüruhunun qəzəbinə giriftar olub İrana qaçmış və orada dəxi müsəlmanların mənafeyini candan əziz tutaraq İran inqilabçıları ilə əl-ələ verərək bir tərəfdən "İrani-nov" qəzetəsi nəşri ilə millətin fikrini işıqlandırmaqla bərabər, digər tərəfdən də fədailər zümrəsində Məhəmmədəli şahın yaxıcı-yıxıcı, keyfə-mayəşası müqabilinə mübarizə etmişdir. Bədə orada dəxi irtica baş qaldıraraq rus istibdadı ilə İran keyfə-mayəşası əl-ələ verdikdə həyati təhlükəyə düşərək İrandan da İstanbula hicrət etmişdir. İstanbulda bir mühərrir sifətilə Məhəmməd Əmin əfəndi müxtəlif qəzetə və məcmuələrdə iştirak edərək Azərbaycan-Qafqasiya türk islamlarını Osmanlı türklərinə tanıtdırmaqda mühüm bir rol oynamışdır. Bugünki meyvənin o vəqt toxumunu saçanlardan birisi də haman Məhəmməd Əmin əfəndi olmuşdur.

Nəhayət, cahan müharibəsi ibtidasında Bakıya qayıdaraq ixtiyarı əlindən alınmış olduğu halda məhəlli qəzetələr başında duraraq "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" şüarı

[1] Bu başlıq altında iki məqalə dərc olunmuşdur. Birinci yazı "Ağaoğlu Əhməd bəy" adlanır və müəllifi Üzeyir bəydir – Ş.H.

ilə "Açıq söz" bayrağını qaldıraraq milləti bugünki işıq tərəfinə dəvətə başlamışdır. Axirüləmr Rusiya inqilabı başlanması ilə artıq meydanı açıq görərək Azərbaycan muxtariyyəti şüarını meydana ataraq məzkur şüarla işləyən Gəncə firqəsi ilə birləşib son il yarım vəqtini ancaq bu fikrə təxsis etmişdir. Bu uğurda Məhəmməd Əmin həzrətləri vəfat edən övladına təziyə saxlamaya macal tapmaz bir dərəcədə fədakarlıqla çalışmış və nəhayət məqsədinə nail olaraq Azərbaycan Cümhuriyyəti elan edilmişdir. Bundan sonra Məhəmməd Əmin öhdəsinə daha mühüm vəzifələr düşərək İstanbul konfransında Azərbaycan heyəti-mürəxxəsəsi rəisi sifətilə aləmi-islam paytaxtına gedərək orada Azərbaycan uğrunda çox təşəbbüslər etmiş, Azərbaycana edilən təcavüz və haqsizliklərdən vətəni müdafiəyə çalışmışdır. Bakının Rusiyayamı, ya Azərbaycanamı məxsus olması məsələsində Məhəmməd Əmin əfəndi tarixi, mədəni, iqtisadi dəlillər ilə Bakının Azərbaycanın başı və gözü olduğunu isbata qalxmışdı və həqqimizdə bunca həqsizlik işləmiş olan dövlətlərə protesto verdi.

20 yaşından bu günədək 13 il müddətində türklük, islamlıq, hürriyyət və istiqlaliyyət uğrunda Məhəmməd Əmin əfəndi fövqəladə fədakarlıq ibraz etmişdir.

Azərbaycanlılar Məhəmməd Əminlər yetişdirməsinə iftixarla öylələri həqqində qədrşünaslıqlarını da ibraz etməlidirlər.

**X. (Xəlil İbrahim)**
**"Azərbaycan", 10 təşrini-sani (noyabr) 1918, №35**

Nisar – qurban



## Azərbaycan Şurayi-Millisi rəyasətindən

Azərbaycan Cümhuriyyəti hökumətinin qərarına və heyəti-vükəla rəisi Fətəli xan Xoyski müraciətinə binaən Azərbaycan Şurayi-Millisinin noyabrın 16-da iniqad edəcəgini bütün Azərbaycan vətəndaşlarına elan ilə bərabər Şurayi-Milli əzasının yovmi-məzkurda Bakıda bulunmalarını rica ediyoram. Hər nə səbəbdənsə xüsusi dəvətnamə alamamış olan əzanın işbu elannamə ilə iktifa etmələri müstədadır.

**Azərbaycan Şurayi-Millisi rəisi:**
**Rəsulzadə Məhəmməd Əmin**
**"Azərbaycan", 11, 12, 13 təşrini-sani (noyabr) 1918, №36, 37, 38**

## Rəsulzadə cənablarilə müsahibə

İstanbul konfransının Azərbaycan heyəti-mürəxxəsəsi rəisi Rəsulzadə Məhəmməd Əmin cənabları mühəррirimizi hüzurlarına qəbulla İstanbul təəssüratları həqqində lütfən böylə məlumat vermişlərdir:

Heyətimizin qəsdi mərkəzi dövlət nümayəndələri ilə bərabər İstanbulda vaqe olacaq Qafqasiya cümhuriyyətlərinin konfransında iştirak etmək idi. Lakin siyasət aləmindəki təbəddülata görə konfrans baş tuta bilmədi. Hər halda bizim İstanblda olduğumuz mənfəətsiz keçmədi. Böylə ki, məruzə və mühazirələrimiz ilə Türkiyə əhalisini Azərbaycan və onun ümid və arzuları ilə aşina etdik. Burasını da qeyd etməlidir ki, İslam mərkəzi olan İstanbulda Qafqasiya, xüsusən Azərbaycan həqqində məlumatları çox azdır. Brest-Litovsk əlavə müahidənaməsinin təbir və təfsiratı yolunda Türkiyə mətbuatı bizə böyük müavinət göstərdi. Bu əlavə müahidənamə münasibətilə alman səfirinə protest notası verdik. Bu məsələ haqqında Türkiyə mətbuatı bizim ilə həmrəy olub bütün hüsni-rəğbət və təvəccöhi bizim tərəfimizdə idi. Biz hamı dövlət nümayəndələri ilə görüşüb Azərbaycan əhvalı ilə onları aşina etməklə bərabər müstəqil yaşamaq hüququmuzu müdafiə etdik. Hər yerdə biz məhəbbət ilə qəbul edilib hüsni-təvəccöh ilə qarşılandıq. Rəsmi nota ilə biz Azərbaycanın istiqlaliyyəti həqqində dövlətləri xəbərdar etdik. Bizim heyətimiz təntənəli bir surətdə Türkiyə Sultanı tərəfindən qəbul edildi[1]. Sultan həzrətləri bizim təbrik nitqimizə cavab olaraq izhar etdilər ki, Türkiyə hökuməti bacardığı müsaidi-vəsail ilə Azərbaycan istiqlaliyyətini mühafizə və müdafiə edəcəkdir. Bundan əlavə Sultan həzrətləri Azərbaycan əhalisinə salam yetirilməsini xahiş etdi.

Üç ay bundan əqdəm vəfat edən Sultan Mehmed xan Xamisin (*) mərasimi-dəfnində və hal-hazırdakı Sultan Mehmed Sadisin (**) təntənəli cülusi-hümayununda iştirak etdik. Fürsətdən istifadə edərək İstanbul əhalisini Azərbaycan əhvalı ilə aşina etməkdən başqa özümüz də Türkiyə həyatına bələd olduq. Türkiyə adətlərindən bizim təəccübümüzü mucib olan bir əhvalı nəql etməliyəm. Sultanın vəfatından sonra onun cənazəsi həsirə bükülüb dəhlizdə pilləkan altında qoyulur. Tazə Sultan cənazə yanına gəldikdə şeyxülislam tazə Sultana müraciətən:

– Bax, sənin də axırın bu tövr olacaqdır, – diyor.

Salamlıq zamanında Sultan həzrətləri məscidə gəldikdə əskərlər onu padşahım, məğrur olma, səndən yuca Allah var, nəğməsilə qarşılıyorlar.

İstanbul əhvalı xeyli sakitdir. Qəzetələrin nümayişlər həqqində verdikləri məlumat həqiqətdən uzaqdır. Əhali hökumətə etibar və etimad göstərməklə sülh müzakiratının axırını və cahan müharibəsinin nəhayətini bəkləməkdədir. Hər cür sınamalar davam edib mal ilə məmlu olan dükanlar alış-verişə məşğuldur. Ərzaq cəhətdən əskiklik yoxdur. Ancaq qara çörək girvənkəsi 4 qəpikdən kartoçka ilə, ağ çörək isə kartoçkasız azad bir surətdə 2 manat 50 qəpigə satılmaqdadır. Ət boldur və qiyməti də ucuzdur. Müslimə qadınlar arasında olan tərəqqi məni nəhayət dərəcədə şad və məsrur etdi. Türk qadınları fabrika, zavod, mağaza, kontora, posta, teleqrafda işləyib nəhayət, darülfünunlarda leksiyalara qulaq asanlar da az degildir. Hətta İstanbulun zahiri görkəmi Türkiyə milli mədəniyyətinin qüvvətlənməsini isbat edir. Türkiyə evləri qədim türk üsulu ilə tikilib hal-hazıra qədər qədim türk memarlığı davam etməkdədir. Türkiyə mətbuatına gəldikdə, bütün mətbuat türk milli mədəniyyətinin canlanmasına çalışmaqdadır.

## Parlaman həqqində

Rəsulzadə cənabları Müsəlman Milli Şurası sədri olmaq həsbilə bu günlərdə dəvət ediləcək parlaman məsələsindən bəhslə diyor ki:

Məlum olduğu üzrə təşrini-saninin 16-da sabiq Zaqafqasiya Seyminin müsəlman əzalarından 44 nəfərdən ibarət Müsəlman

[1] Bu qəbul 1918-ci il sentyabrın 6-da olmuşdur – Ş.H.

Milli Şurası dəvət edilir. Milli Şura parlamana təbdil edilib üzvləri isə 120 nəfərə qədər artırılmaqla qanunverici müəssisə olacaqdır. Bu vəqt parlamana Gürcüstanda və Ermənistanda olduğu kibi əqəliyyət təşkil edən millət nümayəndələri də daxil ediləcəklərdir. Müvəqqəti parlamanın davamı heç bir halda Məclisi-Müəssisan seçki işlərini dayandırmayacaqdır. Birinci növbədə parlaman cərəyan edən siyasi məsələlərin həllinə məşğul olacaqdır.

## Qafqasiyanın müqəddəratı

Bən Azərbaycanı müttəhidən Qafqasiya hökumətlərinin muxtariyyətli bir hissəsi təsəvvür edirəm ki, bu hökumətlər də Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqasiyadan ibarət olmalıdırlar. Sülh konfransında ümumi mənfəətləri müttəhidülqövl mühafizə və müdafiə etməkdən ötrü Qafqasiya cümhuriyyətləri arasında olan ixtilaflı məsələlər sülh təriqilə həll edilməlidir. Bu nəzəriyyatı biz əvvəlcə Zaqafqasiya Seymində yürütdüksə də mütəəssüfanə bir para şərait ilə bizim arzumuzun vücudə gəlməsi məmaniətə düçar oldu. Ümidvar oluruz ki, halhazırda Tiflisdə iclas etməkdə olan Zaqafqasiya Cümhuriyyətləri konfransı Qafqasiyada sülh və qardaşlıq bərpa edilməsi üçün ümumi bir dil tapar.

**"Azərbaycan",**
**13 təşrini-sani (noyabr) 1918, №38**

*(*) Sultan Mehmed Reşad (Beşinci Mehmed) (1-2/11/1844-3/07.1918). M.Ə.Rəsulzadə və Azərbaycan nümayəndəsi onun dəfn mərasimində iştirak ediblər – Ş.H*

*(**) Sultan Mehmed Vəhidəddin (Altıncı Mehmed) (2/02/1861-15/05.1926). 1918-ci il iyulun 4-də taxta çıxıb və M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti onun bu mərasimində iştirak edib – Ş.H*



Müsaid – kömək, münasib
Məsrur – sevinc, şən
Vəsail – vəsilələr
Müttəhidülqövl – sözübir
Xamis – beşinci
Sadis – altıncı

# Rəsulzadə Məhəmməd Əmin bəyin nitqi

Bu günlərdə Nuru Paşa həzrətləri şərəfinə keşidə edilmiş olan ziyafətdə Azərbaycan Milli Şurası sədri və İstanbul konfransı mürəxxəsləri rəisi Rəsulzadə Məhəmməd Əmin cənablarının söyləmiş olduqları nitqi eynilə qarelərimizə təqdim ediyoruz.

Natiq əfəndi diyor ki:

Böyük türk ordusunun qəhrəman zabitləri, gənc Azərbaycan Cümhuriyyətinin azad vətəndaşları! Şimdi hökumət rəisinin nitqini dinlərkən xatırladım. Bir il əvvəl idi. Xilaskar Osmanlı qardaşlarımızla bərabər olaraq duz-çörək yedigimiz bu salonda o zaman başqaları oturuyordu. Demokratizm prinsipini suyi-istemal edən bolşeviklər burada, türk və müsəlman mərkəzində, yerli əmələ və köylünün protestosuna rəğmən yabancı bir cəmiyyət təşkil eləmiş, bolşevik-daşnaksakan çətələri Bakıya müstövli olmuşlardı.

Bolşeviklər bütün aləm hüzurunda millətlərə kəndi müqəddəratlarını təyin etmək həqqini elan, dünyayı cənnət yapacaqlarını vəd eləmişlərdi. Xüsusi olaraq Lenin tərəfindən Qafqasiya fövqəladə komissarı təyin olunan Şaumyan naminə çıxarılmış əmrnamə ilə Türkiyə Ermənistanının muxtariyyəti dəxi elan olunmuşdu. Biz də Azərbaycan muxtariyyəti tələb ediyorduq. Eyni zamanda da "Müsavat" ümumi intixabla degil, təsəllüt yolilə toplanmış olduğuna mötəriz idik.

Fəqət bu muxtariyyət həqqindəki tələbimiz rus burjua firqələrindən ziyadə Bakı bolşeviklərinin etirazını mucib oluyordu; onlar bizə qarşı əngəllər törədiyorlardı. Nəhayət, açıqdan-açığa təhdidlərinə məruz qaldıq. Bizə dedilər ki: "Nahaq yerə səy ediyorsunuz. Azərbaycan muxtariyyətə layiq degildir. Siz muxtariyyət degil, onun əvəzində xarabazarlara nail olarsınız!

Əgər bu məqsədinizdən əl götürməz də mücahidatınızda davam edərsəniz əmin olunuz ki, görəcəginiz müvəffəqiyyətlər yalnız qış günlərinə münhəsir qalıb müvəqqəti olacaq, yaz açılınca böyük Rusiya cəzanızı verməyə gecikmiyəcəkdir".



O zaman vaqe olan bu təhdidlərə qarşı gərək "Müsavat" iclasında və gərək mətbuat səhifələrində müqabilə edərək – "məqsədimiz yolundakı mücahidədən vaz keçməyiz, Türkiyə ermənilərinə muxtariyyət vəd edən Leninin bakılı şagirdləri Azərbaycan muxtariyyətçilərini xarabazarlıqlarla təhdid etsələr də, biz kəndi məqsədimizdən əl çəkməyiz, hər növ təhlükələri gözə alaraq mücahidəmizə davam edəriz. Bizim degil, sizin müvəqqəti bir qələbə çalacağınızı bilər, bundan dolayı sizi təbşir edəriz. Fəqət bir az da daimi qələbənin kimə aid olacağı həqqində düşünmənizi ixtar eyləriz. Əlbət ki, bir Lenin də çıxar bizim muxtariyyətimizi təmin edər!" – demişdim.

İştə əfəndilər, bir sənə əvvəl təhdid olunduğumuz bu binada şimdi o sırada ümid etdigimiz bir zəfəri elan ediyoruz. Müvəqqəti qələbə onların, daimisi bizimdir! (Alqışlar).

İş sisli "Şimal hürriyyətinə" qalsaydı bu gün məhv olub bitmişdik. Lillahülhəmd ki, teyri-istixlasımız Cənubun bərraq və saf səmasından doğdu, iştə onun həyatbəxş nurları ilə isiniyoruz (Alqışlar). Daimi qələbədən bəhs etdigim bu sırada çəkilməz fəlakətlər keçirmiş olan qəlblərə üfiqi-siyasətdə tərakūm edən qara buludlar bəlkə də bəzi əndişələr ilqa edər.

Fəqət bu əndişələrə məhəl yox. Türklər Bakıda ilk dəfə degildirlər. Böylə bir vəziyyəti-siyasiyyəyi Bakı bundan 350 sənə əvvəl dəxi keçirmişdir. O vəqt Özdəmir oğlu Osman paşa bir miqdar əskərlə bu tərəflərə gəlmiş, Şamaxı, Quba, Dərbənd və Bakıyı almışdı. Bir az sonra Hökuməti-Mərkəziyyə əqdi-sülh edərək Özdəmir oğlu yalnız qalmış, İstanbul tərəfindən tərk olunmuşdu. Fəqət o cəsur komandan məyus olmamış, əzminə xələl gətirməmişdi. Hər növ hücumları müdafiə etmək lazım idi. Osman Paşa Bakı neftini inhisar altına almış, ipəgə külli maliyyat vəz eləmiş, bu surətlə büdcəsini yoluna qoymuş, Bakı qalasını təmir edərək müdafiəsini Əhməd bəy namında bir komandana tapşırmış, kəndisi Dəmir Qapıya – Dərbəndə çəkilmişdi. Bu surətlə Bakı altı ay tamam mühasirəyə dayanmış, nəhayət düşməni rəf edə bilmişdi. Tarix yenə təkrar edə bilər, həm etməlidir! (Alqışlar).

Həzərat, maddətən qələbəyi-daimi qazanmış olduğumuz – nəuzu billah – müvəqqəti olsa belə, Azərbaycan istiqlalı mənən qazanılmış nemətlərdəndir. Dağları, dərələri, susuz səhraları aşıb gələn qardaşlarımızla bərabər şu doğma topraqlarımız üzərində qayalaşdıq, yenidən qardaş olduq. Topraqlarımız əsrlərdən bəri yekdigərini qaib etmiş qardaşların əməl yolunda verdikləri qurban qanları ilə islandı; Turan toxumu əkildi. O böyük fikrin yıldızı doğdu. Dan yeri ağardı. Osmanlıların benamitürkçülərindən:

"Vətən nə Türkiyədir türklərə, nə Türküstan,
Vətən böyük və müəbbəd ölkədir Turan"

Deyən Ziya Gökalp bəy hərbi-ümuminin ibtidasında təfal edərək:

"Rusiya dağılıb viran olacaq,
Türkiyə böyüyüb Turan olacaq" demişdi. Turan bu gün maddətən qazanılmamışsa da, mənən hasil olmuş; Turan fikri doğmuşdur. Bir kərə doğan fikir bir daha ölməz, bir daha sönməz! Ən qaranlıq gecələrimizdə bizə məşəli-hürriyyət gətirən və ən çətin dəmlərimizdə imdadımıza gələrək bizi xilas edən qardaşlarımızı bizə doğru qoşduran, yolumuzda qurbanlar verdirən iştə bu məfkurə, bu yeni doğmuş əməl günəşidir. O əməl günəşi ki, bir Nuru da (Nuru Paşayı göstərərək) iştə bizimlə bərabər! (Sürəkli alqışlar). Yaşasın əməl yolunda fədayi-can edən türk ordu və zabitanı, yaşasın böyük Turan! (Təkrar sürəkli alqışlar).

**"Azərbaycan",**
**14 təşrini-sani (noyabr) 1918, №39**

Kəşidə – düzəldilmiş
Müstövli – ortaq
Təsəllüt – hökmlə
Mötəriz – etiraz edən, müxalif
Mucib – səbəb
Təbşir – şad
Bərraq – parlaq
İstixlas – xilas olma, qurtulma
Teyr – quş



## Şurayi-Milli rəyasətindən

Şurayi-Milli iclası bu gün saat 1-də Duma zalında açılacaqdır. Şura əzalarından saat 12-də gəlmək rica olunur.

Düvəli-əcnəbiyyə nümayəndələrindən ötrü xüsusi mövqe hazırlanmışdır.

**Şurayi-Milli rəisi: Rəsulzadə Məhəmməd Əmin**
**"Azərbaycan", 16 təşrini-sani (noyabr) 1918, №41**

## Hanki ümidlə?

Azərbaycan istiqlalının yeni bir səhifəsi vərəqlənir. Şurayi-Milli açılır.

Şurayi-Milli açılır.

Bu sədayi eşidən azərbaycanlı əndişəsiz degildir. Düçar olduğu bu qədər müsibətlər, giriftar olduğu bu qədər fəlakətlər kəndisində bir növ yas və naümidlik törətmişdir.

Mart hadisələrini görən, hürriyyət, ədalət və millətlərə həqqi-müsavat vəd edən adamların birər cani, qatil və cəllad kəsilərək su əvəzinə qan axıtdıqlarına şahid olan sentyabr müzəffəriyyətinin bütün şədaid və nəhslərini duyaraq qurbanlar verən, hərb və zərbin, səfalət və fəlakətin, daxili müharibələrin bütün müsibət və ələmlərini çəkən Azərbaycan vətəndaşı heç şübhəsiz ki, "Şurayi-Milli açılır" – deyincə bir az düşünəcək. Artıq əhvali-fövqəladədən çıxaraq mənidar bir həyati-siyasiyə başlayacağı fikrini bəsləmək istəyəcəkdir.

Fəqət nasıl, Türkiyə mütarikə əqd etmiş, Avstriya-Macarıstan qitə-qitə olmuş, Bolqariya çoxdan təslim olmuş. Almaniya silahını qoymuş. İnqilab atəşləri bütün Orta Avropa məmləkətlərini bürümüş, boğazlar açılmış, ingilislər Bakının qapısına dayanmışlardır.

Böylə ikən, əcəba, hanki ümidlə Şurayi-Milli açılıyor? Şurayi-Milli bu qədər müşkülata qarşı Azərbaycan istiqlalını mühafizəyə qadir olacaqmı?

İştə əfkari-ümumiyyəmizin "Hanki ümidlə?" sualı ilə xülasə etmək istədigi bir həyəcan.

Fəqət bu həyəcana pək o qədər də məhəl yox. Tamamilə ümidsiz bir halda degiliz. Şurayi-Millinin açılması ilə azərbaycanlılar müqəddəratlarını tamamilə kəndi əllərinə alıyorlar. Burası millətin əməllərini, arzu və məqsədlərini bütün cahani-mədəniyyətə elan edəcək bir kürsüdür. Bu kürsünün öz kürsümüz, öz minbər və öz məbədi-siyasiyyəmiz olduğunu bütün cahana isbat etməliyiz, etməklə mükəlləfiz.



Qoy Mərkəzi Avropa dövlətlərinin cahanı təhdid edən bazuyi-əhəninin qırılmaq keyfiyyəti bizi heç də naümid etməsin. Bizə həqqimizi verəcək, həqqi-həyatımızı təmin edəcək qüvvət nə Krupun topları, nə də digər bir qüvvəyi-cabirədir. **Biz həqqi-həyatımızı hər şeydən əvvəl kəndi iman və istedadımızdan, sonra bütün dünyaya hakim olacaq fikri-hürriyyət və üxüvvətdən alacaqdıq.**

Şimdi hərb və zərb dövrəsi keçərək fikir və istidlal zamanı hülul ediyor. Bu gün qaliblər də məğlubların irəli sürdükləri əsasatı müdafiə ediyorlar. Lenin tərəfindən millətlərin hüququna aid elan olunan düsturlar, Vilsonun şəraiti-sülhiyyəsinə dəxi bir zəminə təşkil ediyor.

Vilsonun bütün aləm müvacihəsində elan etdigi prinsiplərin bizə tətbiq edilmiyəcəgini düşünmək üçün meydanda heç bir səbəb və cəhət yoxdur. Əcəba, nə düşünülüyor? Bütün Aləmi-İslamə nafiz bulunmaq vəziyyətində olan İngiltərə yanı başımızda bir gürcü, bir erməni və sair millətlərin hüquq və həqqi-həyatını tanır da bizi boğarmı? Böylə bir düşüncə əbəs olsa gərəkdir.

Bizə həqqi-həyat tanıyacaq İngiltərə ilə pək əla uyuşur və etilaf edəriz. Azərbaycan hökuməti Bakı dəxi daxil olduğu halda Qafqasiyanın qismi-mühümmü üzərində əmniyyət və asayiş təmin etməklə ingilislərə müfid olur, ingilis mədəniyyət və fünunundan da biz istifadə edəriz.

Ümid edəlim ki, bütün millətlərə həqq və hürriyyət vəd edən Vilson zümrəsi Azərbaycan hürriyyət və istiqlalını boğacaq bir vəziyyət almasın.

Əvət, ümid edəlim. Bu ümidlərimiz vicdani-milliyyəmizin imanı və hərbi-ümumi nəticəsində təsis edəcəgi möhtəməl bulunan "Cəmiyyəti-Əqvam" şüarı ilə ruhlansın.

Bu gün biri digəri ardından devrilən təxtlərin, qurama su kökü kibi parçalanan dövlətlərin, yarı Avropayı istila edən inqilabların yalnız bir mənası vardır: demokratizmin qələbəsi! Bu qələbə yarı dünyayə degil, bütün aləmi-mədəniyyətə şamil olmayınca bəşəriyyət sükun bulamıyacaq. Bunu görməli, o surətlə hərəkət etməlidir.

İştə Azərbaycan Şurayi-Millisi böylə ümumi bir demokratizm ərəfəsində açılıyor ki, bu açılış bizim də millətlər bayramına hürriyyət libası geyərək çıxmamızı mucib olacaq.

Ümid və iman edəlim ki, Azərbaycan kibi müqəddəs atəşi ilə əskidən bəri bir ziyarətgah kibi tanınmış olan yurdumuz demokratlığını yalnız sovuq göstərmişlərə münhəsir etməyib, səmimi işləri ilə də isbat etsin.

Qoy Azərbaycan Şurayi-Millisi qanlardan bıkmış, xərabəliklərdən usanmış bəşəriyyətin sülhi-ümumi bayramı üçün yapacağı çırağına kəndisinə məxsus Azəri bir ziya sancsın, kəndi himayəsində yaşayan insanları bilafərq cins və məzhəb bəsləyəcək bir yurd, isindirəcək bir ocaq olsun!

Ey qarei-möhtərəm, hanki ümidlə? – soruyordun. İştə böylə bir ümidlə!...

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 16 təşrini-sani (noyabr) 1918, №41**

Tovzi – bölüşdürmə
Bazi – əzəmət, qüvvət
Bazui-ahənin – dəmir kimi qüvvəti, qolu
Şədaid – müsibət
Nəhs – uğursuz
Müvacihə – üzbəüz dayanmaq
Nafiz – nüfuz edən



# Azərbaycan Şurayi-Millisi tarixindən

Azərbaycan Şurayi-Millisinin 1918 sənə iyun ayının 17-də Gəncədə Fətəli xan Xoyski hökuməti-hazirəsini təşkil edərək bütün səlahiyyəti-hökuməti kəndisinə tövdi ilə tatil etdigi qarelərimizə məlumdur. İyunun 17-i Azərbaycan tarixi istiqlalına səbt olunacaq günlərdir. Şurayi-Millinin təkrar həyat və fəaliyyətə başlandığı bu gündə fövqüzzikr günün iclasını qaparkən Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin həzrətləri tərəfindən irad olunan nitqi nəşr etməyi münasib gördük.

İştə nitqin məzmunu[1]

Həzərat! Daha sabahkı iclasımızı açdığım zaman nə kibi məsuliyyətli və ağır bir zaman içərisində bulunduğumuzu ixtar eləmişdim. Tarixi məsuliyyətin bütün o çəkilməz yükünü şimdiki qərarınızla Fətəli Xan Xoyski cənablarının təşkil elədigi hökumətinin omuzlarına yüklədiniz. Bu qərar bir tərəfdən əhvalın icabı, digər tərəfdən də "blok" ilə "Hümmət"in istefaları üzərinə mənən və şəklən alınma məcburiyyətini hasil etmişdi.

Dünya müharibəsi və Rusiya inqilabının təsiratı ilə yeni doğmuş və həyati-siyasiyyəyə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçiriyor. Bu yeni türk növzadi-siyasəti rüşdü-büluğ bulub da millətlər zümrəsinə bir amili-həyat olaraq girə biləcək, yoxsa sısqa çocuqlar kibi südəmər halında ikən tərki-həyat edəcəkmidir!? İştə bütün zehinləri işğal edən bir məsələ! İştə bir zamanki müqəddərati-milliyyəyi əllərinə alanlar üçün Azərbaycan növzadını tələf etdirməmək kibi müşkül, fəqət müşküllügi ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor. İştə böylə bir zamanda və bu böyük məsuliyyəti-əzimənin bari-giranı altına girmiş olduğu halda Fətəli Xan cənabları hüzurunuza çıxıb da etimadınızı istəməklə kəndisinə iqtidar arıyor. Fəqət bunu yaparkən o, diqqət etdiniz yəqin ki, nə qədər sararmış, titrəmişdi. Siz onu ehtimal ki, heç bir zaman və heç bir məkanda bu dərəcədə lərzan və hərasan gör-

[1] Fövqüzzikr iclasın mütaliəsini müfəssəl başqa bir nömrəmizdə dərc edəcəgiz.

məmişdiniz. Bu nəyə bənzər bilirmisiniz? Dəhşətli həngamlarda səfəhati-hərbin məsuliyyətli dəmlərində ricət yapmaq məcburiyyətində qalan bir ordunun mövqei-məxsusi son dərəcə imkanı qədər mühafizə etmək üzrə bırakdığı məfruzəyi istila edə bilən həras və xəşyətə...

Əvət, əfəndilər, Azərbaycanın paytaxti-müvəqqətəsi bulunan Gəncədə naqis də olsa hakimiyyəti-milliyyəyi təmsil edən bir müəssisənin şu surətlə meydandan çəkilmək məcburiyyətində qalması heç şübhəsiz demokrasinin bir ricəti və qüvaimürtəcenin bir müvəffəqiyyətidir. Bu ricət ağ və pak qüvvətlərə müqabil qara və napak qüvvətləri təqviyə edəcəkdir. Bu nöqteyinəzərdən baxılınca ilk nəzərdə bizim halımız o qara binanın halına bənziyor kibidir. Bu hallar bizdə Rusiya məqasidi-inqilabisinin iflasına dair bir əqidə hasil ediyor. Fəqət əfəndilər! Zəvahirlə bakmıyalım, səthi düşünmiyəlim, pək də məyus olmıyalım.

Bəncə, Rusiya inqilabi-əzimi hər nə derlərsə-desinlər, qətiyyən iflas etmədi. Rusiyada inqilab nə yapacaqdı? Bu suala "Böyük Rusiya" fikri ilə məsmum olan rus inqilabçıları nöqteyinəzərindən degil, inqilabın kəndi təbiətini təhlil edərək cavab verməlidir. Böylə bakılırsa Rusiya inqilabı məzlum və məğdur siniflərlə məhkum millətləri azad etməlidi. Məğdur siniflər, təqdir edəlim ki, istədiklərindən fəzləsini aldılar. Millətlər isə birərbirər kəsbi-istiqlal ediyorlar. Əvət, dünyanın altıdan birini tutan böyük Rusiya parçalanıyor. Fəqət inqilab böyük Rusiya yaratmaqlamı müvəzzəf idi? Qətiyyən degildi. İfrata gedən sinif hürriyyətləri əlbəttə ki, təyid olunacaq və mötədil bir şəklə girəcəkdir. Çünki bu hürriyyətin şəkli-haziri heç şübhəsiz ki, hürriyyət degil, bir afət və fəqət bu yolda yapılacaq ricət əminəm ki, hər halda inqilabdan əvvəl mövcud olan hüdudun ötəsindən degil, bərisində təvəqqüf edəcəkdir. Deməк, əhval əvvəlkisinə nisbətlə hər halda iyi olacaqdır.

Əfəndilər! Bən sabiq Rusiya ərazisində güzəran etməkdə bulunan vəqaeyə böylə bakıyorum, buna görə də hala ümidlərimlə bərabər olaraq yaşıyorum. Biliyoram, əfəndilər ki, Azərbaycan Rusiya inqilabının vəz etmiş olduğu müsbət nəzəriyyələrlə elan etdigi əqanimi-hürriyyətdən son dərəcədə istifadə edəcəkdir.



İştə müstəqil bir Azərbaycan, siyasətən kəsbi-hürriyyət və istiqlal edəcək Azərbaycanda ictimai hürriyyətlər və hüquqi-bəşərə aid dəsturlar hər halda müstəbid Rusiya zamanından daha geniş, daha əlverişli olacağına şübhə etməm. Hətta əfəndilər, söyləmək istərəm ki, Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hürriyyətlərimizə icrayi-nüfuz edən və edəcəgi mütəsəvvür bulunan qüvvət yabancı bir qüvvət degil, öz qüvvətimizdir. (Alqışlar). Burada istiqbal böyük və şanlı bir millətin müxtəlif şöbə və budaqlarını tövhidə doğru gedəcək ki, eyni məqsədimizdir. (Alqışlar). İctimai və hüquqi hürriyyətlərdə bərfərz qaib etsək belə, siyasətən qazanacaq, təlafi mafat edəcəgiz. Halbuki Ukrayna, Gürcüstan və sairə öylə degildir. Əvət, əfəndilər! Pək də naümid olmayalım. Tarixin amali-milliyyəmiz nöqteyi-nəzərindən müsaid bir zamanında olduğumuzu, türk ittihadı üçün fürsət ələ keçdigini unutmayalım. Bütün məsaimizi bu hürriyyəti-siyasiyyənin təşəbbüsünə sərf edəlim. Bunun üçün də hər dürlü fədakarlığa amadə bulunalım.

Sizi, ey heyəti-hökumət, böylə bir əmri-əzimin ifası üçün tövkil ediyor, bütün məsuliyyəti öhdeyi-hökumətimizə təhmil etməklə zənn etməyiniz ki, yalnız qalıyorsunuz. Yetişər ki, siz keçirməkdə olduğumuz zamanın əhəmiyyəti ilə mütənasib, amalimilliyyə ilə müvafiq, türklük əlasına, Azərbaycanın hürriyyətinə, türk kütleyi-nasının mənafeyinə mətuf olan icraatınızda kəhalət və müsahilə göstərməyib də, yorulmaz bir əzmlə çalışasınız. Biz hər zaman sizə məin olmaya hazırız, istədiginiz zaman bizi kəndinizlə bərabər bulacaqsınız. Biz hüzurumuzla sizə məin olmaya hazır olacağımız kibi icabı təqdirində başqa yollarla da sizi təqviyəyə hazırız. Nitəkim bugünki tətilimiz dəxi bu hisslə və bu məqsədlə icra olunuyor.

Şurayi-Millinin heyəti-hazirəsi həqqində vaqe olan tənqidatə qarşı buradan bəhs etməyə lüzum görmüyorum. Siz biliyorsunuz ki, bu tənqidat heyətdən ziyadə əsasa mətufdur. Bu münəqqidlər həqqindəki mühakimatı tarixə həvalə edəlim. Bir kaç ay sonra əgər bu vahi tənqidlərdə arzui-millət arayan ərkan əsasın degil, heyətin əleyhində isələr hürriyyət intixabatı təminilə mil-

lətin həqiqi tələqqiyatını görürlər. Millət kəndisi bizimlə onların arasında həkəm, o zaman həqq ilə batil də əyan olur.

Şimdi artıq bu ağır günlərdə öhdəsinə bir vəzifə tövdilə tərk etdigimiz hökumətə ərzi-vida edəlim də ayrılalım.

Əfəndilər! Sizdən, kəndi həqqimdə əzvi-ehtiramdan başqa bir şey görmədigim əziz arkadaşlarımdan ayrıldığım əsnada öhdəmə vagüzar etmiş olduğunuz vəzifə saiqi ilə yapmış olduğum qüsurlarımın əvəzini diləməgi ayrıca istirham edərim. Şimdi vəqt gəliyor, saati-vida vuruluyor. Yekdigərinə qardaşcasına əlvida edəlim. Və ayrılırkən – əfəndilər! Bu ümidlə gedəlim ki, inşəallah yakında, Azərbaycanın paytaxtı bulunan Bakıda Azərbaycan Məclisi-Müəssisan dairəsində buluşuruz.

Yaşasın Azərbaycan, yaşasın türklük! (Şiddətli və sürəkli alqışlar). Məclis saət ikidə qapanıyor.

**Azərbaycan",**
**16 təşrini-sani (noyabr) 1918, №41**

Tövdi – təslim etmə; vidalaşma
Rüşdü-büluğ – həddi-büluğa çatan
Bari-giran – ağır yük
Lərzan – titrəyən, titrək
Hərasan – qorxaq, ürkək
Təqviyə – qüvvətləndirmə
Məsmum – zəhərlənmiş
Xəşyət – qorxu
Müvəzzəf – vəzifə həvalə edilən
Əqanim – əsillər
Mafat – itmiş, yox olmuş
Tövkil – vəkil etmə
Tövhid – birləşmə
Həkəm – münsif, arbitr
İstirham – yalvarma, xahiş etmə
Məfruzə – ayrılmış, ifraz edilmiş, fərz edilən, vacib olan
Məin – daşan su



## Azərbaycan Parlamanında

16 təşrini-sani saat 1-də təyin edilmiş olan iclas saat 2:15 dəqiqədə açılıyor. Hələ saat 12-dən iclasın intizarında yüzlərcə adam duruyor. Nəhayət, Məclis açılıyor. Şurayi-Milli əzası və nazirlər qabaqca hazırlanmış yerləri işğal ediyorlar. Əcnəbi məmləkət nümayəndələrindən Gürcüstan və Dağıstan hökumətləri nümayəndələri, erməni və rus Milli Şuraları nümayəndələri və İran general konsulu isbati-vücud ediyorlardı.

Salon tamaşaçılarla dolu idi.

**Rəsulzadə Məhəmməd Əmin** bəy cənabları sədr yerini tutaraq iclası açıyor və aşağıdakı nitqi ilə hazirunə xitab ediyor:

Möhtərəm Şura əzası! Bu gün Azərbaycan Şurayi-Millisi Azərbaycanın baş və ayrılmaz bir əzasını təşkil edən paytaxtında açılıyor. Azərbaycanlılar, necə ki hamınıza məlumdur, heç vəqt hürriyyət və istiqlaliyyət fikrindən ayrılmıyaraq daima bu uğurda çalışmış, mübarizə eləmişlərdir, Rusiya çarizmi dövründə onların fəaliyyəti yalnız milli ədəbiyyat, milli məktəb, milli mədəniyyət mübarizəsində təzahür etmişdir. Çarizmin süqutu ilə bütün millətlər əl-ələ verib müqəddərati-milliyyələrinin həlli, hüquq və istiqlaliyyətləri yolunda çalışdılar. Fəqət çarizm süqutundan sonra inqilab öylə şəkil və surət aldı ki, millətlərin hüquqi təmin edilmədi. Millətlər arzu və amallarına nail olmadılar. Fəqət nə qədər səddlər çəkilsə, maneələr qonulsa belə inqilab nəticəsində bütün millətlər inqilabın fütuhat və meyvələrindən istifadə etdilər.

Bədə sədr cənabları Qafqasiyanın Rusiyadan ayrılması, Qafqasiya millətlərinin istiqlaliyyət elan etmələri, Azərbaycan Milli Şurası elanı və işi hökumətə tapşıraraq səhnədən çəkilməsini təsvirlə diyor ki:

"Şimdi artıq Şurayi-Milli yenidən həyata dəvət edildi.

Bakının ziynəti, milli hiss və cərəyanların məcmui, milli təşkilatının mərkəzi "İsmailiyyə" idi. Arzu ediliyordu ki, Milli Parlamanımız haman möhtəşəm binada iclas qursun. Fəqət bu gün o möhtəşəm bina xərabə halına gəlib, iclasımız bələdiyyə salonun-

da açılıyor. Lakin ev yanar, amma millət, milli istiqlaliyyət fikri, milli ruh ölməz. Ev yanar, fəqət millət onun şöləsi ilə tutuşar, milli hüququnu almaq, milli müqəddəratını öz əlinə salmaq uğrunda çalışar. Qoy bu ataş bizi yaksın, amal şöləsi versin! Burası var ki, bu gün biz qayət müşkül bir vəziyyətdəyiz.

Doğrudur, Milli Şuramız Məclisi-Müəssisan əzası ilə tamam xəlq tərəfindən seçilmiş bir şura degildir. Lakin tarix öylə şeylərə çox təsadüf etmiş, çox öylə əmrlərə şahid olmuşdur. Bugünki Milli Şuramız parlaman surəti almaq üçün genişliyəcək, oraya bütün siniflərdən, müqəddəratını Azərbaycan müqəddəratı ilə əlaqədar edib, Azərbaycanın şadlığı ilə şadlanan, qəmi ilə qəmgin olan bütün millətlərin nümayəndələri cəlb olunacaqdır. O vaxt tam bir parlamana malik olacağız. Fəqət hələ bugünki günə nail olmaq üçün millətimiz nə qədər fədakarlıqlarda bulunmuş, nə qədər qurbanlar vermişdir. Azərbaycan istiqlaliyyət, bu muxtariyyəti yolunda nə qədər qurban verdigimizə möhtəşəm "İsmailiyyə" binasının xərabəsi müdhiş bir timsaldır. Bundan əlavə hamımız bilməliyiz ki, bu səadətə nail olmamızda biz, hər şeydən ziyadə bizim dəvətimiz, ricamız ilə imdadımıza gəlmiş və bizim həyatımızı qurtarmış olan türk əskərlərinə mədyunuz.

Bədə natiq gərək türklər və gərəksə Azərbaycanın vermiş olduğu qurbanlar, vətən və millət şəhidlərinin tərhimi-ruhi üçün ayağa qalxmayı təklif ediyor. (Hamı qalxıyor). Sonra Şurayi-Milli əzası Lütfəli bəy Behbudovun tərhim üçün ayağa qalxmayı təklif ediyor, yenə (hamı qalxıyor).

Sonra təkrar nitqinə davamla diyor ki: bu gün biz azərbaycanlılar Şuraya yığıldıqda Milli Şura əzaları və bütün hüquqi-milliyyənin müdafiəsi, namusi-milliyyənin mühafizəsi üçün firqə nizai, sinif münaqişəsi və sairəyi kənara ataraq əl-ələ versək, müttəhidən çalışsaq əmin olmalıdır ki, vicdani-bəşərdə yerləşmiş olan hüquqi-milliyyədən məhrum qalmarız. Hazırda qalib, məğlub ümumidövlət və millətlər arasında ən artıq intişar tapan haman millətlərin müsavati-hüquqi və müqəddərati-milliyyə təyininin özlərinə tapşırılması şüarıdır. Əminəm ki, burası quru söz olmayıb, bəşəriyyətin milyonlarca qurban verməsi,



cəmiyyəti-bəşəriyyətin buna müvafiq vəziyyət alması iqtizasıdır. Bəşəriyyətin vicdanına inanalım. Bu uğurda çalışalım və əmin olalım ki, çalışsaq "Cəmiyyəti-Əqvam" içində Azərbaycanın da yeri olacaqdır. Böylə bir yer bulmağa həqqimiz olduğunu kimsə inkar etməz.

**Azərbaycan",**
**17 təşrini-sani (noyabr) 1918, №42**

Tövdi – təslim etmə

## Azərbaycan Milli Şurasında
## Birinci iclas

**Fətəli xan Xoyski** – sədrdən sonra hökumət rəisi Fətəli xan Xoyski çıxaraq hökumət namından Şurayi-Milliyi təbrik ediyor və vəqtin qeyri-müsaidligi, vəziyyətin təqa—zasından dolayı müfəssəl məlumat verəmiyəcəgini bildirərək diyor ki: Şurayi-Milli dəvəti üçün 6 ay möhlət verilərkən bütün ümuri-ixtiyar hökumətə tapşırılmış olduğu halda, bunun öhdəsinə verilmiş vəzifəyi ifa etmədən Şurayi-Milliyi vəqtindən əvvəl çağırmasının səbəbi budur ki, Şurayi-Millidən ayrılan zaman hökumətin işləri maliyyat, əskər və daxili intizam cəhətlərindən qayət fəna idi. Anarşi hökmfərma idi. Daha mühümi budur ki, paytaxtımız əlimizdə degildi. Hökumət müşkül bir vəziyyətdə və bugünki yığılışa nail olmaq üçün bir çox mübarizə və davalar qarşısında idi. Şükür olsun ki, şimdi anarşi qırılmış, maliyyat yaxşı bir halə gətirilmiş, dəmiryolu və sairə düzəlmiş, Azərbaycan üçün qoşun əmələ gətirilmişdir. Bakı məsələsi hüsni-həll olunaraq zülm ilə əlimizdən alanlardan təmizlənib geri alındı və şimdi paytaxtımız oldu. Paytaxtımız əlimizdə olmadıqca Məclisi-Müəssisan hazırlığı üçün bir komissiya təşkil edildi. Hala da işləməkdədir. Amma övzayi-siyasiyyə böylədir ki, şimdiki nazik və mühüm bir zamanda hadisatı təqib etmək belə qeyri-mümkündür. Səhər qeyri-mümkün ədd olunmayan bir şey axşam əmri-vaqe kibi araya çıxıyor. Böylə bir zamanda 2-3 ay gözləyib Məclisi-Müəssisan çağırmaq olmaz. Böylə bir zamanda hökumət bütün işlərdə yalnız özü məsul olmamaq üçün məcbur oldu 6 ay gözləmədən Milli Şurayı dəvət etsin, tainki onun göstərməsi və iştirakı ilə çalışsın. Hökumət və biz istəriz ki, istiqlal nə qədər çətin ələ gələn və çox qurban tələb edən, müşkülat çıxaran bir əmr isə də, müttəhidən çalışsaq müşküllər səhl olar. Necə ki, sədr cənabları ərz etdilər, firqə və sinif ixtilafını kənara buraxaraq müttəhidən istiqlalə çalışmalıdır.

Nitqinin axırında baş nazir həzrətləri hökumət namından hökumət işlərini Şurayi-Milliyə tapşırdığını bəyanla şurayı yenidən təbrik ediyor.



**Sədr** – Şura namından parlaman dəvətinədək qüvveyi-icraiyyənin yenə hökumət öhdəsində qalmasını təklif etməklə izn istiyor.

**Pepinov** – təklif ediyor tənəffüs elan olunsun.

5 dəqiqə tənəffüs elan ediliyor. Tənəffüsdən sonra **Rüstəmbəyli Şəfi bəy** cənabları "Əhvali-fövqəladəyi nəzərə alaraq hökuməti-hazirə iş başında qalıb qüvveyi-icraiyyədən istifadə ediyor" məzmunlu bir formula təqdimilə qüvveyi-icraiyyənin hökumət öhdəsində qalmasını təklif ediyor.

**Pepinov** – sosialistlər ittifaqı namından bəyan ediyor ki, hökumətin təsisində iştirak etmədikləri kibi bu gün istefası münasibətilə də səs verməyəcəklərdir.

**Şeyxülislamov** – menşevik "Hümmət" firqəsi namından eyni bəyanatı veriyor.

**Sədr** – səsə qoyur. Məzkur iki fraksiya rəy vermədikləri üzrə ittihadi-ara ilə Şəfi bəyin təklifi qəbula keçir.

**Məhəmməd Əmin bəy** – təklif ediyor ki, Şura izn versin heyəti-rüəsa cəmaətə xitabən bir müraciətnamə və bəyannamə nəşr etsin. Bundan əlavə hüquq və istiqlalımız həqqində bəşəriyyət hüzurunda səsimizi yucaltmaq lazım gəldigindən şura izn versin bəşəriyyət və mədəniyyət naminə Vilson və aləmi-mədəniyyətə xitabən bir müraciətnamə nəşr edilsin.

Bəyannamələrin tərtibi beynəlfərq şuraya həvalə olunur.

**Azərbaycan",**
**18 təşrini-sani (noyabr) 1918, №43**

# Azərbaycan Milli Şurasında

Təşrini-saninin 20-də axşam saat 9-da Azərbaycan Milli Şurası, Şura rəisi Rəsulzadə Məhəmməd Əmin bəy cənabları tərəfindən açılıyor. İclasda Azərbaycan hökuməti baş naziri Fətəli Xan Xoyski, qeyri nazirlər isbati-vücud ediyorlar.

Əvvəlcə Şura rəisi Milli Şuraya daxil edilən Azərbaycan Məclisi-Məbusanı (parlamanı) təşkili həqqində layiheyi-qanuniyə əsbabi-mucibəsini oxuyur.

Layihə budur:

**Müvəqqəti Azərbaycan parlamanı (Məclisi-Məbusanı) təşkili həqqində layiheyi-qanuniyyə əsbabi-mucibəsi**

1917 sənəsi aprel ayında toplanan Ümumqafqasiya müsəlmanları qurultayı Cənubi Qafqasiya islamları ümuri-milliyyə və mədəniyyələrini idarə və mənafeyi-siyasiyyələrini müdafiə etmək üzrə bir mərkəzi komitə təşkili tərhini cızaraq müvəqqətən mərkəzi komitə icraatını Bakıda inqilab təriqilə təşəkkül edən Bakı komitəsinə tərk etmişdi. Bakı komitəsi bir zaman mərkəzi komitə vəzifəsini idarə edərək mətruh bulunan mərkəzi komitəyi təsis və vəzifeyi-müvəqqətəsini məzkur idarəyə tövdi eləmişdi. Mərkəzi komitə keçən sənə noyabr ayında dəvət edilən Milli Komitələr konfransının qərarına görə Azərbaycan Məclisi-Müəssisanını bir ay sonraya qədər toplamalıydı. Fəqət əhvali-siyasiyyə və övzai-daxiliyyə, zühur edən həvadisi-fövqəladə buna imkan verməyərək Cənubi Qafqasiyadan Rusiya Məclisi-Müəssisanına gedəcək əza Rusiya Məclisi-Müəssisanı dağıldığından dolayı Tiflisə cəm olaraq firqə siyahılarını təbiri-məxsusla dərinləşdirmək təriqilə Cənubi Qafqasiya "Seym"ini təşkil etdilər. Cənubi Qafqasiya mərkəzi müsəlman firqələri tərəfindən Rusiya Məclisi-Müəssisanına seçilən 14 müsəlman məbusu siyahıların firqələr tərəfindən dərinləşməsi surətilə 44-ə qədər çoxaldı. Azərbaycan Məclisi-Müəssisanını toplamaq qeyri-mümkün olduğunu nəzərə alaraq Cənubi Qafqasiya müsəlman komitəsi bu məsələnin həllini "Seym" müəssisəsində bulunan müsəlman əzaya vagüzar etməyi münasib gördü. Çünki bunlar Məvərayi-Qafqas əhaliyi-islamiyyəsi arasında mövcud bulunan müxtəlif siyasi cərəyanları təmsil edir və əhalinin milyondan ziyadə rəyini qazanmış müvəkkillərdi – deyə istidlal ediyor. Təşkilati-milliyyənin təyini istiqaməti üçün bu zəvat ən ziyadə səlahiyyət sahibidir deyə – tələqqi ediyordu. Bu surətlə Məvərayi-Qafqas islamlarının təşkilati-mərkəziyyələrinə təvarüs edən Məvərayi-Qafqas "Seym"i müsəlman əzaları iləridə Məclisi-Müəssisan toplanıncaya qədər kəndilərini Məvərayi-Qafqas Müsəlman Şurası – deyə elan etdilər. Şura "Seym"ə daxil olan müsəlman firqələri nümayəndələrindən mütəşəkkil bir heyəti-icraiyyə dəxi intixab elədi. Gürcüstanın Məvərayi-Qafqas ittifaqından çıxaraq ayrıca elani-istiqlal etməsi üzərinə Məvərayi-Qafqas Müsəlman Şurası bittəbii kəndisini Azərbaycan Şurayi-Millisi və bunu mütəaqib Azərbaycanın istiqlalını elan və Azərbaycan hökuməti-cümhuriyyəsini təşkil elədi.

Məvərayi-Qafqas qitəsi birlikdə ikən və burada bulunan başlıca üç millət arasında təyini-hüdud yox ikən Milli Şuralar birər milli müəssisələr idi. Vəzifələri də bittəbii məhdud və mədud idi. Elani-istiqlal keyfiyyəti ilə Şuralar birər milli müəssisə halından çıxaraq dövlət müəssisəsi şəklini alıyordu. Azərbaycan yalnız türklərlə məskun degildir. Bunun üçün də Azərbaycan Şurayi-Millisi Azərbaycan ərazisi üzərində yaşayan bütün millətləri təmsil etməlidi. Həm Şurayi-Milli, həm də hökumət bunun lüzumunu idrak ediyorlardı. Fəqət əhvali-fövqəladə və məmləkətin ərazisini düşmənlərdən təmizləmək keyfiyyəti bir aralıq qüvveyi-təşriyyənin tətilini belə mucəb olduğundan bu əməliyyənin tətbiqinə şimdi təvəssül olunuyor. Müəyyən bir ərazi üzərində icrayi-hökm edəcək, qəvanin vəz edən bir məclisi-təşriyyə üçün yalnız bir milləti təmsil etmək kafi olmadığı kibi, 44 kişilik ufaq bir məclis halında olmaq dəxi mümkün degildir. Əlavə bərayn Azərbaycan müsəlmanlarının həyati-xüsusiləri nöqteyi-nəzərindən məclisimizdə bulunan müxtəlif siyasi cərəyan nümayəndələrindən başqa camaət müəssisələri ilə doğrudan-doğruya vilayətlərdən göndərilən nümayəndələrin vücuduna da böyük bir lüzum vardır. Bakı quberniyası ilə Gəncə qu-

berniyası, Zaqatal okruğu və İrəvan ilə Tiflis quberniyalarından birər hissəsi Azərbaycan ərazisini təşkil etməkdədir. Bu ərazi üzərində Qafqas təqviminin hesabı üzərinə tamam rəqəmlə 2.750.000 nüfus vardır. Bundan 1.900.000 islam, 500.000-i erməni, 230.000 rus, sairi də müxtəlif millətlərdir.

Hər məbus üçün 24.000 nüfus miqyas alarsaq müsəlman-lar 80, ermənilər 21, ruslar 10, almanlar 1, yəhudilər 1 məbus çıxarıyor.

Digər xırda millətlər isə miqyas təşkil edəcək dərəcədə olmuyorlar. Fəqət gürcü ilə polyak digərlərinə nisbətən daha ziyadə bir əqəliyyət təşkil elədiklərindən onlara dəxi bitövr istisna birər nümayəndəlik verilə bilər.

Əqəliyyətdə bulunan millətlərin hissələrinə gələn nümayəndələr tamamilə cəlb olunmaq lazım ikən bittəb müsəlmanlardan mövcud bulunan 44 şura əzası təfriq olunaraq yalnız 32 zat yenidən cəlb olunacaqdır.

Cəlb etmək həqqini Şurayi-Milli şəhər idarələri ilə Milli Komitələrə müraciətlə tətbiq ediyor. Yalnız mərkəzi-məmləkət bulunan Bakıda bir istisna olaraq şəhər idarəsindən əlavə sinfi müəssisələrdən dəxi nümayəndə istənilir.

## Layiheyi-qanuniyyə məvaddi

1- Azərbaycan parlamanı – (Məclisi-Məbusanı) 120 əzadan ibarətdir.

2- Azərbaycan parlamanı Azərbaycan Məclisi-Müəssisanı dəvət oluncaya qədər aşağıdakı tərtiblə intixab olunmuş əzadan təşəkkül edər:

a- Rusiya Məclisi-Müəssisanına dörd müxtəlif siyasi firqə siyahıları mövcibincə Məvərayi-Qafqas əhali-islamiyyəsi tərəfindən intixab olunub da sonra Məvərayi-Qafqas "Seym"ində əza sifətilə bulunmuş və bədə Azərbaycan Şurayi-Millisini təşkil eləmiş 44 zatdan;

b- Azərbaycan bələdiyyələri müsəlman əzası ilə əskidən mövcud bulunan milli müsəlman komitələri əzası tərəfindən intixab olunmaq surətilə cəlb olunacaq zəvatdan;



p- Əqəliyyətdə bulunan millətlərin səlahiyyətdar müəssisəyi-milliyyələrindən cəlb olunacaq zəvatdan;

t- Bakı Həmkarlar Şurası ilə Sovet Syezd, tüccar və ərbabi-sənaye ittifaqından cəlb olunacaq zəvatdan;

3- Əsasən mövcud olan 44 əzayə əlavə olunacaq əza bu nisbətlə cəlb olunacaq:

a)- Əhali-islamiyyə tərəfindən Bakı – 5, Göyçay uyezdi – 2 (biri şəhər, biri uyezd), Cavad – 2 (biri şəhər, biri uyezd), Quba – 3 (biri şəhər, 2-si uyezd), Lənkəran – 2 (biri şəhər, biri uyezd), Şamaxı – 2, Gəncə – 3 (biri şəhər, 2-si uyezd), Ərəş – 2, Cavanşir – 1, Zəngəzur – 2, Qazax – 1, Cəbrayıl – 1, Nuxa – 2 (biri şəhər, biri uyezd), Şuşa – 2 (biri şəhər, biri uyezd), Zaqatala – 2 (biri şəhər, biri mahal).

İrəvan vilayətinin Azərbaycana keçən hissəsi – 3, Tiflis vilayətinin Azərbaycana keçən hissəsi – 1.

b) Əqəliyyət təşkil edən millətlərdən: erməni əhalisi tərəfindən 8 Gəncə erməni əhali komitəsindən, 8 Şuşa erməni əhali komitəsindən, 5-i də Bakı Bakı erməni komitəsindən.

Rus əhalisindən Bakıdakı rus Milli Şurasından – 10

Alman əhalisi təşkilati-milliyyəsindən – 1

Yəhudi Şurayi-Millisindən – 1

Gürcü komitəsindən – 1

Polyak komitəsindən – 1

Bakı həmkarlar cəmiyyəti şurasından 3, Bakı Sovet syezd, birja və ticarət sənaye cəmiyyətlərindən müştərəkən – 2.

**Qeyd:** 1- Bələdiyyəsi və Milli Şurası olmayan qəzalar nümayəndələrini köy obşestvo nümayəndələrinin ictimaində təyin edə bilərlər.

**Qeyd:** 2- Əhvali-fövqəladəyə məruz bulunan yerlərin nümayəndələrini Şurayi-Milli bizzat təyin edər.

**Qeyd:** 3- Şurayi-Millinin əsaslı üzvlərini təşkil edən 44 əzadan biri istefa edər, mərhum olur və yaxud başqa bir səbəblə məclisdən çıxarsa onun əvəzinə mənsub bulunduğu siyahının mürəttibi bulunan firqə müəssisatı tərəfindən başqa birisi təyin olunur.

Qeyd: 4- Cəlb olunacaq əşxasın intixabatı şəhərlərdə bələdiyyə rəisləri, uyezdlərdə mirovoy sudyalar və ya onların müavini və əqəliyyətə mənsub millətlərdə Milli Şura rəislərinin təşəbbüs və nəzarətilə icra olunuyor və intixab olunacaq zəvatə kəndi imzaları ilə keyfiyyəti intixabı müvəzzəh və müsəddiq etimadnamələr verilir.

İşbu layihə oxunduqdan sonra bütün-bütünə Şura tərəfindən qəbul edildigindən maddəbəmaddə səsə qoyulması lazım görülməyib bilaittifaq qəbul olunur.

Sonra Şura rəisi ləvazim və təsərrüfat komissiyasına fraksiyalar tərəfindən namizədlər göstərilməsi təklifində bulunur.

Məhərrəmov təklif edir ki: bu komissiya böyük fraksiyadan iki, kiçik fraksiyalardan birər nümayəndə olmaq üzrə beş nəfərdən ibarət olsun.

Firqələr tərəfindən göstərilən beş nəfər bunlardan ibarətdir: Cəmo bəy Hacınski, Abbasqulu Kazımzadə, Rəhim Vəkilov, Məlikyeqanov və Heybətqulu Məhəmmədbəyov.

Bundan əlavə Milli Şura Azərbaycan Məclisi-Məbusanının dekabr ayının 3-də dəvət olunmasını qərara alır.

Bununla iclas xitam bulur.

**"Azərbaycan", 22 təşrini-sani (noyabr) 1918, №47**

Mucəb – labüd, zəruri
Məvadd – maddələr
Tərh – layihə
Mətruh – təyin edilmiş
Tövdi – təslim etmə



# İstanbul səyahəti haqqında Rəsulzadə Məhəmməd Əmin bəyin konfransı

Cümə günü 15 təşrini-sanidə Türk ocağı salonunda sevgili natiqimiz Məhəmməd Əmin bəy bir konfrans verdi. Natiq cənabları səhnəyə çıxar-çıxmaz alqışlar ilə qarşılandı.

Konfrans təxminən öylə başlandı:

– Əfəndilər! Heç şübhəsiz ki, imdiki zamanda bütün cəmaətimizin nəzəri, huş və cuşi və həp əfkarı bir şeyə mərcudur. Üsulisiyasəyyə hamımızı işğal ediyor.

İstanbulda Aləmi-İslamın mərkəzində bulunduğumuz sırada gördüklərimiz şeylər, aldığımız təəssürat və xatirat ilə sizi aşina edəcegiz. Nə üçün Türkiyə müharibəyə girdi? Nə üçün öylə bir surətdə hərbdən çıxıyor? Türkiyədə əhval və yeni cərəyanlar nasıldır? Azərbaycan haqqında nə düşünürlər? Və əhvali-hazirə nə kibi bir mövqe işğal edəcəgi xüsusunda sizə söyləmək istiyoruz.

Hərbi-ümumi başlandığı sırada Türkiyənin vəziyyət pək ağır idi. Bu zaman Türkiyə Balkan müharibəsindən yeni çıxmış – həm də məğlub olaraq çıxmış idi. Burada o böyük Şərq məsələsi Türkiyə məhafilini mütərəddid bir halda buraxmışdı. Türkiyə hərbə girsəmi çox qazanar, yaxud bitərəf dursa? Bu məsələ hamını düşündürüyordu. Türkiyə müharibəyə girdigi vəqt Rusiya bu gün gördügümüz yorğun, məğlub, dağınıq Rusiya degildi. O zaman Rusiyada qüvvətli bir çarlıq (çarizm) var idi ki, bunun da məqsədi, çalışdığı daima Aləmi-İslamı, böyük türklügi əzməklə gələn bir hökumət idi. Türküstan, Tatarıstan, Qafqasiya və başqa türk irqi ilə məskun yerlərin nə kibi bir istibdad altında olduğu hamıya aşikardır. O günlər Türkiyə müharibəyə atılmazsa idi icbarən boğazlar açıq olacağı mühəqqəqdi. Öylə olduqda İngiltərə Rusiyaya silah daşımaqla, ərzaq dəfinəsi olan Rusiya da buğda və arpa ilə İngiltərəyi təchiz edəcək və yekdigərinə olduqca kömək edəcək idi. O zaman Rusiya Almaniyayı Şərqi Prussiyadan sıxışdırdığı kibi get-gedə iləriləyəcək idi. Və Rusiyada böylə

təzəlzülə, böylə inqilaba düçar olmaz və işlərin sonunda mühari̇bədən qalib olaraq çıxacaqdı.

Bunu Türkiyə hərbə soxulmadan görüyorduq. Etilaf Dövlətləri zaman-zaman müvəffəqiyyətlərə nail oluyordu.

Türkiyə bitərəf də qalamıyacaqdı. Çünki qəhhar dövlətlərin hankisi düşərsə türk topraqlarını ayaqlıyacaqdı. Bu aləmşümul müharibədə bitərəf qalmaq imkanl yox idi. Nitəkim yunan, İran istənildigi kibi müharib dövlətlərin keyfinə tabe oldu, hüdudu onlar üçün tamamən açıq buraxıldı. Nəticədə bir faidə çıxmadı. Odur ki, Türkiyədə öylə vəziyyətə məruz idi. Olsun ki, Türkiyə istər-istəməz övzai-zamanə və siyasiyyəti tədqiq etdikdən sonra müharibəyə girdi. Girməsinə də səbəb Rusiyanın etilaf zümrəsində olduğundan dolayı məlum ki, Türkiyə də bu zümrəyə qarışıb getməli idi. Türkiyə hərbə girməzsə idi, o zaman qaliblər həpsini başında "Cəmiyyəti-Əqvam" şüarı ilə bu gün meydana çıxmış Vilson degil, istibdad heykəli-mücəssəmi olan Nikolay duracaqdı. O zaman gərək İslamiyyət, gərək Türklük nəşvü-nüması ümidləri büsbütün sönəcək və cahanda bu qədər qan tökmə nəticəsində yenə zülm və istibdad paydar olacaqdı.

Türkiyənin bu müharibədə iştirak etməgə olduqca həqqi var idi. Buna biz hökm edəriz. Zənn ediyoruz ki, atidə bitərəf müvərrixlər Türkiyənin bu müharibəyə girməsindən qələm yürüdür isə böylə hökm xaricində bir hökm vermiyəcəklər.

Türklər üçün bu cahan müharibəsi bir çox siyasi və ictimai məsələləri həll edəcək və qəti bir cavab verəcək müharibədir.

Bu müharibədə fədakarlıqların yüksəkligi gərək miqdarca, gərək ülviyyətcə təsəvvürat xaricindədir. Hələ Çanaqqala müharibəsində 4 yüz minə qərib qurban verən türklər qazanc götürdülər degil, kəndi həyatlarını müdafiəyə qadir olduqlarını isbat etmişlər. Artıq göstərdilər ki, həqiqətən onlar Vətən yolunda lazım gələrsə ölə bilərlər. Düşmənlər nə qədər insafsız olsalar da böylə bir cihadi-kəbir yapan ruhi-ülviyyətinin qarşısında əgilmiyə bilməz!

Bu müharibədə türklər bir şey daha isbat etmişlər ki, türk əskərinin vəqtində qarını doyurulsa, əlbəsəsi verilsə, bilməmum



ehtiyacı ödənsə bu əskər öylə bükülməz bir qol təşkil edərsə, heç bir kimsə o qolu bükə bilməz. Nasıl ki, Kəlibullah mərkəzə yaxın olduğundan, zaman-zaman silahı, aşı, suyu gəldigindən türk ordusu öylə bir müdhiş bir qol oldu ki, ingilis, firəng və digərləri kibi qüvvətli düşmən zərbələri bunları qaytarmağa müvəffəq olamadığı kibi, Türkiyə də onlar qarşısında məğlub olmadı.

Halbuki Rusiyada və digər Avropa dövlətlərində olan miqdarda Türkiyədə vəsait yoxdur. Dəhşətli dəniz toplarına qarşı çox zaman fəqət köks gərmişlər və zirehliləri batırmışlar.

Böylə bir millət heç bir vəqt həqqi-həyatdan məhrum edilməz. Türkiyədə şu müharibədən sonra hər kəs Çanaqqala müharibələrinin mənzərələrindən söylər, mədhiyyələr ilə mütəhəssis olur. Hər kəs bu müharibədə bir adamını qeyb etmiş, qardaşımı, özümü, pədərimi, burada iştirak etmiş hər kəs sənə bu müharibədən mənqəbələr nəql edər, onun əhəmiyyətindən, ülviyyətindən bəhslər açar. Bu müharibədə alaylar nasıl yekdigərilə rəqabət etdigini hər kəs burada şəhid olmaq üçün əmr bəkləmədən hərbə soxulduğunu söyləyəcəkdir.

* * *

Mərkəzi-islama gəldikdə oradakı ənənatı, o gözəlligi, o məhasını tamamilə dərk etmiş olursunuz. Tamamilə bunları görər-görməz hiss edəcəksiniz ki, islam nöqteyi-nəzərində İstanbul bədayei içində yeni bir həyat doğuyor. O vəqt anlarsınız ki, nə yolda və nə üçün bu qədər fədakarlıqlar olur, xarüqələr göstəriliyor. O zaman etiraf edərsiniz ki, yeni doğmaqda olan həyat uğrunda həqiqətən fədakarlıq etmək türklər üçün lazımdır.

Məəttəssüf Türkiyədə degil, bəlkə Aləmi-İslamın həpsində ictimaiyyat Avropadakı kibi olmayıb fəlc bir halda qalmışdır.

Avropanın bütün ictimaiyyəti xəlqinə də xəlq üçün doğuyor.

Ədəbiyyat ümum heyətilə xəlq ruhilə, xəlq əfkarilə ümumiyyət naminə yaşıyor. Bizlərdə isə böylə degil, ədəbiyyatın əsaslarını xəlqin malı etmək istəmədik. Ayrı-ayrı kimsələr pək alimdir, pək müxbirdir. Fəqət onu bir araya gəlsə onlarda bir

ümumiyyət, bir həyat olmaz. Qiymətli bir həyati-ictimai islam məmləkətlərinin heç birində yoxdur. Bunun ən doğru şəklini İranda görərsiniz. Küçələr bir zibil yatağı, hər tərəfə baxılsa bir xarabazar, bazardakı satıcılar əlinə zir-zibili qarşısındakı çaya atar, suyunu öylə bir hala gətirər ki, baxmaq istəməzsən. Haman bu ümumiyyət halını qiymətsiz edən, alçaldan cənabın həyat qapısından içəri girdikdə evində bir cənnət olduğuna şaşıracaqsan, bu nədir! Onun xüsusiyyəti üçündür.

Bundan bəllidir ki, burada insanlar ayrı-ayrı yaşar, fəqət xüsusi həyatından ləzzət aparar.

Ədəbiyyat da öylədir. Şeirlərimiz hər bir şairin öz zövqünə mütabiq olmuş, olsa-olsa ətrafındakı bir takım əhbabı, rüfəqası onu anlar, yaratdığı bədiələr, gözəlliklər fəqət onun kəndisi üçün imiş zənn edər, xəlq üçün yaramaz.

Qərbdə isə böylə degil. Orada bütün ədiblər, şairlər xəlq dərinliginə atılıb onun içərisində duyduğu təəssürata, gördügü həyata həp yazdığını uydurar. Olduqca həyati-ictimaiyyə həyati-münfəridəyə tərcih verilər.

Qərbdə bugünki tərəqqi ilə bizdəki bu inhitat bu iki aləmin miyanında olan fərqi nəticəsindəndir.

Şərqdə bir zaman yüksək bir mədəniyyət var imiş. Lakin o da xas olub gündən-günə zəifə izmihalə uğradı.

Avropada isə ümumə mal olan mədəniyyəti-ammə sayəsində özünə tərəqqi yollarını aradan buldu və bu gün də ondakı qələbə ilə bizdəki məğlubiyyət həp bundan dolayıdır.

İştə bunu da türklər ep iyi anlamış və bu yolda get-gedə tərəqqi etməkdədirlər. Bu yolda ədəbiyyat Türkiyədə gözəl bir mövqe tutuyor. Yeni türk ədəbiyyatı fəqət xəlqin qalın təbəqəsinə enir və yazılanların həpsi xəlq üçün yazılır. Türklər ədəbiyyat yolunda çox çalışdılar. Bu vəqtədək onlarda bir çox tərcümələr olmuş, Qərb ruhunda kitablar yazılmış idi. Fəqət Qərbdən alınmış şəklin eynən qəbul edilməsi yanlış olduğu artıq bəllidir. Çünki iqlimdən iqlimin fərqli vardır. Hər yerdə bir xüsusiyyət bir də ümumiyyət olar. Sənət, elm, fənn ümumidir. Dil, din, ənənat, ruh



başqa-başqadır. Bunların hər birini qəbul etdikdə millətin ruhunu, xüsusiyyətini nəzərə almaq lazımdır.

İşbu belə də Türkiyədə olmuş idi. Türklər bu vəqtədək London səyahətindən, Parisdən, Hinddən və digər yerlərdən əhəmiyyətsiz şeylərdən belə bəhs edib bircə Anadolunu bu gün bütün xarüqələr, bütün rəşadətlər yaradıcısı, həp İstanbulu və başqa yerləri ərzaq ilə təchiz edən Anadolunu unutmuşlar idi. Məktəblər tamamən İstanbulda, həyati-ictimaiyyə nümunələri İstanbulda, türklərin nəsi varsa İstanbulda idi. Anadolunun məktəbi yox, sənaəti yox, bəlkə belə həyatı da yox kibi idi.

Şimdi isə öylə degildir. Yeni cərəyan Anadolu xəlqi ruhundan, həyatından, ehtiyacından yazıyor, dərdinə ağlıyor.

Bu da siyasətə təsir ediyor. Türk məhafili də buna diqqət etməgə başlıyor.

Əbdülhəmid zamanı İttihad və Tərəqqi firqəsi düşünürdü ki, hürriyyət olsa, hər millət kəndisini unudar. Hamısı qardaş kibi yaşamağa ibrazi-qeyrət edər. Böylə bir düşüncəni həyatə də, siyasətə də tətbiq etdilər. Fəqət məşrutiyyət zamanı gəldi. Kimsə kəndisini unutmadı. Arnaudlar, ermənilər, ərəblər, hər kəs kəndisini düşündü. Unudulmuş bircə türklər qaldığını artıq gördülər.

Bir türk mütəfəkkiri söylüyor ki, – bən türklügümü fəqət hər millətin Türkiyədə kəndisi üçün çalışdığı zaman duydum.

Türklər də ümumən böylə bir fikrə gəlmiş idi. Ona binaən türklərin siyasəti böyük bir təbəddülatə uğrayıb hər şeydə milliyyət iləri sürülmüşdür. Lakin burada da bir qədər yanlışlıq, bir qədər ifrat edilibdir. Məlumdur ki, hər kəs öz millətini istədigi kibi digərini istəməz. Hər kəsdə bir milliyyət fikri müqəddəs tutuluyor. Lakin bir fikrin müqəddəs olduğu kafi degil, o fikir namüqəddəs yollar ilə yürüdülsə fikir də namüqəddəs olacağı bəlli. Məsələn, bolşevizm əqidəsinin müqəddəs olduğunu kimsə inkar etməz. Fəqət bolşeviklərin apardığı siyasət, tutduğu yol namüqəddəs olduğundan bu gözəl məsləki nə kibi şəklə salındığını gördünüz. Aləmi kəndilərindən mütənəffir etməklə həpsini bolşevizmədən ürkütdülər.

İştə bu müqəddəs "milliyyət" fikrində türklər də bir çox ifratə uyduqlarından dolayı bir çox yerlərdə məmurlar digər millətlərə qarşı "milliyyət"dən suyi-istifadə etdilər. Ümuri-idarələrdə əxlaqsızlıqlar vücudə gəldi. Böylə suyi-istemal müharibədən fürsəti qənimət bilən və bundan dolayı üsyan qaldıran ermənilər həqqində rəva görüldü. Lakin üsyan bir ermənilər miyanında vaqe olmuyor. Ərəbistanda asilər olur. Türk ordusu çəkildigi yerlərin həpsində qiyam başlanır. Muxtariyyət iddiasına qalkışıyorlar. Böylə ki ümumiyyət üzrə Türkiyənin daxilində rahatlıq pozulmuş oluyor. Bundan maəda türk dörd il degil, səkkiz il, bəlkə də bir az fəzlədir ki, müharibə ediyor idi.

Dörd illik müharibədə Avstriya parçalanmağa başlamış, Almaniyada isə böylə bir inqilab qopduğunu görüyorsunuz. Artıq bu kibi hər bir cəhəti qüvvətli dövlətlər böylə taqətfərsa müharibənin təzyiqindən bu halə gəldi, ondan maəda müttəfiqlərin yekdigərindən əli də üzüldü. Türkiyə də mütarikəyə məcbur oldu.

* * *

Hərbi-ümumi zatən Almaniya ilə İngiltərənin arasında olan müharibədən ədd edilməlidir. İki müharib zümrələrin əvvəldə birinin başında alman, digərinin İngiltərə durduğu bədihidir. Burada iki mədəniyyət mübarizə ediyordu. Alman sənaət və ticarəti İngiltərə ticarətinə rəqabət etdigi və hər iki mədəniyyətin özü üçün bu bir ərsə aramasilə istehsalatına da satış meydanı bulmaq üçün can atdıqlarından dolayı bu iki millətin faidələri müğayir olurdu.

Almanlar gənc bir millət və olduqca mütəşəbbüs xəlqdir. Onların güvəndikləri zor və qüvvələridi və qüvvətli olduqlarını bütün cahana anlatdılar. İnsafla deyilər isə bu onlar üçün məğlubiyyət degildi, bu onların siyasətinin bərhəm olması idi.

İngilislərin dənizlərə təsahübi bir tərəfdən və yürütdükləri siyasəti, millətlər ilə rəftarı tamamilə başqa bir tərzdə idi. Almanlar bütün müvəffəqiyyətlərini fəqət yumruq qüvvətlərində görüyor, vəqt uzandıqca İngiltərəyə müavinət ediyordu. Müharibənin başında daha zorlu, daha dəhşətli almanın get-gedə yekdigərini təqib edən xətalara uğruyordu. Həp millətləri və ən axırda Amerika kibi müəzzəm bir milləti də öz dəmir yumruğuna qarşı qaldırdı. Amerika hərbə girdikdən sonra Almaniyanın işi fənalaşmağa başlıyor. Almaniya onun müharib bir dövlət olmadığını onun üçün və Avropaya lazımi miqdarda əskəri qüvvə çıxarmaz zənn ediyor idi. Bunlar həp yanlış oldu. Almanlar təsəvvüratlarında xətalı siyasətlərində də əsla nəzakət bilməz olduqları üçün dost və düşmənlərini özlərindən incitmişlərdi. Türklərə qarşı yürütdügü siyasətdən dolayı hətta türk məhafilində də nifrət qazanmağa başlamış idi. Qafqasiya məsələsində Almaniyanın siyasət yaramazlığı meydana çıxdı.

Onun Estlandiya, Turliyandiya, Yiflıyanda və işğal etdigi başqa məmləkətlərdə yapdığı hərəkəti eynilə türklər də Qafqasiyada öz irqləri üçün yapmaq istərlərdi. Lakin burası Almaniyanın keyfinə müğayir gəliyordu. Hətta Azərbaycanın kəndisinə ittixaz etdigi paytaxtını gizlicə bolşeviklərə verməк istədi.

İləridə ərz etdik ki, Türkiyənin hərbə girməkdən məqsədi Rusiya çarizmini sərnigün etmək idi. İştə türk bu məqsədə nail olmuşdu. Ona binaən də sülhü əvvəlcə yapmaq lazım idi. Çünki Türkiyə üçün artıq məqsəd hərb qalmış idi. Bu da hasil olduğu zamanlarda sülh əqd edilsə idi, qazanc çox olurdu. Bu babda İttihad və Tərəqqi ricali-dövləti millət tərəfindən tənqid edilməkdədir. Bilməm istənildigi vəqt hərbdən çıxmaq səhl idimi? Buna da vəsait mümkün idi, ya yox məsələsi məchuldur.

Fəqət hər nədənsə türklər ilə müttəfiqlərinin arası açılmış idi.

Bunu da təsviyə üçün Tələt Paşa Berlinə əzimət etdi. Oradan da döndügi kibi sülhə girişmək tərəfdarı olduğunu göstərdi. Məlum oluyor ki, yolda Avstriyanın və Bolqariyanın əhvalını Tələt Paşa ep iyi tədqiq etmiş imiş.

Bu zamanda idi ki, Bolqariyada qarqaşalıq başladı, əskər dönüklük göstərdi. Düşmənlər Bolqariyayı sıxışdırmağa başladı. O da bütün cəbhəxanasını anbarlara qoyur, onu da müttəfiqlər kontrolu altına veriyor. Böyləliklə, Türkiyənin Mərkəzi Dövlətlər

ilə münasibatı qət oluyor. Digər tərəfdən də Avstriyanın da halı bərhəm oluyor xəbərləri gəliyordu. Şu sırada idi ki, Almaniyanın özündə də daxili hərəkətlər çıxdı. Artıq Almaniya da kəndi zəifini və müvəffəqiyyətsizlikligini etiraf etməliydi. Zatən böylə müvəffəqiyyətsizlik bu gündən degil, ta almanların Paris üzərinə hücum etdikləri zaman arxalarına baxmadan pək məğrurənə Fransa paytaxtına zərbə endirməgə çalışdığı zaman meşəyə gizlənmiş fransız ordusunun onları yardığı gündən başlanmış idi.

Bu yarışdan başlayaraq gündən-günə ricət davam ediyor. Nəticədə bugünki hal meydana gəliyor.

Nəhayət, Almaniyanın özündə hökuməti sıxışdırmağa başlıyorlar. Üsuli-idarənin dəgişməsi, hökumət məmurlarının məsul olması məsailindən mübərra qalmış Almaniyada parlamentarizm başlıyor. Az bir zamanda millət özü öz idarəsinin başında müntəxəb kişilər qoymaq arzusuna düşüyor. Almaniya halı Türkiyəyə də təsiri-nüfuz ediyor. Türkiyə də daxili təşkilatı yolunda olmadığından onları müntəzəm etmək üçün çalışıyordu. Bu zamanda idi ki, burada da hökumət böhranı başladı. İstefa vermiş hökumət əvəzinə yeni bir hökumət gəldi.

Ta Tələt Paşa kabinəsi getməmiş Avstriya hökuməti münfəridən müttəfiqlərə sülh təklifini etmişdi. Hətta fransızlar da öz müvəffəqiyyətlərini bildiklərinə "Klemanso bu notanın cavabını keçmiş nitqində vermişdir" demişlər. Avstriyanın bu müraciəti etinasız qalmışdı. Ondan sonra Vilsonun nitqləri əsnasında sülh şəraiti həqqində anlatdığı 14 maddəyi almanlar da təsvib edib müttəfiqən tərəfi-müqabilə mütarikə təklif etmişlər idi. Bu maddələrin 13-cüsündən böylə seziliyor ki, türklər məskun olan yerlərdə tam hakimiyyət onların, türklərdən qeyri olan millətlər ayrı hökumət quracaqlar.

Bunun üzərinə Vilson nitqində 4 maddədən ibarət bir şeydə əlavə ediyor ki, heç bir millət üçün bir dövlət təbəəligindən çıxıb digərinə keçmək olmaz.

Alman və Avstriyanın müraciətinə Vilson cavab verməyib sonra anlatdı ki, Almaniyada imperator olduqca mütarikə olmayacaqdır. Onun üçün Qeyser təxtdən əl çəkdi. Vəliəhd də qəbul etmədi.



Baxıyorsunuz ki, hər yerdə hökumət böhranı sühulət kəsb edərsə Türkiyədə nədən isə bir az çətinlik ilə oluyor. Burada bir də parlaman böhranı oldu. Səbəbi də o idi ki, parlamanda külliyyətli bir firqə təşəkkül ediyor, bunun bir müxalif firqəsi yoxdur. Onun üçün də İttihad və Tərəqqi firqəsi şübhələndi, tez bir zamanda "Hürriyyətpərvəran" firqəsi meydana gəldi. Hamısı buna bəyani-etimad etdi. Ümumi sülh müzakiratını təklif etmək mümkün degildi. Almaniya ilə müttəfiqlər arasında israr ediliyor. Türkiyə ilə də Almaniyanın əlaqəsi kəsilmiş idi.

Yeni parlamanda proqramı başında bütün dağınıq ordunu toplamaq, Qafqasiyayı boşaltmaq, almanların Türkiyədən getməsi, siyasi cinayətkarların, sürgünlərin vətənə ovdəti müsaidəsi və bir çox böylə maddə qəbul etdigi kibi boğazların şimdilik müttəfiq dövlətlər və Amerikanın təhti-işğalında qalmasını qəbul etdi.

Bu ancaq mütarikədir və ümumi konfransadək hökmü vardır. Siyasətdə cilvələr pək müxtəlif ola bilər. Kim diyordu ki, iki ay əvvəl Paris üzərinə yürüyən o möhtəşəm ordu birdən-birə böylə məğlub bir halə düşəcəkdir. İki ay əvvəlki halət böylə bir vəziyyətə təbəddül ediləcəkdir. İmdidən də gələcək xüsusunda bir şey söyləmək imkan xaricindədir. Firəng və İngiltərə, Amerika ordusu Batum təriqilə gəlib Qafqasiyadan keçəcəkdir. Ola bilsin ki, gəlib buradan da keçsinlər, yaxud buranı özlərinə bir üsulihərəkə qərar verəcəkdir.

Bunu da zənn etmək olmaz ki, bu gün bütün cahanın 14 maddələr ilə hüsni-təvəccöhini qazanmış Vilson ümumi iğfal etmək üçün bir bilöf yapıyor. Yəqin ki, o da bu gün bir qüvvət qarşısındadır. Hər şeydən daha qüvvətli olan millətlər hüquqi bir cəmilə yapmaq üçün tədil və təfsirlər ola bilər. Lakin bu prinsiplər bütün-bütünə məhv olar fikri doğru degildir.

Bolşevizm bir yorğunluq fikridir. Millətlərin hüquqi-mədəniyyəsi fikri də bu yorğun və parçalanmış Rusiyadan doğdu. Əgər bu sosializmənin əsaslarından biri olan bu maddə cahil Rusiya-

da məsxərə şəklində oldusa da artıq Avropanın yarısı bununla müstövli olmuşdur.

Şübhəsiz bu qədər qan tökmənin bir nəticəsi, bir səmərəsi olacaqdır. O səmərə də bəşəriyyətin, insaniyyətin, millətlərin yekdigəri hüququnu tanıyan "Cəmiyəti-Əqvam" təşkil edəcəkdir.

Onu da bilməlisiniz ki, bu şüar böylə nahaq qan tökməkdən bıkmış, yorulmuş bütün bəşəriyyətin nəticeyi-əfkarıdır.

İştə onun üçün xəlqimiz də öz hökumətləri arxasında dursunlar, həqqi-hüquqa layiq olduqlarını isbat etsinlər. Bu da macəra yapsınlar deməк degildir. Maddətən tabe olmaq mənən də tabe olmaq degildir. Gələnlərin də bizdəki intizamı, bizdəki birligi görüb hörmət etmək məcburiyyətində olacağı aşkardır. Ondan maəda şəhərimizə gəlmək istəyən ordu bir paraları kibi təkrar qarqaşalıq salmaq üçün gəlmiyor, onlar gəlib buradan gedəcək və Rusiyayı toplayacaqlar.

Burada hökumətin qaim olduğunu gördükdən sonra onlar bizə riayət edər. Bizim hökumət də o hökumətə etilaf edə bilər. Bunun üçün xəlqimiz də özünü toplayıb təşkil etdigi hökumətə müavinət etməlidir. Həyəcanə imkan yoxdur. Məyusiyyətə gəlməz, cürəbəcür küçələrdə danışılan sözlərdən artıq təşvişə düşülməsin. Vəzifəmiz kəndi idarəmizi müdafiə etmək olacaqdır. Yarından parlaman adından lazımi yerlərə müraciət edilir. Teleqraflar çəkilir, öylə olmaz ki, bu gün hər millətin öz kökü üstə bitməsi tərəfdarı olanlar bir dövlət rəisi, yaxud mədəni Avropa cümlənin səsini eşitdigi halda bizləri eşitməgə qadir olmasın, yaxud ümumcahanı iğfal etsin. Bu gün Avropayı millətlərin həqqi-hüququnu tanımağa məcbur edən yarınki məhkəməyi-kəbirada yaqin ki, orada bizim də həqqimiz aranılar. Biz də istədigimizə nail olarız. Bu gün millətlər hürriyyəti tərəfdarı olanlar da ədalətsizligin zirvəsinə qalxıb da bir şey yapamazlar.

**M.H.**

**"Azərbaycan", 17, 20, 22 təşrini-sani (noyabr) 1918, №42, 45, 47**



Məhasin – gözəl keyfiyyətlər
Fəlc – iflic
Əhya – yeniləşmə
Münfərid – təkbaşına
İnhitat – tənəzzül
Amm – xalq, kütləvi
Mütənəffir – nifrətlənən
Ədd – sayma
Bədihi – aydın
Ərsə – meyda
Bərhəm – qarmaraışıq
Təsahüb – sahib çıxma
Səhl – asan
Qeysər – hökmdar, padşah
Müntəxəb – seçilmiş
Sühulət – əlverişlilik
İğfal – aldatma
Tədil – ədalətli iş görmə
Əhbab – dostlar

# İstiqlal

Çəkilən zəhmətlərin, tökülən qanların, yakılan xanimanların, axıdılan göz yaşlarının bir təsəllisi vardı: istiqlal!

İstiqlal bir növ hürriyyəti-şəxsiyyədir. Millətin şəxsinə məxsus hürriyyət. Fərdlər hürriyyəti dövlətin və yaxud millətin səadəti nöqteyi-nəzərindən qüyud və hüdud altına alınmaq fərz olduğu kibi, bəşəriyyətin səadəti üçün dəxi millətlərin hürriyyəti, təbiri-digərlə, istiqlalı bir takım qeydlərlə məhdud ola bilər.

Digər siyasi hürriyyətlər kibi millətlərin istiqlalı da insan övladının böyük məqsədini təşkil edən, səadəti-bəşəri təmin edən yollardan birisidir. Dünya millətlərinin bu gün gəlib də məsud bir ailəyi-mədəniyyət təşkil edəcəgi biz federalistlərə yabancı bir fikir degildir. Millətlərin könül rizası ilə əqd edəcəkləri "Cəmiyyəti-Əqvam" fikri dünya federalistlərinin əski düşüncəsidir.

Rusiya həyati-siyasiyyəsində bu fikir başqa bir yol ilə qövldənfelə gətirilmək istənildi. Rusiya vəhdaniyyəti-siyasiyyəsi bütün nəvaqis və mənfiyyatına rəğmən millətləri yekdigərinə rəbt edə biləcək bir çox rabitəyi-mədəniyyə hasil etmiş idi. Bundan istifadə edilmək istənildi. Rusiya millətləri arasında bir ittifaq əqd etmək, bir federasyon vücudə gətirmək fikri doğdu. Məhkum millətlərə mənsub olan federalistlər son dərəcədə sədaqət göstərərək bu məqsədin təbii bulunan yolundan sərfi-nəzər edərək millətlərin kəndi rizasından degil, məsələnin həllini Rusiya mütəfəkkirlərindən, Məclisi-Müəssisanından gözlədilər. Məəttəssüf bu xüsusda "kadet"lərdən tutub "bolşevik"lərə qədər bütün Rusiya partiyaları məsələyi sözdə bir, işdə başqa bir yolda "həll" etdilər. Nəticədə nə oldu? Orası həpimizə məlumdur. Rusiyanın məhkum millətləri kəndi başlarının çarəsinə baxmaq zərurətində qaldılar. Bu əlim zərurətlər həm Rusiyaya, həm də kəndisindən ayrılmış vilayətlərə pək bahaya mal oldu. Çox zərərlər, çox ziyanlar gördülər. Fəqət istər-istəməz sabit bir fikrə gəldilər. İsbat olundu ki, Rusiyaya bir daha toplanmaq müqəddər isə bu təqdir yalnız millətlərin kəndi arzuları, kəndi qənaət və istiqlal rəyləri sayəsində mümkün olacaqdır.



Bənə, Rusiya vəhdaniyyəti-siyasiyyəsinə girmək arzu edərmisiniz? – deyə sorsanız, bən, əvət, cavabını verməda heç tərəddüd etməm. Fəqət bu vəhdətə nasıl girmək istərsiniz – deyə məsələyi qurdalasanız, bir az təəmmül edərəm.

Qulağıma Məclisi-Müəssisan səsi gəliyor; Ufa hökumətindən bəhs ediyorlar. Bu bəhsləri anlamam. Məclisi-Müəssisanın nisfi bolşeviklərdir ki, məclis əleyhindədirlər. Rusiyanın nazimi olan Velikorusiya bu gün tamamilə onların əlindədir. Ufa hökuməti nərədədir: o, nasıl hökumətdir? Biləmiyorum. Bu hökumətlə təyini-münasibət etmək üçün ravilər diyorlar ki, qoşa dibli gəmilərin dibləri arasında səyahət edərək yalnız bir aydan sonra məqsədə irmək mümkün imiş. Bu hökuməti Rusiyanın kəndisində tanıyan daha yoxmuş. Bu hökumət sollar tərəfindən qəbul edilmədigi kibi, Milyukov belə bunun əleyhində imiş. Bu şəraitlə toplanacaq Məclisi-Müəssisanın təsadüfi bir məclis olacağı bəllidir. Böylə təsadüfi bir məclisə Rusiya millətləri kəndi müqəddəratlarını nasıl tapşıra bilərlər, burası əlbəttə ki, cay sualdır.

Hər millət kəndi müqəddəratını təyin etmək səlahiyyətinə malikdir. Rusiya inqilabının düsturu bu. Etilaf dövlətlərinin rəisicümhuri Vilson ağzı ilə təyin elədigi şüar da budur. Böylə ikən bilzərurə istiqlalını elan eləmiş bulunan Rusiya qitələrini təkrar uyuşdurmaq, barışdırmaq, aralarını bulacaq, onlardan müttəfiq və müvafiq bir kütlə vücuda gətirəcək müəssisə nə "ufaçılar"ın təsəvvür elədigi məhud "Məclisi-Müəssisan", nə də bolşeviklərin "sovet"ləridir. Böylə bir səlahiyyəti olsa-olsa yalnız Rusiya "Müəssislər konfransı" caiz ola bilər. Bu müəssisə 1917-ci sənədə intixab olunan bir Məclisi-Müəssisanın qırıq-tökük tənəsi degil, birər hökumət vücudi təşkil etmiş milli üzviyyətlərin müsavi surətdə göndərmiş olduğu mürəxxəslərdən təşəkkül edə bilər...

Fəqət bu fikir Rusiyadan ayrılıb da kəndi həyatlarını qurtarmağa çapalayan millətləri ümumi sülh konfransının təmin edə biləcəgi füyuzatdan məhrum etməməlidir. Millətlər sülh konfransını buraxıb da hərcü-mərc içində yuvarlanan Rusiyanın kim bilir kaç zaman sonra hali-təbiisinə gələcəgini gözləyə bilməzlər. Onların birər üzviyyəti-siyasiyyə olub da rəy sahibi bir vücud

olmalarının sülhi-ümumi konfransınca təsdiqinə böyük bir ehtiyac vardır. Bu ehtiyacdan onları kimsə mən edəməz. Bilxassə ki, konfrecə şəxsiyyəti təyin olunmuş siyasi üzviyyətlər daha böyük bir əmniyyət və etibarla əqdi-ittifaq edər və həqiqətən də mütəqabil bir etibar üzərinə uyuşur, müştərək bir birlik vücuda gətirə bilərlər. Çünki o zaman ittifaqa girəcək hər bir üzviyyət kəndi vəziyyətini beynəlmiləl bir vəsiqə ilə əmin görəcəgindən kəndisini daha qüvvətli olan üzviyyətlərin təzyiqinə qarşı qüvvətsiz görmədigindən qərarlarında daha sərbəst, binaənileyh daha səmimi olur.

Türkiyə ilə əqd olunmuş mütarikənin məvadını tətbiq və Qafqasiya qitəsi üzərində təmini-asayiş etmək məqsədilə gələn müttəfiq ordularının komandanı müsyo Tomsonun son bəyannaməsi dəxi məsələnin bu zəmində həll olunacağını göstərməkdədir. Müsyo Tomson Qara dənizlə Bəhri-Xəzər arasında vaqe olan ərazinin son müqəddərati-siyasiyyəsi sülhi-ümumi konfransında həll olunacaqdır – diyor.

Millətlər kəndi müqəddəratlarını təyin eləmək səlahiyyətindədirlər, şüari-müqəddəsini yıldızlı bayrağının üstündə cəli xətlə yazmış olan Vilson həzrətlərinin müttəfiqi, bütün dünya hürriyyətpərvərləri tərəfindən tarixi-inqilabi bir kitabı-müqəddəs kibi oxunan Fransanın silah arkadaşı, əsas idarəsi muxtariyyət və hürriyyəti-əqanimինə istinad edən Britaniya ordusunun komandanı başqa dürlü hərəkət edəməzdi. Bu gün Qafqasiya ərazisi üzərində həqqi-həyat və həqqi-millilərindən bilaistifadə elani-istiqlal etmiş bulunan Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistan ərazisi və mülkiyyətindən bəhs olunmuyorsa, bunun səbəbi bir dərəcəyə qədər bəllidir. Çünki bu yeni təşəkkül edən hökumətlər müttəfiqlər tərəfindən hələ tanınmamışdır. Fəqət bu tanınmamaq sülhi-ümumi konfransında da tanınmayacaqlarına, əlbəttə, dəlil olamaz. Fövqüzzikr bəyannamə bu kibi məsələlərin həllini ümumi sülh konfransına həvalə ediyor.

Sülh konfransındakı müvəffəqiyyətimiz isə kəndi idrakımıza, dərayətimizə, rəftar və səbatımıza bağlı bir məsələdir. Kəndi



istiqlalımızı, qonşularımızın da istiqlalını, kəndi hürriyyətimizi, onların da hürriyyətini təqdir və təqdis edəlim. Bu vəqtə qədər tərəfinin işlədigi qəbahətləri unudalım, ermənilərlə, ruslarla, bütün vətəndaşlarımızla, gürcü qonşularımızla olan məsələlərimizi sülh və müsalimətlə bitirəlim. Adam əqilli Avropakarı bir idarə, bir məclis, bir hökumət təsis edəlim də haman Amerikaya, Avropaya adamlar göndərəlim, isbati-ləyaqət edəlim, deyəlim ki:

Çəkilən zəhmətlərimizin, tökülən qanlarımızın, yakılan xanimanlarımızın, axıdılan göz yaşlarımızın yalnız bir təsəllisi var:

İstiqlal!

M.Ə.Rəsulzadə

"Azərbaycan", 27 təşrini-sani (noyabr) 1918, №50

Qüyud – qeydlər
Cay – yerli
Məhud – öhdəyə götürülmüş
Cəli – aydın, uzaqdan da oxunan qalın və iri yazı
Əqanim – üç simada birləşmiş Allah, əsillər
Dirayət – bilik, elm, məlumat
Nisf – yarı

## Azərbaycan Məclisi-Məbusanı təsisi həqqində qanun

1- Azərbaycan parlamanı (Məclisi-Məbusanı) 120 əzadan ibarətdir.

2- Azərbaycan parlamanı Azərbaycan Məclisi-Müəssisanı dəvət oluncaya qədər aşağıdakı tərtiblə intixab olunmuş əzadan təşəkkül edər:

a- Rusiya Məclisi-Müəssisanına dörd müxtəlif siyasi firqə siyahıları mövcibincə Mavərayi-Qafqas əhali-islamiyyəsi tərəfindən intixab olunub da sonra Mavərayi-Qafqas "Seym"ində əza sifətilə və bədə Azərbaycan Şurayi-Millisini təşkil eləmiş 44 zatdan;

b- Azərbaycan bələdiyyələri müsəlman əzası ilə əskidən mövcud bulunan milli müsəlman komitələri əzası tərəfindən intixab olunmaq surətilə cəlb olunacaq zəvatdan;

p- Əqəliyyətdə bulunan millətlərin səlahiyyətdar müəssisəyi-milliyyələrindən cəlb olunacaq zəvatdan;

t- Bakı Həmkarlar Şurası ilə Sovet Syezd, tüccar və ərbabi-sənaye ittifaqından cəlb olunacaq zəvatdan;

3- Əsasən mövcud olan 44 əzayə əlavə olunacaq əza bu nisbətlə cəlb olunacaq:

a- Əhali-islamiyyə tərəfindən Bakı – 5, Göyçay uyezdi – 2 (biri şəhər, biri uyezd), Cavad – 2 (biri şəhər, biri uyezd), Quba – 3 (biri şəhər, ikisi uyezd), Lənkəran – 2 (biri şəhər, biri uyezd), Şamaxı – 2, Gəncə – 3 (biri şəhər, ikisi uyezd), Ərəş – 2, Cavanşir – 1, Zəngəzur – 2, Qazax – 1, Cəbrayıl – 1, Nuxa – 2 (biri şəhər, biri uyezd), Şuşa – 2 (biri şəhər, biri uyezd), Zaqatala – 2 (biri şəhər, biri mahal).

İrəvan vilayətinin Azərbaycana keçən hissəsi – 3, Tiflis vilayətinin Azərbaycana keçən hissəsi – 1.

**Qeyd:**

a) Bakı hissəsinə düşən 5 zat Bakı bələdiyyəsi müsəlman əzası tərəfindən seçiləcəkdir. Digər şəhərlərdə dəxi şəhər hissəsinə düşən nümayəndəyi ümumi intixabla seçilmiş müsəlman qlasnıları seçəcəklərdir. Uyezd nümayəndələri isə uyezd milli komitələri tərəfindən intixab olunacaqlardır.

b) Seçkilər gizli olacaq.

p) Əqəliyyət təşkil edən millətlərdən: erməni əhalisi tərəfindən 21 – 8-i Gəncə erməni əhali komitəsindən, 8-i Şuşa erməni əhali komitəsindən, 5-i də Bakı erməni komitəsindən.

Rus əhalisindən Bakıdakı rus Milli Şurasından – 10.

Alman əhalisi təşkilati-milliyyəsindən – 1.

Yəhudi Şurayi-Millisindən – 1.

Gürcü komitəsindən – 1.

Polyak komitəsindən – 1.

t) Bakı həmkarlar cəmiyyəti şurasından 3, Bakı Sovet syezd və ticarət sənaye cəmiyyətlərindən müştərəkən – 2

Qeyd: 1- Bələdiyyəsi və milli komitəsi olmayan qəzalar nümayəndələrini köy obşestvo nümayəndələrinin ictimaində təyin edə bilərlər. Bu ictima hər obşestvodan birər nümayəndə göndərilmək surətilə hasil olur.

Qeyd: 2- Əhvali-fövqəladəyə məruz bulunan yerlərin nümayəndələrini Şurayi-Milli bizzat təyin edər.

Qeyd: 3- Şurayi-Millinin əsaslı üzvlərini təşkil edən 44 əzadan biri istefa edər, mərhum olur və yaxud başqa bir səbəblə məclisdən çıxarsa onun əvəzinə mənsub bulunduğu siyahının mürəttibi bulunan firqə müəssisatı tərəfindən başqa birisi təyin olunur.

Qeyd: 4- Cəlb olunacaq əşxasın intixabən şəhərlərdə bələdiyyə rəisləri, uyezdlərdə mirovoy sudyalar və ya onların müavini və əqəliyyətə mənsub millətlərdə Milli Şura rəislərinin təşəbbüs və nəzarətilə icra olunur və intixab olunacaq zəvatə kəndi imzaları ilə keyfiyyəti intixabı müvəzzəh və müsəddiq etimadnamələr verilir.

Şurayi-Milli rəisi: Məhəmməd Əmin Rəsulzadə

Şurayi-Milli katibi: Rəhim Vəkilov

Surəti əslilə mütabiqdir.

Şurayi-Milli idarə müdiri: Məhəmməd Seyid

**"Azərbaycan",**
**28 təşrini-sani (noyabr) 1918, №51**

## Bütün Azərbaycan əhalisinə!

Vətəndaşlar!

Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurayi-Millisi iqtizayi-zaman ilə təkrar Azərbaycan paytaxtı Bakıda toplandı. Şurayi-Millinin ən əvvəl qəbul elədigi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəklə salmaq oldu. Bu ayın 19-da qəbul elədigi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (parlaman) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kibi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq Məclisi-Məbusan iləridə ümumi intixab üsuli ilə Azərbaycan Məclisi-Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeini mühafizə edəcəkdir.

Vətəndaşlar! Hərbi-ümumi axıra çatıyor. Millətlərin dördgözlə gözlədikləri sülhi-ümumi bayramının axşamındayız. Böylə səadətli bir günün ərəfəsində cahan tarixi hərbi-ümumi qədər böyük və mənidar inqilabların şahidi olmaqda, məhkum millətlər kəndi həqlərini qaytarmaq, istiqlal və hürriyyət naminə qiyam etməkdədirlər.

Beşinci sənəyə varan o şeytani qitali-əqvam nəhayət, "Cəmiyyəti-Əqvam" kibi rəhmani bir nəticəyə gəliyor.

Bu gün yalnız məğlubların degil, qaliblərin də şüarı – millətlər öz müqəddəratlarını təyin eləmək həqqinə malikdirlər – düsturundan ibarətdir. Vicdani-bəşərin milyonlarca insan qanı bahasına qazanmış olduğu "Cəmiyyəti-Əqvam" fikri boş bir söz olmayıb, şübhəsiz ki, bir mənayə malik olacaqdır.

Bizi təxribkar qüvvətlərdən, məhvedici anarşidən, hərcümərcdən qurtarmaq üçün öz dəvətimizlə gələn türklər vəzifəyi-xilaskaranələrini ifa edərək bu gün mövqelərini müttəfiq əskərlərə təslim etmişlərdir. Qafqasiya ərazisi üzərində asayişi təmin eləmək üçün gələn bu yeni qüvvət millətlərin müqəddəratını təyin edib də istədikləri kibi yaşamaq əzminə mane bir qüvvət degildir. "Cəmiyyəti-Əqvam" fikrinin ələmdarı bulunan Rəisi-Cümhur Vilson bu zümrəyə mənsubdur. Paytaxtımızda müsafir bulunan müttəfiq əskərlərinin komandanı müsyo Tomson Qafqasiyaya aid məsələlərin sülhi-ümumi konfransında həll olunacağını rəsmən bəyan etmişlərdir.

Əvət, vətəndaşlar, Azərbaycanın müqəddəs həqqi-istiqlalı heç bir millət tərəfindən inkar edilmiyor. Biləks hüsni-təvəccöh və qəbul görməkdədir. İnanalım millətimizin istiqlalına, inanalım Azərbaycanın səadətinə!

Dünya müharibəsinin sükut bulmaqda olan təlatümlü əmanimavərasından millətlərin hürriyyət və səadət günəşi möhtəşəm bir surətdə tülu ediyor. Millətlər üzərlərindəki əski həyat və istibdad qüyud və zəncirlərini ataraq yeni bir həyat və istiqlala hazırlanıyorlar.

Vətəndaşlar! Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı tərk edəlim, müqəddərati-tarixiyyə həpimizi bir yerdə yaşamaq məcburiyyətində bulunduruyor. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək və müşkül mənzillərini rahatlıqla keçmək və yeni həyata ləyaqət qazanmaq üçün yaşayışımızı məqul və insani əsaslar üzərinə quralım, yekdigərimizi sevəlim, biri-birimizə ehtiram edəlim!

Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb bir vətənin övladlarıdırlar. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün onlar yekdigərinə əl uzatmalı və yardım etməlidirlər.

Bu xüsusda ən böyük məsuliyyət və ən ağır vəzifə bittəbii Azərbaycanın türklərinə, müsəlman cəmaətinə düşəcəkdir. Onlar bu topraq üzərində yaşayanların ən böyük əksəriyyətini təşkil etdiklərindən daha ziyadə fədakar və daha ziyadə mütəhəmmil bulunmalıdırlar.

Əvət, vətəndaşlar, zamanın əhəmiyyətini dərk edəlim, hər millətin həqqini təslim edəcək sülhi-ümumi konfransı uzaq degildir. O zamana qədər vətənimizi iğtişaşdan qoruyalım. Azər-

baycan Məclisi-Məbusanını təsis, hökumətini yenidən təşkil edəlim və var qüvvət və mücahidəmizlə sülhi-ümumi məclisinə hazırlaşalım.

Yaşasın Azərbaycan Məclisi-Məbusanı!
Yaşasın Azərbaycan Cümhuriyyəti
Yaşasın Cəmiyyəti-Əqvam!
Şurayi-Milli naminə rəis

**Məhəmməd Əmin Rəsulzadə**
**"Azərbaycan", 29 təşrini-sani (noyabr) 1918, №52**

Əma – karlıq, məcazi mən. nadanlıq
Mütəhəmmil – dözən, davam gətirən
Qüyud – əsarət



## "Samoopredeleniye" (Самоопределение)

İctimaiyatçılardan birisi: "Lisan daima insanları aldatan bir şeydir. Bir kəlməyi müxtəlif ağızlardan eşitdiginiz zaman həpsinin bu kəlmədən eyni mənayi murad etdigini zənn etməyiniz" diyor.

Bu qaidə sanki rusca "samoopredeleniye" kəlməsi həqqində vəz edilmişdir. Hər ağızda bir dürlü mənaya malik olan və bu vəqtə qədər mənayi-əslisi əqilli-başlı təyin olunmayan bir kəlmə varsa, o da şu yuxarıya yazdığımız rusca "samoopredeleniye" kəlməsidir.

Rusca olan bu kəlmənin yalnız türkcəyə degil, sairə Avropa dillərinə də aydın və bir kəlmə ilə vazeh tərcüməsi yoxdur. Bu kəlməyi sairə dillərə tərcümə etmək istərkən bir cümlə işlətmək lazım gəliyor. Bizim qəzetələr bunu "kəndi müqəddəratını təyin etmək" şəklində tərcümə ediyorlar. Fransızca da təqribən böylə bir cümlə ilə tərcümə olunuyor. Yalnız lüğəvi mənası degil, bu kəlmənin ifadə elədigi siyasi məfhumu dəxi müşkülatla təyin olunuyor. Ruscadan başqa bir dilə degil, ruscanın özündə belə bu kəlmənin mənası bir degildir. Son zamanlarda hər hanki inqilab və siyasət istilahından ən məruf və məşhuru olan bu rusca kəlmənin müxtəlif rus partiləri nəzdində müxtəlif mənası vardır. Hər parti bu kəlməyə özünün təhəmmül edə bildigi bir mənayı verməkdədir. Bolşeviklərdən tutaraq "Kadet" firqəsinə qədər hər parti "samoopredeleniye"yi işlədiyor və son zamanlarda hər kəs onu əsas etibarilə qəbul ediyor. Fəqət bununla bərabər rus firqələrindən heç biri bu kəlməyə "samoopredelist" olacaq millətlərin anladığı və arzu elədigi mənayı vermiyor.

Zahiri bəlli, fəqət batini bu qədər ixtilaflı olan bu kəlməyi iyi anlamaq üçün bunun nə surətlə Rusiya siyasi istilahları içinə soxulduğunu ögrənəlim:

"Samoopredeleniye" formulu Rusiya firqələrindən "Sosial-demokratiya" tərəfindən yaxın bir zamanda qəbul edilmişdir.

Rusiya sosial-demokratiyasının ömrü yarım əsr qədər bir tarixə malik ikən bu kəlmənin siyasət aləmindəki müddəti-həyatı on sənəyi ancaq bulmaqdadır.

Məlum olduğu üzrə sosial-demokratiya ideal etibarı ilə milliyyət fövqündə və mərkəziyyətçi bir firqədir. Onun şüarı "Cümlə cahan füqərayi-kasibəsini" müttəhid qılmaqdır.

Bu ittihad dəxi onlarca, sinif mübarizəsinin artması və şiddət eləməsi nəticəsində hasil ola bilər. Sinif mübarizəsi onlarca əsasdır. Və bu mübarizəyi qaranlıqda buraxan hər ictimai cərəyan onlarca, mani-tərəqqi və irticai bir cərəyandır. Bu nöqteyi-nəzərdən milliyyətpərvərlik onlarca qeyri-qail təhəmmüldür. Milliyyət hər nə qədər təhəmmül olunur bir hadisə isə də, tərvic və təşviq olunur bir amal olamaz.

Nəzəriyyə etibarilə milliyyət qəziyyəsinə böylə baxmaqla bərabər həyat sosial-demokratları da milliyyət məsələsinə bir surəti-həll verməmək məcburiyyəti qarşısında bulundurdu. Milliyyət məsələsi, millətin dili, dini, yazısı, mədəniyyəti, kəndi həqq və həyatını təmin etmək istiyordu. Əmələ və demokrasi dəxi bu təminat tələbindən fariğ olamıyordu. Sosial-demokratiya hər nə qədər milli məktəb, dil və din hürriyyətini digər siyasi hüquq və hürriyyətlərlə bərabər tələb etmək surətilə milliyyət məsələsini yumşaltmaq istiyor idisə də, milliyyət bununla qənaət etmiyor, daha ziyadə təminat tələb ediyordu. Bu təminatı vermədikcə sosial-demokratiya məhkum millətlərin təvəccöh və müavinətini səmimi bir surətdə qazana bilmiyordu. Sosial-demokratiya burada bir taktik hərəkəti işləməli idi. Bu kibi "tədbir"ə o, ilk dəfə müraciət etmiyordu. Ərazi məsələsində əsl nəzəriyyə və əsasatına rəğmən güzəşt edərək Rusiya həyati-xüsusiyyəsinə tətbiqlə proqramına ərazi maddələri əlavə etmiş olan bu firqə milliyyət məsələsini də "samoopredeleniye" kəlməsi ilə həll ediyor: "Milli samoopredeleniye həqqi" – deyə proqramına bir maddə əlavə ediyordu.

Nə qədər ki, siyasi cərəyanlar inkişaf etməmiş, nə qədər ki, milliyyət kəndi mətləbini eninə-boyuna ərz etmək imkanını hasil etməmişdi, nə qədər ki, millətlər ana lisanı ilə tədris etmək



həqqini qazanmağı kəndiləri üçün bir nemətı-üzma kibi tələqqi ediyorlardı, o zamanlarda millətin kəndi həqqini təyin etmək həqqində olmasını qayət mübhəm olsa da təslim edən bu maddədən xoşlanacaqları təbii idi.

Milləti-hakiməyə mənsub olan sosial-demokratlara gəlincə, onlar madam ki, böylə mühüm bir kəlmə ilə çarizmə qarşı ifa elədikləri mübarizədə bütün miləli-məhkumənin təvəccöhi qazanılır, varsın proqramda bu maddə də olsun – deyə düşünür. Fəqət bu maddənin nə kibi bir mənayi ifadə elədigi bir o qədər də aranmıyordu.

Nəzəriyyat etibarı ilə daha fərdçi (individualist) olan sosialist-revolyusionerlər isə "samoopredeleniye" məsələsində bir az daha iləri gedərək Rusiyanın "federasyon" muxtariyyətlər əsası üzərinə idarə olunmasını tələb ediyorlardı. Gərçi bu federasyon milliyyətdən ziyadə vilayət ərazi üzərinə istinad ediyordu.

Milli sosialist və federalist firqələr necə isə "samoopredeleniye"nin mənası tamamilə başqa idi. Onlarca milliyyət bir cameədir. Millətin hüquqi-şəxsiyyəsi vardır. Fərdlər millət vasitəsilə dövlətə mərbut olmalı. Binaənileyh Rusiya millətlərin rizası ilə bir hökuməti-müttəfiqə halında təşəkkül etməli idi.

Qurnaz bolşeviklər hökuməti zəbt edə bilmək üçün yalnız aşağı siniflərin xoşuna gedəcək şüarlar degil, məhkum millətləri dəxi cəlb edəcək sözlər söylədilər.

Hər millət istərsə Rusiya ilə bərabər qalır, istərsə muxtariyyət alır, istərsə tamamilə ayrılır – dedilər. "Samoopredeleniye"yə bu qədər geniş bir məna verdilər. Gərçi məqsədlərinə irdikdən sonra bəyannamələrini geri alıb sair hürriyyətləri zəbəri-pay qəhrlərində çardan daha şiddətli tədbirlərlə qəhr etdikləri kibi, millətlərin bu həqqini də qanlı təcavüzlərilə inkar etdilər.

Kadetlər hər nə qədər zamanın iqtizası ilə bu gün daxili muxtariyyət sözünü dillərinin ucuna gətiriyorlarsa da, bu ancaq dillərinin ucundadır. Qəlblərində isə yenə haman "starı dum"un "dövlət dili" həqqində gürcü şurasına yazdığı məktubda işlətdigi amirlik vəziyyəti vardır.

Rusiya menşevikləri də "yedinstvo" halına gəldilər ki, bu məsələdə haman kadetlərə taydırlar. Sosialist-revolyusionerlərin

fikri isə başının həşirinə qalmış bütün millətləri müttəfiqlərin zor ilə təkrar bir araya toplayıb nə olduğu anlaşılmayan Ufaya bağlamaqdır.

Bu firqələrdən heç birisi "Rusiya millətlərinin təyini-müqəddəratı ümumi sülh konfransında həll və təyin olunsun" formuluna yanaşmıyorlar. Onlar millətlərin hesabına baxacaq "bu məhkəməyi-kəbirə"yə getmək istəmiyorlar. Burada icrayə təsir edəcək ruhi-hürriyyət və hakim bulunacaq vicdani-bəşəriyyətdən qorxuyorlar. Qorxuyorlar ki, dünyada uzun bir sülh və səlah dövrəsini təsis üçün çağrılan bu məclis "samoopredeleniye" kəlməsini rus firqələri kibi hər yana çəkilər "çək uzandı" halından çıxarıb həqiqi və sərih bir mənayi-istiqlal ifadə edər formul şəklinə qoyar.

Fəqət bu qorxuyu bən qətiyyən anlamam. Rusiyayı müttəfiqlərə istinadən onların müavinətinə güvənərək toplamaq istəyən adamlar, nədən eyni müttəfiqlərin hakim və nafiz bulunacağı bir sülh məhkəməsindən qorxuyorlar.

Neçün qorxuyorlar?

Əcəba, "samoopredeleniye" təbirindəki mənanın mübhəm olduğu üçünmü?...

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 1 qanuni-əvvəl (dekabr) 1918, №53**

Murad – xahiş, istək, məqsəd
Vəz – icad, təsis
Amil – səbəb
Qəziyyə – məsələ, hadisə
Nafiz – nüfuzlu
Fariğ – vaz keçmiş
Mübhəm – aydın olmayan, qeyri-müəyyən
Zəbəri-pay – alt-üst
Qəhr – cəbr etmə, zorlama



## Azərbaycan Məclisi-Məbusanında

Bu gün 7 qanuni-əvvəl: illər ilə intizarını çəkdigimiz tarixi bayram günü. Hələ səhər tezdən evdən çıxarkən şəhərdə başqa bir halət, başqa bir ruh görüyorsan; bu gün sair günlərə bənzəməz! Bu gün bazar-dükan bağlıdır; bu gün məktəblərdə çocuqlar dərsdən azad edilmişlərdir; bu gün ümum müəssisələr bayram ediyorlar: Azərbaycanın tarixi bayramı; Birinci Məclisi-Məbusanın güşadı bayramı!

Küçələrdə, evlərdə hamı biri-birini təbrik ediyor. Hamı şad, hamı məsrurdur.

Səhərdən şəhər küçələrində zirehli avtomobillər görülüyorlar; hələ saat 9-dan qabaq bütün dükanlarını bağlamış, bayram etmiş olan türk-islamlar parlaman binası – fəqət o sevgili möhtəşəm müəzzəm "İsmailiyyə" degil, ünas məktəbi olan bina – qabağında yüzlər, bəlkə minlər ilə toplaşıb danışıyor, hər kəs öz dairəsində, öz "əqli kəsdigi" kibi övzai-siyasiyyədən istiqbal və istiqlaldan, hürriyyət və istibdaddan bəhs, mübahisə ediyor. Cəmaətdə bir qaynaşma var.

## Birinci iclas

Nikolayevski küçədə iki zirehli avtomobil dayanmış, küçədə ingilis və Azərbaycan fəxri qarovulu durub Bazarnı küçədən Persidskiyədək, Nikolayevskidən şəhadətnaməsi olmayanı buraxmıyorlar. Parlaman binasının qapısından salonadək qarovullar durub, küçədən salonadək xalılarla bəzənmişdir. Parlaman binasının üstündə və lojada Azərbaycan bayrağı vurulmuşdur. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludurlar. Tamaşaçılar içində bir çox xanımlar dəxi vardır. Ümumiyyətlə ruh yüksəkligi hökmfərmadır.

İclas açılmadan əvvəl məbuslar və sairləri dəstə-dəstə, topa-topa yığışaraq əhvali-hazirə və övzai-siyasiyyə haqqində danışıyorlar. Parlamanın vəzifəsi, gələcək Məclisi-Müəssisan, hazırki hökumət və sairə haqqində mübadiləyi-əfkar icra olunur.

Diplomasi nümayəndələr lojalarında İran, Dağıstan və Gürcüstan nümayəndələri əyləşmişlərdir.

Nəhayət saat ikinin yarısında iclas açılıyor. İclası Məhəmməd Əmin Rəsulzadə cənabları nitqi-iftitahilə açaraq Azərbaycan istiqlalının müxtəsər tarixindən, elani-istiqlaldan əvvəlki haldan və rus istibdadından incimiş, zənciri-əsarət altında əzilmiş və bittəbii bundan dolayı rus hökumətinə nifrətlə baxmaqda olan müsəlmanların və xüsusən Azərbaycan türklərinin rus milləti və rus mədəniyyətinə qarşı məhəbbət və dostluqdan başqa bir fikri olmadığını qeydlə nəhayət Azərbaycanın yaşamasına əlfi-kəmal ediyor. Bütün millətlərin amal və gedəcək yolları bir olduğunu göstərərək bu gün bu binada qaldırılmış olan bayrağın enmiyəcəginə haman bu amillərin dəlil və azərbaycanlıların şüarı olaraq istiqlal və hürriyyət uğrunda göstərdikləri və göstərməgə hazır olduqları fədakarlıqların bir istinadgah olduğunu, paytaxtımızda bulunan müttəfiqlər nümayəndələrinin də münasibat və rəftarını qeydlə diyor ki, vicdani-bəşər heç vəqt böylə zülmü işləməz ki, bizi bu səadətdən məhrum qılsın. Binaənileyh natiq cənabları azərbaycanlıları ittihad və ittifaqla çalışaraq müstəqil yaşamağa qail, müstəid və müstəhəqq olduğumuzu isbat etməgə çağırıyor. (Nitq kəraətlə gurultulu alqışla kəsiliyor).

Nitqinin axırında sədr cənabları bir sədr ilə bir baş müavin seçməgi təklif ediyor. Beş dəqiqə tənəffüsdən sonra "Müsavat" və bitərəflər namindən Şəfi bəy Rüstəmbəyov sədrligə, Əlimərdan bəy Topçubaşovun və baş müavinligə Həsən bəy Ağayevin namizədligini təklif ediyor.

## Təklif ümumiyyətlə qəbul olunur.

**Həsən bəy Ağayev** sədr yerini tutaraq böylə tarixi gündə bunca nəsibinə böyük şərəf və ehtiram düşdügündən izhari-etimad edərək seçənlərə təşəkkürünü bəyan ediyor. Sonra müvəqqəti bir katib intixabı lüzumunu qeydlə parlaman adətincə katibligə ən cavan məbusu seçmək qaidəsini bəyan binayi-aliyə Rəhim bəy Vəkilovun namizədligini təklif ediyor. Təklif qəbul olunur.



Sonra Azərbaycanın hər yerindən və ümum millətlər və siniflərdən alınmış olan təbrik teleqraflarını qismən oxuyur. (Teleqraflar dünki sayımızda dərc edilmişlərdi).

Teleqraflardan sonra hökumət rəisinə söz verilir.

**Fətəli xan Xoyski** uzun gurultulu alqışlar altında kürsi-xitabətə çıxaraq ibtida böyük, əziz mübarək gün münasibətilə parlaman əzasını hökumət namindən təbrik ediyor. Sonra hökumətin məsuliyyət və fəaliyyətindən bəhslə hər nazirin öz nəzarəti həqqində müfəssəl bəyanat və məruzə verəcəgini vəd ediyor. Kəndisi isə Azərbaycan hökumətinin heyyən təşkilindən bu vəqtədək nə kibi daxili və xarici şərait altında nə surətlə çalışdığını, o vəqtki anarşi, yolsuzluq, müxabirəsizlik, pulsuzluq, əskərsizlik və ümumiyyətlə bir dövlət və hökuməti yaşada biləcək amillərin ümumiyyətlə yoxluğunu zikrlə hökumətin fəaliyyətini təsvir ediyor və şükr eliyor ki, ən mühüm məsələlər qüsurla da olsa həll edilmiş: pul kəsilmiş və əsl Azərbaycan pulu bu yaxınlarda hazırlanacaqdır, yollar, post-teleqraf münasibat və müxabiratı açılmış, paytaxtımız hüquq və ədalət bayrağı altında hüquqi tapdayanların əlindən alınmışdır. Natiq həzrətləri türklərin dəvəti qonşu millətlər və hökumətlər ilə münasibatımıza və sairlərini açıq təsvir etdikdən sonra diyorlar ki: şimdi artıq parlaman dəvət olundu. Heç hökumət bundan sonra bir dəqiqə belə iş başında qalmaq istəməz. Binaənileyh hökumət istefa veriyor.

(Gərək Məhəmməd Əmin bəy və gərəksə Xan Xoyski həzrətləri nitqlərinin təfsilatı sabahkı nömrəmizdə olacaqdır).

**Məhəmməd Əmin bəy** təklif ediyor ki, yeni hökumət təşkilinədək sabiq hökumət məmləkəti idarəsiz buraxmayaraq iş başında qalsın.

Təklif qəbul olunur.

**Sədr** etibarnamə, nizamnamə və təsərrüfat komissiyaları seçmək lüzumunu göstərərək namizədlər göstərilməsini təklif ediyor.

Bu namizədlər göstəriliyor:

"Müsavat" və bitərəflərdən: Şəfi bəy Rüstəmbəyov, Məhəmməd Yusif Cəfərov, Abbasqulu Kazımzadə.

Sosialistlər İttifaqı (müsəlman) tərəfindən: Məhərrəmov, Səfikürdski, Hacınski.

"Hümmət" firqəsindən: Qarayev, Camalbəyov və Şeyxülislamov.

"İttihad" firqəsindən: Vəzirov Zeynal bəy, Məhəmmədbəyov və Qara bəy Qarabəyov.

Gürcülər, lehlər, yəhudilər və almanlar nümayəndələri tərəfindən Qoxman, Vanseviç və Tsixaqaya.

Rus slavyanları tərəfindən: Mixaylov, Klınyevski və Krınqo.

Namizədlər qəbul olunur.

Sonra "İttihad" firqəsi təklif ediyor ki, parlaman güşadı münasibətilə siyasi məhbuslara əfvi-ümumi elan olunsun.

Sosialistlər İttifaqı, Müsavat və Hümmət bu təklifi təbrik ediyorlar. Əsas etibarilə etiraz edən olmuyor. Fəqət bu təklifin qanun layihəsi surətində təqdimi və müəyyən bir komissiya, ya fraksiya tərəfindən verilməsi məsələsi qaldırılaraq nəhayəti-ara ilə 5 nəfərlik bir komissiyaya məhvəl edilməsi təhti-qərara alınıyor.

Komissiyaya aşağıda isimləri yazılan məbuslar daxil oluyorlar:

Müsavatdan – Qardaşov
Sosialistlər İttifaqından – Səfikürdski
Hümmətdən – Ağamalov
Bitərəflərdən – Əfəndiyev
İttihad firqəsindən – Zeynal Tağıyev

İclas saat 5 radələrində qapanıyor.

Gələcək iclas düşənbə günü saat 12-yə təyin ediliyor.

**"Azərbaycan",**
**8 qanuni-əvvəl (dekabr) 1918, №59**

Məsrur – elan, xatırlama
Müstəid – istedadlı, bacarıqlı
Müstəhəqq – layiq
Heyyən – heyəti



# Azərbaycan parlamentində M.Ə.Rəsulzadənin açılış nitqi

Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yövmi-səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə müftəxirəm (Alqışlar). Əfəndilər, Rusiyada zühur edən inqilabi-kəbir digər həqiqətlər arasında bir həqiqəti-bahirəyi dəxi elan etmişdi. Bu həqiqət millətlərin həqqi-hürriyyət və istiqlalı idi. Rusiya inqilabı təbiətində mövcud olan ruhə sadiq qalaraq təbii yolu ilə inkişaf etsəydi, millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyayi bir an əvvəl təsis edəcək idi. O vəqt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların da həyatisiyasiyyələri digər məhkum millətlərlə bərabər başqa bir təriqdə cərəyan edəcəkdi. Millətlərə kəndi müqəddəratlarının təyinini pək səmimanə bir surətdə Rusiya Məclisi-Müəssisanından gözlədilər. Fəqət Rusiyada inqilab və demokratizm naminə zühur edən məkus bir istibdad nə kibi xarablıqlar yaratdığını bilirsiniz. İnqilab naminə hökmfərma olan anarşi və millətlərin hüququ elanından sonra yeridilən qatı mərkəziyyətçilik Zaqafqasiya millətlərini kəndi başlarının çarəsinə baxmaya sövq etdi. Zaqafqasiyadan Rusiya Məclisi-Müəssisanına intixab olunan məbuslar kəndilərini vəkil edən camaatin hüququnu Zaqafqasiya "Seymini" təşkil və onun istiqlalını elan etməkdə gördülər.

Eyni məntiq nəhayət Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin Şurayi-Milli təşkilinə sövq, bu Şurayi-Milli isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu. (Alqışlar).

Bu gün əqəliyyət təşkil edən millətlərin nümayəndələri dəvət olunmaq üzrə iştə bu məclis təşəkkül etmişdir. Bu məclis ümumi seçki üsuli ilə toplanacaq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu məclis vətənimizi tamamilə təmsil edə bilər.

Əfəndilər, bilirsiniz ki, bizim Rusiya camaatinə qarşı heç ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya çarizm Rusiyası, Rusiya istibdadıdır. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatinə nifrət demək degildir. Bizcə mənfur olan, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlərlə ürək istədigi kibi əqdi-ittifaq etməlidir. Bütün dünya millətlərinin bir "Cəmiyyəti-Əqvam" vücuda gətirməsi bizim ən müəzzəz fikirlərimizdəndir. Bu "federasyon" cəbrlə degil, təbii bir meyl və arzu ilə hasil olmalıdır. (Alqışlar).

Ərz etdim ki, biz Rusiya camaatinin də düçar olduğu fəlakətdən qurtarılmasını ürəklə istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki Qafqasiya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilməriz. (Alqışlar). Biz Rusiyanın səadətini istəriz. Rusiya camaatini sevəriz. Fəqət kəndi istiqlalımızı da əziz tutarız. (Alqışlar). Cəbr ilə qəbul etdirilən bir şeydə qətiyyən səadət olamaz. Çünki səadət hürriyyət və istiqlaldadır.

İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış. Türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa əfkari-əhraranəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. (Məbuslar yerlərindən qalxıyor, şiddətli alqışlar mədid bir surətdə davam ediyor).

Mən buna iman edirəm. Mənim bu imanımı millətlərin qəlbində doğmuş olan əməl günəşi işıqlandırıyor. Bu günəş bir daha üful etmiyəcək. Bən vicdani-bəşəriyyətə inanıyoram. Milyonlarla insan bahasına mal olan qitali-ümumidən sonra vicdani-bəşər qazandığı həqiqətləri asanlıqla əlindən verməz. "Cəmiyyəti-Əqvam" fikri bu gün hər kəscə qəbul edilmiş bir fikirdir. Bu bənə ümid veriyor. Qüvvətlə inanıyoram ki, artıq milləti öldürmək, millətin hüququnu paymali-zəval etmək qətiyyən mümkün degildir. Qaliblər də, məğlublar da millətlərin hüquqi təslim edilməlidir diyorlar. (Alqışlar). Yaxında açılacaq sülhi-ümumi konfransında bu fikir qətiyyən hakim olacaq. Bu gün əhvalə hakim



olanlar müttəfiqlərdir. İngilis, Amerika, Fransa dövlətlərinin bayraqlarında millətlər təmini-hüquqi və "Cəmiyyəti-Əqvam" şüarı yazılıbdır. Dövlətlərin Bakıda bulunan nümayəndələri naminə general Tomson Qafqasiya məsələlərinin sülhi-ümumi konfransında həll olunacağını rəsmən elan etmişlərdir.

Biz azərbaycanlılar bütün mövcudiyyətimizlə kəndi müqəddəratımızı, kəndi istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərirsək heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti payidar olur. Fəqət bunun üçün təkrar ediyorum səbat və mətanət, fədakarlıq istər. İstər ki, biz kəndimizin istiqlala layiq olduğumuzu isbat edəlim. Bu oldumu sizi təmin edirəm ki, kimsə həqqimizi təslim etməmək cəsarətində bulunamaz. Hanki vicdandır ki, istiqlalı istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr etsin. (Alqışlar).

Əfəndilər, biz Qafqasiya əqvami ruhumda hər zaman hürriyyət və istiqlal fikri hakim olmuşdur. Hürriyyət fikrinin müməssili olan "Prometey" Qafqasiya dağlarında zəncirə bənd edilmişdi. O, daima zəncirlərini qırmaq təşəbbüsündə idi. "Prometey"in ruhu Qafqasiyanın bütün millətlərində vardır. Qafqasiya millətlərinin istiqlalı və bərabərlikdə müstəqil olaraq yaşamaları bir xəyali-bəid degildir. Qardaş millətimiz olan Şimali Qafqasiya, qapıbir qonşumuz ermənilər, münasibəti-dostanəmiz bütün cüziyyatə rəğmən daima səmimi qalan gürcülər, bizə bir çox mədəni xidmətləri toxunmuş rus camaatinin mühüm bir qismi ilə əl-ələ verərək biz Qafqasiyanın müqəddəratını qitə üzərində yaşayan millətlərin arzusu vəchilə təmin edə biləriz. (Sürəkli alqışlar. Diplomasi lojalarına müraciətlə təkrar alqışlar).

Əfəndilər, bən buraya qədər sizə ümidli sözlər söylədim. Buna iman ediyoram. Fəqət nəzərinizi əhvalın ağırlığına dəxi cəlb etməzsəm vəzifəmi hüsni-ifa etməmişəm deməkdir. Zaman ağır, gedəcəgimiz yol çox tikanlı və arizəlidir. İləridə bir çox müşkülat və maneələri dəxi gözə almalıyız. Bu maneəli yolları keçmək və sərmənzili-məqsudə irmək üçün siz məbus əfəndilər bir çox fədakarlıqlar ibraz etməli, təmsil etdiginiz millətə səbat, mətanət göstərmək üzrə bir nümunəyi-əmsal təşkil etməlisiz. Bu

nümunəyi göstərəcək iqtidar və istedada malik oldunuzsa, yolun yarısı gedilmiş deməkdir.

Əvət, əfəndilər, bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kibi vətən və millət qayəsi qarşısında səqil qalan qərəzlər atılmalı, vətən qayğısı və millət duyğusu hər şeydən yüksək tutulmalıdır. (Sürəkli alqışlar).

Əfəndilər, bu gün Azərbaycanın paytaxtında Məclisi-Məbusan iftitahındayız. Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər bir şöləyi-ümid və iman təşkil eləmişdir. O atəş ki, bu gün də sərvət və saman səbəbi və baisi-təməddündür. Qəvi bu atəş Azərbaycan övladının sinələrinə dolsun, milyonlarla ürəyi yaxan bu atəş əbədiyyən sönməz bir məşəl təşkil edib də hürriyyət və istiqlala doğru getdigimiz məneəli yolları işıqlandırsın! (Sürəkli və mədid alqışlar).

**"Azərbaycan",**
**9 qanuni-əvvəl (dekabr) 1918, №60**

Məsun – toxunulmaz
Məkus – tərsinə dönmüş
Müəzzəz – əziz
Mədid – uzun
Üful – qürub
Təmin – xatircəm
Bəid – uzaq
Səkil – çirkin



## Bütün Azərbaycan vətəndaşlarına!..

Millətdaşlar, vətəndaşlar!..

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanının açıldığı münasibətilə sizləri təbrik ediyoruz.

Təbrik ediyoruz Azəri türklərini ki, ürəklərinin dərin guşələrində əzizlədikləri böyük amalları hasil olubdur.

Təbrik ediyoruz müsavat məfkurəsi ilə mənus olan millətdaşlarımızı ki, bu gün onlar Azərbaycan fikrinin qövldən-felə keçməsini göstərən bir böyük vəqeyi dəxi seyr ediyorlar.

Təbrik ediyoruz firqəçi yoldaşları ki, qaldırdıqları Azərbaycan bayrağı bu gün millət vəkillərinin başları üzərində pərçəməndaz oluyor.

Təbrik ediyoruz bütün vətəndaşları ki, həqq, ədalət və müsavat nigəhbanı olan bir müəssisəyi-hürriyyət təşkil olunuyor.

Əvət, böyük fikrin, fikri-istiqlalın, Azərbaycan hürriyyət və istiqlalının arzukeşləri sevinsin, bu arzu yolunda şəhid düşən, bu arzu ilə ölən millətdaş və vətəndaşların da ruhu şad olsun.

Azərbaycan Məclisi-Məbusanı açılıyor. Fəqət vətəndaşlar, biliniz ki, bu gündən bizə böyük və olduqca müşkül imtahan günləri başlayır. Azərbaycan Məclisi-Məbusanı bizə bir imtahandır. İmtahan göstərməliyiz, həddi-rüşd və büluğə yetmiş vətəndaşlar olduğumuzu isbat etməliyiz. Bu imtahanı millətin vəkilləri, vəzirləri verdikləri kibi millət özü də bu imtahana girməlidir. Millət Məclisinin dalında durmaz, onun qərarlarına tabe olmaz, onun ehtiramını saxlamazsa, biliniz ki, vətəndaşlar, Məclis özü-özünə heç bir şey edə bilməz.

Bu gün hər şeydən əvvəl Azərbaycan istiqlalını qurtarmaq lazım, çünki olduqca ağır bir vəziyyət, müşkül bir əmr altındayız. Bunun üçün də daxili nizaları şiddətləndirməyərək bütün firqələr birləşməli, Vətən və Hürriyyəti-Vətən naminə birləşməlidirlər.

Beşinci ilə varan millətlər qovğası indi xitamə iriyor. Bu müharibənin nəticəsində o müharibə qədər müəzzəm bir hadisə zühur ediyor.

Millətlər hürriyyət və istiqlal bayrağı açıyor. İstibdadlar yıxılıyor. Dünya xəritəsi yeni hökumətlərlə boyanıyor.

Millətlər azad və müstəqil olacaq. Dünya azad millətlərdən ibarət bir "Cəmiyyəti-Əqvam" şəklinə girəcək!

Millətlərin hürriyyəti, millətlərin cəmiyyəti!

İştə bu günün siyasəti, bu günün şüarları!

Paytaxtımızda bulunan müttəfiq dövlətlərin bayraqlarında dəxi bu cümlələr yazılıbdır.

Müttəfiqlər bu gün bayraqlarında yazılı bulunan bu şüarı bilfeil həqqimizdə tətbiq etməmişlərsə də, bilmisal bunun sülhi-ümumi konfransında həll olunacağını rəsmən elan etmişlərdir.

Sülhi-ümumi konqresi, vətəndaşlar, istiqlal paylıyacaq – deyə düşünülməsin. Çünki bu kəndisini aldatmaq olur. Konqres israr və istehqaqla istənilən istiqlalları təsdiq edəcək!

Bunun üçün çalışalım. Hər növ şəxsi mənfəətlərin üstünə çıxalım, özümüzü unudalım, millətimizi düşünəlim, məclisimizlə müttəhid olalım, işlərimizi, idarələrimizi yoluna qoyalım. O zaman əmin olalım ki, həqqimizi alırız!

Vətəndaşlar! "Cəmiyyəti-Əqvam" 5 sənəlik qital nəticəsində millətlərin vicdanından doğmuş öylə aləmləri işıqlandırıcı bir günəşdir ki, feyzi bütün aləmə şamildir.

Çalışalım, səy edəlim, qardaşlar ki, Azərbaycan üfiqi bu günəşin üzünə hail olacaq buludlar və dumanlarla örtülməsin!

Bu isə bizim əlimizdədir.

Bunun üçün bütün firqələr müttəhid olmalı, bütün təbəqələr təhəmmül etməli, Məclisi-Millinin dalında Səddi-İskəndər kibi durmalıdır.

İştə vətəndaşlar, bu gün Azərbaycan Məclisi-Məbusanının açıldığı gündə sizi fədakarlığa, ittihada dəvət ediyoruz. Müttəhid və fədakar olalım, tainki:



Yaşasın Azərbaycan Cümhuriyyəti!
Yaşasın Cəmiyyəti-Əqvam!

## Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" Mərkəzi Komitəsi

**"Azərbaycan",**
**10 qanuni-əvvəl (dekabr) 1918, №61**

Nigəhban – gözətçi
Rüşd – doğru yol tapma
Büluğ – yetginlik
Niza – çəkişmə, tutuşma
Pərçəməndaz – dalğalanmaq

## Azərbaycan Məclisi-Məbusanında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi Məclisi-Məbusan şöbəsinin bəyannaməsi

**Məhəmməd Əmin Rəsulzadə:** Möhtərəm məbuslar! Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Məclisi-Məbusan şöbəsi tərəfindən hüzurunuza ərz etməliyəm ki: "Müsavat" firqəsi bu vəqtə qədər gərək Rusiya Məclisi-Müəssisan seçkilərində, gərək Zaqafqasiya "Seym"ində bitərəf adilə məruf olan müstəqilüləfkar cəmaət xadimləri ilə bir fraksiyon təşkil edərək onlarla birlikdə hərəkət etmişdir. Bu gün isə firqə müstəqil bir fraksiyon şəklində hüzurunuza çıxaraq məruzatda bulunuyor.

Möhtərəm məbuslar, yəqin ki, siz "Müsavat" firqəsinin bu hərəkətində bir tərzi-hərəkət dəyişikligi görürsünüz, həqqa ki, öylədir. Əcəba, bu böyük Məclisi quran müxtəlif firqələrdə proqram dəyişikligi görmüyormusunuz?!..

Biz yaxın məqsədlərimizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar oluyorduq. Sağdakılar bir nöqtədən, soldakılar da başqa bir nöqtədən Azərbaycan muxtariyyətini inkar ediyordular: sağdan diyordular ki, – Azərbaycan, Azərbaycan deyə-deyə müsəlmanları parçalıyor, türklük bayrağı qalxızırkən – nəuzubillah – İslama rəxnə vuruyorsunuz. Soldan dəxi iddia ediyordular ki, Azərbaycan davası bizi inqilabçı və hürriyyətpərvər Rusiya demokratiyasından ayırıyor, xan və bəy hökuməti düzəltməgə səbəb oluyor.

Fəqət bu gün nə görüyorsunuz? Onlar da, bunlar da azərbaycançı, Azərbaycan istiqlalını, bizim bu, dünki münəqqidlərimiz, bu gün olunca qüvvətləri ilə, bir baxışda hətta bizdən daha ziyadə bir şiddətlə müdafiə ediyorlar. Biz bununla əlbəttə ki, iftixar edəriz!

Azərbaycan muxtariyyəti şüarını ilk dəfə ortalığa atan Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi – bu gün 5 ilə yaxın aləmşümul bir döyüşdən sonra qalib və məğlub, bütün zehinlərdə



yerləşmiş "Cəmiyyəti-Əqvam" fikrinə inanmışdı. "Müsavat" firqəsincə bu cəmiyyət milli dövlətlərin ittifaqından ibarət olmalı, bu dövlətlər də ədəmi-mərkəziyyət və muxtariyyət əsasları üstündə qurulmalıdı.

Bu idrakatə ürəgi ilə inanan firqəmiz Rusiya inqilabının bəlli aylarında Petroqrad mərkəziyyətinə şiddətlə arzukeş olan sosialist cərəyanlarına uymadığı kibi, əksər zehinləri tutan və bir növ ruh xəstəligi kibi şiddətli surətdə sirayət edən "ilhaqçılıq" mərəzinə də mübtəla olmadı. Öz-özünə sadiq qalaraq həmişə ədəmi-mərkəziyyətçi qaldı.

Əvvəla ədəmi-mərkəziyyət, sonra muxtariyyət, daha sonra cərəyanə tabeən istiqlaliyyət tərəfdarı, daima Azərbaycan məfkurəsinin müdafei olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq nə sağlar, nə də sollar Azərbaycanı inkar degil, var qənaətləri ilə isbat ediyorlar. Çünki artıq Azərbaycan fikri üzərinə müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki artıq cəmaətimizin zehnində Azərbaycan istiqlalının fikri yer tutmuş, yerləşmişdir. Çünki üç rəngli o müəzzəz bayraq artıq siyasətən həpimizi birləşdirmişdir.

Əvvəlcə firqə Azərbaycan fikrini yalnız xaricdə degil, daxildə də isbat etmək məcburiyyətində idi. Bu gün isə firqəmiz daxilən isbat olunmuş müstəqil bir Azərbaycanın Məclisi-Məbusanında bulunuyor. Şimdi firqə fələn mövcud olan Azərbaycan istiqlalının hüquqca möhkəmləşməsi, xaricdə müdafiəsi, daxildə də təşkili üçün çalışmalıdır. Əgər bu vəqtə qədər "Müsavat" başlıca məqsədi olan Azərbaycan fikrinə maddi bir vücud qazandırmaq niyyətilə sabit bir mərkəz vücudə gətirmək üçün bu məsələdə kəndisilə müttəfiq bulunan bitərəflərlə bir qəlibdə bulunuyordusa, şimdi artıq buna ehtiyac yoxdur. Azərbaycan hər kəs üçün müdafiə olunur qüdsi və müştərək bir sitareyi-ümid halına gəldikdən sonra təbiidir ki, mərkəzi-məbusan təbdil, proqramlarda tələblər təqdim etməlidir.

Firqə proqramımız ilə tanış olanlar biliyorlar ki, biz federalist, türkçü və demokratız. Məsləkimiz milli-demokrat məsləkidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər varıyor.

Millətin qüvvətli bir cəhəti-camеəsini yalnız dində degil, xəlqin "dili dilimdən, dini dinimdən" – deyə kəndinə məxsus sağlam hədislə dərk elədigi düsturda görüyoruz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük türk millətini bir gün gəlib də bir türk federasyonu qurmaqla bütün görmək istəriz. Bu ittihadın mədəniyyəti-bəşəriyyə sərgisinə qiymətdar bir hərs (kültür) bəxş edəcəginə əminiz. İştə məqsəd əqsamızın digər dərəcəsi. Fəqət bu məqsədlərin fövqündə ülvi bir məqsədimiz daha vardır ki, o da bütün cahan federasyonu və "Cəmiyyəti-əqvam"dan ibarətdir.

Bunun bir müqəddiməsi olmaq üzrə Rusiya inqilabı zamanında yazılan firqə proqramımız Rusiyada milli və məhəlli muxtariyyətlər əsası üzərinə qurulu Qoşma Xəlq Cümhuriyyəti üzərində israr ediyordu. Müsaid bir zamanda, mətlub şərtlər altında təkrar böylə bir ittifaq əqd eləmək bizcə yabançı bir fikir degildir. Bilxassə ki, proqramımız vəchilə muxtariyyətlərini tələb etdigimiz Türküstan, Qırğızıstan, Başqırdıstan, Volqaboyu və Krım türkləri ilə biz bu surətlə təkrar əlaqə və irtibat peyda edə biləriz. Müstəqil Azərbaycan digər müstəqil Rusiya millətləri ilə azadanə bir surətdə bağlaşaraq qoşma bir hökumət vücudə gətirə bilər. Yalnız bu qədər var ki, ittifaqı azərbaycanlılar degil, Azərbaycan yapa bilər. Vəziyyəti-beynəlmilliyəmiz aydınlaşmayınca, kəndi həqqimizi kəndimiz təyinə səlahiyyətdar olduğumuzu Rusiya ilə bərabər bütün cahan mədəniyyəti qəbul etməyincə toplanacaq sülh konfransındailədigimiz istiqlal təsdiq olmuyunca – bir kəlmə – hürriyyətimiz beynəlmiləl bir təminata alınmayınca bittəb heç bir ilhaqdan, heç bir federasyondan bəhs olunamaz.

Azərbaycan məsələsi, kim nə deyirsə-desin artıq beynəlmiləl bir məsələdir. Müstəqil Azərbaycanın xaricən müdafiəsi, hüquqən təsdiq etdirilməsi yenidən düzələcək hökumət məramnaməsinin baş sətrini təşkil eləməlidir. Məclisimiz açıldığı gündə söylənmiş "bir dəfə yüksələn bayraq endirilməz!" sözü dildə degil, işdə də görülməlidir. Bu xüsusda ciddi çalışmaq əzmində bulunan hökumət vəziyyətə hakim bulunan müttəfiq dövlətlərin həqqimizdə göstərdikləri dostanə təvəccöhdən son dərəcə istifadə



edə bilər. Amerika rəisi-cümhuri Vilson əsasları Azərbaycan kibi kiçik məmləkətlərin də böyük məmləkətlər dərəcəsində həqq və ehtibara malik olacaqlarını elan eləmişdir. Amerika rəisi-cümhurinin elan etdigi əsaslara iştirak edən İngiltərə ilə Fransə düvəli-müəzzəmələri dəxi qurulacaq sülh konfransında millətlərin kəndi müqəddəratlarını həll etmək ixtiyarında olduqları düsturunun hakim olacağını elan etmişlərdir. Buna əlavə olaraq paytaxtımızda əmniyyət və asayiş təmini üçün müsafir olaraq gələn müttəfiq ordusu komandanı general Tomson Qafqasiya məsələlərinin sülh məclisində həll olunacağını rəsmən bəyan etmişlərdir. Böylə müsaidkar bir əsəri-təvəccöhi istifadə etmək və bir vəsilə ilə bütün cahan mədəniyyət hüzurunda, bilxassə düvəli-müttəfiqə məhafilində müstəhəqq-istiqlal olduğumuzu isbat eləmək Azərbaycan hökumətinin "bismilə" siyasətini təşkil eləməlidir. Bu məsələdə qəvi bir əzm və sarsılmaz bir səbatla hərəkət edəcək hökumət hər hankı firqəyə mənsub olursa-olsun hər növ müavinət və müzhirətimizə əmin olsun.

Müstəqil bir cüzini təşkil elədigimiz Qafqasiya öylə siyasi bir vəziyyət qarşısındadır ki, buradakı cavan cümhuriyyətlər, Azərbaycan da daxil olduğu halda ancaq ittifaq və yalnız dostluqla rəftar edə bilər və böylə rəftar edə bildikləri gündən etibarən xilas olurlar. Buna görə də xarici siyasətimizin "əlhəmd"isini Qafqasiya ittifaqı təşkil etməlidir. Siyasət və iqtisadca su ilə havaya olduğu kibi möhtac bulunduğumuz bu ittifaq xatirinə aramızdakı bütün ixtilaflı məsələləri sülh, müsalimət, mülayimət və qarşılıqlı güzəşt və ən sonu hökm vasitəsilə həll etmək tərəfdarıyız. Hər halda həqiqi və həyati mənfəətlərimizi fəda etməmək şərtilə bu kibi məsələləri **qansız həll edən hökumət ən ziyadə himayə edəcəgimiz hökumətdir.**

Bizimlə həmdərd olan Gürcüstan, Ermənistan dövlətləri ilə hüsni-münasibətimizin könül arzu elədigi dərəcədə səmimiləşdirilməsini şiddətlə arzu edəriz. Fəqət bununla bərabər istərdik ki, Qafqasiya millətlərinin hürriyyət və istiqlalına gələcək zərbəyə hər kəsdən ziyadə və həpimizdən əvvəl məruz qalacaq Şimali Qafqasiyalı qardaşlarımızın müqəddəratı hər zaman nəzərimiz-

dən uzaq qalmasın. Biləlim ki, orada "qəlyanaltı" edəcək "bolşevik" burada "nahar" yeyəcəkdir. Bunu qətiyyən unutmamalı, ona görə də tədarük görməlidir.

Digər dövlətlərlə dəxi münasibata girişmək, bilxassə yeni vücudə gələn dövlətlər nəzdinə nümayəndələr göndərib də onların nümayəndələrini nəzdimizə cəlb etmək xariciyyə nəzarətimizin ilk dərəcədə görüləcək işlərindən olmalıdır.

Xaricən böylə sülh və müsalimətlə hərəkət edəcək hökumət daxilən də hürriyyət, müsavat, ədalət və əmniyyət təsisinə cəhd etməlidir. Həqqimizi isbat etmək istehqaqımızı göstərmək nöqteyi-nəzərindən dəxi daxili işlərimizi yoluna qoymaq, bütün idarələrimizi tənzim etmək məcburiyyətindəyiz.

Böyük Rusiya inqilabından qazanılan söz, yazı, vicdan, ictimai, ittifaq kibi əhli-vətən hürriyyətləri tamamilə təhti-təminə alınmalı, Azərbaycan müsalihəkar, hürriyyətpərvər bir hökumət olmalıdır. Əgər bu günə qədər hərb və inqilab əhvali-fövqəladəsindən naşi bu kibi məqsədlər könül dilədigi kibi hasil olmamışsa bunun bir an əvvəl qövldən-felə gətirilməsinə çalışmalıdır. Eyni səbəblə bu vəqtə yalnız müsəlmanlardan təşəkkül edən heyətivükəla dəxi ədalət üzərinə müstənid müştərək bir hökumət şəklində olmalıdır. **Milləti-məhkumluq acısını dadmış olan Azərbaycan türkü məhkum millət yaratmaz.** Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemsə, polyak və sair azlıqda olan millətlər Azərbaycan vətəndaşı qalmaqla bərabər milli-mədəni muxtariyyətə malik olub kəndi ümuri-məzhəbiyyə, milliyyə və mədəniyyələrini kəndiləri idarə etməlidirlər.

Keçmişin məşum tərkəsi olan erməni-müsəlman hadisatiəlimənsinə bir daha meydan verilməmək üçün hökumət hər növ fədakarlığa təhəmmül etməli, bu yurd dağıdıcı ədavətin izaləsinə səy etməlidir. Bu xüsusda qəti və bitərəfanə qərar və tədbirlər ilə hökumət mart və sentyabr hadisələri kibi fəngir hadisələrin bir daha təkrar edilməyəcəgi həqqində həqiqi təminat verməlidir.

Bütün aləmi istila edən demokratik cərəyanın yol alıb getdigi böylə bir zamanda Rusiya inqilabi-kəbiri kibi müdhiş bir ixtilal



məşiməsindən doğmuş bir cümhuriyyəti təsis və idarə edəcək hökumət daxili siyasətində hər şeydən ziyadə demokrasi sinfinə köylülərlə əmələlərə istinad etməlidir. Fövqəladə bir surətdə bahalaşan məişətin ən ağır yükü millətin əksəriyyəti-əziməsini təşkil edən bu iki sinfin omuzundadır. Binaənileyh əkinçiyə yer, əmələyə iş verilməlidir. Yeri biz necə veriyor, iş üçün nə düşünüyoruz deyə vaqe olan firqə proqramını nəql ediyoruz:

## Topraq məsələsi

32) Xəzinəyə, sabiq padşaha və padşah nəslinə mənsub xanədanə: öylə də mülkədarlarla xüsusi maliklərə məxsus olan bütün topraqlar pulsuz və əvəzsiz olaraq zəhmətkeş və rəncbər xəlqə veriləcəkdir.

33) Bu surətlə zəhmətkeş və rəncbərlərə veriləcək topraq onların kəndi mülkiyyətinə verilib həman yer üzərində bütün hüquqa malik olacaqlardır.

34) Hər bir əldə qalacaq və ya bulunacaq toprağın ən çox miqdarı qanunən təyin olunub ondan artıq kimsəyə topraq sahibi olmaq həqqi verilməyəcəkdir.

35) Toprağın pulsuz və əvəzsiz surətdə rəncbərlərə verilməsi üzündən xəsarətdidə olan xüsusi maliklərə gördükləri ziyan müqabilində xəzinə tərəfindən mütərəqqi gəlir vergisi əsasilə varlı siniflərdən alınan vergi yolu ilə hasil olmuş xüsusi bir məbləğ (fond) hesabına olacaq mükafat veriləcəkdir.

36) Mülkiyyət toprağın üzərinə olub altındakı mədəniyyat isə beytülmala (muxtariyyət xəzinəsinə) məxsusdur ki, nə surətlə istifadə olunması dövlət tərəfindən qoyulacaq xüsusi nizam və qanuna bağlıdır.

37) Meşələr, cəngəllər, göllər, duzlaqlar və axar sular ümumidir. Onların idarəsi məhəlli idarələrin əlində olub xüsusi adamların onlardan faydalanmasının tərtibi dəxi məzkur idarələrə bağlıdır.

## İşçi məsələsi

İşçiləri zəhmətin ağır məşəqqətindən bilnisbə rahət etmək üçün firqə aşağıdakı maddələri tələb ediyor:

38) Hər bir muzdur, qulluqçu, əmələ və fəhlə üçün iş günü səkkiz saətdən artıq olmamalıdır.

39) Hər bir muzdur, qulluqçu, əmələ və fəhlə üçün erkək-qadın fasiləsiz olaraq həftədə 24 saətlik istirahət müddəti qanunən müqərrər olunuyor.

40) Qanunən müəyyən olan iş günündən artıq işləmək qaidəsi tamamilə mən edilməlidir.

41) Gecə qulluğu axşam saət 9-dan saət 6-ya qədər yasaqdır. Fəqət işin texnikası tələb elədigi təqdirdə və əmələ təşkilatı tərəfindən caiz görüldügü halda gecə xidməti görülə bilər.

42) 16 yaşına qədər məktəb sinnində olan balaların çalışdırılması məmnudur. 16 yaşından 18 yaşına qədər olan cavanların iş günü isə 6 saətdən artıq olamaz.

43) Qadınları səhhət və vücudlarına zərərli olan işlərdə çalışdırmaq məmnudur. Hamilə olan qadın xidmətkarlar doğduqlarından 4 həftə əvvəl və 6 həftə də sonra xidmətdən azad edilib və bu azadlıqları müddətində dəxi muzd və məvaciblərini tamamilə alacaqlardır.

44) Qadın əmələ və fəhləsi olan hər bir fabrika, zavod və sair kəsbxanalar yanında südəmər uşaqlara məxsus tərbiyəxanalar yapılacaq, uşaq əmizdirən ana-qulluqçular hər 3 saət arasında yarım saətdən az olmamaq şərtilə xidmətdən azad ediləcəkdir.

45) Tamamilə və ya qismən işləmək qabiliyyətini itirmiş olan əmələlər dövlət tərəfindən xüsusi bir fond (sərmayə) hesabına sığorta olunacaqlardır. Bu fond dəxi sərmayədarlardan alınan xüsusi bir vergi hasilatından əmələ gələcəkdir.

46) Muzd və məvacib müqabilində nəqd əvəzinə cins vermək qaydası tamamilə mən ediləcək, muzd və ya məvacib isə həftədə bir dəfə iş müddəti əsnasında veriləcəkdir.

47) Cərimə xarab olan və ya bəgənilməyən mətain mayasını qaytarmaq və sairə kibi hər növ ittifaq və səbəblərdən ötrü olsa da fəhlələrin həqq və hesabından pul çıxmaq qaidəsi kökündən mən edilməlidir.



48) Hər növ emalatxanə, kəsbxanə, fabrika, zavod və sairəyə kifayət edəcək qədər fabrika müfəttişləri (inspektorlar) təyin edilməlidir. Dövlətə məxsus olan sənaətxanələr, xadimə və qulluqçusu olan kəsbxanələr dəxi bu müfəttişlərin nəzarətinə tabedirlər. Bu cümlədən olaraq ev qulluqçuları ilə nökərlər dəxi fabrika müfəttişligine tabedirlər. Qadınların çalışdığı yerlərə qadın müfəttişlər təyin olunmalıdır. Fabrika, zavod və zəhmətin müdafiəsinə məxsus nəşr olunan qanunların kamilən yerinə yetirilməsinə baxmaq üçün əmələlər tərəfindən seçilmiş vəkillər dəxi iştirak etməlidirlər. Bu vəkillərə dövlət tərəfindən maaş veriləcəkdir. Əmələlər tərəfindən seçilən bu vəkillər əmələyə verilən materiallara onların (brakovka) yaramazlığa, ələlümum işin nəticəsinə nəzarət etməlidirlər.

49) Sahibkarlar tərəfindən əmələlərə məxsus olaraq verilən evlərlə mənzillərin səhhətə müvafiq olub-olmamasına, məzkur otaqların daxili səliqə və tərtibatına və onların kirayə verilmək şəraitinə baxmaq və həmçinin iş sahiblərinin əmələlərin ev işlərinə müdaxilə etmələrinə meydan verməmək üçün bu mənzillər məhəlli idarələr tərəfindən təftiş olunub nəzarət altına alınmalı, bu nəzarətə əmələlərin vəkilləri də iştirak etməlidirlər.

50) Hər bir kargah, fabrika və emalatxanə müntəzəm surətdə iş sahiblərinin nüfuzundan azad səhiyyə nəzarətləri təsis olunmalıdır. İş sahiblərinin hesabına olaraq əmələlərə müftə dərman verilməli və azarlandıqları müddətcə məvacibləri dəxi özlərinə yetişməlidir.

51) Səy və zəhmət qanununu sındıran iş sahibləri cinayət qanunu mövcibincə məsuliyyətə alınmalıdırlar.

52) Hər bir kargah və kəsbxanədə yarısı iş sahiblərindən, yarısı da əmələlərdən ibarət xüsusi mühakimə heyətləri təşkil olunmalıdır.

53) Yerli və xaricdən gəlmə əmələ və işçilərə qulluq tapmaq üçün kontorları (məsai birjası) təsis etmək işi məhəlli idarələrə həvalə olunmalı, bu kontorlarda əmələ təşkilatı tərəfindən seçilmiş vəkillər dəxi iştirak etməlidirlər.

Millətin özəgini təşkil edən xəlq baxımsızlıq üzündən müsri xəstəliklərə tutularaq minlərlə qırılıyor. Təbiidir ki, tədabiri-səhiyyə imdikindən daha ziyadə bir ciddiyyətlə əxz olunmalıdır.

İaşə (ərzaq) məsələsinin islahı, bu xüsusda ən təsirli bir çarə ola bilər. Fəqət bunun üçün də yolların tərtib və əmniyyəti, başqa millətlərlə ticarət mübadiləsinin təshil və əmniyyəti əlzəmdir.

Məarif daha ziyadə yapılmalı və daha ziyadə milliləşməlidir. Köylər məktəb şəbəkələri ilə, şəhərlərdə darülmüəlliminlərlə dolmalıdır. Dövlət müəssisələri ilə təhrirati-rəsmiyyənin mümkün olduqca milliləşməsinə cəhd etməlidir.

Əlbəttə unutmuyoruz ki, hökumət eləmək bir tərəfdən xəlqin etimadını qazanmaqla olursa, digər tərəfdən dəxi cəbri-qüvvəyə istinad etməklə olur. Bunun üçün də əskəri təşkilata son dərəcədə əhəmiyyət verməlidir. Dövlətin xaricən müdafiəsi daxilən də müsaliməti bunu iqtiza ediyor. Xidməti-əskəriyyə bütün xəlq təbəqələrinə müsavi surətdə təhmil olunmalıdır.

Dövlət büdcəsinin ağırlığı onsuz da ağır bir həyat keçirən xəlqin üzərinə degil, daha ağ gün və daha zəngin siniflərə təhmil olunmalıdır.

Yeni qurulacaq hökumətdən daxilən və xaricən bu proqram daxilində fəaliyyət istiyəcək Məclisi-Məbusan, eyni zamanda kəndisi dəxi bizzat Azərbaycan Məclisi-Müəssisanını dəvət eləmək üçün imdidən təşəbbüsdə olmalı, qanuni-intixab yazılması üçün bir an əvvəl məxsusi bir komisyon ayırmalıdır.

Bayaqdan bəri zikr etdigim mətləbləri məmləkətin istiqlalını müdafiə və millətin həyatını mühafizə etmək əzm və qəviyyəsilə təşəkkül edəcək bir hökumətdir ki, vücuda gətirə bilər. Böylə bir hökumət yalnız içində bulunduğumuz şəraiti-haziræyə görə tərəqqipərvər bir koalisyon surətilə təşəkkül edə bilər.

Bu surətlə qurulacaq hökumət firqə və milliyyət etibarilə müştərək olmalı və hər bir cəhətcə parlaman hüzurunda məsul bulunmalıdır. Yalnız böylə bir üsul ilə təşkil olunacaq hökumətdir ki, əlbirligi ilə xilasına borclu olduğumuz vəziyyəti qurtarıb hürriyyət və istiqlalımızı təmin ilə bizi həm Məclisi-Müəssisan hüzuruna çıxarar, həm də istiqlalımızın beynəlmiləl təsdiqini asanlaşdırar.

**"Azərbaycan",**
**12 qanuni-əvvəl (dekabr) 1918, №63**



Təbdil – dəyişdirilmiş
Həqqa – doğrusu ki
Müddə – tələb edəni
Sitarə – ulduz
Əqsa – uzaqda olan
Bismilə – "bismillah"ın ixtisarıdır.
Müzahirət – yardım, kömək
Cüzi – hissə
Mülayimət – mülayimlik
İstehqaq – haqlı olma
Müsalihə – barışıq
Müstənid – sübutlu, əsaslanan
Fəngir – hiyləgər
Mən – qadağan
Məmnu – qadağan
Müsri – yoluxucu
Əxz – əldə etmə
Təshil – asanlaşdırma
Təhmil – yükləmə, yüklədilmə
Qəviyyə – qüvvətli, mətin

## Hadisələrin mənası

Dünya müharibəsində üz-üzə gələn böyük dövlətlərdən İngiltərə, Fransa və Amerika zümrəsi nəhayət qalib gəldi. Rusiya, Avstriya, Almaniya zümrəsi isə məğlub oldu. Yalnız məğlubiyyətlə qalmadı. Bu dövlətlər daxilində inqilablar zühur etdi.

Bu hadisələrin mənasını anlamaq lazım. Çoxları diyorlar ki, inqilab çıxdı, çünki məğlub oldular. Bəziləri də diyorlar ki, məğlubluqlarına bais olan səbəb, inqilablarına bais olan səbəbin eynidir.

Əcəba, bunların hankısıdır? Nədir bu əqlləri heyran buraxan hadisələrin səbəbi?

Dövlət, insanların müxtəlif şəkillərdə bulunan cəmiyyətlərindən birisidir. Cəmiyyətin tərəqqisi vardır. Bu tərəqqi müəyyən qaidələrə və qanunlara tabedir. Müəyyən bir şəkli-siyasiyyəyə girincəyə qədər cəmiyyət müxtəlif hallar keçiriyor. Fəqət hər hankı halda olursa-olsun, cəmiyyətin özünəməxsus daxili təzadları vardır. Təzadlar ictimai olduğu kibi, siyasi də ola bilər. Siyasi təzadların da ənvai vardır. Bu təzad sinfi də olur, milli də.

Hərbi-ümumiyyə iştirak edən böyük dövlətlərin bünyələrində müxtəlif təzadlar vardır. Bunların həpsində müştərək bir təzad vardı: ictimai müsavatsızlıq. Məmləkətin məhsulatı Avropa dövlətlərindən heç birisində daha müsavat üzrə təqsim edilmiyor. Sosializm heç yanda tətbiq olunmamışdır. Dövlətli-kasıb, tox-ac davası hala hökmündə baqidir. Bu təzad İngiltərədə də, Fransada da, Almaniya, Avstriya və Rusiyada da mövcud idi və hala dəxi mövcuddur.

Bundan keçdikdən sonra bir də siyasi təzad vardır. Siyasi təzad millətin tərəqqiyati-ictimaisi ilə malik olduğu şəkli-hökumət arasında hasil olur. Əhalinin müstəhsil qismi, demokrasi sinfi idrak sahibi olur. Tərəqqi edər, gözü açılır, sinfi ehtiyaclarını dərk edər. Buna müqabil siyasi şərait və hürriyyətlər istər, istədigi siyasi şəraiti hasil etməyincə əfkari-ümumiyyə ilə hökumət və tərzi-hökumət arasında bir ixtilafdır çıxar ki, bu da siyasi bir təzada bais və fürsət hasil olunca böyük bir böhrana səbəb olur.



Rusiyada yeni həyata girmiş, fəal, münəvvər bir burjua sinfi vardı. Rusiya demokratiyası inqilabpərvəranə fikirlərlə pərvəriş tapıyordu. Qüvvətli parlaq bir ədəbiyyat, mütəfəkkir və münəvvər ürəfa vücudə gəlmişdi. Əfkari-ümumiyyə başqa bir məcrada axırdı. Məmləkət dərəbəylikdən qalma qəliblərə sığmıyor, hürriyyəti-siyasiyyə tələb ediyordu. Halbuki çarizm haman əski üsul ilə duruyordu. Hökumət məmləkətin münəvvər və fəal əsnafına degil, köhnəpərəst, mürtəce dvoryanstvoya istinad ediyordu. Ruhla qəlb arasında bir təzad vardı. Ruh-qəlbə sığmıyordu.

Almaniya da öylə idi. Almaniyada olduqca qüvvətli, mütəşəkkil bilikli, bacarıqlı bir xəlq, dünyanın müəzzəm və müntəzəm bir təşkilata malik mücərrəb əmələ firqəsi varkən hökumət aparatı feodal halı ilə yaşayan əskəri bir firqənin əlində, iqtidar yarım dərəbəgi hökmündə bulunan xanədanlarda idi. İntixabi-ümumi yox, məsuliyyəti-vüzəra yox idi. Demək ki, burada da ruhla qəlb arasında siyasi bir təzad vardı. Yalnız alman sisteminin intizamı bu təzadın Rusiyada olduğu qədər məhsus olmadığına səbəb oluyordu.

Avstriya kəza bu dərdə mübtəla idi. Şu qədər var ki, Avstriyanın Almaniyadakı demokrasi cərəyanından daha şiddətli bir böhrani-siyasiyyədən başqa digər bir bəlası dəxi vardı: milli təzad. Avstriya müxtəlif millətlərdən təşəkkül etmişdi. Bu millətlər kəndi həqlərini tələb ediyorlardı. Hissi-milli, həqqi-milliyi arıyorlardı. Halbuki Avstriya-Macarıstan səltənəti bu hisslərin fövqündə mətbu və nazim rolunu oynuyordu. Demək ki, millətlə dövlət arasında bir təzad, bir mübarizə vardı.

Bu dərd ilə Avstriya yalnız degildi. Rusiya da bu dərddə idi. Rusiya da onun kibi qurama bir hökumət idi. Rusiyada dövlət milləti əziyor, millət ilə dövlət arasında qatı mübarizələr davam ediyordu.

– Dövlət və millət kəlmələrini mütəzad və mütbarz mənada işlətiyoruz. Halbuki əksərən dövlət ilə milləti bir biliyorlar. Çünki dövlət də millətin bir şəkli-digəridir. Millət özək, dövlət qabıqdır. Fəqət bu tərif şümuli bir millətə aid olan dövlətlər həqqində səhihdir. Digər təbirlə demək olar ki, bu tərif təbii təşkilata ma-

lik olan dövlətlər həqqindədir. Çünki ən təbii dövlət milli olan dövlətdir. Fəqət təhti-idarəsində bir çox millətlər olan dövlətdə məlumdur ki, dövlət mənasilə millət mənası bir olamaz. Nasıl ki, Avstriya-Macarıstan dövləti daxilində çex-slavak, macar, alman, polyak, rosin, rumın, italyan millətləri olduğu kibi, Rusiya dövləti daxilində də rus, fin, türk, erməni, gürcü, ukrayna və sairə millətlər vardı.

Halbuki İngiltərə, Fransa sonra isə müdaxilə edən Amerika dövlətləri ictimai bir təzada, yəni sinif müsavatsızlıqlarına malik idisələr də, şəkli-hökumətləri bu biri məmləkətlərdə olduğu qədər dərin bir təzad ilə azarlı degildi. Bu hökumətlər bilnisbə demokratik və o dərəcədə də milli hökumətlər idi. İngiltərədə bir "İrland" məsələsi var idisə də, Avstriya-Rusiya dərəcəsində degildi. Fransa bu məsələyə tamamilə yabançı idi. Amerikada kəza milli ziddiyyət yoxdu.

(Bu məmləkətlərin daxili təşkilatı nəzərə alınaraq hökm veriliyor. Qanuni-siyasəti başqa bir məsələdir).

Yuxarıda söylədik ki, müharibə mövcud fəsadları şiddətləndirmək xasiyyətinə malikdir. Təbiidir ki, təzadları müxtəlif və çox olan dövlətlərin müharibəyə təhəmmülləri də o nisbətdə az olacaqdır. Əvvəl təhəmmülsüzlük göstərən əcayib degildir ki, Rusiya oldu. Çünki Rusiya şəkil və qəlb etibarilə Avropa hökumətlərindən ən gerisi, ictimai, siyasi və milli böhran nöqteyi-nəzərindən ən əlillisi idi. Sonra sıra Avstriyaya gəldi; nəhayət, qüvvəyi-istehsaliyyə və iqtisadiyyəcə də kəndisindən daha qüvvətli olan Amerika ilə də toqquşmaya məcbur qalan Almaniya bitab düşdü.

Almaniya böhranı milli Almaniya dövləti daxilində qalaraq siyasi bir şəkildə cərəyan ediyor. Yarımfeodal bir şəkli-hökumət demokratik cümhuriyyətə dəgişdiriliyor. Rusiya ilə Avstriya isə bununla qalmıyor. Parça-parça olaraq mürəkkəb olduğu parçalarına ayrılıyor. Hər ayrılan parça da eyni zamanda birər cümhuriyyət elan ediyorlar. Demək, demokratik və milli olmayan dövlətlər xarici bir zərbə təhtində təhəmmül göstərməyərək birər milli-demokrat şəkli alıyorlar.



Daha hərbi-ümuminin iblidasında ikən bu böyük padra üzərinə yazılan siyasi təhlillərdə diyorlardı ki, hərbi-ümumi nəticəsində millətlərin həqqi təslim olunacaqdır. Qəribə idi ki, İngiltərə zümrəsi də, alman zümrəsi də millətlərin hüququ üçün davaçı olduqlarını iddia edib duruyorlardı. Əlbəttə, imperialistlərin məqsədi-əsliləri bu degildi. Fəqət məqsəd bu degil ikən hər iki tərəfin bundan bəhs eləməsi bu həqiqətin nə dərəcədə qüvvətli olmasını göstəriyordu.

Azərbaycan məbuslarından Saxaya pək doğru diyordu ki, Böyük Fransa inqilabı insanın hüququnu təşxis elədisə, hərbi-ümumi də millətin hüququnu elan etdi.

Milli hərəkətlər eyni zamanda da demokratik bir rəng alıyor. Milliyyət və demokratizm həqqində yanlış məlumat sahibi olanlara bu iki kəlmənin yanaşı gəlməsi bəlkə də bəid görünür. Çünki demokratizm adətən milliyyətpərvərligə zidd ədd olunmaq bidəti bizcə məşhurdur. Bu bidətə vəqtilə çox etina olunuyordu. Hətta bizim Qafqasiya sosial-demokrat şeyxləri belə bu xüsusda az inad və israr göstərməmişlərdi.

Fəqət bu gün onlar da mötərifdirlər ki, milliyyətlə demokratlıq qətiyyən düşmən məfhumlar degildir. Sabiq Qafqasiya vəlahəqq gürcü demokratiyasının pişvalarından Jordaniya cənabları baxınız bu xüsusda nə kibi bir etirafda bulunuyorlar; son günlərdə söyləmiş olduğu bir nitqində Jordaniya diyor ki:

"Millətin kəndi iradəyi-müstəqiləsini kəndi hüdudi daxilində və kəndi dili və mədəniyyəti vasitəsilə ibraz eləmədigi bir yerdə demokratizm təsəvvür eləmək qeyri-mümkündür".

"Milliyyət və demokratlıq cərəyanları əksərən ittifaq edərlər. Böyük Rusiya inqilabı çıxdığı zaman biz milliyyətlərə ayrılmanın əleyhində olduq, halbuki bizim istədigimizə rəğmən həyat bu əsası üstə çıxardı".

Əvət, Avropanın qərbini təşkil edən İngiltərə ilə Fransa, şərqini təşkil edən Almaniya-Avstriyaya qarşı çıxdıqda Şərqin Qərbə qarşı bir nöqsanı vardı ki, burası demokratik və milli degildi. Şimdi Avropanın şərqi də qərbi kibi milli və demokratik bir şəkil alıyor.

Bu şəkil yalnız Avropa dövlətlərində deyil, Türkiyədə də hakimiyyət qazanıyor. Orası da həm milliləşməkdə, həm də demokratlaşmaqdadır.

Deməkki, aləm keşməkeşlərinin nəticəsində milliyyət və demokratizm prinsipləri qalib çıxıyor.

Dünya hadisələrinin bugünkü mənası işte budan ibarət!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 15 qanuni-əvvəl (dekabr) 1918, №65**

Ənva – növlər
Təzad – ziddiyyət
Müstəhsil – istehsalçı
Mücərrəb – sınanmış
Məhsus – hiss olunan
Matbu – (burda) başçı
Nazim – nizama salan
Mürəkkəb – qurma, qatışıq
Bəid – qəribə
Mötərif – etiraf edən
Pişva – başçı



# Erməni-gürcü toqquşması Azərbaycan hökumətinin notası

Qanuni-əvvəlin 23-də Azərbaycan hökuməti tərəfindən Gürcüstan və Ermənistan xariciyyə nazirlərinə bu məzmunda bir teleqraf göndərilmişdir.

"Azərbaycan hökuməti Gürcüstan ilə Ermənistan arasında Borçalı dairəsindəki mübahisəli sərhəd məsələsindən ötrü vaqe olan müsəlləh müharibəyə öz təəssüfatını izhar edir. Zaqafqasiya cümhuriyyətləri təşkil olunduğu bir zamanda tabeində olan mübahisəli məsələlərin silah gücünə həll edilməsi müvafiqi-məqsəd deyildir. Məəmafiə mübahisələrin bu üsul ilə həll edilməsini qəti hesab etmək olmaz. Azərbaycan hökuməti mübahisəli məsələlərin, həmçinin sərhəd məsələlərinin həmişə sülh ilə həll edilməsi tərəfdarı olduğundan hər iki qonşu və mehriban cümhuriyyətlər arasında vaqe olan müsəlləh müsadiməyə qarışmaqdan özünü saxlayıb Borçalı rayonunun Azərbaycan türkləri ilə məskun hissəsinin Azərbaycan Cümhuriyyətinin ayrılmaz bir parçası olduğunu izhar etməyi özünə borc bilir. Buna görə bu müsadimə hər nə cür olsa da nəticədə məzkur rayonun müqəddəratı tərəfeyn arasında qılınc ilə deyil, hökm vasitəsilə həll olunmalıdır.

**Xariciyyə naziri vəzifəsini ifa edən**
**Ziyadxanov**

# Gürcüstan ərkani-hərbindən

Sadaxlı rayonunda vaqe olan iki günlük müharibə bizim əskərlərin təzə mövqelərə çəkilməsilə bitmişdir. Düşmən böyük qüvvələr ilə hücum etmişdir. Bundan əlavə arxada olan erməni kəndləri əhalisi dəmiryol xəttini dağıtmaq və qeyri vasitələr ilə erməni ordusuna böyük kömək etmişlərdir. Hər tərəfdən düşmən ilə mühasirə edilmiş əskərlərimiz bir çox qəhrəmanlıq ilə düşmənə qənaim buraxmayıb geri çəkilməyə müvəffəq olmuşlardır.

– Ermənistan hökuməti tərəfindən Gürcüstan əleyhinə hərəkati-hərbiyyə başlanan kibi Gürcüstan hökuməti müşahidə etmişdir ki, ermənilər hər yerdə xəlvətcə istehzari-əskəriyyə elan etmişlərdir. Odur ki, Tiflis və ətrafında olan ermənilər, hətta Rusiyadan bir çox miqdarda Ermənistana azim olmaqdadırlar. Mühəqqəq olmuşdur ki, Tiflisdə erməni Milli Şurası olduğu Aramyansın evində daşnaqsakan firqəsinin məşhur xadimləri tərəfindən xəlvətcə əskər cəm edilir. Qanuni-əvvəlin 20-də haman evdə vaqe olan axtarış əsnasında ehtiyat zabitləri və 184 nəfərə qədər cavan ermənilər həbs edilmişlərdir. Buna binaən hökumət məmurlarına əmr edilmişdir ki, sinniləri əskərliyə müvafiq olan erməniləri hərbi əsir elan edib Kutaisə göndərsinlər. Ermənistan üçün əskər cəm etməgə çalışan daşnaqsakan firqəsi xadimlərini də ümumi qanun üzrə həbsə alsınlar. Hökumətin bu əmri icra edilməkdədir.

## Məhəmməd Əmin Rəsulzadənin nitqi

Erməni-gürcü davası münasibətilə parlamanda istizah verildikdə Rəsulzadə Məhəmməd Əmin bəy tərəfindən irad edilmiş nitq:

Bu gün Azərbaycan Məclisi-Məbusanının iztirabi-qəlblə cəm olmasına səbəb qonşularımız arasında vaqe olan qanlı müsadimələrdir. Bu hadisələr yanı yaxınımızda degil, uzaqda yaşayan digər millət arasında da çıxsa idi insaniyyət nöqteyi-nəzərindən qəlbimizi rərihədar edib qan ilə dolduracaqdı. Fəqət a, biz göylərdə degil, yerdə yaşayırız. Həqiqəti düşünəlim. Bu vaqe olan hadisələr öylə iki qonşu millət arasında vaqe olmaqdadır ki, biz müqəddəratımızı dün onlarla birlikdə həll edirdik, yarın da müştərək həll edəcəgiz. Bunun üçün də biz bu millətlər arasında çıxan hadisələrə yabançı qala bilməyiz. Bu hadisələrzlə biz qəti və həyati surətdə əlaqədarız. Buna görə səsimizi yüksəltməli, aman nə yapıyorsunuz – deməliyiz (soldan və mərkəzdən alqış).

Əfəndilər! Çox qəribədir, bir zamandakı hərbi-ümumi axıra yetişiyor. Bir zamandakı dünyanın cəngavər və təpədən-dırnağa



qədər müsəlləh olan millətləri məsələlərin artıq sülh vasitəsilə həll və qət olunmasını istiyorlar. Bir zamandakı istiqlala layiq olduğumuzu isbat üçün bu gün biz, kiçik Qafqasiya millətlərinin əlində qüvvətli bir sübut vardır ki, o da sülh və müsalimət, ancaq və ancaq qan tökməməkdir (sürəkli alqış). Əvət, əfəndilər, böylə bir zamandakı biz Qafqasiya millətləri ixtilaflı və mübahisəli məsələləri qansız həll etməz isək, iləridə bütün millətlərin iştirakı ilə əqd olunan ümumi sülh konfransına qol-qola olaraq bir qapıdan dost bir surətdə girəcək olmazsaq bütün əməllərimiz məhv və nabüd olar. İştə böylə bir zamanda Ermənistan ilə Gürcüstan arasında qan tökülüyor. Bu qanlar dayanmalıdır. Çünki hürriyyət və istiqlal həqqində bəslədigimiz o əziz və müqəddəs qəsdlərimizi qara yerlərə tökülməmək üçün sülh masası başında müttəhidən oturmağa layiq olduğumuzu göstərməliyiz. İştə bu qanların dayandırılmasına bir təsir icra etmək üçün bu gün Azərbaycan demokratiyası səsini yüksəltməlidir (alqış).

Əfəndilər! Bu fikir, ixtilaflı məsələlərin müsalimətlə həlli fikri, heç bir vəqt Azərbaycan cəmaətinə yabançı qalmamışdır. Azərbaycan demokratiyasını hər zaman töhmətləndirmişlər, ona dildə bir, məqsəddə, işdə bir – deyə böhtan etmişlərdir. Hər zaman bizlərə irticapərəst adını taxaraq aləmlərə təşhir etmişlərdir. Buna dəlil olaraq alətləri bizim xaricimizdə olan əsəfli hadisələri üzümüzə vurub erməni-müsəlman kibi müəssif hadisələrə meydan olduğundan Azərbaycanı təqsirləndirmişlərdir. Fəqət həqiqəti-hal nəyi göstəriyor. Azərbaycan müqəddəratını kəndi əlinə alıb da müstəqil olaraq yaşamağa başladığı andan bəri siyasətini müvafiqət və məsalimət əsasına qurmuşdur. Azərbaycan hökuməti ibtidadan bəri sülh tərəfdarı olub da müsalimət siyasətindən ayrılmamışdır. Azərbaycan hökuməti əvvəl təsisindən bəri Qafqasiya millətləri arasında olan ixtilaflı, mübahisəli məsələlərin cəbr ilə degil, sülh ilə həll olunmasına çalışmışdır. Azərbaycan siyasi nümayəndələri hər zaman və hər məkanda mübahisəli məsələlərin sülh ilə həll olunması təklifində bulunmuşlardır. Qafqasiya millətləri bu məsələləri öz aralarında həll edə bilməzlərsə başqa bitərəf bir hökmə müraciət eləməlidirlər.

İyun ayının iblidalarında idi. Gürcüstan hökuməti Borçalıyı müsəlman əhalisinin arzusuna rəğmən cəbrən Gürcüstana ilhaq ediyordu. Azərbaycan bunu protesto edərək məsələnin beynəlmiləl bir komisyon vasitəsilə həllini təklif elədi. Məəttəəssüf bu təklifinə müvafiqət cavabı degil, müxalifət gördü. Bu təklifi Azərbaycan hökuməti sonralarına təkrar elədi. Nəticə alamadı. Son günlərdə isə Gürcüstan hökuməti bu nöqteyi-nəzəri qəbul ilə rəsmən bir təşəbbüsdə bulundu. Bu təşəbbüsə birinci ləbbeyk deyən Azərbaycan hökuməti oldu. Gürcüstan hökuməti qonşu Ermənistan hökumətini də Zaqafqasiya konfransına dəvət etmiş, günlər, həftələr ilə bəkləmiş, lakin Ermənistan nümayəndəsi gəlməmişdir. Bunun üçün konfrans məsələsi həll edilə bilməyib dağılmışdır. Gürcüstan ilə Ermənistan arasında bu məsələ üzərində təati eyləmiş və surətlə bu gün nəşr edilmiş teleqraflardan anlıyoruz ki, Gürcüstan hökuməti hətta bu müzakirat əsnasında bizdən bixəbər olaraq Ermənistanın təklifinə görə əvvəlcə bu məsələləri yalnız Ermənistan ilə öz arasında həll etməgə razı olmuşsa da, yenə vəziyyəti qurtaramamış, məqsədinə müvafiq olamamışdır. Şimdi isə bu iki millət öz aralarında olan mübahisəli məsələləri qan ilə həll etməgə başlamışlar. Arada ixtilaflı olan topraq məsələsi vardır. Əzcümlə, Borçalı uyezdi mövzui-bəhsdir. Biz biliyoruz ki, Borçalının türk və müsəlmanlar ilə məskun olan qismi Azərbaycandan ayrılmayacaq bir qitədir (şiddətli alqışlar). Zəngəzur, Qarabağ uyezdi kəza Azərbaycandan ayrılmayacaqdır (alqışlar). Biz bu mübahisəli məsələlərin demokratik nöqteyi-nəzərindən qılınc ilə degil, sülh ilə həll olunmasını hər zaman istəmiş, imdi də arzu ediyoruz. Fəqət heyhat ki, bizim bu arzumuz səhrada çağrılan boş sədadan ibarət qalmışdır. Biz zikr olunan yerlər üzərindəki həqqimizin hər vasitəyə müraciət edilsə eşidiləcəginə qənaətimiz bərkəmal ikən, Qafqasiyanın ümumi müqəddəratını nəzərə alaraq biz həmişə digər mübahisəli məsələlər kibi bu məsələnin də sülh ilə həll olunmasını gözləmişik.

Arzu edirdik ki, Gürcüstan ilə Ermənistan hökumətləri dəxi bu əsası qəbul ilə öz aralarındakı ixtilaflı məsələləri sülh və



müsalimət ilə həll etsinlər. Məəttəəssüf bu gün meydanda nahaq yerə qanlar töküldügünü görüyoruz. Azərbaycan Məclisi-Məbusanı Gürcüstan ilə Ermənistan hökumətlərinin daxili işlərinə qarışmaq üçün degil, bütün Qafqasiyanı yakacaq, o cümlədən Azərbaycanı da qanlara boyayacaq bir fəlakətin önünü almaq üçün bu məsələyə icrayi-təsir etmək istər və imanımız bunadır ki, Gürcüstan və Ermənistan cəmaəti dəxi bizim kibi düşünüyor.

Azərbaycan xəlqinin mümməssili-ruhi olan Məclisi-Məbusanımızda hökmfərma olan bu ruhi-müsalimət əminəm ki, bütün cəmaətimizin duyğusu olduğu kibi, gürcü və erməni cəmaətinin eyni mətləbidir. Gürcüstan və Ermənistan Məclisi-Məbusanları dəxi öz millətlərinin vicdanını təmsil etdiklərindən sülhamiz bir səhyeyi-intibahla kəndilərinə müraciət edəlim və deyəlim ki: Qafqasiya millətləri sülhi-müsalimətə möhtacdırlar. Bütün səyi-iqtidar və nüfuzunuzu hökumətiniz üzərində icra ediniz. Tökülən bu nahaq qanlar dayansın. Çünki bu qanlarda boğulacaq hürriyyətlərimiz, çünki bu yanğınlarda yanacaq yurdlarımızdır.

**"Azərbaycan",**
**29 qanuni-əvvəl (dekabr) 1918, №73**

Qənaim – qənimətlər
İstehzar – çağırış, hazır olma
Mühəqqəq – doğruluğu müəyyən edilmiş
İstizah – açıq izah tələb etmə
Cərihə – yara
Təşhir – məşhurlaşdırma
Təati – mübadilə

## Bu zabastovka nə idi?

Şəhərimiz üç günlük bir zabastovka keçirdikdən sonra təbii şəklini aldı. Həyat öz yoluna girdi.

Hər kəsin zehninə təbii bir sual gəliyor. Əcəba, zabastovka nə idi?

Zahirini hər kəs bilir. İngilis komandanı Tomsonun əmri ilə bir neçə böyük rusiyaçı partiyalara mənsub və siyasətlə məşğul olan adamlar tutulmuşdu. Tomson bunları nə kibi bir mülahizə ilə tutmuşdu. Təqsirləri nə idi? Burası bizə məlum degildir. Müəyyən səbəbi cəmaətcə məlum olmayan bu həbslər ictima etməkdə olan əmələ konferensiyasının nəzər-diqqətini cəlb eləmiş, konferensiya kəndisinə müraciət edən konferensiya nümayəndələrini qəbul edərək məhbusların buraxılmayacağını bildirmişdi. Bunun üzərinə konferensiya zabastovka komitəsi intixab edərək tutulanların buraxılması və siyasi hürriyyətlərin təmin olunmasına qədər əmələyi zabastovka etməgə dəvət eləmişdi. Nəhayət, Tomson ilə zabastovka komitəsi arasında saziş əmələ gəlib tutulanlardan bir neçəsi buraxılmaq, digərlərinin mühakiməsi səriləşdirilmək, ictimailərə də Tomsonun icazəsi ilə müsaidə verilmək surətilə məsələ yatırılmış, zabastovka da dayandırılmışdır.

Deməli ki, zahirən bu zabastovka əmələnin bilafərq cins və millət Tomsonun keyfi idarəsinə qarşı bir protestosu, hürriyyətlərin mühafizəsi üçün bir mübarizəsidir.

Əcəba, batində böyləmidir? Bu zabastovkanın görüldügündən başqa siyasi bir mənası və məqsədi yoxmuydu?

Biz kəndi mühakiməmizi söyləmədən əvvəl təcavüzkar rus imperializminin bayraqdarı "Yedinaya Rossiya" qəzetəsinin bu xüsusdakı mütaliəsini nəql edəlim:

"Yedinaya Rossiya"nın fikrincə zabastovkanın məqsədi əlbəttə ki, siyasi idi. Fəqət bu siyasi məqsədin ruh və mənasına gəlincə məzkur qəzetə diyor ki:

Bu zabastovka birdən çıxmadı. Xəlqin ürəgində bir çox acılar və acıqlar toplanmışdı. Və məəttəəsssüf bu bir yerə toplanmış yanğın maddələrinin tutuşmasına general Tomsonun çıxışı səbəb oldu. Bütün bunlar dəxi zabastovkaya hər növ səbəblərdən əlavə bir də mütəmadiyən rus dövlət və millət hissiyyatına endirilən zərbə və təhqirlərdən doğma siyasi bir protesto şəklini verdi. Böyük bir məmnuniyyətlə qeyd ediyoruz ki, bütün rus cəmaəti arasında bu hiss gündən-günə artıb yer tutuyor və möhkəmləşiyor.

"Bunun isbatı da haman keçirdigimiz zabastovkadır".

Deməli ki, "Yedinaya Rossiya" qəzetəsindən bu zabastovka nə idi? sualına:

– Hakimlik hissiyyatı təhqir olunan rus xəlqinin oyanması idi – cavabını alıyoruz.

Yeni çıxan "İskra" sosial-demokrat qəzetəsi dəxi eyni fikri "demokratizm" kəlməsi altında işlədiyor. Bu, demokratik Rusiya fikrinin qələbəsi idi – diyor.

Zabastovkanı idarə edən komitə isə bu xüsusda daha tədbirli və daha ehtiyatlıdır. Bununla bərabər "Yedinaya Rossiya" qəzetəsinin tərif elədigi hissiyyatını zəbt edəmiyərək bu komitə nəşr elədigi "İzvestiya"sında zabastovka edən əmələlərin düşmənlərini sayarkən diyor ki:

"– Bizim üç düşmənimiz var: aclıq, Azərbaycan hökuməti və xaricdən gələn qüvvət".

Bu xaricdən gələn qüvvət, yəni ingilis qüvvəti aclıqla Azərbaycan dərəcəsində bir ədüvvi-əkbər kibi göstəriliyor. Fəqət nə vəqtdən?

Aclıq bulanlıq suda balıq tutmaq istəyən bir takım hakimiyyət həvəskarı "siyasilər"in dostumudur, yoxsa düşməni biləmiyoruz.

Azərbaycanın kəndiləri kibi macəraçılara düşmən olduğunu isə inkar etməm. Fəqət ingilislər əcəba, neçün bunların düşmənləri sırasına keçdi? Bunlar ki, daha dün ingilislərlə bahəm idilər. İngilislər buraya ibtidada onların dəvəti üzərinə gəlmişlərdi. Bunlar ki, onlarla bərabər getmiş və bir yerdə gəlmişlərdi.

Görünüyor ki, bunların ingilis komandanlığından istədikləri mətləb təkrar "mart hökuməti"ni qurmaq, Azərbaycanı da yox hökmündə tutmaq idi.

Böylə bir macəra bəlkə də "Daşnaqsütyun"a yarardı. O daşnaqsütyuna ki, bu günə qədər "demokratiçeski soveşaniya"larda müəyyən bir qətnamə göstərməmək surətilə susdu; imdi araya az bir həyəcan gəlincə "mart günlərinə" məxsus bir fitnəkarlıqla iləriyə atıldı. "Vperyod" nam fəsadnaməsilə daha sağalmamış mart və sentyabr yaralarına duz səpdi. Bin dürlü böhtan və iftiralarla arayı təkrar qarışdırmaq qəsdində olduğunu göstərdi. Və hala dəxi bu məqsədini icra edib duruyor.

Bu macəra, hakimiyyəti əlindən alınan böyük rus imperialistlərinin "dərdinə" yanan "rus milli komitəsi"nin istədiginə müvafiq olardı. Çünki məhkum bir millətin təkrar əsarət və məhkumiyyət altına girməmək üçün çırpınması onun əlbəttə vecinə gəlməz: onun təsəvvürüncə burası daima velikorus millətinin kaloniyası olmuş, öylə də qalmalı və müqəddəratımızın baş yazısını daima Moskva ilə Petroqraddan almalıyız. Şimdiki halda Petroqrad ilə Moskvaya hakim olan leninlər, trotskilər hər nə qədər buradakı padşipaskinlərlə baykovların könüllərincə degilsələr də, eybi yox azərbaycanlının canı çıxar. Aylar, illər gözlər. Cihad və mübarizə edər. lenini atar, Milyukovu tutar. Axırda da gələr əfəndilərə təzim edər.

Nəhayət, bu macəra burada təkrar "bolşevikvari" bir hökumət qurmaq istəyən bəzi bu ilhəvəslərin işinə də yaraya bilərdi.

Yalnız macərapərəstlik şanından olmayan ingilis komandanlığı təbii idi ki, bunu yapmayacaqdı. Təbii idi ki, azərbaycanlılar həqqində dost degil, düşmən məhfillərdən məlumat almış olan müttəfiqlər Bakıya girdikdən sonra həqiqəti öyrənəcək və ona görə də hərəkət edəcəklərdi. Həqiqəti gördülər, öyrəndilər, burada kəndi müttəfiqlərini həll etmək əzmində bulunan bir millət gördülər. Bu qədər böyük müşkülat və manеələr içərisində bu millətin kəndisini idarə etmək istedadını dəxi öyrəndilər. Təbii idi ki, müttəfiqlər onun, bunun arzusu üçün bir millətin arzusuna qarşı çıxamaz, təbii idi ki, azərbaycanlıları Vilson prinsipləri xaricində tutmaz və təbii idi ki, kiçik millətlərin hüququ üçün hərb etdiklərini hər zaman və hər məkanda söyləyə-söyləyə gəlmiş olan müttəfiqlər burada bir istisna təşkil edəməzlərdi. Etmədilər də.



Nəticədə bizi Ufa hökumətinə tabe etmək və istiqlalımızın üzərinə qələm çəkmək istəyənlər gördülər ki, Azərbaycan parlamanı açıldı. Onlarsız da olsa hökumət təşkil elədi. İngilis əskəri parlamanı mühafizə etdi, onu hər növ ehtimallara qarşı qorudu.

İş bu şəklə yetincə "Yedinaya Rossiya" və "Znamya truda" qəzetələri Tomson əleyhində yazılar yazmaya, əl altından da bir takım işlər görməyə başladılar. "Mart" günlərinin "bərəkəti" də hələ kəsilməmişdi. Gəmidə gəzən bankın əlbəttə ki, bir təsiri olacaqdı. "Naməmnun" əmələləri qalxızmaq lazımdı.

İşdə məsələnin doğu bu məhvər üzərində idi.

Zabastovka siyasi idi, həm də bu siyasət sinif məsələsi üzərinə ictimai bir binaya degil, milli hissiyyata istinad ediyor, siyasi-milli rəng alıyordu.

Zabastovkayı idarə edənlərin məharəti onda idi ki, işi sürətlə idarə edib əmələnin geniş kütləsinə bu qarışıq nöqtələrini idrak etməyə meydan vermədilər. Azərbaycan-türk əmələləri məsələnin bu şəkildə olduğunu öyrənincə haman zabastovkadan ayrılmağa başlamışlardı. Suraxanı, Binəqazi rayonları daha bir gün əvvəl işə başlamış, Balaxanıda dəxi bir neçə mədənlərin əmələsi zabastovka əleyhində qətnamələr çıxarmışlardı.

Fəqət şübhəsiz ki, bu zabastovka siyasi bir təcrübə idi. Bu təcrübədən azərbaycanlılıq nöqteyi-nəzərində duran siyasi firqələrin üzərində böyük bir məsuliyyət vardır. Onlar yeni hökumət təsisi məsələsi ilə fəzlə məşğul olaraq bu cəhətə lazım olduğu qədər əhəmiyyət verməmişlər. Bunların bu surətlə məşğul olduqlarından bilaistifadə rus partiyaları və Rusiyanın nöqteyi-nəzərində duran partiyalar haman sürətlə işə başlamış, hətta Azərbaycan sosialist firqələrinə belə sormadan, soruşmadan qərarlarını çıxarmışlardır. Bu bizə bir dərs olmalıdır.

Bu dərsi qulağımıza sırğa edib də asalım. Əmələsinin əksəriyyəti türk və müsəlmanlardan ibarət olan paytaxtımızda əmələ naminə hərəkət edən və məəttəəssüf hərəkətlərində müvəffəq olan ünsürlər Azərbaycan düşməni ünsürlərdir.

Əmələnin həqqi, mətbuatın hürriyyəti, şəxsin məsuniyyəti doğru və həqq sözlərdir. Biz bu həqq sözlər uğrunda mübarizə

edənlərə hanki tərəfdə varsa tərəfdarız. Onlara müiniz. Fəqət bu şərtlə ki, bu mübarizə, bu sözlər qədər həqq və doğru olan Azərbaycan fikrinə qarşı olmasın, Azərbaycan istiqlalını uçurmasın.

Təbiidir ki, Azərbaycanı da özünə aclıq dərəcəsində düşmən sayan bir əmələ ilə Azərbaycanın bir türk və bir müsəlman əmələsi özünü yoldaş sayamaz!

Təbiidir ki, hürriyyətlərin müdafiəsi adı ilə fəqət rus hakimiyyət hissinin təlqin elədigi bir məqsədlə icra olunan protest zabastovkasını Azərbaycan vətəndaşı xoş nəzərlə görəməz!

Hökumət kəndi bəyannaməsində istiqlalımızı göz bəbəgi kibi qoruyacağını vəd elədi. Göz bəbəgi hər şeydən ziyadə tozdan xarab olur. Bizim səhlənkarlığımız üzündən bir növ müvəffəqiyyət kibi görülən keçmiş zabastovka kibi hərəkətlər haman istiqlal gözünə üfürülən zərərli tozlardır.

İstiqlal bəbəgimizi zəhərli tozlardan qorumaq istərsəniz əmələ vətəndaşlarımızın gözlərini açalım!

**M.Ə.**

**"Azərbaycan" 30 qanuni-əvvəl (dekabr) 1918, №74**

Səri – sürətli, tez, tələsik
Müin – köməkçi, arxa, dayaq



## Rusca danışmalı imiş

Keçən yekşənbə günü "Raboçi klub" zalında əmələ konfransı var idi. Burada qəribə bir hal müşahidə olunuyordu. Məsələlər iki nöqteyi-nəzərdən görülüyordu. Bir nöqteyi-nəzər Azərbaycan istiqlalı və hökumətinin qəbulu, o biri nöqteyi-nəzər Azərbaycanı tanıyıb yeni bir hökumət aramaq niyyəti idi.

Əmələ məclislərindən ötrü təbii görünməyən bir hal da daha müşahidə olunuyordu. Azərbaycanı qəbul ruhu ilə təklif olunan qətnamələrə müsəlmanlar, bunun ziddi bir ruhda olan qətnamələrə isə ələlümum ruslarla ermənilər rəy veriyorlardı.

Bu hal müsəlman əmələlərini qızdırıyor. Məclisdə az olduqlarını görərək "yaxşı, görünüz biz də bu dəfə çox gələr, sizə göstərərik ki, necə Azərbaycanı tanımıyorsunuz" – deyə söyləniyorlardı. O biri tərəfdən "biz Azərbaycanı tanımıyoruz" səsi eşidiliyor, əvəzində "bunlara bax, yersiz gəldi, yerli qaç məsələsi çıxarıyorlar" nidası cavab veriliyordu.

Bu ruhun nə dərəcədə hökmfərma olduğu bilxassə Məhəmməd Əmin Rəsulzadə cənablarının türkcə nitqə başlaması üzərinə görünüyordu. Rus əmələləri tələb ediyorlardı ki, rusca söyləsin. Söylənəcək sözlərin sonra ruscaya tərcüməsi olacaq ixtarına isə "əvvəl rusca söylənsin" xitabı eşidilirdi.

Məclis rəisi güclə başa sala bildi ki, hankı dildə isə danışmaq həqqinə hər kəs malikdir və əlavə etdi ki, "bu hal ilə ülfət etməlidir" "vəqtdir" – deyə müsəlmanlar onun fikrini qüvvətləndirdilər.

Rusca danışmalı imiş. Çünki onlarca burası Rusiyadır. Çünki bu vəqtə qədər ruscayı rusluğu hakim görmüşlərdir. Çünki yalnız Rusiyanın hakim siniflərini və onların məqsədlərini tərvic edən partiyalar deyil, məhkum siniflərinin əməl və məqsədlərini tərvic edən partiyaları da bu fikri iləri sürmüş rus imperializmini başqa bir qəlibdə, başqa bir şəkildə tərvic eləmişlərdir.

Nə surətlə tərvic eləmişlərdir?

Bunu o məclisdə türk sosialistlərindən və türkçi gənclərdən Əhməd bəy Pepinov cənabları gözəl surətdə təşrih elədilər.

Dedilər ki: Biz Azərbaycan sosialistləri siz Rusiya sosialistləri ilə bərabər bundan bir il əvvəl birlikdə çalışıyorduq. Birlikdə diyorduq ki, demokratiyanın məqsədi birdir, yolu da birdir. O zaman biz bolşeviklərin xaricində olaraq düşünüyorduq ki, Rusiya inqilabı siyasi bir inqilabdır. Bu siyasi inqilab hürriyyətləri təmin elədi, yalnız Rusiyada müşkül bir məsələ dəxi vardı. Bu milliyyət məsələsi idi. Milliyyət məsələsini Rusiya sosialistləri ağızsüründürmə həll ediyorlardular. Bİr tərəfdən diyordular ki, millətlərin həqqi var oz müqəddəratlarını həll etməyə, amma o biri tərəfdən Kerenski gedib Finland Seyminin ağzını bağlıyordu. Biz buna etiraz ediyorduq. Bolşeviklər bu məsələni bir az həll edən kibi oldular. Hətta hər millət istərsə Rusiyadan ayrıla da bilər dedilər. Fəqət sonra onlar da bu fikirlərini çaşdırdılar. Rusiyada bolşevizm çıxdıqdan sonra Ukrayna,Gürcüstan və sair millətlər kibi Azərbaycan da elani-istiqlal elədi. Azərbaycanda bir partiya yoxdur ki, elani-istiqlala tərəfdar olmasın. Biz Azərbaycan sosialistləri bu istiqlalı qəbul eləmişik. Çünki biz Rusiya sosialistləri ilə birlikdə işləyəndə proğramımızın bir maddəsi də millətlərin öz müqəddəratlarını qurmağa həqli olduqları idi.İndi isə nə görüyoruz. Rusiya sosialistləri bunu qəbul etmiyorlar. Demək ki, burada ayrılan yalnız millətlər və milliyyətçilər degil, biz özümüz dəxi ayrılıyoruz. Siz bilirsiniz ki, hal-hazırda Gürcüstan hökümətinin başında duran adamları bir il əvvəl biz hamımız təqdis edirdik. Onları demokratiyanın mürşidləri sayırdıq. Amma bu gün onlara əksinqilabçı diyorlar. Neçün, çünki bu məsələdə Rusiya sosialistlərindən ayrılmışlardır. İştə bizi biri-birindən ayıran, bəni Rəsulzadə ilə Roxlini də kadetlərlə və Biçeraxovla bərabər, yekdigərimizlə isə zidd olaraq çalışmağa vadar edən cəhət budur. Qoy Rusiya sosialistləri daşı ətəklərindən töksünlər. Millətin kəndi müqəddəratını qurmağa həqli olduğunu qəbul eləsinlər. Necə ki, bir il əvvəl biz onlarla birlikdə Rusiya işlərini islaha çalışırdıq. İndi də onlar bizimlə birlikdə Azərbaycan işlərini islaha çalışsınlar. O zaman bu ixtilaflar, çəkişmələr, milli nəzailərə yer qalmaz. Yoxsa kiçik millətlərin həqqini qəbul etməmək də israr və başqa bir hökumət



müəssisəsi vücuda gətirib də Azərbaycan fikri ilə Azərbaycan parlamanı xaricində mübarizə edərlərsə, o zaman su yenə körpünün o tayında qalar, fəsad çıxar, yenə mart, yenə sentyabr hadisələri təkrar edər.

Natiqin rusca söylənən bu məntiqli nitqi kəmalı-diqqətlə, fəqət sükutla, alqışsız olaraq eşidilmişdi. Türkcə tərcüməsi başlanınca rus əmələləri səbrsizliklə məclisi tərk etdilər. Ortada isə birisi "o özü bildigi kibi burada söylənibdə təşviqat yapıyor" – deyə sosialisti şübhə altına aldı. Rusca söylədi. Bəsdir – deyə səslər eşidildi. Türklər isə "sağ ol" deyə alqışladılar.

Rusca söyləməli imiş!

İştə təzahür edən bir ruh. Bunu bilib də "Yedinnaya Rossiya" adındakı "Kadet" qəzetəsi sevincək rus milli ruhu dirilir – deyəcək. "Znamya Truda" rus mədəniyyətinin əzəmətindən və bu əzəmətin kəndi işini görəcəgindən bəhs eləyəcək. "İskra" isə Bakı demokratiyasının həyacanından, bilxassə "Kaspi dənizindəki matrosların hissiyatından" ilham alıb "bolşevikvari" söyləməcək: menşevik bu gün, eser yarın, "Kadet" də o biri gün bolşevik olacaq, daha o biri gün bunların hamısı bir yerdə təkrar bir millət təşkil edərək "Hindistan" səfərinə çıxacaqlar, yol üzərindəykən fürsəti qaçırmayaraq burada bir duracaqlar:

Rusca danışmalıdır! –

deyə hökm edəcəklərdir.

Hürriyyətini sevər, izzətini güdər, milliyyətini idrak edər bir xəlq, bir cəmaət, bir millət lazımdır ki,

– Yox,dillər azaddır! –

desin, türkligini yüksək tutaraq böylə bir komandaya qarşı:

– Yox,türkcə danışmalıdır! –

əmrini versin,dedigini yeritsin!

M.Ə.

**"Azərbaycan" 8 qanuni-sani (yanvar) 1919, №82**

Tərvic – rəvac vermə
Təşrih – müfəssəl şərh etmə

# Milyukov zehniyyəti

İstanbuldan qayıtmış arkadaşımız Türkiyə həyatının son səhifələri həqqindəki təsirlərini anlatırkən, söz arasında, əzcümlə Milyukovun İstanbula gəlişindən də bir neçə kəlmə danışdı.

Milyukov İstanbul qəzetlərinə bəyanat vermiş: bəyanında demiş ki, Rusiyada, əzcümlə Qafqasiyada vücuda gələn yeni cümhuriyyətlər bolşeviklərin hərəkətləri nəticəsində məcburiyyət və zərurətlə hasilə gəlmiş hökumətlərdir. Onların başqa cürə rəftar etməyə çarələri də yox idi. Başlarını saxlamalıdırlar. Hələ ki işlər yoluna düşdü; Rusiyada bolşeviklik qurtardı, təbiidir ki, bu hökumətlər yenə Rusiyaya qovuşacaqlar. Nəhayət, olsa-olsa onlara daxili bir muxtariyyət (avtanomi) veriləcəkdir. Bunun şəklini də Rusiya Məclisi-Müəssisanı təyin eliyəcəkdir.

Dağılmış Rusiyanın təkrar yığılması həqqindəki mülahizəsini öyrəndikdən sonra türk mühərriri rus siyasisinin Türkiyə həqqində baxışını ogrənmək istəmişdir.

Bu xusuda Milyukov nə desə yaxşıdır? Milyukov demişdir ki:

Türkiyənin səadəti xalis bir türk hökuməti əmələ gətirməkdədir. Ərəbistan, Ermənistan və sair türk olmayan yerləri cəbrən əlində saxlayıb da bu qədər müxtəlif millətlərin ayrı-ayrı arzu və hərəkətləri içində boğulub qalmaqdansa, Türkiyəyə yekparə milli bir hökumət olmaq daha əsləhdir. Bundan türk milləti faidə görər. Türk səltənətinin bəqası da bu əsas üzərinə qurulubdur.

Milykovun türk səltənəti və millətinin faidəsi həqqində söylədiyi bu mütaliмə, bizim də tamamilə şərik olduğumuz bir məsələdir. Bu,bu gün bütün cahani-bəşəriyyət üzərinə hakim olan bir fikirdir.

Bu fikir Milyukovun vətəni olan Rusiyada bəgənmədigi bolşeviklər tərəfindən bütün dünya hüzurunda bəşəriyyətin müqəddəs bir məqsədi kibi elan edildi. Gərçi elan olunduqdan sonra bolşeviklərin qanlı çizmələri altında da paymal oldu. Bolşeviklərin saflığını saxlaya bilmədikləri bu müqəddəs şüarı Amerika demokratiyasının ruhiyyatına tərcüman olan böyük rəisicumhur Vilson dünya müharibəsinin insanlıq aləminə qazandıracağı ilahi düstur-ların başlıcası olmaq üzrə hürriyyət və səlahə təşnə olan millətlərə bildirdi. Bəşəriyyət üzünü güldürdü.



Bundan sonra Rusiyada, Türkiyədə, Avstriyada, qismən də Almaniyada cəbbar və hakim olmaq istəyən bir məslək yerinə istiqlal dəvası ilə ortaya bir çox millətlər çıxdı. İnqilab məşyəməsindən doğmuş olan yeniyetmə millətlər səslərini hərbi-ümumi əsnasında cahangir dövlətlərin toqquşması zamanında ayaq altında əzilən kiçik millətlərin səslərinə verdilər.

Hərb dəhşətləri altında məhv olan insanlara sülh bəşarəti, cahangirlik altında paymal olan millətlərə istiqlal müjdəsi, istibdad çəngəlində can çəkişən zəhmətkeşlərə hürriyyət nəvidi verən İngiltərə, Fransa, Amerika və müttəfiqlərinin cəmaətləri dəxi müxtəlif cinslərdən, millətlərdən verilən bəşarət, müjdə və o nəvidlərə müstəhəqq təbəqə və cəmiyyətlərdən ibarətdirlər.

Verilən vədlərin vəfa və şəfa ilə ifası onların kəndilərindən ötrü də mənasız degildir.

Zənn edirmisiniz ki, Böyük Britaniya məhkum etdigi düşmən məmləkətlərdə ki, əhalinin hüquqi-milliyyəsini təmin eləsin də, bu müzəffəriyyətin hüsulində kəndisi ilə silah arkadaşlığı edən hindlinin ehtiyacını nəzərə almasın? Yaxud İrlanda humrulı nəticəsiz qalsın...qətiyyən degil.

Hərbi-ümumi bir şeyi isbat etdi. Bunu hər şeydən ziyadə isbat edən İngiltərə, Amerika, Fransa ittifaqı isbat etmiş oldu.

Bir millətdən təşəkkül edən dövlətlər, yaxud millətləri təzyiq ilə degil, ülfətlə birləşdirmiş olan dövlətlər müzəffər çıxdılar. Müqabilə qüvvətləri çox oldu. Ağır zərbələrə dayandılar. Həttа bu gün məğlub kibi görülən Almaniya belə bu xususda bir istina təşkil etməmişdir.

Kimsədən ötrü gizlin degildir ki, bu hərbi-ümumi əsnasında ən çox sarsılan, ən çox daxili təşvişlərə tutulan və axırda bəxi-

lənmiş olduğu parçalara dağılan hökumətlər – Rusiya, Avstriya və Türkiyə hökumətləri olmuşdur. Çünki bu üç hökumət dünyada mövcud müxtəlif millətlərdən ibarət olan dövlətlərin ən məxluti, ən azarlıları idi. Bunların azarı milli dövlət olmamaqdan, ayrı-ayrı millətləri, mənfəətləri təbii bir surətdə degil, zor və güclə bir məqsədə çevirtdirməkdən ibarətdi.

Türkiyənin nicatı Osmanlı imperatorluğu degil, türk hökuməti olmaqdadır. Amənna, buna Milyukov degil, bütün türkçülər, milliyyətin ən qüvvətli birlik caməəsini xəlqimizin "dili dilimdən, dini dinimdən" dedigi caməəsində görən müasir müsəlmanlar dəxi etiqad edərlər. Fəqət əcəba, bu düstur neçün yalnız Türkiyəyə münhəsir olsun?! Neçün Rusiyanın səadəti tamamilə rus kütləsindən mütəşəkkil milli bir dövlət şəklinə girməkdə olmasın?! Neçün dini türkün dinindən, tarixi türk ilə birlikdə islam yolunda cihad etməkdən ibarət ola gələn və əsrlərdən bəri türk sultanını xəlifəyi-ruyi-zəmin deyə tələqqi edən ərəbin Türkiyədən ayrılıb da bir Ərəbistan vücuda gətirməsi Türkiyə üçün bir səadət, bir yüngüllükədd edilsin də, məsələn, Gürcüstan, Ermənistan, daha ziyadə tamamilə başqa bir dil, özgə bir din, adət və ənənata malik olan Azərbaycan və Türkistan kibi vilayətlərin istiqbalı təsəvvür olunmasın?!...

Bu bir zehniyyətdir.

Zehniyyət demək insanın beynində yer tutmuş bəzi sabit fikirlərdir ki, onu oradan çıxarmaq çətin bir işdir.

Bu xəstə zehniyyət yalnız bu gün müsafir kibi bulunduğu İstanbula bir fateh və bir sahib kibi girmək azarı ilə xəstə olan Milyukovun qafasına məxsus degil, kəmali-təəssüflə görüyoruz ki, bütün rus partiyalarında vardır.

Yalnız Milyukovun şagirdləri olan "Yedinnaya Rossiya" qəzetəçiləri degil, biz görüyoruz ki, rus partiyalarından heç biri ən soldan tutub ən sağına qədər bizim həqqi-istiqlalımızı qəbul etmək istəmiyorlar. Biz görüyoruz onlar " xilaskar" və "naci" – deyə buraya gətirdikləri və gəldikləri günə "xilas günü" dedikləri



ingilisləri, Azərbaycan istiqlalını tanımaya nail görüncə nə intriqalar çevirməgə, nə böhtanlar söyləməgə başladılar!!... Onlar hətta o dərəcəyə gəliyor ki, adəta Azərbaycan türklərinin neçün durub da ingilislərlə ədavət eləmədiklərinə acıqlanıyorlar.

Bu xüsusda heç bir zaman barışmayan bolşeviklə kadet belə kəndi aralarında ümumi bir dil buluyorlar. Menşevik eserlə anlaşıyor. Əmələ burjayla birləşiyor. Arşın ikiləşiyor. Tıbkı Milyukovun arşını kibi. Vahid Rusiya deniliyor. Bu bütün demokratiyanın səsidir – deyə iddia olunuyor.

Azərbaycan deniliyor, bu Müsavatın intriqası, xan, bəy və ağaların kələkidir sayılıyor.

Azərbayca istiqlalını bütün Azərbaycan sosialistləri də müdafiə ediyor – deniliyor. Buna qarşı onlar müsavatçı sosialistdir – diyorlar. Fəqət unuduyorlar ki, bu məntiqə kəndiləri də "Kadet"çi sosialistlərdir.

Bu bir zehniyyətdir. Fəqət xəstə zehniyyətdir. Bu zehniyyətlə bilxassə hökumət eləməyə, hakim olmağa öyrənmiş olan millətlərin firqələri tutulmuşdur. Tutulmaları bir dərəcəyə qədər təbiidir də. Milyukovun və milyukovçu sosialistlərin düçar olduqları xəstəliyə bən bəzi Türkiyə firqələrinin də giriftar olduqlarını görmüşdüm.

Fəqət bu xəstəlik firqə partizanlığı edən bəzi politika adamlarında olsa da əmin olmalıdır ki, məsələyə daha saf və daha aydın nəzərlə baxan və hadisələri sağlam bir hisslə duyan xəlq, əvamfərib və zəharli siyasətlərlə xərab edilməmiş olan cəmaət hər zaman doğruyu sezər. Bir kərə bu doğruyu sezdimi, həqiqi rəhbərlərini görər, həqiqət yolunu tapar.

Ümid edəlim ki, tarixin bir məsəlini daha qeyd edəmədigi cahan müharibəsinin verdigi dərslər nəticəsində müqəddəratialəmə icrayi-təsir etmək vəzifəsilə vəzifədar olan böyük millətlərin böyük də demokratiyası bu böyük həqiqəti sezəcək dərəcədə həssas olsun.

Bu olursa, o zaman arşınlar birləşir. Türkiyə üçün istənilən Rusiya üçün də istənilir. "Demokratiya" denildiği zaman mənası

dəgişilib də "rus milləti" anlaşılmaz. "Azərbaycan milləti"ni dəxi bəy, xan – deyə təfsir edəməzlər!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan" 12 qanuni-sani (yanvar) 1919, №85**

Nəvid – vədə
Müstəhəqq – ehtiyacı olan, layıq
Məxlut – qarışıq
Məşi – yeriş, hərəkət, rəftar tərzi
Bəxil – paxıl, simic, xəsis
Naci – qurtulan, nicat tapan



## Zakatala məsələsi

Zakatala okruğu Zaqafqasiyanın xalis müsəlman əhali ilə məskun vilayətlərindən biridir. Buradakı 100 min əhalidən, ən mübaliğəli hesabla ancaq 5 min miqdarı "inqlo" adı ilə məşhur gürcü manənd bir cinsdən olub mabaqisi qismən türk, qismən də ləzgi həpsi müsəlmandır. Türkcə bütün müsəlmanlar arasında danışılır ümumi bir dildir. Bura əhalisi əskidən İlisu sultanlığı adı ilə muxtar və müstəqil bir həyati-siyasi ilə yaşıyaraq daima müsəlman məmləkəti olmuş, Rusiya tabeətinə keçdikdən sonra dəxi bir idareyi-müstəqilə halında bulunmuşdur.

Zakatala okruğu Zaqafqasiyada təşəkkül edən cümhuriyyətlərin hankısı daxilində olmalıdır?

Bu məsələ ortaya atılınca yuxarıda söylənən əlamətlərə bir də bu vilayətin sıldırım Qafqaz silsiləsi ənkində olduğunu əlavə etməlidir.Vilayətin Şimalı Qafqasiya ilə olan rabitəsi aylarla bağlanıyor. Coğrafiya nöqteyi-nəzərindən Zakatala Nuxa qəzasının mabədidir. Bunlar nəzərə alındığı zaman yuxarıdakı sualın cavabı kəndi-kəndiligindən verilmiş olur.

Zakatala əhaliyi-islamiyyəsi bu xüsusda məntiqin, milli, dini, ictimai və coğrafi məntiqin icab etdirdiyi cavabı zatən vermişlərdir. Daha Cənubi Qafqaz müsəlmanlarının mərkəzi komitəsi təşkil olunduğu zaman zakatalalı qardaş-larımız kəndi nümayəndələrini göndərməklə bizimlə mərbut olduqlarını göstərmişlərdi. Azərbaycan hökuməti ilk dəfə olaraq Gəncədə təşəkkül elədiyi zaman Zakatala vi-layəti dəxi bu hökuməti tanıdı, onun göndərmiş olduğu məmurları qəbul elədi. Zakatala Milli Komitəsi vilayətin Azərbaycan daxilində olduğunu rəsmən elan elədi. Şimdiki halda dəxi Zakatala nümayəndələri Azərbaycan parlamanında isbatı-vücud ediyorlar.

Meydanda bu qədər bariz sübutlar,cərh edilməz də-lillər, söz götürməz bürhanlar var ikən Gürcüstan-Azərbaycan ittihadının daisi olan "Qruziya" qəzetəsinin Azərbay-can Zakatala uyezdindəki həqqi-hakimiyyətini inkar edəcək bir tərzdə nəşriyyatda bulunmasına təəssüf etməmək qabil degildir.

Azərbaycan hökuməti hər bir nöqteyi-nəzərdən ixtilaf götürməz bir qitəsi olan Zakatalaya aid olan övraq və və-siqələrin kəndisinə təslimi üçün Gürcüstan hökumətinə müraciət eləmişdi. Gürcüstan hökuməti isə bu vilayətin kəndisinə aid olduğunu iddia ilə, məsələ həll olunmayana qədər istənilən övraq və vəsiqələrin Azərbaycan hökumətinə veriləmiyəcəgini bildirmişdir. Gürcüstan hökumətinin bu hər növ heyrət və təəccübə-şayan olan cavabını "Qruziya" qəzetəsi iki əl ilə imza ediyor. Həm də "Gürcüstan ilə Azər-baycan münasibatına suyi-təsir hasil edəcək" bu məsələdə Azərbaycan hökumətinin bu kibi bir təklif ilə Gürcüstana müraciət eləməsini səlah görmüyor.

"Qruziya" qəzetəsi hüdud məsələlərinin həllində yalnız "milliyyət" prinsipindən nəşət edib də məsələyi hankı yerdə, hankı millət oturuyor, – deyə həll etməyi müvafiq görmüyor. Zakatala okruğu tarixən bir Gürcüstan vilayətidir – diyor.

Biz bu məsələyi şu sırada mövzuyi-bəhs etmək istəməzdik. İstəməzdik ki, arada felən bir məsələ yox ikən Zaqafqasiya cümhuriyyətləri bədxahlarına artıq söz danışmaq üçün fəzlə material verək.

"Qruziya" qəzetəsi topraq üzərində yaşayan xəlqin arzui-ümumisi, rəyi-qəti, nüfusun cinsiyyəti, dili, adət və əxlaqı və bütün bunlar üzərinə, cəbrən degil, yerli xəlqin kəndi tip xatiri ilə vaqe olmuş bir işi (əmri-vaqe) degil, xatiri sayirlər bir əsas olmaq üzrə yalnız "Gürcüstanın hüquqi-tarixiyyəsini" etibara alır və ancaq bu düstura təqdis edib də, iddialarını yalnız bu nöqtədən iqamə edərsə, o zaman – əmin olsun ki, – tək qalır, kəndisinə dost bulamaz.

Gürcüstan böylə bir iştaha ilə yaşarsa,o zaman Qazax qəzası ilə Gəncə qəzasını dəxi təhlükəyə məruz görmək qorxusunu bəsləməyə həqli olmazmıyız?

Bu kibi iddialar nəyə yarar, əcaba? Demokrat Gürcüstan kəndisinə bir növlə isanamiyan Axisxayı alır, cəbrlə olsa da Borçalıyı tutar, yerli əhalinin ruhuna, arzusuna, cinsiyyətinə və əzminə rəğmən – fərz edəlim – Zakatala ilə Qazax və sairəyə malik olarsa nə qazanır?



Kəndisinə müxalif vilayətlər, kəndisinə dargın qomşular.

Biz Gürcüstan hökumətini etidala, dostunu tanımağa dəvət edəriz. Azərbaycan ilə Gürcüstanın dostluq və anlaşmaqdan hasil edəcəkləri böyük mənfəətlər yanında bu kibi könül bulandırıcı hərəkətlərə məhəl qalmamalıdır. Təyini-hüdud kibi məsələlərdəki əsrimizin ruhuna uyan əsasların milliyyət və rəyi-amm (referendum) olduğu hər kəsdən ziyadə Gürcüstan hökuməti başında duran sosial-demokratlara bəlli olsa gərək. Milli tələbləri demokratlıq cildinə geydirmək məharətində Sereteli kibi natiqpərdazlar hər nə qədər mahir olsalar da, təsirləri yalnız Azərbaycan hüdudini "nəfəslik"dən bir az uzaqlaşdırmaq, Tiflisə nəfəs verdirmək üzərinə aid ola bilər. Yoxsa qəti imperialist məsləki olan "hüdudi-tarixiyyə" əfsanəsini Sereteli cənabları belə söyləsə, kimsə onu bir həqiqət olaraq qəbul edəməz.

Zakatala müsəlmanları isə heç bir vəchlə gürcü hökumətini qəbul edəməzlər. Onların böylə bir əzmdə olduqları gürcü məhafilinə məlum olsa gərəkdir.

Zakatala okruğu Azərbaycanın zəngin, hasili-xiz, ğəyyur və həmiyyətmənd bir qitəsidir. Bu vilayət Şərqi Qafqasiyayı anarxiya seli silib süpürməkdə olduğu bir zamanda kəndi arasından kafi miqdarda könüllü çıxarmış, kəndisini müdafiə eləmişdir. Azərbaycan hökuməti əxzi-əskərə başladığı zaman bu vilayət böyük bir sürur və şövq ilə əskərligi qəbul eləmiş, bütün gənclərini silah altına almışdır.

Nasıl olur da böylə bir vilayətə bu qədər şövq, zövq və hissiyatla mərbut olduğu məmləkətdən ayrılmaq, istəmədiyi bir məmləkətə qoşulmaq təklif olunur?!...

Bir məmləkətin bir dövlət təbeyətində bulunması üçün müasirinin qanacağına görə hər şeydən əvvəl o məmləkət əhalisinin könlü əldə olmalıdır.

Gürcüstan hökumətinin Zakatala okruğu üzərinə iddiayi-təmlik etmək üçün əlində nəyi var? Azərbaycana vermək istəmədiyi övraqmı?

İştə o qədər.

Varsın bir tərəfdə əhalinin milliyyəti,dini, meyli, arzusu və güc istemal etmədən hasil olan bir əmri-vaqe, digər tərəfdən də təsadüfən əldə qalan köhnə idarələrə aid bir takım övraq və vəsaiq olsun.

Bitərəf bir məhkəmə hüzurunda bunlardan hankısının daha qüvvətli bir həcət olduğu bir takım rəsmi mülahizələr və "hikməti-hökumət" kibi "nazik nöqtələr"lə bağlı olan Gürcüstan hökumətincə "məchul" olsa da gürcü-türk dostluğunun mürəvvici bulunan "Qruziya" qəzetəsindən ötrü heç olmasa məlum olmalıydı.

Təəssüf olunur ki, gürcü qonşularımız "tarixi hüdud" prinsipini suyi-təvilə uğratıyorlar. Fəqət ümid edəlim ki, vəqtin əhəmiyyətini dərk elər də bu təvili fəna bir surətdə istemal etməyə qədər getməzlər.

**M.Ə.Rəsulzadə**
**Azərbaycan" 14 qanuni-sani (yanvar) 1919, №87**

Manənd – oxşar,bənzər
Mabəqi – yerdə qalan, qalıq
Bürhan – sübut, dəlil
Övraq – korlanmış
Təşəttut – səpələnmə
Anım – xalq, camaat
Xiz – dayanan, duran, qalxan
Sərvər – başçı
Mərvi – nağıl olunmuş, rəvayət edilmiş



## Türkiyə məğlubmudur?

Mütarikə əqd olunmuş, Türkiyə aman istəyəcək bir dərəcəyə gəlmiş, müttəfiqlər İstanbula oturuyorlar.

Demək Türkiyə məğlub olmuş.

Zahiri düşünülürsə böylədir. Məğlubluq vaqeədir.

Bu mülahizədən baxılarsa çox adamlar Türkiyənin məğlub olduğuna hökm edərlər. həm sözün cəmaət arasında mötad olan mənasilə də iş böylədir.

Türkiyə müttəfiq dövlətlərə qarşı məğlubdur. Mənsub olduğu müharib dövlətlər zümrəsi sındı. O da onlarla bərabər basıldı, məğlub oldu.

Bu xüsusda iki söz olamaz. Böylə zahiri bir müha-kimənin təsiri çox böyükdür. Yalnız zahiri binamlar degil, Türkiyənin məarif naziri məqamında bulunan filosof Rza Tofiq bəy cənabları dəxi hökumətə vaqe olan bir sorğuya cavab verərkən "nə yapalım onlar qalibdir, biz məğlub, hökm qalibindir" – demişdir.

Məarif nazirinin böylə filosofanə bir rizadə bulunması məbuslardan bəzinin ötəri tənqidatına məruz qalmışsa da, ən şiddətli taziyanəyi İstanbul qadınlarından yemişdir.

Oxucular yəqin hiss ediyorlar ki, "Qazi Köy" xanımlarının qəzetələr vasitəsilə nəşr eləmiş olduqları protes-tonamədən bəhs ediyoruz. Qəzetəyi diqqətlə oxuyanların ömürləri uzunu unutmayacaqları lazım gələn bu fəqərəyi, hər ehtimala qarşı bir daha buraya nəql ediyoruz. Bəlkə oxumamış olanlar vardır.

İstanbul "Qazi Köy" xanımları məzkur protestolarında diyorlar ki:

"Tarix cəhlinə Çanaqqalanın müdafiəsi kibi bir şah əsəri ehda edən qəhrəmanların ana, zövcə, həmşirə və qızları olan bizlər Çanaqqalanın müqəddəs topraqları altında yatan şəhidlərimizin ruhi-müəzzizləri qarşısında türk qadınlığına və aləmi-mədəniyyətə xitab ediyoruz:

Limanımızda görülən ahənin qələləri məğlub edən və qaraya çıxarılan yarım milyon əskərini dənizə tökən milləti-mizi məğlub əqd etmiyoruz.

Dün Məclisi-Məbusan kürsüsündən hökumət naminə söz sözləyən maarif nazirinin "məğlubuz, istədiklərini yaparlar" sözlərini şiddətlə protesto edəriz.

Paçələrimizi yırtan və sonra hürriyyəti-cahan naminə deyə hərb etdiklərini elan edənlərə təəssüf ediyoruz. Hüquqi-milliyyə və ismətimizi mühafizə edəcək hökumət və ərkan yoxsa biz varız".

"Qazi Köy" türk xanımlarının bu protestonaməsi müşkül zamanlarda gücü ancaq dilinə çatanların qüvvət vahimindən arı sözü kibi görüləməz.

Bu sətirlərdə böyük bir qüvvət, bir iman qüvvəti görülüyor. Çanaqqala müdafiəsi kibi "Şah Əsər"in ittihadı ilə qəhrəman millətlərini məğlubədd etməyən analar, zövcələr və bacıların yerdən göyə qədər həqləri vardır.

Çanaqqala əsrimizin əqlləri heyran buraxan möcüz-nüma sənəti texnikası, böyük mənzilli topları, bilməm hanki cəhənnəm asa ixtiraları vasitəsi ilə müdafiə edilməmişdi. Burası vətənini xilas etmək, hürriyyətini saxlamaq, paytax-tını qorumaq niyyətilə canını verən qəhrəman bir millətin köksü ilə ölümü istehqarı ilə müdafiə edilmişdir. Bu müdafiə yüz minlərlə nüfuza mal olmuş. Türkiyə əməlpərvər gənc-liyi, türk millətinin çiçəkləri burada tələf olmuş, canını cana-nına vermişdir.

Müharibənin mənfur, nəngin səhifələri arasında öylə şanlı parçaları vardır ki, qarşısında təzim üçün əgilməlidir.

Məsələn, kiçik Belçikanın o ölür, fəqət dönmək bilməz əzmi, Serbiyanın hər növ məhrumiyyətlərə, məhviyyətlərə qarşı Tadem Bisinə qədər duruşu hərbi-ümuminin təqdirlərlə yad edəcək hadisələrdəndir.

Çanaqqala hadisəyi-kəbirası dəxi tarixin sitayişlərlə yad edəcəgi şanlı bir cilveyi-hərb, şahkar bir müdafiədir.

Çanaqqaladakı türklük Vardendəki fransızlıq kibi yalnız maddətən degil, mənən də qalib idi. Türklər Çanaq-qala müdafiəsini təfəxxürlərlə yad edərkən "bu müdafiə ilə biz yalnız İstanbulu degil, İstanbuldan daha qiymətdar bir şeyi qazandıq" – deyə tərif ediyordular. O şey nədir:



Etimadi-nəfs!

Çanaqqala müdafiəsində müzəffər çıxan türklər bir az əvvəl Balkan müharibəsində itirdikləri etimadi-nəfslərini qazanmışdılar.

Yaşaya biləcəgiz – deyə inanmışdılar.

Etimadi-nəfsin türkcəsi **"özünə güvənmək"dir.**

Özünə güvənən türk Çanaqqala müdafiəsində yalnız maddətən degil, mənən də qalib idi.

Bunu artıq nə bəndən, nə də İstanbul qəzetələrindən degil, türklərin böyük dostu fransız ədibi-möhtərəmi Pyer Loti həzrətlərindən ögrənəlim.

Fəqət Pyer Lotinin mütarikədən sonra Türkiyə həqqində yazmış olduğu bir məqaləsinin mövzumuza aid olan bəzi parçalarını buraya nəql etməkdən əvvəl bu böyük mühərririn kəndisi həqqində bir kaç sətir yazmadan keçəmiyəcəgəm.

Türkiyə müharibəyə girər-girməz Pyer Lotinin türklərdən üz çevirdigini, bir bəhriyyə zabiti sifətilə İstan-bula qarşı müharib olaraq getdigini və türk dustağından hü-zur nasda tövbə elədigini rusca qəzetələr nəşr eləmişlərdi.

Şərq aşiqi səmimi bir Qərb mühərririnin nə olduğunu təsəvvür edəməyən adamlar bittəbii bu xəbərə inanmışlardı. Bilxassə ki, müharibənin ilk günlərində vətən qeyrəti və millət təəssübünün məntiqinə uyan hər bir xəbərə inan-mamaq əldə degildi. Dünya "internasionalı" uçduqdan, sosialistlərin belə qarşı-qarşıya gəlib də vətən və millət naminə biri-birinə qılınc çəkdikdən sonra bir fransız ədibinin təğyiri-məslək etməsində nə yas ola bilərdi.

Fəqət həqiqət böylə deyilmiş. Pyer Lotinin türklərə qarşı olan məhəbbətini "müəzzəz və şimdi hər zamandan ziyadə şayani-pərəstiş" Fransası ilə Türkiyə arasındakı hali-hərb belə dəgişməmiş, dəgişəməmişdir.

Pyer Lotinin türklər həqqindəki bu məqaləsini ayrıca dərc edəcəgiz. Burada isə Çanaqqalada türklərin mənən dəxi qələbə çaldıqlarını isbat edən bir yerini nəql ediyoruz.

Fransa mühərriri:

"Diyoram ki və bütün müddəti-həyatımda dedim ki, türklər Şərqin ən namuskar, ən salim ünsürünü, bilxassə ən səbur və ən mütəhəmmil olanını təşkil edərlər" – diyor və əlavə ediyor ki:

"Bu iddia həqiqətə naməhrəm olanları diksindirə bilər, inanmaq istəməzlər".

Fəqət bu kibilərin ən inadçı olanlarını belə iqna etmək üçün müharibəyə gedərkən kəndisini türklər həqqindəki fikirlərindən dolayı "təhlükəli bir xəyalçı" təsəvvür edən bir çox general, zabit və nəfər dostlarından aldığı bir kitablıq minlərcə məktubdan bir parasını nəşr ediyor. Əzcümlə kəndisinə oradan (Çanaqqaladan) yazıyorlar ki: "Ox, bunları, bu nəcib və qəhrəman adamları siz nə qədər iyi tanı-yormuşsunuz, bu adamlar ki, əsirlərə, məcruhlara qarşı o qədər müşfiqdirlər və onları birər qardaşa bakıyorlarmış kibi tədavi edərlər. Bizə etimad ediniz vətənə dönüncə sizin hissiyyat və etiqadatınıza biz də bizimkilərini kümələrlə əlavə edəcəgiz!".

❂ ❂ ❂

"Qazi Köy" xanımlarının filosof Rza Tofiq bəy əfəndiyə iyi bir fəlsəfəyi-siyasiyyə dərsi verdiklərində nə dərəcədə həqli olub-olmadıqlarını daha aydın bir surətdə həll edə bilmək üçün Türkiyənin nə üçün hərb elədigini bilməlidir.

Həqiqətən Türkiyə nə üçün hərb ediyordu? Üzərinə mütaliə yürütdügümüz mövzu ilə bu sualın böyük bir əlaqəsi vardır. Çünki Türkiyənin hərbdən gözlədigi məqsədi hasil olmuşsa qalib, olmamışsa məğlubdur.

Hərbi-ümumiyi doğuran amillərdən ən müəssiri olanı məşhur Şərq məsələsidir.

Bu məsələdən dolayı qarşı-qarşıya gələn iki müharib zümrə arasında Türkiyə bitərəf qala bilməyəcəkdi. Bir tərəfə qoşulmalıydı. Türkiyə Almaniya zümrəsinə qoşuldu. Fəqət bununla o, Fransa ilə İngiltərəyə degil, Rusiya çarlığına elani-hərb etdi. Rusiya İstanbulu istiyordu. Rusiya Türkiyəyə qəsd etmişdi.



Pyer Loti "türklər bizə degil, ruslara elani-hərb etdilər" diyor və "onların yerində kim başqa tərzdə hərəkət edə bilərdi?" – deyə kəndilərinə həqq veriyor.

Türklərin müharibədəki məqsədləri rusların qalib gəlməməsi idi.

"Xəstə adam" malına göz dikmiş və bunun üçün canına qıymış "sağlam" qonşusu ilə son dəfə olaraq pəncələşməgə qərar vermişdi.

Türkiyə əsrimizdə icra olunan müharibə nöqteyi-nəzərindən müvəffəqiyyətlə çəkişməgə müsaid bir məmləkət degil ikən, daha Trablis-Qərb, Balkan hərbləri, Yəmən, Hərvan, Arnavud ixtilalları ilə siyasi inqilablar keçirmiş, yorğun və bitab düşmüş ikən hərbə girdi.

Bu qələbə degilmi ki, tam mənasilə sağlam və 10 milyonluqla əskər çıxarmış Rusiya kibi əzim bir dövlətin davam gətirəmədigi bu bədru-əzimədə xəstə təsəvvür olunan Türkiyə daha ziyadə qabiliyyəti-həyat göstərdi?...

Türkiyənin bu nöqteyi-nəzərdən məqsədi hasil oldu. Canına qıymış, İstanbula göz dikmiş Rusiya bu gün yoxdur. Demokratizm və sosializm fikirləri ilə pürcüş bir qazan kibi qaynar bir qitə üzərində bir çox hökumətlər, istiqlallarını təminə çalışan xırda millətlər vardır. Əsl rus milləti isə Sazanov-Milyukov məsləkini təqiblə Ayasofiyanın başına xaç taxmaq qəsdində degil, kəndisinə təhəmmül olunur bir insan həyatı təmin eləməklə məşğuldur.

Bu, Türkiyənin qələbəsidir. Məclisi-Məbusan rəisi Xəlil bəy bu qələbəyə aləmşümul bir məna vermişdi. O, Çanaqqala müdafiə edilməsə bu günün hakimi Vilson degil, İkinci Nikolay olacaqdı – diyor. Bəlkə bir dərəcəyə qədər də həqq söylüyor.

Tələt Paşa kabinəsinin ən böyük xətası hərbə girməsində degil, hərbdən çıxmamasındadır. Türkiyəyi təhdid edən bir Rusiya ortadan çıxdıqdan sonra türklər üçün artıq heç bir məqsədi-hərb qalmamışdı.

Məğlub olan Türkiyə Brest-Litovskdan sonrakı Türkiyədir.

* * *

Ərəbistanın istiqlalını, Ermənistanın muxtariyyət alacağını, Suriyanın ayrıldığını, xülasə Osmanlı imperatorluğunun parçalandığını, Türkiyənin olsa-olsa türklərlə məskun Anadoluya inhisar edəcəgi mühəqqəq olduğunu nəzərə alaraq, nasıl olur da Türkiyə qalib olur – deyə heyrət edə bilərlər.

Osmanlı Məclisi-Məbusanında Rza Tofiqin mövzui-bəhsimiz olan nitqi irad olunan iclasda məbuslardan birisi "bu millət ölməz, çünki islamiyyətə istinad ediyor və müsəlmanlıq və osmanlılıq layəmutdur" – demişdir.

Fəqət bən cəsarət edib deməк istiyordum ki, bu müharibədə məğlub olan bir şey varsa, **o da müsəlmanlıq və osmanlılıqdır.**

Türklər elani-cihad etdilər. bütün müsəlmanları kəndiləri ilə bərabər hərb etməgə çağırdılar. Fəqət fətvai-cihad ərəb üsyanı ilə Hicaz, Suriya və İraq istiqlallarından başqa bir nəticə vermədi.

Osmanlılıq fikri dəxi iflas etdi. Türklər kəndilərindən başqa kəndilərinə sadiq bir ünsür bulamadılar. Hər millət kəndi kökü üzərində bitmək istədi. Bununla mübarizə edərkən türklər erməni məqatilatı kibi maddi və mənəvi böyük zərərlərə, həqiqi məğlubiyyətlərə uğradılar.

Rus imperializmi kibi türk mərkəziyyətçiligi də aləmşümul müharibənin təzyiqinə dayanamadı. Avstriya xəlitəsi kibi Osmanlı xəşili də qaynayıb qarışamadı.

Süleyman Qanuni zamanındakı "müsəlmanlıq iksiri" iqtizaizəmanə pək yabançı bir tədbir olaraq "milliyyət kimyası" qarşısında kargər olamadı.

Osmanlı imperatorluğu ilə müsəlman xəlifəligi məğlub oldu.

Bu məna ilə filosof Rza Tofiq bəyin bütün mənasilə "məğlub olduq" deməgə həqqi vardır.

Fəqət bununla bərabər, Türkiyədə əməlpərvər bir gənclik var. Bu gənclik xəlqə doğru getmək yolu ilə azim, demokrat və milliyyətpərvər bir qafilədir. Əməlpərvərlər qafiləsi! Bu qafilə Anadolunun dərdlərini çəkiyor, türkün qəlbi ehtiyaclarını dərk ediyor. Çanaqqala xariqələrini göstərən bir millətin müasir bir



həyati-milliyyə yoluna düşdükdən sonra qabil degil, dünya üzündən silinməyəcəginə, kəndi hürriyyətilə, düha və ürfanilə xarab olmuş mədəniyyət dünyasının təmir ediləcək bağında rəngin və rəna bir baxça yapacağına əmindir.

Bu əmniyyəti, bu imanı ilə o çalışıyor. Əvvəla, kəndisinə, sonra da dünya demokratiyasının əzminə, məzlum bəşəriyyətin adil vicdanına inanıyor. "Cəmiyyəti-Əqvam" daxilində türk millətinin də möhtərəm və azad bir mövqe tutacağı üçün çalışıyor, çarpışıyor. Bu səylər məşkur olmaya bilməz. Bu ümidlər əlbəttə ölməz.

Bu nöqteyi-nəzərdən "Qazi Köy" xanımlarının "millətimiz məğlub degildir!" bağırmaya həqləri vardır.

Türkiyə məğlub degildir!

**M.Ə.Rəsulzadə**

**"Azərbaycan", 17 qanuni-sani (yanvar) 1919, №90**

Mötad – adət olmuş, dəb
Cəhl – bilməməzlik, tərslik
Ehda – hədiyyə vermə
Ahənin – dəmir
Paçə – baş, kəllə
Nəfs – ruh, övlad, nəsl
Nəngin – bədnamlıq
Etimadi-nəfs – inam ruhu, özünə güvənmək
Səbur – çox səbirli, çox dözümlü
Mütəhəmmil – davam gətirən
Müəssir – təsir edən, amil
Pürcüş – çox bərk qaynayan
Layəmut – ölməz, əbədi
Məqatil – qətl yerləri
Xəlitə – qarışıq; torba
Məşkur – şükr edilən, yaxşı
Bədru – çirkin

## Yeni ingilis kabinəsi

Teleqraf İngiltərədə dünya müharibəsi əsnasında ilk dəfə olaraq məmləkətin hali-hərbdə olduğuna baxmayaraq böyük bir müvəffəqiyyətlə seçkilərini təzələyən Britaniya parlamanının toplandığını bildirdi. Bunun təbii nəticəsindən olmaq üzrə yeni İngiltərə kabinəsinin təşəkkül elədigi də xəbər alındı.

İngilis ünsürünün Avropa ünsürləri arasında ən mütərəqqi, əzmkar və tutduğu işlərində müvəffəq olmayınca əl çəkməz səbatkar bir ünsür olduğu məruf idi.

İngilis qüdrəti-idarəsinin aləmşümul bir şöhrətinə nümunə olmaq üzrə xəlqimiz arasında birisinin zəkavət və bacarığını bildirmək üçün söylənən "ingilisdir" kinayəsini zikr etmək kafidir.

İngilis politikası, bunun nə olduğunu kim bilməzdi.

Bir zaman Avropa mütəfəkkirləri ingilislərin müvəffəqiyyətinə heyran və bunun "əsbabi-faiqiyyətini" aramaqla məşğul oluyorlardı. Bu məsələ bilxassə Fransa mütəfəkkirlərini məşğul ediyordu.

Avropanın mərkəzində Bismarkdan sonra yeni bir hökumət vücuda gəliyordu. Almaniya milləti gec qalmış olsa da "ingilislik"lə rəqabətə çıxıyordu. Bu rəqabət öylə hesaba alınmaz, kitaba keçirilməz rəqabətlərdən degil idi.

Bu rəqabət doğrudan-doğruya İngiltərəyi qorxuzuyordu. Almaniya bəhriyyəsi artıyor, ticarəti genişləniyor, siyasəti dəxi bu nisbətdə mütəcaviz bir şəkil alıyordu.

Almaniya İngiltərədən ötrü daha əvvəlcə Hindistanı təhdid edən Rusiya kibi degil idi. Daha ziyadə müdhiş idi. Çünki yalnız əskər qüvvəsi degil, texnika, elm, fənn və təşkilat cihazları ilə də müsəlləh idi. Həqiqətən də kəndisindən çəkilər bir hərif idi.

Hətta Almaniyanın az bir zaman içərisində çox tədarüklər gördügünü, çox tərəqqilər göstərdigini tədqiq edənlər ingilis dövranının intəhayə uğramaq üzrə olduğuna zahəb olmuş, mövqeini yeni bir qüvvət və düha ilə ortaya çıxan "almanlıq"a tərk etmək sırası gəldiginə hökm verməgə başlamışlardı.



Vaziyyət həqiqətən də ciddi idi. Qoca İngiltərə ehtiyat tədbirləri görmək məcburiyyətində idi.

İngilis də ehtiyatsız olurmu?

"Robinzon Kruzo" hekayəsində yalnız bir adaya düşüb də təkbaşına bir aləm vücudə gətirən və hər şeyi yoxdan sazlayan insan tipi bir ingilis müxəyyələsindən doğmamışmıdır?

Bir çox münəqqidlər "Kruzo" tipinin qeyri-təbii olduğunu iddia eləmişlərdi. Fəqət hərbi-ümumidəki ingilis mətanət və tədbirləri "Kruzo" tipinin xəyal degil, bir həqiqət olduğunu göstərdi.

Yoxdan ordular yapıldı. Ürf və adət düşgünü, ənənə və tarix əsiri olan ingilis ömründə ilk dəfə olaraq mükəlləfiyyəti-əskəriyyə yükünü yükləndi.

Cəmaət bətnindən yetişmə bir xəlq oğlu, qoca bir imperiyanın başına keçərək Britaniya cəzirələrini dünyanın çar ətrafında qürənin altıdan bir dərəcəsində genişləyən müxtəlif məkanda, müxtəlif lisanda danışan insanları bir araya topladı və çizilmiş məqsədə doğru sürükləyə bildi.

Nəticədə dünyanın Rusiya, Almaniya kimi müəzzəm əskəri dövlətləri ixtilal və inqilab atəşləri içində yaxılıb qıvrılmaqda ikən, İngiltərədə adi bir zamanda imiş kibi seçkilər icra olunuyor. Loyd Corc kabinəsi təkrar bir qaya kibi möhkəm duraraq mövqeyini saxlıyor.

Müharibəyi müvəffəqiyyətlə bitirmək üçün ingilisləri əskərlik altına çəkmiş olan Loyd Corc, kəndisi mühafizəkaran partisinə mənsub olduğu halda, ingilis mühafizəkarlığının əsasını təşkil edən milli bir ənənəyi qırmağa ingilis qövmini vadar eləmişdi. İngilis məcburi olaraq əskərligə alınmışdı. Bu, İngiltərəyi bilənlər üçün Almaniyanın sülh istəməsi qədər nəzərə bəid gəlir bir məsələ idi. Onun üçün də ingilis əskərliginin könüllü üsulundan üsuli-icbariyə keçməsi böyük bir inqilab idi. Fəqət İngiltərə tarixinin çoxca qeyd etmiş olduğu qansız inqilablardan.

Müharibəyə şiddətli suratda davam etmək əzmində ikən daxili bir inqilab yapmış olan İngiltərə sülhi-ümumi ərəfəsindəki hazırlığında da digər bir inqilab yapmışdır.

Saqın İngiltərəyə "bolşevizm" girdi, sanmayınız.

Xayır. Hanki bir vəqeədən bəhs etmək istədigimi duysanız, burada "inqilab" kəlməsi işlətdigimə belə heyrət edərsiniz.

İngilislərin Hindistan ilə olan əlaqələrinin dərəcəsini kim bilməz. Kim bilməz ki, Hindistan İngiltərənin canı və yaxud təbirimərufla can şişəsidir. İngiltərə siyasətinin məhvəri-siyasəti daima Hindistanın mühafizəsi üzərinə dönmüşdür. Dostluğunun da, düşmənliginin də səbəbi daima Hindistan olmuşdur. Hindistana aşiq olanları, oraya doğru baxanları İngiltərə daima qısqanmışdır. Bununla bərabər ənənəpərəst ingilis "lordluğu" bir hindliyi heç bir zaman bir britaniyalı qədər müsavi, onun qədər həmhüquq və həmvəzifə görəməmişdi. Dünyanın bilnisbə ən demokratik bir məmləkəti və tarixcə ən qədim bir məşrutə hökuməti ikən hala lordlara qarşı xəlqdən başqa bir şəkildə mərasim və təşrifat istəyən bu topraqda ingilis olmayan millətlərə qarşı dəxi xüsusi surətdə müamilə yapılıyordu. Bunun üçün bir hindlinin gəlib də ingilis hökuməti əzasından olması bir ingilisin icbari surətdə əskər getməsi qədər böyük bir vəqeədir, bir inqilabdır.

Birinci vəqeə müharibənin müzəffəriyyətlə bitirilməsinə səbəb oldu. İkinci vəqeədə sülhün millətlərin müsavat hüququ ilə nəticələnəcəgi üçün bir fali-nik təşkil etsəydi...

Həddi-zatında, dünyayı istila edən bugünki demokratik fikirlərin qalibiyyəti qarşısında bir hindlinin nəzarət məqamını ehraz eləməsi əlbəttə ki, böyük bir şey təşkil eləməz. Fəqət bu vəqeəyi mücərrəd olaraq degil, ingilis ənənatı nöqteyi-nəzərindən görərək mühakimə etməlidir.

Fəqət ingilislər nə qədər mühafizəkar və ənənəçi olsalar da, dərəcəyi-kəmalə gəlmiş millətlərin istədikləri həqlərini verməkdə digər cahangir dövlətlər qədər müənd olmadıqları da bəllidir.

Dərəcəyi-kəmalə irib də həqqini israrla istəyən millətə qarşı güzəşt etmək, bu da bir ingilis ənənəsidir.

Bu nöqteyi-nəzərdən "İrland" humruli qanunən qəbul edildi. Hali-hərb keçincə feləndə tətbiq olunacağına inanmalıdır.

Hindli "ser Sina"nın Britaniya nazirliyinə təyini dəxi hindli milliyyətpərvərlərin tələbatına qarşı hind muxtariyyət və imtiyazatı təvəssinə doğru atılmış bir güzəşt politikasının dəlili degilmidir?



Zənn edəriz ki, odur.

Müqəddəratımızın surəti-halini sülhi-ümumi məclisindən bəkləyib duruyoruz. Bu məclisdə nüfuzlu bir söz sahibi olan İngiltərə hökumətin millətlərin həqli tələbatını bizim kibi dövlətlərin hürriyyət və istiqlal tələbindəki iddialarını qəbula mail bir hökumət olmasını əlbəttə ki, arzu edəriz. Kəndi arasına İngiltərə əfkari-ümumiyyəsindən ötrü belə nagəhani olaraq xilafi-ənənə bir hindliyi dəxi almış olan Loyd Corc kabinəsinin istədigimiz böylə bir hökumət olmasını cani-könüldən diləriz.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 20 qanuni-sani (yanvar) 1919, №92**

Səbatkar – mətanətli
Müxəyyələ – xəyala gətirən
Çar – dörd
Nagəhani – qəflətən olan
Qürə – yer kürəsi

## Hesab günü – Sülhi-ümumi konqresinin gözlənməsi münasibətilə –

Məzahib və ədyanın əksərində insan dünyadakı işlərindən, savab gördügü işlərlə, irtikab elədigi günahlarından bir gün gələcək də hesab verəcək.

Qiyamət qopacaq, məhşər olacaq, hesab günü gələcək.

Ehtimal ki, ayrı-ayrı fərdlərin Allaha nisbət irtikab elədikləri qəbahətlərin mühakiməsi və icra etdikləri savabların mükafatını verəcək bir "yövmülhesab" daha irəlidədir. Kim bilir bəlkə yenə dəccallar, mehdilər, nəhayət məhşər, sirat köprüsü, mizan görəcək, "yövmülhesab" çəkiləcəkdir.

Ehtimal ki, bu mərhələlərin həpsini keçmişiz və keçməkdəyiz də fərdən mütənəbbeh olmuyor, hiss etmiyor, mətləbi duymuyoruz.

Fəqət insanlar fərd həyatından başqa bir də cəmiyyət həyatı ilə yaşıyorlar. Cəmiyyətləri biri-birindən ayıran və ona bir cameyi-şəxsiyyə verən ən böyük amil milliyyət amilidir. Millətlər birər fərddirlər.

İştə bu, milliyyət etibarilə birər fərd təşkil edən bəşəriyyətin hesab günü (yövmülhesab) gəlmişdir.

1914-cü sənəsindən bəri dünyayı alt-üst edən, mövcud şəhərləri, məmurələri, binaları xarab etdigi kibi maddiyyatımızı da olduğu qədər mənəviyyatımızı dəxi rəxnədar edən bu böyük qital (öldürüş) və bu üzdən hüsula gələn aclıq, kəsad, qırğın əcəba, qiyamət və məşhərdən başqa bir şeymidir?

Əvət, millətlərin qiyamətidir. Məhşəri-kübraya yalnız həyati-siyasiyyələri ilə mövcud olan millətlər degil, çoxdan bəri məzara gömülmüş olan millətlər də gəliyorlar.

1914-cü ildə partlayan top gülləsi xirədcalın nərəsinə mümasil idi. 1918 sənəsində böyük Amerika Cümhuriyyəti rəisinin cahana elan elədigi 14 maddəlik sülh əsasları isə İsrafil Suruna bənziyordu.

Bu sur: "Qalxınız, ey zavallı millətlər, yövmülqiyam, yövmülhesabdır" diyordu.



Millətlər qalxdılar, hesab ayağına qoşdular.

Bu hesab Parisdə vaqe olacaqdır. Parisdə qurulacaq olan sülhi-ümumi məclisi qəzetələrin rəvayətinə görə 1500 adamdan ibarət olacaq. Bu 1500 adam dünyadakı nə qədər millət varsa, hamısını təmsil edəcəkdir.

1500 müxtəlif millətlərə mənsub, müxtəlif dillərdə mütəkəllim bir "Cəmiyyəti-Əqvam" məhşəri bir kərə təsəvvür olunsun. Babil qələsi, oradakı təbili-əsvat haman xatirə gəlir.

Fəqət şəklən Babildəki rənglərə malik olsa da, Paris konqresi mənən o halda bulunmayacaqdır. Bir kərə mənayi-zahir etibarilə də olsa dünyanın (Şərq ədəbiyyatındakı məşhur təqsimatinə görə) 72 millətindən ötrü Fransa lisanı aşağı-yuxarı anlaşılır bir dildir. Digər tərəfdən də 1500-ün içində nüfuzi-kəlmə sahibi həqiqi hakimlər vardır. Bu ərbabi-nüfuz artıq "təbdilə" imkan verməzlər, zənn edəriz.

Dünyanın hesabını görəcək Paris konqresi aləmi yeni başdan tikəcək. Yeni bir həyatın əsaslarını vəz edəcək; cahan xəritəsini yeni rənglərə boyayacaq və böylə yapdıqdan sonra:

– Ey dünya, böylə yaşamalısın! – deyə əmr edəcəkdir.

Bu əmr millətlərə səadət gətirə biləcəkmidir?

İştə sual!...

Xəlqin müxəyyələsində mücəssəm olan hesab gününün nəticəsində insanlardan bəzisi behiştə, bəzisi cəhənnəmə, bəzisi də bərzəxə məhkum olacaq – deyə, bir təsəvvür vardır.

Bu hesab gününün nəticəsində dəxi bütün dünya millətlərinin "behiştlik" olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır.

Doğrudur, hesab çəkənlərin ən qüvvətlisi olan Vilson həzrətləri böyük millətlə kiçik millətdə fərq olmamalıdır – demişdir. Doğrudur, gizli diplomatiyanın qaldırılması mətlub görülmüşdür, doğrudur, silahlanmanın bihudə olduğu etiraf edilmiş, təhdidi faidəli olacaq denilmişdir.

Fəqət bunlar daha hesabı görülmüş, müvazinəsi təyin edilmiş birər həqiqətlər degildir. Həqiqət olmaq arzusu ilə söylənilib duran birər böyük şüarlar, iztirablı qəlblərin döguntüsünü rahat edən birər valerian damcısıdır.

Bu damcılardan sonra bəşəriyyətin pozulmuş mədəsini, üzülmüş sihhətini təkrar iadə edəcək həqiqi əlaclar veriləcəkmidir. Hesabi-ümumi məhkəməyi-kübrası hüzuruna gedən millətlər düçarı olduqları əziyyətli azarlarının əlacı iləmi qayıdacaqlar. Yoxsa əllərinə verilən namə şəfa reçetəsi (nüsxəsi) degil, edam cəzası olacaqdır.

Vilson prinsiplərini izah edərkən söylədigi nitqlərindən birində – yanılmıyorsam – "Cəmiyyəti-Əqvam" əsasının təmin edildigi feyzdən hər millət kəndi ləyaqəti və mədəniyyətinin dərəcəsi nisbətində istifadə edə biləcəkdir – demişdir.

Kəndi ləyaqəti və mədəniyyəti nisbətində!...

Özü-özlügündə irad götürməz bir düstur.

Fəqət eyni zamanda geniş təvillər, uzun təfsirlərə mütəhəmmil bir formul.

Millətlərdən, bilxassə bizim kibi "bəs bədəlmövt" nəticəsində qiyam edən millətlərdən ötrü bu düsturun şu və yaxud bu şəkl ilə təfsiri dürlü-dürlü nəticələr verə bilər. Olur ki, bu düstur bizi behiştlik, olur ki, bərzəxlik, olur ki, cəhənnimlik etsin!

Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin təbiri-digərlə dəva vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarəyə, behiştlik dərəcədə idarəyə istehqaq qazanmış olduğumuzu isbat edək.

Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər həqqində tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olursa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər az-çox safiyyətini saxlar. Onların saflıqlarının məhfuz qalması isə bizim kibi xırda millətləri qurtarır, dirilik yarlığını əllərimizə tapşırır.

Hər halda bütün dünyanın nəzəri bu gün Parisə mütəvəccehdir. Paris dünya millətlərinə kəndilərinə müstövli olan istibdadı qurtarmaq dərsini vermiş böyük millətin mənəviyyatca qüvvətli böyük bir paytaxtıdır. Hüquqi-bəşər bəyannaməsini nəşr edib



mənşuri ilə bütün dünya hürriyyətpərvərlərinə bir növ "üsuli-din" dəftəri bəxş etmiş olan bu böyük şəhər, bu dəfə bütün dünya millətlərinə "hüquqi-miləl" qanunnaməsi yazmaqla məşğuldur. "Hüquqi-miləl" bəyannaməsi "hüquqi-bəşər" bəyannaməsi qədər müqəddəs və hər kəscə qaili-tətbiq böyük düsturlara malik olursa, o zaman Fransa, Fransanın gözəl paytaxtı olan Paris dünya millətlərinin mənəvi bir paytaxtını təşkil edəcək hürr vətəndaş kəndi mərkəz vilayətindən sonra Parisi tanıyacaqdır.

Xoşbəxt şəhər! Bir il bundan əqdəm əjdəhayi-hərbin zərbələri altında xarab olmaq təhdidində ikən bu gün bütün dünyayı şənləndirmək, bütün millətləri sevindirmək işinə mərkəz oluyorsan! Nə böyük səadət!

Fəqət sakın: möhtəşəm salonlarından birisində, ehtimal ki, "Versal"ın tarixi binasında iniqad edəcək bəşəriyyət qarşısındakı məsul ricallara təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını suyi-istemal etməsin, yalnız bəşəriyyəti və yalnız istiqbali-bəşəri düşünsünlər. Hökmlərini verirkən bütün demokratiyanın tələbini nəzərə alsınlar, məzarlarından qalxmış və diriligə təşnə olmuş millətləri təkrar məzarına gömməsinlər!!

Bilsinlər ki, o zaman vicdani-bəşəri rahət edəməz! Təkrar məzarlarına gömülmüş millətlər daima bir xortlaq kibi rifah ilə yaşamaq istəyənlərin hüzur və rahətini pozarlar.

**M.Ə.Rəsulzadə**

**"Azərbaycan", 21 qanuni-sani (yanvar) 1919, №93**

Məzahib – məzhəblər
İrtikab – pis işlər
Yövmülhesab – haqq-hesab günü
Məmurə – qəsəbə, abad məskən
Xirəd – ağıl, fikir, huş
Mümasil – oxşar, bərabər
Mütəkəllim – danışan
Əsvat – səslər
Təbil – qulaqda səsi əks etdirən pərdə

Müxəyyələ – xəyal, təsəvvür
Bəs – dirilmə, oyanma
Bəs bədəlmövt – öləndən sonra dirilmə
Mütəvəccöh – istiqamətlənən, yönələn
Müstövli – hər tərəfi əhatə edən
Mənşur – nəşr edilmiş, xartiya
Mütənəbbeh – oyaq, sayıq, ehtiyatlı
Təsmiyə – ad qoyma, adlandırma
Təvil – izah
Təfsir – şərhetmə



# Əmələ məsələsi

Əmələ məsələsi yenə – demək olur ki, – bütün şiddətilə Bakı əfkari-ümumiyyəsini işğal etməkdədir.

Əmələlərin halı həqiqətən də müşkül bir dərəcədədir. Aldıqları maaşları yedikləri çörəyə çatmıyor. İşsizlik əmələni arvad-uşağı ilə bərabər aclığa məhkum ediyor. Başqa bir tərəfdən də Bakının keçirmiş olduğu hallar, düçar olduğu fəlakətli günlər mədənləri, ticarəti, mədənçiləri də müşkül bir hala qoymuşdur.

Bu üzdən böyük bir böhran hasil olmuşdur.

Azərbaycan hökumətinin, parlamanın məqsədi əmələlərin halını yaxşılaşdırmaqdır. Bu xüsusda Azərbaycan məsai naziri əmələlərlə sahibkarlar arasında vaqe olan şurada əmələlərin tərəfini iltizam eləmişdir. Əmələlər əmin ola bilərlər ki, zamanın imkanı dərəcəsində hökumət həmişə əmələlərin həqli tələblərini müdafiə edəcək. Hökumət eyni zamanda əmələlərə ucuz ərzaq yetirmək üçün tədbirlər görmək fikrini dəxi bilməkdədir.

Məlum işdir ki, əmələlərə artırılacaq məvacib bu günün ehtiyacı olan bahalığı rəf etmək üçün olmalıdır. Bunun üçün də nəzarət subaylara 120, evlilərə 360 manat bahalıq xərci almağı tövsiyə ediyor.

Əmələlər istərlərsə ki, bu təqsimat başqa cür olsun, sayarlarsa ki, subay-evlilik fərqi qoyulmasın hökumət bunu da nəzərə alar.

Həpimiz bilməliyiz ki, bu kibi zamanlarda, məmləkətin çətin və müşkül dəmlərində hər kəs vətən və millət naminə bir az fədakarlıq etməlidir.

Hökumət də əmələlərin həqli tələbləri tərəfində olduqdan sonra məsələnin kolaylıqla həll edilməsini gözləməlidir. Bu gün əmələlər konfransa gəlməli, deməlidir görək vaqe olan təklifə nə cür baxıyorlar. Yalnız bu baxışlarını söylərkən düşüncəli olmalı, tədbirlə hərəkət etməli, həqiqi mənfəət ilə yalançı mənfəəti sezməlidir.

Məsai naziri diyor ki, yalnız məvacibin artması ilə məişət ucuzlandırılmaz. Doğrudur. İstəməlidir ki, məişətin ucuzlandırılması üçün hökumət ciddi tədbirlər görsün.

Əmələ vətəndaşlar, bilməliyiz məmləkətin düçar olduğu bu halından, bu yoxsulluq və aclıq bəlasından öz siyasi faidələri üçün mənfəət aparmaq istəyən partiyalar, agentilər vardır. Əmələnin həqiqi ehtiyacını rəf etmək istəyən agenti ilə siyasət çevirən, politika qayıranları ayırd etməlidir.

Azərbaycanın bu qədər müşkülat içində olduğu böylə bir zamanda həll olunacaq məsələ müşkülatsız həll oluna bilərsə, onu öyləcə həll etməlidir. Zabastovka bir tədbirdir ki, əmələlər son dəqiqədə müraciət etməlidirlər. Bizim "itirəcəgimiz artıq heç bir şey qalmadı" diyorlar. Böylə deyənlər doğru söyləmiyorlar. Biz heç bir hesab və mülahizələri nəzərə almadan gözümüzü yumub hərəkət edərsək, əziz tutduğumuz istiqlalımıza, yeni bərkişməkdə olan hökumətimizə zərbələr vura biləriz.

Bunun üçün əmələ vətəndaşlar, sərvəqt olalım, biləlim ki, hökumət əmələ mənafeinə zidd bir hökumət degildir. Həqli və mötədil tələblərinizin qəbul edilməsi üçün Azərbaycan parlamanı da, hökuməti də var qüvvətlərini sərf edərlər.

Bu gün əmələ konfransı toplanacaq, bu məsələyi həll edəcək. Gəliniz, nöqteyi-nəzərinizi söyləyiniz. Göstəriniz ki, siz maddi ehtiyacınızı müdafiə edərkən, sizin bu ehtiyacınızdan istifadə edərək "politikaçı"lara macərapərəstlik imkanı verməzsiniz.

**M.Ə.**

**"Azərbaycan", 24 qanuni-sani (yanvar) 1919, №94**

Məsai – çalışma



# Tətil etməlimidir?

Keçən gün fəhlə konfransında əmələlərin maaşı məsələsi baxılırdı. Sosial-demokrat nümayəndələrindən və sahibkarlarla danışıq aparan komisyon əzasından Roxlin təklif elədi ki, tətil olmasın, əmələlər subay və evli fərqi qoymayıb hamıya 360 manat artırmağa razı olsunlar.

Əmələlər çoxluqla buna razı olmadılar. Dedilər ki, gərək biz öz istədiklərimiz üstündə bərk duraq və komisyona tapşırdılar ki, təkrar sahibkarlarla görüşsün, onların axırıncı cavablarını öyrənsin, tainki yekşənbə günü təzədən qurulacaq konfransda fəhlələr təkrar bu məsələyə baxsınlar və tələblər qəbul edilmədigi təqdirdə tətil başlansın.

Əmələ vətəndaşlar, imdi nəzərdə ən böyük bir məsələ vardır.

Tətil etməlimidir?

360 manat artıq məvacibi qəbul etməkmi, yoxsa tətil eləməkmi? Hansı yaxşıdır.

Bir raboçinin keçən dəfə konfransda hesab elədiginə görə əmələlərin azı 26, çoxu 50 manat istəməkdən ibarət olan tələbi ilə ayda 360 manat təklifinin arasında böyük fərq yoxdur.

Arada böyük fərq görülürsə böyük məvacib alan əmələlərin məvaciblərində görülüyor. Yoxsa qara əmələ və kiçik məvacibli əmələlərin bu müamilədən zərəri yoxdur.

Üç yüz altmış manat çörək bahalığını ödəmək üçündür. Madam ki, öylədir, o halda bütün əmələlərin ehtiyacı bir dərəcədədir, demək olar.

Hər halda vəqt o vəqt degildir ki, tətil ilə onsuz da müşkül vəziyyət bir az da çətinləşsin. Tətil olursa yollar bağlanır, məişət bir az da müşkül olur. Bundan da Azərbaycanın bu anda rahət və sükutinə, işləməgə, çalışmağa möhtac olan halı müşkülatə uğrar. Düşmənlərimizə hər fitnə açmaq imkanı verər. Nəticə nə qədər çox məvacib ala bilsək belə yenə də dükançıların, möhtəkirlərin cibinə girər. Halbuki hökumət qüvvət, nüfuz və etibar verməklə ona kömək eləməlidir ki, ərzağın ucuzlaşması üçün tədbirlər görsün, möhtəkirlər, bahaçılarla mübarizə eləsin.

Bunun üçün daha faidəlidir ki, ayda 360 manat artırmaq təklifinə razı olub tətil edilməsin.

Bunu da bilməlidir ki, iş sahibləri mədənlərin bugünki hali ilə, yolların bağlı olduğundan neftin tökülüb qalması üzündən böyük faidələr də görmiyorlar.

Əmələlərə əql və tədbirlərlə iş görmək, hissiyyatə tutulmaq lazımdır.

Bugünki halda tətil etmək əmələlərə qətiyyən faidə verməz!

İşi tətilə qədər götürməməli, bu yekşənbə konfransa gəlib məsələnin sülh ilə hallinə çalışmalıdır.

**M.Ə.**

**"Azərbaycan", 24 qanuni-sani (yanvar) 1919, №96**



## Vicdan sızlıyor

Qafqasiya vilayətləri kəndi müqəddəratlarını həll etməgə qalxışdıqda Axısxa kəndi başına müstəqil bir xətti-hərəkət tutmuşdu. Gürcü sosial-demokratlarının yerli türklərin milli ehtiyacları ilə, yerli arzuları əleyhində vaqe olan qabaca hərəkətləri Axısxa ilə bərabər Kars, Ərdahan və Batum həvalisi müsəlmanlarında Qafqasiya daxilində dördüncü bir kanton və yaxud federasyon fikrini doğurmuşdu.

Gürcü millətpərəstləri bu fikir ilə mübarizə ediyordular. Mübarizələrində vəsilələrin növünə və məşruluğuna çox da əhəmiyyət vermiyordular. Bu əməl isə əksüləməl mucib olub Zaqafqasiya Cənub-Qərbi müsəlmanları arasında behəqq zühur edən bu fikri-siyasiyi canlandırıyordu.

Brest-Litovsk müahidəsi nəticəsində türklər Batum, Kars və Ərdahanı tutdular.

Bunun üzərinə Axısxa tək qaldı. O zaman kəndi müqəddəratını digər üç vilayətlə birlikdə həll etməyi halına müvafiq görən və gürcü hökumətinə bir növ isinəmiyən Axısxa dəxi digər üç uyezdlə birlikdə Türkiyəyə meyl etdi.

Bu meyl üstündə vuruşdu. Əlində silah olaraq mübarizə etdi. Batumda əqd olunan müahidə mövcibincə Gürcüstandan ayrıldı. Fəqət axırki hadisələrə görə türklər oralarını tərk edib getdilər. Gürcülər isə Axısxayı tutdular.

Axısxanın bu hərəkətini idarə edən, bu hərəkətə ruh verən, onu məfkurəvi bir şəklə qoyan məşhur Ömər Faiq əfəndi Nemanzadə idi.

Ömər Faiq əfəndiyi kim bilmiyor. O həssas, o atəşli mühərriri kim tanımıyor. Karsda dağılan xanimanların, Ərdahanda həlk olunan namusların, Batumda kəsilən qurbanların o yanıqlı mərsiyənəvisini, "bir parça atmək" – deyə qəlbləri yakan o həmiyyət məşəlini hanki azərbaycanlı unuda bilər.

Vəqt vardı; Faiq əfəndi Cəlil Məhəmmədquluzadə ilə bərabər nəşr elədigi "Molla Nəsrəddin" məcmuəsi vasitəsilə cəhalət pərdəsi ilə örtülü olan qara qəlbləri yakıcı qələmi ilə yakıyordu.

O binəzir bir cəsarətlə müqəddəs zənn olunan hər namüqəddəsə var qüvvəsilə çarpıyor, bütün vicdanı ilə hər növ vicdansızlıqlara qarşı protesto ediyordu.

O zaman Tiflis, imdiki Tiflis degildi. Nikolay istibdadının zamanları idi. Faiq əfəndi Tiflisin bugünki sahibləri ilə birlikdə rus istibdadına qarşı pəncələşiyor, "Metex" həbsinə oturduluyordu.

İstibdad idi.

Fəqət Faiq əfəndi yenə Tiflisdə, yenə həbsdədir. Fəqət bu, yalnız həbs degildir. Faiq əfəndi təhqir olunuyor. Faiq əfəndi canilərlə bərabər oturdulub oğrular, qaçqınlar tərəfindən döğdürülüyor.

Möhtərəm oxuyucu, heyrət ediyorsun.

Əvət, bən də səninlə bərabər heyrətdəyəm.

Bir az əvvəl, Axısxa gürcülərə təslim olunduğu əsnada Faiq əfəndinin Axısxa hərəkatinin başçısı olmaq həsəbilə tutulub Tiflisə gətirildigini eşitdik. Bəzi təşəbbüslər edildi. Nəticədə Faiq əfəndiyi həbsdən xaric etdilər. Fəqət mötərmai təhti-nəzərdə bulundurdular.

Bu aralıq, gürcülər Axısxa ilə iktifa etməmiş, Ərdahana doğru səfər eləmək istəmişlərdir. Yüz mində əhaliyi-islamiyyə ilə gürcü əskərləri arasında toqquşma olmuş. Bunun üzərinə Faiq əfəndiyi təkrar tutmuşlar, həbsxanaya soxmuşlar. Fəqət mücrimin-siyasiyyə şöbəsinə degil, canilər koğuşuna salmışlardır. Canilərə anlatılmış olmalıdır ki, kəndisini "xaini-vətən" – deyə fəna surətdə döymüşlər, ölüm halına gəldikdən sonra kəndisindən əl çəkmişlərdir.

Əcəba, kəndisinin hürriyyətpərvərligini hər münasibət gəldikcə bar-bar bağıran Gürcüstan hökuməti böylə sənaətə nə cür yol vermiş?...

Adil bir adam, bir cani, bir qatil, bir ədna həqqində rəva görülməsi ən qatı müstəbid məmləkətlərdə belə caiz olmayan bu cəzanı bütün Qafqasiya türkləri arasında böyük bir mühərrir, xatiri sevilər bir cəmaət xadimi olan həmiyyətmənd bir zat həqqində nasıl olmuş da Jordaniya hökuməti rəva görmüşdür?!..



Gürcüstan səltəsini tanımamaq, gürcü siyasiləri kibi degil, başqa dürlü düşünmək nə böyük bir cinayətdir ki, böylələrilə qüruni-vüstaya yakışır cəzalarla rəftar olunuyor. Əcəba, siyasi qənaət və fikri üçün bir insan işgəncə edilərmi? Böylə bir işgəncə demokratik bir cümhuriyyətə yakışarmı?

Gürcüstan hökuməti, bilmək istəməsə də Gürcüstan cəmaəti, Gürcüstan mətbuatına mənsub olanlar, Gürcüstan cəmaət xadimləri bilsinlər ki, Ömər Faiq əfəndinin işgəncə edildigi, bilafərq məslək bütün Azərbaycan türklərinin qəlblərini cərihədar eləmişdir. Azərbaycan türk demokratiyasının vicdanı sızlıyor.

Bu sızılar bu qədər möhtac olduğumuz beynəlmiləl ülfətlərə suyi-təsir edər. Bilxassə gürcü-türk yaxınlığına böyük səktələr, böyük zərbələr vurar.

Faiq əfəndinin canilərlə bir otaqda məhbus qalması, Faiqin işgəncə edilməsi, həm də gürcülər əlində işgəncə edilməsi nə qədər vicdan əzici bir xəbər. Əcəba, bütün bunlar doğrumudur?!..

Məlumati-müvafiqə məəttəssüf bunun doğru olduğunu bildirməkdədir.

Bu xəbər bütün Azərbaycan məhafilində bir protesto tufanı qoparmaya bilməz!

Azərbaycan, yalnız Azərbaycan degil, türk həyati-ədəbiyyə və ictimaiyyəsi ilə aşina olan hər kəs, bu mənfur xəbəri oxuduqda istəkli qələm arkadaşımıza qarşı vaqe olan bu təvəhhinə qarşı lənət şərarəsi yağdırmaya bilməz!..

Faiq əfəndi cani olamaz, siyasi fikrindən ötrü bir şəxsi cəzalandırmaq bilməm ki, Gürcüstan cümhuriyyətinin şanına karmı?!..

Qoy bu sualın cavabını Gürcüstan siyasi məhfilləri versinlər.

Azərbaycan məhafilinin bu məsələ üzərindəki təsirini xülasə edərsək, yalnız şunu söyləyə biləriz:

Vicdan sızlıyor!..

M.Ə.

"Azərbaycan", 27 qanuni-sani (yanvar) 1919, №98

Binəzir – misilsiz
Məşru – qanuni
Hətk – şərəfsizlik, yırtma, yarma
Mücrim – günahkar, təqsirli
Ədna – yarıq, həqir
Cərihədar – yaralı
Səktə – durğunluq, zərər, xələl
Şərar – pislik, yamanlıq
Təvəhhin – vahiməyə düşmə, qorxu
Mötərma – məhbus
Qüruni-vüsta – orta əsrlər



## Siyasi vəziyyətimiz

Getdikcə ingilislərin Qafqasiya cümhuriyyətləri haqqındakı siyasətləri aşkar oluyor.

General Tomsonun ikinci bəyannaməsini üçüncüsü Azərbaycan hökumətinin Azərbaycan ərazisi üzərində yeganə məşru bir hökumət olduğu haqqındakı bəyannanməsi təqib elədi.

Bu kərə də müttəfiqlərin Şərq orduları komandanı əlahəzrət İngiltərə kralı hökumətinin nümayəndəsi general Miln rəsmi surətdə Azərbaycan hökumətini tanıdığını bildirmişdir.

General Milnin hökumət rəisi Fətəli Xan Xoyski həzrətlərinə vaqe olan bəyanatında Azərbaycan hökumətini "hökuməti-məhəlliyyə" təbiri ilə degil, "ələlətlaq" tələffüz olunmuşdur.

General, Fətəli Xan Xoyski həzrətlərinə dedigini Tiflisdə dəxi Gürcüstan rəisi-hökuməti Jordaniya həzrətlərinə söyləmişdir.

Demək ki, Qafqasiyadakı cümhuriyyətlərin sülhi-ümumi konfransınca qəbuluna İngiltərə hökuməti səy edəcəkdir.

Səlahiyyətdar ingilis generallarının müttəfiqlər naminə hərəkət edən sahib kəlməsinə siyasət ricalının Qafqasiya məsələsi haqqında söyləmiş olduqları bu sərih bəyanları heç şübhəsiz ki, Qafqasiya məsaili haqqında söyləmiş olduqları bir sərih bəyanları heç şübhəsiz ki, Qafqasiya millətlərinə kəndi başlarına təyini-müqəddərat etmələrini istəməyən qızğın qafalı siyasət kərdənlərə soyuq su vəzifəsini görmüşdür.

Fətəli Xan həzrətləri general Miln ilə vaqe olan müsahibəsini Məclisi-Məbusana təbliğ edərkən məbusan bunu böyük bir məmnuniyyətlə tələqqi elədi. Divani-riyasətə tapşırdı ki, general təkrar şəhərimizdədirkən fürsətdən istifadə edərək məbusan naminə kəndisinə təşəkkür və məmnuniyyət izhar eləsin.

Məbusanın bu təşəkkürü Azərbaycanın təşəkkürüdür. Bu təşəkkürə istiqlalını göz bəbəyi kibi saxlamaq əzmində olan millət də iştirak eylər.

Müttəfiq dövlət nümayəndələrinin bu surətlə rəftarı şübhəsiz ki, camaatımızda, camaat xadimlərimizə ruh verəcək, əzm və cəsarətlərinin birə on artmasına səbəb olacaqdır.

İngilis qüvvəsinin tərzi-hərəkətindəki bu sərahət, paytaxtımızda bulunub da başqa havalar tərənnüm edən bir para rusiyaçı partiyalarla, mətbuatın dəxi xətti-hərəkətlərini dəgişməyə səbəb oldu.

Sosial-demokrat və sosial-revolyusioner firqələrinə mənsub olan qəzetələr təğyiri-lisan edərək Azərbaycan istiqlalına təhəmmüllərindən, Azərbaycan parlamanına girmək istədiklərindən bəhs etməgə başladılar. Hətta "S-R"lər parlamana girmək arzusunda olduqlarını divani-rəyasətə yazdıqları bir müraciətnamə ilə dəxi bildirdilər.

Sosial-demokratların "İskra" adlı qəzetəsi millətlərin kəndi müqəddəratlarını kəndiləri təyin etməgə həqli olduqları əsasına "hər zaman tərəfdar ola gəldigindən" bəhs elədi. Əsas etibarilə Azərbaycanın Rusiya ilə birlikdə qalmasını Azərbaycan demokratiyasının mənafeinə daha faidəli görüyorsa da hal-hazırda Azərbaycan hökumətinin (olmuş bir iş) bir əmri-vaqe olduğunu da nəzərə aldığını söylədi. Azərbaycan Rusiya ilə meyli və arzusu ilə birləşsin, bu onun faidəsidir – dedi. Yoxsa Azərbaycan buna icbar edilməsin, icbar edilərsə bu böyük bir həqsizlik olur! Bu həqsizliyə isə hər kəsdən ziyadə sosial-demokratlar qarşı qoyarlar – deyə bəyanatda bulundu.

"İskra" daha iləri gediyor. Diyor ki, Azərbaycan istiqlalı bu gün onlardan ötrü bir şüardır. Çünki müstəqil Azərbaycanın yaxın bir istiqbalda öz meyli və arzu-rizası ilə təkrar Rusiya demokratiyası ilə bir muxtariyyət və ya federasyon əsası üzərinə birləşməsi ehtimal daxilindədir. Halbuki müstəqil degil, xarici bir Avropa dövlətinə mərbut olursa, o zaman Azərbaycan əbədiyyən Rusiyadan ayrı qalacaqdır.

Deməli ki, bu gündən etibarən Azərbaycan istiqlalının müdafeləri zümrəsinə bir də sosialist partiləri daxil oluyorlar.



Bismillah, daxil olsunlar. Həqiqi sosialist olsalar bundan başqa rəftar edəməzlər. Bu rəftarə onlar imdi degil, çoxdan süluk etməlidilər.

– Heçdənsə gec!..

**M.Ə.**

**"Azərbaycan", 28 qanuni-sani (yanvar) 1919, №99**

Ələletlaq – bütünlüklə, mütləq, tam
Süluk – hərəkət tərzi, rəftar

# Tədbir gərəkdir

Əql və tədbirin hökmü üstün gəldi. Əmələlər hissiyyata degil, əqliyyata görə rəftar etdilər. Hökumət ilə mədənçilərin mümkün edə bildikləri güzəştə razı olub tətil etmədilər.

Mədənçiləri mədənin düçar olduğu müşkülatına rəğmən bu güzəştlərə getməgə bir tərəfdən əmələlərin tələbi, bir tərəfdən də Azərbaycan hökumətinin mötədilanə və aqilanə təsiri səbəb oldu.

Hökumət bu işdə göstərdi ki, əmələlərin mənafei, hüquqi onun üçün yabançı bir şey degildir. "Kollektivnı doqovor"ı mədənçilər qəbul etmiyordular. Hökumət bunu müvəqqətən olsa da verdigi əmrlə icra etdirdi. Evli, subay məsələsinin aradan qaldırılıb da bütün əmələlərə 360 manat məvacibin artırılması üçün hökumət nümayəndə və parlaman vəkilləri səy etdilər, təsirləri oldu.

Fəqət əmələlərin almış olduqları 360 manat əlavə ilə ehtiyacları rəf olunacağını düşünmək doğru olamaz.

Daha əmələ konfransında əmələlər özləri diyorlardı ki, "bu əlavə bizə degil, dükançılaradır".

Doğrudur. Məvacib artınca dükançılar da mətahın, bilxassə ərzağın qiymətini artırıyorlar. Həyat yenə də bahalaşır, su yenə də köprüdən o tayda qalır.

Buna qarşı tədbir eləməlidir. Bu tədbiri hökumət görməlidir. Hökumət bütün əmtəəyi olmasa da, heç olmasa ərzaq üçün bir tədbir görməli, əmələ rayonlarında ucuz qiymətlə çörək satdırmağa səy eləməlidir.

Bu xüsusda hökumət ticarət və sənaye nəzarətindəki üsulsuz hərəkətlərə bir nəhayət verərək başqa məmləkətlərlə mal dəgişdirməsi işini yoluna qoya bilməklə bəlkə də Ukraynadan "cövhər" müqabilində buğda gətirə bilər.

Bu yol ilə şəkər gətirmək dəxi mümkündür.

Eyni zamanda hökumət səy etməlidir ki, İngiltərədən bizə yeni mallar gəlsin, bazarda mətah çoxlaşsın. Mətah çoxlaşırsa, o zaman qiymətlər təbiətilə aşağı düşər.



Hökumət bu kibi tədbirlərə qətiyyən təvəssül etməlidir. Yoxsa bu gün növbədən götürülmüş tətil məsələsi təkrar bütün təhdidi ilə meydana çıxar. O zaman əql və məsləhətin göstərdigi yollar degil, hərəkəti-hissiyyat və ehtiyacın çox da məntiq tanımayan rəhbərligi hakim olar.

Azərbaycan sənaət və ticarət həyatını hər növ intizar olunmayan hadisələrə qarşı mühafizə etmək hökumətin borcudur.

Bu borcunu hökumət ərzağı bollaşdırmaq yolunda tutacağı hərəkət və görəcəgi tədbirlərlə ifa edə bilər.

Oyanıq olmalı, tədbir görməlidir.

**M.Ə.**

**"Azərbaycan", 29 qanuni-sani (yanvar) 1919, №100**

## Ciddiyyət gərək!

Hər bir hökumət, bilxassə yeni bina tutmaq üzrə olan hökumətlər üçün hər şeydən əvvəl həyat və fəaliyyət əsəri göstərəcək bir meydan vardır.

Asayiş və əmniyyət meydanı.

Hüquqi-milliyyə, ixtiyariyyati-ammə bunlar mənəviyyatdır. Bu mənəviyyat hər yanda olduğu kibi, bizdə də camaatdan yalnız bir qisminin, idraklı bir qisminin ruhunu, zehnini işğal edə bilər. Əhalidən fədakar bir qismi keçirdigimiz müşkülatın bir haldan digər hala keçmək zamanına aid müvəqqəti bir hal olduğunu dərk ilə, o qədər narazılıq göstərmədən hər növ məşəqqətlərə təhəmmül edə bilər. Fəqət xəlqin əksəriyyəti təbiidir ki, bu halda olamaz.

Xəlq hər şeydən əvvəl hökuməti onun hərəkətləri, fəaliyyətləri ilə tanıya bilər. Bu hərəkətlər arasında asayiş ilə əmniyyət birinci dərəcədə mühümdür.

Xəlqi əmniyyət və asayiş etibarilə razı salan bir hökumət heç şübhəsiz ki, yarı-yarıya bəqasını təmin eləmiş, deməkdir.

Hökumətimiz Məclisi-Məbusan kürsüsündən irad elədigi bəyannaməsində bu nöqtəyi iyi dərk elədigini izhar eləmişdi. Fəqət burada bir qeyd etmək məvburiyyətindəyiz ki, bu xüsusda hökumət lüzumi dərəcədə əsəri-fəaliyyət göstərməmişdir.

Dəmir yollarında hadis olan vaqeələrin təkrar vücudə gəlməməsi üçün hökumət tədbirlər görüyor. Biz bu tədbirlərin bir an əvvəl səmərədar olmasını istəriz. Fəqət bununla bərabər şəhərimizin dəxi əmniyyət və asayışınə baxmalıdır. Biliyoruz ki, şəhərimizdə bir çox fasid ünsürlər var. Bu ünsürlər bizə xaricdən gətirilmiş, istəmədigimiz halda bizimlə həmşəhrilik həqqini qazanmışlardır. Hökumət başqa bir vəziyyətdə, başqa bir imkanda olsaydı, onsuz da bikarı çox olan bir şəhri yeni-yeni bikar dəstələri ilə doldurmazdı.

Fəqət bu kibi səbəblər hökuməti təbiidir ki, daha ciddi tədbirlər görməgə vadar etməlidir.

Şəhərdə oğurluq çoxalmış, dün heyrətəngiz bir cinayətə şahid olduq. Canilik yavaş-yavaş artmağa başladı. Polis vəzifəsi ilə mütənasib bir dərəcədə degildir.



Demək istiyoruz ki, polis idarəsində bir növ zəif idarə görülməkdədir.

Bu zəifin bir səbəbi şəhərdə olan bir çox nadinc ünsürlərin vücudi isə də, digər cəhətdən polis nəfəratının, milislərin kimlərdən ibarət olduğuna dəxi diqqət və etina edilməlidir.

Polisin başında Azərbaycan mənafei ilə mənən əlaqədar adamlar olmalı, əxlaqı düzgün məmurlar bulundurulmalıdır. Bununla bərabər hökumət məqamati-aliyəsi əli altındakı məmurların üstündə daimi gözətçi olduğunu asarilə göstərməlidir. Xəlqin əmniyyət və asayişi kəndilərinə tapşırılmış olan adamlar hər saət və hər dəqiqədə öhdələrinə götürdükləri məsuliyyəti xatırlamalıdırlar. Onları sorğu və suala çəkəcək qüvvəti daima başları üstündə görməlidirlər.

Bununla bərabər bir şeyə də hökumətin nəzər-diqqətini cəlb etmək istiyoruz. Polis zabitəsinin aldığı məvacib kəndisindən tələb olunan vəzifə ilə mütənasib degildir. Adi bir əmələnin 1000 manatdan ziyadə məvacib aldığı bir şəhərdə 700 manat məvacib alan bir məhəllə pristavından vəzifəşünaslıq tələb etmək pək də məntiqə gəlir bir şey degildir.

Hökumət hər şeydə qənaət edirsə-etsin, fəqət məmləkətin əmniyyət və asayişinə aid xüsuslarda xəsislik göstərməsin. Çünki bu xissət, qüvvəti-layəmutundan qənaət edən adamın halıdır ki, vəqtilə ət və əkməgə əsirgədigini sonra təbib ilə dərmana vermək məcburiyyətində qalar.

Biz daxiliyyə nəzarətindən ciddi tədbirlər, kəskin hərəkətlər, tərəddüdsüz əzmlər istəriz. Bunu bütün məmləkət, bütün əhali istiyor.

Bu xüsusda adam lazımsa adam, para lazımsa para vermək millətin borcudur. Bu borcunu millət əsirgəməz! Əzm və fəaliyyət istəriz. Himmətimiz artsın, ciddiyyətimiz çoxalsın!...

**M. Ə.**

**"Azərbaycan", 31 qanuni-sani (yanvar) 1919, №102**

Xissət – alçaqlıq, ədnalıq
Layəmut – ölməz, əbədi

# İki konfrans

Mənən olmasa da maddətən bu günün hakimi olduqları kimsə tərəfindən inkar olunmayan qalib dövlətlərin mərifətilə Parisdə "Versal"da dövlətlərin nümayəndələrindən ibarət bir konfrans açılmaqdadır.

Bu konfransla bərabər maddətən olmasa da, mənən bu günün hakim əfkarı olan demokratiya naminə ümumdünya sosialistləri tərəfindən İsveçrədə Bern şəhərində digər bir konfrans, sosialistlər konfransı toplanmaqdadır.

Dünyanın cahangirləri qarşı-qarşıya gəldilər. Dünya alt-üst oldu, qiyamət qopdu!

Cahangirlərdən bir zümrəsi qalib, digəri məğlub oldu. Toplar dayandı. Hesab günü gəldi.

Divani-mühasibat quruldu.

Bu divana yalnız qaliblərlə məğlublar degil, bütün dünya gəliyor. Bütün millətlər ərzi-hesab ediyorlar.

Təbiətdə itlaf yoxdur. Hər şey nisbidir.

Bu divana ərz olunan hesablar bir ədaləti-səhnə üzərinə görüləcəkmidir? Görülə biləcəkmidir?

Bu bir məsələdir.

Biz Parisdə toplanacaq sülh konfransından bahis "Hesab günü" ünvanilə yazdığımız məqalədə bu divandan çıxacaq hökmlərin kimidən ötrü "cənnət", kimidən ötrü "cəhənnəm", kimidən ötrü "bərzəx" qərarını verəcəgini təsəvvür etmişdik.

Fəqət bunu təsəvvür edərkən oxucular bilərlər ki, "Versal" divanının adili-mütləq olacağına çox da iman etməmişdik.

Müsəlman sosialistlərinin naşiri-əfkarı bulunan "Al bayraq"ın isnad elədigi kibi bu konfransı biz "günah"ları "səvab"ları adilanə ölçə bilər qiyamət "Allah"ı deyə tələqqi etmədik.

Böylə tələqqi etmiş olsaydıq o məqalədə bu sətirləri yazmazdıq:

"Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin, təbiri-digərlə, dəva vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarə edək. Behiştlik dərəcədə idarəyə istehqaq qazanmış olduğumuzu isbat edək.

Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər həqqində tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olursa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər azçox safiyyətini saxlar. Onların saflıqlarının məhfuz qalması isə bizim kibi xırda millətləri qurtarıyor. Dirilik yarlığı əllərimizə irişir".

Müsavat başçılığından əvvəl bir mühərrir olan Rəsulzadənin "yanıldığını" isbat edən "sosialist" qəzetə görünüyor ki, münaqişə həvəsilə pürşur kəsilərək tənqid etdigi məqaləyi diqqətlə oxumağa, aradan bir çox zaman keçmişsə də vəqt bulamamışdır.

"Al bayraq" Berndəki sosialist konfransının toplanmaq üzrə bulunduğu xəbəri çıxdıqdan sonra beynəlmiləl demokratiyanın Azərbaycan müqəddəratına təsirbəxş olacağından bəhs ediyorsa, biz daha böylə bir xəbər yoxkən Avropa və Amerika demokratiyasının Versal konfransı üzərinə icrai-təsir etməsini arzu eləmişdik. Və "bu nüfuz vaqe olursa, xırda millətlər qurtarır" demişdik. Bu məqsədlə dəxi "Paris konfransını təbrik" degil, Parisə qibtə edərkən kəndisinə xitab etmiş, demişdik ki:

"Sakın: möhtərəm salonlarından birisində ehtimal ki, "Versal"ın tarixi binasında, iniqad edəcək bəşəriyyət qarşısındakı məsul ricala təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını suyi-istemal etməsin. Yalnız bəşəriyyəti və yalnız istiqbalibəşəri düşünsünlər, hökmlərini verərkən bütün demokratiyanın tələbini nəzərə alsınlar: məzarlarından qalxmış və diriligə təşnə olmuş millətləri təkrar məzarlarına gömməsinlər!!".

Arzu etdigimiz "demokratiya nüfuzu" deyək ki, təşəkkül etmək istiyor. Beynəlmiləl sosialist konfransı toplanıyor.

Berndən sədası gələn bu konqrenin Versal divanı üzərinə az-çox nüfuzu olacağını inkar edənlərdən degiliz, əvvəla, mil-

lətimizin kəndi ciddi-cəhdindən və saniyən, dəxi bu "nüfuz və təsir"dən istifadə edəcəgini zatən "Hesab günü"ndə söyləmişdik.

Əvvəlcə dəxi yazmışdıq:

"Bu hesab gününün nəticəsində dəxi bütün dünya millətlərinin "behiştlik" olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır".

Diqqət olunursa daima hesab divanında degil, hesab günündən bəhs olunuyor. Bu günün divan mühasibatı biri "Versal", digəri "Bern"də olmaq üzrə iki məclisli ola bilər.

Birincisi adili-mütləq olamazsa, ikinci məclis hakimi-mütləq ola biləcəkmidir?.. Zənn etməm. Bir kərə araya toplaşacaq sosialistlər Versaldakı diplomatlar cinsindən olmasalar da, onlarla birlikdə hərbi-ümumiyə iştirak eləmiş partiyalara mənsub adamlardır. Binaənileyh onların kamilən bitərəf və "Al bayraq"ın istədigi adili-mütləq adamlar olduğunu düşünmək üçün dəxi fəzlə nikbin olmaq gərək.

Bernin Versala müqabiləsini Rusiya inqilabındakı əmələ şurası ilə müvəqqəti hökumətə qiyas edənlər vardır.

Rusiya mühitində Əmələ Şurasını icrai-nüfuz dərəcəsini keçib hökmdarlıq mərhələsinə çıxdı. Maddi və mənəvi bütün qüvvəti əlinə aldı.

Fəqət nəticədə Milyukovun almaq istədigi İstanbul üzərində "israr" etmədisə də kadetlərin "Moskvadan ziyadə mühafizə edəcəkləri" Bakıdan dəxi kolaylıqla əl çəkmədi. Qafqasiya imperatorların gövhər tacı idi: demokratların tacı yox. Fəqət mədələri var, iştahları kəsiyordu. Qafqasiyayı bir gövhər kibi degilsə də, bir malikanə kibi saxlamaq istədilər.

Nə məlum ki, Berndəki sosialistlər Rusiyadakı insanlardan degil, başqa bir növ məliklərdən olacaqlar.

Məəmafihə bununla biz Bern konfransının Versal üzərindəki xırda millətlər nöqteyi-nəzərindən pək faidəli təsir icra edəcəgini inkar etmək istəmiyoruz. Yalnız istəriz ki, həqiqəti olduğu kibi görərək pək də xəyalatə qapılmayalım. Biləlim ki, bügünki



amil qüvvətlərin tənasübi son qərarın Versala aid olduğunu göstərməkdədir.

Məgər ki, yarınki gün başqa bir hökm, başqa bir hikmətlə zühur edə!...

**M.Ə.Rəsulzadə**

**"Azərbaycan", 2 şubat (fevral) 1919, №103**

İtlaf – tələf etmə, atma, boşama
Bərzəx – əzablı yer
Qiyas – müqayisə
Bahis – bəhs edən
Pürşur – çox coşqun, həyəcanlı

## Məclisi-Məbusan və müxaliflər

Azərbaycanın siyasi vəziyyəti nə qədər ki, müəyyən degildi, türklərdən olmayan bütün siyasi firqələr, bolşevik ruhlu menşevikdən tutub monarxist ruhlu kadetinə qədər Azərbaycan istiqlalı ilə Azərbaycan parlamanına qarşı barışmaz bir vəziyyət almışlardı.

Onlar bu vəziyyətləri ilə Azərbaycan türklərini bir növ mühasirəyə almış, təslimə məcbur etmək istəmişlərdi.

Zənn ediyorlardı ki, xaricdən gəlmə müttəfiqlər qüvvəti də onlara kömək olacaq, əqillərincə türklər tərəfindən qurulmuş olan Azərbaycan hökumətini yer dibində atacaqlardır.

Azərbaycan türkü ilə bərabər bu türkün ruhundan doğan idealları tərvic edən, onun yolu ilə gedən Azərbaycan xadimləri isə qəflətən üzərlərinə atılan qüvvətlərə qarşı mətanət göstərdilər, durdular. Azərbaycan fikrinin "İstanbuldan" degil, Bakıdan doğmuş olduğunu isbat etdilər.

Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsəbilə ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanın daxili müxaliflərini düşündürdü.

Türk olmayan müxaliflər düşündülər, daşındılar. Xətti-hərəkətlərini dəgişmək, nöqteyi-nəzərlərini əvəz etmək məcburiyyətində qaldılar.

Eserlər, əslən milliyyət əsasına əhəmiyyət verən idealist və individualist bir firqə olduqlarını xatırladılar. Azərbaycan parlamanı bir "əmri-vaqe"dir, olmuş bir işdir – dedilər.

Menşeviklər dəxi "qalu bəla"dan millətlərin kəndi müqəddəratlarını kəndiləri təyinə həqli olduqlarını qəbul edənlərdən olduqlarını etiraf etdilər.

Həmkarlar ittifaqı dəxi Azərbaycan parlamanına getmək həqqindəki qərarına təzədən baxmaq məcburiyyətində qaldı.

Erməni milli komitəsi dəxi daşı ətəgindən tökməgə başladı. Yalnız parlamana degil, hökumətə də girmək meylini izhar elədi.

Bir də yalnız bir rus komitəsi qaldı.



Rus komitəsi yalnız tüfəng təsirilə olmalıdır ki, o da əvvəlcə mövcud olan qərarını təzədən bir "götür-qoy" elədi. Anladı ki, "Rusiya millətlərinin son şəkli Rusiyanın iradəsilə bilaetilaf təyin edilmək üzrə kəndi başlarına idarə qurmaq həqləri vardır və bu həqlə parlaman da qura bilərlər və bu parlamana yalnız siyasi bir minbər qazanmaq üçün degil, vilayətə əmin və asayiş vermək işində şərakət etmək üçün dəxi getmək lazımdır".

Bunu anlamaqla bərabər rus komitəsi özünün parlamana girməsini yalnız bir mətləblə əlaqədar görüyor. Əvvəlcə bəzi mühüm məsələlər aşkar olmalıdır. Bu məsələlər aşkar olmayınca parlamana girmək, onlarca faidəsizdir. Çünki burada Rusiyanın mənafei-aliyəsinə mərbut olan nöqtələr var ki, onları örtülü olaraq keçmək bərabər işləməgi qeyri-mümkün edər.

Məsələ Azərbaycanın Rusiyaya əlaqəsini təyin etməkdədir.

Zatən yalnız rus komitəsindəki kadetlər degil, digər firqələrdə olan ruslar – rusiyaçılarla bizim aramızda və digər türk partiyalarının arasında olan ixtilafi-nəzər dəxi bu nöqtə üzərində idi.

Biz Azərbaycanı müstəqil bir dövlət tələqqi ediyoruz. Bu tələqqisini Azərbaycan demokratiyası əksəriyyəti-əzimə təşkil edən türk xəlqinin idarəyi-aliyəsi ilə bütün dünyaya elan eləmişdir.

Bu bir əmri-vaqedir.

Azərbaycan hökuməti, Azərbaycan parlamanı, Azərbaycan siyasi firqələrinin bəyannaməsi, Azərbaycan xəlqinin bu əsasları qəbul və tərvic eləməsi bu əmri-vaqenin xarici əlamətləridir.

Azərbaycan hökuməti bütün firqələrinin məmnəssilligi beynəlmiləl münasibətə girişmiş, fələn müttəfiqlər tərəfindən tanınmışdır. Ondan başqa bu topraq üstündə, bu əhali üzərində başqa nafiz və tanınmış bir hökumət yoxdur.

Bizimlə bərabər çalışmaq, türklərlə birlikdə "əmniyyət və asayişin təmini" və yaxud "fevral hürriyyətlərinin bəqası" üçün işləmək istəyən firqələr hər şeydən əvvəl bu cəhəti nəzər-diqqətə almalıdırlar: Azərbaycan bir əmri-vaqedir – bunu səmimi bir surətdə qəbul etməlidirlər.

Azərbaycanın Rusiya ilə ilərdəki əlaqəsinə gəlincə, bu əlaqəyi ilərdə azərbaycanlıların rusiyalılarla dostluqla, azadlıqla, tərəfinin rizası ilə həll olunacaq bir məsələ kibi görməlidirlər.

Parlamana gələcək müxalif, "Siz Rusiyadan ayrılmışsınız, bu ayrılışınızla faidəli bir iş görməmişsiniz, yaxşı olar ki, onunla birləşəsiniz" dersə onu dinləriz. Fəqət "Siz Rusiyanın bir parçasısınız, nə həqlə ondan ayrılmışsız" dersə, ona təhəmmül etməz, kürsüdən salarız.

Azərbaycan parlamanına, Azərbaycan istiqlalı bayrağını yüksək qaldırmış olan bu müəssisəyə hər kəs gələrsə, bu parlamanın fclən təsis etmiş, olmuş-bitmiş bir hökumətin Məclisi-Məbusanına gəlmiş və bununla o, Azərbaycan istiqlalını fikirdə degilsə də, işdə tanımış, deməkdir.

Rusiya ilə əlaqəyə gəlincə, bunu müxaliflər bilməlidirlər ki, müvafiqlər heç bir zaman fikirdə Rusiyanın düşməni olmayıb, Rusiya demokratiyası ilə ədavət bəsləməmişlərdir.

Azərbaycan parlamanının bütün firqələri kəndi bəyannamələrində bu fikri zikr eləmişlərdir. Müxaliflər nöqteyi-nəzərindən ən müdhiş bir milliyyətçi və iftiraqçı təsəvvür olunan "Müsavat" firqəsi belə kəndi bəyannaməsində fikrən təbii və mötədil bir halə gələcək Rusiya ilə əqdi-ittifaq etmək fikrinə yabançı olmadığını bildirmişdi.

Fəqət buna biz öz meylimiz, öz xahişimiz ilə gedəcəgiz. Bu məsələyi Rusiya Məclisi-Müəssisanı degil, Azərbaycan Məclisi-Müəssisanı həll edə bilər. Bu səlahiyyət başqalarının degil, bizimdir. Çünki milliyyət haqqi yalnız bu surətlə müdafiə oluna bilər.

Yoxsa bir "menşevik" çıxar da "biz sizə Rusiyadan ayrılmaq həqqini vermiyoruz" dersə və bu məqsədinə yetişmək üçün müsəlman sosialistləri ilə birlikdə bizə qarşı mübarizə edə biləcəginə güvənərsə, biz öylələrinə güləriz, zira öylə düşünən bir türk parlaman firqəsi təsəvvür edəməyiz!

Rusiyadan ayrılmaq, Rusiyaya qoşulmaq və yaxud başqa bir şəkil ilə kəndi müqəddəratını təyin eləmək haqqi Azərbaycan xəlqinin müqəddəs bir həqqidir. Bu həqqi ona təbiət bəxş eləmiş. Bu həqqi o nə kadetlərin ala gözlərinə, nə də sosialistlərin yağlı dillərinə fəda edəməz!

Müxaliflər bunu bilsinlər, qulaqlarına sırğa etsinlər və bu beləcə Azərbaycan istiqlalını əmri-vaqenin qəlləm həlqə beguşi olaraq parlamana buyursunlar.

Başqa məsələlərdə keyfləri istədigi müxalifəti etsin, tənqidatda bulunsun, təbliğatında olsunlar. O onların həqqi və vəzifələridir.

Biz heç bir zaman onların parlaman firqələrinin müvafiqləri cərgəsində oturacaqlarını zatən təsəvvür eləməmişdik.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 3 şubat (fevral) 1919, №104**

Qalu bəla – çoxdan, lap əvvəldən, ata-babadan
İftiraq – ayrılma, fəraq

## "İstiqlal"

İnsanların istiqlalına hürriyyəti-şəxsiyyə, millətlərin hürriyyəti-şəxsiyyəsinə istiqlal deyilir.

Hürriyyəti-şəxsiyyə nə qədər müqəddəs isə, şəxslərin məcmui olan millətlərin istiqlalı da o nisbətdə müqəddəsdir.

Demokratik firqə proqramlarının hamısında hürriyyəti-şəxsiyyə əsas olduğu kibi, millətlərin istiqlalı da əsldir.

Böyük Dünya müharibəsi Böyük Rusiya inqilabını doğurdu. Böyük Rusiya inqilabı isə millət hüququnu bütün genişligi ilə meydana atdı.

Müharibə bitmək üzrə ikən millətlərin azadlığı ilə "Cəmiyyəti-Əqvam" fikri günümüzün ən məşhur və ən məqbul şüarını təşkil elədi.

Böyük Fransa inqilabı hürriyyəti-şəxsiyyəyi başqa bir təbirlə, bəşərin hüququnu elan eləmişdi.

Dünya inqilabından başqa bir şey olmayan aləmşümul müharibə dəxi istiqlalı, başqa bir sözlə millətin hüququnu elan elədi.

Bu həqqi qazanmaq, bu hüquqdan hissəyab olmaq üçün Azərbaycan dəxi elani-istehqaq eləmişdir.

Azərbaycan istiqlalı!

İştə bir şüar ki, firqəmiz onun ilk ələmdarı olmaq şərəfilə iftixar eylər!

Ah Azərbaycan! Biz sənin həqqini tələb etmək degil, yalnız adını söyləmək üçün nə qədər müarizlərə rast gəldik, nə töhmətlərə məruz qaldıq!

Azərbaycan muxtariyyəti diyorduq, soldan-sağdan hər növ hücuma məruz qalıyorduq.

Biz Azərbaycanın topraqlarını qızdıran ataşi-müqəddəsi kökslərimizdə bəsləmək istiyorduq. Bizə Moskvada yanacaq "məşəli" nişan veriyorlardı. Biz aləmi-mədəniyyətə kəndi dilimizin, kəndi mədəniyyətimizin ruh və rəngi ilə pərvərdə edilmiş bir millət çıxarmaq istəyirdik: Bizə Ərəbistanı göstəriyorlardı.

Biz muxtariyyət diliyorduq, bizə xərabəzar vəd ediyorlardı.



Bizimlə onların arasında az zaman içində çox mübahisə, münaqişə və mübarizələr oldu. İki əvvəlincilər mülzəm, üçüncülər də məğlub oldular.

Vəqt vardı "Müsavat" azərbaycançılığı üçün xəlq düşməni, türkçiligi üçün nəuzübillah islam kafiri ədd olunuyordu.

Fəqət imdi onu başqalarından təfriq edən şüar bu degildir. Çünki Azərbaycanın istiqlalı yalnız Müsavatın degil, sosialistlərimizin də, islamçılarımızın da "göz bəbəgi" kibi saxlamağa əhd etdikləri ülvi bir məqsuddur. Bu məqsudi tərsim edən üç boyalı Azərbaycan bayrağını yüksək tutmaya artıq bütün azərbaycanlılar əhd etmişlərdir.

Azərbaycan fikri yalnız son günlərə qədər onu inkar edə gələn digər türk olmayan partiyalar tərəfindən də qəbul edilməkdədir.

Bir sosial-demokrat qəzetəsi Azərbaycan istiqlalını xarici nüfuz və hülulə qarşı azərbaycanlılardan daha ziyadə bir şiddətlə müdafiə edəcəgindən bəhs eləmişdi. Bu vəqtə qədər etina edilmək istənilməyən parlamana şimdi istidalarla girmək istiyorlar.

İngilislərin paytaxtımıza vürudi əndişələrlə tələqqi edilmişdi. Bu gün isə istiqlalımıza müəyyən və müzahir olacaqlarını rəsmi lisanlardan öyrəndik.

Əvvəlcə firqəmizə məxsus olan bir fikir, bu gün millətin şərik olduğu bir məqsəddir.

Bizim mənəvi zəfərimiz ruhani qələbəmizdir. Bu qələbəyə biz bilnisbə az bir zaman içərisində gəldik. Fəqət bu az zaman içərisində çox böhranlar keçirdik, zaman oldu ki, tamamilə məhrum oluyorduq. Vəqt oldu firqə tamamilə yalnız qaldı. Fəqət çox çəkmədi firqəyi yalnız buraxanlar nə qəbahət işlədiklərini anladılar.

Azərbaycan məfkurəsini firqə türk demokratiyasının idraklı qisminə istinad edərək irəlilətmişdi, bu düşmənlərimizin dedigi kibi xan, bəy və ağa fikri degil, türk demokratiyasının böyük idealı idi!

Bakı, Azərbaycan ataşgədəsinin ocağı olduğu kibi Azərbaycan fikrinin də mənbəyi idi.

Bolşeviklərlə daşnaqlar bu ocağı söndürmək, bu mənbəyi qurutmaq istədilər, mart hadisəsi meydana gəldi.

Fəqət Azərbaycanın atəşi kibi fikri də söndürüləməz idi.

Çünki:

Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri,

Məşəli-əfkari-əhrarənə sönməz xunilə!

İştə bu qanlarla söndürüləməyən və bu gün hər kəsi kəndisini tanımaya vadar edən, yolunda dönməz bir əzmlə cihad etdigimiz Azərbaycan istiqlalını müdafiə üçün "İstiqlal" nəşrə başlayır.

"İstiqlal" firqənin əvvəlcə nəşr etmiş olduğu mətbuatın getdigi yolu təqib edərək hökumətimizi xəlqin ehtiyacını anlamaya, xəlqimizi də hökumətin müşkülatını dərk etməyə çağırmaqla istiqlalımızın beynəlmiləl bir təsdiqə müvəffəq olmasını hazırlayacaqdır.

Bu xüsusda tutacağımız yol isə bittəbii Türk Ədəmi-Mərkəziyyət "Müsavat" yoludur ki, lisani-Tofiqdə:

"Millət yoludur, həqq yoludur tutduğumuz yol,

Ey həqq yaşa, ey sevgili millət yaşa, var ol!"

deyə tərif edilmişdir.

**M.Ə.Rəsulzadə**
**"İstiqlal" qəzeti, 4 şubat (fevral) 1919, №1**



## "Müsavat" Azərbaycan Məclisi-Məbusanında

Hökumətə xitabən vermiş olduğu sorğular çaharşənbə qanuni-saninin 7-ci iclasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" fraksiyası tərəfindən

**Fəhlə məsələsi**

həqqində məsai naziri həzrətlərinə xitabən böylə bir sorğu vermişdir.

Məsai naziri yəqin biliyorlar ki, Bakı əmələlərinin halı olduqca müşkül bir vəziyyətdədirlər ki, əvvəlcə "Sovet syezd" tərəfindən təsis olunmuş xəstəxanələr imdi xarab bir haldadırlar. Əmələlər dava-dərman tapa bilmiyorlar. Əmələ mənzilləri hifzüssihhə nöqteyi-nəzərindən fəna bir haldadır. Zavod komissiyaları ilqa edilmiş, bu üzdən ərzaq paylamaq və sair bu kibi xüsuslarda fəhlələr bir çox təhsilatdan məhrum qalmışlardır. "Kollektivni doqovor" yoxluğu üzündən əmələnin məvacibini azaltmışlar, verilən gündəlik maaş zəmanəmizdəki bahalığa nisbətlə məsarifin yarısını belə ödəmiyor. Bundan əlavə ümumi işsizlik üzündən fəhlələr ac qalıyor, tədricən ölüyor, min cürə xəstəliklərə düçar oluyorlar. Əmələnin maddətən halı böylə pərişan ikən, mənəvi halı da qaranlıqdır. Gecə kursları, məktəblər, xəlq yurdları yoxdur. Əmələ mühiti qaranlıq bir aləm təşkil ediyor. Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə ediyorlar.

Əcəba, məsai nəzarəti əmələnin maddi və mənəvi ehtiyacını rəf eləmək, eyni zamanda da maaşını yoluna qoymaq və məsainin mənafeini qanunən mühafizə eləmək üçün nə kibi planlar və tədbirlər düşünməkdədir?

**"Müsavat" şöbəsinin rəisi:**
**Məhəmməd Əmin Rəsulzadə**
**"İstiqlal" qəzeti, 4 şubat (fevral) 1919, №1**

## Hökumət hər şeyi etməz!

Azərbaycan hökuməti təsisi ilə məəttəəssüf bizdə bir zehniyyətin də təsis elədigi müşahidə olunuyor.

Hər şeyi hökumətdən gözləmək, hökumət əlilə gördürmək.

Cümhuriyyət və məşrutiyyətlərlə idarə olunan hökumətlərdə əsl idarə edən xəlq özüdür. Xəlqi mütəşəbbüs olan millətlər, xəlqi cəmaət işi ilə məşğul və müxtəlif cəmiyyətlərə ayrılaraq əsəri-fəaliyyət göstərən cəmiyyətlərdir ki, hakimiyyəti-milliyyəyi təsis edə bilərlər.

Hər şeyi hökumətdən gözləyib duran bir cəmaət, nəhayəti hökumətindən məyus olur. Çünki heç bir zaman hökumət, nə cür hökumət olursa-olsun, cəmiyyətin güna-gün ehtiyaclarını rəf edə bilmək, hər şeyə vəqtində və zamanında yetişmək imkanında olamaz.

Bu hal bilxassə yeni təşəkkül etməkdə olan və inqilab məşiyyəsindən doğan yeni hökumətlərdə iki-üç qat bir əhəmiyyət alır.

Türkiyə kibi böyük və möhtəşəm bir tarixə malik olan qədim bir dövlətdə belə hər şeyi hökumətdən gözləmək zehniyyəti məmləkəti nə kibi müşkül hallara saldı. Bizim kibi hər şeyi yenidən, yoxdan var etmək məcburiyyətində bulunan bir hökuməti bu zehniyyət nə kibi xarab bir hala qoya bilər, bir kərə düşünülsün.

Şübhəsiz ki, hökumət məmləkətdəki hərəkati-ictimaiyyə və təşkilati-idarənin nazimi, naziri və ruhu olmalıdır. Onun nəşr elədigi müvafiq qanunları, qoyduğu tədbirli nizamları, təşkil elədigi ədalətli idarələri ilə dövlət makinasını yoluna qoymalıdır.

Fəqət bu kafimidir?

Dövlətə məmurlar lazımdır. Bu əski məmur kadrolarına malik bir hökumət degildir. Yeni adamlar bulmalı, namuslarına güvənməli, onları birər xidmətə təyin etməlidir. Bu yeni məmurları hökumət nərədən alacaq. Bunun üçün kimə müraciət eləyəcək, bu bir məsələdir.

Bu məsələnin həlli üçün mövcud olan firqələr az da olsa müavinət edə bilərlər. Hökumət məmuriyyətini ifa edə biləcək



əzalarını və yaxud əzaları olmasa da etimad edə bildikləri əşxasın bir siyahısını tutar, bu siyahıyı nəzarətlərə verə bilərlər.

Bundan daha faidəli olaraq əhli-ürfan öz arasından bir cəmiyyət təşkil edə bilər. Tamamilə bitərəf bir cəmiyyət, zəhmətkeş ürəfa cəmiyyəti. Bu cəmiyyət hər yanda, hanki bir dövlət xidmətinə istedadı olan mütəxəssisləri, mütəfənninləri və ələlümum zəhmətkeş ürəfayı toplar, onları qeyd edər və hökumət idarələrinə məmur verməklə milli işə müavinət edə bilər.

Hökumətimiz olmadan əvvəl füqəramıza, qaçqınlarımıza, fəlakətzədələrimizə müavinət edən cəmiyyətlərimiz, nəşri-maariflə məşğul olan ürfan müəssisələrimiz var idi. Hökumət təşkil etdigimizdən sonra bu xüsusdakı ehtiyaclarımız azaldı degil, artdı. Halbuki bu cəmiyyətlərdən, bunların fəaliyyətindən bir əsər yox. Görünüyor ki, hər kəs artıq ümuri-xeyriyyə və səhiyyə nəzarəti var, maarif nəzarəti təsis edilmişdir – deyə cəmiyyətə bir vəzifə qalmadığını düşünüyor. Fəqət həqiqət hal böyləmidir?

Əskidən kooperativlər, köy cəmiyyətləri vardı. Bu cəmiyyətlərdə cəmaətin etimadını qazanmış adamlar çalışıyordu. Bu vasitə ilə xəlqə ucuz ərzaq paylamaq imkanı hasil oluyordu. İmdi ərzaq nəzarəti var. Fəqət əhaliyə lazım gələn ərzağı paylayacaq aparatlar yox. İş bəzi şəxslərin, kəndi məsuliyyəti üzərinə hərəkət edən fərdlərin öhdəsinə buraxılmışdır. Buna görə də bir çox suyi-istemallara meydan verilmişdir.

Hökumətimiz məcburi əskərlik elan eləmişdir. Əskər toplamaq öylə asan işlərdən degildir. Başqa sənaye və texnikaca irələmiş olan millətlərdən əskərliyə alınan nəfərlərin içində hər sənət ərbabı oluyor. Komandanlıq sənət sahibi olan nəfərləri bir tərəfə ayırıb onları əskərə lazım olan işlərdə işlədiyor. Məsələn, dərzilər tikiş işini, dülgərlər (kazarma) qışla yapısını, dəmirçilər dəmir işini, sairlər də kəndi xüsusiyyətlərinə aid olan cəhətləri ifa ediyorlar. Bu surətlə ordu kəndisinə lazım olan işlərin heç olmasa bir qismini öz ustaları vasitəsilə görmüş oluyor.

Halbuki bizdə öylə degildir. Əksərən orduya gələn nəfər yer əkmək və yaxud qoyun otarmaqdan başqa bir şey bilmiyor. Bunun üçün də komandanlıq ordunun hər bir ehtiyacını xaricdən görmək məcburiyyətində qalıyor.

Bu xüsusda cəmiyyət orduya böyük bir xidmət edə bilər. Bilxassə qadınlarımız təşəbbüs edərlərsə, orduya camaşır hazırlaya bilərlər. Bu nə qədər böyük bir xidmət, vətəni bir xidmət olur.

Oxuyucular bilirlər ki, müharibənin şiddətli zamanlarında ləvazimə möhtac qalan rus ordusuna rus camaəti nə qədər böyük xidmətlər etmişdi. Şəhərlər və zemstvolar tərəfindən təşkil olunan cəmiyyətlər, sənaye və ticarət ərbabı tərəfindən vücuda gətirilən müəssisələr orduyu nə dərəcədə qüvvətləndirmişlərdi.

Orduya alınanların ailələri var. Onların dərdləri var. Görüləcək işləri var. Onlar daha əskər övladı, əskər ailəsi olmağa adət etməmişlərdir. Bu "müqəddəs adət"ə öğrənmək nəsibi ilk dəfə onlara aid olmuşdur. Şübhəsiz ki, vətən müdafiəyi-ülvisi nə olduğunu dərk edən bir vətəndaş üçün böylə bir fədakarlıq nəsibi ilə hissəmənd olmaq böyük bir səadətdir. Fəqət bununla bərabər o ailənin maddi və mənəvi ailə ələmlərini dəxi digər vətəndaşlar anlamalıdırlar. Öz qardaş əlaqələri ilə göstərməlidirlər ki, xidmətə alınmış əskər və onun ailəsi cəmiyyət tərəfindən unudulmamışdır. Böylə bir məhəbbətli əlaqəyi qışlasında xəbər alan yeni əskər rahətlə vəzifəsini ifa elər, bundan da məmləkət, vətən böyük faidələr görər.

Əskər ailələrinin bir çox dərdləri var, onlara yetişmək, bəzən haqsiz olaraq qanunun kəndilərinə bəxş etmiş olduğu müsaidələrə təcavüz edilmişdir, onları rəf etdirə bilmək üçün kəndilərinə yol göstərmək üçün bir cəmiyyət olarsa azmı faidə verər?

Diqqət olunsun Gürcüstana, Ermənistana, orada hər şeyi hökumətmi ediyor?

Qətiyyən. Orada camaət, camaət müəssisələri, firqələr, cəmiyyətlər hökumətdən az iş görmüyorlar. Çünki bilirlər, görüləcək vətən işi, millət işi, bir sözlə, dövlət işi o qədər çox, o qədər günə-gündür ki, onları görmək üçün hər kəsə, hər cür cəmiyyətə iş vardır. Ta ki, işləyən olsun?

Gəncədə Azərbaycan hökuməti təsis edərkən böyük bir xəta irtikab edildi. Xəlq içindən doğma nə qədər milli müəssisələr varsa ortadan qaldırıldı. Hər şeyi hökumət görəcək – deyə bir fikir verildi.



O gündən etibarən firqə həyatı, firqə təşkilatına zərərli bir iş kibi baxıldı, Bakıda "Türk Ocağı" cəmiyyəti müsaidə alıncaya qədər min müşkülata məruz qalmışdı.

Bu xəta parlaman təsis edildikdən, Gəncədə faidəsiz görülən Şurayi-Millinin həqqi və hakimiyyəti iadə edildikdən sonra anlaşıldı.

Fəqət bu xətayı hökumət və siyasi məhfillər anlamış olduqları halda görüyorum, camaətimizin kütləsi daha bunu anlamamışdır. Hələ hər kəs hər şeyi hökumətdən gözləyib duruyor.

Əlbəttə, hökumətə malik bir millətin həqqi vardır ki, hər şeydən həyati-ictimaiyyə və siyasiyyəsinin müdiri və nazimi olan hökumətin rəftar və göftarına, təşəbbüs və qərarlarına müntəzir olsun. Bu təbiidir. Fəqət təbii olmayan bir şey vardır ki, o da hər şeyi hökumətdən intizar edib də kəndisinin tamamilə atil və batil oturmasıdır.

Millətin fəal və zində qüvvətləri, haydı iş başına. Şimdi işləmək, yaratmaq və hökumətə kömək etmək zamanıdır.

Hökuməti yalnız sözlə olan irşadəngizlə degil, işlə göstərdiginiz təşəbbüsünüzlə də təyid etməlisiniz!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 5 şubat (fevral) 1919, №106**

# Azərbaycan paytaxtı

"Quzğun dəniz"in[1] sahilində, əski Albaniyanın[2] mərkəzində, Şirvanşahların paytaxtında, Abşeron yarımadasının cənubunda 49-51 dərəcə tul, 40-21 dərəcə ərzində bir tərəfdən Bayıl, digər tərəfdən Zığ adilə suların bağrına qol uzatmış, qarşıdakı adaların himayəsilə pənahsız gəmiləri hər növ tufanlara qarşı qoruyan mərhəmətkar bir qucaq açmış liman var:

Bakı bəndəri!

Şöhrətli Azərgədəsi, "odunsuz yanar, sudan qorxmaz" münqəbədar atəşi[3] uzun zamanlardan bəri məruf, tarix səhifələrini boyamış neft quyuları, hərdənbir fövran edər "yanardağ"ı ilə Azərbaycan isminin müsəmması həmişəyanar bir ocaq var:

Bakı bələdəsi!

Bakı – Azərbaycanın paytaxtı.

Bakı, bu gün istiqlalını elan etmiş olan Şimali Azərbaycanın mərkəz idarəsi olduqdan sonra degil, daha əvvəldən, qədim zamanlardan bəri Azərbaycan paytaxtı-paytaxtı degilsə də, mühüm mərkəzlərindən biri olmaq heysiyyətinə malik olmuşdur.

Azərbaycan kəlməsinin "Od" mənasındakı "Azər"dən ayrıldığını iddia edənlər, buradaki atəşgədələri göstərir, ona görə də bu yerlərə "Od abad edən" mənasında "Azərbaykan" və yaxud "Azər abad kan", daha sonra müərrib olaraq "Azərbaycan" denildiyini bəyan edərlər.

Şəmsəddin Sami bəy mərhum "Qamusi-əl-əlam"ında "Azərbaycan" kəlməsinin əvvəlcə Təbrizin özünə, sonra ətrafına, daha sonra vilayətinə ələm olduğunu qeyd ediyorsa da, bir az aşağıda Azərbaycanın torpağını və yerlərinin mürəkkəb olduğu məvaddi-tərif edərkən diyor ki: "Məmləkətin torpağı ərazi-birkaniyyədən olub, qaz çıxarır yerləri və neft quyuları çox olduğu kibi, zəlzələləri dəxi pək sıx olub, qəsəbələri və ələlxüsus mərkəzi olan Təbriz şəhəri dəfəatla xərab olmuşdur. Zəmani-cahiliyyətdə atəşgədələrinin kəsrəti və bəlkə "Azərbaykan" təsmiyyə olunması dəxi bir atəşi-daimi halında olan bürkan və neftlərinin kəsrətindən iləri gəlmişdir".



Görüyorsunuz ki, müəllifi-möhtərəm sizə tamamilə aşina bir mənzərə təsvir ediyor. Tərif tamamilə Bakıya və vilayətinə aid daimi bir atəş halında bulunan bir kan – Bakı, dəfəatla zəlzələyə məruz qalan da Şamaxıdır. Burada Təbriz və həvalisinə bənzəyən bir şey yox. Çünki o həvalidə nə qaz çıxarırlar, nə də neft quyuları vardır.

Bunu zikr etməkdən məqsədimiz təbii, Təbrizin Azərbaycan mərkəzi olduğunu inkar degil, əsl Azərbaykan isminin müsəmması olacaq nöqtənin Bakı ola biləcəgini göstərməkdir.

Əvət, Bakı yalnız bugünki Azərbaycan Cümhuriyyətinin paytaxtı degil, əski Azərbaycan qitəsinin də mühüm bir mərkəzidir. Vəqtilə bu mərkəz əski "Midiya" yerini tutan Azərbaycan sakinlərini müqəddəs atəşləri ilə qızdırmış; bu hərarətlə o, İrandan, Hindistandan və dünyanın sair yerlərindən zairlər cəlb eləmişdir.

Bakı bu gün də ziyarətgah, bu gün də məbəddir.

Bugünki Bakı zairləri əski atəşpərəstlər kibi din hissiyyatı və ruh ehtiyaclarını tətmin üçün degil, maddi həvəslərini təmin, artıq təmələrini doyurmaq üçün gəliyorlar. Buradakı sərvəti kəndi kəşanələrinə axıtmaq istiyorlar. Bu müasir zairlər tarixin hekayələrini oxurkən hind zairlərinin gəlib burada müqəddəs atəşlərə tapınmaqdan başqa bir faidə gözləmədiklərini heyrətlərlə tələqqi edər, o nur və hərarət sərgərdanlarını qətiyyən anlıyamazlar. Çünki onlar "eşqi" şəmin başına firlanıb da kəndisini yakan və yakılarkən səs çıxarmayan "pərvanə"dən[4] degil, çəmənlikləri, çiçəklikləri birər-birər gəzib də güllərdən şirə çəkən "arı"lardan öğrənmişlərdir.

Onlar icab edərsə palçığa girər, hisə bulaşar, mazuta batar, fəqət atəşi tapmazlar.[5] Çünki məbud olaraq onlar qazı, nefti degil, bunlardan hasil olan "Sarı mədəni" tanırlar.

Fəqət Bakının müridləri yalnız bu uzaq vilayətlərin zəvvarı degildir. Buranın maddi deyil, mənəvi atəşlərinə Hindistan məcusi və İran zərdüştlisindən daha şiddətli bir ehtiyac və daha qüvvətli bir imanla mərbut olan mücavirlər, mötəkiflər[6] vardır:

– Azərbaycanlılar!

Əvət, Bakı əski məcusilərdən ötrü şöləsinə yakılır şəm; qomşu imperialistlərlə Avropa kapitalistlərindən ötrü şirəsi çəkilir gül isə, Azərbaycan türklərindən ötrü təvaf olunur əməl kəbəsi, etikaf olunur həyat məscididir.

Bu, bizə bir əməl kəbəsi və həyat məscidi olan Bakımızı, əcəba, heç bilirmiyiz?!...

Bu suala cavab almaq üçün mətbuatı-ümumiyyəmizin cavan hücrəsini ümumi bir surətdə gözdən keçirdim. Bakıya aid bir şey görmədim. Bu bana həvəs və cəsarət verdi. Müxtəsər də olsa, Bakının tarixi haqqində bir kaç yapraq qaralıyalım, dedim. Şübhəsiz ki, bu sətirlərlə veriləcək məlumat Azərbaycan Cümhuriyyəti paytaxtının şan və heysiyyəti ilə mütənasib olamıyacaq. Çünki əl altında nə o qədər mənbə, nə də o qədər zaman və fürsət vardır. Fəqət Azərbaycan mətbuatında bü xususda daha heç bir yazı yazılmadığından, düşündüm ki, naqis də olsa, bir şey olsun. Biz naqisini başlarız, mütəşəbbüs gənclərimiz də çalışar, vətən eşqi, məmləkət məhəbbəti ilə səy eylər, bu başlanğıcı təkmil edərlər; o zaman biz də əziz paytaxtımızın mükəmməl bir tarixinə malik olmaq səadətini dərk edəriz.

## II

"Bakı" kəlməsi imdiki halda dünyaca məruf kəlmələrdən birisi və hər kəsin virdi-zəbanı olduğu kibi, hər azərbaycanlının da "bismilə"sidir.

Bu kəlmə, bilxassə Azərbaycan istiqlalının xofla ümid arasında bir böhran keçirməkdə olan bu günlərdə həssas ürəklərə müəssir bir iztirab verməkdədir.

Qəlblərimizi bu qədər əlaqədar edən "Bakı" kəlməsi, əcəba, hankı mənayı ifadə ediyor?

Bu kəlmənin "bad" və "kub"dan mürəkkəb olan "badi kubə" kəlmeyi-farsisindən müxəffəf olaraq ayrıldığı və "yeldögən" mənasına gəldigi mərufdur; böylə bir "təsmiyyə"nin səbəbi isə burada hakim olan Şimaldan əsən "Xəzri" və Cənubdan əsən "Gilavar" yelləri imiş.



Fəqət Bakı isminin böylə mənayə malik olduğu məşhur isə də, dərin düşünür müdəqqiqlər böylə bir vəchi-təsmiyyeyi amiyanə görüyorlar.

İran müabiləri Bakı isminin əslini iranilərin tələffüzləri "badi kubə"dən aradıqları kibi, bəzi türkçilər bakılıların "bəki" şəklində tələffüz elədikləri bu kəlməyi "bak" kəlməsindən ayırmaq istiyorlar. Ərəb müvərrixlərindən bəzilərinin paytaxtımızı "baq" şəklində qeyd etdiklərindən dəxi istidlal edərək, bir rəvayətə görə, Xəzər türkləri tərəfindən təsis olunmuş olan bu şəhərin əslində "bək" müqabili bulunan "bak" kəlməsindən iləri gəldigini söyliyorlar. Əksər ərəb müvərrixlərincə "Bakuyə" məruf olan tələffüzü də (bəkcigəz)in müərribi imiş – deyə iddia ediyorlar.

Ərəb coğrafiyunundan Yaqut Həməvi Bakıyı "Bakuyə" şəklində qeyd eləmişdir.

İbn Əl-Əsir Xəzəri isə "Kamil" adlı tarixində Bakı şəhərini "baq" olmaq üzrə göstəriyor və diyor ki, "Baq-Bəsfərcan elində bir şəhərdir". Yaqutun Bəsfərcan tərifinə görə Əran (yəni Şimali Azərbaycan) ölkəsində kain bir elin adıdır.

Amasiyalı Hüsaməddin "İqdam"da nəşr elədigi bir məqaləsində İbn Əl-Əsirin "baq"ını alaraq bunun "bak"dan çıxdığını "bak"ın da Bakuyə şəklinə gəldigini və bunun da şimdiki türkcəmizdə "Bəkşəhri" demək olduğunu iddia etməkdədir. Digər bir mühərrir dəxi Bakının yenə türkcə olaraq Sultanülqəra və Şahkənd mənasına olaraq "Bək köy" olduğunu zikr edərək şair Şeybaninin aşağıdakı:

"Bək köy də bana göründü bənli
Ol lalə üzar simi-tənli"

beytini dəxi istidlal üçün iqtibas ediyor.

"Baku" kəlməsinin istiqaqi haqqında bu kibi tədqiqat biçimli digər mülahizələr dəxi yox degildir. Fəqət bu mütaliələrin qərini-həqiqət olduğunu təsdiq etmək məsuliyyətini boynumuza alamayız.

Bizə öylə gəliyor ki, Bakının qədimligini, burada əski iranilərin, yunanilərin, xəzərlərin və sair qədim millətlərin hökmran olduqlarını nəzərə alaraq Bakı kəlməsini farscaya və yaxud

türkcəyə uydurub da kəndisinə mətlub bir mənayi bağlamaqla məsələ həll ediləməz.

Bakı kəndisində bulunan gərək Venedik kari qüllələri və gərək hindkari azərgədələri ilə bəşəriyyətin əski dindarları olan hind atəşpərəstlərinə bittəb bəlli idi. Bunu göstərər sərih məlumati-tarixiyyə vardır.

Bir bürkan halında daimi atəş surətində yanıb tutuşan Bakı atəşpərəstlərə yabançı qalamazdı. Həm qalmamışdır, burası onlarca bir ərzi-müqəddəs idi. Suraxanıdakı atəşgədə Azərbaycan atəşgədələrinin ən qüdsisi idi. Buraya hind məczublərinin zəvvar qafilələri təşkil edərək gəldikləri müsəlləmdir.

Bu mülahizəyə görə, "Baku" kəlməsinin iştiqaqını nə bugünki farscada, nə də türkcədə aramaq səhih olamaz. Bunun üçün "sanskrit" dilinə müraciət edilərsə, daha münasib olur.

Sanskritcədə "Baku" kəlməsi bir məna ifadə ediyormu? – biləmiyoruz. Fəqət bəzi mənbələrə görə hind lisanlarından (keçratiqədim) dilində "Baku" kəlməsi "həqiqətə doğru" mənasını ifadə ediyormuş. Çox ehtimal verilə bilər ki, hind məcusiləri möcüznümə atəşgədəsindən dolayı burasına böylə müqəddəs bir ism vermiş olalar. Bilxassə ki, "odunsuz yanar və sudan qorxmaz" üç atəş əfsanəsi dəxi Baku atəşgədəsinin bulunduğu yerə isnad olunuyor. Tarixən müəyyən olmayan bir zamanda – İran tarixilə məşğul olanlar diyorlar ki, – atəşpərəst zərdüştilərindən bir qafilə Azərbaycandan "Abşeron" yarımadasına gələrək sahildən iki fərsəx fasilədə Baku atəşgədəsini vücudə gətirmişlərdir[7]. Onların anlatmasına görə, "bu məbəd (yəni Baku atəşgədəsi) sıcaq bir topraq üzərində təsis olunmuşdu. Bütün o tərəflərdə kəsrətlə mövcud olan "şist" yağlarilə neftin qarışmasından hasil olmuş (karbonlu hidrogen) o sahədə kəsrətlə vardı. Bu qaz atəş alıyor, yanıyordu. Hətta yalnız topraq üzərində degil, bu qaz dəniz açıqlarında da mövcuddur. Alovlu bir şey atınca haman suyun üzü atəş alıb yanıyor."

Bakının Hindistan, İrani-qədim və atəşpərəstliklə olan əlaqəsi adının nərədən gəldigi həqqində verilən izahat arasında göstərildi.



Burasının Yunani-qədim və Venedik dövrləri ilə münasibətdar olduğunu bildirir. Asar da vardır. Bayıl qabağında sular içərisində bulunan əski qələ hasarını andıran barıların ənqazı bu asardandır. Şəhərimizin gözəlliklərindən birini təşkil edən Kupalniya (dəniz hamamı) yapıldığı zaman bu ənqaz səmtində "məzkur hamam müqabilindən sahildə duran "Qız qələsi"nə doğru uzanan bir növ səngfərşlər kəşf olunduğu zaman mütəxəssis mühəndislər bunun əski yunan asari-memariyyəsindən olduğuna zahib olmuşlardı. Məzkur Qız Qələsi dəxi adilə türk əsəri isə də, tərzi memarı və şəkil etibarilə Venedik asarını andırıyormuş.

Haşımov meydanında qoşa qələ qapısı üzərində müşahidə olunan rəsmlər dəxi islamiyyətdən əvvəlki bir dövri-qədimə aid olsa gərək"

İsminin nə kibi bir məna ifadə elədigi həqqində mövcud olan bu qədər rəvayətlər içərisində amiyanə bir təfsiri olan "bad" və "kub" təvəccöhi məruf olduğu kibi şəhərin qədimligi və kim tərəfindən təsis olunduğu babda da iranilərcə məruf bir rəvayət vardır. Bu rəvayətə görə, Bakı Nuşirəvanı-Adil tərəfindən təsis olunmuşdur. Buna müqabil şəhərin Nuşirəvan istilasından daha əvvəl Xəzər xaqanlığına tabe bir Türkmən xanlığı dairəsində olduğu da iddia olunmaqdadır. İbn Əl-Əsirin Bakının "Bəsfərcan" elində bir şəhər olduğunu zikr etdigini qeyd etdik. "Məcməülbəldan" sahibi Yaqut Həməvi isə Bəsfərcan elini: "Bəsfurcan", Bəsluxan, Basluxan kibi Basfurkanın müərribidir. Türklərin "bay siburqan" dediklərinə iranilər "Basfurkan", ərəblər də "Bəsfurcan" və "Bəsfərcan" demişlərdir. Şərqdə Seyhun üzərində kain Siburqan şəhri, Xorasanın mərkəzi-qədimi olan Mərv önündə axan Macan (Makan) nəhri üzərində vaqe Əşfurqan (Siburqan) şəhəri və Qərbdə Kür nəhrinin Şərq tərəflərini mühit olan "Basburqan" eli türk bilad və asari-məşhurəsindəndir" deyə izah ediyor[8].

Şəhərin kimlər tərəfindən təsis edildigi ixtilaflı olduğu kibi, hankı sənədə təsis edildigi də ixtilaflıdır. Burasının məmurə olaraq 1500 sənədən bəri məlum olduğu, hətta bir rəvayətə görə Miladi-İsadan 978 sənə əvvəl dəxi burada məmurə olduğu rus qamuslarında müqəyyiddir.

# III

Bakuyi ilk dəfə bir liman (bəndər) olaraq ərəb müvərrixlərindən "Əlmüqəddəs" zikr eləmişdir.

O zamanlar Dərbənd (ki ərəblər ona Babül-Əbvab, türklər Dəmir Qapı diyorlardı) daha ziyadə əhəmiyyət və şöhrətə malik idi. Bakı isə Dərbənd mülhəqatından bir bəndər sayılırdı. Buna görə də məşhur ərəb müvərrixləri kitablarında bu tərəflərdən bəhs edərkən Dərbəndə böyük əhəmiyyət verdikləri halda, Bakıyı zikr etmiyorlar.

Fəqət bununla bərabər Bakının bir liman olaraq olduqca böyük əhəmiyyət peyda elədigi zamanlar da olmuşdur. Moğol istilasından sonra Bakı Xəzər dənizinin qərbi ilə şərqi arasında bir ticarət və tranzit mərkəzi olduğundan burasına diqqət verilmişdir.

İran, Turan, Xəzər, Rusiya məmləkətləri arasında bir ticarət deposu halını alan Bakı o dərəcədə əhəmiyyət peyda eləmişdir ki, Xəzər dənizinin bir adı da "Bakı dənizi" olmuşdur.

Bakının islamiyyətdən sonrakı tarixinə və buradakı asarə baxıldıqda burası Şirvanşah namilə hökumət edən bir sülalənin ikinci paytaxtını təşkil eləmişdir. İçlərində Məlik Mənuçöhr, Şah Xəlilullah kibi elm, ürfan dostu olan şirvanşahlar əsasən Şamaxıda oturuyorlardısa da, Bakı dəxi bəndər olduğundan burasına dəxi əhəmiyyət veriyor, əksərən buraya gəliyor, iqamət edərlərdi. Şah məscidi, Xan sarayı və sonra Şah olan bağları Şirvanşahlardan qalma baqiyatdır. Şah məscidi ilə Xan sarayının tərzimemarisindən dəxi görüldügü vəchlə Şirvanşahlar zamanında Bakı olduqca məmur bir bələdə halında olub, came və mədrəsələri məruf imiş. Qamusların göstərdiginə görə Şirvanşahlar altıncı əsr hicridə buralarda hökmran olmuşlardır.

Məscidi-camein əski binasında mövcud olan kitabələrdən dəxi camei-məzkurun 5-ci əsr hicridə bina edildigi görülməkdə idi.

893 səneyi-hicrisində Müluki-səfəviyyənin cəddi olan Şeyx Heydər tərəfindən Şirvanşah üzərinə hücum vaqe olmuşsa da,



Ağqoyunlu Yaqubxan imdada gələrək şeyx mumiileyh məğlub edilmişdir. Fəqət sonra Şah İsmayıl atasının intiqamını almaq üçün Şirvana qoşun çəkərək 906-cı tarixdə Şirvanşahı məğlub etmişdir. Bu məğlubiyyət şahi-məzkurun vəfatına səbəb olduğu kibi, Bakı qələsinin də səfəvilər əlinə keçməsinə bais olmuşdur. Şəhəri zəbt edən səfəvilər burada mövcud olan sərvət və samanı nəql eləmişlərdir.

Şah İsmayıl Saninin qətlindən sonra bəradəri Məhəmməd Xudabəndə İran təxtinə cülus eləmişdi. Fəqət bəradərinin qətlinə mucib olan daxili ixtilal daha sükut bulmadığından İran məmləkətinə bir az zəif gəlmişdi. İstanbul cahangirləri bu zəifdən istifadə edərək Sultan Murad Salisi İran səfərinə təşviq eləmişlər. Nəhayət, Soqqulu Məhəmməd paşa kibi dərayət sahibi ricalının sözünə baxmayaraq padşah Lala Mustafa paşa komandasında böyük bir ordu tədarük etdirərək İran səfərinə icazə vermişdir. Lala Mustafa paşa ordusu ilə bərabər 986-cı səneyi-hicridə Qafqasiya təriqilə İran hüduduna gəldi. Gürcüstan bəyləri Osmanlı ordusunu hüsni-istiqbal edərək məşhur Özdəmir oğlu Osman paşa komandasında bir ordunun Qazax, Gəncə, Ərəş təriqilə Şərqi Zaqafqasiya səmtinə keçməsinə yol verdilər. Özdəmir oğlu Osman paşa burada sənələrlə hərb edərək iranilərlə çarpışdı. Şirvan, Gəncə kibi şəhərlər dəfələrlə əldən-ələ keçdi. Nəhayət, Özdəmir oğlu Osman paşa Dərbəndi kəndisinə iqamətgah qərar verərək orada oturdu. Krım tatarlarından kəndisinə kömək gələrək İran qüvvətlərilə hərb elədi. 987-ci sənədə Dərbənddən qalxaraq Krım xanı Məhəmməd Gəray xan ilə bərabər Şirvan üzərinə yürüdülər. Osman paşa əvvəlcə Bakı üzərinə bir müfrəzə çıxarmışdı. Bu müfrəzə Bakıyı aldı. Mühafizləri olan Xan Əli ilə Məqsud Soltanı və sair zabitləri məmləkətin əyanı ilə birlikdə Şamaxıya əsir gətirdi.

Krım tatarları adətləri vəchilə Özdəmir oğluna müavinət üçün gəliyor və yığma ediyor, təkrar geri dönüyorlardı. Bu dəfə də öylə yapmışlardı. Tatarların döndügünü xəbər alan İran qüvvətləri Şamaxının istirdadını düşünmüşlər, tədarükə başlamışlardı. Bunu xəbər alan Özdəmir oğlu Şamaxının müdafiəsi

üçün məxsusi qüvvət ayıraraq düşməni dəf edə bilmiş, kəndisi ləvazim və tədarükünü düzəldə bilmək üçün Dərbənddən Bakıya enməyə qərar vermişdi. Osman paşa o qışı (987-988) zərərsizcə Bakıda keçirdi. Vaqiənəvis Əbdürrəhman Şərif bəy əfəndi "Tarixi-Osmani Əncüməni-məcmuəsi"ndə bu xüsusda diyor ki: "Özdəmir oğlu Dəmir Qapıdan Bakıya endi. Xarab olan qələsini təmir və dağılan əhalisini təmin və cəm elədi. Bakı əhalisinin sərvəti-təbiiyyəsindən istifadə çarələrini düşündü. Neft mənbələrini zəbt ilə müqatiəyə bağladı. İpək məhsulatını vergiyə tutdu və sair vergiləri tənzim edərək xəzinəyə xeyli gəlir çıxartdı. Əskərlərin məvacibini və qələ təmirində çalışdırdığı əmələnin üçrətini vermək üçün kafi miqdarda sərmayə hasil olmuşdu".

O qışı Bakıda oturmaqla bərabər Kür nəhrinin ötəsində qüvvət toplamaqda olan Salman xanı dəxi rahət buraxmaq istəməyib Qazi Gərayı bir miqdar əskərlərlə onun üzərinə göndərmişdi. Salman məğlub edildi. Bunun üzərinə təkrar zübdə bir qüvvət təşkil edərək Salman xan ilə bərabər Pirə Məhəmməd xan komandasında qüvvətli bir ordu ilə iranilər təkrar Kür nəhrini keçərək Şamaxı üzərinə yürüş etdilər. Şamaxı müqabilində vaqe olan böyük bir müharibədə Osmanlı qoşunu məğlub olub ordu rüəsasından çox az adam qurtula bildi. Bu qalibiyyət üzərinə Pirə Məhəmməd xan Şabranı təkrar ələ keçirmiş və Osmanlı fərarilərini qovaraq Dərbəndə qədər ilğar eləmişdi.

Bunun üzərinə İran xanları müşavirə edərək Bakı mühasirəsinə qərar vermiş və bu tərəfə qoşun çəkmişlərdi. Bakının bu mühasirəsini isə Əbdürrəhman Şərif bəy böylə təsvir ediyor:

"Mühasirədən əvvəl Osman paşa Dərbəndə getmiş və Bakı mühafizəsinə bahadirani-ümərədan Əhməd bəyi təyin və iqamə eləmişdi. Bakı mühasirəsi çox şiddətli olmuşdur. (988-ci ilin axırları). Mühasirə qırx gün davam eləmişdir. İranilər qələyi almaq üçün nərdəban qurmaq və topraq sürmək kibi müharibə tədbirlərinə müraciət etmişlərdir. Məhsurin bir müddət şücaətlə səbat göstərmişlərdir. Lakin ərzaq və mühimmatları kafi miqdarda degil idi. Şəhər əhlindən birisi ox ilə məktub atıb qələ içindəki



müzayiqəyi mühasirinə xəbər verər və onları yürüşə dəvət elər idi. Zaman oldu ki, məhsurin bəndərdəki gəmilərə minib kəndilərini xilas etsinlər. Lakin Əhməd bəyin əzm və şövq və casusun bulunub da odda yandırılması surətilə məcazat edilmiş və bundan sonra qələ əhvalından məlumat ala bilməyən iranilərin məyus olaraq mühasirədən əl çəkmələri Bakıyı qurtarmışdır. İran sərdarı Pirə Məhəmməd xan Bakı mühasirəsindən qayıdanda Şabranda vəfat etmişdir. Bu adam səfəvilərin sınanmış sərdarlarından idi. Oğlu nəşini alıb İrana göndərmişdir".

Bu surətlə Bakı qələsi 989-cu ildən etibarən Osmanlı təhtiidarəsinə keçmişdir. Bakı 23 sənədən ziyadə Osmanlı idarəsində qaldıqdan sonra Türkiyə ilə İran arasında əqd olunan müsalihə icabı olaraq Osmanlı ordusu buralardan çəkilərək Bakı təkrar səfəvilərin idarəsinə keçmişdir. 1017 tarixli bir kitabə şəhər surinin Birinci Şah Abbas səfəvi tərəfindən təmir edildigini göstərməkdədir.

## IV

Səfəviyyədən sonra bu tərəflərdə təvaifi-müluk əmələ gəlib Azərbaycan vilayətləri birər müstəqil və nim müstəqil xanlıqlar halında yaşarkən Bakı dəxi uzun bir zaman xanlıq halında yaşamışdır.

Bakının o zamanlarda nə kibi bir həyatla yaşadığını məşhur türk səyyahından ögrənə biliyoruz:

1057 səneyi-hicrisində Bakıya gəlmiş Osmanlı səyyahi-şəhiri Övliya Çələbi həzrətləri Bakı qələsini bir vəchiati tərif ediyor:

"Bakı qələsi Şirvan əyalətində olub Əcəm (İran) sərhədidir. Burada bir ziyafət edilib təamdan sonra Ərzurum valisi Məhəmməd paşa əfəndimizin naməsini inci (mirvarid) təsbehlə, məvac ipəkli firəng xaraların şəmşiri-hədayəyi xana verdim. Səfasından: "Xeyri-müqəddəm, xoşqədəm gətirdiniz" – deyə dilnəvazlıqlar etdi. Təbriz və Naxçıvan xanlarının namələrini də verdim. "Suriniz mübarək ola" – deyə çox sənaxanlıq elədim[9]. Zatən namələrdə də həqiri xeyli tovsif etmişlər. Rəvan xanı[10]

həqiri kəndi həmşirəsi sarayına mehmanlığa verildi. On gün, on gecə zövqü-səfalar etdik. Xan isə göstərmədik xan və sultan[11] qoymadı. O gün həqirə mülaqat əcəmanə əlbəsə, on tümən bəxşeşi şahanə ehsan olundu. Rəfiqlərimizlə şəhəri tamaşaya başladıq.

"Bakı qələsi Moskov kralına qarşı Dara şah tərəfindən Bəhri-Xəzər sahilində bir püşteyi-ali üzərində mürəbbülşəkl olaraq bina edilmiş bir qəleyi-rənadır. İç qələsinin qərbə nazər bir qapısı vardır. Hədidi naxçıvanidəndir[12]. Mühiti yeddiyüz addımdır. Yetmiş qələ altıyüz bəddəndir. Divarın qəddi yüz zərai məkidir. Qaya üzərində olduğundan xəndəyi yoxdur. Qələ içərisində topraq örtülü yetmiş qədər əski ev vardır. Heydər şah camei adilə bir də came varsa da, minarələrdir. Xan karvansara, hamam və sairədən nişan yox. Lakin dərya kənarındakı ribat[13] böyük karvansarası, bin qədər evli, bağ və baxçası, came, xan və hamamlı çarşı və bazarlı bir şəhər məmurdur ki, üç tərəfi sur ilə mühafizəli olub üç qapısı vardır. Şimala açılan Gilan qapısı, cənuba Babüləbvab qapısı, qərbə dərya kənarında liman qapısıdır. Buradan yeddi ədəd böyük minarə görünməkdə idi, üç hamamı varsa da, Mirzəxan hamamı qayət xoşdur. Çarşı və bazarı o qədər müzəyyən degildir. Lakin Moskov sərhəddi olduğundan şahsevən, dizçökən əskərləri vardır. Şirvan əyalətində başqaca xanlıqdır. 3 bin əskər və 12 hakimi (uyezd naçalniki) vardır. Başqaca qazısı və 7 nahiyəsi vardır. Bir qaç kərə Moskov qazağı qarşı İdil nəhrindən şaykalar ilə gəlib Gilanı və Bakı nahiyələrini nəhb və qarət etmişdir. Çünki qarşı tərəfi 300 mildə Moskov diyarıdır. Həttа bu qələyi Özdəmirzadə fəth etmiş, içində osmanlılardan Qubad paşa hakim ikən Əcəmin (İranın) təşviqilə Moskov qazağı gəlib Bakı qələsini mühasirə etmişsə də, onlarla bərabər əcəmlər də dəndan tiğdən keçirilmişdir. Hala gəmikləri sahili-bəhrdə bir püşteyi-ali üzərində durur. Şəhərin havası səhləcədir. Çünki qəzalarında pirinc, kətan, yağ, bostan hasil olur. Amma suyu neft yağı kokar. Şəhər qərbində yeddi yerdə neft mədənləri vardır ki, hər biri bir lövndir, sarı, qırmızı, qara... ilaxır. Nahiyələrində misgər, misdan, riynəb, nəvahisi əhalisi şəmi-əsəl, şəmi-ruğən yaqmayıb



həp qara neft yağı çıraqda yakarlar. Xalqı qayət təndürüst vətənpərvərdir. Olduqca dilbəri də vardır. Şəhəri on səkkizinci iqlim ərzi-hüdudundadır. Əhalisi əksəriyyən sünnüdür. Bu qələ ilə Dəmir Qələ arası dərya kənarından dörd mənzildir. Aralarında Misgər nahiyəsinin kəndləri məmurdir. Əhalisi köçbə türkmənlərdir. Obalarilə qonub köçərlər. Şabran şəhəri Bakının şərqində və üç mənzil məsafədədir. Şamaxı şəhəri də şərqində olub 5 mənzildir. Gilan da şimalındadır. Bakı Şamaxının bəndər iskələsidir. Cin və Xatai ilə Xətəndən, Qəfur eli ilə Rənan şəhərlərindən Qalmax (Kalmıq) və Moskov diyarlarından daima elçilər və karvanlar məta gətirərlər. Moskovlar daima Bakıya gəlib Bakıdan tuz (duz), neft, zəfəran, ipək (hərir) alıb Moskovaya götürüyorlar. Moskov elçiləri gəlib rəhn (girov) dururlar. Moskov diyarından səmur, balıq dişi, sincab əksəriyyən İrana Bakıdan çıxarılır. Bir qismi də Gilandan çıxar. Bakı nahiyələrində bəzi şora yerlər vardır. Adam və ya at ayağını basıb bir az dursa ayaqları yanar. Karvan xalqı bəzi yerləri həfr edərək (qazıyaraq) təncərə (qazança) qoyur, təamları zəminin hərarətindən bir anda bişər. Əcayib hikməti-xudadır.

Bəzən Moskov qazağı kənarı sazlı gəmilərlə Kür nəhri ilə gəlib Bakı ətrafını nəhb və qarət edərlər.

Buradan aldıqları əsirləri Gilan bazarına aparıb orada satarlar. Nəhrin eni Tuna qədər varsa da dərinligi o qədər degildir".

Övliya Çələbi bu təfsilatı verdikdən sonra səyahətinin xatiməsini təsvir üçün yazıyor ki:

"Bir yandan şəhərə tamaşa etdigimiz kibi digər tərəfdən də Əcəm surlərinin (ziyafətlərinin) zövq və səfalarına qoyulduq. Suri-zifafi təhrir eyləsən böyük bir kitab olur. Rəvan xan (Tağı Əli xan) ilə Bakı xanı (Əşrəf xan)dan səmur əcəmanələr, kürçilər, tavus dəvələr ehsan aldıq. Rəvan xan dəxi Kəmər ki, bin baş karvan göndərmegi təəhhüd edərək Paşa əfəndimizə bir səmur kürk, on çift Gilan yayı, altı gürcü qilami, on cift balıq dişi, üç ənbər şamama hədaya verdi.

Ayrıca məhəbbətnamələr də təhrir elədi. Həqirə dəxi on tümən bəs xərcirah təvabelərimizə on tümən abbası ehsan elədi. Cümlə Bakı əyanı ilə vidalaşaraq qiblə tərəfə rəvan olduq".

Övliya Çələbi Bakının neftindən də təfsilat veriyor, onun səyahətnaməsinə görə: "Neft yağı mədənləri yerdən qaynayaraq çıxar. Kiçik göllər neft yağı suların üzərində qaymaq bağlar. Neft başqaca əmanət olub sənəvi şaha yeddi min tümən ağça gətirir. Nefti-əmniyyənin adamları bu gölçügizlərin içinə girib gecələri nefti yığaraq keçi tuluqlarına doldururlar. Sonra bunu tüccar alıb diyar-diyar götürürlər. Səkkiz rəngdə neft olur. Lakin sarı neft qayət məqbuldur. Siyah neft şahlıqdır ki, İran diyarının, Özbəkistan, Hindistan, İraq, Kürdüstan, Gürcüstan, Dağıstan, Ali-Osman sərhədlərindəki qalalara bu qara nefti götürüb ətraflarına çırağban edərlər. Əskər üzərlərinə hücum etdikdə üzərlərinə və ayaq altlarına neftli yorğan və köhnə əşya atıb atəşbazlıq edərlər. Neft qala və şəhər mühimmatı üçün lüzumludur. Hətta şah hüzurində, dəri-dövlətlərində yanan məşəllər həp Bakı neftindəndir. Neftin gecəli, gündüzlü nigəhbanları vardır. Çünki atəş dəgərsə ila nəhayə yanıb sönmək bilməz. Onun üçün neft mədənlərinin kənarında dağlar kimi qum təpələri amadə durur. Neft mədəninə bir şərarə isabət eləsə haman cümlə riaya yetişib üzərinə topraq ataraq söndürürlər. Başqa əlacı yoxdur".

Övliya Çələbinin səyahətnaməsində bu qədər tərif olunan Bakı nefti həqqində ərəb coğrafiyaçıları da məlumat vermişlərdir. Məsudinin "Mürücüz-zəhəb"ində bu xüsusda təfsilat verildigi kibi, Yaqut Həməvinin "Möcəmül-Belda"runda izahat vardır. Yaqutun izahatına görə Bakıda başlıca iki neft mənbəi varmış ki, birindən sarı və ya ağ neft, digərindən qara, yaxud yaşıl neft çıxarmış. Məsudi buradan başqa heç bir yanda ağ neft çıxmadığını da əlavə ediyor.[14] Hicri doqquzuncu əsrdə Əlbakuvinin yazdığına görə gündə çıxarılan neftin miqdarı iki yüz qatır yükü imiş. "Dərbəndnamə"dən iqtibasla Məhəmməd Cavad bəy diyor ki, Bakıdakı neft mənbələri ilə duz mədənləri Dərbənd əhalisinə aid bir vəqf idi. Hicri 1003 tarixli bir kitabədən çıxarılan məlumata görə bunlar seyidlərə təxsis edilmiş bir vəqf imiş.

Şah İsmayıl Səfəvi imzasilə idareyi-ruhaniyyə quberniya məclisi dəftərxanəsinin övraqi arasında məhfuz və saiqə nəzərən neft quyularından bir neçəsi Tazə Pir həyətində mədfun bulunan Şeyx həzrətlərinə vəqf edilmiş imiş.



# V

Övliya Çələbi mərhumun hekayəsindən də anladıq ki, ruslar Bakının neftinə pək əski zamandan bəri göz dikmişlər və uzaq zamanlardan bəri burasına bir takim hücumlar və təcavüzlərdə bulunmuşlardır.

1000 sənə əvvəl 914 səneyi-miladisində knyaz İqor zamanında ruslar Bakıya doğru bir səfər eləmişlərdir.

942-ci sənədə Bakı və Şirvan vilayətinin zənginligi təkrar rus kazaklarının təməini cəlb edərək buralara akın eləmiş və Kür nəhri ilə ta Bərdə şəhərinə qədər enmişlərdir.

1553-cü sənədə Hacıtərxan ruslar tərəfindən alınmışdır. Hacıtərxanın alındığını mütəaqib ruslar İran ilə münasibati-tüccariyyəyə girmək istəmişlər. Bu səbəblə də Bakı bəndərinə hücumları artmışdır.

17-ci əsrdə Bakı ilə Şirvan məşhur Stepan Razin komandasındakı kazak aqınçılarının təərrüzlərinə düçar olmuşdur. Razin dəstəsi şlyupkalarla Bakı sahilinə eniyor, Kür nəhrinə gəliyor, sahilləri yağma və tarac edərək müvəqqəti qələbələr ehrazından sonra qoyub çəkiliyorlardı.

Böyük Petro siyasi geniş planlarının cüzində Xəzər dənizinə çox əhəmiyyət verirdi. Burası Şərq məmləkətlərilə bir ticarət yolu idi. Hacıtərxan voyovodası Musin-Puşkinə 1700-ci ildə əmr edilmişdi ki, tariqi-Şamxali ilə münasibati-tüccariyyədə bulunsun. Bu andan etibarən Orta Asiya məmaliki ilə münasibati-tüccariyyəyi artırmaq çarın daimi düşüncəsini təşkil eləmişdir. Bu məqsədlə 1715-ci ildə knyaz Bekoviç-Çerkaskiyə əmr edildi ki, Orta Asiyaya doğru səfərə hazırlansın. Kəndisinə eyni zamanda bu da tapşırıldı ki, Ceyhun nəhrini əski məcrasına salaraq Xəzər dənizinə axıdılması üçün tədbirlər görsün. 1718-ci sənədə yenə böylə bir məqsədlə Volınski səfirlik sifətilə İrana göndərildi. Volınski İran ilə təfsilən tanış oldu. Eyni zamanda Petroyu Xəzərin sahillərini tutmaya təşviq elədi. Yoxsa buralarını əfqanlılar tutacaqlar – deyə çarı əndişəyə buraqdı.

Çar Volınskinin tövsiyələrinə qulaq asdı. Bilxassə ki, Şamxal Ədil Gəray bütün Dağıstan camaatları naminə elçi göndərib ərzi-təbeiyyət eləmişdi.

Bunun üzərinə Petro Volınskiyə İran səfərinə hazırlanmayı əmr eləmişdi. Səfər hazırlanmış, fəqət sonra İrana hərb elan etmək niyyətindən vaz keçilərək Dağıstana gəlməklə iktifa edilmişdi. Böyük Petro 1722-ci ildə Tariqi-Şamxal Ədil Gərayın dəvəti üzərinə Dağıstana gəldi. Sulaqda istiqbal edildi. Sonra çarın məhfili Dərbəndə doğru getdi. Yolda Qaytak xanı Soltan Mahmud müqavimət göstərdigindən dəf edildi. Böyük Petro Dərbəndi alıb oradaca qışlamışdı.

Petro Bakıya çox böyük əhəmiyyət veriyordu. Çar general Matuşkinə əmr eləmişdi ki:

"Təcilən Bakıya get, məzkur şəhəri al, Allah yardımçın olur. Şəhərin açarlarını alır, göndərirsən".

1723-cü ildə Matuşkin Bakıyı almışdır. O sənədə İran ilə əqd olunan bir müqavilə mövcibincə Bakı ilə Dərbənd Rusiyaya tərk edilmişdir.

1732 və 1735-ci sənələrdə çariça Anna İvanovna zamanında əqd olunan Rəşt müahidənaməsinə görə Bakı, Quba və Dərbənd təkrar İrana qaytarılmışlardır.

Bu surətlə Şimali Azərbaycandan çəkilmiş olan Rusiya Böyük Yekatrina zamanında təkrar ovdət eləməgə başlamışdır. 1796-cı sənədə general Zubov Dərbəndi almışdır.

1801-ci ildə Gürcüstan Rusiyaya iltihaq etmişdi. Bu hal üzərinə bugünki Azərbaycan Cümhuriyyətini təşkil edən Azərbaycan qitəsi, bilxassə hər növ hücumlara məruz qalan Bakı-Şirvan vilayəti artıq iki ataş içində qalmışdı. Şu sırada rusların Qafqaziyadakı ordularının komandanlığına məşhur Sisiyanov təyin olundu. Sisiyanov bir kərə Rusiya əlinə keçmiş olduğu halda tərk olunan Bəhri-Xəzər sahillərini təkrar zəbt etmək fikrinə düşdü. 1805 sənəsi yaz zamanı general-mayor Zavalişin komandasında 500-dən ibarət bir qüvvə toplayaraq gəmilər vasitəsilə Bakı üzərinə göndərdi. O zaman Bakının xanı Hüseynqulu xan idi. Zavalişin Bakıya yaxınlaşınca Qubadan Bakıya kömək gəldigini



xəbər aldı. Bu xəbəri alınca təərrüz etmək cəsarətini göstərmiyərək şəhəri qoyub çəkildi.

Zavalişinin bu surətlə çəkildigini xəbər alan general Sisiyanov bərk acığı tutmuşdu. Xəstəligine baxmayaraq Zavalişinə şiddətli itablarda bulundu. Qış düşdügünü aldırmayaraq 1500-ə qədər piyada, 200 atlı kazak və ona qədər top ilə özü bizzat Bakı üzərinə gəldi. Dekabr ayı idi. Sisiyanov bilirdi ki, şiddətli hərəkət etməzsə Zavalişinin ricəti yeni ram edilmiş Bəhri-Xəzər sahilindəki xanlara suyi-təsir hasil edər, hərəkətə gələrlər. Bunun üçün o, rus silahının nüfuz və etibarını qüvvətləndirmək istiyordu. Sisiyanov Hüseynqulu xan ilə sabiqən də tanış idi.

Xana xəbər göndərdi ki:

"Bakıya gəlirəm, ya Bakıyı alacağam, ya ki orada öləcəgəm".

Yol üzərində Sisiyanov Şamaxı xanı Mustafa xanın beyətini aldı. Şamaxı dağlarını enərək Bakı xanlığına daxil oldu. 1806-cı sənəsi yanvarının axırlarına tərəf Sisiyanov Bakı surləri yanında idi. Hüseynqulu xan xəbər göndərdi ki, şəhəri təslim ediyor. Kəndisi də tabe oluyor. Fevralın 8-nə şəhərin təslimi üçün gün təyin olunmuşdu. Təyin olunmuş gündə rus tarixlərinin yazdığına görə Sisiyanov yavərlərindən yalnız Eristov ilə birlikdə bir də bir kazak nəfəri ilə bərabər Bakının qapısına doğru getdi.

Orduyu kəndisindən uzaq bir məsafədə buraxdı. Hüseynqulu xan da kəza kiçik bir maiyyətlə bərabər olduğu halda knyazı istiqbal elədi. Tərəfeyn yaxınlaşınca xanın nökərlərindən birisi tapança ilə vurub generalı haman oradaca öldürdü. Onun ardınca Eristov da öldürüldü. Kazak qaçdı.

Generaldan sonra rus ordusunun komandanlığı vəzifəsində olan Zavalişin özünü o dərəcədə itirdi ki, bütün əskərlərini toplayıb tələsik gəmilərə oturdaraq Tariqi-Şamxallığı vasitəsilə rus cəbheyi-əsliyyəsinə çəkildi.

Sisiyanovun sözü doğru çıxdı. "Bakıda öldü". Bu vaqiə həqqində tarixdə bir "ləjan" (mənqəbə) dəxi rəvayət olunmaqdadır.

Sisiyanovun başı kəsilərək Hüseyn xan tərəfindən şaha göndərilmişdi.

Fətəli şah, rəvayət ediyorlar ki, qış gecələrindən birisində qarşısında manqal Qafqasiyadan alınan nagüvar xəbərlər üzərinə uyumayıb sabaha qədər əlində maşa odu, külü qurdalayaraq mükəddər və dalğın bir vəziyyətdə oturmuş, nagah sabah xoruzlarının banladığını görüncə maşayı manqala vuraraq:

– Ey xuda, ya mərabikeş, ya urra!... – deyə təğəyyür eləmişdir.

Günəş doğunca general Sisiyanovun kəsilmiş başı paytaxta gəliyor – deyə xəbər alınmışdır.

General Sisiyanovun bu macərasını və Zavalişinin o surətlə qayıtmasını xəbər alan general Qlazanap bu vaqiədən Rusiya etibarı üçün hasil olacaq suyi-təsiri idrakla bir qüvvə toplayıb Bakı üzərinə hərəkət elədi isə də, Tariqi-Şamxalının tədbiri və dostluğu sayəsində yalnız Dərbəndin açarlarını bilahərb və müqavimət təslimine aldı. Quba ilə Bakıya doğru isə hərəkət edə bilmədi.

Sisiyanov əvəzinə Gürcüstan komandanlığına general Qudoviç təyin olundu. Qudoviç üçüncü dəfə idi Qafqasiyaya gəliyordu. Qudoviç Qlazanapı çıxarıb yerinə Bulqakovu təyin elədi. Bulqakov Bakı üzərinə gəldi. Şəhər müqavimət göstərməyib təslim oldu. Anlaşıldı ki, general Sisiyanovun qətli Hüseynqulu xanın rizası və xəbəri olmadan qardaşının Əmir Həmzə adında bir nökəri tərəfindən xudsərana bir surətdə icra edilmişdir.

Bakı 1806-cı sənəsi sentyabrın 3-də təslim olunmuşdur.

Bakıdan sonra Quba xanlığı dəxi bilahərb təslim olmuşdur.

General Sisiyanovun başsız bədəni əvvəlcə gömülmüş olduğu məzarından çıxarılaraq erməni kəlisasında dəfn olunmuş, sonra da 1811-ci ildə Tiflisə nəql ilə Siyon kəlisası dairəsində dəfn olunmuşdur.

Bildigimiz Sisiyanov fontanı haman məqtul generalın naminə olaraq yapılmışdır.

1812-ci ildə Gülüstan müahidənaməsi mövcibincə Dərbənd, Quba, Gəncə, Şəki, Şirvan xanlıqları ilə bərabər Bakı dəxi qəti surətdə Rusiyaya tərk edilmişdir.



# VI

Qədim zamandan bəri gözünü qıcadığı Bakıya bu surətlə malik olduqdan sonra Rusiya hökuməti yüz sənəyə qədər burasını əldə bulundurmuşdur. Bu zamanda Bakı idarətən şəkildən-şəklə girmişdir. İbtidada Prikaspiyski kray denilən vilayətin mərkəzlərindən birisini təşkil edərək bədə Şamaxı quberniyasının uyezd şəhərlərindən birisi hökmündə qalmışdır. Daha sonra böyük Şamaxı zəlzələsini mütaqibən Bakı quberniya mərkəzi olub qubernator dairəsi də buraya köçürülmüşdür. 1907-ci ildə Bakının gündən-günə artmaqda olan əhəmiyyəti-fövqəladəsi nəzərə alınaraq qradonaçalstvo namilə qubernatora tabe olmayaraq bir vilayəti-mümtaza halına qoyulmuşdur.

Bakı mühüm bir ticarət mərkəzi və ələlxüsus nefti ilə məruf olaraq cahanca şöhrət bulmuşdur.

Neftindən əlavə ta qədimdən bəri İran, Türküstan, Rusiya yolları üzərində bir nöqteyi-müvasilə və münaqilə olduğundan əlavə burası Qafqasiya müsəlmanlarının ələlümum və Azərbaycan türklərinin əlalxüsus mühüm bir mərkəzi-ürfanı olmuşdur.

Yeni Azərbaycan məktəbi, mətbuatı, ədəbiyyatı, sənayei-nəfisə və səhneyi-tamaşası həp burada nəşvü-nüma bularaq nəhayət, Azərbaycan təşkilati-ictimaiyyə, iqtisadiyyə və siyasiyyəsi dəxi burada bina tutmuşdur.

Rusiya inqilabı zühur etdikdə ilk Zaqafqasiya qurultayı burada toplanıb mərkəzi müsəlman komitəsi dəxi burada təsis etmiş, Azərbaycan muxtariyyət fikri burada möhkəmləşərək muxtariyyətçilər burasını Azərbaycan bədəninin ayrılmaz bir təfləsi, paytaxtı elan eləmişlərdir.

Bu fikrə qarşı mübarizə edən bütün rusiyaçı firqələr müxtəlif növ və şəkillərlə Bakının Azərbaycan paytaxtı fikrinə qarşı mübarizə eləmişlər, bu məqsədlə də Bakı türklərinin başına mart faciəsini açmışlar və bakılı müsəlmanları altı ay tamam təzyiq və əsarət altında bulundurmuşlardır.

Nəhayət, Bakıyı qurtarmaq üçün yeni təşəkkül edən Azərbaycan hökuməti Türkiyə dövlətinə müraciət eləmiş, igid qardaşla-

rımız vaxtında yetişərək Nuru Paşa, Mürsəl Paşa və Xəlil Paşaların komandasında olaraq 1918 sənəsi sentyabr ayının 15-də qanlı bir müsadimədən sonra Bakı təkrar əsl sahibi olan Azərbaycan türklərinin əlinə keçmişdir.

Bakının istirdadı Azərbaycan istiqlalının yüzdə doxsan təmyini-istiqlal elədigi gündür.

Bakının əhəmiyyəti işbu müxtəsər mütaliədən gördügümüz kibi yalnız keçmişdə degil, daha böyük vəzifəsi gələcəkdədir.

Müqəddimətən Bakının azərbaycanlılardan ötrü bir amal məscidi olduğunu zikr eləmişdik. Fəqət doğru və daha səhih bir təriqlə:

Bakı türklügün şahrahı üzərində vaqe sınmaz atəşlərilə yanan bir amal məşəlidir ki, həpimizin diləgi onun bütün Azərbaycan və bütün türklük üçün daimi bir surətdə işıqlanmasıdır!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 2, 6, 19, 31 dekabr 1918,**
**7 fevral 1919, №55, 57, 68, 75, 108,**
**"İstiqlal" məcmuəsi, 28 may 1919, №1**

## M.Ə.Rəsulzadənin məqalə ilə bağlı izahları

1) Əski türklər üç türk gölündən – Baykal, Aral və Kaspi – böyügü olan Kaspiyə "Quzğun dəniz" derlərdi. Bunun türklərcə digər bir adı da "Türk dənizi" idi.

2) Şirvan vilayətinin, hazırki Bakı quberniyasının yerində qüruni-əvvəlidə "Albaniya" adilə məruf bir qövm yaşıyordu. Bu qövm olduqca cəngavər olub Roma imperiyası ordularına müqavimət eləmişdi. Sonra şimaldan axın edib gələn türk seylaninə dayanamayıb Xozər türkləri tərəfindən münqəriz olub məmləkətləri tutulmuş və türk qəbilələri tərəfindən oturaq edilmişdir.

3) Əski iranilərdə bir üç atəş əfsanəsi vardır. Bu əfsanə Azərbaycan ənənatı ilə əlaqədardır. Bu əfsanədəki həmişə yanar üç atəş "odunsuz yanar, sudan qorxmazmış" ki, Bakının yerdən çıxar və suda yanar təbii qazına kinayə edilmişdir.

4) "Ey morğe səhər eşq ze pərvanə beyamuz
Kan suxtera can şod-o avaz nəyaməd"
Sədi



5) Tapmaq, tapınmaq – türkcədə ibadət və təəbbüd etmək mənasındadır.

6) Mötəkif – günlərlə məsciddə oturub da bu yenə ibadətə (etikafa) oturan zatə denilir.

7) "Aqşam" qəzetəsində Köprülüzadə Məhəmməd Fuad bu fəqərə həqqində əlavə ediyor ki: "Müvərrixən icra edilən tədqiqat nəticəsində elm aləmində bir həqiqət şəklində tələqqi edilən bu rəvayətin heç əsli olmadığı və atəşpərəstlik bu sahəyə ancaq 18 əsrdə hindlilər və hindli parsilər tərəfindən idxal edildigi təhqiq etmişdir".

8) Hüseyn Hüsaməddin, "İqdam" qəzetəsi

9) Övliya Çələbi Bakıya gəldigi zaman xanın toy məclisi varmış.

10) Övliya Çələbi Rəvan xanı ilə birlikdə Bakıya varid olmuşdur.

11) Sultan İran nizamincə bir mənsəbdir.

12) Naxçıvan dəmirindəndir.

13) Şəhərin əskəri olmayan digər qismi ki, o da hasarlı imiş.

14) "Aqşam" qəzetəsi, Köprülüzadə Məhəmməd Fuad

## Lüğət

Rüəsa – rəislər
Müzayiqə – çətinlik
Sur – qala divarı
Təəbbüd – ibadətlə məşğul olma
Münqəbə – sərt, qaba, sıxılmış
Müsəmma – adlanma
Müərrib – tərcümə edən
Məvadd – maddələr
Həvali – ətraf
Zair – ziyarətçi
Məcus – atəşpərəst
Mücaviz – pir, məscid xidmətçisi

Mötəkif – ibadətlə vaxt keçirən
Etikaf – təklikdə yaşama
Xövf – qorxu
Zahib – gedən, yoxa çıxan, məhv olan
Müxəffif – yüngülləşdirən, asanlaşdıran
Bilad (bələd) – ölkə
Məmurə – tikintili, abad
Müqəyyid – qeyd edilən
Mülhəqat – qatılmış, ilhaq edilmiş
Zikr – adını çəkmə, söyləmə
Cədd – ata, baba
Mumaileyn – yuxarıdakı, həmin
Müfrəz – dəstə, hissə
Üzar (izar) – yanaq
Ribat – möhkəm bina, bağ
Nəhb – çapobul
Əsəl – bal
Ruğən – yağ
Səmur – dərisi qiymətli bir heyvan
Zübdə – seçilmiş hissə
Mürəbbə – kvadrat, dördlük
Hədid – dəmir
Təndürüst – boylu-buxunlu
Suri – şadlıq, sevinc
Suri-zifaf – gəlinlə bəyin görüşdüyü ilk gecə
Hədoya – hədiyyələr
Ehraz – qazanma
Tariq – dan ulduzu, zöhrə
İtab – məzəmmət, danlaq
Reyət – icazə, tabe olma
Mənqəbə – hədsiz mədh, mədhiyyə
Ləjan – şişirtmə, mədhiyyə
Xodsəranə – özbaşına
Təsmiyə – adlandırmaq
Kan – mədən; mənbə



Dər – qapı

***Qeyd:*** *M.Ə.Rəsulzadənin "Azərbaycan paytaxtı" məqalələrinin 5 hissəsi "Azərbaycan" qəzetində (№55, 57, 68, 75 – 1918, №108 – 1919), axırıncı hissəsi isə Azərbaycan Xalq Cümhuriyyətinin bir illik yubileyi ilə əlaqədar 1919-cu il mayın 28-də işıq üzü görmüş "İstiqlal" məcmuəsinin 1-ci nömrəsində dərc edilmişdir – Ş.H.*

## Süni böhran

"İttihad" firqəsinin bezdən başlayaraq mütləqa hökuməti düşürmək qəsdilə ortaya atdığı "sorğu" parlaman firqələrinin əhvali-hazirə həqqindəki nöqteyi-nəzərlərini dövlət məsələsində kimlərin hissiyyat və nəzəriyyat ilə, kimlərin əməliyyat və mühakimə ilə hərəkət elədigini göstərdi.

Qarabəyin firqəsi – gediniz, siz məmləkəti idarə edəməzsiniz, diyordu. Buradan təbii olaraq bir nəticə çıxarıyordu.

"Siz gediniz, biz gələlim".

Buna qarşı sosialistlər, əvət, söylənən sözlər həpsi doğrudur, diyordular. Fəqət hökumət getməsin, yerində qalsın. Çünki Qarabəyin hökuməti Fətəli Xanınkindən yaxşı olacağı onlarca bəlli degildir. Çünki "keçəl Həsən, Həsən keçəl ikisi də birdir".

Buradan nəticə – "parlaman özü demokratik degildir" sözü sosialist mənası ilə anlasaq deməliyiz ki, "sosialist degildir". Bunun üçün də gözləməlidir ki, Məclisi-Məbusan gəlsin. O vəqtə qədər bu parlaman bir təhqiqat komisyonu seçsin, bu komisyondan əlavə bir də "ali tribunal" təşkil eləsin.

Bu təklifi edən əfəndilərə sormalıdır:

– Nasıl oluyor ki, demokratik olmayan bir parlamanın hökuməti işə yaramıyor da, haman parlamanın seçdigi komisyon "mələk" çıxıyor.

Burada bir məntiqsizlik vardır.

Bu məntiqsizligi sosialist əfəndilər bütün firqələrə qəbul etdirmək istiyorlardı.

Həqiqət bin bir firqə isə heç bir zaman göydə uçmaya ögrənəməz. Bütün siyasətində zaman və məkan daxilində görülə biləcək işlər daxilində fikir eylər və bu fikirlər üzərinə hərəkətdə bulunmayı məsləhət görər.

Bu nöqteyi-nəzərdən olaraq "Müsavat" firqəsi hökuməti nə düşürəməz, nə də kəvşətməz idi. Madam ki, digər bir hökuməti



və yaxud komisyonu yenə bu parlaman seçəcək, o halda ya etimad və yaxud ədəmi-etimaddan bəhs etmək olar.

İttihad birinciyi, Müsavat da ikinciyi ixtiyar elədi. Sosialistlər isə üçüncü, qəribə bir şəkil təklif etdilər.

Təbii idi ki, məmləkətin mənafeini bir takım basmaqəlib kəlmələrdən degil, həqiqi qüvvətlərin tənasübündən və bu nisbətlərin ülfətindən hasil olma təbii bir nəzəriyyədən bəkləmək lazım idi.

"Al bayraq" İttihad firqəsinin "hökuməti bacarıqsız olduğuna görə iş başından kənar etdirmək istədiginə" inandığını bildirdikdən sonra "Müsavat"a hücum ilə diyor ki:

"Qoy hökumət özü yaxşı bilər, qoy özü düzəltsin" deməklə "Müsavat" firqəsi və yoldaşları boyunlarına "böyük bir məsuliyyət" götürdülər.

Əvət, "Müsavat" boynuna məsuliyyət götürdü və bununla hasil ola biləcək hökumətsizlik məsuliyyətindən "məsuliyyət" nə olduğunu vazeh bir surətdə görməyib də demaqoqların basmaqəlib sözlərindən qorxan zəif bünyəli sosialist mötəliflərini mənən olmasa da, maddətən qurtarmış oldu.

Bunu imdi degilsə də, sonradan, əlbəttə ki, anlarlar.

Fəqət "Al bayraq", öylə də "Zarya" qəzetələri "Müsavat" formulundan bəhs edərkən formulun ikinci qismini qəsdən unuduyorlar. "Müsavat" ticarət və sənaye hasilatının yaxşı bir üsul ilə idarəsi və məkulat ilə ərzaq məsələsinin müvafiq bir surətdə yoluna qoyulması üçün lazım gələn tədbirləri görmək qəsdilə məxsusi bir parlaman komisyonunun təşkilini dəxi təklif elədi və təklifini qəbul etdirdi.

Deməki, sorğu vasitəsilə əfkari-ümumiyyəyi işğal edən məsələlərin yanından keçib də yalnız "hökumət özü bilsin" demədi.

Bu cəhəti örtüb də qarelərinə qərəzkarana bir məlumat verən qəzetələr səmimi bir üsuli-mübarizədən çox uzaqlaşmış oluyorlar.

Böylələri qoy bizdən degil, yoldaş saydıqları "İskra"dan heç olmasa ögrənsinlər ki, "etilaf ya namuskarana (çestnı) olmalı və yaxud heç olmamalıdır".

Hər halda arada bir böhran vardı. Bu böhran keçdi. Fəqət Fətəli Xanın hökumətini degil, ələlümum bu məmləkətdə bir hökumət saxlamaq lazım isə süni böhranlı yaratmaqdan çəkinəlim.

**M.Ə.**
**"Azərbaycan", 9 şubat (fevral) 1919, №109**

Mötəlif – ünsiyyətli, müvafiq



# Yanlış bir avaz

İstihalə zamanlarında, yəni bir haldan digər bir halə keçmək zamanlarında hökumət başında durmaqdan daha məsul, cəmaət işi görməkdən daha müşkül bir iş təsəvvür olunmasın.

Hər şey yerindən təprənmiş. Hər hal digər gün olmuş. Yalnız hökumət müəssisələri, məmurları, idarələri degil, hər bir şey dəgişmiş, yalnız maddiyyat degil, mənəviyyat da alt-üst olmuşdur.

Əxlaq başqa, nəzəriyyə başqa, hətta namus və eşq məfhumları, məhəbbət və nifrət mənaları da başqalaşmışdır.

Böylə bir zamanda cəmiyyəti razı salmaq, məmnun edə bilmək qədər təhlükəli və müşkül bir iş təsəvvür olunmasın.

İştə böylə müşkül bir vəziyyətdə, böylə məsuliyyətli zamanda Azərbaycan Məclisi-Məbusanı müqəddərati-milləti əlinə almış, cümhuriyyət gəmisini bu qaynar və daşar bir vəziyyətdə olan tarix dəryasında üzdürərək Məclisi-Məbusan kənarına gətirmək yükünü yüklənmişdir.

Fətəli xan Xoyskinin hökuməti təşkil olunduğu zaman, zaman və məkanın iqtizasını ölçərək "Müsavat", bitərəflərə, sosialistlər və Əhrar fraksiyonları, milli əqəliyyət nümayəndələri hökumətə etimadla tərzi-hərəkətlərini bəyan etdilər. Firqə məqsədi degil, millət və dövlət nəzəriyyəsi xatirinə bir çox nöqsanlara göz örtməyi müvafiq gördülər.

Yalnız "İttihad" firqəsi başqa bir rəydə qaldı. Fətəli xanın təbirincə "daşını cibində" saxladı.

O zamanlar mərkəz firqələri, bilxassə "Müsavat" ilə bərabər sosialistlər də cəhd ediyor, parlamana girmək istəməyən qeyri-müslim sosialistlərə qandırmaq istiyorlardı ki, Azərbaycan parlamanı xaricində bir idarə, bir çarə yoxdur. Bu nöqteyi-nəzər üstündə duran türk sosialistləri həqiqətən də bir dövlət nəzəriyyəsi və iş zehniyyəti göstəriyorlardı. Firqə propaqandasından, firqə məqsədi güdməkdən ziyadə iş və məmləkət xatiri görülüyordu.

Azərbaycan istiqlalı nöqteyi-nəzərində duran demokratik firqələr böylə sabit bir nöqteyi-nəzər təqibi ilə nəhayət bütün müariz firqələrin də Azərbaycan parlamanını tanımasına səbəb oldular.

Əvvəlcə türk sosialistlərinə "müsavatçı" sosialist namı taxan "yoldaşlar" artıq türk sosialistləri ilə birləşmək və anlaşmaqdan bəhs edən məqalələr yazmağa başladılar. Bunun təsiri ilə bizim sosialistlər də məəttəssüf yanlış bir avaz (ton) götürməgə, əgri bir yola sapmağa başladılar.

"Parlaman demokratik görünmək istiyorsa da degildir" – deyə başqalarının nəqəratını təkrarlamaqla zənn etdilər ki, məqsədə müvafiq bir iş görüyorlar. Firqə məqsədi, propaqanda həvəsi, məmləkət mənafei, iş ciddiyyətinə faiq gəlməgə başladı.

Zatən dedilər, biz bu cür Məclisi-Məbusan düzəltmənin tərəfdarı degildik. Bunu "hakim firqələr" yaratdılar – deyə şikayətləndilər. Halbuki Məclisi-Məbusan qanunnaməsini Azərbaycan Şurayi-Millisi onların iştirakı ilə yazmış və onların dəxi təsdiqi ilə nəşr eləmişdir.

Tutalım ki, parlaman onların istədigi kibi qurula idi. Nəticə nə ola bilərdi.

Vilayətlərdən, komitələrdən, şəhərlərdən adam çağırılmayacaq, 44 adamlıq firqə siyahıları bərfərz iki bərabər artırılacaqdı. O zaman 20 Müsavat əvəzinə 40, 10 bitərəf əvəzinə 20, 4 İttihad əvəzinə 8, 11 sosialist əvəzinə 22 sosialist olacaqdı.

Əcəba, 22 sosialist bu, "həqiqi demokratlar" 120 kişilik bir məclisdə əksəriyyət təşkil edə biləcəklərmiydi. Yaxud 40 nəfərlik bir müsavat sosialistlər və yaxud bitərəflərlə əqdi-ittifaq etmədən bir mərkəz bu vücudə gətirə biləcəkmi idi? Təbii ki, etməyəcəkdi.

O halda sosialistlər bittəbii kəndilərindən daha mötədil olanlarla bir ittifaq bağlamalı idilər. Bu nöqteyi-nəzərdən ilk ittifaq bağlaya biləcəkləri firqə "Müsavat" olacaqdı.

Halbuki "Müsavat"ı baltalamağa başlamışlardır.

Bu baltalamaq bəlkə də sosialist propaqandası yapmaq üçün işə yarar, fəqət məmləkət işi üçün zənn etməyiz ki, faidəsi olsun.



Əcəba, sosialistlərimiz ümumi intixaba bu qədər ümidvar ikən zənn ediyorlarmı ki, sosialist bir əksəriyyət toplaya bilsinlər? Zənn etməm. Madam ki, bu zənn yoxdur, o halda bugünki, yarınki və ehtimal ki, daha o biri günki ittifaqdaşlarını nahaq yerə tanımamazlığa gəlmiyorlarmı?

Yoxsa bu günün "menşeviki" yarının "bolşeviki" deyə mövcud olan nəzəriyyə bizim sosialistlərimiz həqqindədəmi doğrudur?..

Biz buna inanmaq istəməyiz.

Biz qətiyyən arzu etməriz ki, Əhməd bəyin idarə elədigi "Hümmət" Nəriman bəyin idarə elədigi "Hümmət" kibi tənqidat və mübarizələrində feodal və klerikal bir cərəyan mümessilləri olan sağları unudub, demokratik mərkəz ilə elədigi mübarizəyi zamanın təhəmmül edəmiyəcəgi əndazə xaricinə çıxarsın.

O halda ümid edəlim ki, parlamanımızın sol cinahını təşkil edən sosialistlərimizdə son günlərdə görülən yanlış avaz haman fürsət var ikən təshih olunur.

**M.Ə.**

**"Azərbaycan", 10 şubat (fevral) 1919, №110**

İstihalə – halını dəyişmə, keçid
Müariz – etiraz edən
Bərfərz – fərz edək ki, tutalım ki

## M.Ə.Rəsulzadənin 1919-cu il fevralın 5-də Azərbaycan Məclisi-Məbusanının 10-cu iclasındakı çıxışı

Hökumətə verilmiş olan sorğu müzakirəsi öylə bir şəkil aldı ki, adəta Məclisi-Məbusanda büdcə müzakirəsi surətinə düşdü. Qaidədir ümumi siyasət və nəzarətlərin fəaliyyətindən büdcə təsdiqi müzakirəsi əsnasında böylə ətraflı bəhs olunar. Fəqət sorğular üçün məhdud bir dairə var: müəyyən sorğu verilər, hökumət bəyanat verər. Parlaman qane olar və qərar çıxarar. Madam ki, şimdi parlaman qaidəsi pozulmuş, iş cığırdan çıxmışdır, onda ümum siyasət həqqində mütaliətimi bəyan üçün bana da müsaidə verərsiniz zənnindəyəm.

Əfəndilər! Burada hökumətdən bəhs edilərkən parlamandan əvvəlki halı da nəzərə almalıdır, sonrakını da. Məclisi-Məbusan dəvətindən əvvəlki hökumət dövründə olan halların sorğu-sualını sonrakı hökumətə istinad vermək müvafiq olmaz və ədalətə uymaz. Əgər parlamandan əvvəlki hökumətin siyasətindən xəlqə zərər dəymişsə və şimdi lazım görülüyorsa sabiq nazirləri təhti-məsuliyyətə alalım, mühakiməyə cəlb edəlim. Fəqət onların günahı üçün yeni kabinəyə etimad ya ədəmi-etimad məsələsi qaldırmaq heç də münasib şeylərdən degildir. Keçən natiqlər hökumət siyasətindən çox bəhs etdilər. Ona görə bu xüsusda bir qədər bəyanat verilməzsə zənnimcə məsələ birtərəfli təsvir edilmiş olar ki, o da mətlub degildir. Ağamalı oğlu parlamandan əvvəlki halı və o halın qeyri-təbii olduğunu türklərin buraya gəlmələrilə əlaqədar tutuyor. Zopadan və qatı tədbirlərdən şikayətlə Ağamalı oğlu türklərin buraya gəlmələrinin səbəbini müsavatın siyasətində görüyor və diyor ki, türklər gəldilər və bu fəna bünövrəyi qoydular və şimdi haman hal davam ediyor və bir müddət edəcəkdir də. Digər tərəfdən Ağa Aşurov cənabları diyorlar ki, məmləkətimizdə düz adam yoxdur. Bu iki mətləb biri-birilə sıxı surətdə mərbut və hər ikisi yanlışdır. Zira bunların nitqlərinin ruhundan böylə anlaşılıyor ki, biz özümüzü idarə



etməgə, müstəqil olmağa layiq degilmişik. Bən bütün vicdanımla buna protesto ediyorum. Bizim şimdi giriftar olduğumuz hal yalnız Azərbaycan degil, yalnız Ermənistan və Gürcüstan degil, hətta sabiq Rusiya ərazisində təşəkkül etmiş bütün dövlətlərdə degil, əskidən bəri müstəqil yaşayıb özünü idarə etməgə adət eləmiş olan böyük cahan dövlətləri belə aləmşümul müharibə nəticəsi olaraq təbii halını qeyb etmişdir.

Sənələrdən bəri kəndisini idarə etmək nə olduğunu bilmədigimiz, əsarətdə yaşayıb milliyyət hissindən məhrum olduğumuz halda hökuməti əlimizə alıyoruz. Ona görə biz özümüzü idarə etməgə layiq degiliz fikri yanlışdır.

Türklərin buraya gəlməsində bir günah təsəvvür olunuyor. Guya türklər buraya gəlib zopa işlətmişlər. Onları qeyri-yolsuzluqlar ilə də töhmətləndiriyorlar və bu işdə hər nədənsə natiq əfəndi "Müsavat" firqəsini əlaqədar tutur və buyuruyor ki, türkləri Azərbaycana "Müsavat" gətirmişdir. Qəribədir ki, digər tərəfdən də "Müsavat" türkləri istəmiyor – deyə bizi ittiham ediyorlar. Əvət, həm türkləri gətirdik, həm də gətirmədik. Bunların ikisi də doğrudur.

"Müsavat" türkləri çağırdı. Çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə o zamankı Azərbaycan Şurayi-Millisi müttəfiq idi. Bu nöqteyi-nəzərdə sosialistlər bu gün peşiman olsalar da, o gün bizimlə bərabər idilər. Ağamalıyov da türkləri çağırmışdı. Fəqət onlar bundan təkul etsələr də biz etməyiz. Biz kəmali-cəsarətlə deyiriz: türkləri çağırdıq və bununla iftixar ediyoruz! (Alqışlar).

Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycanı istila edəcəkdi. (Mərkəzdən alqış). İştə bu ali məqsəd üçün türklər buraya dəvət olunmuşlardı. Və burada əgər bəziləri tərəfindən bir takım üsulsuz hərəkət vaqe olmuşsa, o kibi münfəridən icra olunan ədəbsizlikləri bizi xilasə koşmaqdan başqa günahları olmayan fədakar türk ordusuna, Anadolu məhmədciklərinə təhmil etmək olamaz. Böylə bir nəməkbəhəramlığı millət irtikab eləməz. (Mərkəzdən alqış). Əcəba, türk əskərləri tərəfindən görülən bəzi şid-

dətləri görürkən rus inqilabçı ordusunun cəbhədən qayıdarkən bütün dəmir yol boyu ilə müsəlman füqərayi-kasibəsi üzərinə yapdıqları hədsiz-hesabsız və həqsiz samosudlarını unutduqmu əcəba (Mərkəzdən səslər: doğrudur! Soldan: öylə degildir!)...

Əfəndilər! Bununla bərabər "Müsavat" türklərin əleyhinə idi də. Bu da bir nöqteyi-nəzərdən doğrudur. "Müsavat" firqəsi birinci firqədir ki, Qafqasiyada türklük bayrağını yüksək qaldırıb türklük hissiyyatını oyatmışdır. (Mərkəzdən alqış). Fəqət bununla bərabər "Müsavat" hər zaman türklər ittihadını bir konfederasyon şəklində təsəvvür eləmişdir. Biz bilirdik ki, Şimal istibdadından yeni yaxasını qurtarmış Azərbaycan türkünün yüz sənədən bəri adət eləmiş xüsusi əhvalları vardır. Biz bilirdik ki, İstanbul doğrudan-doğruya Bakıyı idarə etmək istərsə xəlq bu idarəyə təhəmmül eləməz. Bakı İstanbula qarşı üsyan edər. Bunu biz hər zaman bilirdik. Onun üçün də Azərbaycanın kəndi başına idarə olunmasını istiyorduq.

Biz istəmiyorduq ki, Azərbaycanın da ağırlığı zavallı Anadolu türkləri boynuna atılsın və Azərbaycanda bulunacaq türk ordusu əfradından bəzilərinin yolsuzluqları Azərbaycan türkləri nəzərində Osmanlı türklərini ləkələndirsin. İştə bu nöqteyi-nəzərdən biz məsələyə idrakla baxaraq türklərin bizləri xilas üçün buraya gəlmələrinə tərəfdar olduğumuz kibi, bizim və onların nəfinə olaraq burayı qanunən idarə etmələrinə dəxi tərəfdar idik. Buna görə dəxi bu iki məsələ ancaq söylədigim bu tərzdə doğrudur.

Əfəndilər! Bilirsiniz ki, parlamandan əvvəlki üsul və əhval nə qədər fövqəladə idi. O zamanda siyasi firqə və müxtəlif cəmiyyətlərin nə dərəcə və nə qədər idarəyə nüfuz etdiklərini biliyorsunuz. O zaman hökumət ayrı cür idi. Fəqət hal-hazırda parlaman təşkil olunandan sonrakı hökumət qarşısında məsul olduğu üçün əhval hər dürlü həqqi-təshihə daha müsaiddir. Bu səbəblə bizim düşünəcəgimiz bir məsələ var ki, qarşımızda məsul olacaq xan və hökumətə biz idarəyi nə vəqt və nə kibi halda tapşırmış idik. Əvvəl bunu düşünməli, ondan sonra hökuməti təbdil üçün degil, ancaq hökumətə doğru bir yol göstərmək və bu yolda bir faidə bəsləmək qəsdilə bu kürsiyə çıxıb tənqidat yolunda bulunmaq lazımdır. Bir az müddət zərfində imkan daxilində nə ola bildi – olsun. Mümkün olan işlər əcəba olmuşmudur və yaxud olacaqsa nə dərəcə, nə qədər olasıdır – bunları əvvəla salim bir fikrə sahib olaraq tənqid etmək lazımdır. Türklər bir anda, bir dəqiqədə buradan getməli oldular. Siz bir kərə türklərin buradan çıxdıqları vəqti təsəvvür ediniz, o zamandakı hissiyyatınıza əlinizi vicdanınıza qoyaraq müraciət ediniz. Və sonra da xaricdən gələn bir qüvvəni və o qüvvə dolayısilə doğulan və qorxulu fikirləri düşününüz. Tərəziyə qoyaraq çəkiniz, çəkiniz həp böhranlı və nə kibi xof ilə rica arasında idiniz, sizi xarici qüvvələrə qarşı müdafiə edən bir qüvvə dolayısilə haminiz olan türk ordusu bilməcburiyyə gediyor; əvəzində digər bir qüvvət gəliyor ki, sizinlə olan əlaqəsini qətiyyən bilmiyorsunuz, sizə qarşı nə cür hərəkət edəcək və sizi müdafiə edəcək, yoxsa başqa bir cürə hərəkət edəcək, onun vəziyyəti-siyasiyyəsi nə olacaq, Azərbaycan təxti səlamət olacaqmı, yoxsa yox? İştə öylə təhlükəli bir zamanda Azərbaycan Şurayi-Millisi parlamanı dəvət etdi.

Parlaman üzvləriiclas günündə nə kibi xof ilə rica arasında toplandılar, bunu da siz özünüz pək əla bilirsiniz. O zaman təsadüfi olaraq İngiltərədən maada bir çox xarici qüvvətlər gəlmiş idilər. Paytaxtımızda nələr törətdiklərini də unutmamısınız. Bunların hərəkətləri nə tövr idi. Hər saət, hər dəqiqə parlamanımız hücuma məruz olacağını düşünməkdə idik. Paytaxtımız böylə, başqa şəhərlərimizdə, vilayətlərimizdə nələr vaqe olduğunu bilmiyor idiniz. Bir ümidimiz var idi ki, türk qardaşlarımız gedəndən sonra onların yerində bir Azərbaycan qüvvəsi oturacaq və bizləri müdafiə edəcək. Fəqət o fikrin həqiqətə müvafiq olmadığımı görüldü. Təəssüf ki, Azərbaycanda bir qüvvə də qalmamış idi. Bunu siz də bilirsiniz ki, bu xüsuslarda daha fazlə danışmağa zaman və məkan müsaid degildir. Biliyorsunuz ki, türklər burada ikən nümayəndəlik müəssisəsi olmadığından hökumət nə surətlə idarə ediliyor idi, və nə dərəcəyə qədər idarənin namüsaid olduğunu da bilirsiniz. O zaman işlərin bəzi türk zabitləri ilə nə qədər əlaqəsi var idi.

Nəzarətlərin təşkilatları nə surətlə idi. Sabiq nazirlərdən Ağa Aşurov cənabları bu gün buyurmuş xitabında buyurdular ki, nazirlər xırda işlər ilə məşğul oluyorlar. Neft, bez və sairə şeylər ilə ərizələrə baxaraq imza ediyorlar. Sabahdan axşama qədər məşğuliyyətləri ərizəyə baxmaqdır və böyük işlər ilə uğraşmaya vaxtları olmuyor. Fəqət Ağa Aşurov cənabları kəndiləri nazir ikən nəinki bez, neft və sair vəsiqələrə baxmaq, bəlkə də pomidor icazənaməsini də kəndi imza ediyor idi. İştə ümumi nöqteyi-nəzərdən məsələyə ətraflıca baxılaraq vəziyyəti-siyasiyyəmiz göz önünə gətirilərək bitərəfanə mühakimə etməli və məsələyə öylocə yanaşmalıdır.

Şimdi meydandakı əsl mətləbə gələlim. Meydanda olan yalnız sorğu məsələsidir. Bu sorğu əvvəlcə müəyyən maddələrdən ibarət idi. O maddənin ən əhəmiyyətli məsələsi məmləkətimizin yeganə sərvəti və bütün dünyada məmləkətimizi mümtaz edən neftin müvafiq üsul ilə satılmaması və bəzən xəlqə yaxşıca paylanmaması idi. Bu sorğu əsas etibarilə ticarət və sənaye nəzarətinə aid idi. Fəqət sorğuyu verən əfəndilər əvvəlcə söylədikləri bu oldu ki, onlar heç bir şəxsi müttəhim etmək degil, sistemi əsasən dəgişdirmək istiyorlar və bunun üçün də bir komisyon təşkilini təklif ediyordular. Fəqət sorğu veriləndən sonra gördük natiqlər nəzarətləri büsbütün ayrı tərəfə çəkdilər, ticarət nəzarətinin üsulsuzluğunu düzəltmək qəsdilə neftdən başladıqları halda əsl mətləbin özünü xəfifcə basdıraraq qaradavoylar üzərində dayandılar (alqış). Doğrudur, qaradavoylara əhəmiyyət vermək lazımdır. Çünki onlar cəmaətə daha yaxındırlar. Fəqət bunu bilmək lazımdır ki, hamı məsələlər həqqində birdən danışmaq bir nəticə verməz. Bir məsələ meydanda ikən və həll olunmamışkən digər bir məsələyə keçmək necə ki neft xüsusunda danışan natiq əsl məqsəddən ayrılıb şiddətlə qaradavoy üzərində duruyor doğru degildir. (Alqış). Tənqid parlaman əzasının və hər bir vətəndaşın həqqidir. Sorğuyu öylə verməli və o məqsədlə sormalıdır ki, hökumətin qüsurunu düzəltmək və hökumətə kömək etmək olsun nəinki hökuməti yıxmaq qəsdilə hücum edilsin. Bu surətlə hökumətə verilən sorğu bir nəticə verəmədigi kibi yaxşı bir üsulitənqiddə degildir. Bu hallar ilə iləri gedib bir yana çıxa bilməriz. Paytaxtımızda bir neçə qəzetə çıxıyor və hərəsi bir surətlə hökuməti tənqid ediyor. Fəqət bu tənqidlər arasında böyük fərq var. Məsələn, bizim sosialistlərimizin müvərrici-əfkarı ____ qəzetəsinin də bunların arasında olan təfavütü anlatmaq üçün "Yedinaya Rossiya"dan bir fəqərəyi ərz edəyim. Məsələn, Quba qəzasından hanki bir kənddə isə birisi demiş ki, bizə rus məmuru göndərin. Bunu eşidən "Y.Rossiya" qəzetəsi haman "Azərbaycan cəmaəti rus hakimiyyəti istiyor" – deyə nəşriyyatda bulunur. Əgər bizim də tənqidatımız böylə olarsa vay bizim halımıza. Hanki qüvvətlə və kimlə olursa-olsun hökuməti düşürəcəgəm deyə düşünmək və bu nöqteyi-nəzərdən tənqidatda bulunmaq vətən və millət mənafeyi ilə uymaz (alqış).

Siz buna diqqət etməlisiniz ki, parlaman dəvətindən sonra bütün əhval müşkülat içində olmaqla bərabər məmləkət bu hökumətə tapşırılmasından ancaq beş həftəlik bir vəqt keçmişdir. Bu müddət öylə uzun bir vəqt degil ki, hökumət əski qüsurları islah edib öylə bir vəziyyət vücuda gətirsin ki, qurd qoyun ilə otlasın və Ağamalı oğlunun göstərdigi şeylər olmasın. Bu dərəcə nikbin olsaq özümüzü aldatmış olarız. Zira insan imkan xaricində şeylər tələb edərsə, şübhəsiz təbiət onu verməz və nəticədə insan məyus olar. Bu gün bir hökumətdən 5 həftə müddətində bütün işləri dəgişməsini və yenidən bir çox işlər görməsini tələb etmək və bunu nikbinlik ilə gözləmək şübhəsizdir ki, gözlədigimiz su səhrada görünən sərab olub bizi aldadar. Ağamalı oğlu bu hökuməti keçən hökumətin misalı hesab edərək ya keçəl Həsən, ya Həsən keçəl, nə təfavütü var, o hökumətin vəqtində nə vardısa, heç dəgişməmişdir – diyor. Məsələ, diyor ki, Qazaxda şikayət edənləri dögürlər, filankəsi tutublar, sudyaların da tapmıyorlar. Bunların düzəldilməsi həp bu hökumətdən gözləniyor. Köhnə təsəvvürlərdə tamamilə buna təvəccöh olunur. Hər bir şeyin islahı tələb ediliyor və az bir müddətdə işlər düzəlməyəndə deyiliyor ki, hökumət iş görmüyor.

Ağa Aşurov dəxi hökuməti tənqid ediyor. Yalnız hökuməti degil, milləti də tənqid edərək diyor ki, məmurlarımızın əksəri

rüşvətxordur. Lakin yaxşı ki, fikrini islah edərkən diyor ki, məmurların məvacibi azdır; müəllimlər aldıqları məvacib kifayət etmədigindən başqa işlər aramağa məcbur oluyorlar. Hökumət onların məvacibini artırmalı. Həyatlarını təmin etməlidir. Ağa Aşurovun bu rəyinə bən də şərikəm. Bu sözlərə bən dörd əl ilə imza edərəm. Fəqət bu işlərin həpsini yalnız hökumətmi görməlidir. Biz bu xüsusda təşəbbüs edə bilməzmiyiz?

Məvaciblərin artması həqqində parlaman bir qanun vəz edə bilməzmi? Ağa Aşurovu və sair məbusları qanun vəz etmək hüququndan kim məhrum qıldı? Parlaman edə bilərdi ki, ümum məmurların təmini üçün bir qanun versin. Odur ki, qüsür yalnız hökumətdə degil, bizim özümüzdə də böyük qüsurlar var. Siyasi firqələr hər yerdə gördügü, eşitdigi nizamsızlıq və həqsizligi hökumətə həme və onu tənqid ediyorlar. Fəqət bən sual edirəm ki, hökuməti fəaliyyətsiz adlandıran siyasi firqələr əllərini döşlərinə qoyub vicdan rahatlığı ilə deyə bilərlərmi ki, onlar xəlq mənfəətinə lazım olan qədər işləmişlərdir? Hanı bu firqələrin xəlqə doğru getdikləri. Hanı xəlq içinə təşkil etdikləri şöbələr, bu firqələr hökumət üçün nə yapmışlardır?____________Nə yolda işləmişlərdir? Tiflisdə oturaraq qəzetə çıxarmaq asandır. Kənardan tənqid etmək mümkündür. Odur ki, bunu ediyorsunuz, amma xəlq çinə getmək, xəlq arasında işləmək çətindir. Odur ki, heç kəs onun dalınca getmiyor. Diyorsunuz ki, uyezdnı naçalnik quldurlara, adam öldürənlərə istinad ediyor. Əgər öylə isə yenə təqsir siyasi firqələrdədir. Çünki həman uyezdnı naçalniklərin, ya sair məmurların yanı başında firqə şöbəsi olsaydı şübhəsiz ki, o məmur çalışardı siyasi firqəyə istinad etsin. Əgər firqələrlə köylərə, xəlq içinə getmiş ordular çalışmış və xəlqi anlatmış olsa idilər yəqin ki, xəlq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı. Şimdi bu şeylərin heç biri yoxkən, ümumi pərişanlıq vaqe ikən hökumətdən tələb etmək ki, bir ay zərfində hər işi düzəltsin, hər şeyi islah etsin, bu ona bənzər ki, hökumətdən tələb edəsən kimya ilə, eloksir ilə hər işi düzəltsin kən diyun feykun olsun. Amma bunu gözləmək quru səhrada su axtarmaq kibi puç bir ümiddir.



Sonra bir şeyə daha nəzərinizi cəlb edirəm. Əfkarımız da daha artıq icrayi-təsir etmək üçün burada bizə diyorlar ki, Azərbaycanın halı hamı məmləkətlərdən fənadır. Qonşularımız bizdən rahət və ucuz yaşıyorlar. Fəqət bu iddialar əsassızdır. Həmımıza məlumdur ki, Ermənistan acından və ənvai xəstəlikdən qırılır. Gürcüstan buradan daha bahalıqdır. Orada ağ çörək 7 manata, qara çörək 4 manat yarımdır. Suyi-istemal hər yerdə var. Hətta Gürcüstanda bir dərəcəyə varmışdır ki, hökumət xüsusi bir məhkəmə qurmağa məcbur olmuşdur. Suyi-istemallar ittifaqında məmurlardan bu məhkəməyə şikayət verilir. Görürsünüz ki, qonşularımız da mələk degildirlər. Biz Azərbaycanı qonşularımız ilə müqayisə edərkən görürüz ki, Azərbaycanın halı onlardan yaxşıdır.

Əlbəttə, mən bu iddiada degiləm ki, bizim hər işimiz mükəmməldir. Amma bunu deyirəm ki, o dərəcə kamal da degilsə təqsir yalnız hökumətdə degil, bizdə də var, Gürcüstan ilə özümüzü müqayisə edərkən biz bunu nəzərdə tutmalıyıq ki, əvvələ Gürcüstan hökumət və parlamanı 7 aydır işləməkdədir. Bizimki isə bir ay yarımdır. Bundan əlavə onların vəziyyəti-siyasiyyəsi daha yaxşı, daha əlverişli idi. Onların vəziyyətini yaxşılaşdıran böyük bir amil də var ki, o da siyasi firqələri və müntəzəm əskərləri mövcud olmasıdır. Onlar 60-70 il siyasi həyat keçirmiş firqələrə malikdirlər. Biz onlarla bərabər olmaq istəsək onlar kibi uzun müddət bir siyasi həyat keçirməliyiz. Hökumətə etimad, ya ədəmi-etimad məsələsini müzakirəyə qoymaqdan ötrü bezdən, qaradavoydan başlayıb bu ikisini bir-birinə mərbut qoymaq əsla dövlət nəzəri degildir. Həmçinin hökuməti nə olur-olsun düşürmək və sonra nə olacaqsa təvəkkül Allaha demək doğru bir nəzər degildir. Bir məbus heç vaqt bunu böylə düşünəməz ki, hökuməti hərçe badabad yıxsın. Bir məbus xarici və daxili düşmənləri görməli, hökuməti bu halda düşürmәgi bütün vətənə və millətə nə kimi nəticələr verə biləcəgini düşünməlidir. Hökumətə etimad məsələsini araya çıxararkən bunu bir ətraflı ölçməli-biçməli, ətrafa nəzər yetirməli və fikir etməlidir ki, məmləkət böylə təbəddülatə təhəmmül edə bilərmi? Xaricdəki düşmənlər, daxildəki

təşkilatlar hökumət sürənlər nəzərə alınsın da sonra böylə məsələlər araya atılsın. Bu mülahizələrlə də ki bən diyorum etimad məsələsi bilmərrə qaldırılmasın, çün məmləkətin vəziyyətinə müvafiq degildir. Doğrudur, ticarət və sənaye nəzarətində, neft satışında, bez təqsimində, malların mübadiləsində üsulsuzluq vardır. Fəqət tədqiq etsəniz görərsiniz ki, bu əhvalsızlıqlar yalnız hökumətin təqsiri degil, fabrikanın özündə də, fabrika məmurlarında da bir çox nöqsan vardır. Tağıyev fabrikasının özünəməxsus bir politikası var ki, xəlqi müşkülata salan da odur. Fabrikaya yaxın olan adamları sorsa idiniz, onlar daha ətraflı məlumat – (исчерпывающие объяснение) – verərdilər. Hökumətin təqsiri budur ki, fabrika politikasına göz qoymuyub laqeyd baxmış və bu işlərin qabağını almaq təşəbbüsündə bulunmamışdır. Əgər hökumət vəqtli-vəqtində fabrika politikasına diqqət verib onu kökündən kəsmiş olsaydı, bu gün böylə şiddətli hücum və tənqidlərə məruz qalmazdı. Fəqət hökumət bunu etməmişdir. Əgər etmişsə də bəlkə lazım bilsələr məlumat da verərlər. Fəqət bu gün təklif edərdim ki, hökumət bu işə baxmaq üçün xüsusi bir komisyon təşkil etməlidir ki, ümumiyyətlə mal mübadiləsinə və fabrikanın məamlatına diqqət yetirsin ki, daha böylə üsulsuzluqlar olmasın. Məsələn, Bakıda olan neft Bakının içində satılıb qurtaran bir şey degildir. Allah bərəkət versin bir xəzinə ki, yalnız Bakıda degil, hətta bütün Azərbaycanda satılmaq ilə qurtarmaz. Nefti xaricə çıxarmalı, daxili məmləkətlərə satmalıdır. Nefti də dəmiryolu ilə çıxara bilərik. Yolumuz nə qədər neft çıxarmağa imkan verirsə hökumət çalışıb o qədər neft buraxmalıdır. Ancaq neft ixracına müsaidə verilirkən nəzarətdə heç baxılmır ki, görək izn istəyən adam həmişə bunun alış-verişini neft xəstəligi kimi bir xəstəlik olub Azərbaycanı tutmuşdur. Tacir, doktor, müəllim, xülasə hər kəs bu alış-verişlə məşğul olub və müsaidə istiyor. Ticarət nəzarəti də hər istəyənə bilatəhqiq və tədqiq izn veriyor. Böylə tədqiqsizlik nəticəsindədir ki, müşahidə etdigimiz üsulsuzluq çıxıyor. (Alqış).

**"Azərbaycan",**
**12 şubat (fevral) 1919, №112**



Tənvir – işıqlandırma
Kən – qazıyan, sökən
Diyun – vəzifələr, borclar
Təkul – qaçma
Münfəridən – tək-tənha
Təhmil – yükləmə, şamil etmə
Nəməkbəhəran – duz-çörək itirən
Sərab – susuz çöldə yer üstündə yığılan buxarın uzaqdan su kimi görünməsi
Həml – aid etmə, həvalə etmə
Ənva – müxtəlif
İrtikab – pis iş
Rəca – ümid, arzu
Maəda – qeyri, başqa

## Niyə gediyorlar?

Bu sayımızda oxucular Behbud xan Cavanşir ilə Əbdüləli bəy Əmircanov cənablarının firqədən istefa edib getdiklərini oxuyacaqlardır.

Firqədən gedənlər yalnız bunlar degildir, başqa gedənlər dəxi vardır, doktor Xosrov bəy Sultanov ilə Teymur bəy Makinski dəxi firqədən gedənlər cüzindədirlər.

Bu zatlar firqəyə əvvəlindən degil, sonradan qoşulmuşlar idi.

Bu gedişlər yalnız bir neçə şəxsin gedişini göstərmiş olsaydı, biz ondan qətiyyən bəhs eləməzdik. Fəqət bu, həyati-şəxsiyyəmizdə az-çox mühüm bir mövqe işğal edən zatların firqədən getmələri ilə bərabər "Müsavat"dan bir çox adamlar getmişlər ki, yuxarıda ismləri zikr olunan zəvat onların birər nümunəsi (tipi) və aqilləridir.

Sultanovlar, Cavanşirlər və digərləri firqədən gedərkən kəndilərilə bir qism xəlqi, müəyyən bir sinif və məslək əhlini təmsil ediyorlar, buna görə dəxi bu gediş adi mənasından ziyadə ictimai bir mənaya malikdir. Bu mənanın nədən ibarət olduğunu anlamaq üçün əvvəlcə "Müsavat" firqəsinin nə təbiətdə bir firqə olduğunu anlamaq lazımdır.

"Müsavat" milli-demokrat firqəsidir. Bu firqə xaricə qarşı millətpərəst, daxilə qarşı xəlqçidir. Nə qədər ki, firqə vahid Rusiya şəraiti daxilində daha sonra Zaqafqasiya siyasiyyət keşməkeşlərində milli bir idealın hüsuli üçün çalışıyordu, bir takım şəxslərlə siniflər bu mübarizədə Müsavata tərəfdar idilər. Bu tərəfdarlardan bəziləri Müsavat ilə təşriki-məsai eləmiş, onunla ittifaq yapmışlardı. Onuncu nömrə siyahı daxilindəki bitərəflər bu qəbildən idilər. Bunların ən rəngli, eyni zamanda da pakizə nümayəndəsi Fətəli xan Xoyski idi. Əvvəldən də firqəyə girmədi, bu gün də firqədə degildir.

Fəqət bəziləri "bitərəf"ligə kifayət etməmiş, firqəyə qeyd olunmuşlardı. Firqədən sayılıyorlar idi. Bu kərə firqədən çıxan əfəndilər də onlardandır.



Bunlar Azərbaycan istiqlalı bir fəaliyyət almağa başlarkən artıq Müsavatdakı yerlərini həm soyuq, həm də tikanlı görməyə başlamışlardı. Çünki firqənin xarici proqramını qurtarıb yavaş-yavaş daxili proqramı tətbiq edilmək lazım gəliyordu. Xəlqin həqqini tanımaq sırasıydı. Sözdə degil, işdə tanımaq vəqti gəlmişdi.

Təbii bir surətdə təyini-məslək etməmiş olanlar təbiidir ki, firqə ilə dizertirliyə başladılar.

"Dizertir"lərdən birisi qayət səmimanə olaraq etiraf ediyor, diyor ki:

"O vəqt Müsavat milliyyət əsasını müdafiə edən ən qüvvətli bir firqə idi. Biz o vəqt üçün bu firqənin məsləkini doğru görərək kəndisini qüvvətləndirmək üçün oraya yazıldıq. Fəqət şimdi doğrusu biz görüyoruz ki, Müsavat sola doğru gediyor. Bu isə bizim nöqteyi-nəzərdən məmləkətin halı üçün faidəli degildir. Onun üçün də firqədən getməgimizlə müvazinəyi düzəltmək istiyoruz".

Bu, olduqca doğru və əgər istərsəniz səmimanə bir etirafdır. Bu etiraf "niyə gediyorlar?"sualına nə qədər aydın bir cavab veriyor.

Bu cavabı əxlaqi-siyasiyyədə müşkülpəsənd olanlar bəlkə də kiçicik bir təbəssümlə qarşılarlar. Fəqət bununla bərabər qəbul etməlidirlər ki, cavab ən doğru bir cavabdır.

Əvət, gediyorlar – çünki onlara bir qalib yalnız bir zahir lazım idi. Halbuki Müsavatın ruhunu dərk etmiş olan firqəçilərə yalnız qalib degil, ruh dəxi lazım idi.

Biz istiqlalı, muxtariyyəti, millətin hürriyyətini yalnız bir ad üçün və yaxud qüvvət sahiblərini məsnud qılmaq üçün istəmiyorduq. Bizim məqsudimiz türk demokratiyasının xilası, Azərbaycan xəlqinin hürriyyəti idi. Bizim üçün proqramımızın bütün maddələri bir dərəcədə əziz və müqəddəs idi.

Biz səflərimizdə bizimlə yolu başa qədər getmiyəcəklər olduğunu pək əla bilirdik. Bilirdik ki, bizimlə yarı yola qədər gələnlər də axıra qədər varanlar da olacaq. Axıra qədər bizə yoldaşlıq edənləri biz heç bir zaman gözü sağda qalanlar arasında arama-

dıq. Biz xəlq firqəsi olduğumuza, mənzili-məqsudə dəxi həqiqi xəlqçilərlə bərabər olaraq gedəcəgimizə hər zaman inanmışsız, bu imanımız hər zaman bizə rəhbər olmuş, bu rəhbərlik sayəsindədir ki, türk demokratiyası Müsavatı bir dost kibi tələqqi etmişdir. Bizdən gediyorlar onlar ki, demokratiya ilə yaxın bir dostluqda bulunmaq təbiətlərinə uymaz. Bizdən gediyorlar onlar ki, səflərimizdə bulunmaları firqəyə "xan və bəy firqəsi" deyirtməyə bir səbəb təşkil ediyordu.

Mühafizəkar burjua ilə mürtəce feodallar "Müsavat" radikalizmi ilə demokratizmini əlbəttə ki, çəkəməzlərdi, onlar ya gərək firqəyi özlərinə çəkə idilər, yainki firqədən çəkildilər.

Təbii idi ki, ikinciyə nail olacaqlardı, oldular.

İmanı naqis olanlar firqələrdən gediyorlar.

Pək əla ediyorlar, getsinlər firqə səflərində imanı naqis olanlar nə qədər az olursa firqənin imanı o dərəcədə kamil olur.

Zatən böylə bir təzkiyəyi-nəfs üçün degilmi idi ki, firqə Azərbaycan Məclisi-Məbusanında tamamilə müstəqil bir fraksiyon təşkil elədi?!...

**M.Ə.Rəsulzadə**
**"İstiqlal" qəzeti, 14 şubat (fevral) 1919, №2**



# Bu günün məsələsi

Bakı əfkari-ümumiyyəsi, bilxassə şəhərin türk qismi əndişələr içindədir.

Biçeraxovun otryadı buraxıldıqdan sonra hər kəs düşünüyordu ki, artıq bu məmləkət şübhəli qüvvətlərdən xilas olacaq.

Fəqət öylə olmuyor. Biçeraxov əvəzinə Prejevalski oturuyor. Bir yandan "likvidatsiya" gediyorsa da, digər yandan "zapis" gediyor. "Dobrovolçeski armiya"ya könüllü yazılıyorlar. Könüllü yazılanlar da əksərən ermənilərdir.

Bu könüllülər şəhərin mərkəzində, meydanlarında məşq ediyorlar. Bu suratlə xəlq arasına həyəcan düşüyor. Hər kəsi əndişələr götürüyor.

Həqli olaraq "yarın nə olacaq?" – deyə düşünüyorlar.

Bir tərəfdən də Denikin ordusunun nümayəndəsi şəhərimizə gəliyor. Nə yapıyor, nə yapamıyor, bilmiyoruz. Bu qədər biliyoruz ki, Denikin ordusu bolşeviklər ilə mübarizəyi unudub da "asi" Qafqasiya millətləri üzərinə çökmək niyyətindədir. Gürcüstan təhdid olunuyor. Dağıstana qarşı hərəkət başlanıyor.

Böylə bir zamanda əcəba, Azərbaycanın paytaxtında toplanan bu qüvvətlər nədir? – deyə hər kəs pək həqli olaraq düşünməzmi? Əlbəttə, düşünər.

Hər kəs böylə təbii olmayan bir hərəkət qarşısında təlaş edər.

Bir zamanda ki, ingilis komandanlığı Azərbaycanda yeganə bir hökumət olaraq ancaq Azərbaycan hökumətini tanımışdır, öylə bir zamanda burada başqa, bizi tanımayan və bizə düşmənanə bir fikir bəsləyən qüvvətlərin toplanması, əlbəttə ki, təbii görüləməz!

Bir zamanda ki, bütün firqələrlə bərabər erməni milli komitəsi dəxi Azərbaycanın haqqini tanıyaraq Məclisi-Məbusanə nümayəndələrini və hökumətə vəzirlərini göndərmək üzrədir, bir zamanda ki, Ermənistan ilə Azərbaycan arasında münasibati-siyasiyyə başlıyor, erməni əskərlərinin təkrar könüllü yazılmaları və bir takım əskəri qitələr təşkil edib də şəhərimizdə mövcud kazarmaları tutmaları son dərəcədə qeyri-təbii bir haldır. Bu ha-

lın qeyri-təbii olduğunu daşnaksakanların qəzetəsi olan "Vperyod" qəzetəsi dəxi etiraf ediyor. O, öz yanında zavallı işsiz qalan erməni əmələlərinin gününə ağlıyor, diyor ki, onları "başqa yola göndəriyorlar". Anlatıyor ki, işsiz erməni əmələləri iş bulamıyor. Evlərinə gedə bilmiyorlar, çarəsiz qalıb da bir parça çörək üçün könüllü yazılıyorlar. "Kim bilər harada, bəlkə bolşeviklərlə, bəlkə də dağıstanlılarla olacaq müharibədə öləcəklərdir".

Deməli ki, erməni məhfilləri də bu halın qeyri-təbii olduğunu dərk və etiraf ediyorlar, fəqət dəlilləri başqadır. Köhnə dəlil və sübutlardır.

Fəqət bən zənn etmiyorum ki, Azərbaycan hökuməti erməni işsizlərini kəndi paytaxtından təmizləmək üçün lazım gələn tədbir görməkdən imtina eləsin. Və zənn etmiyorum ki, "Amazasp" kibi general "işsizlər" cərgəsində hesab olunsun.

Dəlil və sübutlar əskidir. Əcəba, köhnə tarix təkrar edilməsin!...

Hökumət bu xüsusda göz-qulaq olub bəsirətlə hərəkət etməlidir. Bir an əvvəl evlərinə gedəcək erməniləri yola salmalıdır. Və hər növ bəhanələrini kəsmək üçün nə etmək lazım isə etməlidir.

Eyni zamanda da ingilis komandanlığından tələb etməlidir ki, bizə qəti və ciddi təminat versinlər, görək bu toplanan könüllülər kimdir, nə üçündür. İstəməlidir ki, burada Azərbaycanın paytaxtında Azərbaycana sadiq olmayan heç bir qüvvət bulunmasın. Qəribədir Azərbaycan paytaxtında Azərbaycan əskərindən başqa hər növ əskər vardır. Buna bir intəha vermək lazım.

Böylə bir təbii tələb qarşısında bitərəf ingilis komandanlığı da bir söz deməz.

Bir an əvvəl Azərbaycan əskəri şəhərimizə daxil olmalıdır. Bu xüsusda hökumətin əsas etibarilə qərarı olduğunu biliyoruz.

Fəqət camaat dördgözlə gözlüyor.

Nərədə əskərlərimiz!

Qoy hökumət bir tərəfdən öz qüvvətimizi buraya gətirsin, bir tərəfdən işsiz adamları şəhərdən azaltsın. Bir tərəfdən də işsizlərə bir növ "iş" tələsi olan könüllü əskər təşkilatının təhəmmül olunmaz bir hal olduğunu isbat ilə lazım gələn tədbirlərdə bulunsun.

Əfkari-ümumiyyə bunu istiyor. Əhalinin əmniyyət və qəlb rahatlığını istəyən qüvvətlər isə hər şeydən əvvəl bu tələbə etina etməlidirlər.

İştə bu günün həll olunacaq məsələsi!

**M.Ə.**

**"Azərbaycan", 17 şubat (fevral) 1919, №115**

# Azərbaycan Məclisi-Məbusanında 10-cu iclas

**Rəsulzadə Məhəmməd Əmin** – Bir məsələ üzərində çox mübahisələr edildi. Bən də istər-istəməz nitqimi o məsələyə qaytarmağa və cüzi də olsa ondan təkrar bəhs etməgə lüzum görüyorum. Çünki arada bəzi suyi-təfəhhüm vardır: onları izah etmək məcburiyyətindəyəm. Ağamalı oğlu türklər həqqindəki danışığında müsavatı da əlaqədar tutdu. Keçən nitqimdə bən sosialistlər türklərin düşmənidir deməmişdim. Bənim sözlərimdən böylə bir məna da çıxarılamazdı. Fəqət möhtərəm Əhməd Pepinov cənabları kəndi nitqlərində uzun-uzadı bu xüsusda bəhs edərək hətta alicənab türk şairi Məhəmməd Əmin bəy cənablarının qəlbinin tərcümanı olaraq qəlbinin ən dərin guşələrindən qopub gələn hissiyyatlarını misal gətirib o möhtərəm şairin sərih vicdanına sığınaraq kəndilərini müdafiəyə qalxmışdı. Fəqət buna hacət belə yoxdu. Çünki sosialistlər xəlq tərəfdarı olduqları üçün heç bir millətə düşmən olmadıqları kibi türklərə də düşmən olmazlar. Zatən böylə olmasaydı sosialist də olmazdılar. Bütün dünya beynəlmiləliyyətini müdafiə etməzlərdi. İştə bu nöqteyinəzərdən əfkar və səmimiyyətlərinə bütün mövcudiyyətimlə qətiyyən inandığım sosialistləri bu fikirdə təsvir etməzdim. Fəqət ortada bir yanlışlıq görülüyor ki, bu da türklərin dəvət edilməsi məsələsindədir. Əvət, bir millət müşkül vəziyyətdə qaldıqda bir qonşusuna müraciət edər, yardım, imdad istər. O qüvvə təbii o millətin fəhlə və əkinçiləri degil, mütəşəkkil və müntəzəm əskəri olacaqdır. Bu surətlə bir qüvvə tələb edilirsə, ərz etdigim vəch üzrə o qüvvə türk millətinin əkinçi, yaxud başqa bir sinfi degil, ancaq o millətin hökumət və müntəzəm qüvveyi-əskəriyyəsini çağırmaqdan bəhs ediliyor deməkdir. Əvvələ, türk qüvvəsini buraya cəlb üçün hökumətə təhrirən müraciət olunduqda "Müsavat" degil, sosialistlərdən Əhməd Cövdət də bənim ilə bərabər haman kağızı imza etmişdi. Ağamalı oğlunun dili topuq çala-çala söylədigi yanlış nitqinə görə degil "Hümmət" firqəsinin



Tiflisdə nəşr olunan "Probujdeniye" qəzetəsində türklərin Azərbaycana çağırılmasını "Müsavat" tərəfindən bir xəyanət kibi tələqqi edərək durmasından dolayı bu örtülü məsələnin bir dəfəlik üstünü açmağa məcbur olduq. Çünki vəqt gəlmişdir, biz bu vəqti qaçırmayaraq üzərində xəyalilə oynanılan əfkarımızı və nöqteyi-nəzərimizi xəlqə, Azərbaycan əhalisinə, hətta bütün dünyaya elan edəlim ki, əvət, türkləri Azərbaycana biz çağırdıq, bu fikrimizlə də millətimizə faidə təmin etdik və bu çağırmaqlığımızdan qətiyyən peşiman degiliz. Hətta heç bəgənmədigimiz "İttihad və Tərəqqi" hökuməti idarəsindəki qüvvəyi çağırdıq. Lakin Türkiyəyə Sultan hökumətimi, cümhuriyyətmi, yaxud başqa bir tərzi-idarəmi lazımdır? Burası əsaslı bir məsələdir. Biz hələ iki yarım quberniyalıq Azərbaycanı idarə etməkdən aciz ikən aləmşümul bir məsələdən bəhs etməgin nə məkanıdır, nə zamanı. Əhməd bəy cənablarının buyurduğu və şeiriyyəti sübut gətirdigi Məhəmməd Əmin bəy cənabları döyüşkən türk millətinin kəndlərinin halına ağlamaqla bərabər kəndisi də eyni zamanda Məclisi-Məbusan əzasından biridir və lazım bilsəydim ərz edərdim ki, Əhməd bəyin oxuduğu şeirləri də şimdiki hökumətə degil, Əbdülhəmid istibdadı əleyhinə yazmışdır və Əhməd bəyin bəyənmədigi hökumətin icraatını təsvib ediyor.

**"Azərbaycan",**
**18 şubat (fevral) 1919, №116**

## Hər sözə aldanmayalım

Parlaman iclaslarında danışılan sözlər hala küçələrdə davam etdiriliyor.

Əhali arasına min cürə həvadis yayıyor, min araqızışdırıcı sözlər söyliyorlar.

Keçirməkdə olduğumuz bu kibi zamanlarda, bir zamanda ki, parlaman və hökumət ənvai-müşkülat içindədirlər. Bir zamanda ki, hökumətimiz, istiqlalımız var deyə ciddən xatircəm olmaq halında olmadığımızı əqli şey kəsən məktəb şagirdləri belə təsəvvür edə bilərlər. Bir zamanda ki, xəlq içərisindən çıxma həmiyyətmənd bir piri-salxordənin dedigi kibi "südün üzü hala qaymaq tutmaqdadır", bir zamanda ki, bir dəstə müqabil bin düşmən qarşısındayız, bir zamanda ki, yeni qurulmaqda olan dövlətlər degil, əsrlərdən bəri böyük bir dövlət həyatı ilə yaşamış olan dövlətlər, millətlər belə zamanın taqətfərsa ağırlıqları altında inildiyorlar, böylə bir zamanda həmiyyəti, qeyrəti və bundan əvvəl hüsn və idrakı olan bir azərbaycanlı hər sözə aldanmamalı, hər eşitdiginə inanmamalıdır.

Neçə gündən bəridir şəhərə bir küy salmışlar, hərkəsdə hökumətə, vəziyyətə qarşı bir şübhə və etimadsızlıq hissi oyatmışlardır. Xəlqi yerindən oynadaraq nümayişlər etməgə belə meyl etdirənlər, təhrik edənlər olmuşdur.

Burada başqa qoşunlar yığışır. Ermənilər könüllü yazılıyor. Kazarmaları, evləri tutuyorlar. Buna da hökumət etina etmiyor, göz qoymuyormuş.

Bizi satıyorlar, evimizi yıkıyorlar, mart günləri gəliyor, həp yatıyorlarmış.

Yüngül əllərdən, kiçik ağızlara atılan bu sözlər gündə bir rəng və bir əlavə ilə ortaya çıkıyor, xəlqi həyəcana veriyor.

Fəqət xəlq düşünməlidir. Bilməlidir ki, şübhə hər həqiqətin anası olsa da daima kəndi etimadkərdələrini, müqəddəratını tapşırmış olduğu heyəti, adamları suyi-zənn altına almaq, onlara inanmamaq da doğru bir hərəkət degildir.



Zənn ediliyormu ki, küçənin ğeyri məsul adamları və yaxud tənqidlərini ğayət fəna bir şəkildə küçələrə çıxaran bəzi "millət dadxahları" tənqid elədikləri, bəgənmədikləri dövlət adamlarından, millət vəkillərindən daha ürək yanan, daha bəsirətli və daha iş bilən olsunlar?!...

Küçə münəqqidləri ilə cəmaət küyləyən əfəndilər, əksərən cəsur və durbin olmaqdan ziyadə qorxaq və kütbeyn olanlardır.

Ruslarda bir təbir var ki, ona "obıvatelşina" deyərlər.

Türkcə ədəbiyyatda bunu "amiyanə" – deyə tərcümə etmək gərək. Amiyanə düşünənlərcə bir çox şeylər var ki, insan onları görürkən yerindən olmaya bilməz. Fəqət bir az diqqət olununca baxarsınız ki, pək də xoflanacaq bir hal yoxdur.

Bizim keçirməkdə olduğumuz kibi müşkül zamanlarda nöqsan gördügümüz cəmaət işlərində hökymətə zor gəlmək kibi həm faidəli, həm də zərərli bir hal təsəvvür etməyiniz.

Öylə zamanlar var ki, hökumətin əfkari-ümumiyyə tərəfindən təzyiq edilməsi mətlubdur. Bu təzyiq hökumətin bəsirətini açar, görəcəgi təşəbbüslərdə kəndisinə xidmət edər. Bu şərtlə ki, bu təzyiq hüsni-niyyətlə hökuməti irşad qəsdilə olsun.

Yoxsa öylə bir təzyiq də var ki, hökuməti rüsvay etmək, düşürmək üçün olur. Yerinə görə, zəmanə görə bunun da bəlkə faidəsi ola bilər.

Fəqət keçirdigimiz zaman kibi vəqtlərdə bu ikinci tədbirin hər zaman fəlakətlərlə nəticələndigi təcrübələrlə görülmüşdür.

Bir kərə mart hadisələrini xatırlayınız. Martdan əvvəl bolşeviklərlə – daşnakların hərəkatı o zamanki müsəlman idarələri, müsəlman firqələri, "Müsavat" ilə sair müəssisələrə məlum degilmidi?...

Əlbəttə ki, məlum idi. Məəmafiə onlar sikkənin o biri üzünə də aşina olduqlarından həqiqi qüvvətlərin tənasübünü ölçmək imkanında olduqlarından, təbiri-məxsusla, idarəyi-məsləhət ediyor, müsaid bir günün gəlməsini gözliyərək bir növlə müdarə və rəftar ediyorlardı.

Halbuki əmmamələrini əllərinə götürüb küçəyə çıxanlar, məntiqə degil, boğazlarına güc verənlər, milli idarələrin tövsi-

yəsinə, "Müsavat"ın iltimas və ricasına, onların sükun və etidala dəvətedici bəyannamələrinə baxmayaraq məhud "ultimatum"u yazdırdılar. Sonra da zəbt və rabitən çıxmış camaati saxlaya bilmədilər. Olan oldu. İstənilməyən nəticə alındı.

Bu təcrübəyi xatirdə saxlamalıyız. Hər zaman hissiyatımız cuş edərkən, cuşə gələn hissiyatımızı boşuna sərf etməyib, kəndimizi zəbt etməliyiz. Həyəcan, ğələyan və üsyanımızı daima mütənzim bir surətdə işlətməliyiz.

Bu intizamı isə bizə yalnız bir şey verə bilər: hər eşitdigimizə inanmayıb, hər rəhbər ardından getməmək!

Qailə degil, qövlə bax, yəni danışana degil, danışığa bax – deyə siyasətdən başqa hər xüsusda ğayət doğru bir düstur vardır. Fəqət siyasətdə, yəni dövlət və camaət işində isə yalnız danışığın ürəyə sinən olduğu bəs degildir. Lazımdır ki, danışanın etibarı, həmiyyəti, qeyrəti və hər şeydən əvvəl keçmişi bəlli olsun.

Nəticəsi şəxsə degil, bütün millətə, xeyri və ya zərəri bir dəstəyə degil, böyük bir camaatə, bir millət və ya dövlətə toxunacaq işlər üçün "qailə degil, qövlə bax" düsturundan ziyadə "qövlə də, xeyrə də bax" düsturu daha doğru və daha salim bir düsturdur.

Əvət, vətəndaşlar, müşkul bir mövqedəyiz. Mövqemizin müşkilligi yalnız əngəllərimizin çoxluğunda degildir. Bizi hidayət edənlər, bizə yol göstərənlərin çoxluğu da müşkilatımızın bu yükünü təşkil etməkdədir.

Bilsəniz ki, bu zavallı məmləkət nə qədər intriqalara, nə qədər propağanlara məruzdur. Bu propağanlardan hankının məmləkət faidəsi və millət dərdilə söyləndigi, hankısının qərəz və mərəzlə ərz olunduğunu bilmək, seçmək gərək. Onun üçün də yalnız danışığa degil, danışana da diqqət etməli, həm qövlə, həm də qailə baxmalıdır!

Çunki "söyləyəni" degil, "soylədigini" tövsiyə etmişlərsə də, həqq sözlə batil məqsəd örtənləri də göstərmişlərdir.

**M.Ə.Rəsulzadə**

**"Azərbaycan", 19 şubat (fevral) 1919, №117**



Piri-salxordə – yaşlı, qoca
Müqabil – qarşı, qarşılıqlı
Taqətfərsa – taqətsiz, taqətyorucu
Ənva – növlər
Dadxah – fəryada çağıran
Amiyanə – avamcasına
Məhud – öhdəyə götürülmüş
Qail – deyən, söyləyən
Qövl – söz, danışıq

## Getsinlər, gəlsinlər

Keçirdigimiz həftənin zehinləri işğal edən ən böyük məsələsi heç şübhəsiz ki, bir takım bizi tanımaq, bilmək istəməyən yabançı əskəri qüvvətlərin təşəkkülü məsələsi idi.

"Dobrovolçeski" ordunun burada adamlar yığması, bunlar tərəfindən yığılan adamların əksəri ermənilərdən təşəkkül eləməsi, bu əskəri qitələrin şəhərimizdə mövcud olan müxtəlif binaları tutmaları haqli olaraq türk camaəti həyacana gətiriyor, hər kəs yarınki günü düşünməklə vadar eliyordu.

Pək həqli olaraq firqəmizin rusca nəşr elədigi "Naş put" qəzetəsinin ilk nömrəsində hökumətdən tələb olunuyordu ki, bir an əvvəl bu qeyri-təbii halın ortadan qaldırılması üçün ciddi tədbirlər görsün. Qoymasın ki, burada Azərbaycanın paytaxtında bizi tanımayan əskəri qüvvələr otursun, bizə badalaq qursun, mart hadisəsini tazələsinlər.

Əfkari-ümumiyyəyi təhyic edən bu məsələ xüsusunda hökumət rəisi Fətəli xan Xoyski cənabları parlamanın səşənbə günki iclasında növbədən xaric olaraq vaqe olan bəyanatında hökumətin bu məsələ hüzurunda nə kibi tədbirlər görmüş olduğunu bəyan elədi.

Hökumətin bu xüsusda general Tomsona yazdığı məktub ilə aldığı cavabı məktub hökumətin şanına layiq bir surətdə qələmə alınmış bu kibi hallarda göstərilməsi lazım gələn bir əzm və ciddiyyətlə yazmışdır.

Nəticə dəxi hasil olmuşdur. Burada Azərbaycan hökumətini tanımayan bir əskəri qüvvət qalmayacaq. Burada hökumətin razılığı olmadan heç bir könüllü əskər təşkilatına müsaidə edilməyəcək, dobrovolnı əskəri qitəatı beş gün zərfində şəhərimizi tərk edəcəklər. Bu əskərlər tərəfindən tutulan binaların qısa bir zamanda 3-4 günün içərisində boşalacaq.

Bizə qarşı vaqe bulan düşmənanə hərəkətlərilə məruf olan erməni general Amazasp 3 gün içərisində şəhərimizi tərk edəcək.

Hökumətin bu xüsusdakı izahatı o dərəcədə əfkari-ümumiyyəmizin gözlədigi izahat idi ki, firqə fərqi olmadan məbusların



hətta hər nə surətlə olursa-olsun bu hökuməti düşürəcəginə and içmiş olan Qarabəyli Qara bəyin alqışlarını belə qazandı.

Təskinamiz məlumatını verdikdən sonra hökumət rəisi, fəqət bununla bən sizin başınız altını yastıqlamaq istəməm – dedi, öylə bir zamanda biz ki hər vəqt sərvəqt, sərhesab olmalıyız – deyə ehtiyatımızı, şürutini əldən verməməgi tövsiyə etdi.

Fəqət bu tövsiyəyi biz bir əks-səda olmaq üzrə hökumətin özünə ətf etmək istiyoruz. Qoy hökumət başının altı yastıqlanmasın.

Azərbaycan Məclisi-Məbusanında dobrovolçeski armiyanın burada durmasına qətiyyən müsaidə ediləmiyəcəgi bir armiya qitəanın bir an əvvəl şəhərimizdən izalə olunacağı həqqində təminat alındığı həqqində izahat verilməkdə bu armiyanın rəsmi nümayəndələri olan general Prejevalski Kaspi dənizindəki əskəri matrosların iclasına qarşı verdigi bəyanatında baxmalı ki, ku nə söylüyor, general diyor ki:

"Dobrovolçeski armiyanın Soçi-Petrovsk xəttində aşağı endirilmiyəcəgi həqqindəki şaiənin əsaslı degildir. Buna görə də Bakı, Kaspi flotunun əs əl hərəkəsi olmaq üzrə qala bilər.

Qafqasiya ərazisi üzərində təşəkkül edən kibi hökumətlərə gəlincə, bunları birər əmri-vaqe olaraq qəbul etməlidir. Azərbaycan ilə Dağıstan hökumətləri burada Rusiya qüvayi-əskəriyyəsinin sadə pozlaması əleyhində olmaqla qalmayıb biləks bu əskərlərin təşkilatına belə mane və əngəl olmalıdırlar".

General Prejevalski bu sözü söyləmiş, əcəba, yalanmı söyləmişdir. Fətəli xanın parlamandakı izahatına nəzərən söyləməliyiz ki, yalandır. Zira bunun doğru olması qətiyyən təsəvvür olunamaz. Ehtimal ki, bu vəqtə qədər sıxışdırılmadıqlarını görən generallar kəndilərindən ötrü böylə bir müsaidə mənası çıxarmışlardır.

Bu xüsusda hökumətin nəzər-diqqətini cəlb ediyoruz. Bəsirətli olmalıdır ki, aldığımız vədlər haman yerinə gətirilsin, bizi tanımayan dostumuz o olmadıqları mühəqqəq olan qüvvətlər buradan getsinlər.

Fəqət iş yalnız onların getməsilə qurtarmır. Onlar getsinlər. Fəqət bizimkilər, bizim istəkli əskərlərimiz də gəlsinlər!

Bu nasıl paytaxtdır ki, öz əskərindən başqa hər əskər vardır.

Vəqtdir ki, gənc Azərbaycanın gənc əskərləri kəndi paytaxtlarında olsunlar. Onların burada bulunması Azərbaycan istiqlalının şanından olmaqdan ziyadə paytaxtımızın təbii həyatı nöqteyi-nəzərindən dəxi lazımdır.

Şəhərimizdə bulunan ingilis komandanlığının ən böyük vəzifəsi Bakının əmniyyət və asayişini ixlas etdirməkdir. Burada siyasətçiliklə məşğul olan hökuməti tanımayan müsəlləh qüvvətlər əvəzinə bu məmləkətin kəndi bətnindən çıxan, xəlq oğullarından təşəkkül edən, şəhərlərlə, topraqla qan-can və milli bir iman ilə mərbut olan bir ordu qitəmatının bulunması şübhəsiz bir işdir ki, əmniyyət və asayiş işinin paydar olmasından ötrü böyük zamindir.

Azərbaycan paytaxtının sələməti, əhalisinin əmniyyət və asayişini şübhəsiz ki, müntəzəm Azərbaycan alayı hər qüvvətdən daha səmimi və daha ciddi bir surətdə müdafiə edər.

Hökumət bizə bu xüsusda da ümidlər veriyor. Əskərlərimiz gələcək diyor. Əvət, gəlsinlər. Bütün paytaxt əhalisi ilə bərabər biz də onları, o istiqlalımızın fəsih və bəliğ dəlillərini dörd gözlə bəkliyoruz.

Əvət, getsinlər bizi tanımayan şübhəli qüvvətlər, gəlsinlər millətin pərvərdə elədigi əmniyyətli əskərlər!

**M.Ə.Rəsulzadə**
**"İstiqlal" qəzeti, 26 şubat (fevral) 1919, №3**

Təhyic – həyəcana gətirilmə
Ətf – yönəltmə
Kuy – səmt, tərəf, istiqamət



## Hökumət niyə istefa etdi?

Parlaman üsuli ilə idarə olunan məmləkətlərdə hökumətin istefası, kabinə böhranları müxtəlif şəkillərdə ola bilər. Parlamanın etimadını qazanmayan bir hökumət haman istefa edər, yerinə başqa bir kabinə təşkil olunur. Bəzən də olur ki, parlaman ilə ixtilafı çıxan hökumət cəmaətin kəndisinə vasitəsiz olaraq müraciət eylər, bu halda məclis buraxılıb təzə intixablar təyin olunar. Yeni gələn məbuslar əski məbusların nöqteyi-nəzərində durarlarsa, o zaman kabinə qalar, yoxsa artıq hökumətin dəgişməsi icbari olur. Parlamentarizmin bu cəhəti yalnız şəkli hökumətləri və qanun əsasları təyin etmiş olan məmləkətlərdə tətbiq oluna bilər. O məmləkətlərdə ki, hökumət ilə məclis arasında cümhuriyyət rəisinin şəxsi müvazinəçi bir amil olmaq üzrə bulunur.

Bizdə isə hal böylə degildir. Cümhuriyyətimiz dəxi rəis intixab eləməmişdir. Hər nə qədər parlaman rəisi cümhuriyyət rəisi yerini görür kibi isə də sözün mənayi-tamilə bu hüquqa malik degildir. Parlaman rəisi olmaq həsəbilə o qüvvəyi-təşriyyənin (yəni qanun qoyan məclisi-məbusanın) tabeidir. Hər nə qədər hökumət rəisini dəvət eləmək ona məhvəl olunmuş bir həqq isə də məclis fəsx edib də yeni seçkilərə dəvət eləmək həqqi kəndisinə verilməmişdir.

Bu halda Azərbaycan cümhuriyyətinin qanun əsası tədvin oluncaya qədər hökumətin qalması və ya düşməsi yalnız məclisin etimad və ya ədəmi-etimadına bağlı bir məsələdir. Hökumətin məclislə münaqişəyə girib də davanın həlli üçün üçüncü daha səlahiyyətdar bir qüvvətin hökmlügünə müraciət eləməgə imkanı yoxdur.

Bu nöqteyi-nəzərdən baxılınca Fətəli Xan hökumətinin istefası ciddi bir səbəbdən, hüquqi bir alət üzündən iləri gəlməmiş, deməkdir. O halda istefanamədə göstərilən zahiri səbəb, hökumət rəisinin xəstəligidir.

Biz buna zahiri səbəb diyoruz. Çünki batini səbəb başqadır. Bu səbəb hər nə qədər şəklən mövcud degilsə də, parlaman firqələrinin son sorğu münasibətilə göstərdikləri zehniyyət onun ruhən mövcud olduğunu pək əla hiss etdirməkdədir.

Məlum idi ki, hökumət müxtəlif firqə və qruplardan təşəkkül edən parlamanımızın "İttihad" xaricində olaraq bütün fraksiyalarına istinad ediyordu. Fətəli Xan bir çox israr və ilhahlardan sonra bir firqə mənsubu degil, bir şəxs olmaq etibarı ilə hökumət riyasətini qəbul edib kabinəyi də kəndisi bildigi kibi təşkil eləmiş, firqələr isə bu xüsusda hökumətə adətən "kart-blanş" vermişlərdi.

Fəqət getdikcə hökumətə verilmiş olan bu etimad parlaman firqələrinin əksəriyyətindən ötrü kövşəməgə başladı. Firqələr firqə mənafeini kənara ataraq böylə bir zamanda parlamanda qüvvətli bir mərkəz vücuda gətirmək niyyətilə bir qədər olsun xüsusiyyətlərini fəda etmiş ikən getdikcə siyasilikdən ziyadə əhalinin fikrinə qapılaraq tənqidatə başladılar. Nəhayət, pusquda duran "İttihad" daşını çiynindən çıxardı. Hökuməti vurdu. Bu zərbənin təsiri ilə solda duran sosialistlərin də tənqid eləmək həvəsi gəldi. Dövlət nöqteyi-nəzərində duran yalnız bir "Müsavat" firqəsi qaldı. Bitərəflər, Əhrar dəxi şiddətli davrandılar. Nəticədə hər nə qədər hökumət etimad rəyi qazandısa da, mövqei heç şübhəsiz ki, iyi mövqelərdən degildi. Firqələr tənqid etmişlər, fəqət nəticədə çarəsiz qalaraq ədəmi-etimad göstərməmişlərdi. "Həsən keçəl və ya keçəl Həsən" demişlərdi.

Halbuki məmləkətin ehtiyacı böylə çarəsizlikdən təhəmmül olunur bir hökumətə degil, bilaşərt etimad olunur bir heyətədir.

Bu nöqteyi-nəzərdən baxılırsa bu vəqtə qədər hökuməti tutan firqələr arasındakı ixtilafi-nəzər kabinənin degil, parlaman mərkəzinin böhranını isbat edər.

Böhran parlamanın üzərindədir. Əgər parlaman firqələri keçirdigimiz zamanın əhəmiyyətini dərk edər də həqiqətən də sabit bir mərkəz vücuda gətirə bilərlərsə, o zaman sabit və qüvvətli bir hökumət vücuda gələ bilər.

Böylə sabit bir mərkəzin sola doğru və bir "İttihad"la vücuda gələcəgi parlaman firqələrinin əksəriyyətincə məqbul görünüyorsa da iş hələ nəzəriyyatdan-fəaliyyətə keçməmişdir.



Bu xüsusda anlaşa bilmək üçün vəziyyəti-siyasiyyənin nə kibi əsaslar daxilində etilaf etmək iqtiza elədigini bilməlidir.

Bu xüsusda yarın.

**M.Ə.**

**"Azərbaycan", 4 mart 1919, №128**

Həsəb – vəzn, əvəzsiz
Tədvin – tərtib etmə, qanunları sistemə salma
Ədəmi-etimad – etimadsızlıq
İlhah – təkid etmə
Kart-blanş – fransızca məhdudiyyətsiz səlahiyyət
Təhəmmül – dözmə, səbr etmə

## Hökumət niyə istefa halındadır

Dünki məqaləmizdə mərkəzlə solların ittihadından hasil olacaq sabit bir mərkəzin nə kibi əsaslar daxilində təşəkkül edə biləcəginin təhlilini bu günə vəd etmişdik.

Təşəkkül edəcək hökumətin tutacağı məslək zamanın iqtizasına uymalıdır. Bu məsləkin "Bismillahir-Rəhmanir-Rəhim"i heç şübhəsiz ki, bütün türk fraksiyonerlərinin bəyannaməsində kəmali-sərahətlə söylənmiş istiqlal və müdafiəyi-istiqlaldan ibarət olmalı, ondan sonra isə istiqlal və hürriyyətimizi təhdid edən qara qüvvətlərə qarşı əzm və cəzmlə mübarizə edə biləcək bir mahiyyətdə olan ünsürləri barışdıra bilməlidir.

Bu məqsədlə təşəkkül edəcək və bir an əvvəl Məclisi-Məbusan toplayacaq, dövlət idarələrini ciddiyyətlə şəddirəcək, xəlqlə daha yaxından əlaqədə bulunacaq bir hökuməti və bu hökumətin arxasında duracaq ciddi bir əksəriyyəti şübhəsiz ki, yalnız sola doğru təmayül edən bir mərkəz, bir koalisyon vücudə gətirə bilər. Müxalifət isə yalnız sağa münhəsir olur.

Fəqət bu əsası qəbul etməklə bərabər digər bir əsas da vüqua gələcək etilafın zəminəsini təşkil etməlidir. Firqələr parlamandakı qüvvətləri nisbətində hökumətə iştirak etməklə bərabər kabinə rəisi həqqində şəxs etibarilə ittihad eləməli və onun məsuliyyətini müştərəkən qəbul etməlidirlər. Eyni zamanda heç bir firqəyə mənsub olmayıb da işgüzarlığı bütün etilafa gələcək firqələrcə məqbul olan bir-iki bitərəfin dəxi kabinəyə girmələri münasib görülməlidir.

Bu surətlə təşəkkül edəcək bir kabinəyə artıq ona bəyani-etimad etmiş firqələrcə ehtiramı lazım, etimadı zəruri bir heyət kibi tələqqi olunub heç bir müxalifətə baxmadan məmləkət gəmisi sürülməlidir. Yoxsa firqə mənfəətləri, propağan məqsədləri iləri sürülür, ölçüyəgəlməz bir takım iddialarla meydana çıxarsa, o zaman böhran haman davam edib gedər. Böhranın davamı isə məmləkətin mənafeinə heç də müvafiq degildir.

Nə qədər ki, parlaman böylə sabit əksəriyyət əsasını vəz edə bilməmişdir, nə qədər ki, firqələr öz aralarında anlaşa bilməmişlərdir, o zamana qədər də hökumətin istefa halında qalması təbiidir.

Ümid edəlim ki, mülahizəsiz hücumları ilə hökumətin mövqeyini göstərən firqələr füzul təfriqəçilik üzündən yeni təşəkkül edəcək hökumət işini dəxi işkal etməzlər.

M.Ə.

**"Azərbaycan", 5 mart 1919, №129**

Şədd – sıxıb bağlama

## Hazırlanan tətilə dair

Azərbaycan istiqlalı yolunda ən böyük iqdamatdan olmaq üzrə könüllü ordunun paytaxtımızdan çıxarılması və dava gəmilərinin tərksilah etdirilməsi, vətənimizin aşkar və gizli düşmənlərinin xoşuna gəlməmişdir. Ona görə də bunlar əmələ-fəhlə sinfini həyəcana gətirərək ümumi bir siyasi tətil çıxarmaq istiyorlar. Burada türk-islam fəhlə və əmələsi böyük bir rol oynaya biləcəgindən Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi müsəlman qardaşlara xitabən bir müraciətnamə nəşr etmişdir. Vətənin səlaməti və millətin istiqlalı üçün cəmaəti anlatmaq niyyətilə bu müraciətnaməyi eynilə qəzetəmizdə dərc ediyoruz. İştə müraciətnamə:

## Millətdaşlar və yoldaşlar!

Şəhərimizdə axırıncı günlərdə bir neçə mühüm məsələlər oldu. "Dobrovolçeski otryad" adı ilə toplanan soldatlar şəhərimizdən getdilər. Dənizdə olan voyennı flot ingilislərə təslim oldu. Oradakı matrosları da Batuma göndəriyorlar.

Bu məsələlər ətrafında xalq arasında, ələlxüsus əmələlər arasında min cürə xəbərlər çıxarıyorlar. Dobrovolçeski otryad da, voyennı flot da hamınıza məlum olan Biçeraxovun komandasında idi. Sonra Biçeraxov komandanlığından çıxdı. Bunun yerini Prejevalski tutdu. Biçeraxov da, Prejevalski də Azərbaycan hökumətinə dost degil, ikisi də düşmən idi. Biçeraxovun müsəlmanlar əleyhinə nə qədər müharibələr etdigini kim bilmiyor. Prejevalski dəxi Rusiya tərəfdarı və monarxist bir adamdır, Denikinin adamıdır.

Bakıda bulunan rus əmələləri və bu əmələnin yol göstərəni olan Rusiya sosialistləri vaqtilə Biçeraxovun, bu "demokrat" generalın qulluqdan xaric olduğuna çox təəssüf elədilər. O zaman biz Biçeraxov otryadının paytaxtımızdan çıxmalarını tələb elədigimiz zaman onlar buna zidd gediyor, Biçeraxov adilə toplanan şübhəli adamların, bir takım amazasplar əlilə toplanan halları



məlum könüllülərin buradan getmələrində "demokratiya"nın təkyə etdigi sütunun laxlanmasını görüyorlardı.

Doğrudur, Prejevalskini bunlar Biçeraxov kibi qəbul etmədilər, fəqət Azərbaycan hökuməti və xəlqinin dobrovolçeski otryaddan hər nə cürə olsa da buradan çıxarılmalarını dəxi o şiddətlə istəmədilər.

Otryad Prejevalskiyə tabe olmuş, fəqət voyennı flot olmamışdı. Flotda olan matroslar nə Prejevalskini, nə ingilisi, nə də Azərbaycanı tanımıyorlardı. Halbuki pul almaq lazım idi. Pulu kimdən alsınlar?

Bu məsələ idi:

Təklif edən olmuşdu ki, pulu Azərbaycandan alsınlar, amma onun qulluğuna getməyib rahət və sakit qalsınlar. Bu təklifi guya Azərbaycan tərəfdarı olan Rusiya sosial-demokratları ediyordular. Diyordular çünki Azərbaycan zəifdir, ona görə də flot onun əlində olsa zərəri az olar. Çünki onların nəzərində Denikin böyük "bala", Azərbaycan isə kiçik "bala"dır. Bunun azını yol etmək əql işidir.

İngilis komandanlığı Azərbaycan millətinin və dövlətinin israrla elədigi tələbinə görə Prejevalski otryadını buradan çıxartdırdı. Halbuki dənizdə kimsəyə tebe olmaq istəməyən, hətta sosial-demokratların "kiçik bala" deyə tövsiyə elədikləri Azərbaycana su orta da olsa təhəmmül göstərməyən silahlı gəmiləri Bakı bəndərində durmalarına təbii yad qala bilməzdi. Çünki şəhərin general qubernatorluğunu öhdəsinə çəkmiş olan Tomson xəlqin əmniyyətindən məsuldur.

Həm xəlqə qarşı, həm də Azərbaycan hökuməti ilə Avropa əfkari-ümumiyyəsi və öz hökuməti qarşısında cavabdehdir. Edə bilməzdi ki, Bakı bəndərində heç kəsi tanımayan və heç bir iş görmək istəməyən dava gəmilərinin durmasına soyuq baxsın. Bunun üçün şəhəri təhdid edən gəmiləri zərərsiz bir hala qoymaq lazım idi. Bu iş dəxi görüldü.

Qurudan və sudan bizi qorxutmaqda olan iki qüvvət həman rədd oldu.

Bunların rəddi üzərinə politika çevirən bəzi adamlar şəhərə bilxassə əmələlərin arasına bir xəbər çıxardılar: "İngilislər Denikin adamlarını qovdular, flotu təslim etdirdilər, bir azdan sonra Azərbaycana deyəcəklər qalx Gəncəyə get, Bakıyı beynəlmiləl bir şəhər qayıracağız" – deyə aralığa fitnə salmaq istədilər.

Ortaya bir avtokolonna məsələsi çıxdı, məlum olduğu üzrə sentyabrda Biçeraxov ordusu Bakıdan çəkilirkən özü ilə bərabər Bakıda olan bütün avtomobilləri də aparmışdı. Təkrar ingilislər ilə bərabər buraya dönərkən bu avtomobillər də gəlmiş idi. Bu avtomobillərin hamısına onun təmirinə baxan masterskoyla bir yerdə avtokolonna diyorlar ki, burada bir qədər əmələ çalışıyor. Prejevalski gedərkən bu avtomobillərin Bakıda qalmalarını tələb eləmiş, tələbləri üstündə israr etmişlərsə bunun qabağını saxlaya bilməmişlər. Avtomobillərdən bir qismi dəmir yolu ilə degil, dəniz ilə gəmilərə yüklənib aparılmışdır. Təbii idi ki, bu avtomobillərin Bakıda qalması şəhərin, Azərbaycanın mənfəətindən idi – bu avtomobillərin tamamilə burada qalması üçün hamımız çalışmalı idik. İştə bir tərəfdən bizi həqiqətən də əndişəyə salan bir xəbər çıxarıldı, digər bir tərəfdən bizim həqiqətən xoşumuza gələn bir avtomobil tələbi ortaya qoyulur. Nəticədə Bakı demokratiyasının adı ilə hərəkət edən ağalar ingilis komandanlığına bir takım tələblər qoyur, yoxsa zabastovka elan edəcəkləri ilə təhdid ediyorlar, tələb təqribən bundan ibarətdir:

1- Təslim olunan gəmi matroslarının (ki səkkiz yüzə yaxındırlar) "vıxodnoy"larını versinlər və özlərini başqa yana göndərməyib şəhərdə qoysunlar.

2- Bayıldakı elektrik stansiyasındakı ingilis əskərlərini çıxarsınlar.

3- Burada və Krasnovodskda tutulan məhbusları əzcümlə Bakı bolşeviklərinin arvad uşaqlarını buraxsınlar.

4- Avtokoloniyanın şeylərini Bakıdan aparmasınlar.

5- İngilis qoşununu Bakıda azaltsınlar.

Baxalım bu tələblərin bizə nə dərəcədə faidəsi var və onlardan ötrü zabastovka eləmək lazımmı?



1- Bu heç kimə tabe olmaq istəməyib müftə pul yeməyə öğrənmiş matrosların Bakıda qalmalarından nə faidə gözlənə bilər. Şəhərimizdə onsuz da Azərbaycan hökuməti və istiqlal əleyhində bollu olan qüvvətlərə 800-də canı acımış sərkeşliğə öğrənmiş matros əlavə olacaq.

2- Bayıldakı elektrik stansiyasının ingilislərdən boşaldılması tələbinin səbəbi aşkardır. Stansiya əldə olunca şəhəri qaranlıqda saxlamaq asandır, bundan da Bakıyı Rusiyanın bir hissəsi hesab edən ağalar faidə apara bilərlər.

3- Tutulan məhbusların, bilxassə arvad və uşaqların buraxılması tələbi əlbəttə, nəzərə xoş və ürəyə sinan bir tələbdir. Fəqət o qədər böyük bir məsələmidir ki, ondan ötrü paytaxtın həyatı durdurulsun.

4- Avtokolonna şeylərinin məsələsi öz özlügündə doğru və həqli bir tələb olsa da ondan ötrü böyük bir məsələ çıxarılmaz və bu da "vəzni-şeir" üçün qoyulmuşdur.

5- İngilis qoşununun azalmasına gəlincə, bunu istəyən ağalar gərək bizi Denikin ordusu və yaxud başqa bir hücuma qarşı hankı qüvvətlə müdafiə edəcəklərdir?

Yuxarıda biz söyləmişdik ki, Prejevalskinin getməsi ilə flotun təslimi rusiyaçı sosialistləri rahət buraxmıyor. Görünür ki, yanılmamışıq. İştə Rusiya sosial-demokrat firqəsinin naşiri-əfkarı "İskra" qəzetəsi nə yazıyor. O diyor ki:

"İngilis komandanlığı tərəfindən Kaspi voyennı flotu əleyhinə, hətta Prejevalski otryadı əleyhinə görülən tədbirlərin əsl işə baxanda Rusiya demokratiyası əleyhində bir iş olduğu həqqində iki rəy olamaz".

Deməк ki, Prejevalski Rusiya demokratiyasının sütunu imiş. Demək ki, hər nə Rusiya naminə hərəkət edən qüvvət varsa nəticədə haman demokratiya qüvvəsi imiş. Yalnız Azərbaycan tərəfindəki qüvvətlər, türklərin mənafeini gözləyən təşəbbüslərdir ki, demokratiyanın əleyhinə imiş.

Böylə ikiüzlü olduqları üçündür ki, bu ağalar bu məsələlərdən ötrü fövqəladə konfrans çağırdıqda yalnız sosialist firqələrini çağırmaq bəhanəsilə "Müsavat"ı işdən xəbərdar eləməmişlərdir.

Əlbəttə, təqdir edərsiniz ki, bununla onlar bilərək müsəlman əmələsini kənarda qoymaq istəmişlərdir. Çünki bilirlər onların bu macərapərəstliklərinə müsəlman əmələsi uymaz, öz əlilə düşmənlərini qüvvətləndirməz, qalxıb istəməz ki, bizə top atmış olan və hər zaman da atmağa hazır olan matroslar burada saxlansın və yainki dallarınca bir daş göndərdigimiz "dobrovolçeski otryad" üçün heyflənsin.

Kimsənin yadından çıxmamışdır ki, imdi ingilisləri demokratiyanın düşməni deyə əleyhlərinə çıxan ağalar özləri onları buraya çağırdılar, o zaman ingilis ağalar üçün yaxşı idi, çünki Bakını sahiblərinə vermiyordular. İmdi isə yamandırlar, çünki rus qüvvətlərini zəiflətiyor, rus soldatlarını buradan çıxarıyor. Rus flotunun da silahını alıyor, matroslarını da şəhərdən qovuyorlar. Arada bir fitnəli xəbər də çıxarıyor, diyorlar ki, guya bunların bütün təşviqi onun üçün idi ki, ingilislər Bakıyı Azərbaycanın da əlindən almaq istiyorlarmış.

Fəqət əsl məqsəd bu degilmiş, mətləb budur ki, ingilis Bakıyı sahiblərinin əlindən alıb ruslara vermiyor.

Bakı Azərbaycanın paytaxtıdır.

Burada Azərbaycanı tanımayan rus əskəri, rus flotu dura bilməz. Bu həqqimizi müdafiə edən ingilis komandanlığı bizim hər zaman dostumuzdur. İngilis komandanlığı bizim bu həqqimizi fələn qəbul eləmişdir. Rəsmən qəbul etməyəcəgini göstərəcək bir dəlil olsa da, əldə yoxdur. Halbuki utanmadan Bakı demokratiyası adı ilə hərəkət edən əfəndilər bizə "bəla" kibi baxıyorlar.

Halbuki bizim başımızın bəlası onların özləridir.

Bunun üçün ay vətənini, hürriyyətini, istiqlalını sevən türk və müsəlman əmələsi sərvəqt ol, bəzi şirin sözlərə, aldadıcı mətləblərə qulaq vermə, sədəqətinə inandığın bir firqədən məlumat almayınca məbadə zabastovka eləmə!

Bu günlərdə olunacaq zabastovka bil ki, müşkülat içində olan vətənimizə böyük əngəl çıxara bilər.

Qara düşmən Denikin qüvvəti şimaldadır. Hökumət istefa halındadır. Böylə bir zamanda zabastovka eləmək, dəmiryollarını



saxlatmaq, işıqları durdurmaq, işləri saxlatmaq məmləkətin diriligini fəlc bir hala qoymaq deməkdir ki, vətənə xəyanətdir.

Azərbaycanı özləri üçün vətən hesab etməyən, Bakıyı əllərindən çıxan bir dövlət kimi görən adamlar ortayı şuluğa verib də zabastovkadan bəhs edə bilər, on avtomobil üçün minlər ilə əmələyi işdən-gücdən saxlaya bilərlər. Amma bizlər bu macəranın qətiyyən əleyhində olmalıyız.

Demokratlıq adı ilə fəqət rusluq məqsədi ilə elan edilmək istənilən zabastovkada biz bufer deməli, zabastovkaya qoşulmamalıdır.

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi
Mərkəzi Komitəsi
"Azərbaycan", 6 mart 1919, №130

## Hürriyyət gününün göstərişi

Azərbaycanın paytaxtı Rusiya inqilabi-kəbirinin böyük bayramını Bakının inqilablı, yəni küləkli bir günündə icra elədi.

Fəqət təbiətin inqilabına baxmayaraq millətlərin həqqi-istiqlallarını elan etmiş olan böyük inqilab bayramını təbrik üçün Azərbaycan demokratiyası şənligindən geri qalmadı.

Parlamanın müqabil al inqilab bayrağı və səma rəngli Göytürk bayraqları ilə donadılmış küçə əksəriyyəti əmələdən ibarət minlərə baliğ xəlqlə dolmuşdu.

Hürriyyət alqışlanır, məclis alqışlanır.

– Yaşasın Azərbaycan!

denilirdi.

Məbuslar, parlaman rəisi və natiqlər xəlqi təbrik ediyor, xəlq kəndi mötəmədlərini alqışlıyordu.

Parlaman binası bu gün başqa bir şükuh, başqa bir cilvədə idi.

Hürriyyət bayrağı ilə istiqlal bayrağı, bu, əslində nuri-ürfan saçan binanın üzərində Bakı yelinin təsiri ilə püriztirab çırpınıyor və sıcaq busələrlə yekdigəri ilə öpüşüyordu.

Ötədə "İsmailiyyə"nin yanıq binası kəndisini təskinə gələn xəlqə məlul bir nəzərlə bakıyor, fəqət kəndisini unutmayıb üzərinə iki hürriyyət və istiqlal bayrağını taxdıqları üçün millətə zəmani-hal ilə ərzi-şükran ediyordu.

Parlamandan sonra müsəlman əmələləri raboçi klub binasında toplaşdılar. Bura da eyni təzahürat ilə və hürriyyətpərvəranə ilə keçdi. Parlamanı təbrik qətnaməsi qəbul olundu. Rayonlarda dəxi əhval bu surət ilə keçmiş türk demokratiyası kəndisinin istiqlalpərvər olduğunu rəna surətdə göstərmişdir.

Bu xüsusu bir təfsili qismi-məxsusimizdə oxuyacaqsınız.

Biz yalnız bu göstərişlərin mənayi-əslisini qeyd etmək istəriz.



Bu məna isə bizcə əvvəlcə də bəlli idi. Fəqət qoy münkərlər də görsünlər, anlasınlar ki, Azərbaycan istiqlalı bəylər, xanlar və ağalar fikri degil, türk demokratiyasının tələbi və amalıdır.

Var olsun Türk demokratiyası!

**M.Ə.**

**"Azərbaycan", 14 mart 1919, №136**

Mötəməd – vəkil, nümayəndə
Şükuh – böyüklük, ululuq, cəlal
Münkər – inkar olunan, qəbul edilməyən

# Təfəüli-Novruz
## – Qurtuluş bayramına ithaf –

Novruz ənənəsi ənənələrin məbdəini təşkil edən əsatirə nəzərən yalnız İran bayramı degil, İran ilə Turan bayramıdır.

İran ilə Turan hər nə qədər böyük Firdovsinin layəmut Şahnaməsində rəna boyalarla birər düşməni-əbədi kibi təsvir olunuyorsa da bu iki irqin əsrlərlə uzanan vuruşmalarına rəğmən, biribirilə qədim ixtilatda bulunan əksər millətlərdə olduğu kibi pək çox şərikli ənənələri vardır.

Səyavuş kəndi İranından qaçar, Turana sığınır.

Rüstəm turanlı bir pəhləvanı öldürür, fəqət kəndi oğlunu öldürdügünü görür.

İran Turanla hərb edər, fəqət əksərən şan və namla yad indiki sülalələri Turan cinsindən olur.

Zərdüştün belə türk olduğunu iddia edənlər oldu, Zərdüşt əski midiyalı imiş.

Əski midiyalıların (azərbaycanlılar) xalis İran degil, başqa bir cinsdən olduğu, əxirən Turanülcins bir qövmə mənsub olduqları sezilməkdədir.

Novruz, ayin cəmdən, yadigar Cəmşiddən ədd olunursa da, bunu əhya etdirən yenə bir türk sultanı Cəlaləddin Xarəzmşah olur.

Buna görə də Novruzun adı – İranda – Cəmşidi degil, Sultanidir. Novruz Sultanı!

Türk sultanının təşəbbüsü yalnız Novruza aid degil, İran təqviminə də şamildir. İran təqvimləri hala tarixi-cəlali deyə bir üsulu başqa üsullarla bərabər qeyd edərlər.

Turanın böyük heyətşünası böyük Uluğun zici ilə türk üsulitəqvimi – illərin birər heyvan adilə adlandırması – İranda hala baqidir.

Türk münəccimləri, Turan kahinləri illərə verilən heyvan ismlərinə görə o ilin nəxvət və ya səadətini təfəül edərlərdi. Bu təfəül üsulu imdi də İran münəccimlərinin rəhbəridir.



Keçən il, sənə at üzərinə təhvil olunmuşdu. Onun üçün də bir atın şanından olan hərb və zərb, hücum və inhizam ilə keçirmişdik. Bu sənə isə il qoyun üzərinə təhvil olunuyor.

Təfəül edə biləriz ki:

– Sülh və müsalimət dövrü gəliyor.

Hərbi-ümuminin axıra yetişib sülhi-ümumi üçün hazırlıqlar yapılmaqda olan böylə bir zamanda qoyun xasiyyətli bir ilin hülulu əlbəttə ki, mətlubdur.

"Ya mühəvvəl-ül-hövl və ila hövl
Hövl halina əlahsən-ül-hal"

Duasını oxurkən qurtuluşunu bulmaqda olan heyvan Azərbaycanımızın həqiqətən qoyun kibi salamət bir ilə daxil olmasını arzu edəriz.

**M.Ə.**
**"İstiqlal" qəzeti, 20 mart 1919, №6**

Təfəül – xeyirli

## Mart matəmi
## Müsəlman əmələ və kəsbkarlar konfransı

1919 sənəsi mart ayının 28-ci günündə Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin mərkəzi bürosunun binasında **Məhəmməd Əmin Rəsulzadə** cənablarının təhti-sədarətində 300 əmələ nümayəndələrinin iştirakilə bir konfrans məclisi iniqad etdi. Məclisdə əmələ nümayəndələrindən maəda bəzi əsnaf nümayəndələri dəxi mövcud idi. Sədr cənabları məclisə daxil olur-olmaz ümumi alqışlarla qarşılandı.

## M.Ə.Rəsulzadənin giriş sözü

Həzərat, bu gün bizi buraya toplayan məsələ mart matəmidir. Əlbəttə, bundan bir il əvvəli xatırlarsınız. O zaman bizlər geniş bir salonda, "İsmailiyyə" binasının işıqlı və havadar binasında toplanardıq. İmdi bilməcburiyyə bu darcıq otaqlarda yığışmaq məcburiyyətindəyiz.

Əvət yoldaşlar, mart hadisəyi-əlimənsini xatırlamalıyız. O gün bizim həyatımızda əbədiyyən unudulmaz bir gündür. Bir millət şadlıq günlərini yadında saxladığı kibi matəm günlərini də unutmamalıdır.

O gün, o qital, o öldürüş istəmiyərək bizə, biz türklərə bağlanmış idi. O gün keçən martın 18-dəki təzə qaidə ilə martın 31-i deməkdir. Azərbaycan muxtariyyəti və azərbaycanlıların hürriyyətinin düşməni olanlar "sovet" namını takınaraq müsəlmanlara elani-hərb eləmişlərdi. Fəqət müsəlmana elani-hərb etmək "demokratik" olmadığından başqa bir ünvan lazımdı. Bu ünvan da "burjuy müsavat" ola bilərdi. Fəqət onların ikiüzlülügünü kim örtə bilərdi. Müsavatın o günlərdəki tərzi-hərəkəti sülhpərvərligi, ixtilaf çıxarmaq istəmədigi hankı bitərəf bir şəxsə məlum degildir. Bunu qətnamələr, bəyannamələr və "Müsavat"ın natiqləri ilə isbat etmək mümkündür.

Fəqət məsələ burada idi ki, Bakı Rusiyanın kadeti – burjuyuna da, bolşeviki – əmələsinə də lazım idi. Onun üçün azərbaycanlılara ancaq "xərabəzar" verilə bilərdi. Bunu bizə "bolşevik mətbuatı" diyordu.

İştə mart faciəsi hürriyyət və muxtariyyət əvəzinə bizə xərabəlik vermək istəyənlərin cinayəti idi. Onun üçün martda kəsilən binlərlə qurbanlar, fəda edilən şəhidlər Azərbaycan fikri-hürriyyət və istiqlalının qurban və şəhidləridir.

Biz onları martın 31-də xatırlamalı, o günü həyatı durduraraq matəmə girməli, ruhlarına fatihə oxumaqla qanımız bahasına alınan hürriyyətimizi qanımızı tökməklə olsa da mühafizə edəcəgiz, deməliyiz. (Alqışlar). Bu xüsusda danışmaq istəyənlər söz alsınlar.

* * *

**Sədr:** Bizim milli vəzifələrimizdən birisi də "İsmailiyyə" kibi milli bir müəssisəmizin dirilməsidir. Bu xüsusda hökumətimiz və milli müəssisələrimiz tərəfindən ciddi surətdə iqdamat lazımdır.

* * *

**Sədr:** Bu mövzudan xaric təkliflər dəxi bitdi. Bən yenə əsl mövzuya aid sizə və intixab etmiş olduğunuz tətil komitəsinə söylüyoram ki, bu matəm tətili son dərəcədə müntəzəm və pərvəkar olmalıdır. Nasıl ki, hər kəs kəndi əziz ölüsünə matəm saxlar, öylə də hər bir müəssisə bağlanıyor, hər kəs məscidlərdə matəm halında toplanaraq Qurani-Məcid oxumaq və şəhidlərimizin ruhuna fatihə oxumaqla onları yad və təbcil eylər və asayişi ixlal edəcək heç bir hərəkətdə bulunmazlar və hər bir kəsə göstərir ki, biz matəmimizi də həqiqi matəm olaraq tutuyoruz və bu xüsusda ən ziyadə tətil komitəsinin fəaliyyət və davamına ümid edərək məclisi bağlıyoram.

**"Azərbaycan", 30 mart 1919, №146**

# Unudulmaz faciə!

Martın 31-i bizə Azərbaycan tarixi-siyasətində unudulmaz üç günü xatırlatıyor.

Günlər var ki, sevincinin böyüklügü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.

31 mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildigi "Aşura!", "Bartelsi" (Varfolomeyski noç) kibi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi.

Bizə deyə bilərlər ki, hərbi-ümumi səfəhati arasında mart hadisəyi-əliməsini dəfələrlə ötən əsəfli hadisələr vaqe olmuşdur. Bunun üçün dəxi mart günlərində Bakı sokaklarında icra olunan məzalim və qitalı Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadis olan uzaq misalları ilə müqayisə etməyə nə hacət!

Əvət, doğrudur: doğrudur ki, Belcikada, Serbiyada, Türkiyədə, Acarıstanda, nəhayət Kars, Muş, Van və sair yerlərdə, hətta hərbi-ümumidən rəsmən xaricdə qalan İranda, Urmi, Səlmas və Xoyda şəklən Bakı hadisəsinə bənzər və bəlkə də bundan daha fəci hadisələr vaqe olmuşdur.

Bunlar doğrudur.

Biz Bakıdakı mart hadisələrini yada salarkən şübhəsiz ki, o günlərdə icra olunan vəhşətə, zülmə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yavrulara, hətk olunan irz və namuslara dəxi ətf-nəzər ediyor – insanın bir anda dönüb canavardan da bədtər halə düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi infial və şərməndəlikdə görüyoruz.

Fəqət mart günlərinin əsl faciəsi bu cəhətində degildir.

Martda söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha şəni, daha mərdud, daha iyrənc bir hadisə vaqe olmuşdu.

İctimai bir inqilab nami və pərdəsilə ortaya çixib milli bir ədavət icra edilmişidi.



Burjuaziyaya elani-hərb edilib əmələ və kasibə qırılmışdı.

"Müsavat"a xitabən elani-hərb edilib, nəticədə sosialist, bolşevik və müsavat heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu noqteyi-nəzərdən şaumyanların Bakıda çıxardıqları hadisə leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinif hərbi nami altında milli bir qital, bir qətliam icra olunuyordu.

Daşnaklar intiqam alıyordu.

Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korlatıyor. Yan-yana sülh və müsalimət ilə yaşayan millətləri sənələrlə biri-birindən ayırıyordu.

❂ ❂ ❂

Bolşeviklər "sizə muxtariyyət degil, xərabələr verəcegiz" diyorlardı. Müttəfiqləri daşnaklar da imdi izah ediyorlar ki, Bakıyı sahiblərinin əlindən çıxarmaları ilə onlar erməniligi mühafizə ediyormuşlar.

Həqiqətdir ki, martin 18-dən 21-nə qədər Bakı türk demokratiyasının kafasında partladılan toplar, müsəlmanların haqqında rəva görülən məzalim Azərbaycan fikrini daşıyan, muxtariyyət və istiqlal əqidəsi ilə pərvərdə olan vücudları məhv etmək üçün idi.

Fikir öldürülmək istənilirdi. Millət kəsilirdi. Fəqət kəndiləri inqilabçı ikən inqilabın böyük düsturunu unudurlardı:

– Məşəli-əfkari-əhraranə sönməz xun ilə!

Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürəmədi!

Bakı kücələrində tökülən nahaq qanlar bir "pisuz" yakılan "İsmailliyəyə" isə bir "iplik" işini görərək ürəklərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyadə tutuşdurdu.

Qanlar içində boğdurulmaq istənilən Azərbaycan fikri bu kərə müstəqil bir hökumət şəkli ilə təcəlli etdi!

Bakı bir qan və fitnə ocağı degil, paytaxtımız oldu.

o o o

Bu gün mart hadisələri kibi böyük bir riyazət nəticəsində kəndi həqqini istərdad etmiş olan paytaxtımızda 31 mart şühədasının ruhi-məzluminə fatihələr oxurkən bir şeyi xatırlatmaq istərəm.

Mart hadisəsindəki müvəffəqiyyətsizligin ən böyük səbəbi, bunu artıq hər kəs təsdiq ediyor ki, cəmaətimizin başsızlığı, o vaqtə qədər bildigi cəmaət xadimlərinə və siyasi firqə rəislərinə degil, qeyri-məsul adamlara əqlindən ziyadə hissiyatına tabe şəxslərə uyduğu olmuşdur.

Lillahülhəmd bu gün o vəziyyətdə değiliz. Millətin müqəddəratından məsul hökumətə və bu hökuməti doğmuş parlamana malikiz.

Hökumət və parlamanımızın bütün nöqsanı ilə bərabər bir məziyyəti var ki, böhranlı və məsuliyyətli dəqiqələrdə millətə başçılıq edər, onu hər hissiyatə qapılmış yol ötən "mücahid"lərin şərindən saxlaya bilər.

Bunun üçün lazımdır ki, biz bütün hərəkatımızda etidaldan uzaqlaşmayib sükun və intizami pozmıyalım.

Tətil heyəti bizi bu gün matəmə dəvət ediyor. Bu dəvətə icabət edərək bütün həyati durduraraq mart şühədasının ruhi-məzlumi qarşısında diz çökəlim: çökəlim də deyəlim ki:

Siz məzlum oldunuz, biz sizin bu məzlumiyyətinizi təlafi etdirmək üçün qanınız bahasına aldığımız hürriyyət və istiqlalı bərk saxlayacağız.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 31 mart 1919, №147,**
**"İstiqlal", 31 mart 1919, №8**

Əsəfli – təəssüf ediləcək
Hətk – yırtma, yarma
İnfisal – ayrılma, uzaq olma
Şərməndə – utancaq, xəcalətli
Şəni – pis, biabırçı
Mərdud – rədd olunmuş
Riyazət – əzab, işgəncə
Hətk – yırtma, yarma, şərəfsizlik



x) Varfolomey gecəsi – 1572-ci il avqustun 24-nə keçən gecə (müqəddəs Varfolomey bayramı günü) Fransa kralı və katolik ruhanilər tərəfindən hegenotların kütləvi qətliamı, qırğını başlanmışdır. 3 gün ərzində Parsidə bir neçə min nəfər öldürülmüş, sonra bütün Fransada hegenotları qırmağa başlamışdılar.

*M.Ə.Rəsulzadə 1918-ci ilin 3 günlük mart qətliamını məhz Varfolomey hadisələrinə bənzədirdi – Ş.H.*

# Nümuneyi-imtisal bir gün

"Müsavat" firqəsinin təşəbbüsilə çağırılan müsəlman əmələ konfransı martın 31-ni vətəni bir matəm olmaq üzrə elan və o günü ümumi tətil ilə keçirməgə qərar vermişdi.

Müsəlman əmələsinin bu qərarına Bakının bütün məhəllələri kəza tabe olub, matəm tətil komitəsi cünbində məhəllə məscidlərinin nümayəndələrindən ibarət bir şəhər şöbəsi təşkil etdilər.

Bu günə məxsus qəzetələr nəşr olundu. Azərbaycan qəzetələri ilə Müsavat vasiteyi-nəşri-əfkarları olan qəzetələr matəm nömrələri çıxardılar.

Matəm səhər saat 8-dən axşam saat 6-ya qədər təyin olunmuşdu.

Tətilə müsəlman olmayan əmələ təşkilatı nəsıl baxacaq? Tətil müntəzəm və mütəşəkkil bir surətdə gedəcəkmi?

İştə Azərbaycan paytaxtını düşündürən bir məsələ!

Kəndilərini bilməm hanki haqqə görə bütün Bakı füqərayi-kasibəsinin nümayəndəsi adlandıran "raboçi konfrans" heyəti-idarəsi ilə keçmişdəki tətilləri idarə edən "staçeçni komitet" ağızlarına su almışlardı.

26 bolşevik komissarlarından ötrü ümumi tətil etdirmək istəyən və əllərində qara bayraqlar və Şaumyanın fotoqrafı olaraq nümayişlər yapan "fəhlə nümayəndələri" on binlərlə şəhid düşən bigünah mart qurbanlarını xatırlamaq üçün çox da tələsmək istəmiyorlardı.

Nəhayət, müsəlman əmələlərinin qəti qərarları təsirindən olmalıdır ki, "raboçi konfrans" idarəsi ayın 31-nə degil, 30-nu matəm günü və bu münasibətlə mitinqlər tərtibini elan elədi. Fəqət nə mitinqlərə gələn oldu, nə də mitinqi çağıranlar özləri gəldilər.

Onlar bildikləri kibi mart faciəsinə gözəyarı baxa bilərlərdi. "Raboçi konfrans" idarəsində bağdaş quran bolşevik biçarə "rəislər" mart gününü "matəm" degil, bacarsalardı "bayram" edərlərdi. Onun üçün də onlar matəmin rövnəqlə keçməsinə çox əhəmiyyət verməmişlərdi.



Fəqət türk demokratiyası kəndi qərarında sabitqədəm idi. Onun macərapərəst politikanlarla işi yox idi. O, martın 31-də kəndi qüvvətini göstərəcək, mart şühədasının matəmi ilə müvəffəqiyyətsiz mitinqlər yapmaq surətilə oynamaq mümkün olmadığını isbat edəcəkdi.

O, bu gün bütün həyatı durduracaq, bununla kəndisinin nə kibi xatiri sayılır bir qüvvət olduğunu bildirməklə bərabər, martda tökülən nahaqq və məsum qanların dəxi ağız sürütdürmə bir "matəm"lə yad olunacaq "əhəmiyyətsiz" bir vəqə olmadığını bütün cahana qarşı elan edəcəkdi.

Martın 31-i yaxınlaşıyordu. "Raboçi konfrans" rəisləri içlərində mövcud olan az-çox mətləb anlıyanlarının "sözünə baxaraq" martın 30-da matəm mitinqləri elan etmiş ikən bir də 31-ni matəm günü və eyni zamanda da tətil elan etdilər. Fəqət tamamilə "Müsavat"a tabe olmamaq üçün olmalıdır ki, tətilə saat 6-dan degil, 12-dən etibarən qərar verdilər. Fəqət gecə saat birdə çap olunan bu elan bittəb rayonlarda saat 12-dən sonra çatacaq, əmələlərin əksəri tərəfindən bir dürlü anlaşılmıyacaqdı: çünki bir gün əvvəl nəşr olunan müfəssəl vərəqələrində tətildən bir kəlmə olsa da bəhs olunmamış, biləks məsələdən tamamilə başqa bir ruhla danışılmışdı.

Matəm günü gəldi. Səhər saat 6-dan bütün əmələ rayonları "xəbərdar" borusunu çalaraq mədənlər dayandı.

Şəhərdə bir dənə olsa da açıq dükan yox, fayton, araba, hammal tapılmaz. Gəmilər matəm əlaməti olaraq bayraqlarını yarıya endirmiş, şəhərdə və mədənlərdə böyük bir sükut...

Məscidlərdə pas məzar məclisləri. Saat iki radələrində Təzəpir məscidinin həyatı cəmi-qəfir ilə dolmuş, yasin, fatihə, nitqlər matəm tətil komitəsinin bəyani-təziyyəti!..

Xəşiyyətavər bir hal!...

Bilafərq millət və məzhəb şəhərlə mədənlərin bütün süknası matəm halında...

Zabastovka tarixi ilə aşina olanlar söyləyorlar ki, Bakı bu vəqtə qədər böylə bir tətil görməmiş!..

Aşura günü belə bu dərəcədə keçməmişdir.

Hər zabastovkada az olsun, çox olsun işə şətəl qatanlar daima görülmüşdür.

Fəqət bu dəfə bilaixtilaf hər kəs vaqe olan dəvətə ləbbeyk demiş, işindən əl çəkmişdi!..

Aşura yalnız müsəlmanlara məxsus ikən, bu gün Azərbaycanın vətəni bir matəmi olduğundan bütün azərbaycanlılar matəm saxlamışlardı.

Bu günə bən matəm günü degil, birlik günü deyəcəgəm.

Türk demokratiyası bu gün kəndi idarəsinin nə dərəcədə nafiz və kəndi təşkilatının nə qədər müəssir olduğunu təcrübə ediyordu. Təcrübə əliyül-əla dərəcədə müvəffəqiyyətli çıxdı.

Görüldü ki, türk demokratiyası istər ittihadla bir məqsədə əzm edərsə digər, kəndisi ilə həmkar olan demokratiya dəxi onunla bərabər olur. Ayağının altını boş görən "raboçi konfrans" son saatdə əqlə gəldisə, rus əmələlərindən bir çoxu rayonlarında daha iki gün əvvəl müsəlman yoldaşlarının yanına gələrək onlarla bərabər tətil edəcəklərini bildirmişlərdi.

Tətil yalnız əzəməti, istisnasızlığı ilə degil, intizam və asayişpərvərligi ilə də təmayüz ediyordu.

Zabastovka texnikasını bilənlər böylə bir tətil keçirmək nüdrətən mümkün olur diyorlardı.

Bütün gün kimsəyə təərrüz edilməmiş, cüzi də olsa bir hadisə çıxmamışdır!..

Tətil ideal bir şəkildə icra edilmişdi.

Tətilin idrak və disiplin üzərinə icra edildigi köprü hammallarının əsəri-həmiyyətləri kimi parlaq vəqələrlə isbat edilmişdir.

Müstəcil bir yükün paraxoddan çıxarılması üçün köprülərdən birinin hammallarına 6.000 rublə təklif olunduğu halda, onlar təklifi rədd eləmiş, matəmi-tətil heyətinə müraciət eləmələrini cavabən bildirmişlərdir.

Bugünkü tətil türk demokratiyasının, müsəlman camaatinin nə dərəcə təşkilat və intizam qabiliyyətinə malik olduğunu aşkar etmişdir. Bu qabiliyyəti tərbiyə edən, onu doğru və salim bir yola salan həqiqi millət mənfəəti ilə çalışan siyasi firqələrimiz fəaliyyət və təşəbbüslərini artırar və hərəkətlərində ciddi olurlarsa, o zaman Azərbaycan paytaxtında, füqərayi-kasibə naminə işləyib də hərəkətlərində Azərbaycan ruh və məqsədi ilə uyuşa bilməyən təşkilat əhəmiyyət və mənasını qayib edər.



1919 sənəsi mart matəmində xəlqimizdə görülən təşkilat istedadını hüsni-istifadə etmək, heç şübhəsiz ki, 1918 sənəsi mart şühədasının ruhi-məzlumini razı salacaq ən böyük mükafat, ən gözəl ehsandır!

Buna çalışalım!

1919-cu il martın 31-i bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal təşkil eləsin!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 2 nisan (aprel) 1919, №148**

Xəşyə – qorxu
Sükna – oturulan yer, məskən

## Milli bir gün

Aprelin 5-i heç şübhəsiz ki, Azərbaycan tarixi-təşəkkülünə milli günlərdən biri olmaq üzrə qeyd olunacaq.

Bu gün əvvəlcə çıxan qəzetələr:

– Ordumuz gəliyor xəbərini vermişlərdi.

Sabah açılarkən xəlqimizin ordusunu nə kibi bir sevinclə istiqbala hazırlandığı görülüyordu. Bazar, dükan, ev, küçə həpsi xalılarla bəzənmiş, aylı-yıldızlı bayraqlar şəhərə adətən bayram rəngi vermişdi.

Böyük-kiçik, oğul-uşaq, kişi-arvad hər kəs küçələrdə idi. Damların üstü belə qadınlarla dolu idi.

Ordumuz müntəzəm səflər, qüvvətli süvarilərlə qismiməxsusimizdə bir təfsil yazıldığı vəchlə şəhərin mərkəzi küçələrini dolaşaraq hökumətin, parlamanın və möhtərəm müsafirlərimiz ingilislərin nümayəndələri tərəfindən təbrik edildikdən sonra Salyan qışlalarına gəlmiş, qışlaya gedərkən Şamaxı yolunda əhali tərəfindən istiqbal olunaraq ayaqları altında qurbanlar kəsilmiş, keçdikləri küçələrdə, damlarda və balkonlarda oturub aylarla yollarını gözləyən qadınlar tərəfindən güllər saçılmışdır.

Ordumuzu ilk dəfə olaraq paytaxtımızda görmək, xəlqimizin kəndi ordusunu böylə təsviri qeyri-qabil böyük bir ruh və sevinclə istiqbal elədigini seyr eləmək, millətin hürriyyətini, istiqlalını sənələrdən bəri gözləyən və bunu bir fikir və bir ideal olaraq pərvərdə edənlər üçün nə dərəcədə böyük bir bayram, nə şanlı və şərəfli bir gün idi?!.. Parlamanın sosialist əzasından birisi bugünki hissiyyatını anlatırkən diyordu ki:

– Bən bu gün doğrudan da milləti görüyoram. Bu saətdə hər kəs kəndiligini unutmuş, təbii olaraq hər kəs vahid bir vücudun cüzi olduğunu dərk eləmişdir.

Əvət, doğrudur, öylə anlar, öylə dəqiqələr, öylə hisslər, öylə zamanlar vardır ki, onda sinif mənfəəti, firqə hissi, şəxsi-qərəz unudulur, millət əfradı yalnız bir vücud olduqlarını düşünürlər.

Bu gün, ordumuzun paytaxtımıza gəldigi gün, böylə günlərdən, böylə dəqiqələrdən biri idi.



Ordumuzun gəldigi münasibətilə köksü qabaran bir vətəndaş bugünki sevinclə keçən ilki günləri müqayisə ediyordu.

– Əlhəmdülillah bu günləri də görəcəkmişiz! – diyordu.

Aprelin Azərbaycan tarixi səhifələrinə yazılacaq 5-ci günü yalnız xəlqimizdə təvəllid elədigi təsliyyət hissləri ilə degil, oyandırdığı vəhdəti-milli idrakı ilə də böyükdür.

Bu gün bən görüyordum ki, bir millətin millət olduğunu kəndisinə bildirmək və onda etimadi-nəfs xassəsi oyatmaq üçün milli bir hökumət təşkilinin əlaməti-zahirisi olan ordunun nə qədər böyük bir əhəmiyyəti, nə dərəcə əsərli bir nüfuzu, mənəvi və tərbiyəvi bir nüfuzu vardır.

* * *

Kəndi doğma ordusunu böylə doğma hisslərlə qarşılayan paytaxtın əskərlərindən gözlədigi məqsədləri xülasə etmək lazım gəlirsə, bunu iki-üç sözlə xülasə etmək olar.

– Hürriyyətimizin müdafiəsi, namus və istiqlalımızın mühafizəsi!

Gözlədikləri bu məqsədlərin ifası üçün təşkl olunan yeni ordumuzun cansiparanə bir sürətdə çalışacağına, bu gün məhdud bir qitəsini istiqbal elədigi ordunun inşallah getdikcə böyüyüb möhkəmləşəcəginə inandığı bir səmimiyyətlə xəlq ordumuzun əzmkar generalı hərbiyyə naziri Səməd bəy Mehmandarov cənablarını pək haqlı olaraq alqışlara tutuyordu.

* * *

Ordumuzu istiqbal edərkən mart faciəyi-əliməsini gözləri ilə görənlər bittəbii bu martı o mart ilə müqayisə ediyorlardı.

Fəqət bən martı martla degil, apreli noyabr ilə müqayisə ediyordum.

O gün ki, türklərlə bərabər yeni vücuda gələn Azərbaycan qitələri də çəkiliyor, buraya ingilis komandanlığı ilə bərabər Biçeraxovun əskərləri gəliyorlardı.

Şəhərin üstündə uçan qara qarğa, Biçeraxovun aeroplanı yuxarıdan başımıza vərəqələr nəşr ediyor, Rusiya şəhərinə gəldigini, hər kəsin Rusiyaya tabe olması lüzumunu bildiriyordu. Ah, o nə əndişəli, nə qorxulu, nə ağır günlər idi.

İngilislər burada hürriyyət və istiqlalı ilə yaşamağa əzm etmiş bir millət olduğunu bilmiyor, bizim həqqimizdə başqa, düşmən mənbələrdən almış olduqları məlumat üzərinə hərəkət edər kibi idilər.

Günlər keçdi. Üfiqi-siyasət açıldı. Azərbaycan Cümhuriyyətinin binası möhkəmləşdi.

Bizə qara xəbər gətirən düşmən qüvvət – Biçeraxov-Prejevalski əskərləri şəhərimizdən çıxarıldı. Flotun silahı alındı.

Nəhayət, ordumuz gəldi.

Şəhərimizin bəlakeş sinəsi üzərində əzmkar qədəmləri ilə yürüyən əskərlərimiz müztərib ürəklərdə bu rəviş ahəngi ilə mütənasib sevinc zərbələri hasil ediyor, hər kəs bilaixtiyar:

Yaşasın ordumuz! – diyordu.

Ordumuzun gəlməsi ilə qabaran hissiyyatımızı ifadə üçün xəlqin bir ağızdan söylədigi sözə biz də iştirak edəlim:

Yaşasın ordumuz!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 7 nisan (aprel) 1919, №151**

Təfsil – ətraflı surətdə izah etmə
Cansiparanə – sədaqətlə, canla-başla
Müztərib – nigaran
Rəviş – gediş, hərəkət



# İran və biz

Hökumətimiz tərəfindən bu günlərdə İran paytaxtı Tehrana bir heyəti-mürəxxəsə göndərilmişdir.

Heyəti-mürəxxəsənin məqsədi yeni təşəkkül etmiş Azərbaycan cümhuriyyətini İran hökumətinə məriflik edib də bu iki müsəlman dövləti arasında hüsni-münasibət təsis və təmin eləməkdir.

İran ilə dini, mədəni və tarixi münasibatımızdan əlavə sıxı bir müqəddərati-siyasiyyəmiz vardır.

İranın səlaməti bizim üçün, bizim səlamətimiz İran üçün son dərəcədə mühümdür.

Daima zərbələrini yedigi cahangir Rusiya yerində, ilərdə yenə inkişaf etmək həvəsinə düşəcəgi mühəqqəq olan Rusiya ilə öz arasında müstəqil bir Qafqasiya görmək İranın əxsi-amalını təşkil eləməlidir. Müstəqil Qafqasiya içərisində müstəqil və nüfuzlu bir müsəlman hökumətinin vücudi isə bilxassə İran vətənpərvərlərini sevindirməlidir.

Biz əminiz ki, dərin düşünür İran mütəfəkkirləri bu sevincə yabancı degildirlər. Burada İranı təmsil edən siyasi nümayəndələrin hər münasibət kəsbincə ibraz etməkdə olduqları dostluq və qardaşlıq hissiyyatları bizə bu əmniyyəti veriyor.

Araz nəhrinin yuxarısında təşəkkül edən məhəlli bir islam cümhuriyyətinin hər halda İran üçün faidəli olacağı İran siyasiyyunundan ötrü şübhəli bir məsələ halında olmasa gərək.

Dini və mədəni münasibatdan əlavə İran ilə Cümhuriyyətimiz miyanında hər bir münasibatdan daha qüvvətli bir rabitə vardır: iqtisadi rabitə, İran bizimlə külliyyətli surətdə ticarət etməkdədir. Bakı bəndəri ta əski zamandan bəri İran ticarətinin ən mühüm bir qapısını təşkil edər.

Bakı mədənləri Şimali İrandan gələn əmələlərlə işlər, Bakı və Gəncə vilayətlərinin pambığı, buğdası və sair hübubatı İran Azərbaycanının əməlsi olmazsa toplanmamış qalır.

Bundan əlavə, cümhuriyyətimiz ilə şahlıq arasında ədəbi və tərbiyəvi böyük bir qərabət və münasibət vardır.

Ədəbiyyatımız, ədiblərimiz, şairlərimiz, mühərrirlərimiz – bilxassə əski məktəbdən yetişənləri – İran feyzi ilə pərvəriş bulmuşlardır. Firdovsi, Sədi, Hafiz, Ömər Xəyyam, Molla Rumi və sair İran səramədani-süxəni bizimkilər tərəfindən adətən bənimsənilmişlərdir. İçərimizdə İran üsuli tərbiyə almışlarımız, fars ədəbiyyatı ilə aşina mürafiələrimiz az degildir.

Hələ Nizami, Xaqani, Məhsəti kibi İran ədəbiyyati-qədiməsinin axırki dövrəsinə adlı şairlər yetişdirməklə də iftixar edəriz.

Azərbaycan ədəbiyyatının ustadi-əvvəli Şeyxüşşüəra Füzuli bu türk Hafizi bu gün Arazın şimalından ziyadə cənubunda mərufdur.

Nəbati, Raci, Məhəmməd Baqir, Dilsuz, Ləli və sair kibi Azərbaycan gülşəni-ədəbiyyatına başqa bir rəng və rovğən verən ədiblər İranın yetişdirmiş olduği güllər, çiçəklərdir.

Qafqasiya Azərbaycanı İrandan aldığı borcu mümkün olduğu qədər iadə etməgə dəxi çalışmışdır.

Yeni Azərbaycan ədəbiyyatının bərəkətli səhnəsini təşkil edən Bakı mətbuatı heç bir zaman İrana yabançı qalmamışdır. Burada nəşr olunan mətbuati-mövqutə hər zaman İran qüssələri ilə qüssələnmiş, onun sevincləri ilə sevinmişdir. Bunun üçün də o, İranda rəğbət qazanmış, bilxassə Təbriz Bakı mətbuatının ikinci mərkəzi-tovzii olmuşdur. "Molla Nəsrəddin" məcmuəsinin müvəffəqiyyəti isə İranın yalnız türkcə danışan şəhərlərinə degil, bütün mühüm mərkəzlərinə qədər şamil olmuşdur.

Nəbati bizdə olduğu qədər, Seyid Əzim də İranda mərufdur. Biz Ləliyi bildigimizdən ziyadə İran mərhum Sabiri tanır, "Hop-hop"un "Mən deyən oldu, sən deyən"ini hamı çocuqlar əzbərdən oxur.

Musiqimiz kəndinə məxsus bir xüsusiyyəti mühafizə eləməklə bərabər əsas etibarilə İran musiqisidir. Böylə ikən opera və operettalarımız vasitəsilə biz bu xüsusda dəxi müqabil bir təsir yapmaqla borcumuzu verməkdəyiz.

Dramaturqlarımızın yazdığı faciə və komedilər isə yalnız Təbrizdə degil, Rəştdə, Qəzvində, hətta Tehranın özündə belə müvəffəqiyyətlə tamaşa ediliyor. Aktyorlarımız, kəmali-məmnuniyyətlə qeyd ediyoruz, Tehranın bütün ədəbi məhfillərində məzhər qəbul olaraq hətta şah həzrətlərinin sarayına belə hülul eləmişlərdir.



Möhtəşəm bir tarixə, parlaq bir mədəniyyətə malik olan Şirü Xurşid məmləkəti kəndinə müsövli olan istibdad sayəsində uzun bir inhitat dövrəsi keçirdi.

Bu dövrəyə bir intəha verməк qəsdilə İran milləti məşrutiyyət bayrağını qaldırdı. Cihada başladı.

Bakı mətbuatının bu yoldakı xidməti inkar ediləməz. Qafqasiya türklərinin fikri-hürriyyətlə məşbu olanları bir an əvvəl İrana atıldılar, dindaşlarına kömək etməyi bir vəzifəyi-vicdaniyyə bildilər.

Kəndi səadətini təmin üçün icra elədigi böyük mübarizədə, bir az da olsa, İran millətinə – bildigim və bacardığım qədər – yardım edənlərdən olmaqla iftixar elərəm.

Bu sənələrin, iranlı vətənpərvərlərlə bərabər çalışdığımız illərin, məhsulu olaraq iranlıların Qafqasiya müsəlmanları xüsusunda pərvərdə etdikləri hissiyyat və təmniyyat həqqində iyi xatiratım vardır.

Bu xatirat bənə həqq veriyor düşünüm ki, cümhuriyyətimiz tərəfindən İrana göndərilən heyəti-mürəxxəsə ümid etdigimiz hüsni-qəbulə məzhər olacaq. İranlı mütəfəkkir arkadaşlarımız, Bakıdan gələn bu heyətin dost və əqrəba bir milləti təmsil elədiginə qane olacaqlar və kəndisinə o surətlə müamilə edəcəklərdir.

Mütəfəkkir arkadaşlarımız, diyoram, çünki hər məmləkətdə olduğu kibi – bittəbii – İranda da səthi düşünür, fəqət mütəfəkkir keçinər adamlar yox degildir. Meydanda bir az da qəsdən suyi-təfəhhümlər və suyi-təvillər yayan və məxsusi məqsədlərlə düşmənanə fikirlər nəşr edən adamlar bulunursa – ki, böylələri məəttəəssüf az degildir – o zaman bu qəbildən olan mütəfəkkirlər həman mütaliələr yürütməgə başlar, nəticədə səmimiyyət və istilik əvəzinə quru bir rəsmiyyət və soyuqluq çıxar.

İştə quru rəsmiyyətlə iktifa etmədigimiz üçün biz burada kəndilərindən şikayət etdigimiz "mütəfəkkir"lərin cümhuriyyətimizin ismi həqqindəki tənqidlərinə bir az nəqli-kəlam etmək istəriz.

Bəzi İran mühərrirləri Azərbaycan cümhuriyyətinin vücudunda İranın təmamiyyəti-mülkiyyəsindən ötrü "ələni" bir təhdid görüyorlarmış. Və Azərbaycan İranın bir vilayəti ikən bunu cümhuriyyətimizə "ələm" etdigimizə etirazları varmış.

Biz bu xüsusda vəqtilə – bir münasibətlə – izahat vermişdik. Azərbaycan dərkən qəsdimiz Şimali Azərbaycan və yaxud Qafqasiya Azərbaycanıdır ki, əski Aran ilə Şirvan və Muğanı ehtiva edər. Azərbaycan ismi isə coğrafi bir istilah olmaqdan ziyadə qövmi bir məna ilə işlənmişdir. Biz kəndimizi Azərbaycan dili ilə (ki türkcənin bir növüdür) mütəkəllim məxsus bir qövm ədd edəriz. Bu qövmün ismi nə Aran, nə Şirvan, nə də Muğandır. Yalnız Azərbaycandır.

Bu təbir, bu məna ilə Rusiya inqilabının Rusiyadakı millətlərə istiqlali-milli verdigindən sonra degil, daha əvvəlcə mövcud idi. Bundan otuz il əvvəl Petroqrad darülfünunlarında təhsil edən Bakı, Gəncə və İrəvan vilayətlərindən gedən müsəlman tələbələr milliyyət əsası üzrə təşkil elədikləri cəmiyyətlərinə "Azərbaycan cəmiyyəti" demişlərdir. Bu ənənə olaraq rus paytaxtında təhsil edən tələbələrimiz "Azərbaycan gecəsi" namilə hər il bir müsamirə tərtib edə gəlmişlərdir.

Qafqasiya türkcəsindən ruscaya bir lügət tərtib edən əski müəllimlərimizdən Qənizadə cənabları kəza lügətlərinə "Azərbaycan istilahı" namını vermişlərdir.

Mətləbi kəlmə ilə münaqişə etdirmək doğru olmaz. Çünki məsələ yalnız bir isim üzərinə müncər olursa, o zaman o qədər bir məsələligi də qalmaz. Fəqət qorxulur ki, bu ismin müsəmmasına da hüsni-təvəccöh bəslənilməsin. Ola bilər düşünülsün ki, başqa bir isimlə olsa da məxsus bir qövm olmaq əsası və xüsusiyyəti üzərinə təsis ediləcək cümhuriyyət İranın şimalında o əsas və xüsusiyyətə uya bilər bir kütlə olduğu üçün mətlub degildir. Böylə bir düşüncənin əlbəttə ki, ciddi mütəfəkkirlərcə beş para qiyməti olamaz. Çünki o zaman cümhuriyyətimizi təşkil edən qövmin qövmiyyətini inkar etmək, ona kəndi müqəddəratını təyin həqqini verməmək icab edər. Böylə bir vəziyyətə ruslar, ingilislər, firəng və sair xristian millətlər durmadığı halda dindaş bir dövlətin duracağını qətiyyən təsəvvür etməyiz.



Böylə olunca Azərbaycanın nə ismi, nə də cismi iranlı qardaşlarımızda şəkk və şübhə hissi oyatmamalı, yanı başlarında bir Ermənistan, bir Gürcüstan hökuməti təşəkkül etdigi bir zamanda, bir də həmkeş və əqrəba bir Azərbaycan cümhuriyyətinin təşəkkül edib kəsbi-qüvvət etməsini səmimanə bir surətdə arzu etməlidirlər.

Heyəti-mürəxxəsəmizin ən böyük müvəffəqiyyəti iştə bu arzunun İran əfkari-ümumiyyəsində mövcud olduğunu bilmək və bunu bizə bir an əvvəl təbşir etmək olacaqdır.

İntizardayız!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 8 nisan (aprel) 1919, №152**

Mərif – tanışlıq
Tar – güc, zor, tab
Qərabət – yaxınlıq,qohumluq
Tovzi – paylama, paylaşdırma
Həmkeş – dindaş, məzhəbdaş
Təfəhhüm – dərindən anlama, dərk etmə
Ələni – açıq, aşkar
Məşbu – doymuş, tox
Təbşir – şad xəbər gətirmə

## Köhnə üsul

Özləri bir ovuc ikən bütün Qafqasiyada rus idarəsinə söykənərək hakimiyyət və nüfuz qurmaq istəyən erməni burjualarının Qafqasiya türklərinə qarşı bir mübarizə alətləri vardı.

– "İttihadi-islam" töhməti!

O zamanlar müsəlmanlar arasında zühura gələn hər bir hərəkəti haman ittihadi-islam rənginə boyadılar, hər növ milli bir tələbə panislamizm susi veriliyordu.

Bu adla o zaman rus dövləti, çar imperializmi təhrik ediliyor. Əvvəlcə "Novoye vremya"lar məqalələr yazar, sonra da vorontsov-daşkovlar məruzə hazırlar, Qafqasiya türklərinin dəhşətli ittihadi-islamçı olduqlarından bəhs olunurdu. O zaman böylə idi.

Rusiya inqilabından sonra bu töhmət başqa bir şəkil aldı. "İttihadi-islam" töhməti menşikovların, çar tərəfdarlarının övürüb-çevirdikləri bir kəlmə olduğundan artıq inqilabçı demokratiyayı bu sözlə çox da qorxutmaq mümkün degil idi. Onun üçün daşnaqsütyun ədəbiyyatı "panislamizm" sözünü "kontrrevolusion" kəlməsinə əvəz etdi.

Panislamizm töhməti ilə Kars, Ərdahan və Batum müsəlmanlarının ümumi qitalına müvəffəq olan "ustalar" bu dəfə də "konserdovalyusizm" kəlməsini təkrar edə-edə mart facieyi-əliməsini yaratdılar.

Zaman döndü. Başqa vəqtlər gəldi. İmdi kəndisinə ilqayi-fikir olunacaq naqis və hakim qüvvət nə çarizmdir, nə də bolşevizm.

– İngiltərə və müttəfiqlər komandanlığı!

Onun üçün hanki surətlə Qafqasiya türkləri həqqində suyizənn hasil etmək mümkün isə bittəbii o vasitəyə müraciət ediləcək idi. "İttihadi-islam" töhməti hər ehtimala görə yenə mövsümini bulacaq idi. Məlum a, müttəfiqlərə qarşı bu fikirdən istifadə olunmuş idi. Onun üçün də təsəvvür etməlidir ki, "panislamizmin" töhməti hər halda "kontrrevolyusioner" töhmətindən daha kəskin və daha "faydalı" olacaqdı.

Bir münasibət lazımdı, tapıldı. "Azərbaycan"ın məqaləsi.



"Azərbaycan" qəzetəsi Türkiyənin şimdiki halından bəhs edərkən "bütün müsəlman aləmi kəmali-diqqətlə Osmanlı hökumətinin başına gələnləri təqib etməkdədir" – deyə müsəlmanların hissiyyatına tərcüman olmuş və bu fikrini izah edərək yazmışdı ki:

"Müsəlman millətlərinin müqəddəratı hər zaman Türkiyə iqtidar və istedadilə əlaqədar olmuşdur".

"Daşnaksütyun" firqəsinin naşiri-əfkarı bulunan "Vperyod" qəzetəsi "Azərbaycan"ın bu məqaləsinə ilişərək "Panislamistlər" ünvanilə bir məqalə yazmış "xəstə adam" (yəni Osmanlı dövləti) dərdindən mütəəssir olan" "Azərbaycan"a mürtəce islamçı namını taxmışdır.

"Vperyod" əlbəttə, arzu edir ki, Osmanlı hökmdarının iqtidarı "bir az" azalsın. Türkiyənin mərkəz hökuməti İstanbuldan Konyaya köçürülsün. Şərqi Anadolu İskəndərundan tutub bir tərəfdən Trabzona, bir tərəfdən də Gəncəyə qədər Ermənistana verilsin və böylə əməliyyati-cərrahiyyə heç bir türkün və heç bir müsəlmanın ürəgində zərrə qədər olsa da "ah" çəkməgə belə səbəb təşkil etməsin.

Daşnaksütyunun türk düşmənligi ilə qaralan qəlbi burada təbiidir ki, burada bir ədalətsizlik görməz. Fəqət bu onunla qalmaz. O hər bir türkün bu xüsusdakı müqəddəs hissiyyatını qaşımaq və qaşıdıqdan sonra üstünə duz tökməkdən dəxi saxlanılamıyor.

Sanki İstanbul türklərdən alınır. Xəlifə Konyaya köçürülürsə, Başqırdıstan ilə Qırğızıstan tərəqqi edəməz – deyə fəlsəfə satmaq istiyor.

Fəqət İstanbul bu gün türk aləminin yalnız xəlifəsi oturan bir yer degildir. Orası türk ədəbiyyatının, türk fəlsəfəsinin, türk elm və ürfanının ən zəngin və ən mütərəqqi bir mərkəzidir. Mərkəzi-ürfaniyyədir.

Türkləri hər bir həqlə malik olduqları və bu mülkiyyətlərinə hər bir nöqteyi-nəzərdən həqli olduqları İstanbuldan çıxarılarsa, xəlifə ilə mərbutiyyəti-diniyyələri nöqteyi-nəzərindən degil, türk və islam olan kütlələri ona görə rəncidə, ona görə münfəil

edərək aləmi-mədəniyyət böyük müharibə və böyük inqilabın elan etmiş olduğu təyini-müddərat prinsipini iş Türkiyə ilə aləmi-islama gəlincə – ayaqlar altına salınmış olur.

Türk düşmənliyi ilə ruhlanmış, ədavətini bir ideal dərəcəsinə çıxarmış daşnaksütyun ruhlu mütəəssib və intiqamçı bir erməni üçün əlbəttə ki, türklərin İstanbul kibi aləmşümul bir mərkəzdən ayrılıb da Anadolunun hücrə bir guşəsinə qovulması arzu olunur bir vaqeədir.

Fəqət bu "arzu olunur" vaqeəyi heç bir türk və müsəlman ruhu üsyan etmədən təsəvvür edəməz.

O əbidati-milliyyəsi, cövmeyi-şərifəsi, ənənati-islamiyyəsi ilə hər bir türkün və hər bir müsəlmanın mədəniyyət kəbəsini təşkil edən İstanbulu bir azərbaycanlı türkü bir Kars, İstanbul aşiqi bir firəng mühərriri Pyer Lotidən daha az bir eşqilə sevə bilməz. Böylə türk və müsəlman bir şəhər nüfusunun əksəriyyət qateəsi dəxi türk olduğu halda, bilməm hanki mövhum bir həqq üçün başqa birinə veriləcək də buna qarşı üsyan etmək "ittihadi-islam" fikrinin "təcavüzkar" bir təzahürü kibi görüləcəkdir.

"Azərbaycan"la bərabər biz də Türkiyədəki xırda millətlərin təyini-müqəddərat həqqinə malik olduqlarını qəbul edəriz. Bu cümlədən ermənilərin dəxi böylə bir həqqə malik olduqlarını hər bir zaman qəbul etmişiz. Fəqət bu tələb iki milyonluq bir millətin qalxıb da altı milyon nüfusa haiz olan bir ərazi üzərində təsisi-hakimiyyət etmək fikrinə münqəlib olursa, təbiidir ki, böylə cahangiranə bir iştəhayə qarşı hər bir demokrat kibi hər bir türk də üsyan edər.

Fəqət daşnaqsakan zehniyyəti bu üsyanı anlamaz, onun ruhiyyatı kəndisindən başqasının dərdini, hələ türkün faciəsini heç anlamaz.

Yeddi vilayət, Kilikya və Qarabağ Ermənistan olaraq tələb olunur. İki milyon bu qədər erməni 4 milyon bu qədər türk və müsəlmana hakim olmaq istər. Bu hakimiyyəti o dünyanın ətrafına dağılmış erməniləri toplayıb da böyük bir Ermənistan təşkil etmək surətilə istərkən, türk kütləsini ikiyə ayırıb da bir xəncər kibi qəlbgahına sapılar. Xəncərlənmək istənən vücud isə əsəri-



həyat göstərib kəndisini müdafiə etmək istədikdə onu "panislamizm" töhməti ilə qorxutuyor.

Fəqət bihudə!

Dünya nə qədər ədalətsiz olsa da daşnaqsütyun istədigi qədər ədalətsiz olamaz.

Kaç milyonluq ermənininin xatirinə böyük türk millətinin həyati mənfəətləri ayaq altına alınamaz.

Avropayı qorxutan panislamizm bütün aləmi təsxir etmək və yaxud aləmşümul bir islam hökuməti vücuda gətirmək kibi xülyalarla yaşayan "panislamizm"dir. Bu fikir xülya olduğu kibi Avropa üçün böylə bir təhlükə mövcud olduğu təhdidi dəxi xülyadır.

Fəqət islam millətlərini taptatmaq, türk millətlərinin hüququnu çəkintməmək mənasına olan ittihad fikri var. Bu fikirdən kimsə qorxmaz, bununla bilxassə daşnaqsütyunçuların qorxutmaq istədikləri qüvvətlər qorxmazlar.

Türklərin kəndilərini anlamasından və türk səltənəti olan Türkiyənin müqəddəratına laqeyd qalmamasından yalnız öz səadətlərini başqalarının fəlakətindən gözləyənlər və kəndi tələblərini başqasının hesabına quran daşnaqsütyun misallı dar fikirli millətçilər, intiqamçı mütəəssüblər qorxarlar.

Erməni millətinin müqəddəratını əllərində bulunduran əfəndilər bilməlidirlər ki, bugünki "müsaid" vəziyyətdən bilaistifadə quracaqları hökuməti içində bulunduqları türk mühitinin qəlbini yaralamaq surətilə təqviyə etmək istərlərsə, o zaman bundan böyük fayda görəməzlər.

**M.Ə.**

**"İstiqlal" qəzeti, 12 nisan (aprel) 1919, №10**

Sus – güvə
Münfəil – təsirlənmiş, xəcalətli
Təqviyə – qüvvətləndirmə
Abidat – abidə
Cöv – qiymətsiz

## Siyasətə qarışmaz

Oxuyucular bilirlər ki, Məclisi-Məbusan qanunnaməsinin bir fəslinə görə Bakıdakı həmkarlar şurasının dəxi məclisə üç əza göndərmək həqqi vardır.

Bu qanuna binaən vəqtilə hökumət rəisi Fətəli xan Xoyskinin həmkarlar şurası idarəsinə (soyuza) vəkillərini göndərmək üçün yazdığı kağızına məzkur idarənin nə kibi şiddətli bir rədd məktubu yazdığı məlumdur. Bu kağız ilə soyuz bütün Bakı proletariyasına nümayəndəlik edərək Məclisi-Məbusanı və Azərbaycan hökumətini inkar ediyor, əmələlərin rəyi demokratik və vahid Rusiya ilə olduğunu söylüyordu.

Bu, o zamanlarda idi ki, bu gün bolşeviklərlə qucuşmada və uyuşmadqa olan roxlinlər və bilxassə sako-saakyanlar bizi dənizlər adlayıb, dərələr keçib də Ufa hökuməti ilə yapışdırmaq istiyorlardı.

Zaman dəgişdi, ufaçılar məbusanə gəlmək istədilər. Ərizə yazdılar. Müsəlman sosialistləri də öz tərəflərindən soyuzu məclisə gətirmək istədilər. Bu dəfə soyuz şiddətlə degil, hikmətlə rədd ediyordu. Əsas etibarilə biz məclisin əleyhinə degiliz. Yalnız bu qədər var ki, dedilər:

– Həmkarlar ittifaqı siyasətə qarışmaz!

Atılan qədəmin bu, zahiri dəlili idi. Batini dəlili dəxi o qədər üstüörtülü bir şey degildi. Müsəlman əmələlər Məclisi-Məbusan tərəfində idi. İlk günlərdə olduğu kibi türk demokratiyası təşkilatsız və səssiz dəxi degildi. Əmələ konfransında rəislərin ikiüzlü siyasətləri puç olunuyordu. Rus əmələləri isə biləks məbusanın əleyhində idilər. Soyuz iki tərəfi də incitmək istəmiyordu. Onun üçün də həmkarlar ittifaqının siyasi degil, sinfi və silki bir müəssisə olduğunu xatırlıyor, bu surətlə həm xoş bavər müsəlman sosialistlərini, həm də inadçı rus demokratiyasını razı salıyordu.

Günlər keçdi, həftələr ötdü. Çurayev-Roxlin və kompaniyasının ruhunda başqa bir dönüklük hasil oldu. Artıq böyük Rusiya fəraqilə titrəyən millətlər, əldən çıxmış hakimiyyət üçün sızlayan cigərlər Ufadan degil, Moskvadan ümid bəkləməkdə, rus idarəsinin gəlişini gözləyən həsrətkeş gözlər "qızıl ordunun" hərəkətinə baxmaqda idilər.



Meydanda yeni simalar, yeni isimlər zühur ediyor: Bakı əmələsinin mürşidi sayılan Roxlin haranın çağrılası bəlli olmayan mirzoyanlara tərki-mövqe eləmək məcburiyyətində qalıyor.

"İskra" və "Znamya truda" qəzetələri "bolşevizm"ə doğru yol tutmaq, "Sovet" hökumətini tanımaqdan bəhs ediyorlar.

Bu məqsədlə yeni manevrələr başlıyor. Zaqafqasiya, Dağıstan və Zakaspi həmkarlar ittifaqının ictimai.

Professionalnı soyuzlar syezdi.

Bu syezdə iqtisadi məsələlərdən əlavə və ümdə olaraq siyasi məsələlər, bilxassə Zaqafqasiya dövlətlərinin ittihadı kibi məsələlər qoyulur.

Tiflis mərkəzi soyuzu başda olan bütün Gürcüstan soyuzları bu proqramı qəbul etmiyorlar. Sırf iqtisadiyyata aid olmaq və həm də Zaqafqasiya dairəsinə şamil olmaq üzrə Tiflisdə bir syezd çağırıyorlar. Bakıda bir, Tiflisdə iki syezd açılıyor.

Məqsəd hasil olmayır. Bakılıların syezddəki "demokratiya ittifaqı" təbiri-məxsusla "cəbhə bütünligi" hasil olmuyor.

İstiqlalçı gürcülər ayrılıyorlar.

Nə isə syezd toplanıyor. Tamam da olmasa açılıyor. Diyorlar ki, bu Azərbaycan ilə Dağıstan və Zakaspi syezdidir. Fəqət heyəti-ümumiyyəsi etibari ilə bu, rus əmələlərinin syezdidir.

Həmkarlar ittifaqı siyasətə qarışmaz!

Fəqət həmkarlar ittifaqının syezdi siyasətdən başqa bir şeylə məşğul olmadı. Soyuzlar naminə toplanan hakimiyyətə həsrətkeş böyük rusiyaçı siyasilər haman vahid Rusiyadan, bolşevizmdən hökuməti ələ almaq lüzumundan bəhs edib durdular.

Bizim sosialistlər dəxi bu vahid Rusiya eşqilə qızışan qafalar içində, alqışlara məzhər olaraq söz söylədilər; söylədikləri sözlərinin "demokratik Rusiya ilə onlar da əsasən zidd degildirlər" məfhumundakı qismi o qədər gurultulu alqışlara nail oldu ki, "millətlərin təyini-müqəddərata həqlidirlər" misalındakı cümlələrini tamamilə gurultuya vermiş oldu.

Bilməm böylə həmkarlar ittifaqının syezdi degil, qaynar bir siyasət qazanı içində qızışan himmətçilər, həmkarlar ittifaqı şurasının vəqtilə kəndilərinə yazmış olduğu:

– Soyuz siyasətə qarışmaz! məzmunlu kağızı xatırladılarmı? Yoxsa "İnternasional" mahnısının avazi-dilarası təsiri iləmi hər şey unuduldu?!..

Hər şey unudulsa da, bir şey qətiyyən unudulmaz. Bunu əlbəttə ki, bizim sosialistlər dəxi bilxassə nəzərdə tutar; süni bir surətdə çağrılan "soyuzlar syezdi"ni bərfərz Azərbaycan əmələsinin misli kibi qələmə vermək istəyənlərə yalan söylüyorsunuz – deyərlər.

Azərbaycan demokratiyasının özəgini təşkil edən türk demokratiyası bu syezddə yoxdur, syezd yalnız hakimiyyətə həsrətkeş ruslardan və rusiyaçı politikanlardan ibarətdir.

Bu syezdin böylə olduğunu bilərək gürcü demokratiyası, Ermənistan demokratiyası kibi türk demokratiyası kəndi münasibətını ona nisbət mənfi bir surətdə təyin etmiş oldu.

Hümmətçilərin və yaxud Azərbaycan sosialist-revolyusionerlərinin firqə nümayəndəsi olaraq orada iştirakları qətiyyən bu syezdin türk demokratiyası iştirakilə toplandığına dəlil olamaz.

Bu həmkarlar ittifaqının degil, Rusiya hakimiyyətinə həsrətkeş bulunan politikaçılarının syezdidir.

Yoxsa:

– Həmkarlar ittifaqı siyasətə qarışmaz!

**M.Ə.**

**"Azərbaycan", 13 nisan (aprel) 1919, №156**



## Azərbaycan və İran

Tehran qəzetələri cümhuriyyətimiz naminə Tehrana gedən heyəti-mürəxxəsənin vürudini təbrik etməklə bərabər, "İran və biz" məqaləsində bəhs etdigimiz mövzui təcdid edərək "Azərbaycan"ın özündən degil, ismindən uzun-uzadıya bəhs etməgə başlamışlardır.

Başda möhtərəm "İran" qəzetəsi olduğu halda Tehran qəzetələri "Yeni doğmuş islam hökumətinin" adından "dilgir olduqlarını" qeyd ediyor, iki qardaş millətin arasına soyuqluq düşməməsi üçün "Azərbaycan" isminin dəgişməsini təklif ediyorlar.

İran qəzetələrincə bizim, Qafqasiyanın bir qismindən ibarət olan məmləkətimizə Azərbaycan ismi verməgə həqqimiz yoxdur. Bu, İranın minəlqədim vilayəti kibi tanınan Azərbaycan əyalətinin həqqidir.

Biz burada tarix, irq və coğrafiyaca Azərbaycan ismini daşımağa haqlı olub-olmadığımızı isbat və bu münasibətlə "İran" rəfiqi-möhtərəmimizin adla və istidlalatı həqqindəki mülahizələrimizi bəyan etmədən əvvəl bir mütaliə dərmiyan etmək istəriz:

Biz istərdik İran mətbuatı burasına diqqət etsin ki, Qafqasiyadakı azərbaycanlılar Azərbaycan kəlməsini coğrafi mənasından ziyadə qövmi bir mənada istemal ediyorlar. Dünyada yalnız bir Azərbaycan qitəsi degil, bir də Azərbaycan cəmaəti vardır. Bu cəmaət kəndisinə məxsus bir ləhcə ilə qonuşur türk əqvamından bir millətdir ki, "İran" rəfiqimiz bunlara "ətraki-müsəlmani-Qafqaz" diyor.

"Ətraki-müsəlmani-Qafqaz"ın bir ədəbiyyatı var ki, adına Azərbaycan ədəbiyyatı denilir. Şairləri o dildə, Azərbaycan dilində və yaxud təbiri-mərufilə, şivəsində yazarlar. Məktəblərində o dili tədris edərlər. Mətbuatları o dildə yazılır. Teatrları, operaları o şivədə tərtib edilir.

"Ətraki-müsəlmani-Qafqaz" ilə azərbaycanlı təbirinin eyni mənanı ifadə elədiklərini coğrafiya nöqteyi-nəzərindən cərh eləmək mümkün olsa da, qövmiyyat nöqteyi-nəzərindən bunu inkar etmək mümkün degildir. Zira İrəvan, Gəncə və Bakı quberni-

yalarındakı "ətrak" ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaraca Dağ mahallarındakı "ətrak"ın biri-birindən nə ilə ayrıldıqlarını bən iyi fərq edəmiyoram. Eyni lisan, eyni adət, eyni məzhəb, eyni ənənat burada da, orada da hökmfərma, ortada yalnız yüz sənəlik digər bir həyati-siyasiyyə ilə yaşamanın təsiratı mövcud.

"Ətraki-müsəlmani-Qafqaz"ın "ətraki-müsəlmani-İran" kibi daha məruf bir ismi vardır – Azərbaycan türkü.

Əski Şirvan, Muğan, Aran, Bərdə, Albaniya, Bəqrcan, nəhayət Gəncə, Bakı, İrəvan vilayətləri ilə adlanan bugünki Azərbaycan Cümhuriyyətinin coğrafiya nöqteyi-nəzərindən bu ismə haqlı olduğu inkar olunsa da, burada böyük bir əksəriyyətlə yaşayan türklərin Azərbaycan türkcəsi ilə mütəkəllim bir millət olduqları cərh olunamaz.

Böyük müharibənin və misilsiz inqilabın nəticəsində zühura gələn növzad hökumətlərin istinad elədikləri ən qüvvətli və ən sağlam bir məbnaları vardır: qövmiyyət binası. Tarix, coğrafiya, strateji mülahizatı ikinci, üçüncü dərəcədə gəlir mülahizələrdir. Yeni bir hökumətin təsis üçün ən əvvəlcə yekvücud bir milliyyət təşkil edən qövmin kəndisini tanımasıdır.

İştə Azərbaycan Cümhuriyyəti Tehran qəzetələrinin düşündügü kibi bir takım "xəyalpərvər" cavanların uydurub "mülahizəsiz" qocalara qəbul etdirdikləri bir ism degildir. Azərbaycan Cümhuriyyəti müstəqil bir həyati-milliyyə ilə yaşamaq istəyən və milliyyətlərini dərk etmiş bulunan Azərbaycan türk millətinin təsis elədigi bir hökumətdir.

Diyorlar ki, "isminizi dəgişin də biz sizi böyük bir qardaş kibi dərağuş" edək. Yoxsa biz sizdən "mükəddər və zəniniz" ("Gülşən", nömrə 85).

Bizdən neçün zənindirlər? Təsəvvür etmək lazım gəlir ki, İranın bir vilayəti olan Azərbaycanın ismini aldığımız kibi müsəmmasına da gözümüz vardır.

Cümhuriyyətimizin, cümhuriyyətdən əvvəl Azərbaycan muxtariyyəti həqqindəki davamızın qətiyyən Araz nəhrinin cənubuna aid olmadığını dəfələrlə söyləmiş, bilfel dəxi isbat eləmişiz. Buna qarşı: "vəqtilə ermənilər dəxi məqsədimiz Türkiyə Ermənistanıdır diyorlardı" – deyə şübhələr bəyan ediyorlar ("İran", nömrə 414). Bu misal, yəni Azərbaycan Cümhuriyyətinin İran Azərbaycanı ilə işi olmadığı həqqindəki bəyanatı ermənilərin Ermənistan həqqindəki bəyanları ilə müqayisə eləmək bizi ismdən ziyadə müsəmma üstündə dayanmaya vadar ediyor.



Əcəba, nə düşünüyorlar? İranlı qardaşlarımız necə təsəvvür ediyorlar? Arazın şimalında, ismindən sərfi-nəzər, bir müsəlman cümhuriyyəti təşəkkül ediyor. Bu cümhuriyyətin lisanı Arazın iki tərəfində də konuşulan bir türkcə olacaq. Hakimiyyəti "İran"-ın təbirincə deyəlim, "ətraki-müsəlmani-Qafqaz"ın mənus olduğu ruh və ənənatdan, ülfət etdigi adət və məişətdən doğma bir ruh və xüsusiyyətlə qüvvətlənəcək, ismini bir fərz, qəribə olsa da Qafqaz türk hökuməti qoyacaq. Əcəba, bunda İran üçün bir xətər, bir zərər təsəvvür olunuyormu?

Əgər İran hökuməti Avropa mətbuatından anlaşıldığı vəchlə Zaqafqasiya hesabına tovsi-ərazi etmək fikrində degilsə, bittəbii burada kəndisindən ötrü xətərnak bir şey təsəvvür olunamaz. Çünki yeni təşəkkül edən hökumətin kəndisinə qarşı mütəcaviz olmadığını bildikcə, buna yalnız müsaidət etməsi lazım gəlir. Yox, bu xüsusda etimadı yoxsa, o zaman ismin bu və yaxud başqa olduğunun əhəmiyyəti qalmaz. Zira göstərdigi misalda olduğu kibi bugünki Ermənistan Cümhuriyyəti adına bərfərz "Ararat" deməklə Türkiyə ərazisi üzərindəki müddəiyatından sərfi-nəzər etmədi, yaxud Türkiyə ərazisi üzərində Ermənistan ismi ilə degil, bir fərzi "Van" ismi ilə təsis etsəydi, madam ki, Qarabağa qədər tovsi etmək fikrindədir. Kəndisinə Ermənistan deməməklə bundan fərağət etməyəcəkdi.

Bilməyiz təkəddür yalnız İranın bir vilayəti ilə iltibas edən ismimizdənmi, yoxsa İran Azərbaycanındakı xəlqin mənəviyyatına təmas edən bir müsəmmamızdanmı iləri gəliyor.

Məsələ yalnız ismə aid olsaydı o qədər əhəmiyyəti olmazdı. İsm üstündə beynəldüvəl bir ixtilaf zühuri tarixi-aləmdə görülməmiş, islam tarixində dəxi inşallah görülməz.

Bizə öylə gəliyor ki, Araz nəhri şimalında olan azərbaycanlıların təşkil elədikləri müstəqil bir hökuməti-islamiyyənin paydar olması İranın mənafeindəndir.

Əgər Parisdəki İran heyəti-mürəxxəsəsinin Zaqafqasiyadan yer almaq istədigi həqqindəki nəşriyyat doğru isə, o zaman həqqimiz var düşünəlim ki, İran hökuməti bizim kibi degil, başqa dürlü düşünüyor. Çünki "İran" qəzetəsinin də işarə elədigi kibi vəqtilə İrandan kəsilən Azərbaycanı təkrar İrana "yəni Azərbaycana" bitişdirərlərsə, o zaman yerdə – sərih söyləmək lazım gəlirsə – bir Şamaxı ilə Şirvan qalır ki, Dağıstanla bərabər qalmaqdan başqa çarəsi qalmaz.

Heyəti-mürəxxəsəmizin vürudini təbrik edən Tehran mətbuatı o zamandan bəri bir-iki-üç sətirlə iktifa etmiş ikən adımızdan hasil elədikləri təkəddürlərinin izahı üçün sütunlar degil, səhifələr dolusu yazılar yazmaya lüzum gördüklərindən bizdə böylə şübhənak bir hiss oyatmışlardır.

Möhtərəm "İran" qəzetəsi "Azərbaycan" isminin və bu müsəmmadan qəsd olunan Azərbaycan məqsəd və fikrinin müvərrici olaraq acizlərindən bəhs edərkən əvvəldə Qafqasiya Azərbaycanından bəhs etmişkən sonra bütün Azərbaycan üçün istiqlal istədigini qeyd ediyorlar. Fəqət bilməm ki, bunu hanki bəyanım və hanki bəyannaməmlə izhar eləmiş, nə vəqt və nə yerdə söyləmişəmdir?! Hələ Azərbaycana müqabil əvəz olaraq İrana Mərv və Türkistandan təzminati-əraziyyə təklifində bulunanlarımızdan dəxi bəhs olunuyor ki, əcayib bir şeydir.

İştə iranlı qardaşlarımızın bu kibi yanlış və bir takım iğraqlara batmış məlumatdan istifadə etdikləri üçündür ki, onlar Azərbaycan isminə bu qədər əhəmiyyət verib nahaq şübhələrə və münasibətsiz gümanlara düşüyorlar.

Buradan keçdikdən sonra Azərbaycan kəlməsi üstündəki tədqiqata gələlim: müqəddəmatən söylədik, bizdən ötrü kəlmənin coğrafi mənasından ziyadə qövmi bir mənası vardır.

Məəmafiə bir az tədqiq olunursa coğrafiyaca dəxi Azərbaycanın mütləqa Təbriz və həvalisindən ibarət olduğunu iddia etmək pək doğru olamaz.

Azərbaycanın İrana daxil olduğunu istidlal üçün Şəmsəddin Sami bəyin Qamusu ilələrus kibi lüğət kitablarına müraciət olunmuş, Yaqut Həməvi və sairə kibi coğrafiyun və müvərrixlərin



asarından alınan iqtibaslarla Azərbaycanın ayrı, Qafqasın da ayrı olduğu isbat edilmişdir. Şirvan ilə Bərdənin dəxi Azərbaycandan qeyri olması ayrıca istidlal olunmuşdur.

Bundan 24 sənə əvvəl yazdığı Qamusi-ilaələmində Şəmsəddin Sami bəy mərhum Azərbaycanın İran daxilində olduğunu qeyd etməklə bərabər Azərbaycan isminin vəchi-təsmiyəsini dəxi anlatmışdır. Bu anladışa görə Azərbaycan ismi Təbriz ətrafındakı neft quyuları, hava qazları və təbii ataş ilə yanan ataşgədələrdən dolayı bu məmləkətə ələm olmuşdur. Fəqət bir Osmanlı mühərriri bakılsa da iranlılar bilərlər ki, Azərbaycan təsmiyyəsinin vəchi olaraq göstərilən əlamətlərin həpsi Təbrizdə degil, Bakıdadır.

Bir takım türk sülalələrinin paytaxtı Təbriz olmaq üzrə Azərbaycanda hökmran olduqları iddia ediliyor. Fəqət bununla Azərbaycan isminin yalnız Təbriz ilə həvalisinə münhəsir olduğu istidlal edilməz ki.

Qafqas ismi ilə Azərbaycan ismlərinin ayrı olduğu və bu ayrı ismlərin ayrı-ayrı məmləkətlər adı olduğunda heç şübhə yoxdur. Fəqət dün rus dövlətinin təqsimati-idarisilə Qafqas və yaxud Zaqafqasiya adlanan ərazinin Bakı, Gəncə və İrəvan kibi adlarla təqsim olunuşu İrəvan, Gəncə, Bakı vilayətlərindən bir qisminin Azərbaycan olmadığını icab etdirməz. Məsəla, eyni Şəmsəddin Sami bəy Gəncənin yaxınında olan "Şəmkir"i tərif edərkən diyor ki, "240 tarixində Azərbaycan valisi və Məsmək Azadlisi (Bəğa) tərəfindən emar olunub mütəvəkkilliyə təsmiyə olunmuşdur".

Deməк ki, Azərbaycandan qeyri-fərz olunan Gəncə qaberniyası və daha qədim təbirlə Aran ilə Bərdə həvalisi dəxi Azərbaycan vilayəti daxilində imiş.

Qafqaz ismi amm olub da müxtəlif nəvahi və vilayətlərə şamil olduğu kibi, Azərbaycan ismi də Qaradağ, Xalxal, Marağa, Muğan, Aran, Bərdə, İrəvan, Naxçıvan, Bakı və sairə kibi idari, tarixi və coğrafi ismləri ehtiva edə bilər.

Burada cüzin küll namını ala bilmədigi həqqindəki mülahizə və bu mülahizəyə qiyas olaraq Bismark ilə Avstriya arasındakı münaqişədən istidlal dəxi doğru degildir.

Çünki biz azərbaycanlı türklərin hökumətini təşkil etmək mövqeində ikən İrana Azərbaycan ismindən fərağət et, desə idik, o zaman həqsiz olurduq. Müxtəlif millətlərdən təşəkkül elədigi halda İran Azərbaycana malik olduğu kibi, Avstriya da alman millətinə malik idi. Halbuki Avstriyanın almanlara malikiyyəti Almaniya hökumətinin təşkilinə mane olamaz və hələ bütün Almaniyaya hakimiyyət sövdasına düşmək üçün kəndisinə heç bir həqq verəməz idi. Bismark bu nöqteyi-nəzərdən pək həqli idi.

Bitərəfanə icra olunan müxtəsər bir tədqiqlə görülür ki, Azərbaycan ismi cümhuriyyətimizə İran qəzetələrinin düşündügü kibi pək münasibətsiz bir "xam xəyal" nəticəsi olaraq verilməmişdir. Burada İran ərazisi həqqində heç bir suyi-niyyət mövcud olmayıb, yalnız bu gün kəndisini bir millət olaraq bilən sabiq rus təbəələri – Azərbaycan türklərinin müqəddəratı düşünülmüşdür. Böylə ikən yeni təşəkkül edən bəzi – Polşa, Ukrayna kibi dövlətlərə qiyasən bizi də macəracuyanə bir siyasət təqibi ilə məlul təsəvvür etmək doğru olamaz.

Madam ki, yeni bir hökuməti-islamiyyənin vücudi İranca da mətlubdur, o halda tehranlı rəfiqlərimiz ism üzərindəki mübahisəyi coğrafiya və qövmiyyət mütəxəssislərinə buraxıb da müsəmmadan bəhs etsəydilər, aramızda mətlub olan hüsni-münasibətə daha ziyadə xidmət edərlərdi, zənn edəriz.

"İran" qəzetəsi Gürcüstan, Ermənistan hökumətləri ilə hüdud münaziələrimiz mövcud olduğunu və sair bir çox əsaslı müşkilatə məruz qala bilməmizi ixtar edərək cümhuriyyətimizin böyük qardaşı olan İranla hüsni-münasibatın son dərəcədə səmimiləşdirilməsini arzu ediyor. Öylə olursa, o zaman iranilər bizə hər növ maddi və mənəvi müsaidələrini vəd ediyorlar.

"İran" bir az da tarixə müraciət ediyor. Böyük Nadirin İran padşahı olaraq Türkiyə sultanına ittihad həqqindəki təklifini xatırlıyor. O təklifin qəbul edilmədiyi üçün bugünki İslam aləminin xəsarətinə, bilxassə Türkiyə fəlakəti-hazirəsinə təəssüfixəvan oluyor. Sonra da "nəşəyi-hürriyyət"lə sərşar olan "ətraki-müsəlmani-Qafqaz" cavanlarından bir-ikisinin "xam xəyallarına" uymamayı heyəti-mürəxxəsə əzamızın əql və dərayətlərinə etimadən "xatiri-nişan" ediyor.



Görünüyor "təkəddür" yalnız "Azərbaycan" ismindən degildir. "Nəşəyi-hürriyyətlə sərşar olan cavanlar"ın "xam xəyallarından" da əndişələr edilməkdə və həm bu xəyallar mövcud kibi görülməkdədir.

Biz buna ciddən mütəəssüfüz. Nadir şahın fikir ittihadını zənn edirsəm "Nadir şah" əsərini təmsil edən azərbaycanlılar yalnız tərvic degil, tətbiq də etmişlərdir. Yalnız oğlunun gözü müqabilində çıxaracağı batmanlarla göz təhdidi ilə degil, eyni zamanda da məəttəəssüb və dar mollalara qarşı işlətdiyi siyasətə qurban olan Nadirin fikrini – məzhəb qovğalarının ortadan qaldırılmasını – qövldən-fələ gətirənlər yenə "ətraki-müsəlmani-Qafqaz"dır.

Fəqət unutmamalıyıq ki, Nadir şah kibi Sultan Süleyman da ittihad güdüyordu. Birisi bunun üçün məzhəbləri ortadan qaldırıb da siyasi bir hakimiyyət təsisini lazım görür ikən, digəri "rafiziləri" tənkil ilə "həqqə" təslim etdirmək və bu vasitə ilə "tovhidi" əldə etmək istiyordu. Fələn ikisi də cahangir ikən şübhəsiz ki, əvvəlinci nəzəriyyə daha doğru olub, ittihadə yetişmək üçün daha səlim vasitədir.

Fəqət bu dəsturi məzhəb dövründən çıxıb da milliyyət əsrinə girmiş olduğumuz bu zəmanə tətbiq edərsək, rabitəyi-islamiyyəyi ibqa etməklə bərabər hüquqi-milliyyəyə ehtiramkar olmalı, bu xüsusdakı təaliati-təbiiyyəyə fəna bir nəzərlə baxmamalıyız.

Zəmanımızda demokratik əsaslara istinad etməyən bir hökumət yaşayamaz. Xəlq lisanı, adatı, ənənatı ilə mənus və məluf olmayan bir hökumət isə demokrat olamaz.

Buna görə dəxi tamamilə milli və demokrat bir əsasat üzərinə təşəkkül edən cümhuriyyətimizə iranlı qardaşlarımız kəndi münasibətlərini təyin edərkən ismimiz samiələrinə xoş gəlmiyorsa da, müsəmmamıza baxsınlar. Müsəmmamızı məqbul və kəndi nöqteyi-nəzərlərindən mətlub gördükdən sonra ismin o qədər əhəmiyyətə malik olmadığını kəndiləri də təqdir edərlər.

Biz böyük qardaş iddiai mühitində bulunan Tehran mətbuatından şəkildən ziyadə mənaya aid nəşriyyata intizar edəriz. Çünki zəvahirlə fəzlə məşğul olmaq hər halda böyüklərin şüunundan olmaz, deyə düşünüyoruz.

**M.Ə.Rəsulzadə**

**"Azərbaycan", 28 nisan (aprel) 1919, №168**

Təcəddüd – təzələmə, yenilətmə
Məruf – məlum, tanınan
Ətrak – türklər
Mütəkəllim – danışan
Cərh – sancma, yaralama
Zənin – şübhəli, etibarsız
Müsəmma – adlandırılan ərazi
Sərfi-nəzər – vaz keçmə
Ülfət – yekdillik, hüsn-rəğbət
Tovsi – genişləndirmə
İltibas – dolaşıqlıq, aydın olmama
İğraq – mübaliğə
Məəmafiə – bununla belə
Həvali – ətraf, civar
Müddəiyat – haqsız iddialar
Ələm – nişan, işarə, əlamət
Mütəvəkkil – belbağlayan, ümid verən
Nəvahi – nahiyə, vilayət
Məlul – kədərli
Rafizi – rafizə təriqətinə mənsub, inkar edən, kafir
Tənkil – başqalarına ibrət olacaq cəza vermək
Mənsus – alışmış, öyrənmiş
Təkəddür – burada rahatsızlıq
Münaziə – mübahisə
Fərağət – vaz keçmə, əl çəkmə
Məluf – yemlənmiş
Samiə – eşitmə duyğusu
Şüun – şan-şöhrətlər
İstidlal – bir dəlilə əsaslanaraq nəticə çıxarmaq



## Tətil bitdi!

Azərbaycanın istiqlalına, türk demokratiyasının hakimiyyətinə qarşı adda iqtisadi, işdə siyasi olaraq elan edilmiş olan zabastovka gözlənən nəticə ilə bitdi.

Mərkəzi tətil komitəsi dün nəşr elədigi bəyannaməsində əmələlərə xitab edərək: "Yoldaşlar, biz məğlub olduq!" diyor.

Fəqət məğlub olan əmələlər degil, yalnız mərkəzi tətil komitəsidir. Yoxsa tətilin nəticəsi əsl Azərbaycan əmələsinin böyük sahibi olan türk demokratiyasının eyni arzusu, demək ki, eyni qələbəsidir. Vətənin böylə müşkül bir zamanında ortalığı şuluğa vermək istəməsi ilə birtərəfli qurulan raboçi konfransiya ilə mərkəzi tətil komitəsi Bakı füqərayi-kasibəsinin arzusuna degil, Rusiya sovet hökumətinin intriqasına xidmət ediyorlardı.

Azərbaycan zəhmətkeşi, istiqlalçı türk demokratiyası isə bu intriqadan bezar və bu hərəkətdən kənar idi.

Onun iradəsi dəxi hakim olmalıydı.

Fəqət özlərindən şübhələnən bolşeviklər hər dəfə olduğu kibi bu dəfə də türk xəlqinin bu istəginə əhəmiyyət vermədilər. Bittəbii bunun cəzasını da çəkdilər.

Əvət, məğlub olan qüvvət, mərkəzi tətil komitəsinin bəyannaməsində denildigi kibi, Bakı füqərayi-kasibəsi degil, Rusiya intriqasıdır.

Hər məğlubun müqabilində bir də qalib vardır. Bu dəfə qalib gələn qüvvət dəxi məğlubların izah edəcəgi vəchlə burjuazi qüvvəti degil, türk demokratiyasının əzmi və istiqbali-milli fikrinin qüvvətidir.

Zabastovka intriqası ilə müvəffəqiyyətli bir surətdə mübarizə elədigi üçün Azərbaycan tarixi-istiqlalında şayani-qeyd bir mövqe tutacaq olan Nəsib bəy kabinəsi hər nə qədər əzminin mənbəini Məclisi-Məbusanın ittifaqla verdigi qərarından aldısa da, bu əzmini icradakı müvəffəqiyyətini tamamilə istiqlalpərvər Azərbaycan demokratiyasına və milliyyətini anlamış türk zəhmətkeş xəlqinə borcludur.

Bakı füqərayi-kasibəsi bu məsələdə qətiyyən məğlub degil, qalibdir. Çünki zabastovkayı istəyən Bakı füqərayi-kasibəsi degil, bolşevik intriqasına uyan rus əmələləri idi.

Türk demokratiyası bu birinci dəfə degildir ki, kəndisini göstərmiş, onun əzmi xaricində heç bir şey görülmiyəcəgini aydın bir surətdə isbat eləmişdir.

Bu üçüncü dəfədir ki, türk və müsəlman zəhmətkeşinin iradəsi xaricində közülmək istənilən təşəbbüslər əqim qalıyor, nəticə yalançı demokratların zərər və xüsranı ilə tamam oluyor.

Faidəsiz zərər olmaz zərbülməsəli bilxassə bu tətilə yaraşar.

Azərbaycan paytaxtı altı günlük fövqəladə bir həyat keçirməklə şübhəsiz ki, zərər gördü. Fəqət gördügi faidələr müqabilində bu zərərlərin nə qədər cüzi bir şey olduğu təsəvvür olunsun.

Ən böyük faidə bu ki, hökumət bir kərə daimi bir fəsad halında olan Rusiya agentlərini məmləkətimizdən sürüb də gəldikləri yerə atmaq imkanını hasil elədi. Bolşevik fəsadçılarını tutdu: sonra başımızda patlamaq üçün zəxirə olunan tüfəng, fişəng və top ambarlarını kəşf elədi.

Denikin adamlarını buradan çıxarmağa təşəbbüs edərkən hökumət bolşeviklərdən dəxi bu bəlakeş məmləkətin yaxasını qurtarmalıdır. Bolşeviklər kəndiləri kəndindən yaxayı ələ verdilər. Öz əlləri ilə özlərini kəsdilər.

Xəlqin arzusu, türk zəhmətkeşinin iradəsi və parlamanın etimadına dayanan Nəsib bəy hökuməti siyasi bir intriqadan ibarət olan zabastovkayı şanlı bir surətdə basdırdıqdan sonra təbiidir ki, əmələlərin iqtisadi ehtiyaclarını və həqiqi mənfəətlərini heç bir zaman ehmal etməz. Zatən böylə yapacağını əvvəlcədən bildirmişdi.

Hökumət əlbəttə ki, kollektivin əmələləri çıxarıb və qəbul etmək həqqi əmələlərə aiddir kibi maddələrini qəbul edəməz. Çünki bu maddə doğrudan-doğruya türk zəhmətkeş demokratiyası əleyhinədir.

Çünki bu maddə ilə "bolşevik icadı" rus intriqanları istiyorlar ki, başımız üstündə daima siyasi bir tətil şəmşiri saxlasınlar.



Çünki onlar gördülər ki, əleyhimizə tərtib olunan zabastovkaya birinci zərbəyi endirən milliləşmiş dəmiryol idarəsi oldu.

"Azərbaycan" qəzetəsi keçən məqalələrindən birisində bu zabastovkaya "siyasi bir imtahan" adını vermişdir. Bu imtahandan ələlələ bir surətdə çıxanlar şübhəsiz ki, milli hökumətləri arxasında səddi-iskəndər kibi duran zəhmətkeş türk xəlqi oldu.

Bu əli qabarlı vətəndaşlar hər sinfimizdən ziyadə həmiyyət və siyasi idrak sahibi olduqlarını göstərdilər və bununla millətimizi təmsil edən hökumətimizin qələbəsini təmin elədilər.

Əvət, onlar məğlub oldular. Fəqət məğlub olan Bakı füqərayi-kasibəsi degil, Rusiya naminə hərəkət edən siyasi intriqanlarıdır.

**M.Ə.**

**"Azərbaycan", 14 mayıs 1919, №180**

Zəxirə – döyüş sursatı; azuqə

## Nə böyük bayram!

Azərbaycan türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlıyorlar.

İstiqlal bayramı!

Bundan bir sənə əvvəl Zaqafqasiyanın müqəddəratını həll üçün Tiflisə toplanmış olan müsəlman vəkilləri tarixin öylə bir anına təsadüf eləmişlərdi ki, yüz sənəlik dövrü-əsarətə yalnız yüksək bir amal nəticəsi deyil, eyni zamanda zəruri bir ehtiyac kibi xatimə vermək məcburiyyətində qalışlardı.

Əvət, Zaqafqasiya millətləri bilməcburiyyə elani-istiqlal etmişlərdi.

Bilməcburiyyə elani-istiqlal!

İstiqlalımıza düşmən olanlar bu iki "məcburiyyət" və "istiqlal" sözlərinin bir araya toplanmasını "ictimai ziddin" qəbilindən ədd etməklə, Zaqafqasiya cümhuriyyətlərinin qeyri-təbii olduqlarını isbat etmək istərlər.

Fəqət bu mülahizə zahirdə doğru görünsə də, batində öylə degildir.

Bir növzadın məsimeyi-madərdən xilas olub da dünyaya gəlməsi heç şübhəsiz bir vaqei-istiqlaldır. Qadının vəzi-həmlinə digər təbirlə bizdə "azad olmaq" deyirlər. Halbuki bu "azadlıq" eyni zamanda bir zərurəti-təbiiyyə, bir məcburiyyətdir.

Öylə bir məcburiyyət ki, həyati-aləm ona bağlıdır!

Zaqafqasiya "Seym"inin elani-istiqlalə məxsus olan günündə "kadet" firqəsi nümayəndəsi "Seym" əzalarının o gün vəzifələrinin ağırlığından duyduqları hissiyyata tərcüman olaraq, hər kəsi özü kibi təsəvvür edərək: "Bakınız sanki "Seym" bir möhtəzirin başı üstündə durmuşdur" – dediyinə müqabilən bən: "Əfv edərsiniz, bu iztirab və əndişə bir möhtəzirin deyil, bir ləhvisənin[1] başı üstündə görülən iztirabdır".

Zaqafqasiya ləhvisəsinin "azad"lığı çox müşkilatla olmuşdu. Çünki birdən üç növzad doğmuşdu:

Gürcüstan, Azərbaycan və Ermənistan!

[1] Vəzi-həml edən qadın



Hər növzad kibi istiqlal dəxi can kibi sevildigi halda canan kibi cəfakardır. Bir növzad paydar olub kəndi başına dolanır bir adam oluncaya qədər ata və anasına nə əndişələr, nə qəmlər, nə qüssələr verməz!

İştə eyni iztirabları, eyni qüssə və dərdləri, fəqət bununla tovəm olan sevinc itminanları biz keçən sənəyi istiqlalda keçirmədikmi?...

Mart hadisati-əliməsinin bir nəticəsi olaraq davam edən Bakı əsarəti, Şamaxının bu dəfə yer altındakı məvadi – bir kaniyyədən degil, insanların fitrətindəki şərarətdən mütəzərrər olub da, xak ilə yeksan olması; Osmanlı türk qardaşlarımızın son ümidsizlik dəmində yetişib də bizi düşmənlərdən xilası; Bakının istirdadı, sonra ingilislərlə bərabər Biçeraxov və sairələrinin gəlişi ilə hasil olan iztirab və əndişə, Parlamanın mütəntən surətdə açılması, Azərbaycan ordusunun vürudi, Qarabağ, Naxçıvan, Lənkəran məsələləri, Dağıstan faciəsi, nəhayət bugünkü şənliklər – iştə bir sənəlik həyati-istiqlalın xof ilə ümid arasındakı iztirab və imtinan dəqiqələri!

Hər nasılsa növzadımız bir yaşına çatdı.

Bu bir ilin ərzində azərbaycanlıların maddətən verdikləri qurbanlara müqabil qazandıqları yalnız xaricin bizi müstəqil bir millət kibi tanımaya doğru və göstərdigi bəzi təmayülat degil, ən böyük şeyi fikri-hürriyyət və istiqlalın artıq milli bir fikir olduğu keyfiyyətidir.

Bundan iki sənə əvvəl biz türkçülər Azərbaycan şüarını böyük güldəstənin zəngin bir gülü kibi təsəvvür etdikdə, yalnız rus kadetləri ilə sosialistlərindən degil, öz kadetlərimizlə sosialistlərimizdən dəxi müqabilə görüyorduq.

Bir sənə sonra bütün firqələr bunu bir zərurət kibi qəbul edərək Azərbaycan istiqlalının elanına iştirak etdilər. Bu gün isə hər kəs onu bir mövhibə kibi qarşılayıb bir amal və bir ideal kibi alqışlayır!

Bu alqışlar yalnız siyasi firqələrin nümayəndələrindən degil, ağac tüfəngləri ilə "irəli, irəli!" – deyə sokakları dolaşan gənclərlə "Azərbaycan əsgərini" yaşar gözləri və "Allah bəd nəzərdən saxlasın" duası ilə ötürən cəmaətdən, nəşeyi-istiqlalı dərk etmiş xəlqdən gəliyor.

Bundan altı ay əvvəl Azərbaycan Məclisi-Məbusanın açıldığı gün "Bir kərə yüksələn bayraq bir daha enməz!" – demişdim.

O zaman, içində bulunduğumuz zaman o qədər müşkül və o qədər pərxöf idi ki, yüksəltdigimiz bayrağı pək də yüksək qaldıramıyor, onu yalnız Parlaman binasına münhəsir eldirib də "müdara" göstərmək məcburiyyətində qalıyorduq.

Bu məcburiyyətdən mütəəssir olan bəzi bədbinlər "hanı –ya bir kərə yüksələn bayraq, bir daha endiriləməz!" – diyordunuz, diyordular!

İştə qoy bugünkü gün milli bayraqlara boyanmış Azərbaycan paytaxtı o kibi bədbinlərin qəlbini təsfiyə etsin!

Bir sənəlik həyat həqiqətən də göstərdi ki: bir kərə açılmış livai-hürriyyət bir daha bükülməz!

Doğrudur ki, bu gün yüksəltdigimiz istiqlal bayrağını endirməgə, açdığımız livai-hürriyyəti bükməyə çalışan düşmənlər var. Bu düşmənlər bu gün hər tərəfdən bizə pusu qurmaqda, bizi təhdid etməkdədirlər.

Fəqət bir tərəfdən millətimizin gündən-günə artan əzmi-millisinə, istiqlal və hürriyyəti yolunda sabit qalacağına, digər tərəfdən də nə desələr-desinlər, dünya üzərində təsirsiz qalmayacaq milliyyət fikri-müəzzəminin bilaxirə elani-zəfər edəcəginə inanmaqla, bu tarixi-millimizdə misli namüsəyyur böyük bayramla yekdigərimizi təbrik edəlim də, inanalım ki, bir yaşına çatmış növzadi-istiqlal təhlükəli qranlarını keçirir.

Bir kərə yüksələn livai-istiqlal, bir daha enməz!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 28 Mayıs 1919, №190**

Növzad – yeni doğulmuş
Möhtəzir – can verən
Mövhibə – hədiyyə, bəxşiş
Müdara – zahirdə dostluq göstərmə
Təsfiyə – saflaşdırma
Liva – bayraq
Müsəyyir – hərəkətə gətirilən



## Azərbaycan Cümhuriyyəti

Coğrafiya etibarilə Azərbaycan isminin yalnız İran vilayətlərindən Təbriz ilə həvalisinə ələm olduğu məruf olsa da bu ismin tarixcə dəxi yalnız bu vilayətə münhəsir olduğu sabit olmuş həqiqətlərdən degildir; biləks bu ismin Azəri türklərlə məskun bütün yerlərə şamil bir ism olduğuna dəlil və sübutlar vardır.

Bu xüsusda isbati-müddəa etmək üçün səhifələr yazmaq mümkün ikən biz cümhuriyyətimizə verdigimiz adı coğrafi bir məfhumdan ziyadə qövmi bir mənadan aldığımız üçün bu məsələ ilə pək o qədər də məşğul olmaya lüzum görmüyoruz.

Müştərək bir dil, yazı, ədəbiyyat, adət, ənənat və tarixə malik olmaq bir millət amallarını təşkil edərsə heç şübhəsiz ki, Araz nəhrinin iki tərəfində sakin; cənubda Təbriz, şimalda Bakı məntəqəsində toplanan xəlqin əksərini bir milləti-vahidənin namizədidir. Yuxarıda məzkur amillərin vücudu ilə bərabər bir cəmiyyət əfradının kəndi birliklərini hiss və idrak eləmələri, sözün tam mənasilə milli bir vücuda dəlalət edərsə, heç şübhəsiz ki, bu milləti-vahidə namizədinin Arazın şimalındakı qismi kəndisini bilmiş bir millətdir.

Bu, əsrimizdəki tərifati-elmiyyəsi ilə qismən millət olmağa namizəd və qismən də bir millət olmuş xəlqin məruf bir ismi vardır:

– Azərbaycan türki və yaxud Azəri türklər.

Kəndi şiveyi-məxsusəsi ilə qonuşan Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif ismlər daşıyan böyük türk millətinin bir qismidir.

Azəri türklərin hal-hazırda oturduqları yerlər min əl-qədim türk xəlqi ilə məskun olmuşdur. Gərək Bakı, Gəncə, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil, Xalxal və sair kibi vilayətlər və gərək Muğan, Aran, Qarabağ, Qaradağ kibi məmləkətlər daima türk xəlqinin oturağı və türk xanlarının ovlağı olub; bu yerlər kəndilərində bir çox türk sülalələrinin irili-xırdalı hökumətlər qurduqlarını, illərlə səltənət sürdüklərini görmüşlərdir.

"İdil" nəhrinin "Quzğun dəniz"ə töküldüyü yerdə böyük bir səltənət quran Xəzər türkləri daha miladi 700 sənələrində Kalmık səhrası ilə aşağıya doğru enmiş, Muğan düzənliklərinə yayılmış, daha sonra onları digər türk seylabələri təqib eləmişlərdir. Böyük Çingiz ilə Axsaq Teymurun cəngavər igidləri Kür boyu ilə Araz hövzəsini Ceyhun ilə Seyhuna bənzədigindən Turan köçbələrinə oturaq etmiş, Səlcuq hökmdarları isə artıq burasını qəti surətdə bir türk məmləkəti halına qoymuşlardır. Səlcuqlardan sonra bu ərazi əldən-ələ keçmiş, müxtəlif hökmdar və sülalə idarəsində qalmışlarsa da bunlar əksərən türk olub böyükləri müzməhil olduqda yerlərini, küçük də olsalar yenə birər türk xanlıqları tutmuşdur. Misal olaraq burada hökm sürən Azərbaycan Atabəyləri, Qaraqoyunlu və Ağqoyunlu türkmən bəylərindən Uzun Həsən və Qara Yusifləri göstərmək olar ki, kamilən türk ulus və oymaqlarından gəlmişlərdir.

Son dəfə olaraq rus istilasına məruz qalan Dərbənd, Quba, Bakı, Şəki, Şirvan, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanlarının dəxi azərbaycanlı türk xanları olduğu məlumumuzdur.

Xülasə, tarixin huşunda qaldığı bir zamandan bəri buralardakı qarlı dağlarla susuz aranlarda, yaşıl ovlaqlarla sıldırım qayalıqlarda, quzğun dənizlərlə yanar dağlarda, qəlbində hərarət, süfrəsində nemət bəsləyən bu mümtaz yerlərdə, insanın təbiətə tapındığı uzaq zamandan bəri ilahi bir nura məzhər olan bu ərzi-müqəddəsdə bir çox əsrlərdir ağalıq edən onlar; Muğan səhrasından Mil düzünə, Kalmık çölündən Aran vadisinə yayılan onlar; Şirvan silsiləsindən Qaradağa çapan, Şahdağın təpəsindən Savalan zirvəsinə qonan onlar; Kür ovlasından Qızıl Üzən çölgələrinə süzən yenə onlar, yəni türklər olmuşlardır.

Türklərin buralardakı hökmranlıqları Hindistan, Xorasan, Bağdad, İran və Misirdə olduğu kibi başqa bir cinsdən olan xəlqə əskəri bir sinif olaraq hökumət sürməkdən ibarət olmamışdır. Osmanlılardan başqa əksər türk hakimləri hökumət elədikləri xəlqə təmsil etmişkən, Azərbaycan türklərinin kütlə etibarilə milliyyətin rükni-mühümi olan dillərini halilə saxlamaları göstəriyor ki, Azərbaycandakı türk hökumətləri başqa cinsdən bir xəlqə



müsəllət əcnəbi bir hökuməti-əskəriyyə degil, türk xəlqinin əksəriyyətinə istinad edir bir hökumət imiş. Rus istilasına qədər ərəb və İran istilasına rəğmən, Azərbaycan xanlıqlarının yarım müstəqil türk xanlıqları halında qalmaları, hətta İran Azərbaycanının belə türk sülalədən olan bir vəliəhd vasitəsilə idarə olunuşu bunu bir dərəcəyə qədər təyid etməzmi?!..

Hər nə qədər bundan yüz sənə müqəddəm Azərbaycan xanlıqları kəndi mənliklərini dərk etmədən, kəndisini tanımış milli bir sima göstərmədən mövqelərini İranın nüfuzi-mənəviyyəsinə, sonra da rusun qüvvəti-bazusuna tərk və qəzayə təslim oluyordusalar da, xəlq kəndisinə məxsus ədəbiyyatı, şairləri, aşıq və dərvişləri ilə hüzn və məsərrətini kəndi lisanı ilə tərənnüm ediyor, kəndi idrakı ilə bir vücud olduğunu bəlkə sezmədən sezdiriyordu.

Əvət, rəhləsi üstündən enməyən Füzulisi, Koroğlusu ilə bağrı yanıq Kərəmə ağlayan aşıqları, bu aşıqların ürək dağlayan sazları ilə çobanların ruha sinən bayatıları, çocuqların sevə-sevə əzbərlədikləri "üşüdü"ləri kəndisini iranlı bilən bu xəlqin müdhiş bir zəlalətdə olduğunu göstəriyor:

– Yox degil, siz türksünüz! – diyordu.

## II

Bu türklər Azərbaycanı ikiyə bölən Araz nəhrinin iki tərəfində sakin olub qismən də İrana şu və ya bu surətlə bağlı nim müstəqil bir halda yaşadıqları zaman zahirən məhkum bir millət degil, hakim olaraq yaşıyorlardı, İran təxtində oturan sülalə kəndi cinslərindən bir türk sülaləsi idi. İranı və İran dairəyi-nüfuzunda olan xanlıqları xarici düşmənlərə qarşı ciddiyyətlə müdafiə edən şahzadə, yenə bir türk şahzadəsi idi. Abbas Mirzənin istinad elədigi nöqtə Təbriz olduğu kibi, ümid bağladığı qüvvə dəxi Azərbaycan türkləri idi.

Azərbaycan xəlqi idarəcə gördügü ağırlığı başqalarından degil, öz cinsindən gördügü üçün həqiqi məhkumiyyətini mənə-

viyyatca tamamilə başqa bir ruh və yabançı bir mədəniyyət məhkumu olduğunu dərk etmiyordu. Get-gedə farslaşıyordu. Xəvas təhsilini tamamilə farsca görüyor, fars tərbiyəsi alıyor, bir fars kibi düşünüyor və kəndisinin doğrudan-doğruya iranlı olduğunu təsəvvür ediyordu. Xəlqin hal və əqdini əlində bulunduran bu xəvas kibi mənəviyyatına hakim bulunan üləma sinfi dəxi eyni ruhda, eyni tərbiyədə, eyni zehniyyətdə idi.

Fars ədəbiyyatına Məhsətilər, Nizamilər, Qaani və Xaqanilər kibi ustadlar bəxş edən bu Azərbaycan xəvası pək təbii idi ki, bir zaman Osmanlı sultanı-müqtədiri Süleyman Qanuninin belə az qala qəbul elədigi Sədi lisanı qarşısında əriyib kəndiliklərindən keçmiş, türk ilə türkcəyə yuxarıdan aşağı bir baxışla baxmışlardı.

İranın o dəhşətli və cahanbəha ədəbiyyatı və o ədəbiyyat sayəsindəki qüvvətli mənəviyyatı qarşısında təslim olub da təməssül edən türk xəvasının bittəbii əvam üzərinə dəxi böyük təsiri olacaqdı. Həm olmuşdu. Türk kəlməsi türk xəlqinin kəndi dilində – şayani-heyrətdir ki, – təhqiri-mütəzəmmin bir məna yerində istemal olunuyordu. Bunun tətmələrini imdiki halda belə görmək mümkündür. "Türksayə" sözünün avamımız arasında "sadəlövh" mənasında işləndigi, "türkün sözü" təbirinin səthi mənada söylənən sözlərə ələm olduğu, "türk demişkən" əlavəsinin sameyi təhqir edən mənalara iltibas edən kəlmələrdən ayrılmayan bir rədif halında gəlməsi iştə o zehniyyətin təsiridir. Fəna təsir kəndiligini qeyb edən xəvasın xəlqə təlqin elədigi "qədəhinəfs"dən hasil olmuşdur.

Xəvasın bu dərəcədə təməssül etməsi azərbaycanlıları tühəf bir millət halına qoymuşdu:

Dili başqa, yazısı başqa bir millət!

Məvərayi-Araz Azərbaycanı hala bu haldadır. Orada hər kəs türkcə söylər. Fəqət eyni zamanda yazılar tamamilə farsca yazılar.

Fəqət kəndiligindən keçmiş xəvas girdigi bu yalnış yolun çıxılmaz birahə olduğunu sezmədigi halda, əvam pək də laqeyd degildi. Xəlq qeyri-təbii olan bu halə ünsüri bir surətdə müqabilə ediyordu. Türk demokratiyası kəndisinin kimsənin sezmədigi və əhəmiyyət vermədigi lamilliləşdirilməsinə qarşı qiyam eləmişdi.



Bu qiyamın qəhrəmanları isə xəlq şairləri ilə dastançı aşıqlar idi. Laüdəri müsənniflərin yaratdığı "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib" və sair bu kibi ədəbiyyat, ürək yaxan aşıq sazlarının ruhnəvaz ahəngləri altında Azərbaycan türk xəlqinin qəlbinə öylə siniyor, öylə yerləşiyordu ki, onunla degil farsın "Nuşiafərin"i, "Rüstəm və Söhrab"ı, hətta Firdovsi ilə Hafizi belə rəqabət edəməzdi. O, öz Firdovsisini, öz Hafizini, öz Sədisini – doğma türk şairini və ruhundan xəbər verən Azərbaycan şeirini arıyordu.

Bərəkət versin ki, xəvasın həpsi ondan rugərdan olmamışdı. İştə bu, doğduqları mühitdən tamamilə rugərdan olmayan Azərbaycan şairləri xəlqin ehtiyacını tətmin edərək türkcə şeirlər yazmaya başlamışlar, xəlq ədəbiyyatında əlavə yazı ədəbiyyatının əsasını dəxi vəz eləmişlərdi.

Bu olduqca ağır və müşkül vəzifəyi Füzuli məşrəbli türk şairləri müvəffəqiyyətlə gördülər. Bu müvəffəqiyyət üzəmanın bir təfsili-təhlili kəndi başına mühüm bir mövzu olsa da sədədimizin xaricində olduğu əlbəttə təqdir olunur. Biz ondan yalnız maddətən hakim ikən mənən məhkum olan xəlqimizdə mənən dəxi məhkum olmamaq üçün bir təşəbbüs və həyat əsəri mövcud olduğunu göstərmək üçün ötəri olaraq bəhsə lüzum gördük.

Şimali Azərbaycan rus təhti-idarəsinə keçdikdən sonra məhdud olsa da, malik olduğu siyasi hüququnu tamamilə itirmiş, maddi məhkumiyyətin bütün acısını dadmışdı.

Əvvəlki idarə zamanında gördügü mənəvi əsarətini müştərək bir din və yaxın bir ruh təsirilə pək də sezməyib getdikcə farslaşan Azərbaycan türkü bu dəfə də ruslaşdırılmaq siyasətinə məruz qalmışdı. Fəqət bu siyasətin bir ayağı cəbrə bağlı olduğundan və tamamilə yabançı bir ruha malik bulunduğundan təbii idi ki, xəlqin müdafieyi-nəfs hissini daha ziyadə qıcıqlıyor, onu daha sürətli bir surətdə kəndisini düşünməyə vadar ediyordu.

Bir vəqt hökumət tərəfindən təyin olunan mollalar "dəftər mollası", rus şkolunda oxuyan bəy balalarına dəxi "rus balası" deyən xəlq kəndi hədəsilə duyduğu ruslaşdırmaq siyasətinə bildigi kibi müqabilə etmişdi. O dəftər mollasına qarşı öz axundu-

nu, ministerstvo şkoluna da məktəbxanasını qarşı qoymuşdu.

Xəlqin hədəsi doğru idi. O, axundunun hürriyyəti və mədrəsə ilə məktəbinin istiqlalı üçün pək həqli və pək məqul bir mübarizədə idi. O, maddətən məhkum olduğuna razı olmuş, fəqət mənən dəxi məhkum olmaq istəmiyordu.

Fəqət xəvas yenə yanılmışdı. Vəqtilə Firdovsinin təmtəraq üslubu, Sədinin hikməti, Xaqaninin təğzili qarşısında bayılan "mirzə" bu dəfə də Lermontovun ruhu, Puşkinin üslubu, Tolstoyun fəlsəfəsinə vurulmuş bir "uçitel" idi.

Sənələr keçdi. Şkol uçiteli ilə məktəb müəllimi anlaşamadılar.

Farslaşmış mirzə kibi ruslaşmış uçitel dəxi xəlqin hədəsnən duyduğu mətləbi bir çox zaman dərk edəməmişdi. Nəhayət, bir çox birahələrdən keçdikdən, məktəb və mədrəsələrə qarşı bilüzum, daha doğrusu, biüsul mübarizələrdən sonra "uçitel" artıq əsl mətləbi anladı. Bildi ki, Sədiyi də, Tolstoyu da türk xəlqinə öğrətmək, türkü onlarla aşina etmək həm lüzumlu, həm faidəlidir. Fəqət bununla bərabər türkü kəndi sədisindən, kəndi tolstoyundan məhrum etmək olamaz.

Sədiyi, Tolstoyu və sair dünya müşahiri adını anlamaq üçün kəndi füzulilərini, nəbatilərini – gözə nə qədər küçük də görünsə – seyyidlərini, sabirlərini öğrətməlidirlər.

Bu zəmin üzərində rus məktəbi vasitəsilə mədəniyyəti hazirəni az-çox dərk etmiş ürəfa ilə xəlq arasında yekdigərini anlamaq dövrü başladı.

Artıq Azərbaycan türkünün oyanmaq zamanı gəlmişdi. Və zamanın bizə nələr verdigini mən degil, məcmuəmizin digər qismində mütəxəssis arkadaşlarımız sizə ərz edəcəklərdir. Bən isə yalnız:

Malik olduğumuz müasir ədəbiyyat, mütəəddid mətbuat, zəngin teatro, parlaq musiqi, mütəşəbbüs tüccar, gözü açıq əmələ, siyasi firqə, mühərrir, aktyor, mühəndis, memar, hüquqşünas kibi siniflər, zükur ilə ünasə məxsus məktəblər və sair bu kibi müəssisatımızla biz, məhkum ikən artıq hakim olmaya namizəd bir millət olmuşduq – deyirəm.



Əvət, daha Azərbaycan Molyeri Mirzə Fətəli Axundov mərhumla başlayan müasir ədəbiyyat həvəsi, Həsən bəy Məlikov mərhumun "Əkinçi" qəzetəsi ilə mətbuati-milliyyə təsis və davamına həsr olunan əmək, cəmiyyəti-xeyriyyə binası üçün bundan 40 il əvvəlinə aid olan təşəbbüs, nəhayət milli ədəbiyyat, milli məktəb tələbləri, şeyxülislamla müfti və sair axundlarımızın təyinlə degil, intixabla oluşunu istəmək, daha çarlıq zamanında məktəb və mədrəsə islahı yolunda təvəlli edən o bitməztükənməz davalar başqa bir şey degil, yalnız bir dava idi:

– Hakimiyyəti-milliyyə davası!

## III

Hakimiyyəti-milliyyə davasının 1905-ci Rusiya inqilabı-səğiri nəticəsində hasil elədigi qazanclar var idi: milli məktəb, milli mətbuat, milli cəmiyyətlər təsisi həqqində cüzi müsaidat.

Bu müsaidələrdən istifadə ilə böyük müharibə ərəfəsində və inqilabi-kəbirin patladığı zamanda Azərbaycan türkü Rusiyadakı sair türklərlə birlikdə artıq siyasi idrakdan məhrum, arzuimilliyyəsi inkişaf etməmiş lal bir küllə halında degil, həyatını ibraz edəcək vasitələrə malik diri və yaşamaq istədigini hiss etdirən bir vücud halında idi.

On sənəlik kiçicik bir nəfəs Azərbaycan türkünü mütəəddid mətbuata, müxtəlif cəmiyyətlərə, siyasi firqələrə və təşkilata, zamandan, məkandan anlar xadimlərə malik idrak sahibi bir cəmiyyət halına qoymuşdu.

Bu cəmiyyət 1914 sənəsində patlayan aləmşümul müharibənin alt-üst elədigi məna və qiymətləri böyük bir həssaslıqla təqib ediyor, topların gurultusu ilə bərabər qopan "Millətin hüququ müqəddəsdir!" nidasını dörd qulaqla dinliyor, müharib bulunan bütün dövlətlərə mənsub rical ağzından sıx-sıx eşidilən bu şüarın səmimiyyətinə degilsə də, bu böyük həqiqətin istər-istəməz elani-zəfər edəcəginə iman ediyordu; bu imanın tərcümanı olmaq üzrə daha Rusiya inqilabı zühur etmədən, müharibənin qatı sansoru hər yazılanı bilaaman pozmaqda, bilxassə türk kəlməsi ilə türkcənin məsləkinə qarşı düşmənanə bir vəziyyət aldığı bir

zamanda "Açıq söz" qəzetəsi yuxarıda məzkur imana tərcüman olaraq yazıyordu ki:

"Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti – əsrimizin milliyyət əsri olduğunu isbat etdi.

"Dünyanın xəritəsi qəribə dəgişəcək" – deyə heyrətlə qarışıq bir cümlə imdi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər heç şübhə yoxdur ki, vüzuh və rüsux peyda etmiş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır.

"Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər. Şübhəsiz ki, sözün tam mənasilə deniləcək qədər gövəfkən topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahutlu barışıq masası üzərində də əsaslıca bir təsir yapacaq.

"Hər hanki qalib tərəf az-çox sevrincəli bir dinclik vücuda gətirmək israrsa, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvəti – milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcək sülhi həqqində söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhyunə mənsub siyasilərcə milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırtılar və survencli bir dinclik təmin edəməz.

"Hüquqi-təbiiyyəsi paymal olmuş bir millət baqi qalıncaya qədər Avropa müvazineyi-düvəliyyəsi həqiqi və survencli bir sülh üzü görməkdən məhrum qalacağı kibi, kəndi vətəndaşları arasında ögey-doğmalıq gözədən bir dövlət də həqiqi bir qüvvətə söykənmiyəcək, mütərəqqi və qüvvətli bir təşkilata malik olmayacaqdır".

"Demək ki, müəyyən bir məfkurəyə və əksər əfradınca müşəxxəs bir qayeyi-amala malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kibi, dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün



hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və amallar ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi-xəyalə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərinə qurulacaq həyat hesablaşmayacaq və böylə bir səlahdan məhrum qalan camaatlar kimsəyə söz eşitdirəmiyəcəklərdir!"[1].

Böyük müharibənin Azərbaycan türklərində doğurduğu ümid böylə idi.

Milliyyət prinsipinin qalib gələcəginə bağlanmış bir ümid!

❂ ❂ ❂

Rusiya imperatorluğunun 1917-ci ildə Karpat, Polşa və Baltik sahillərindəki o görünməz məğlubiyyəti, dünyanı sarmış atəşin hərb zəncirinin mühüm həlqələrindən birisini qırmış oldu.

Rusiyayı təzyiq edən çarizm dəxi bu həlqə ilə bərabər süqut eləmişdi. Böyük müharibə böyük bir inqilab doğurmuşdu.

Dünyanın altıdan birisinə sahib olub da 72 milləti qahir bir idarə altına toplamış olan böyük Rusiya imperatorluğunda zühura gələn bu inqilabi-kəbir iki dürlü nəticə verəcək, iki mühüm məsələyi həll edəcəkdi; yoxsa inqilab kəndi ruhu və kəndi təbiətinə zidd olub özü ilə bərabər Rusiyayı da qəhr edəcəkdi:

Rusiya inqilabı məhkum siniflərə hürriyyət verəcəgi kibi, məhkum millətləri də qurtaracaqdı.

Bunun üçün idi ki, mart inqilabını hər kəsdən ziyadə köylü və əmələlərlə məhkum millətlər böyük bir həyəcan və sərvərlə qarşılamış, haman kəndi hüquqlarının istehsalı üçün yubanmadan təşkilata başlamışlardı.

Məclisi-Müəssisan bir an əvvəl toplanacaq, köylülərə topraq, əmələlərə iş, millətlərə də muxtariyyət verəcək işlə ümumi bir arzu!

Məclisi-Müəssisandan kim nə gözlüyor?

İctimalar, qurultaylar, qərarlar, qətnamələr həp bunu təyin eləməkdə...

[1] 2 oktyabr 1915, "Açıq söz", №1

Qafqasiya daxil olduğu halda Rusiya türkləri dəxi bu xüsusu ehmal etmiyorlardı.

Bakıda aprelin 15-də ilk dəfə olaraq Qafqasiya müsəlman qurultayı toplanıyor. Qurultay hər şeydən daha əvvəl və hər məsələdən daha qızğın bir surətdə azad Rusiyanın alacağı mətlub olan şəkli-idarəyi müzakirə ilə aşağıdakı qərarı çıxarıyor:

"A – Qafqasiya müsəlman qurultayı, milli siyasi məqsədlər həqqindəki məsələyi müzakirə edərək müsəlman qövmlərinin mənafeini ən ziyadə təmin edən Rusiya şəkli-idarəsinin məhəlli federasyon əsası üzərinə qurulu cümhuriyyəti-müctəməiyyəyi-ənam olduğunu qəbula qərar verir".

"B – İslam dinində olan bütün qövmlərin ruhani və mədəni irtibatını nəzərə alaraq Qafqasiya müsəlman qurultayı bütün Rusiya müsəlmanlarından ötrü vəzi-qəvanin səlahiyyətinə malik ümumi bir idarə təşkilini lazım görür".

Bu qətnamə günlərlə davam edən münaqişə nəticəsində bir növ etilaf nəticəsi olaraq müttəhidən qəbul edilmiş idi. Münaqişə bir tərəfdən türkçülər, digər tərəfdən də islamçılarla sosialistlər arasında idi. Federasyon əsasını müdafiə edənlər türkçülər idi ki, xüsusi olaraq Azərbaycana məhəlli muxtariyyət tələb ediyorlardı. Müarizlər isə yalnız xəlq cümhuriyyəti ilə iktifa edib milliyyət məsələsini isə məhəlli degil, mədəni muxtariyyət surətilə həll ediyorlardı.

Apreli mütəaqib may ayında Moskvada bütün Rusiya müsəlmanlarının ümumi qurultayı iniqad eləmiş, Rusiya türklügünün bütün ənvaini təmsil edən bu min mürəxxəsli böyük qurultay eyni mövzuda bu sətrləri qaralayan mühərririn islamçı-sosialistlərə qarşı müdafiə elədigi məruzə üzərinə vaqe olan şiddətli münaqişələr nəticəsində Rusiyanın milli-məhəlli muxtariyyətlər üzərinə qurulu qoşma xəlq cümhuriyyətindən ibarət olması tələb olunuyordu. Bu tələb Rusiya müsəlmanlarının böyük inqilabdan gözlədikləri siyasi məqsədi tamamilə əyan eləmişdi.

Nəhayət, Məclisi-Müəssisan seçkiləri əsnasında Qafqasiya türkləri arasında qate bir əksəriyyət qazanan onuncu nömrəli siyahı Rusiya federasyonu ilə bərabər Azərbaycan muxtariyyətini dəxi bir şüar olaraq ortaya atmışdı.

Paytaxtımızın böyük bir təvəccöhi altında iniqad edən Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin qurultayı isə Rusiya türklügünün Rusiyanın şəkli-idarəsi həqqində bəslədigi əməli tələblər etdirərək proqramını aşağıdakı vəchlə təhrir ediyordu:

"1- Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyətlər əsası üzərinə qurulu qoşma xəlq cümhuriyyətindən ibarət olmalıdır.

2- Hürriyyəti-kəlam, mətbuat, vicdan, ictimaat, təşkilat və tətil kibi siyasəti hürriyyətlərlə bərabər, muxtariyyətlərdəki hökumət təşkilinin qoşma xəlq cümhuriyyətindən ibarət olması, işçi qanunlarının bütün muxtariyyətlərdə bir növlə tətbiqi və topraq məsələsinin əsasən keyfiyyət həll və islahı kibi demokratik əsaslar, Rusiya qoşma xəlq cümhuriyyətinin qanun əsasına daxil olub dövlətcə təhti-təminə alınmalıdır.

3- Müəyyən məhəllə malik olan (yəni Rusiya məmləkətinin müəyyən bir qitəsində əksəriyyətlə yaşamaqda bulunan) hər bir millətə muxtariyyət həqqi verilməlidir.

Firqəcə Azərbaycan, Türküstan, Qırğızıstan və Başqırdıstan kibi türk ölkələri məhəlli muxtariyyət almalıdırlar. İdilboyu ilə Krım tatarları və digər Rusiyada yaşayan türk qövmlərinə məhəlli mümkün olmazsa, milli muxtariyyət verilməlidir.

**Qeyd:** Başqa türk olmayan dindaşlara da firqə muxtariyyət tələb edib onlara hər vəchlə yardım etmək borcundadır.

4- Müəyyən məhəllə malik olmayan millətlərə milli-mədəni muxtariyyət həqqi verilməlidir.

5- Muxtariyyətlərin hüdudunu təyin etmək daxili qəvanini-əsasiyyələrini tərtib eləmək gərək məhəlli və gərək milli muxtariyyətlərin kəndi məclisi-müəssisanlarında həll olunmalıdır.

6- Cümhuriyyət heyətinə daxil olan muxtariyyətlər öz aralarında müştərək gördükləri məqsəd və mətləbləri üzərinə əqdi-ittifaq edə bilməlidirlər.

7- Cümlə muxtariyyətli əyalətlər, mərkəzi hökumət ilə ancaq vətən müdafiəsi, məskukat, gömrük, xarici siyasət, dəmiryol, poçta, teleqraf və sair bu kibi ümumi işlərlə mərbut olmalıdırlar.

8- Muxtariyyətli əyalətlər, idari, mali, təşri, mədəni və ədli kibi daxili məsələlərdə müstəqil olmalıdırlar.

9- Rusiya cümhuriyyətinin ümumi işlərini idarə etmək üçün bütün muxtariyyətlərin nümayəndələrindən ibarət bir konqre təşkil olunmalıdır.

10- Hər bir muxtariyyətli əyalətin mərkəzində qanun qoymaq vəzifəsilə müvəzzəf bir məclisi-məbusan və qoyulan qanunları icra etmək vəzifəsilə müvəzzəf bir şurayi-vükəla (heyəti-nüzzar) təşəkkül etməlidir.

11- Hər bir muxtariyyətli əyalət məhəlli işlərində geniş imtiyazlara malik vilayət, qəza və nahiyələrə bölünməlidir.

12- Hər bir muxtariyyətli əyalətin rəsmi dili haman əhalinin əksəri söylədigi dil və şivə olmaqla bərabər vilayət və qəzalarda yerli əhalinin söylədigi dil və şivə işlənməlidir"

İştə "Açıq söz"ün 1915-ci ildə hərbi-ümumidən gözlədigi hakimiyyəti-milliyyə düsturu qələbəsindən bəslədigi ümidi 1917-ci ildə Rusiya inqilabından bilaistifadə meydani-ələniyyətə çıxan "Müsavat" firqəsi yuxarıdakı vəchlə təlxis ediyordu.

Bu surətlə Azərbaycan türkü dünya müharibəsi ilə Rusiya inqilabından kəndi hürriyyəti-milliyyəsinin təminini gözlüyordu.

## IV

Rusiya inqilabı imperatorluğu içindən təzyiq edən iki qüvvətin taşımasından hasil olmuşdu: bir tərəfdən məhrum siniflər, digər tərəfdən də məhkum millətlər baş qaldırıb həqlərini tələb ediyorlardı. Köylü topraq, əmələ iş, velikorus olmayan millətlər də həqq və muxtariyyət istiyorlardı.

Böyük inqilab bu tələblərin həpsinə hesab vermək məcburiyyətində idi. Məəmafiə bunları fövqündə digər mühüm bir tələb dəxi duruyordu ki, bu da bir an əvvəl hərbi bitirmək idi.

Hökuməti-müvəqqətə, bilxassə Kerenski hökuməti inqilabı hərbi müvəffəqiyyətlə bitirmək üçün bir vəsilə olaraq kullanmaq istədi. Xətərnak bir təcrübə yaparaq inqilab ordusu ilə düşmənə ciddi bir hücum hazırladı.



Bu surətlə bütün ciddiyyət və fəaliyyətini "zəfəri-nəhayi"-yə sərf edən inqilab hökuməti bittəb inqilabın tələb etdigi əsaslı məsələlərin həllini təxir etdirmək məcburiyyətində idi. Bu məcburiyyət isə həm cəbhədə, həm də əqəbədə böyük bir hərəkata mövcib oluyordu.

Əfkari-ümumiyyə inqilabın ortaya atdığı "ilhaqsız və təzminatsız sülh", "millətlərə təyini-müqəddərat həqqi!" şüarları ilə topraq və əmələ məsələlərinin bir an əvvəl qövldən-felə gətirilməsini tələb ediyor, hökumət isə hər şeyi məclisi-müəssisana təviq ediyordu.

Bu təviq siyasəti bir tərəfdən bolşevizmi, digər tərəfdən milli cərəyanları qüvvətləndiriyordu. Bilxassə Kerenskinin Finlandiya Seymi ilə Ukrayna Radasına qarşı aldığı tövri-təhdid ilə Almaniya üzərinə müvəffəqiyyətsiz bir surətdə icra elədigi hücum artıq bolşevizm zühuruna meydan vermişdi.

Bolşeviklər Kerenski hökumətindən qaçaq bir halda müxalifət vəziyyətində ikən "hər nə qiymətə olsa da sülh!" şüarını ortaya atmaqla əskərləri, "hər millət Rusiyadan ayrılmağa qədər azaddır" ünvanı ilə də bütün millətləri qazanıyor, hökuməti-müvəqqətənin xətalarından kəndi hissələrinə faidələr çıxarıyorlardı.

Nə qədər ki, Lenin gizlənmək məcburiyyətində, yəni mərkəzdəki bolşeviklər zəif bir halda idilər, o qədər ətrafındakı bolşeviklər muxtariyyət şüarlı firqələrə müzahir görünüyorlardı. Əzcümlə Bakıda olan bolşeviklər rəqibləri və can düşmənləri menşeviklərlə ciddən mübarizə etdikləri halda, menşeviklərin bir dürlü yaxın burakmayıb da "gözüm çıxdı"ya saldıqları türk milliyyətçilərinə yaxınlaşıyorlardı. "Müsavat" firqəsi, məsələn əmələ şurası menşeviklərdə ikən burjua bir firqədir – deyə yaxın buraxılmadığı halda bolşeviklərcə menşeviklərlə eserlərə tərcih ediliyordu.

Petroqradda hökuməti əlinə alır-almaz Lenin bütün müsəlman millətlərinə bir xitabnamə nəşr eləmişdi. Bu xitabnaməsində o, əsarət altında bulunan şərqə peyğəmbəranə bir əda ilə hürriyyət və istiqlaliyyət vəd və təmin ediyordu.

Fəqət bolşeviklər müxalifətdən hakimiyyətə keçincə "söz"lə "iş"in nə dərəcədə biri-birindən uzaq olduğu bir dəfə daha təhqiq etdi.

"Təyini-müqəddərat haqqi" hər kəsin degil, zəhmətkeşlərindir – deyə ortaya yeni təfsirlər çıxdı. Azərbaycan muxtariyyəti demokratiyanın degil, "xanların, bəylərin, ağalarındır" – deyə ədə dəgişdi. Lenin mərkəzdə yerini bərkişdirdikcə vilayətlərdəki həvariləri haman birər mərkəziyyətçi və bir dərəcəyə qədər də böyük rusiyaçı bir şəkil və sima almaya başladılar. Məhkum millətlər qara Rusiyadan eşitdikləri təhdidləri bu kərə də qızıl Rusiyadan eşidiyorlardı.

Azərbaycan məsələsində isə bu təhdid müəyyən bir şəkil alıyordu. Bolşevik qəzetəsi "Bakinski raboçi" bənimlə yapdığı bir münaqişədə diyordu ki: "Azərbaycanın muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir". Və "Qafqasiya muxtariyyətinə nə Rusiya burjuaziyası nə də Rusiya demokratiyası razı ola bilər". "Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar". Bolşeviklərin Bakıda "Müsavat"a nisbət aldıqları tövri-təhdid Türküstan, Krım, Ukrayna, Finlandiya kibi vilayətlərdə artıq ələni müharibə və qital şəklini almışdı.

Azərbaycanlılar kadetlərin dilindən "nə istərsəniz verəlim, yalnız Abşeron yarımadasına toxunmayınız" dediklərini eşitmişlər idi. Bolşeviklərdən dəxi eyni təklifi eşitdilər. Fəqət bir kərə muxtariyyət fikrinə süluk edən millət artıq əzmindən dönməyəcəkdir. Bolşeviklərin muxtariyyətə qarşı xərabələrlə təhdid edən məqaləsinə qarşı "Açıq söz": "Bəlkə də müqəddərdir ki, muxtariyyətimizi xərabəzarlar qiymətinə alalım. Müqəddəratitarixiyyədən əlbəttə ki, boyun qaçırmaq olmaz" – deyə mütəvəkkilanə bir surətdə müqabilə ediyor; "Əlbəttə, bir Lenin dəxi çıxar bizim muxtariyyətimiz haqqında "dekret" verər, kinayəsi ilə əzmi-milliyyənin böyük müşkülatla olsa da axırı istədiginə nail olacağını ümid ediyordu.

Artıq müsəlmanlara bir dost kibi görünən solların da sağlar kibi hakimiyyətpərvərana bir məqsəd təqib elədikləri meydanda idi.



o o o

Tiflisdə qüvvətli bir təşkilata malik olan menşevik firqəsinə qarşı dikiş tutduramayan bolşeviklər Bakının daima bir inqilab halında bulunan əmələ məhəlli olduğunu istifadə üçün buraya köçmüşlərdi.

Bakıda birləşmək və burasını kəndilərinə ümidli bir istinadgah yapmaq istəyən bolşeviklər bittəbii yerlilərin milli bir hökumətə doğru gedən məqsədlərilə mübarizə edəcəklərdi. Bunun üçün də onlar türklərə qarşı mübariz bir vəziyyətdə olan ermənilər ilə təşriki-məsai edəcəklərdi.

Nəhayət öylə çıxdı. Bolşeviklər qüvvətləndikcə daşnaksaqanlara nisbət xətti-hərəkətlərini dəgişdirdilər. Biləks milli müsəlman komitəsi ilə "Müsavat" firqəsinə qarşı bir tövri-müxalifət aldılar.

Bu aralıq Tiflis-Bakı yolundakı anarşidən naşi Bakıda toplanıb qalan naməmnun əskərlərin vücudi dəxi bolşeviklər tərəfindən mahiranə bir surətdə istifadə olunuyordu. Mühüm hadisələr hazırlanıyordu.

Şaumyan idarəsindəki "sovet"in müsəlmanlara qarşı tutduğu sərd məslək gündən-günə şiddət ediyordu. Gözləri qabağında erməni milli əskərlərinin azadlıqla gəzdiklərini görən xəlq müsəlman firqəsi zabitlərinin tovqif olunduğunu və firqə nəfəratının təərrüzə düçar olduğunu görüncə bittəbii ğələyana gəliyordu.

Bu surətlə gündən-günə çuğlayan yandırım axırı bir fitnə odu ilə tutuşdu. Bu yanğın 1918-ci il mart ayının 17-dən 21-nə qədər davam edən qanlı mart hadisələrinə səbəb oldu.

Mart hadisələri bolşevizm məsləkinin hər yanda yandırdığı daxili vətənyun müharibəsi şəklində çıxarılıb adəta milli bir qital şəklini aldı. Başda daşnaksütyun olaraq ermənilər türklərdən intiqam almağa başladılar. Bütün mənası ilə bir erməni-müsəlman qitalı üz verdi.

"Hökm etmək istərsən ayır!" şüarını yalnız Nikolayların canişinləri degil, Leninin komissarları dəxi kəndilərinə düstur ittixaz eləmişlərdi.

Qəribədir: qanlı çarizmin hakimiyyəti-milliyyə davasına verdigi cavab – qanlı qitallar idi.

Qızıl bolşevizmin cavabı da eyni mahiyyətdə olmaqla bərabər daha faci və daha qəddar bir şəkil aldı.

Şaumyan sözünü tutmuşdu. "İsmailiyyə" binası, Azərbaycan fikrinin o qaynar ocağı ilə "Açıq söz" idarəsi birər xərabəzarə döndərilmişdi.

## V

"Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri
Məşəli-əfkar əhrarənə sönməz xun ilə!"

Azərbaycan türkünün böyük inqilab tərəfindən elan olunan təyini-müqəddərat həqqindən istifadəyə qalxdığını bolşeviklər Bakı küçələrini qanlara qərq etməklə boğmaq və İsmailiyyə binasında yakılan hürriyyət məşəlini o möhtəşəm binanın külləri altında söndürmək istədilər.

Bakı böylə müdhiş bir cinayətə məruz qaldığı zaman Azərbaycan fikir və idealını təmsil edən müsəlman məbusları Tiflisdə idilər. O zaman Tiflisdə bir tərəfdən türklərlə müsalihəyi, digər tərəfdən də Rusiyadan əbədiyyən ayrılaraq elani-istiqlal eləmək məsələsi tədqiq və müzakirə etməkdə olan Zaqafqasiya "Seym"i iniqad ediyordu. Zaqafqasiya müsəlman məbusları dəxi "Seym"də iştirak ediyorlardı. Zatən Bakı faciəsi bolşeviklərin müsəlmanların Seymdəki istiqlalçı politikalarına qarşı bir intiqam və cəza siyasəti idi.

Zaqafqasiyanın bolşevizm anarşiyasından müdafiəsinə qurban gedən Azərbaycan mərkəzi-siyasəti Bakı bittəbii Tiflisin müavinətini bəsləmək həqqinə malik idi. Bütün Azərbaycan azərbaycanlıların da iştirakı ilə təşəkkül edən "Seym" məclisi ilə Zaqafqasiya hökumətinin məlumatına intizar edib duruyordu.

Fəqət heyhat! Azərbaycanlı "Seymi" əzasının yüksək səda ilə bağırıb-çağırması Tiflis hökumətinin həqiqi sahibləri olan gürcü menşeviklərini yerindən qımıldatamadı. Gürcüstan daxilindəki bolşevizmi min şiddət və qəhrlərlə basdıran bu ağalar Bakıya qarşı quru elani-hərb belə etmək istəmədilər. Gəncə milli müsəlman komitəsinin təşkil elədigi istixlas ordusuna isə milyonlarla patron, onlarla pulemyot və bir kaç top vəd etdilərsə də, vədlərini tutmadılar. Tiflis mətbuatı isə Bakının Azərbaycan "başıpozuq" qüvvəti ilə istirdadına açıqdan-açığa etiraz etdi. Nəhayət, hər qism bəhanələri yeritdikdən sonra gürcü Ser Amdan siyasəti "qarşımızda türk təhlükəsi varkən kəndilərilə ehtimal ki, əqdi-ittifaq etmək zərurətində bulunacağımız bolşeviklərlə münasibatımızı pozamayız" izah və etirazında bulundular.

Əvvəlcə müsəlmanların intiqamından, Tiflisin müavinətindən qorxan üsyankar Bakı tədafei bir vəziyyət almış ikən, sonra cəsarət peyda etmiş, bolşevik Bakı Gəncəyə doğru hərəkət eləmək qəsdinə düşmüş idi. Bu hərəkətə ilk əvvəl Şamaxı, daha sonra Lənkəran, Salyan, Quba, Kürdəmir, Nəvahi və sair qitələr məruz qalmış, şəhərlər xak ilə yeksan, irz və namuslar hətk, mal və məvaşi qənimət edilmişdi. Gəncə bizzat təhdid olunmaqda, digər tərəfdən dəxi Qarabağ ermənilərı Bakı bolşevikləri ilə birləşmək üzrə bir plan hazırlamaqda, Azərbaycanın atəş və qılıncla təslimə məcbur edilmək planı cızılmaqda idi.

Məlum a, Şaumyan "muxtariyyət degil, xarabazar alacaqsınız!" demişdi!..

Böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsindən ağır bir vəzifəyi kəndi başına ifa edəmədigindən bittəbii getdikcə riştəyi-ümur əlindən çıxıyor, bolşevik yəd extisabına keçməyin yerlərdə dəxi şiddətli bir itaətsizlik və anarşi zühur ediyordu.

Bu surətlə həyati-təbiiyəsini təhdid edən bir təhlükəyə qarşı səltə və hakimiyyətini qəbul eləmiş Tiflis hökumətindən laqeydlik və ədəmi-müavinət görən Azərbaycan əfkari-ümumiyyəsində pək təbii olaraq bir cərəyan, bir meyli-siyasi doğuyordu: bu müşkül vəziyyətdən milləti qurtaracaq bir qüvvət vardı:

Türkiyə!

Ümidlər həp oraya idi. O qardaş millət gələcək, bizi düşmən əlindən qurtaracaqdı. Xəlqin bundan başqa bir ümidi qalmamışdı.

Halbuki məsələ o qədər də kolay həll olunur bir halda degildi. Kəndisini Rusiyadan ayrı fеlən müstəqil bir halda idarə etməkdə olan Zaqafqasiya Türkiyə ilə sülh əqd etmək istədigi halda məqsədinə müvəffəq olamıyordu. Türklər 1914 sənəsi hərbindən əvvəlki Qafqasiya hüdudunun iqasını istəyən Zaqafqasiya hökumətinin Trabzona gəlmiş heyəti-mürəxxəsəsi "Brest-Litovsk" müahidənaməsinin tamamilə qəbulunu təklif ediyordular. Bu təklif üzrə Zaqafqasiya vəqtilə türklərdən bir təzminat müqabili olaraq alınan Kars, Ərdahan və Batum vilayətlərindən sərf-nəzər etməliydi.

Məsələ ciddiləşiyordu. Ermənilərlə gürcülər hərb etmədən Türkiyəyə təslim olmayız diyordular. Bir tərəfdən bolşevizm, digər tərəfdən də erməni və gürcü cənguluğu arasında qalan müsəlmanlar isə müşkül bir mövqedə qalıyordular. Məəmafiə əhvalın ciddiyyətini dərk edən Trabzon heyəti-mürəxxəsəsi erməni, gürcü və türk əzasının ittihadilə Türkiyə ultimatumunu qəbula qərar vermişkən, Seymdə oturan qızğın qafalı menşeviklərlə müvazinələrini itirən daşnaksaqanlar hərbə qərar vermiş, müsəlmanlar isə bitərəf qalmışlardı.

Hərb başlamış, Trabzon heyəti dəxi Tiflisə ovdət eləmişdi. Fəqət heyət Tiflisə gəlincəyə qədər hərb də adətən bitmiş, Batum süqut eləmiş, Kars dəxi əhatə olunmuşdu.

Artıq təhəmmül etmək mümkün degil idi. Hərb durmalı, sülh əqd olunmalı, Zaqafqasiyanın istiqlalı rəsmən elən edilməli, yoxsa biz ayrılıb kəndi başımızın çarəsinə baxiyoruz – deyə Seymdəki müsəlman əzası son çarəyə təvəssül eləmişlərdi.

Bihudə yerə macərayə soxulmuş olduqlarını və Zaqafqasiya xəlqinin qətiyyən hərbə mühəyya olmadığını gözlərilə aydın görən gürcülər dəxi bundan başqa bir çarə qalmadığına qane olaraq cəngcu Qegeçqori hökumətini düşürüb yerinə sülhpərvər Çenkeli kabinəsini qoydular.

Batum müzakiratı başlandı.

Çenkeli türk tələbatının artmayacağına qane ikən həqiqət əksinə çıxdı. Batum və Karsda tökülən türk qanına İstanbul hökuməti xunbəha olaraq yeni bir takım ərazi tələb ediyordu.



Axısxa, Axalkələk, Aleksandropol, Sürməli və Naxçıvan qitələri bu tələbləri təşkil ediyordu.

Eyni zamanda təhlükəyə məruz qalan azərbaycanlı qardaşlarına müavinət üçün Nuru Paşa ilə məiyyəti İran təriqi ilə Azərbaycana keçmiş, Gəncəyə varid olmuşdu.

O zaman müdhiş bir anarşi içində olan Gəncə Nuru Paşayı göydən enmiş bir xilaskar kibi tələqqi etmiş, xəlq kəndisinə tarixin nüdrətlərlə qeyd edə biləcəgi parlaq bir istiqbal yapmışdı.

Batum müzakiratı uzun sürmüş, gürcülər artıq Zaqafqasiya hökumətində qalmayı kəndi hesablarına zərərli görərək əl altından Almaniya ilə anlaşmışlar, mayısın 26-da Gürcüstanın Zaqafqasiyadan ayrı, kəndi başına müstəqil bir cümhuriyyət təşkil etdigini elan eləmişlərdir.

Bunun üzərinə Seymdəki müsəlman əzalar kəndilərini Azərbaycan Şurayi-Millisi elan edərək iki gün sonra mayısın 28-də dəxi Azərbaycanın istiqlalını elan, Fətəli xan Xoyski kabinəsini təşkil və müstəqilən türklərlə müxadinət müahidənaməsi əqd eləmişlər və məzkur müahidənamənin 4-cü maddəsinə binaən məmləkətin əmniyyət və asayişini iadə etmək üzrə Türkiyəyə müraciət edərək Azərbaycana ordu sövqünü istəmişlərdir[1].

İyunun 15-də Azərbaycan Şurayi-Millisi ilə hökuməti Tiflisdən Gəncəyə vürud etmiş; 16-da əqd elədigi iki tarixi iclasında Fətəli xan Xoyskinin istefasını qəbul ilə təkrar kəndisinin rəyasəti altında 12 kişidən ibarət yeni bir hökumət təşkil və bütün ixtiyaratı məzkur hölumətə həvalə edərək kəndisini isə əhvali-fövqəladəyi nəzərə alaraq tətil eləmişdir.

Şurayi-Milli tərəfindən məmləkətin idarəsini əlinə alan hökumət bir an əvvəl Bakıyı istirdad edəcək, Məclisi-Müəssisanı toplayacaq, hürriyyətlərlə Azərbaycan istiqlalını mühafizə və ixtiyaratını yalnız 6 aydan gec olmamaq üzrə toplanacaq Məclisi-Müəssisana təslim edəcəkdi.

Nuru Paşa məiyyətindəki ordunun müavinəti ilə az bir müddətdə Bakı vilayəti xaricində olan bütün yerlər Azərbaycan

[1] Batumda əqd olunan məzkur müahidə ilə türkləri dəvət edən məktubların surəti vüsaiq qismində.

hökumətinin əmrinə müti olaraq hər yerdə əmniyyət və asayiş bərpa ediliyor, anarşi dəf olunuyor, yalnız Bakı bolşevikləri 5-6 ay zərfində bulduqları fürsətdən istifadə ilə olduqca mühüm bir qüvvət təşkil edərək bəzən müqabil təcavüzlər yapmaq surətilə şiddətli bir müdafiə hazırlıyorlar. Daha sonra bolşevik hökuməti menşeviklərlə daşnaqlar tərəfindən yapılan bir ixtilal nəticəsində süqut eliyor. Əvəzində direktoriya hökuməti təşəkkül eliyor. Bu hökumət ingilisləri Bakıya dəvət ediyor. Bunun üzərinə Türkiyədən yeni qüvvət cəlbinə lüzum görülüyor. Almanlar isə Qafqasiya məsələlərində müttəfiqləri Türkiyə ilə rəqabət edərək Gürcüstan yolu ilə türk əskərini buraxmıyorlar. Bundan dolayı dəxi Bakının istirdadı sentyabrın 17-nə qədər gecikiyor. Nəhayət, həqq yerini tutur. Altı ay bir əsarət dövrü keçirdikdən sonra qurban bayramının günündə Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor.

Bakının istirdadı dəxi süqutu qədər qanlı, dəhşətli bir surət almışdır.

Azərbaycan hökuməti artıq kəndi paytaxtında idi. Fəqət Bakı məsələsi hala bitməmişdi. Bakının süqutundan bir az əvvəl almanlar Brest-Litovsk müahidəsinə zeyl olmaq üzrə bolşeviklərlə əqd elədikləri bir müahidə ilə Bakıyı Rusiyaya tərk eləmiş, müqabilində kəndiləri üçün neft imtiyazı almışlardı. Azərbaycanlıları son dərəcədə iğzab edən bu halı o zaman İstanbulda bulunan heyəti-mürəxxəsə rəisi surətilə Azərbaycan hökuməti cümhuriyyəti naminə Almaniya səfarət nəzdində protesto eləmiş "Bakısız Azərbaycan başsız bədəndir!" deyə azərbaycanlıların Bakıdan sərf-nəzər edəmiyəcəklərini bildirmişdim[1].

⊛ ⊛ ⊛

Bakının istirdadından sonra Azərbaycan hökuməti fələn vücud peyda eləmiş, yalnız vəziyyəti-beynəlmiləliyyəsini mətin bir əsasə rəbt etmək məsələsi qalmışdı. İstanbulda toplanacaq mərkəzi dövlətlər konfransını dörd aydan ziyadə bəkləyərək oturan Qafqasiya cümhuriyyətlərinin heyəti-mürəxxəsələri nəhayət görmədən İstanbulu tərk etmək məcburiyyətində qaldılar. Fransa cəbhəsində alman ordusunun düçar olduğu həzimət, onu mütaqib Bolqariyanın təslim oluşu, siyasət aləmini tamamilə dəgərgün etdi. Almaniya küməsi yerinə İngiltərə nüfuzu qaim oldu. Türkiyə müttəfiqlərlə əqd elədigi mütarikə şəraitinə nəzərən Bakıyı ingilislərə təslim edəcək və bütün Qafqasiyadan çəkiləcəkdi.

¹ Bu vəsiqə qismi məxsusimlərdə mündəricdir.



Noyabrın 17-si bakılıların xatirindən çıxacaq günlərdən degildir. O gün türklər kəmali-surət ilə Bakıyı tərk eləmiş, İngiltərə qüvvəti şəhərə daxil olmuşdu. İngiltərənin Azərbaycan istiqlalına qarşı alacağı vəziyyəti şübhələr içində qaranlıq bir vəziyyətdə idi. General Tomsonun ordusu ilə bərabər Biçeraxovun dəstəsi dəxi şəhərə daxil oluyor, şəhər üzərində uçuşan qara qarğalar (ayroplanlar) Rusiya ordusunun təkrar kəndi torpağına gəldigini "Rusiya vətəndaşlarına təbşir" ediyordu.

İkinci gün İngiltərə komandanı Tomsonun bəyannaməsi nəşr olunmuş, o dəxi Bakıyı Rusiyanın bir hissəsi kibi tələqqi edərək yeni Rusiya hökumətinin razılığı ilə buraya gəldigini qeyd eləmişdi.

Böylə qaranlıq, şübhəli və qorxulu bir vəqtdə, bir zamanda ki, Azərbaycanı himayə edən türk ordusu, yalnız türk ordusu degil, Azərbaycan əskərləri dəxi şəhəri tərk eləmişlərdi, polis idarəsi ingilislərin əlinə keçmiş, Biçeraxovun dəstələri mütəhəkkimanə bir vəziyyətlə şəhərə doluşmuş hər kəsdə bir qorxu və ümidsizlik hasil olmuşdu. İştə böylə bir zamanda Azərbaycan Şurayi-Millisi təkrar həyata əvdət eləmiş. Azərbaycan Məclisi-Məbusanını dəvətlə məşğul olmuşdu.

Dekabrın yeddisində "İsmailiyyə" binasının yanıq binası yanındakı sabiq ünas məktəbinin qəribkarı binasında Azərbaycan Məclisi-Məbusanı mütəntən bir surətdə açılıyor. Üçrəngli bayrağımız başımızın üstündə ehtizaz edərək istiqlalımızın şübhə və əndişələr içərisindən qurtarmaq üzrə olduğunu təbşir ediyordu.

* * *

Bari-giran hökumət təkrar möhtərəm Fətəli xan Xoyski həzrətlərinin öhdeyi-dərayətlərinə həvalə edilmişdi. Fətəli xan Azərbaycanın vəziyyəti-siyasiyyəsini tovzih etdirmək kibi müşkül bir vəzifə qarşısında idi. Bu vəzifəsini o kəmali-məharətlə ifa ediyordu. İngiltərə komandanlığı əvvəlki bəyanatnaməsinə rağmən Qafqasiya məsələsinin sülh konfransında həll olunacağı ilə Azərbaycanda yeganə bir hökumət olaraq Fətəli xan Xoyski kabinəsini tanıdığını elan ediyordu. Daha sonra Azərbaycan hökuməti naminə Paris sülh konfransına ezam olunan heyəti-mürəxxəsə ingilislərin məğrifət və müvafiqətilə yola çıxıyor və hər növ müzahirat və müavinətə məzhər olacaqları vəd olunuyordu.

Nəhayət, şəhərimizdə bulunan Biçeraxov-Prejavolski ordusu Azərbaycan hökumətinin tələbi üzərinə paytaxtımızı tərk ediyor; kəndi doğma ordumuz isə şəhərimizə gəliyor; əhali əsgərlərimizi sevinclərlə istiqbal ediyor.

Fətəli xan Xoyskini istixlaf edən Nəsib bəy hökuməti daha ziyadə bir ciddiyyətlə gəmimizin içində oturub da bizimlə döyüşməkdə olan fitnəkar qüvvətlərlə mübarizəyə başlıyor. Bolşeviklər tərəfindən elan olunan iqtisadi qılıqlı siyasi zabastovka kəmali-müvəffəqiyyətlə basdırılıyor. Rusiya sovet hökumətinin nümayəndələri ilə Denikin ordusunun casuslarını tovqif etməklə Azərbaycan hökumətində tələb olunan siyasi tovqiflər həqqini iadə və bilfel tətbiq etmiş oluyor.

Son günlərdə İtaliya heyəti paytaxtımıza varid olaraq məbusan və hökumət rəisləri ilə görüşərək istiqlaliyyətimizə müsbət bir nəzərlə baxdıqlarını bəyan ediyorlar.

## VI

Yuxarıdakı fəsildə biz böyük bir cild təşkil edəcək tarixi məqələmizin hövsələsinə sığacaq bir tərzdə ixtisar elədik. Bu tarixin güzəran etdigi anlarda daha əvvəlki fəsillərdə zikr etdigimiz milliyyət fikri ilə hakimiyyəti-milliyyə davası müxtəlif xünuni-səfəhat keçirərək nəhayət xarici bir şəkil peyda elədi:

Müstəqil Azərbaycan Cümhuriyyəti!

"Seym" məclisi təşəkkül etdigi zaman "Azərbaycan"dan yalnız Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi bəhs eləmiş, İttihad, Sosialist bloku ilə Hümmət firqələri isə cəsarət edərək yalnız Zaqafqasiya ölçüsündə fikir eləmişlərdi.

Məclisi-Məbusan açılıncaya qədər kəza istiqlal fikri əleyhində olan cərəyanə hər firqədən ziyadə azərbaycançı "Müsavat" firqəsi məruz qalmış, "ilhaq" mərəzinin mikroblarını nəşr edən "dahilər" tir tərizlərini Azərbaycan istiqlalının məfkurəçilərinə tovcih eləmişlərdi.

Məclisi-Məbusan açıldıqdan sonra məmləkəti təmsil edən müxtəlif siyasi firqə və məslək əhlləri sağdan tutub sola qədər Azərbaycan istiqlalının mücahidi olduqlarını bəyan etdilər.

Azərbaycan istiqlalı fikrən qazanıldı!

Siyasi bir fikir olaraq qəbul edilən istiqlal xəlqin imanına sinmiş, qəlb və vicdanına yerləşmiş bir zehniyyət halına dəxi gəlməlidi.

Məclisi-Məbusan iftitahında: "Bir kərə yüksələn bayraq bir daha enməz!" nidasını təqdirən dəhşətli bir tufan kibi qopan alqışları martın 12-də hürriyyət günü yad olunduğu zaman coşub-daşan türk xəlqinin parlaman qarşısındakı nümayişini, milli ordumuzun Bakıya vürudi günündəki böyük milli bir nümayiş şəklini alan o səmimi mənzərəyi, sonki tətil zamanında türk və müsəlman əmələlərinin cansipəranə bir surətdə göstərdigi o asari-həmiyyəti, ordunun keçdigi, bayrağımızın yelləndigi hər bir yerdə ixtiyar qarıların, qocaların ağzından eşidilən o qiymətdar dua və sənaları görən və nəhayət, 28 mayıs günündəki o bibənzər bayramı tamaşa edən müdəqqiq üçün istiqlal fikrinin artıq xəlqimizcə bir zehniyyət halına gəldigini görməmək qətiyyən mümkün degildir.

Millətimizin bilxassə kütləyi-ümumiyyəsini, sahibi-idrak demokratiyasını səmimi bir surətdə mütəhiss edən bu zehniyyət

bərəkətindəndir ki, istiqlalımızın ən müdhiş düşmənlərindən tutub ən şübhəli dostlarına qədər bütün müxalif və müariz firqələrin dəxi istər-istəməz Azərbaycan zəminəsində duraraq müxalifətlərini o nöqteyi-nəzərdən yürütmək istədiklərinə şahid oluyoruz.

Əvəl, Azərbaycan əvvəlcə bir mədəniyyəti-milliyyə davası, daha sonra bir firqəyə məxsus mücərrəd bir fikri-siyasi ikən, bu gün bütün millətin məqsədidir. Bu məqsəd xaricində millət artıq kəndisinə məsud bir həyat təsəvvür edəmiyor. Bu qədər bəlalara təhəmmül etmiş xəlq üçün Azərbaycan Cümhuriyyəti təşəkkül etmiş bir əmri-vaqedir!

Bu əmri-vaqeyə qarşı hər kəs təslim olmalı, ona hər kəs ehtiram etməlidir!

## VII

Bir əmri-vaqe halını almış Azərbaycan Cümhuriyyəti cahanşümul əhəmiyyətə malik olan paytaxtı, günə-gün sərvət mənbələri, mütəşəbbüs tərəqqipərvər xəlqi sayəsində Qafqasiya cümhuriyyətlərinin həpsindən müstəid həyat bir məmləkətdir. Yalnız vəqtilə "atəşi-müqəddəs" sayəsində cahan ziyarətgahı olan bu yurd imdi də "cazibədar" sərvət səyyaləsi ilə cahan tacirlərinin meydani-rəqabətidir. Burası ticari rəqabət meydanı olmaqdan əlavə bir də siyasi rəqabətlərin cövləngahıdır. Qafqasiya silsiləyi-cəbalinin təhti-təhəffüzündə bulunan Zaqafqasiya ərazisindən olduğu üçün məmləkətimiz şərqlə qərbi yekdigərinə qovuşduran ən qısa yolun güzərgahında vaqe olmuşdur. Bu nöqteyi-nəzərdən o gün cahanca da vase bir miqyasda vaqe olan çəkişmədə burası dəxi düvəli-müəzzəmənin hesablarını təsviyə edən müvazinə cədvəllərində mühüm bir ədəd təşkil edəcəkdir.

Cahangir dövlətlərin dünyayı təqsim etdiklərində Zaqafqasiya millətlərindən ötrü ayıracaqları hissə və hüququn nə kibi bir şəkil alacağı həqqində nikbinanə və bədbinanə olmaq üzrə müxtəlif təsəvvürlərdə bulunmaq mümkündür. Bu təsəvvürlərin heç birisindən Rusiyayı xaricdə buraxmaq olmaz. Rusiya hər nə şəkil ilə olursa-olsun təkrar buraya enmək istəyəcək; daha bundan



min sənə əvvəl Bakı neftinə düşkün olan Rusiya bu gün ona göz yuma bilmiyəcəkdir. İngiltərə dəxi əsrlərdən bəri arzu elədigi Zaqafqasiya yolu üzərində təsisi-hakimiyyət olmasa da iqayinüfuz etmək əzmindən bir an fərağət etməyəcək; nəticədə bir müsariədir davam edib gedəcək. Fəqət nə Rusiyanın, nə İngiltərənin, nə də sair bir dövlətin bu ərzi-müqəddəs üzərindəki mənafeyi azərbaycanlının mənafei ilə müqayisə ediləməz.

Müasir bir azərbaycanlı üçün Azərbaycan Cümhuriyyətinin istiqlalı, onun hürriyyəti bir takım maddiyyatla ölçülür şeylərdən degildir. Bayrağındakı rənglərin mədlulu vəchlə bu yeni təşəkkül edən türk cümhuriyyəti aləmi-islamda təşəkkül edən ilk cümhuriyyətdir ki, milliyyət, beynəlmiləliyyət və müasirlik əsası üzərində müstənəd yeni bir tərzi-idarə qurmaq cəhdi-alisindədir. Bu cəhdindən bir tizə olsun nişan vermək üzrə Azərbaycan millətinin məknunati-milliyyəsindən birər nümunə olaraq bu məcmuə vasitəsilə təşhir ediyoruz. Burada millətimizin istedadifitrisini göstərəcək nümunələr adətən bundan bir əsr əvvəl Bakı ərazisindəki axar altunun miqdar və əhəmiyyətini qətiyyən bugünki aləmşümul bir dərəcədə göstərəmiyən əlamətlərə bənzər. O zaman qara çırağda yakılmaqdan başqa bir şeyə yaramayan Bakı nefti bədə nasıl sənaye və ticarəti ilə pək ziyadə tərəqqi etmiş olan məmləkətlərin müasir bir mayeyi-həyatı ola bildisə, əminəm ki, eyni topraq üzərində yaşayan xəlqin fitrətində təbiətin bir möhübbəsi olaraq gizli qalan istedad dünyayə "odunsuz yanar və sudan qorxmaz atəşi-müqəddəs"[x] qədər əsli bir mədəniyyət əhd etsin:

– A zad Türk mədəniyyəti!

Vətəndaşlar, bu mədəniyyət naminə çalışalım, bir dəfə yüksəlmiş o üç boyalı ləvayi-istiqlal və cümhuriyyəti başlarımız üstündə tik tutalım!

**M.Ə.Rəsulzadə**

**"İstiqlal" məcmuəsi, 28 may 1919, №1**

[x]) Qədim iranilərdə bu təriq ilə bir atəşi-müqəddəs münqəbəsi mövcuddur. O münqəbənin Bakıda Bayıl burnu qarşısında su içində yanan qaz həqqində varid olduğu xatirə gələr.

Ənva – növlər
Müvəzzəf – vəzifəli
Düvəl – dövlətlər
Müsairə – güləşmə
Mədlul – anlaşılan
Təvqif – tutulma
Tədafö – dəf etmə
Hətk – şərəfsizlik
Məvaşi – südlük heyvanat
Rişlə – əlaqə
Məşrəb – xasiyyət
Sədədə – niyyət, məqsəd
Hədəs – yeni üzə çıxan
Səlah – sülh, asayiş
Qate – qət edən
Məskukat – sikkəli pullar
Müxadinət – dostluq
Visaq – müqavilə, bağlaşma
Həvari – köməkçi
Təhəffüz – qorunma
Süluk – hərəkət tərzi
Həzimət – məğlubiyyət
Təviq – təxirə salma
Müzahir – nümayişçi
Təbşir – muştuluq
Mütəhəkkim – hakim olma
Qəribkar – kimsəsiz
Bari-giran – ağır yük
Təvzih – izah etmək
İstixlaf – öz xələfi hesab etmə
Təriz – etiraz etmə
Təvcih – üzünü bir tərəfə çevirmə
İftitah – açılış
Səyyalə – maye, axan şey



## "Seym"dən Parlamana

Azərbaycan Xalq Cümhuriyyətinin surəti-təşəkkülündən bəhs edərkən əqəllən Rusiya inqilabının 1917-ci sənəsi patlayışından sonra açıq və qəti surətdə meydana qoyulan Azərbaycan muxtariyyəti şüarının keçirdigi təkamül mərhələlərini təqib eləmək lazımdır.

Bu şüarın Zaqafqasiya Seyminin təşəkkülü zamanına qədər keçirdigi mərhələləri məcmuəmizdə mündəric digər xüsusata aid məqalələrdə dəxi qarelər bulacaqlardır. Buna görə də məzkur mövzui burada təkrar etməyərək yalnız Zaqafqasiya Seymindən Azərbaycan Parlamanı açılıncaya qədər cərəyan edən vəqaiyi təlxis edəcəgiz. Zatən Azərbaycan Cümhuriyyətinin surətitəşəkkülünü daha aydın və yəqin olaraq bu dövr də təşxis və təyin etmək olur. Bu dövr heç şübhəsizdir ki, Azərbaycan tarixitəşəkkülünün ən mühüm səhifələrini tutacaqdır.

* * *

Bolşeviklərin xüruci, Rusiya Məclisi-Müəssisanının qovuluşu artıq həddi-təbiidən çıxmış Rusiya imperatorluğunun parçalanmaq məcburiyyətində olduğunu aşkarən meydana qoymuşdu. Kəndilərini daxildəki Rusiya hərc və mərcindən, daxili müharibə keşməkeşlərindən qurtarmaq üçün digər Rusiya vilayətləri kibi Zaqafqasiya millətləri də Məclisi-Müəssisana seçdikləri əzanın səvabdidi ilə Zaqafqasiyanın kəndi kəndini idarə etməsinə lüzum görmüşlər və bu məqsədlə 1918 sənəsi fevral ayının 25-ci günü Tiflisdə Zaqafqasiya Seymi ünvanilə bir məclisi-təşriyyə dəvət eləmişlərdi.

Müsəlman siyasi firqələri dəxi bu məclisə iştirak eləmişlərdi. Müsəlman firqələri burada müttəhid, adətən bir firqə kibi hərəkət ediyor, milli bir siyasət təqib ediyorlardı.

Seymdəki müsəlman fraksiyonlarının müttəhid fəaliyyətlərini təhlil edə bilmək üçün əvvəlcə Mavərayi-Qafqas Seyminin bu bir-birlərinə gərək proqram, gərəksə ehtiva etdigi siyasi firqə

etibarilə heç bir münasibəti olmayan fraksiyonlarını müttəhid olmaya vadar edən bəzi xüsusi halları qeyd etmək lazımdır. Mavərayi-Qafqas Seymi bəklənildigi kibi demək olur ki, yalnız Mavərayi-Qafqasda əksəriyyətlə yaşayan üç millətin: gürcü, erməni və türklərin nümayəndələrindən ibarət idi...

Bu millətlərin iki əvvəlinciləri firqə etibarilə pək müttəhid bir halda təmsil edilirdi. Əgər yeganə milli-demokrat Qvazavanın bəzən idxal etdigi təzad nəzərə alınmazsa, demək olur ki, gürcü millətini sosial-demokrat fraksiyonu, erməni millətini də "Daşnaksütyun" təmsil ediyordu. Türk millətini isə Mavərayi-Qafqas Seymində zeyldəki dörd firqə təmsil ediyordu:

1) Türk Xəlq Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" və ona ilhaq edən demokrat firqəsiz qrup, 2) Müsəlman sosialistlər bloku, 3) "Rusiyada müsəlmanlıq (İttihad)", 4) Sosial-demokrat (menşevik) firqəsi "Hümmət".

Deməli, türk milləti dörd firqə tərəfindən təmsil edildigi üçün Seymdə məcburən yürüdüləcək Mavərayi-Qafqas millətləri mübarizəsində qayət əlverişsiz bir vəziyyətdə qalıyordu. Firqələrə bölündügü üçün türk milləti qomşularının bir firqədə toplanmış qüvvəti qarşısında zəif bir müqavimətə malikdi. Bu xüsusa Seymdə türk millətini təmsil edən mütəəddid firqələr nəzərlərini cəlb etmiyə bilməzlərdi. Dostanə əlaqədə bulunmaq bütün millətlərin şüarı olmuşdusa da, Seymin açıldığı gündən bəri milli mənafe gözətmə hirsi Tiflis sarayını dolduruyordu.

Filhəqiqə Mavərayi-Qafqas Seymi milli degil, firqə əsası üzrə dəvət olunmuşdusa da, məəmafiə birinci iclaslarından başlıyaraq (qeyri-rəsmi də olsa) üç milli dairəyə təqsimə başladı: erməni, gürcü və türk millətləri. Bu dairə kəndi nümayəndələrinin çıxışlarına yalnız firqə adı verməyə səy etmələrinə rəğmən, Seymdə olan bütün milli rəqabətləri örtməyə səy etmələrilə ən sonunda Mavərayi-Qafqas Seyminin inhilal və inqisamına səbəb yenə orada təmsil edilən millətlərin mənafeyinin münaqişəsi oldu. Mavərayi-Qafqasiya millətlərinin mənafeyinin etilafı mümkün olmayacağı, aralarında milli mübarizə olacağı ən əvvəlcədən gözükürdü.



Bu, gələcək mübarizənin birinci nişanələri müsəlman siyasi firqələrini proqram və əsasi-siyasiyyələrinin ayrı olmasına rəğmən aralarında bir saziş (modus vivendi) hüsulə gətirib təmsil etdikləri türk millətini kəndilərindən daha müntəzəm qomşuları qarşısında müdafiəyə vadar etdi. Binaənileyh Mavərayi-Qafqas Seymində olan bütün müsəlman firqələri – hətta sosialistlər belə kəmalınca anlaşılmış milli əsasın tərəqqiyi-bəşəriyyətə zidd degil, biləks sosializm, tərəqqi və milli əsasın yekdigərini icab etdigini etiraf etmiş olmalıdırlar ki, – bütün milli siyasətə aid məsələləri bahəm müzakirəyi müvafiq gördülər. Yalnız ufacıq müsəlman menşevikləri təşkilatı "Hümmət" gürcü sosialistlərinin təsiri altında qalaraq onların milli rənglərini görməməyə səy ediyorlardı. Ona görə də Seymdə kəndi siyasi əsaslarını gürcü sosial-demokrat firqəsilə birlikdə elan etdilər. Fəqət bəyannamələrdən işə keçilərkən gürcü sosialistləri kəndi ailə işlərinə başqaları şəhadət etməsindən sıxıldıqları kibi, hümmətçilər də kəndilərini sosial-demokrat arabasının beşinci çarxı hökmündə zaid gördükləri üçün fəaliyyətlərini başqa müsəlman müttəhid fraksiyonları ilə yaklaşdırmaya başladılar. Sonralar bəzi hümmətçilər bu səy nəticəsində ikən mərkəz arasında fırlamaq məcburiyyətində qaldılar. Müttəhid müsəlman fraksiyonu daxil olmuş hər bir firqəyə böyük əsasi məsələlərdə müstəqil xətti-hərəkət həqqi verdigi bunu daha da kolaylaşdırdı.

İnqilab qəhrəmanı Seretelinin "sosial-demokrat fraksiyonu Mavərayi-Qafqas millətlərinin mənafeyini bir çox milli firqələrdən daha mükəmməl gözlədigi"ni mübəyyin atəşin nitqindən sonra Borçalı qəzasında məzkur firqənin qırmızı ordusu Almaniya imperator qoşunu ilə bərabər müsəlman əhalisini qətl və qarət edəcəklərini həqiqət beynə firqələr iləricədən də görə bilirdilər.

Bəlkə Mavərayi-Qafqas Seymi sonradən ixtiyar başına keçdikdən sonra birlikdə yaşamaq şəraiti tərtib edəcək, Mavərayi-Qafqas bütün vətəndaşların hüququ bilafərq milliyyət müsavi gözləniləcək bir vətən yapmaya müvəffəq olardı, fəqət böylə az bir müddətdə buna nail olamadı. Mavərayi-Qafqas

həyatına tətbiqdə Seym ümumi təşri bir müəssisə olacağı yerdə Mavərayi-Qafqas millətləri konfransına dönərək hər millət kəndi mənafeyini həqqilə müdafiəyə məcbur oldu. Bu şərait daxilində təbii, Mavərayi-Qafqas islamlarının hüququnu müdafiə etmək, hər növ təcavüzdən məsun saxlamaq burada bütün iştirak edən müsəlman siyasi firqələrinin vəzifəsiydi. Ələlxüsus ki, bütün ictimai qüvvələr buraya toplandıqları üçün tamam müsəlman əhalisi gözlərini buraya dikmiş və bir çox mühüm məsələlərin həllini bəkliyorlardı.

Bunların fəaliyyətini ifadədən iləri məzkur firqələr əzasının siyahısını təqdim ediyorum. Türk Demokrat Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi və ona iltihaq edən demokrat firqəsiz qrup, demokrat firqəsiz qrup "Müsavat"la birlikdə siyahıya düşən müsəlman camaət xadimləridir ki, onlar milli komitələr tərəfindən bəzi mərkəzlərdən seçilmişdir. Bu kibi firqəsizlərin ədədi "Müsavat"la ümumi siyahıda 1/3 təşkil ediyor. Məbuslarının siyahısı budur:

1) Məhəmməd Yusif Cəfərov, 2) Əlimərdan bəy Topçubaşov, 3) Məhəmməd Əmin Rəsulzadə, 4) Nəsib bəy Yusifbəyov, 5) Həsən bəy Ağayev, 6) doktor Xosrovpaşa bəy Sultanov, 7) Məhəmməd Həsən Hacınski, 8) Mirhidayət Seyidov, 9) Fətəli xan Xoyski, 10) Xəlil bəy Xasməmmədov, 11) Qazi Əhməd Məhəmmədbəyov, 12) Aslan bəy Qardaşov, 13) Şəfi bəy Rüstəmbəyov, 14) Cavad Məlik-Yeqanov, 15) Mustafa Mahmudov, 16) Mehdi bəy Hacıbababəyov, 17) Hacı Molla Səlim Axundzadə, 18) Mehdi bəy Hacınski, 19) Xudadat bəy Məlik-Aslanov, 20) Müseyib Axıcanov, 21) Lütfəli bəy Behbudov, 22) Firudin bəy Köçərli, 23) İbrahim ağa Vəkilov, 24) Həmid bəy Şaxtaxtinski, 25) Rəhim Vəkilov, 26) Əliəsgər bəy Mahmudbəyov, 27) Yusif Əfəndi Əfəndizadə, 28) Mirzə Cəlal Yusifzadə, 29) doktor Məhəmmədrza Vəkilov, 30) İslam bəy Qabulov.

Müsəlman sosialistlər bloku heyəti: 1) İbrahim bəy Heydərov, 2) Əli xan Qantəmir, 3) Aslan bəy Səfikürdiski, 4) Əhməd Cövdət Pepinov, 5) Bağır Rzayev, 6) Camo Hacınski, 7) Məhəmməd Məhərrəmov.



Rusiyada müsəlmanlıq "İttihad" firqəsi heyəti: 1) Sultan Məcid Qəniyev, 2) Mir Yaqub Mehdiyev, 3) Heybətqulu Məhəmmədbəyov.

Müsəlman menşevik "Hümmət" firqəsi heyəti: 1) Cəfər Axundov, 2) İbrahim Əbilov, 3) Əkbər ağa Şeyxülislamov, 4) Səməd ağa Ağamalov.

Firqələrin bu heyətləri Seymin 28 şubat 1918 iclasında təsdiq olunmuşdusa da, sonradan bəzi təbəddülata uğradı. Bütün-bütünə çıxanlar və bir firqədən başqasına keçənlər də vardı.

Məsələn, Qazi Əhməd Məhəmmədbəyov əvvəlcə "Müsavat" və firqəsiz demokrat siyahısında idisə də, sonradan "Rusiyada müsəlmanlıq" firqəsinə keçdi. Ailə işləri cəhətinə İslam bəy Qabulov büsbütün Seymdən və "Müsavat" və firqəsiz demokratlar qrupu heyətindən çıxdı. Müsavatçı hesab olunan Xosrovpaşa bəy Sultanov Seym fəaliyyətinin sonunda "Müsavat"dan çıxaraq firqəsiz olmaq etibarilə iştirak ediyordu. Firqəsiz iltihaq edənlərdən Mustafa Mahmudov "Müsavat" firqəsinə daxil oldu. C.Axundov sosial-demokrat firqəsindən xaric edildi, əzadan bəziləri mahallarda çalışdıqları üçün fraksiyon işlərinə iştirak edəmədilər. Bəziləri zəruri şərait daxilində iştirak edəmədilər. Məsələn, Əlimərdan bəy Topçubaşov və Məhəmmədrza Ağavəkilov Bakı qanlı hadisələri və dəmiryolun qapanması nəticəsilə Seym işlərinə iştirak edəmədilər. Məlum olduğu üzrə Əlimərdan bəy Topçubaşov Bakıda bolşeviklər tərəfindən həbs edilərək, doktor Məhəmmədrza Ağavəkilov isə ancaq Seym fəaliyyətinin sonunda məşəqqətlə Bakıdan Tiflisə gələ bildi.

Bundan maəda fraksiyonların bəzi heyət hissəsi bəzi mürəxxəsələrdə və səfərdə bulunduqları üçün müsəlman fraksiyonlarının müttəhid iclaslarının nisabında az adam iştirak ediyordu. Müttəhid iclasların divani-rəyasəti bütün firqələrin razılığı ilə "Müsavat" və firqəsiz demokratlar qrupu divani-rəyasəti, yəni zeyldəki heyət hesab olunurdu: rəis Məhəmməd Əmin Rəsulzadə, rəis müavini Məhəmməd Yusif Cəfərov və Nəsib bəy Yusifbəyov. Katiblər M.Mahmudov və Rəhim Vəkilov.

Müttəhid müsəlman fraksiyonunun fəaliyyəti mahiyyət etibarilə qayət əlvan idi. Təşri işlərə və məmləkətin ümumi siyasət gedişinə məşğul olacaqları yerdə zamanın iqtizası üzərinə öhdələrinə bəzi əməli işlər götürmək məcburiyyətində idilər. Bu xüsusda müttəhid fraksiyonların halı Bakının daşnak-bolşevik hadisəsinə uğramasından sonra daha da ağırlaşdı. Belə ki, Mavərayi-Qafqas müsəlmanlarını təmsil edən Mərkəzi Müsəlman Komitəsi dağıldıqdan sonra tamam müsəlmanların nəzəri Seym fraksiyonlarına dikildi. Mərkəzi Komitə Bakıda ilğa edildikdən sonra Tiflisdə bir Mavərayi-Qafqas Mərkəzi Müsəlman Şurası ehdas edildisə də bir o qədər fəaliyyət göstərəmədi. Məzkur Şura əksəriyyətlə fraksiyon əzasından olduğu üçün fraksiyonların vücudilə yalnız rəsmi bir mənaya haiz olub yekunu bir ya iki iclas yapdı. Təbiidir ki, bu şərait daxilində müttəhid fraksiyonlar hər növ əməli işlərdən azad olamazlardı. Müsəlman fraksiyonları ümummənləkət üçün möhkəm bir hökumət, bir ixtiyar törətmək yolunda icrayi-fəaliyyətə başlamadan diqqətlərini başqa mədxəlsiz məsələlərə cəlb etməli oldular. Əvvəlcə onlar cəbhədən qayıdaraq Tiflisdən Bakıya gedən eşalon (müfrəzə) lərin səlamət getməsinə diqqət etməyə məcbur oldular. Şamxor hadisəsindən sonra cəbhədən bolşevik ruhilə qayıdaraq bəzi qara ünsürlər tərəfindən təşviq edilən eşalonları Gəncə vilayətinin intizamsız əhalisi arasından səlamət keçirmək yüngül bir məsələ degildisə də müvəffəqiyyətlə bitdi. Müsəlman fraksiyonu delegeləri tərəfindən müşayiət edilən sonuncu eşalonlar Tiflis-Bakı yolunu əhəmiyyətli münaqişələrə təsadüf etmədən keçdilər.

Müsəlman fraksiyonlarının diqqətini Mavərayi-Qafqasın cənub-qərbində vüqu bulan qanlı hadisələr də cəlb ediyordu. Əvvəlcə Türkiyə tərəfindən müharibə həqqilə işğal edilmiş yerlərdə və sonra Kars və İrəvan vilayətlərində müsəlmanların ermənilər tərəfindən qətliam edildikləri həqqində biri-birindən dəhşətli xəbərlər alınıyordu. Zaqatalada ğələyan qalxaraq Axisxa, Axalkalaki və Borçalı tərəflərdə bəzi millətlər arasında müsadimələr başlandı. Salqi və Vaçavıstan tərəfin müsəlman



kəndçiləri Tiflisə qaçaraq birincilər rum və erməni bandalarından, ikincilər isə gürcü dəstələrindən şikayətlə imdad istiyorlardı. Bakıda müharibə başlanıyor.

Şərqi Mavərayi-Qafqasın yarısını düşmənlər işğal ediyor, müdhiş qaçqın taifələri gəlməyə başlıyor, məmləkət daxilində anarşi artıyor, müsəlman ordusu firqəsinin təşkili irəliləmiyor... Bütün bu yaralara Mavərayi-Qafqas Seyminin müsəlman fraksiyonları əlac etməli olduqları üçün hər bir sədaya inikas etməyə səy ediyorlar. Bütün bu işlərdə məsul olaraq əllərində möhkəm bir hökumət qüvvəsi və daxildə qaidə və qanunu müdafiə edərək xaricdən gələn qüvvələrə qarşı müntəzəm bir ordusu olmadığından müsəlman fraksiyonları daima kəndilərini qüvvəsiz hiss ediyor və bir xoş sözdən, nəsihətdən başqa çarə bulmuyorlardı. Həqiqətən də bütün vüquata yalnız sözlər və delege göndərməklə cavab veriyordular. İntizamı saxlamaq və təbliğat yapmaq üçün Seym əzasından Zaqatala, Axisxa, Axalkalaki və Borçalı qəzasına, İrəvan, Gəncə və sairəyə delegelər göndərildi.

Erməni-bolşevik bandaları Bakıyı bitirdikdən sonra Kürdəmirə qədər irəriləyərək keçdikləri yerləri atəş və qılıncdan keçiriyorlar. Böyük fəlakətin qarşısında yenə o imdadsızlıq hiss olunuyor. Bir nəhv ilə balaca bir əskəri qüvvə toplanaraq düşmənin bir kaç dəfə artıq olan qüvvəsi türklərin vürudinə qədər tam iki ay saxlanıyor. Bu tərəfdən olan daimi bir təhdid, əvvəlcə Ərzurum və Kars vilayətində, sonra İrəvan vilayətində müsəlmanların qitalı müsəlman fraksiyonlarını əsəbi bir hailəyə sövq ediyordu. Bu hadisələri az-çox təsvir etmək üçün müsəlman fraksiyonlarının müttəhid iclaslarının 15 nisan 1918 tarixli məzbətəsindən bir nəbzə təqdim ediyoram. Kars vilayətində müsəlmanların halını Rum mühacirləri böylə təsvir ediyorlar: "Türk ordusu qarşısında ricət edən erməni əskəri qitələri və müsəlləh erməni qaçqınları rəhgüzərlərindəki müsəlman köylərini yer yüzündən silərək hər bir şeyi atəş və qılıncdan keçiriyor və təsviri naqabil dəhşət və fəlakətə düçar ediyorlar. Erməni "qalib" ordusu hərbi qənimətlər, yəni süngü ucuna taxılmış südəmər çocuqlarla keçəcəkləri yollar üzərində müsəlman qadınlarını çıplaq soyunduruyor və cərgəyə

qoyurlar. Rumların rəvayətinə görə bu cəhənnəm əzabını görüb, çıldırmış qadın və çocuqların ürək parçalayan əninlərini, ixtiyarların ümidsiz nalələrini görmək üçün qeyri-bəşər bir əsabə malik olmalıdır. Təxminən 86 köy təsviri naqabil fəlakətə düçar olmuşdur (Həqiqi sayısı isə daha çoxdur). Zəngin Kars vilayəti kapitan Musasyanın və general Areşevin vəhşət və dəhşətlərilə 1915 sənəsi ibtidasının fəlakətlərini unutmuşdur.

İrəvan vilayətindən gələn xəbərlər dəhşətcə bundan əksik degildir. Ricət edən erməni əskərləri bütün acıqlarının intiqamını sülhpərvər müsəlman köylərindən alıyorlar. Top və pulemyot atəşlərilə bir çox müsəlman köyləri məhv edilərək yalnız ermənilərlə məskun erməni ərazisi duruyor. Bu hadisələr Mavərayi-Qafqasın sair nöqtələrinin müsəlmanlarını əsəbiləşdiriyor, bu hadisələrdən acıyan Şəki, Gəncə, Qazax və sair yerlər müsəlmanlarından xəbərdarlıq teleqramları alınır. Müsəlman fraksiyonları hökumətə bir sorğu vermək məcburiyyətində oluyorlar. Seymin 5, 7, 19 və 20 şubat tarixli iclaslarında İrəvandakı erməni-müsəlman hadisatı həqqində gurultulu mübahisələr oluyor. Nəticədə yenə həqiqi bir əhəmiyyəti haiz olmayan beynəlfərq heyəti-müraxxəsə göndəriliyor ki, övzai məhəllində tədqiq etsin. Bu komisyonlar gediyor, tədqiqat yapıyor, iləricə söylənən amillərin həqiqət olduğunu şəhadət ediyorlar, fəqət qital yenə bitmiyor. Yalnız müsəlman fraksiyonları tərəfindən İbrahim Ağavəkilov rəhbərligi ilə göndərilən qaçqınlara müavinət komisyonunun az-çox əməli bir əhəmiyyəti oldu. Ehtiyacın mühib şəklinə nisbətlə bu komisyonun etdigi müavinət də bir o qədər böyük degildi. Məzkur komisyon mayısın axırında qayıdaraq İrəvan vilayətində 211 müsəlman köyü dağıdılaraq, qaçqınların sayı yüz minə vardığını xəbər verdi. Bakı cəbhəsi qaçqınlarına müavinət üçün ikinci komisyon Seym əzası Şəfi bəy Rüstəmbəyov, M.Məhərrəmov və X.Məlik-Yeqanovdan mütəşəkkil oldu. Bu komisyon işə ciddi şüru etdisə də böyük məhsulu olmadı. Seym tərəfindən buraxılmış 15 milyon rublə ümuri-xeyriyyə naziri vasitəsilə daşnakların əlinə keçdi. Nazir isə bu məbləğin şirənə bir hissəsini erməni qaçqınlarına sərf ilə müsəlmanlara



yalnız üç milyon saxladı. Bu məbləğ ilə yalnız sürətli və təcili bir müavinət etmək mümkün idi, onun üçün müsəlman qaçqınları yenə yardımsız qaldı. Daxili həyatın bu qədər ağır və hərc-mərc şəraitinə baxmayaraq müsəlman fraksiyonları kəndi vəzifələrini ifa yolunda bədbəxtanə öhdələrinə düşmüş bu ağır qürəyi çəkməyə var qüvvəlerilə səy ediyorlardı, Avropa dövlətlərinin bəzi rəsmi və qeyri-rəsmi ajanları bunları Mavərayi-Qafqas islamlarının yeganə mənbeyi-təmsili hesabla ayrıca müzakirata girişmək təklifində bulundularsa da heç nəyə nail olamadılar. Bu barədə müsəlman fraksiyonlarının ehtiyatkaranə davranmasını tədqiq etməlidir. Avropa dövlətləri ilə oyuna girmənin qorxulu bir xəyal olduğunu gözəlcə düşündükləri üçün ondan qaçıyorlardı. Yalnız Heydər Bammatov, Tapa Çermoyev və Liyanovdan ibarət delegelər gəldikdən sonra Şimali Qafqas dağlı qardaşlarımız ilə rəsmi müzakiratə girişdilər. Məzkur delegelər Seymin müsəlman olmayan fraksiyonları ilə də müzakiratə girişdilər. Bu müzakirat Qafqas millətlərinin beynəlmiləl əlaqəsi və xarici təhlükələrə qarşı ümumi tədbirlər ittixazına aid idi. Müsəlman fraksiyonları federasyon bir dövlətin üzvü olduqlarını gözəlcə etiraf etdikləri üçün hər növ ayrı çıxışlardan imtina ediyorlardı. Bu vəziyyəti onlar hətta Türkiyə ilə müzakiratda belə saxladılar, halbuki onda onların halı mütərəddüd idi. Onlar müstəqil və muxtar Mavərayi-Qafqas tərəfdarı olduqları üçün hər kəsdən artıq buna lazım olan şəraiti mühafizəyə qalxışıyorlardı. Bu məsələnin və sair mühüm məsailin ən mühüm şərti beynəlmiləl hüsni-müamilə olduğunu müsəlman fraksiyonları hər daim etiraf və müdafiə ilə vəqtli-vəqtində kəndilərinin Seym bəyannamələrində də göstərmişdilər. Bu hüsni-müamilə olmazsa Mavərayi-Qafqas Seyminin işləri iləriyə getməzdi. Bu hüsni-müamiləyi müsəlman fraksiyonları Mavərayi-Qafqas istiqlalı şüarında gördükləri üçün siyasətlərini də bu yolda yürüdürdülər.

Nəhayət, Seymin 9 nisan tarixli iclasında elani-istiqlal məsələsi müzakireyi-yövmiyyədə növbətə qoyularaq "Müsavat" firqəsi başçısı Məhəmməd Əmin Rəsulzadənin sol sosial revolyusionerlər və kadetlərlə mübarizəsi, "daşnakşütyun"un sükut rizası və sair firqələrin qızğın yardımilə Mavərayi-Qafqasın istiqlalı elan olundu.

Mavərayi-Qafqas millətləri kəndilərini ixtilalçı Rusiya ilə qayət sıxı rabitədə hiss etdiklərindən məsələyə qayət diqqətli yaklaşıyorlardı və əgər Türkiyə ilə sülh müzakiratı başlanmasa idi, bəlkə də bu məsələ uzun müddət münhəll qalardı. Beynəlmiləl əlaqənin müzakirəsindən əvvəl kəndi beynəlmiləl vəziyyətlərini təyin etməli idilər. Müəyyən bir qanuni həqqə malik olmaq üçün Mavərayi-Qafqas istiqlalını elan etməli idi. Bu xüsusa Türkiyə nümayəndələri də işarə ediyorlardı və buna görə Trabzon sülh müzakiratı uzun sürdü. Mavərayi-Qafqas istiqlalı əqdinin elanı tezliklə sülh etməgə müsaid olduğu kibi bütün Mavərayi-Qafqas və ələlxüsus müsəlman məntəqəsini Türkiyə ilə qeyri-mamül narazılıqdan saxlıyordu. Rusiya imperializmindən irs qalan Türkiyə cəbhəsi müharibəsinin bərtərəf edilməsi məsələsi kəndisinin tez həll edilməsini tələb ediyordu. Hərçənd kəndi talelərini Voronsov-Daşkov siyasətilə müttəhid edənlər müharibənin əvvəlindən Türkiyəyə qarşı ədavətkarənə bir vəziyyətdə bulunurdusa da, müharibə Mavərayi-Qafqas millətlərinin xəbəri olmadan Rusiya imperialistləri tərəfindən açıldığı üçün Mavərayi-Qafqas millətləri bu müharibəyi davam etdirmək fikrində degildilər. Məlumdur ki, müsəlman fraksiyonları bu taktikayı apara bilməzlərdi. Onlar müharibəyi hər nə tövr olursa-olsun bitirmək istiyorlardı. Bu zaman türklərlə münasibat həqqində müsəlman əhali ilə Seym nümayəndələrinin fikri arasında böyük fərq vardı. Mavərayi-Qafqasın türk əhalisi Türkiyə ilə olan qövmiyyət hissi və yuxarıda göstərilən səbəblərə məbni keçirməkdə olduqları vəziyyət sayəsində kəndi nümayəndələrinin dövlət və hökumət fikirlərinə iştirak edəmiyorlardı. Halbuki nümayəndələr qonşu millətlərlə birlikdə iqtizai-hal və siyasət olaraq Mavərayi-Qafqas cümhuriyyəti mənafeyinə diqqət ediyorlardı. Bu siyasət müdhiş bir anarşi içində yuvarlanan xəlqə pək xoş görünmüyordu. Buna binaən müsəlman əhalisi böyük təlaş ilə yeganə hamisi olan Türkiyəyə doğru şitab ediyordu. Türkiyə sülh müzakiratı açılar-açılmaz müsəlman əhalisinin başqa-başqa nümayəndələri əvvəlcə Trabzonu və sonra Batum və İstanbulu dolduruyor və kəndi "ilhaq" şüarla-



rını meydana atıyorlardı. Seymin müsəlman fraksiyonları bu xüsusa diqqət ediyorlardı və ona görə də Mavərayi-Qafqas Seymi Trabzon konfransından sonra nisanın əvvəllərində Türkiyə ilə müharibəni yeniləmək qərarını çıxarırkən sosialistlər daxil olmamaq üzrə müsəlman fraksiyonlarının əksəri çıxardıqları qərarda bu xüsus inikas etdi. Məzkur qərardad budur: "Türkiyə ilə başlanılan müharibə bütün Mavərayi-Qafqas demokratiyası üçün daxili həyatın şəraiti-hazirəsinə məbni çox fəna nəticələr verəcəgindən müharibənin davamı məsuliyyətini öhdəsinə götürməyərək, "Müsavat" firqəsinin fraksiyonu, bitərəflər qrupu və Rusiyada müsəlmanlıq "İttihad" firqəsi müharibə davamının başda olan firqələr tərəfindən müsbət bir şəkildə qət edildigini nəzərə alaraq bu məsuliyyətli imtahanda Mavərayi-Qafqasın sair millətlərinə müharibənin əlverişli surətdə bərtərəf edilməsinə səy etməklə yardım edəcəklərdir". Seymin 31 mart qərardadına görə Mavərayi-Qafqas Seyminin böyük bir hissəsini təşkil edən müsəlman məntəqəsinin bitərəf qalmasına rəğmən Trabzon müzakiratı qət edilərək Türkiyəyə yenidən elani-hərb edildi. Məmləkət müdafiəsi üçün üç kişidən ibarət fövqəladə bir komisyon təşkil edildi: 1) Rəisi-vükəla (və hərbiyyə naziri) Qeçeçqori, 2) daxiliyyə naziri N.Ramişvili, 3) maliyyə naziri – Qarçikyan. Elani-hərblə əlaqədar olaraq Seym iki həftəlik buraxılmalı idi. Bu, müsəlmanlara əhəmiyyət verməmək və onları işdən uzaqlaşdırmaq niyyətilə olduğundan müsəlmanlar qomşularla bərabər və birlikdə yaşamaq fikrinə ayıq nəzərlə baxmaya başladılar. Məlum olduğu üzrə, müharibə Brest-Litovsk müahidəsinin Batum, Ərdahan və Kars sancaqlarının Türkiyəyə verilmək maddəsinə gürcü və erməni fraksiyonları razı olmadıqlarından iləri gəldi. Yalnız sülh heyəti-mürəxxəsəsi rəisi, Seym əzası Çxenkeli Türkiyəyə müqavimətin bica və əbəs olduğunu bildigini sülhcuyana siyasət tərəfdarı idi. "Türklərin tələbatı qayət ciddi və qəti olduğundan Mavərayi-Qafqas heyəti-mürəxxəsəsi əsaslı güzəştlərdə bulunmaq məcburiyyətində idi. Heyətin müsəlman hissəsi isə bir tərəfdən gürcülərlə əlaqəyi pozmamaya və digər tərəfdən onları güzəştdə bulunmaya vadar etməyə

səy ediyordu. Çxenkeli Tiflisə çəkdigi teleqramında Batum sancağının Batum iskələsindən maada türklərə tərk edilməsini diyordu. Bu teleqramın məzmunu heyətin erməni əzalarını çox təəccübləndirdigindən onlar tamamilə Brest-Litovsk müahidəsinin qəbulunu təklif etdilər. Bu kibi təklif heyətin müsəlman əzası və Çxenkeli tərəfindən hüsni-tələqqi edildi. Bu barədə türk nümayəndələrinə xəbər verilərək işlər tamam olduğu nəzərə gəliyordu.

Fəqət ertəsi gün səbahilən Jordaniya, Sereteli və N.Ramişvili tərəfindən Çxenkeli naminə çəkilən şifrəli teleqramda Batumun güzəştini kəndiləri üçün milli və firqə intiharı ədd etdiklərini söylüyorlardı. Başqa bir teleqram yenə Tiflisdən çəkilərək tezliklə Trabzondan çıxlmalarını tələb ediyordu. Türkiyə ilə əlaqəyi qətiyyən kəsməmək üçün Çxenkeli Trabzondan övdətini türk nümayəndələrinə başqa bir rəngdə tələqqi etdi. "Mavərayi-Qafqas hökumətindən alınan dəsturüləmələ görə heyət geri dönməlidir" dedi.

(Trabzon sülh konfransı əzasından Xəlil bəy Xasməmmədovun Seymin bütün müsəlman fraksiyonları hüzurunda verdigi məruzədən).

Tiflisə qayıtdığı zaman sülhün səmimi tərəfdarı Çxenkeli Seymin müsəlman məntəqəsinin ehtimamilə hərbi müvəffəqiyyətsizliklər və gürcülərlə ermənilər arasında intişar tapan sülh tərəfdarlığına binaən türklər tərəfindən işğal edilmiş Batumda yenidən Türkiyə ilə müzakiratə başlamaya müvəffəqiyyət hasil oluyordu.

Çxenkeli Tiflisdə sülh lehinə mübarizə edərək ən sonunda Qekeçqorinin istefası üzərinə kəndisi kabinə təşkil etdigi zaman müsəlman heyətinin Trabzonda qalmış bir hissəsi başda Məhəmməd Həsən Hacınski olmaq üzrə Ənvər Paşanın gəlməsindən bilaistifadə əvvəlcə Trabzonda, sonra da Batumda Türkiyə ilə Mavərayi-Qafqasiyanın hüsni-münasibatı naminə səy ediyordu.

Bunların bu yolda fəaliyyətini daha iyi təsvir etmək üçün Trabzon konfransının məzkur əzası Məhəmməd Həsən Hacınskinin



Seymin bütün müsəlman fraksiyonlarının 1 mayıs 1918 tarixli iclasındakı məruzəsini təqdim ediyorum: Məhəmməd Həsən müqəddimətən: "Bu məruzə Trabzondakı sülh konfransının rəsmi tərəfinə aid degildir. Zira burasını heyəti-mürəxxəsə rəisi, Seym əzası Çxenkelinin məruzəsindən və bundan iləri Tiflisə varid olan arkadaşların məlumatından eşitmişsiniz – diyordu. Yalnız Batuma aid bir maddəyə nəzərinizi cəlb etmək istiyorum. Bu məsələ müsəlman əzalara, ələlxüsus şəxsən mənə çox aziyyətlər verdi. Biz çox səy etdik ki, Batum Mavərayi-Qafqas əlində qalsın. Bir çox dəlillərlə Türkiyəyi buna razı etmək istədik. Və bunu da söylədik ki, Batumun güzəşti bir çox qeyri-məmul müşkülatə səbəb ola bilər. Türkiyə ilə Mavərayi-Qafqas və Mavərayi-Qafqasın daxilində millətlər arasında münaqişə başlana bilər. Bunu da bildirdik ki, ikinci halda (yəni Mavərayi-Qafqas daxilindəki millətlər mübarizəsində) bütün ağırlıq Türkiyənin öhdəsinə düşər. Böylə olursa Azərbaycan türklərini himayət edən Türkiyə onların qomşularla əlaqəsi pozulduğu təqdirdə Şərqi Mavərayi-Qafqasa böyük əskəri qüvvə sövq və bizi qətliamdan xilas etməli olacaqdır. Bütün bu dəlillər və sair siyasi və iqtisadi sübutlar türk mürəxxəslərinin nəzər diqqətinə konuldusa da onları fikrindən daşındırmadı. Osmanlı mürəxxəslərinin təsəvvür və dəlilləri kəndilərincə daha qüvvətli olduğundan Batumu tutmayı qət etdilər. Bunun nəticəsində biz təsəvvür etdigimiz kibi Trabzon sülh müzakiratı bitərək hərb elan edildi və türk ordusu tez bir zamanda Batumu tutdu. Təbiidir ki, hadisatın bu sürətlə cərəyanı Mavərayi-Qafqasın heyəti-mürəxxəsəsinə, ələlxüsus onun səmimi sülhpərvər rəisi Çxenkeliyə xoş getmədi. Hətta Trabzondan çıxarkən o, türklərlə qəti-əlaqə etmək istəmiyordu və bənim xahişimlə heyəti-mürəxxəsə əzası Əhməd bəy Pepinovu və gürcü milli şurasının divan-riyasət əzası Q.Vuşapelinin Trabzonda qalmasına razı oldu. Bizdən savayı Şimali Qafqasiya mürəxxəsləri Heydər Bammatov, Tapa Çermoyev və Dibirov da Trabzonda qaldılar.

Trabzon konfransı bitdikdən sonra böyük hadisə Ənvər Paşanın Trabzona və oradan da Batuma gəlməsi və bizim onunla

görüşməmiz idi. Bu görüş əsnasında biz türk milləti ilə gürcülər arasındakı qədim dostluğu saxlamaq və ermənilərin türklər əleyhinə olan ədavətin gürcülərə də sirayət etməməsinə səy ilə son dəfə Batum məsələsində təlaş göstərdik, fəqət bu dəfəki səyimiz də müvəffəqiyyətsizliklə bitdi.

Ənvər Paşa Türkiyənin Batum üzərində məşru bir haqqı olduğunu, hətta bu haqqı Rusiya demokrat hökuməti də təsdiq etdiyini, türk milləti ilə gürcülər arasında isə əbədi bir dostluq olduğunu söyləyərək, erməni əqlsiz siyasətinin faciəli nəticəsi gürcü millətini də Türkiyəyə qarşı eyni münasibətdən çəkindirməli olduğunu bildirərək, Türkiyə Gürcüstanın hürriyyət və mövcudiyyətini tamamilə təmin edərək onu kəndisinə ümidli bir qonşu yapmaq istədiyini söylədi".

Batum sülh müzakirəti başlanırkən güc ilə başa gəlib də dağılan müvazinə yenidən bərpa olunduğu zənn olunurdu. Fəqət əvvəlki hal daha qayıtmadı. Yekdigərlərini imtahan etmiş qüvvələr arasında fikir birliyi baş tutmadı. Müsəlman məbusları Türkiyə ilə münasibət məsələsində qayət ağır vəziyyətdə idi. Onlar iki möhkəm qaya arasında idilər: bir tərəfdən qoşma bir dövlət əzası olduqlarını düşünüyorlardı, digər tərəfdən kəndilərini intixab etmiş millət əksi tələbatında idi. Qorxunc nəticələrə baxmayaraq müsəlman məbusları ümumi vətənin qəti bir saatində Türkiyəyə müharibə elan olunduğu zaman belə ümumdövləti nöqteyi-nəzərdən müharibəyə olan münasibətlərini təyin edərkən sair millətlərə qarşı ədavət göstərmədilər. Buna cavabən məlum olduğu üzrə 3 nəfərdən ibarət fövqəladə bir komisyon seçilərək müsəlmanlar yan tərəfdə qaldılar. Bu kibi imtahanlar kaç kərə vaqe oldu. Müsəlmanlar qonşularını Bakı məsələsində də imtahan etmişdilər. Gürcülərin Ümum Mavərayi-Qafqas türklərinin mənbəyi-həyatı olan Bakının alınmasına laqeyd qalmaları, erməni firqəsi "Daşnaksütyun"un Bakı hadisələrindəki fitnəli fəaliyyəti müsəlmanların onlara qarşı olan etimadını zəiflətiyordu. Hər iki qonşunun xətti-hərəkəti Seym müsəlman fraksiyonlarının müttəhid iclaslarında müzakirə olunurdu. Bu müzakirədən birincisi 6 və 7 nisan məzbətəsinə düşmüşdür.



Nisanın 6-da müsəlman sosial-demokrat menşevik firqəsi "Hümmət"in dövrü siyasəti məsələsi gürcü menşeviklərinin son taktikaları ilə əlaqədar olaraq müzakirəyə qoyuldu. Bu xüsusda birinci dəfə müsəlman sosialistlər blokunun nümayəndəsi söz alaraq diyor: bən bu məsələyi "Hümmət" firqəsini ittiham etməkdən ötrü qoymadım. Zira onlar da bizi tənqid etməyə haqlıdırlar. Bən bunu fəqət son zamanın siyasəti-iqtizasından olaraq müzakirəyə vaz ediyorum.

Şimdi bir halda ki, məsələnin əqidə məsələsi degil, millətin mövcudiyyəti məsələsidir, bir halda ki, "Hümmət" firqəsi piri olduğu menşevik firqəsi Rusiya demokratiyasına müraciətlə ondan yardım diliyor və bununla yenidən Mavərayi-Qafqası bolşevik kabusuna soxmaq istiyor, bir halda ki, Bakıda müsəlman demokratiyası bolşevik və erməni bandaları əlində minlərlə tələf oluyor və bir halda ki, Aleksandr bağında bolşeviklərlə müamilədə bulunmuş menşevik firqəsi imdi başqa millətin demokratiyası onların qurbanı olduqda, onların məzaliminə düçar olduqda ikiüzlü siyasət yürüdərək müsəlmanlar üzərinə gələn fəlakəti görmüyor, böylə bir halda müsəlman sosial-demokrat "Hümmət" firqəsinin xətti-hərəkəti müəyyən edilməlidir. Müsəlman firqələri böylə məsuliyyətli bir zamanda "Hümmət"-in hal-hazırayə olan münasibətini bizə və bizim menşevik və bolşeviklərə olan əlaqələrimizə olan münasibətini bilməlidirlər.

"Müsavat" firqəsinə mənsub başqa bir natiq diyor ki: "menşeviklər gürcüləri, daha doğrusu kəndi firqələrini müdafiə etmək üçün bizim üzərimizə bolşevik, kazak və erməni fəlakətləri gətirməyə hazır olduqlarını məzkur firqənin rəisləri açıqdan-açığa söyləməkdən çəkinmiyorlar".

Gürcü sosial-demokrat firqəsinin xətti-hərəkəti ertəsi gün yenə müsəlman fraksiyonlarının müttəhid iclasında polkovnik Maqalovun müfrəzəsinin Hacıqabul stasyonu yanında məğlub olması haqqında qorxulu teleqram alındıqda müzakirə olunur.

Bütün natiqlər bir səslə Hacıqabul məğlubiyyətinin menşevik firqəsinin bolşeviklərə qarşı ikiüzlü bir siyasət tutduğundan ləri gəldigini qeyd ediyorlar. Hökumətdəki nümayəndələri bü-

tün ixtiyaratı əllərinə alaraq bir tərəfdən bolşeviklərlə mübarizə üçün hökumət müfrəzəsi göndəriyor, digər tərəfdən də harbi ləvazimat göndərilməsini təxir edərək bəzi rəsmi mümaniətlər çıxartıyorlar deyə onları ittiham ediyorlardı. Polkovnik knyaz Maqalov hər gün ən qorxulu teleqramlar çəkiyor, zirehli qatar, top, mərmi, pulemyot və fişəng (patron) göndərməyi israr ediyor, hökumət isə heç bir əhəmiyyət verməyərək heç bir şey göndərmiyordu.

Bu iclasın nəticəsində böylə qərar verildi: Trabzon heyəti-mürəxxəsəsi rəisi Çxenkeli ilə müzakirədə bulunub vücuda gəlmiş vəziyyəti ona bildirməli və ona Mavərayi-Qafqas istiqlaliyyətinin elan edilməsi lazım olduğunu söyləməlidir. Hökumətin fraksiyon nümayəndələrinin iclasına dəvət edərək müsəlman nazirlərinin polkovnik Maqalov müfrəzəsinə yardım göndərilmək məsələsindəki tələbatları qəbul edilmədigindən hökumətdən çıxdıqları elan edilsin. Bütün məsul firqələrə bildirilsin ki, Seymin müsəlman fraksiyonları qətiyyən Mavərayi-Qafqas istiqlalı tərəfdarıdırlar və əgər bu məsələdə sair firqələr hüsni-təvəccöh göstərməzlərsə biz Azərbaycan istiqlalının elanının imkanı müzakiratına girişməyə məcbur olacağız. Müsəlman məntəqəsi ümumi səbəblərə görə ermənilərə etimadsız bir münasibətdə idi. Böylə münasibətın xüsusi bir tarixi vardı.

Seym fraksiyonlarının 6 mayıs tarixli iclasında Fətəli xan Xoyski növbədən kənar böylə məlumat verdi: Seymin "Daşnaksütyun" firqəsi fraksiyonunun məsuliyyətli nümayəndələri Bakı (bolşevik) hadisatının bərtərəf edilməsini, Bakının gələcək hakimiyyəti yalnız müsəlmanların olmayıb, beynəlmiləl olması və erməni qitələrinin Bakıda qalması kibi müəyyən şərtlər ilə öhdələrinə götürüyorlar. Seym əzası Xan Xoyski bunu da əlavə ediyordu ki, böylə bir şərəfsiz təklifi o, bəzi taktika səbəblərinə binaən filfövr rədd etmədi. Seym əzası Nəsib bəy Yusifbəyli qətiyyən böylə bir təklifin müzakirəsindən imtina ediyor, zira bu təklif həqiqətən səmimi bir məaşirət xəyalından olmayıb türk ordusunun yaklaşmasından nəşət etmişdir. Onlar biliyorlar ki, türk ordusu Bakı məsələsini qəti və bizə əlverişli bir şəkildə həll edə biləcəklərdir. Türklərin gəlməsindən qorxaraq onlar böylə



şətrənc nümayişinə girişiyorlar. Bu şərtlər bizcə məqbul olamaz və daşnakların təklifi rədd edilməlidir – diyordu.

Seym əzası Xəlil bəy Xasməmmədov Bakıda hakimiyyətin təqsim edilməsini əsla təsəvvür belə edəmiyordu. Bakıda və bütün Şərqi Mavərayi-Qafqasda hakimiyyət yalnız müsəlmanlarda olmalıdır və əgər biz bu hakimiyyəti müvəqqətən itirdiksə, yalnız onun üçündür ki, kimsə ilə təqsim etmək istəmədik. İmdi də onu qətiyyən və əbədən qaytarmalıyız. Daşnakların təklifi kəndilərinə qarşı bir kapitulasyon olduğu üçün bizcə məqbul olamaz. Bakı məsələsi təvəllüdünün birinci günlərindən qəti bir məsələ olmuşdur: ya həp, ya heç. Seym əzası Fətəli xan Xoyski daşnaklara zeyldəki şərtlər verilməsini təklif ediyor: 1) Bakıda hakimiyyət müsəlmanların əlinə verilsin, 2) bu hakimiyyəti saxlamaq üçün oraya müsəlman qitələri sövq edilsin, 3) oradakı erməni əskəri qitəatı tərk-silah edilərək ixrac edilsin. Bu şərtləri hazirun bir səslə təqdir ediyor.

Bütün fövqdə zikr olunanlar Mavərayi-Qafqas dövlətini təşkil edən ünsürlərin münasibatı nəticə verə biləcəgini qayət bəliğ bir surətdə söylüyor. Bunun üçün də Batuma sülh nümayəndələri göndərildigi vəqt Seymin müsəlman məntəqəsi Azərbaycanın vəziyyətini ciddi surətdə müzakirə etməli idi. Bu məsələnin məruzəçisinin müqəddəmətən söylədigi sözlər bu barədə böyük bir marağı cəlb ediyor.

Bu məsələ məruzəçisi şimdiki Heyəti-Vükəla rəisi Yusifbəyli Nəsib bəy əfəndi idi.

Nəsib bəy diyordu ki:

"Batuma sülh heyəti-mürəxxəsəsi göndərməkdən əvvəl məmləkətin daxili və xarici vəziyyətini müvazinə etməli və bu vəziyyətə nisbətlə də mürəxxislərimizə dəsturüləməllər verməliyiz. Bən nəzər-diqqətinizi xüsusən vəziyyəti-daxiliyyəyə cəlb etmək istərəm. Mahallardan gəlməkdə olan mütəəddid məlumat bütün Mavərayi-Qafqasiyada, ələlxüsus onun Şərq cəhətlərində dəhşətli anarşi olduğunu şəhadət ediyor. Vətəndaş müharibəsinin müdhiş dövrəsi hülul edərək bir köy o biri köyün üzərinə gediyor; günün günorta çağı qətl və qarət vüqu buluyor. Gəncənin

sokaklarında həyasız qarətgərlər müslimələrin başından ipək çarşaflarını alıyorlar. Bunların həpsi sizə də məlum olduğu üçün təfsilatə hacət görmüyoram. Yalnız Azərbaycanı degil, ümum Mavərayi-Qafqas ərazisini istila etmiş böyük, dəhşətli anarşiyi biz kəndi qüvvəmizlə yatıramayız. Şərq tərəfindən bolşeviklərin bizim əsri düşmənlərimizlə müttəfiqən hücum etməsi vəziyyəti daha da kəskinləşdirərək türk millətinə ənvai-müsaib və fəlakət gətiriyor. Mövqe böylə ikən bizə xarici qüvvə müdaxiləsinə ricu etməkdən maəda çarə qalmıyor. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər bən bu məsələ həqqində birinci olaraq danışmaq məcburiyyətindəyəm. Fəlakətin üzünə cürətli baxaraq vüqu bulacaq hadisələri göz önünə almaq və ona nisbətlə də iqdam etmək gərəkdir. Biz sevinməliyiz ki, xoşbəxtlikdən müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş Türkiyədir. Bəlkə bu bizim qonşularımızın bir o qədər də xoşlarına getməyəcək, lakin başqa çarəmiz də yoxdur. Müdhiş anarşi qarşısında onlar da bizim kibi gücsüzdürlər. Onların əlində olan ordu qüvvəsinin əhvali-ruhiyyəsi intizamsızlıq lehində olduğu üçün onlara istinadən intizam bərpa ediləməz. Əgər onların böyük intizamlı qüvvəsi olsa belə bizə yardım etmək üçün onlara ümid ediləməz. Kürdəmir hadisatı və Tiflis cəbxanəsində bizim əskəri qüvvəmizə mühimmat vermək məsələsi dostumuz gürcülərin bizimlə münasibatını aydın bildirdi, başqaları həqqində danışmaq belə artıqdır. Xatir üçün xəstə düşə bilməyiz. Bizim heyətimiz Batuma gedərək Şərqi Mavərayi-Qafqas türkləri namindən Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir. Təbiidir ki, biz türklərdən ən yaxın zamanda buraya əskər göndərməyi tələb edəməyiz, zira biz fəqət rica edəcəgiz. Unutmamalıdır ki, Türkiyə böyük müharibədə iştirak edənlərdən olduğu üçün böyük məsələlərin həllinə müvəzzəfdir. Bəlkə Türkiyə Mavərayi-Qafqasda işğal (okkupasiya) məqsədini güdmüyorsa da Mavərayi-Qafqasiyadakı qardaşlarına yardım üçün bunu yapacaqdır. Fəqət bizim heyəti-mürəxxəsə bu nöqtəyə diqqətini cəlb etməli və yalnız Azərbaycan mənafeyi degil, Türkiyənin və ümumtürklüyün mənafeyini güdməlidir. Əgər buraya gəlmək Türkiyənin kəndi fikrində varsa, biz bu fikrin tezliklə hüsulə gəlməsini rica etməliyiz. Fəqət



bununla bərabər Azərbaycanın istiqlal idarəsini də heç bir vəqt unutmamalıyız".

Beləliklə, Mavərayi-Qafqas ittihadının təqsimi saəti yaklaşıyordu. Bilaxirə 25 mayısda bu məsələ müsəlman fraksiyonları qarşısında zamanı yetişmiş bir şəkildə təcəssüm etdigi iki zeyldəki məzbətələrdən görünmədədir:

25 mayıs 1918-də Mavərayi-Qafqas Seymi müsəlman fraksiyonları müttəhid iclasının məzbətəsinin müxtəsər, fəqət mənidar yazıları böylədir:

Tiflis – Dərbar. Müsəlman Seym əzası Xudadat bəy Məlikaslanov sədarəti ilə iclas ediyor. İclas fövqəladə olaraq Mavərayi-Qafqasiyada cərəyan edən siyasətin şiddətli təbdili münasibətilə dəvət edilmişdir. Mövsuq mənbədən alınan xəbərlərə görə Mavərayi-Qafqas Seyminin gürcü məntəqəsi Batum sülh heyətinin gürcü əzalarilə məxfi surətdə xətti-müstəqim ilə müzakirədə bulunaraq Gürcüstanın ayrılması və elani-istiqlal etməsini hazırlıyorlar.

Məsələ bir az müzakirə edildikdən sonra Gürcüstanın ayrılması qət edilmiş məsələ olduğu və müsəlman məntəqəsi böylə bir əqdə hazır bulunmalıdır, fəqət bu hənuz məsələnin iləricə müzakirəsi olduğundan müəyyən bir qərar çıxarılmıyor. Məsələ həqqində müəyyən qərar axşam iclasında qəbul ediləcək.

Axşam iclası. 25 mayıs 1918 – Tiflis – Dərbar.

Sədarətdə Seym əzası Fətəli xan Xoyski bulunuyor.

İclasın əvvəlində Mavərayi-Qafqas Seymi rəisi Q.Çxeidze, Seym əzası A.Sereteli və Qekeçqori (sosial-demokrat fraksiyonu başçıları və Seymin gürcü məntəqəsi) daxil oluyorlar. Birinci sözü A.Sereteli alaraq zeyldəki bəyanatı veriyor:

Sosial-demokrat fraksiyonu və ümumən gürcü məntəqəsi Mavərayi-Qafqas millətlərini istiqlal şüarı təhtində birikdirmənin mümkün olmayacağına Mavərayi-Qafqas təqsiminin bir əmri-vaqe olduğuna qane olmuşdur. İttihad yoxluğu Türkiyə ilə müzakirat əsnasında məlum oldu. Bizim tərəfimiz əqəliyyət olduğu üçün nəzəri-etinayə alınmıyordu və biz də bu gün Gürcüstan istiqlalı elanına məcburuz. Biz ittihada çox əhəmiyyət veriyoruz və

bunun gələcəkdə ümumi mənafe zəminində hüsulə gələcəginə ümidimizi qət etmiyoruz. İstiqbalda bunun hüsulinə imanla şimdilik başqa çarəmiz olmadığından Gürcüstan istiqlalını elan etməliyiz. Yarınkı iclasda biz Mavərayi-Qafqas Cümhuriyyətinin inhidanını təyin edəcəgiz. Bundan sonra Mavərayi-Qafqas Seymi rəisi Çxeidze danışaraq Mavərayi-Qafqas millətləri ittihadının təqsimi münasibətilə izhari-təəssüf eliyor. Bunlara cavabən Fətəli xan Xoyski danışaraq – Mavərayi-Qafqas millətləri yekdigərlərilə ənvai-mənafe ilə o qədər sıx birləşmişlər ki, ayrılmaq onlara yüngüllüklə mümkün olamaz. Fəqət əgər gürcü millətinin iradəsi böylə isə, biz mümaniət etməyə heç də həqli degiliz və Azərbaycan türklərinə də bu yeni hadisəyə nisbətlə lazım gələn qərarı çıxarmaqdan başqa bir şey qalmıyor – diyor.

Bundan sonra Sereteli, Çxeidze və Qekeçqori gediyorlar. Fətəli xan Xoyski Seym və hökumət əzası Qarçikyan ilə olan müsahibəsində Gürcüstan ayrılırsa Seymin erməni məntəqəsi də Ermənistan istiqlalını elan edəcəgini bildirdigini xəbər veriyor.

Ertəsi günü 26 mayısda Mavərayi-Qafqas millətlərini birləşdirən Mavərayi-Qafqas Seyminin sonuncu iclası iniqad etdi. Bu iclasda gürcü sosial-demokrat fraksiyonu kəndinə məxsus hərəkatının sarsılmazlığına böyük bir inamla Mavərayi-Qafqas ittihadı təqsiminin bütün təqsirini müsəlmanların öhdəsinə atmaya çalışdısa da, sonkılar tərəfindən icab edən etirazı da eşitdi. Nəhayət, bir-birlərini çoxca ittiham etdikdən sonra Mavərayi-Qafqas Seymi kəndisini fəsx üçün zeyldəki qərarı qəbul etdi:

"Mavərayi-Qafqas müstəqil cümhuriyyətini vücudə gətirən millətlər arasında müharibə və sülh məsələsində əsaslı ziddiyyət olduğu və nüfuzlu bir hökumət təşəkkül edərək Ümum Mavərayi-Qafqas namindən danışmasına imkan qalmadığı üçün Seym Mavərayi-Qafqas təqsimi əmrini təyin ilə kəndi səlahiyyətini tərk ediyor". 26 mayıs, sənə 1918.

Bunun üzərinə "Seym"in müsəlman əzası kəndilərini Azərbaycan Şurayi-Millisi elan edərək o zaman Batumda bulunan Rəsulzadə Məhəmməd Əmin əfəndiyi Şurayi-Milli rəyasətinə intixab elədi. Mayısın 28-də Şurayi-Milli Azərbaycanın istiqlalını elan və ilk Azərbaycan hökumətini təşkil elədi (Elani-istiqlal vəsiqəsini təşkil edən əqdnamə məcmuəmizin başında dərc edilmişdir). Şurayi-Millinin təşkil elədigi hökumət Fətəli xan Xoyski cənablarının rəyasətində bulunub bütün firqələrin nümayəndələrindən təşəkkül eləmişdi.

Kabinə heyəti bir vəchi-ati idi: Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məhəmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyov, Xosrov bəy Sultanov, Cəmo bəy Hacınski, Xudadat bəy Məlikaslanov, Məhəmməd Yusif Cəfərov və Əkbər ağa Şeyxülislamov.

Elani-istiqlalı mütəaqib Qafqasiya hökumətləri Batumdakı mürəxxəsləri vasitəsilə Türkiyə ilə ayrı-ayrı əqdnamələr bağladılar. Azərbaycan naminə dəxi Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin ilə xariciyyə naziri Hacınski Məhəmməd Həsən və Türkiyə naminə Şurayi-Dövlət rəisi və ədliyyə naziri Xəlil bəy ilə Üçüncü Ordu komandanı Vəhib Paşaların imzası ilə iyunun 4-də müxadinət müahidənaməsi ilə əlavələri əqd edildi. Bunların eyni vüsaiq qismində mündəricdir.

Hökumət təqsimi əsnasında təsviyəsi lazım bir takım xüsusatı bitirmək üçün yeni təşəkkül edən Azərbaycan hökuməti bir kaç gün Tiflisdə qalaraq nəhayət, iyunun 17-də Şurayi-Milli ilə bərabər Gəncəyə gəldilər.

Şurayi-Milli ilə hökumət daha Gəncədə ikən Nuri Paşa həzrətləri ərkani-hərbi ilə bərabər İran və Qarabağ təriqilə Gəncəyə vürud eləmiş və Batumdakı Azərbaycan mürəxxəslərinin Şurayi-Milli ilə hökumət naminə vaqe olan tələbləri üzərinə Azərbaycan imdadına koşan türk əskərlərinin ilk qafilələri dəxi Gəncəyə yetişmişlərdi.

Şurayi-Millinin Gəncəyə vürudindən sonra nə kibi bir vəziyyət içərisində qaldığı bəlkə də məcmuəmizin xatirati-tarixiyyə qismində bir təfsili-təsvir olunur.

Fəqət mətləbin riştəsi əldə olmaq üçün burada dəxi müxtəsər bir vəchlə zikr edilmək məcburiyyəti vardır.

Tiflisin etinasızlığı, "Seym" əzası bulunan müsəlmanların çarəsizliyi üzündən müavinətsiz qalan Bakı və hökumətsizlik

bəlasına düçar olan sair yerlərin qaçqınları Gəncəyə doluşmuş və qəlbləri "başçılara" qarşı bir hissi-ədavətlə dolmuşdu. Əksərən canı acımış olan mümtaz siniflərə mənsub olan bu cəmaət yerli mütənəffizlərlə bərabər əhvali-ruhiyyə üzərində ümumi bir irtica təsiri hasil etdirmiş; "Seym" əzasına qarşı ümumi bir cərəyan təvəllüdünə çalışmışlardı. O zaman Şurayi-Millinin dəvəti və Azərbaycan hökumətinə məin və məzahir olaraq Gəncədə bulunan Türk komandanlığı dəxi ümumu istila edən böylə bir təsirdən azadə qalamamışdı.

Şurayi-Milli əzası kəndiləri dəxi heyəti-hazirə və əhvali-mövcudələri ilə bütün təbəqati-millətin hüsni-təvəccöhünü qazanamayacaqlarını idrakla kəndilərincə tətbiqinə lüzum gördükləri bir proqram cızmışlardı. Bu proqramca Şurayi-Milli hər bir məhəll və təşkilatdan əlavə etmək surətilə heyəti-hazirəsini təkmil edəcək, bu surətlə həm əsasını ibqa, həm də qeyri-məmnun təbəqələri təskin edə biləcəkdi.

Şurayi-Milli nümayəndələri rəisi Rəsulzadə Məhəmməd Əmin, Heyəti-Vükəla rəisi Fətəli xan Xoyski və xariciyyə naziri Məhəmməd Həsən Hacınski cənablarından ibarət olduqları halda bu xüsusda Nuri Paşa həzrətlərilə anlaşmaq istəmişlərsə də, Paşa kəndilərinin bir əskər olub siyasətdən anlamadığını, bu xüsusda "Müşaviri-siyasi"si bulunan Ağaoğlu Əhməd bəylə anlaşmaq lazım gələcəgini təbliğ elədigindən nümayəndələr onunla görüşmüşlərdir. Əhməd bəyin mütaliəsi isə bu yolda aşkar olmuşdur ki:

Xəlq sizi istəmiyor. Komandanlıq da sizin işinizə qarışmaq istəmiyor. Kəndi qüvvətinizə güvəniyorsanız məclisinizi açınız, hökumətinizi qurunuz. Fəqət xəlq sizə qarşı üsyan edərsə, türk əskəri qarışmaz. Çünki əskər buraya qardaşlarını düşməndən xilas etmək üçün gəlmiş, əhaliyə qurşun atmaq üçün degil.

Nümayəndələr Əhməd bəyə sormuşlar ki, hanki surətdə komandanlıq Azərbaycan hökumətinə müavinət edə bilər?

Cavab almışlar: Şurayi-Milli kəndisini ləğv eləsin. O zaman Paşa kəndisi bir hökumət qurar. Buna nümayəndələr etiraz eləmişlər. Böylə olursa, Azərbaycanın vəziyyəti-beynəlmiləliyyəsi tamamilə işğal olunur, istidlalına qarşı Əhməd bəy razı olur ki, Şurayi-Milli hökuməti kəndisi təşkil və bütün hüququnu ona tərklə kəndisi məsləhət üçün fəsx olunsun. Bir çox tərəddüdlərdən sonra nümayəndələr bu xüsusu Şurayi-Milli əzasının xüsusi iclasına xəbər vermişlərdir.



Bunun üzərinə hasil olan vəziyyət və çıxarılan qərarları tamamilə aşağıya nəql olan tarixi məzbətələrdən anlamaq mümkündür. O günün mütəfəkkir azərbaycanlılar üzərindəki təsirati-əmiqəyə isə Şurayi-Milli rəisinin son nitqi gözəl bir inikas təşkil ediyor.

Azərbaycan Şurayi-Millisinin 7-ci iclası. Gəncə. Bələdiyyə dairəsi. Sənə 1918, 17 iyun (həziran), saat 2.

Məclis, Məhəmməd Əmin Rəsulzadənin rəyasəti və Mustafa Mahmudov və Rəhim Vəkilovların katiblikləri ilə açılır.

**Rəis** məclisi açaraq söylədi ki: Əfəndilər! Ağır və məsuliyyətli bir zamanda fövqəladə hallar içində Azərbaycan Şurayi-Millisinin bugünki iclasını açıyoram. Bu gün həll edəcəgimiz məsələlərdə, hər şeydən əvvəl hissiyyatdan ayrılıb soyuq qanla və zamanın bütün dəhşət və məsuliyyətini anlayaraq tədbirlə hərəkət etməliyiz. Bu gün biz alacağımız qərarlarda əsasə sədaqət ilə, əhvalə riayət qəziyyələrindən birisini qəbul etməliyiz. Ehtimal ki, bu gün alacağımız qərar bizdən ötrü bir bədbəxtligin vücudini təşkil edəcək. Fəqət əgər bulunduğumuz girəvədən çıxılacaq yol yalnız bu qərara münhəsir isə, bittəb onu da qəbul etməliyiz. Vətənpərvərlik hissiyyatından ayrılmayaraq hərəkətimizdə siyasət üçün siyasət düsturundan uzaq olmalıyız. Çünki sənət üçün sənət düsturu şairlərlə rəssamlara lazım isə də, siyasilərdən ötrü haiz degildir. Bunun üçün sizdən ümid edirəm ki, zamanın əhmiyyətini idrakla alacağınız qərarlarda siyasət sənətini degil, mənafeyi-mülk və milləti mülahizə edər, o surətlə vətənpərvərlik isbat edərsiniz.

**Rəisi-hökumət Xan Xoyski** – Məbus əfəndilər! Siz bilirsiniz ki, biz nə kibi ağır və məsuliyyətli bir zamanda hökuməti ələ aldıq. Gürcüstan Zaqafqasiyadan ayrıldıqdan sonra bizim məmləkət başsız və hökumətsiz qaldı. Onun üçün biz məmləkət-

dən xaric bir ərazidə olsa da, buraya gəlincəyə qədər müvəqqəti bir hökumət təşkil eləmək məcburiyyətində qaldıq. Bu hökumətin görmüş olduğu işlər tamamilə sizə məlum olduğundan artıq təfsilata ehtiyac görmüyoram. İmdiki halda məmləkətimizdə bulunuyoruz. Bənim və kabinədəki yoldaşlarımın ricası istefamızı verməkdən ibarətdir. Bu ricamızı qəbul ilə qüsurlarımızın əfvini ümid edəriz.

**Aslan bəy Səfikürdski** – Biz sosialistlər köhnədən də türk tərəfdarlığı edirdik və bu yolda çalışdıq. Bənim bu yolda istədigim hamınıza məlumdur. Lakin türklər buraya gəldikdə ilk qədəmlərini millətimizin mənfəətinə olmayan bir yolda götürüyorlar. Paşa bizim məclisi və hökuməti dağıdıb öz rəyilə hökumət təşkil eləməsi şayani-təəssüfdür.

**Rəis** – zəng çalır, natiqi saxlayır. Paşanın bu mətləbə müdaxiləsi yoxdur, diyor.

**Aslan bəy** – (davamla) qorxuyoram ki, bu yol millətimizi nicata çatdırmayıb, bizi yeni fəlakətlərə düçar edə və camaatda türklərə qarşı bir məyusluq hissi törədə və nəuzübillah dünya keşməkeşinin axırında Gürcüstan və bəlkə Ermənistan təhtiidarəsinə keçək.

Xariciyyə naziri-sabiqi **Məhəmməd Həsən Hacınski** – Aslan bəyin nitqinə qarşı protesto edərək diyor ki: Paşanın rəyi müəyyəndir. Onun baxacağı işlər ancaq ümuri-əskəriyyədir. Azərbaycanın kəndisinə nüfuzlu bir hökumət təsisini səmimi qəlblə arzu ediyor. Fəqət təşkili-hökumət xüsusunda müşaviri-mülkisi bulunan Əhməd bəy Ağaoğlu ilə görüşməmizi məsləhət elədi. Əhməd bəy isə Seymin camaat arasında nə dərəcə sahibi-etibar olmasını sordu və qəti surətdə türk əskərləri Azərbaycan hökuməti ilə əhali-islamiyyə arasındakı hər növ mümkünülvüqu münaqişələrə müdaxilə etməyəcəgini ixtar elədi, hökumətin istefası məhzən öz rəyi, öz xahişi və kəza məclisin əvvəlcədən mövcud bulunan qərarına görədir. Və qətiyyən başqa təsir altında degildir.

**Məhəmməd Yusif Cəfərov** – Əhməd bəy ilə nümayəndələrimiz arasında keçən danışıqdan bən öylə anlıyoram ki, imdiki



hökumət ilə camaat arasında bir münaqişə çıxarsa, türk əskərləri tamamilə bitərəf qalacaqlardır. Fəqət anlıyamıyoram ki, bu bitərəf qüvvə yeni şəkildə təşəkkül edəcək olan hökumətə əcəba, hanki məntiqlə kəndi himayəsini təmin edəcək ümidini veriyor.

**Nəsib bəy Yusifbəyli** – İşin bir üzü var, bir də astarı, deyə başladı: Aşkardır ki, Paşa həzrətləri və Dövləti-Aliyeyi-Osmaniyə Azərbaycanın müstəqil qalıb da kəndisinə bir hökumət təşkil etməsinə tərəfdardır. Məlum işdir ki, onlar bizim işlərimizə müdaxilə etmək istəməzlər. Fəqət Paşanın ətrafını məxsus adamlar, şübhəli şəxslər tutmuşlar ki, Aslan bəy də onlardan bəhs elədi. Bu adamlara bizim əlimizdə bulunan hüquqdan istifadə etmək lazım. Bu hüquqdan biz bərk yapışar və heç bir güzəşt etmək istiyəməzsək, məmləkətin beynəldüvəl hüququnu əngəl edə bilərik. Bu isə bəlkə böylə müşkil bir zamanda bulunduğumuz üçün vətənpərvəranə bu hərəkət olamaz. Bunun üçün də bən təklif edərim ki, kabinənin istefasını qəbul edəlim, sonra rəisimizə tapşıralım ki, kəndisi etimad etdigi bir adama yeni bir hökumət təşkilini tapşırsın. Yeni təşkil olunacaq hökumətə hürriyyətdən hasil olan bütün əsasları mühafizə etməsi və onlara sadiq qalması şərtilə səlahiyyəti-tammə verəlim ki, məmləkəti idarə edib yaxın zamanda Məclisi-Müəssisan dəvət eləsin və bu ixtiyarını kimsəyə xoşluqla təslim etməyib qiymətdar bir əmanət kibi saxlasın və yalnız qüvvət və süngüyə təslim olsun. Bunu da ərz etməliyəm ki, istiqlalımıza qarşı vaqe olacaq təcavüzə qarşı ilk əvvəl üsyan çıxaran bən olacağam.

**Sultan Məcid Qənizadə** – Anlaşıldı ki, bizim istiqlalımıza və hökumət təşkil etməmizə Paşa tərəfindən manealik yoxdur. Biz isə türkü öz xoşumuz və öz rəyimiz ilə buraya gətirmişik.

Camaatimiz bizdən dönüb, kəm etinalıq var. Bunla belə bizim hürriyyət və istiqlalımızda qorxu görünür. Ona binaən lazım gəlir ki, ancaq cəbr və zülmə tabe olaq.

**Məhərrəmov** – əhvalı təhlil edərək böylə bir təklifdə bulunuyor ki, Milli Şura kəndisini fəsx ilə camaatdən almış olduğu hüququ kimsəyə tərk etmədən haman camaatin kəndisinə qaytarmalıdır.

**Məhəmməd Yusif Cəfərov** – (titrək bir səslə) Əvət, məlum olur ki, əski bürokrat üsulu ilə bizi Tiflisdən buraya dəvət etdilər. Hürriyyətimizi alırlar. Yüngüllük ilə aldığımız hürriyyəti yüngüllük ilə də veriyoruz. Ey vah, kömək gözlədigimiz Osmanlı qardaşlarımız ürəyimizi oxluyor, həyatımızı zəhərliyorlar, deyə ağlayaraq oturuyor.

**Məhəmməd Həsən Hacınski** – Məhəmməd Yusifin Türkiyə və qardaşlarımız həqqində kullandığı lisan və kəlmələri qətiyyən rədd edərim. Bizi kimsə təzyiq etmiyor. Kimsə bizim istiqlaliyyət və hürriyyətimizə təcavüz etmiyor, bizi ilhaqa icbar edən yoxdur. Bu fikirlərdən vaz keçməli, əgər kəndimiz bir hökumət təşkil edib xəlqin etibarına məzhər etdirərsək, türklər buna qarşı degildirlər. Buna zidd gedənlər varsa özümüzkülərdir. Nəsib bəyin nitqinə gəlincə, deməliyəm ki, bən də hürriyyət və muxtariyyət üçün ölməgə hazıram, bu yolda bən Osmanlı türkləri içində bulunan əməlpərvər federalistlərlə bərabər olmaq istərəm.

**Qasım bəy Camalbəyov** – Bunların hamısı oyuncaqdır. Bizi buraya dağıtmaya gətirmişlərdir. Bu işi sazlıyan əskidən anarxiya tərəfdarı olan adamlardır, biz burada hökumət təşkil edə bilməriz.

**Əhməd bəy Pepinov** – əsasən Nəsib bəyin rəyinə iştirak edərək əlavə ediyor ki, məclis inhilal əvəzinə qeyri-müəyyən bir vəqtə qədər tətil eləsin.

**Şeyxülislamov** – diyor ki, camaətin bizə təslim etmiş olduğu hüququ kimsəyə tərk edə bilməz. Qoy bizi çəksinlər, buradan qovsunlar. Bu qədər məlumdur ki, bizi qovacaq olanlar Azərbaycanın da, Türkiyənin də düşmənləridir. (Burada natiqlər siyahısı qapanıyor və hər natiqə 5 dəqiqə danışıq vəqti verilir).

**Rəhim Vəkilov** – Nəsib bəyin "Müsavat" naminə elədigi təklif ehtimal ki, Müsavat firqəsinin çəkildigi son səngəridir və zəruridir. Bu iki nəticə ilə qurtara bilər: ya yeni fütuhat, yaxud qara zirzəmilər. Bən isəm başəxsə bədbinanə bir hissiyyatda bulunaraq hər halda ikinci nəticəyə intizar ediyorum. Biz heç bir zaman böyük saraylarda oturmaq və Şamaxı ilə Kürdəmir xalıları üzərində mürəbbenişin olmaq niyyətində degildik. (Gurultulu alqış). Bu vəqtə qədər türklük və türk məhəbbəti ilə yaşayan ziyalı gənclərlə imanlı türk qardaşlarımız arasında daima rus çinovnikləri qapısında baş əyən qara qəlbli, çinovnik tinətli adamlar hayil olmuşlardır. Bu hayillər dün bizə karvansarada yer göstərirdilər. Fəqət iş onların mərhəmətinə qalırsa onlardan karvansara azdır, qaranlıq zindanlar gözlüyoruz. Həm də qorxusuz, çaşqınlıqsız bir surətdə gözlüyoruz. Çünki məmləkətin ağ və pak qüvvələri hər zaman rəsmi məhfillərdən uzaq siyah çallardan parlamışdır. Çünki qaranlıq zindanda millətin iradəsi, əzmi və cihadı tərbiyə olunuyor.

**Rzayev** – Küçəyə tabe olmaq olmaz. Hüququmuzu küçəyə verə bilməriz. Çıxalım küçəyə, açalım camaətin gözünü.

**Aslan bəy Səfikürdski** – bu günə qədər bizi inandırırlardı ki, türklər bizim istiqlalımızı istiyorlar. Bu günlərdə isə görüyorum ki, əhvalat dəgişmişdir. Ona görə də bən təklif ediyoram ki, təcili Batuma bir nümayəndə göndərib oradan məlumat almalı və ancaq ondan sonra bir qərar çıxarmalıdır.

**Nəsib bəy** – Məhəmməd Həsən bəy bəni iyi anlamadı. Bən demiyoram ki, osmanlılar bizə qarşı gediyorlar. Bizim hürriyyət və istiqlalımızı təhdid edənlər qara qüvvələrdir. Bu qüvvələrə qarşı şübhəsiz ki, üsyan etməliyiz.

**Məlikaslanov** – zaman fənadır. Camaət hökumətsiz qalamaz. Başqa çarə yoxdur. Təzədən hökumət təşkil etməliyiz.

**Xan Xoyski** – şəkk və şübhə yoxdur ki, müşkül bir zamandayız. Şuraya kömək verməyib də onun təşkil edəcəgi hökumətə kömək verməgə bir növ məntiqsizlik yox degildir. Var, bunu qəbul edərim. Fəqət bu, bir həqiqətdir. Bununla hesablaşmalıdır. Məmləkət hökumətsiz buraxılamaz.

**Rəis** – burada iki qorxu vardır. Birisi xarici, digəri daxili. Qorxuyorlar ki, istiqlalımızı udar, bizi ilhaq edərlər. Bu təhlükə bəni o qədər düşündürmiyor. İlhaq olsa belə kəndi millətdaşlarımızla həmdərd oluyoruz. Qorxuludur ki, Azərbaycanda qara qüvvələr üstün gəlsin. İşlə bəni artıq dərəcə əndişənak edən cəhət bu fəqərədir. Bu fəqərəyi bilxassə düşünməliyiz. Burada əgər əlimizdəki hüquqi səlahiyyətdən istifadə etməyib bü-

tün hökumət təşkilatını başqa qüvvələrə tərk edərsək, o zaman qara bir hökumət təşkili qorxusu var. Halbuki burada icrayi-nüfuz edərsək, daha münasib bir hökumət təşkilinə müvəffəq ola biləriz. Bunun üçün də bən Nəsib bəyin təklifinə iştirak edirəm.

**Nəsib bəy** – təklif ediyoram ki, kabinənin istefası qəbul olunsun. Şurayi-Milli rəisinə rücu edilsin ki, ricaldan birisinə müraciət edərək hökumət təşkilini kəndisinə həvalə etsin.

Bu təklif ittihadi-ara ilə qəbul olunuyor.

**Aslan bəy Səfikürdski.** Müsəlman sosialistləri bloku naminə bəyan ediyoram ki, bizim firqə yeni təşkil olunacaq hökumətdə iştirak etmiyəcəkdir.

**Şeyxülislamov** dəxi "Hümmət" firqəsi naminə böylə bir bəyanatda bulunuyor.

Yuxarıdakı bəyanatlar nəzəri-etibarə alınıyor. Məclis saat 4-də qapanıyor.

Haman gün Şurayi-Milli rəisi **Fətəli xan Xoyski** cənablarına müraciətlə yenidən kabinə təşkil etməsini istiyor. Kabinənin təşkili əsnasında yenə **Ağaoğlu Əhməd bəy Heyəti-Vükəla** rəisilə Nuru Paşanın mümməssili sifətilə kabinə təşkilində iştirak ediyor. Nəhayət, kabinə təşəkkül ediyor ki, gərək kabinənin təşkili və gərək buna təqəddüm edən qərarlar aşağıdakı məzbətədə görülüyor:

**Azərbaycan Şurayi-Millisinin iyun 17, 1918 sənəsi Gəncədə münəqqid iclasi-ümumi-fövqəladəsinin məzbətəsi (8-ci iclas).**

İclas gecə saət 12-nin yarısında sabahkı iclasda hazır bulunan əzanın hüzuru və **Rəsulzadə Məhəmməd Əmin** əfəndinin riyasəti ilə iniqad ediyor.

**Şeyxülislamov** məclis iftitah olunca "Hümmət" firqəsi naminə bəyan ediyor ki:

"Hüsulə gələn əhvaldan dolayı Milli Şuranın hürriyyətlə çalışacağı mümkün olmadığından "Hümmət" firqəsinə mənsub olan əza Şuradan istefa elədiklərini elan edirlər".

**Rəis** təklif ediyor ki, Dövləti-Aliyeyi-Osmaniyyə ilə Azərbaycan Cümhuriyyəti miyanında əqd olunan müahidəyi-əsasiyyə ilə sair müqavilələr Məclis tərəfindən baxılıb da təsdiq



olunsun. Məzkur müahidə və müqavilələrin bəzilər tərəfindən qiraəti və **Soltan Məcid Qənizadə** cənabları tərəfindən isə maddəbəmaddə müzakirə olunub da hər maddə üçün ayrıca rəy alınması təklif olunursa da, əksəriyyət Şuranın bu müahidə və müqavilələr məzmunu ilə Tiflisdə ictima edən bir iclas vasitəsilə aşina olduğunu və mətnlərinin bu surətlə rəsmən əzayə elan edildigini nəzərə alaraq bununla iktifa edərək təsdiq müzakirəsinə keçməyi müvafiq bulur. **Nəsib bəy ilə Əhməd bəy Pepinov** bilxassə maddəbəmaddə oxumaq təklifini tənqid edirlər. Xariciyyə naziri **Məhəmməd Həsən Hacınski** – müahidə və müqavilələri oxumaya və uzun-uzadıya münaqişə etməyə məhəl yoxdur, çünki bu maddələrin həpsi sizin rizanızla əqd olunmuşdur – diyor. Nəhayət, Rəis tərəfindən təklif olunan aşağıdakı qərarnamənin qəbulu ilə Batum müahidələri təsdiq olunuyor. Keyfiyyəti-təsdiq alqışlarla qarşılanıyor.

**Qətnamə:**

Batumda 1334 sənəsi həziranın 4-də Azərbaycan Cümhuriyyəti naminə mürəxxəs **Məhəmməd Həsən Hacınski ilə Məhəmməd Əmin Rəsulzadə** cənabları ilə Dövləti-Aliyeyi-Osmaniyə naminə mürəxxəs ədliyyə naziri və Şurayi-Dövlət rəisi-düvəlitlisi Xəlil bəy ilə Üçüncü Ordu komandanı Vəhib Paşa həzrətləri tərəfindən əqd və imza olunan müahidəyi-əsasiyyə ilə iki məlfuf və bir müqaviləyi-əskəriyyəyi və həmçinin neft bürosu haqqında Azərbaycan, Gürcüstan və Dövləti-Aliyeyi-Osmaniyə miyanında bağlanan müqavilə ilə dəmiryol və sənaət nəqliyyəsinə aid Dövləti-Osmaniyə, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri arasında bağlanan müqavilələri Azərbaycan Şurayi-Millisi həziranın 17-dəki iclasında təsdiq eləmişdir".

**Məhəmməd Həsən Hacınskinin** təklifi üzərinə Şurayi-Milli Rəisi bu münasibətlə teleqram çəkərək böyük qardaş Türkiyə Məclisi-Məbusanını təbriklə məmur ediliyor.

Sosialist blokundan **Məhərrəmov** blok naminə bloka mənsub bulunan Şura əzasından istefa etdiklərini bəyan ediyor.

**Rəis Rəsulzadə Məhəmməd Əmin** – Həzarat, sizin arzuyi-ümumiyyənizə nəzərən bən Azərbaycan hökumətinin təşəkkülü üçün təşəbbüs edərək kabinə təşkilini möhtərəm **Fətəli xan**

Xoyski cənablarına həvalə etdim. O da qəbul elədi. Müsaidənizlə kabinə heyətini sizə məriflik buyursunlar.

**Fətəli xan Xoyski** – Həzərat, zamanın əhəmiyyəti və öhdəmə vagüzar olunan məsuliyyətin ağırlığını dərk edərək və bu idrak qarşısında titrəyərək möhtərəm Rəisimizin təklifi üzərinə kabinə təşkilinə girişdim. Kabinənin müfəssəl proqramını sizə şimdiki anda təqdim edəcək bir hal və zamanda degiləm. Müxtəsərən proqramımız məmləkətin səadəti, hürriyyəti və istiqlalını müdafiə etməkdir. Yoldaşlar tamamilə məsləklərində qaimi-vicdaniyyətlə çalışacaqlarını vəd və təmin eləmişlərdir. Sizə rizaməndlik edər, müavinəti-mənəviyyənizə ərzi-ehtiyac elərəm. İnşaallah daha müsaid bir zaman içində buluşuruz. Kabinəyə daxil əza bunlardır:

1) Fətəli xan Xoyski
2) Məhəmməd Həsən Hacınski
3) Yusifbəyli Nəsib bəy
4) Topçubaşov Əlimərdan bəy
5) Behbud ağa Cavanşir
6) Xəlil bəy Xasməmmədov
7) Xosrov bəy Sultanov
8) Rəfibəyov Xudadad bəy
9) Məlikaslanov Xudadad bəy
10) Aşurov Ağa
11) Əmircanov Əbdüləli bəy
12) Rəfiyev Musa bəy

**Cəfərov Məhəmməd Yusif** – hökumətin nə surətdə, nə kibi şərait və təzyiqlər altında təşəkkül etdigi məlumumuzdur. Artıq uzun-uzadıya müzakirə və tənqid zamanı degildir. Lazımdır ki, hökumətə daxil olan yoldaşlarımıza müvəffəqiyyət diləyəlim. Həm də lazım olursa, bütün qüvvətlərimizlə onlara kömək etməmizi vəd edəlim. Əlbəttə ki, onları yalnız buraxmayız. Fəqət bununla bərabər lazımdır bir düstur olsun hökumətin proqramı bəlli degildir. Bunun üçün də zənn edəriz ki, bu hökumətə yalnız həqqi-idarə verilə bilər. Vəzi-qəvanin həqqi verilməz. Bu hökumətin vəzifəsi bir an əvvəl Məclisi-Müəssisan dəvətidir.



**Məhəmməd Həsən Hacınski** – Yalnız həqqi-idarə nə deməkdir?

**Rəis** – bu xüsusda Şuranın sabiqən qərarları olsa gərək.

**Nəsib bəy** – hökumətə etibarınız varsa, gərəkdir ki, kəndisinə ixtiyari-tam verəsiniz. Bu hökumət gərək əsasati-məlumə daxilində ifayi-vəzifə etsin. Sonra da Məclisi-Müəssisana cavab versin.

**Həsən bəy Ağayev** – yeni hökumət təcəllən təşkil olunuyor. Məqsəd yalnız idarə işlərini yoluna qoymaqdır. Məhəmməd Yusiflə iştirak elərəm.

**Məhəmməd Həsən Hacınski** – Məhəmməd Yusif rəçtəsilə icrayi-hökumət etmək qabil degildir.

**Şəfi bəy Rüstəmbəyov** – Məhəmməd Yusifin təklifi qeyri-məqbuldur. Çünki idarə etmək üçün dəxi qəvanin vəz etmək lazımdır. İdarə qanunları hökumətdən bu həqqi tənzih etməz olmaz.

**Fətəli xan Xoyski** – qanun vəz etmək həqqi hökumətə verilməli, bu şərtlə ki, o qanunlar Məclisi-Müəssisan təsdiqinə ərz olunsun.

**Makinski** – hökumət ixtiyarati-tamməyə malik bulunmalıdır.

**Xəlil bəy Xasməmmədov** – qanun qoymağa hökumət səlahiyyətdar olmalıdır. Başqa dürlü olamaz. Yalnız əsas qanunları hökumət vəz edəməz. Bu Məclisi-Müəssisan vəzifəsidir.

Bu mövzuda bir kaç natiq dəxi bəyani-rəy ediyorlar. Nəhayət, əksəriyyəti-ara ilə hökumətə bəyani-etimad edilir. **Soltan Məcid Qənizadə** cənabları hökumətdən bəzilərinə etimad etmiyoram – diyor. Nəhayət, hökumətin vəzaifini və hüququnu təyin etmək üzrə aşağıdakı qərar verilir:

**"Şəkli-hökumət:** əsas istiqlal və siyasi hürriyyətlər xüsusunda mövcud olan əsaslarda Azərbaycan hökumət mövqutəsi dəxil və təsrif edəməz. Topraq və sair bu kibi böyük məsələlər həqqində mövcud olan inqilab qanunlarını vəz edəməz. Altı aydan gec olmamaq üzrə Məclisi-Müəssisan dəvət edər. Başqa idari xüsuslarda isə səlahittəyi-tamməyə malik bulunur".

Bundan sonra məmləkətin böyük bir anarşi içində olduğunu, xaricən dəxi təhdid edildigini nəzərə alaraq Nəsib bəy tərəfindən

təklif olunur ki, məclis kəndisini buraxaraq bütün səlahiyyət və məsuliyyəti hökuməti-müvəqqətəyə tərk eləsin.

Bu xüsusda müzakirə olunaraq Məhəmməd Yusif Cəfərov məclisin fəsxi degil, müvəqqətən tətilini tənsib ediyor. Əhməd bəy Pepinov da bu fikri iltizam ediyor. Yalnız əhval və şərait və mətalibi-fövqəladə mülahizəsilə əksəriyyət aşağıdakı qərarı alır:

**"Azərbaycan keçirməkdə olduğu müşkülati-daxiliyyə və xariciyyəyi nəzəri-etinayə alaraq Azərbaycan Şurayi-Millisi bütün hüququ və səlahiyyətini Fətəli xan Xoyski təhti-sədarətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəyi arayi-ümumiyyə üzərinə müstənd bilatəxir Məclisi-Müəssisan dəvət oluncaya qədər Azərbaycan həqqi-hakimiyyətini kəndi əlində bulunduraraq kimsəyə tərk etməməyə müvəzzəf edər".**

Bundan sonra Şura əzalarının məaşı həqqində bir təklif girdiliyor. Təklif mövqeyi-müzakirədən qaldırılaraq bu xüsus hökumətin qərarına həvalə olunuyor.

**Rəis Məhəmməd Əmin Rəsulzadə** – Həzərat, daha sabahkı iclasımızı açdığım zaman nə kibi məsuliyyətli və ağır bir zaman içərisində bulunduğumuzu izhar eləmişdim. Tarixi məsuliyyətin bütün o çəkilməz yükünü şimdiki qərarınızla **Fətəli xan Xoyski** cənablarının təşkil elədikləri hökumətin omuzlarına yüklədiniz. Bu qərar bir tərəfdən əhvalın icabı, digər tərəfdən "blok" ilə "Hümmət"in istefaları üzərinə mənən və şəklən alınmaq məcburiyyətini hasil etmişdi. Dünya müharibəsi və Rusiya inqilabının təsirləri ilə yeni doğmuş və həyati-siyasiyyəyə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçiriyor. Bu yeni türk növzad siyasətini rəşid və bəliğ bulub da millətlər zümrəsinə bir amali-həyat olaraq girə biləcək, yoxsa sısqa çocuqlar kibi südəmər halında ikən tərki-həyat edəcəkmidir? İştə bütün zehinləri işğal edən bir məsələ. İştə bir zaman kəsə müqəddərati-milliyyəyi əllərinə alanlar üçün Azərbaycan növzadını tələf etdirməmək kibi müşkül, fəqət müşküllügü ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor. İştə böylə bir zamanda və böylə bir məsuliyyəti-əzimənin bargiranı altına girmiş olduğu halda **Fətəli xan** cənabları hüzurunuza çıxıb da etimadınızı istəməklə kəndisinə iqtidar arayır. Fəqət bunu yaparkən o, diqqət etdiniz yəqin ki, nə qədər sararmış, tərləmişdi, zira, onu ehtimal ki, heç bir zaman və heç bir məkanda bu dərəcə lərzan və hərasan görməmişdiniz. Bu nəyə bənzər bilirsiniz?... Dəhşətli həngamələrdə, səfahati-hərbin məsuliyyətli dəmlərində ricət yapmaq məcburiyyətində qalan bir ordunun mövqeyi-məxsusi son dərəcəyi-imkanə qədər mühafizə etmək üzrə buraxdığı müfrəzəyi istila edə bilən hərras və xəşyətə...

Əvət, əfəndilər, Azərbaycanın paytaxtı mövqeyini bulunan Gəncədə naqis də olsa, hakimiyyəti-milliyyəyi təmsil edən bir müəssisənin şu surətlə meydandan çəkilmək məcburiyyətində qalması heç şübhəsiz demokrasinin bir ricəti və qüvayi-mürtəcenin bir müvəffəqiyyətidir. Bu ricət ağ və pak qüvvətlərə müqabil, qara və napak qüvvətləri təqviyə edəcəkdir. Bu nöqteyi-nəzərdən baxınca ilk nəzərdə bizim halımız o qara binanın halına pək bənziyor kibidir. Bu hallar bizdə Rusiya məqasidi-inqilabiyyəsinin iflasına dair bir əqidə hasil ediyor. Fəqət əfəndilər, zəvahirlə qalmıyalım, səthi düşünməyəlim, pək də məyus olmuyalım, Rusiya inqilabi-əzimi hər nə derlərsə desinlər, qətiyyən iflas etmədi. Rusiyada inqilab nə yapacaqdı? Bu suala "Böyük Rusiya" fikri ilə məsmum olan rus inqilabçıları nöqteyi-nəzərindən degil, inqilabın kəndi təbiətini təhlil edərək cavab verməlidir. Böylə baxılırsa, Rusiya inqilabı məzlum və məğdur siniflərlə məhkum millətləri azad etməlidir. Məğdur siniflər təqdir edəlim ki, istədiklərindən fəzləsini aldılar. Millətlər isə birər-birər kəsbi-istiqlal ediyorlar. Əvət, dünyanın altıdan birini tutan böyük Rusiya yaratmaqlamı müvəzzəf idi. Qətiyyən degildi. Ətrafa gedən sinif hürriyyətləri əlbəttə ki, təqdir olunacaq və mötədil bir şəklə girəcəkdir. Çünki bu hürriyyətin şəkli-haziri heç şübhəsiz ki, hürriyyət degil, bir afətdir. Fəqət bu yolda yapılacaq ricət əminəm ki, hər halda inqilabdan əvvəl mövcud olan hüdudun ötəsində degil, büryəsində tovqif edəcəkdir. Demək əhval əvvəlkisinə nisbətlə hər halda iyi olacaqdır.

Əfəndilər, bən sabiq Rusiya ərazisində güzəran etməkdə bulunan vəqayə böylə baxıyoram. Buna görə də hala ümidlərimlə

bərabər yaşıyoram. Biliyoram əfəndilər ki, Azərbaycan Rusiya inqilabının vaz etmiş olduğu müsbət nəticələrə, elan etdigi əqanimi-hürriyyətdən son dərəcədə istifadə edəcəkdir. İştə müstəqil bir Azərbaycan siyasətən kəsbi-hürriyyət və istiqlal edəcək, Azərbaycanda ictimai hürriyyətlər və hüquqi-bəşərə aid düsturlar hər halda müstəbid Rusiya zamanından daha geniş, daha əlverişli olacağına şübhə etməm. Hətta əfəndilər, söyləmək istərəm ki, Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hürriyyətlərimizə icrayi-nüfuz edən və edəcəgi mütəsəvvir bulunan qüvvət yabancı bir qüvvət degil, öz qüvvətimizdir. (Alqışlar). Burada istiqlal böyük və şanlı bir millətin müxtəlif şöbə və budaqlarını tövhidə doğru gedəcək ki, eyni məqsədimizdir. (Alqışlar). İctimai və hüquqi hürriyyətlərdə bərfərz qayib etsək belə, siyasətən qazanacaq, təlafi-məfüqət edəcəgiz. Halbuki Ukrayna, Gürcüstan və sairə öylə degildir.

Əvət, əfəndilər, pək də naümid olmayalım. Tarixin amali-milliyyəmiz nöqteyi-nəzərindən müsaid bir zamanında olduğumuzu, türk ittihadı üçün fürsət ələ keçdigini unutmayalım. Bütün məsaimizi bu hürriyyəti-siyasiyyənin təsbitinə sərf edəlim. Bunun üçün də hər dürlü fədakarlığa amadə bulunalım.

Sizi, ey heyəti-hökumət, böylə bir əmri-əzimin ifası üçün təvəkkül ediyor, bütün məsuliyyəti öhdəyi-himmətinizə təhmil etməklə zənn etməyiniz ki, yalnız qalırsınız. Yetişər ki, siz keçməkdə olduğumuz zamanın əhəmiyyəti ilə münasib, amali-milliyyə ilə müvafiq türklügün ələsına, Azərbaycanın hürriyyətinə, türk kütləsinin mənafeyinə münətif olan icraəngiz də kəsalət və müsahilə göstərməyib də, yorulmaz bir əzmlə çalışasınız, biz hər zaman sizə mübin olmaya hazırız. İstədiginiz zaman bizi kəndinizlə bərabər yola çıxınız. Biz hüzurumuzla sizə mübin olmaya hazır olacağımız kibi icabı təqdirində başqa yollarla da sizi təqviyəyə hazırız. Nitəkim bugünki tətilimiz dəxi bu hisslə və bu məqsədlə icra olunuyor.

Şurayi-Millinin heyəti-hazirəsi həqqində vaqe olan tənqidatə qarşı buradan bəhs etməyə lüzum görmüyoram. Siz biliyorsunuz ki, bu tənqidat həpsindən ziyadə əsasə mətufdur. Bu münəqqidlər həqqindəki mühakiməni tarixə həvalə edəlim. Bir kaç ay sonra əgər bu vahi tənqidlərdə arzui-millət arayan ərkaniəsasın degil, heyətin əleyhində isələr hürriyyət intixabatı təminlə millətin həqiqi tələqqiyatını görərlər. Millət kəndisi bizimlə onların arasında hakim: o zaman həqq ilə batil də əyan olur.

Şimdi artıq bu ağır günlərdə öhdəsinə ağır bir vəzifə təvəddilə tərk etdigimiz hökümətə ərzi-vida edəlim də ayrılalım.

Əfəndilər, sizdən, kəndi həqqimdə əzvi-ehtiramdan başqa bir şey görmədigim əziz arkadaşlarımdan ayrıldığım əsnada öhdəmə vagüzar etmiş olduğunuz vəzifəyi-saiqi ilə yapmış olduğum qüsurlarımın əfvini diləməgi ayrıca isterham edərəm. Şimdi vəqt gəliyor, saəti-vida vuruluyor, yekdigərinə qardaşca sıxa əlvida edəlim və ayrılarkən əfəndilər, bu ümidlə gedəlim ki, inşaallah yaxında Azərbaycanın paytaxtı bulunan Bakıda Azərbaycan Məclisi-Müəssisan dairəsində buluşuruz.

Yaşasın Azərbaycan!

Yaşasın Türklük!

(Şiddətli və sürəkli alqışlar).

Məclis saat ikidə qapanır.

Bu gündən dörd ay sonra sentyabrın 15-də türk komandanlığının müzahiratı ilə Azərbaycan hökuməti paytaxtını istirdad ediyor. Noyabrın 15-də təkrar Şurayi-Milli həyatə çağrılıyor. Şurayi-Milli kəndi əsasını dəgişərək mövcud əzasına yeni əza əlavə edərək dekabrın 7-də parlaman açılıyor.

**R.Kusalı**

**"İstiqlal" məcmuəsi, 28 may 1919, №1**

Əqəllən – ən azı

Vəqayiq – hadisələri

Təlxis – qısaca

Səvabdidi – doğru hesab edilmiş

Zeyl – aşağıda göstərilən

Beynə – beynəl

Şitab – tələsmə, tez ol!

Müfrəz – dəstə, hissə
Dərbar – canişin sarayı
İnhilal – açılma
Tinət – xasiyyət
Məzbətə – protokol, qərarnamə
Hayil – dəyişmiş, qorxunc
Təqəddüm – irəli keçən
Məlfuf – zərfə qoyulmuş
Məlfufat – fərman
Məmur – əmr almış
Vəzi-qəvanin – qanunların təsiri, vəziyyəti
Tənzih – təmizləndirmə
Tənsib – münasib görmə
Müvəzzəf – öhdəsinə almaq
Lərzan – titrək, titrəyən
Hərasan – ürkək
Ricət – geriyə dönmə
Hərras – qoruyucu, keşikçi
Xəşyət – qorxu
Zəvahir – zahirdə olanlar
Məsmum – zəhərlənmiş
Tövhid – birləşdirmə
Təlafi – əvəzini çıxma
Təvəkkül – ixtiyar sahibi, vəkalət alma
Münətif – qulaq asan, üz çevirən
Mübin – göstərici
Təvədd – sevmə, eşqi
Kusalı – təbilçi, ilhamçı

*** R.Kusalı - *M.Ə.Rəsulzadənin növbəti imzalarından biridir. Kusalı - təbilçi, ilhamçı deməkdir. "Kus" - böyük təbil, mağara, sultanlar ilk taxta oturanda çalınırdı ki, xalq bilsin.***



# Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfəri)

28 Mayıs.

Üç boyalı bayraqlara örtülmüş dər və divar, rəngin və zəngin xalılarla bəzənmiş pəncərə və balkonlar, sokakları doldurmuş təmənnak gözlər, mütəbəssüm çöhrələr, göylərə inikas edən elektrik ziyalı lampalar, Parlaman qarşısında məhşəri-kübrayı andıran o on minlərcə qəfalı izdiham, hürriyyət meydanında Şollar suyunun bir sərinlik nəşr edərək yüksəklərə fışqıran fəvvarəsi yanında sərbəstliyi bəsait olaraq duran əskərlər, əskərlərin hökumət rəisi təbrikinə müqabil "Yaşa! Yaşa! Yaşa!" deyə böyük meydanı dolduran möhtəşəm sədaları və bu sədaya bir inikas olaraq yerdən, göydən, hər yandan qopan alqışlar, küçələrdə gəzişən izdihama ağ çarşaflarilə lətif hüsn və şairanə bir məna verən xanımlar, musiqi tərənnümatına qovuşan "Yaşasın!" sədaları, natiqlərin same ilə bərabər qəlblərə verdigi həyəcan və təhsislər, türk mətbəə işçilərinin tarix təbaəti, aktyorlarımızın da ələlümum mazimizi canlı bir surətdə təşhirlə paytaxt küçələrini gəzişmələri, "kiçik" əskərlərin "böyük" toplar və "son sistemli" tüfənglə rəfilə etmələri, daha nələr, nələr – iştə İstiqlal Günü paytaxtımızın aldığı mənzərənin səthi bir surətdə çizilən xütuti-əsliyəsi...

Bakı tarixinin bəlkə də bu ana qədər qeyd eləmədigi bu böyük gündə bir çoxları kəndi-kəndilərinə:

Əcəba, bu uykumudur!? – diyordular.

Əvət, bu Azərbaycan tarixinin ən böyük həqiqətini təşkil edən gün o qədər xariqülədə idi ki, uykuya bənziyordu.

Fəqət bu həqiqəti bundan iki sənə əqəll Mayısın 28-də şənglər yapan xəlq bugünki kibi təsəvvür və xəyal etməmişdisə də, Azərbaycan şüarını ortaya atan firqəmiz istiqbalda böylə bir günə malik olacağımızı heç şübhəsiz ki, təsəvvür eləmişdi.

Müsavatçılar üçün bu gün ikili bayramdır. Milli bayram – fikir bayramı!

Bundan bir sənə əvvəl ümum fəlakət və anarşi içində olaraq millət vəkilləri tərəfindən elan olunan istiqlal, etiraf etməlidir ki, xəlqimizdə böyük bir hissiyyat və ümid oyatmıyor, hər kəs onu bir növ məcburiyyətlə qəbul ediyordu. Fəqət bir sənə sonra fikri-istiqlalın nə dərəcədə ümumi və milli olduğunu görüyoruz.

Görüyoruz ki, bundan bir sənə əvvəl Tiflisin bir guşəsində qalan Azərbaycan mümessilləri nə böyük bir vəzifəyi nə qədər hüsni-ifa etmişlər və millətin istədigini nə dərəcədə doğru olaraq dərk eləmişlərdir.

Mayısın 28-də istiqlal bayramını qeyri-qabil təsvir bir səmimiyyətlə qarşılamaları ilə azərbaycanlılar bütün aləmə göstərdilər ki, istiqlaldan əl çəkmiyəcəklər və bütün cahangirlərə dedilər ki:

– İstiqlal xanların, bəylərin, ağaların degil Azərbaycan xəlqinin, bütün millətin amalı, ən müqəddəs idealıdır.

Böylə bir hissiyyata malik olan millətin haqqini hər kəs tanımalı, bu milləti bu qədər sevdigi hürriyyət və istiqlalını müdafiə üçün mübarizə edə bilər bir halə qoymalıdır.

Növzadi-istiqlal bir yaşına çatdı. Möhtəşəm İstiqlal bayramı ilə bu növzad artıq süddən ayrıldı. Parlaman məbuslarından birisinin dedigi kibi "dili xörəyə dəyən uşaq artıq süd yeməz!".

Azərbaycan milləti artıq əsarətə getməz!

Yaşasın Azərbaycan!

**M.Ə.Rəsulzadə**
**"İstiqlal" qəzeti, 31 mayıs 1919, №17**

Dər – qapı
Rəngin – gözəl, lətif
Mütəbəssim – gülümsəyən
Məhşər – qələbəlik
Kübrayi – ən böyük
Səfbəstə – sıraya düzülmüş
Samе – eşidən
Təşhir – şöhrətləndirmə
Rəbi – uca, yüksək
Əqəll – daha az



## İstiqlal bayramı

Mayısın 27-də daha şəhər bayraqlar ilə müzəyyən edilmişdi. Hər kəsdə bir təlaş görünməkdə idi. Paytaxtımızın yuxarı hissələrində belə alaqapı qayrılmaqda idi. Küçələr boyu məftillər çəkilərək əlvan fanuslar, rəgbərəng bayraqlar asılırdı. Türk ətfalı da işbu bayramın əzəmətini, hörmətini düşündüklərindəndir ki, bir gün əvvəl rəsmi keçidə hazırlanırdılar. Kağız papaqlar, taxta silahlar hazırlanır, dalanlarda təlimat yapılırdı.

Gözlənilən 28 Mayıs günəşi tülu etdi. Artıq paytaxtın bəzəyi on qat artmışdı. Sokak boyu aşağı-yuxarı baxacaq evlərdən üç rəngli, hilallı, ulduz nişanlı bayraqların yellənməsi insanın qəlbində fərəh oyadırdı.

Yaşıllıqlar ilə bəzənmiş balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, "Yaşasın istiqlal!", "Yaşasın Azərbaycan!" yazılı bayraqlar millətdə ruhi-vətən və millət məhəbbətini layiqincə göstərirdi.

Marşurut qərarı üzrə məktəblərin çocuqları buradan Məclisi-Məbusan (parlaman) qarşısına getməli idi. Bazar küçəsi ipək parçalar, xalılar və rəngbərəng bayraq ilə bəzədilmişdi.

Məclisi-Məbusan bir gün əvvəldən istiqlal bayramı libası geyinmişdi. Damında elektrikdən "Yaşasın istiqlal!" şüarı yazılmış, böyük qapısı üstündə məşhur türk nəqqaşı Əzim Əzimzadə tərəfindən yazılmış istiqlal embleması elektrik lampaları ilə bəzənmişdi. İşbu rəsm olduqca mənalı və calibi-diqqət idi. Bir gün əvvəl buradan keçənlər biixtiyar durub rəsmə baxır, gözəlliyini və manidar olduğunu tanımadığı başqa bir tamaşaçıya söyləyirdi.

Bu rəsmdə Azərbaycanın tarixi nümunələri mahiranə bir surətdə təcəmmö etmişdi: Qız qalası üzərində üç rəngli Azərbaycan bayrağı, Suraxanıdakı tarixi Atəşgədə, sentyabr müharibəsində xəsarət almış Yanar Dağ...

Digər tərəfə minarələrində ay-ulduz rəkz edilmiş, Xan məscidlərini tülu etmiş, istiqlal günəşi işıqladır. Zanbaq kimi istiqlal səmasında Vətən, İstiqlaliyyət və Məhəbbət nişanı, mülk bütün Azərbaycan üzərində üç rəngli hilal-ulduzlu "Yaşasın istiqlal!" şüarlı bayrağı tutmuşdu.

Həqiqət işbu rəsmi-şayan təhsin idi.

Bələdiyyə idarəsi də bayraqlar içində idi. Bir sözlə, bayraqlar, bayraqlar! Yaşıl ot, əlvan parçalardan alaqapılar bəzədilmiş idi. Küçəyə çıxan balkon elektrik ilə çıraqban edilmişdi. Şəhər bağı və bulvarda da bələdiyyə idarəsi tərəfindən alaqapılar bəzənib hesabsız milli bayraqlar asılmışdı. İçəri şəhərdəki bütün məscidlərin minarələri başında milli bayraqlar rəkz edilərək elektrik ilə çıraqban edilmişdi. Xan sarayları üzərində də milli bayraqlar asılmış, məşhur Qız qalası çıraqban edilmişsə də üzərində iki böyük bayraq rəkz edilmişdi.

Təzəpir camei çıraqban edilmiş, bayraqlar asılmışdı. Bütün paytaxtdakı minarələr elektrik ilə tənvir, milli bayraqlar ilə təzyin edilmişdi.

Dövlət binaları, nazirliklər, xüsusilə Daxiliyyə nazirliyi olduqca qəşəng bəzənmişdi. Bulvardan Daxiliyyə nazirliyinə baxdıqda ay-ulduza bürünmüş işıqlı, bəzəkli bir qala kimi gözə çarpırdı. Bulvar qarşısındakı hesabsız bayraqlar ilə müzəyyən qayıqlar paytaxtı salamlayaraq böyük bayram ilə təbrik edirdilər.

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham qələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədəki evlərin damları, pəncərə və balkonları tamaşaçılar ilə dolmuş idi. Damda qoşa zurna çalınır. Qarşıdakı balkonda məşhur tarzən Şirin, məşhur xanəndə Cabbar Qaryağdı oğlu çalıb oxuyurdu.

Saat 10 radələrində mədən dairələrindən "Müsavat" və "Hümmət" firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər. "Hümmət" firqəsinin bir çox al və milli bayraqları ilə bərabər embleması, "Müsavat"ın bir çox bayraq və embleması aralığı təzyin edirdi. Bir az keçmədən minlərlə məktəb şagirdləri havada kiçik milli bayraqları yelləyərək "Yaşasın!" sədaları ilə dairəyə gəldilər. Ətfalın səsləri asimanə bülənd olurdu. İzdiham da çocuqların sədalarından cünbişə gələrək "Yaşa!" – deyə onlara qoşuldular. Tam 15 dəqiqə işbu kütleyi-əzim "Yaşasın!" sədaları, əl şıqqıltıları bütün ətrafı gumbuldatdı. Bələdiyyə idarəsi qarşısından tutmuş Məclisi-Məbusan dairəsi, Parapet bulvarı, dövlət dairəsi tamaşaçılar ilə xıncaxınc idi.



Dəstə-dəstə mini-mini çocuqlar antik xalılarda taxta silahlar ilə ağır topxanaları ilə əlam bir əsgər kimi marş oxuyaraq gəzirdilər...

Bir az keçmədən "Müsavat"ın bəzəkli avtomobili, türk mürəttiblərinin avtomobili dairəyə gəldi, türk mürəttibləri doğrudan da "əntiqə" bəzənmişdilər. İçərisində iki hürufat kassası qoyulmuş, iki nəfər mürəttib iş əlbisəsində cümlə yığır...

Bir az keçəndən sonra Məclisi-Məbusan qarşısında M.Ə.Rəsulzadə cənabları kürsiyi-xitabətə çıxaraq xalqın alqışları altında bir nitq irad edərək camaatı milli böyük bayram və bəxtiyarlıq ilə təbrik etdi: "Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlalını xanlar, bəylər elan etmişlər. Xalq onu istəmir. İştə camaat, bugünki izdiham, bugünki bəşaşət istiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər". (Xalqın alqışları altında nitqinə xitam verir). Ondan sonra başqa natiqlər də nitq etdilər...

**"Azərbaycan",**
**1 həziran (iyun) 1919, №192**

# İran – Azərbaycan

Bu mövzuda qəzetəmiz ilə Tehran mətbuatından möhtərəm "İran" qəzetəsi arasında bir münaqişə vaqe olduğunu qarelərimiz biliyorlar. İran qəzetəsi cümhuriyyətimizə Azərbaycan ismi verməmək haqqında olmadığımızı, biz isək bunun əksini isbat ediyorduq. "İran" qəzetəsinin tərəfimdən yazılan son məqaləsinə cavab yazmaq üzrə ikən posta məzkur qəzetənin 454-cü nömrəsini gətirdi. Bu nömrədə "Qəzavat tarixi" ünvanı ilə İsmayıl Əfşar Tarəmi-Azərbaycanı imzasilə müfəssəl bir məqalə nəşr ediyor. "Elmi intiqad və azadi mətbuat" naminə dərci təqaza olunan bu məqalə Bakı ilə Tehran arasında olan mübahisəyə iştirak edərək kəndisi iranlı ikən həqqin biz tərəfdə olduğunu tarixi və elmi bir surətdə isbat ediyor. Bu müfəssəl məqaləyi tərcümə ilə aşağıya dərc ediyoruz:

İştə İran qəzetəsində mündəric məqalənin eynən tərcüməsi: 439 və 440 nömrələrinizdə ədibi-maarifpərvər M.Ə.Rəsulzadə əfəndinin qələmi ilə yazılmış Azərbaycan haqqında bir məqalə dərc edilmişdir. İran qəzetəsi dəxi haman məqalənin zeylində bəzi mətləbləri tənqid eləmişdi. Bu münaqişəyə bən də iştirak etmək istədim. Fəqət bu iştirakımla bən Azərbaycan hökumətinin İran üzərində siyasi təsiratından sərfi-nəzər yalnız bir həqiqəti-tarixiyyənin kəşfi üçün səy edəcəyəm. Çünki məşhur müvərrixlərdən Qustel Dokulanır der ki, tarixi ehsasati-vətəniyyə ilə qarışdırmaq hər zaman möhlikdir. Onlardan birisi elm, digəri isə fəzilətdir.

Şərq və Qərb müvərrixləri ilə coğrafiyunlarının rəylərinə görə Azərbaycan Zaqafqasiyanın qismi-şərqisindən, İrəvan, Naxçıvan və bütün İran Azərbaycanı, bütün Xəmsə vilayətləri, Tarəm, Talış, Gilan həvalisindən bir qismi ilə Həmədan və Qəzvindən ibarət olmuşdur. Rzaqulu xan Lələbaşı ki, rus-İran müharibəsinin müasirlərindəndir, Rövzeyi-Lisfanın 10-cu cildində diyor ki:

Azərbaycan keçmiş zamanlarda Bakı bəndərindən Xalxalə qədər tula 95 fərsinin və Macirvan qəsəbəsindən Cəbəli-Sinayə qədər ərza 55 fərsinin bir məsahədə vaqe olmuşdur. Eyni məzmunda təfsilat Büstanülsiyahə ilə digər əsərlərdə dəxi məzkur ki, mətləb uzanmasın deyə zikrindən sərfi-nəzər ediyoruz[1]. Bu həqiqəti-tarixiyyə kəşf olunursa, İran qəzetəsinin vətənlərinin əski nami-müqəddəsini ehya etmələri üçün azərbaycanlıları həqli görəcəgini ümid edərim.

Əxlaq, adat və dil barəsində də dəxi bir takım şeylər zikr edilmişdi. Bunun doğru olduğunu dəxi isbatə lüzum yoxdur. Zira Qəzvindən birisi qalxıb da Qubaya müsafirət eləsə yalnız əxlaq, adat və dil birliginda degil, şivə və ləhcənin dəxi eynilə bir olduğunu görər. Bu gün bir tehranlı ilə bir şümranlı ləhcələri arasında fərq vardır, mazandaranlı ilə dəvmandlının şivələrindəki fərq isə daha bəllidir. Bu böylə ikən aya, azərbaycanlıların bir cinsdən və bir irqdən olmadıqlarını iddia etmək qabilmidir?

Şimdi görəlim, Amerika və İngiltərənin bitərəf üləması bu xüsusda nə diyorlar.

Professor Nikela Qrabils diyor ki: 1907-ci ildə Amerika asari-ətiqə mütəxəssislərindən bir heyət Azərbaycanı tədqiq üçün getmiş idi. Bu heyət kəndi məruzəsində diyor ki:

"Türküstan ilə Kürdüstan arasında Azərbaycan mahallarında çini və zürüfat kibi qədim türk asari-ətiqəsinə təsadüf edildi. Hətta bəzi sikkə və kətəbələr üsərində uyğurca yazılar vardı". (Uyğur əski Azərbaycan hökumətinin rəsmi lisanı olmuşdur).

Eyni professor ingilis üləmasının əsərlərindən birisindən nəql ediyor ki:

Turan həqqindəki tədqiqat getdikcə genişləniyor, Asiyasivüstanın hər tərəfində bu millətin əsərlərinə təsadüf olunuyor. Burası bizcə mühəqqəqdir ki, İranın ətrafı türklərlə mühat olub qədim iranilərin (arini-qədim) ilk müharibəsi Azərbaycan türkləri ilə vaqe olmuşdur.

Məzkur professor diyor ki, türklərin iranilərdən daha əvvəl Azərbaycanda sakin olduqları adla və bir ahin ilə sabitdir. Professor Nikela Qrabilsin təlif elədigi "Məsələi-şərqiyyə" nam kitabında (61-64-cü səhifələr) arinlərin Azərbaycandakı ərzi və ati olduğu haqqında bir çox sübut və dəlillər vardır və Azərbaycan həmişə türklərin olmuşdur. Bunu tarix asanlıqla isbat edər.

Tarixi-qədimdən əldə mövcud olan nə varsa yunanlılardan nəql olunmadır. Tövrat ilə bəzi ortadan itmiş İran və hind asarından sərfi-nəzər yunanlılar müfrit bir təəssübi-milliyyə bəslədiklərindən və şərqi-qədim lisani-tarixiyyəsinin ədəmi-müsaidəsindən dolayı tarixi bir çox əfsanələr və yalanlarla doldurdular.

19-cu əsrə qədər tarixi-qədim haqqında yunan asarından başqa əldə bir vəsiqə yoxdur. 19-cu əsrin tülüündə bir çox ingilis, firəng və alman üləmasının himməti ilə keçmişin ölü dilləri həll olunaraq bu vasitə ilə asari-qədimədən mövcud olmayan bir çox tarixi həqiqətlər açılmış oldu. Kətəbələr kəndisinə heç bir əl sürülmədən samit və sabit bir halda qədim dövrlərin sərgüzəştini bizə nəql ediyorlar.

Avropa üləması kəşf olunan bu kətəbələr sayəsində bilmişlər ki, Kildə və Assur dövlətlərinin təşkilindən əvvəl və aryanilərin qərbə doğru olan hərəkatlərindən daha müqəddəm Orta Asiyada digər millətlər sakin olmuşlardır. O millətlərin dilləri tədqiq olunduqdan türk cinsinə mənsub olduqları və bu günlər türklərlə həmcins olduqları aşkar oluyor.

Bu millətlərdən akkad-sumer denilən bir qismi Beynülnəhrində, hitlər Anadoluda, uradhular Azərbaycanda mütəvvətən olmuşlar. Kilikiya, Beynəlnəhrin və Azərbaycanda bir çox kətəbələr bulunmuşdur ki, üləma onlardan bəzisini oxuya bilmişlərdir.

Bu kətəbələrdən sabit olmuşdur ki, məzkur millətlər böyük bir mədəniyyətə malik olmuşlar. Vəqta tarixi müəyyən olmayan bir zamanda övladi-sam cəzirətüləərəb akkadsumerə həmlə edib onlarla ixtilat edərək Hammurabi-Akkad mədəniyyətinin əsasını vəz etdilər. O zamanlarda ariya millətləri şərqdən hücum edərək nagəhani bir istila nəticəsində urarduhu və heyət millətlərini məhv edərək ermənilər Azərbaycanda, frakiyalılar da Anadoluda sakin oldular. Oksford darülfünununun aliqədr professorlarından Says diyor ki:

"Turanilər bu böyük mədəniyyətin əsasını vəz etdilər, məqsəd növi-bəşərin mədəniyyət övliyasıdır ki, əgər iranilər onu məhv



etməsəydilər bizə ondan böyük yadigarlar qalacaqdı. Fəqət İran istilası bu təməddünü məhv elədi. İranilər ancaq kəndi məmləkətlərində bir əsəri-təməddün göstərə bildilər. Yoxsa mütəvaliyən icra olunan hərblər nəticəsində müştərək bir urarduhu-İran mədəniyyətini vücudə gətirəmədilər[2].

Üləmanın bəzisinin əqidəsi bu mərkəzdədir ki, kürd, gürcü, talış urarduhu nəslindəndirlər. Urarduhu ləfzi ilə kürd ləfzi arasında şəbahəti-tammə vardır. Bu millətlər kəndi istiqlaliyyətlərini qeyb etdikdən sonra İran mədəniyyətinin qarşısında duramayıb məhv olmuşlar. Sitlər daima Azərbaycanı fəth eləmək qəsdində olmuş, yeni təərrüzlərdə bulunmuşlar. Onlardan bir qismi Azərbaycana daxil olub İran din və əxlaqını qəbul eləmişlərdir.

Bu mütaliədən məlum oluyor Turan millətləri mütəməddin idilər və Avropanın məruf üləmasının dediginə görə Babil mədəniyyəti Turan mədəniyyətinin bir surəti-mütəkamili idi. Böylə ikən "İran" qəzetəsinin bu üstə-vürudi moğol – deyə yazması mucibi-heyrətdir. Görünüyor ki, qəzetə bu xüsusda Mətinülsəltənəyə nəzirə yapmışdır. Mərhum Mətinülsəltənə qeyrətinin şiddətindən xuddarlıq edəməyib vəhşi türklər islamı məhv və nabud etdilər – deyə yazmışdı.

Halbuki münsiflər təsdiq etdilər ki, türk millətinin islama olan xidməti heç bir zaman unudulmaz. Türklərin səlibiyyunə qarşı müdafiəsi, Təbristanı islavlardan təmizləmələri (6-cı əsr Kamil cild, 11 və 12) (Batu) bu xüsusdakı qəhrəmanlıqları ki, onun sayəsində islavlar bir boyuna 5 yüz sənə artıq hərəkət edəməz oldular. İslam hüdudunun Kiyev, Varşu, Krakov, hətta Vyana hasarlarına qədər dayanması və səkkiz milyon hindlilərin müsəlman edilməsi ki, bu gün dəxi onlar müsəlman aləmi haqqındakı dad və fəryadlarının nə dərəcədə müəssir olduğunu görüyoruz, əcəba, bunlar türklərin xidməti degilmidir? Oğuz, Tümən, Atilla, Çingiz, Teymur, Fatih-Səlim, Süleyman, Nadir, Ağa Məhəmməd xan kibi sərdarlar, Çingizin yasası, Teymurun tüzükü kibi qanunlar, səlimlər qanununun əsəri əcəba unudulurmu?

⚙ ⚙ ⚙

Ərəb istilasından sonra Azərbaycan; ərəblərin istilası zamanında Azərbaycandakı türklər sulublarla urarduhu bəqasından ibarət idilər. İran məzhəbi ilə adət və əxlaqi onlara nüfuz eləmiş idi. Rəşid və Mamun zamanlarında iranilər xülafa dərbarında böyük nüfuz qazandılar. Bu nüfuz bir dərəcəyə qədər irəriləmişdi ki, əgər Mötəsim tədbir görməsə bütün ərəb hökumətinin iranilərə intiqal etmək qorxusu vardı. Türklərdən ibarət məxsusi bir qoşun təşkil edərək bu vasitə ilə Mötəsim farsların nüfuzunu kəsr eləmişdi. Fəqət ərəblər bundan müstəfid olamıyaraq aralarına əvvəlkindən daha ziyadə bir ixtilal düşdü. Bir dərəcədə ki, türklər istəmədikləri xəlifəni əzl ediyor, yerinə istədiklərini nəsb eliyorlardı. Buna görə də xüləfa məcbur oldular ki, türk qoşununu paytaxtdan uzaqlaşdırıb sərhədlərə göndərsinlər. Bunlardan bir qismini islav-qıpçaq qabağını saxlamağa göndərdilər. Bunlardan bir qismi Azərbaycanda qalaraq Xistənyan və sairə kibi Azərbaycan hökuməti təşkil etdilər, o zamanlarda səlcuqilər Xorasandan gəlib Azərbaycanı tutdular. Azərbaycan bu sülaləyə intiqal elədi. Səlcuqilərin intiqrazında səlcuq şiələrindən olan Atabəylər Azərbaycanda səltənət etdilər. Ülfi və kamil tarixlərindən məlum oluyor ki, Atabəylər zamanında türk xanəvadələrindən bir çoxu Türkistandan Azərbaycana gəlib burada sakin olmuşlardır. Qıpçaq səfərində bu müsəlman olmuş türklərdən bir çoxu ərəb ordusunda idi. Fəqət məlum idi ki, Azərbaycan düşmənləri bulunan ermənilərlə debilmələlərə qarşı müqavimət edəmiyəcəkdi. Bu sıralarda idi ki, Azərbaycan yarlığı Qaani-əzim tərəfindən Hülaküyə vagüzar olundu. Hülakü müxtəlif türk qəbiləsindən 32-ni ayıraraq Bağdad ilə Azərbaycan səmtinə rəvanə qıldı. Bütün Turanda zəfər təranələri çalındı. Car çəkildi ki, Purçəkin xanəvadəsinin ən şücaətli bir cavanı Qərbi Turanı mühafizə eləməgə gediyor. Elxani-əzim Bağdaddan Azərbaycana gəldi. Türk qəbilələrindən ötrü qışlaq və yaylaqlar təyin elədi. Bu günlər Azərbaycan milləti təşkilatının ovci-əlaya yetişdigi günlərdi. Elxan Marağada ikən dari-əqbayə rəhlət etdi.



Nəvələri Qazan xan ilə İlcaytu Azərbaycan millətinin rüknini möhkəmlədərək onu dini-islamla qüvvətləndirdilər. Xacə Rəşiddədinin yazdığına görə bir dəfə 200.000, digər dəfə 400.000 türk islama müşərrəf oldu. İslavların (rusların), ermənilərin, gürcülərin, sonra da Cəbə və Səvidi nam cəngavərlərin istilası ilə hasil olan qətliamlar vasitəsilə Azərbaycanın farsları məhv olmuşlardı. O gündən bu günə qədər bir ovuc ermənidən savayı bütün Azərbaycan əhalisi türk və müsəlmandır. Sultan İlcaytu Azərbaycanda bir takım təcəddüdlər vücudə gətirdi. O cümlədən olaraq Azərbaycan paytaxtını Marağadan Soltaniyyəyə köçürtdü. Məəttəəssüf ki, sindibad həvadisə qarşı bu bina davam edəməyib məhv oldu.

Bu gün Azərbaycanın o böyük o paytaxtından bir məzariqübbə qalmışdır. Bu qübbə illərin təsirinə müqavimət edərək qalmışsa, ixlafın naxələfligi üzündən o əsər dəxi xərabəyə üz tutmaqdadır. Hər sübh günəş o qübbə üzərinə tülu edərək inikasatı ilə bizə türk millətinin fütuhat və iftixaratını yad etdiriyor. Azərbaycan Elxanian sülaləsinin inqrazından sonra Çobanian sülaləsinə intiqal ediyor. Bunlar Azərbaycanı idarədən aciz qaldıqlarından qəbilələrdən bir çoxu babalarının qədim yolunu tutaraq Anadoluya köçüyorlar. Teymurun zühuri və Anqara vaqeəsindən sonra bu qəbilələrdən bir çoxu təkrar Azərbaycana ovdət ediyorlar. Bədə Şeyx Səfinin irşadati ilə şiə məzhəbi qəbul edib, Anadoludakı qardaşlarını da bu məzhəbə daxil etdiriyorlar.

Şah İsmayılın zühurundan sonra Anadoludakı azərbaycanlılar Şah Abbasa köməgə gəliyorlar. Fəqət Osmanlı hökuməti bunlara mane olduğundan bir qismi Anadoluda qalıyorlar (bu gün Osmanlı azərbaycanlıları Amasiya və Anqara vilayətlərində 500.000 miqdarında olub kəndilərinə qızılbaş denilməkdədir). Elxan sülaləsinin inqirazından sonra sonra Şah İsmayıl əfşar qəbiləsini Xəmsə, Marağa, Qarabağ və Şirvan vilayətlərinə, qacar qəbiləsini də Səlmas, Gəncə və İrəvana məmur elədi.

Şah İsmayıl zamanında Azərbaycan ədəbiyyatı rəvac eləmişdir. Təqribən demək olar ki, Şah İsmayıl Azərbaycan ədəbiyyatının binasını vəz eləmiş və kəndi Divani-türkisini yadigar

olaraq buraxmışdır. O zamanın böyük şüarası Azərbaycan türkcəsinin ehyasına çalışmışlardır. Füzuli, Məsib xan, Təkəllü Şani, Təkəllü Sadiq Əfşar, Həsən Türkman və Yusif Qarabaği o zamanın türkcə yazar şairləridir. (Təzkirə Sadiq ilə Təxfeyi-Samiyə rücu oluna). Azərbaycanlılar səfəviyyə və əfşariyyə və onlardan sonra zamanında kəndi ədəbi-siyasi təşkilatlarını quruyordular. Bu zamanda rus militarizmi həmlə edərək Azərbaycanın bir qitəsini digərindən ayırdı, möhtərəm şəhid Cavad xan ilə İbrahimxəlil xan, Mirhəsən xan və sair bu kibi qəhrəmanların rəşadət və müqaviməti istilanı qurtara bilmədi. Azərbaycanın qismi-şimalı yüz sənədən ziyadə rus əsarətində qaldı, tainki hürriyyətin sədayi-fərhəfzası üfiqi-aləmdə tərənnümsaz olub Rusiya militarizmi elani-iflas elədi, bunun üzərinə Azərbaycan məmləkəti təkrar qəddini düzəldərək təmami-aləmə elani-istiqlal etdi. Bu üçüncü dövrədir ki, azəri türkləri kəndi azadlıqlarının binasını qurmaq üçün və azadlıq düşməni olan Azərbaycan düşmənlərinin dəfi üçün mübarizə ediyorlar. Əlbəttə ki, edəcəklər və kəndi cavanlarının fədakarlığı sayəsində Azərbaycan istiqlalını paydar etməklə müzəffər olacaqlardır.

Azərbaycanlı qardaşımızın tərcüməsi, yuxarıda məzkur bu məqaləsinə "İran" qəzetəsi uzun-uzadıya cavab veriyor. Bittəbii onun dəlil və sübutları ilə müvafiqət edəmiyor. Bu xüsusda ayrı bir vəqt.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 26 həziran (iyun) 1919, №212**

Qəzavat – dini məhkəmə, qazılıq
Tarəm - ən yüksək
Təqaza – lazım gəlmə, tələb, lüzum
Məhlikə – qorxulu, təhlükəli
Fəzilət – bilik
Züruf – qablar
Çini – Çində düzəlmiş, əla növ saxsı qab-qacaq
Kətəbə – kitab, lövhə
Mühat – əhatə olunmuş



Təlif – yazılmış kitab, əsər
Ərəzi – əsli olmayıb sonradan əmələ gələn
Ati – ön, qabaq
Mütəvvətin – bir yeri özünə vətən edən, bir yerdə yaşayan
Aliqədr – yüksək dərəcəli, hörmətli
Mütəvali – mütəmadi
Şəbahət – oxşarlıq, bənzərlik
Müəssir – təsirli
Kəsr – sındırma, qırma
Müstəfid – faydalanan, istifadə edən
İntiqal – keçmə, nəql etmə
Xanəvadə – nəsil, say
Rəhlət – köç, hərəkət, məcazi: ölüm
İnqiraz – sonu kəsilmə, məhv olma

1) Bu xüsusda şübhələri olanlar İstaxiri, Müqəddəs, Yaqut, Əbuülqəda, Sədulla, Hafiz, Kitabi-Cəlaliyə rücu buyursunlar.

2) Turanın qədim təməddüni həqqində aşağıdakı kitablara müraciət oluna

## Mənzil və həcz məsələsi ətrafında

"Müsavat" fraksiyası rəisi Rəsulzadə Məhəmməd Əminin həcz məsələsi ətrafındakı qeyri-adiliklər münasibətilə Daxiliyyə naziri həzrətlərinə böylə bir məruzə təqdim etmişdir:

– Daxiliyyə nəzarəti-cəliləsinə –

Həcz məsələsi son zamanlarda əndazədən xaric bir şəkil almış olduğu hər gün vaqe olan müraciətlər və şikayətlərlə təsbit olmaqdadır.

Həddi-zatində ali hökumət məmurları ələlxüsus zabitani-əskəriyyə məxsus olmaq üzrə qəbul bir dərəcəyə qədər zəruri və dövlət müəssisələrindən ötrü müsəlləm görülən ev, oda həczi o dərəcə ümumiləşmişdir ki, o əmri-məxsusə məmurları, parlaman əzaları degil, hər növ xədaməti-mülkiyyə və zabitiyyə üçün ev odaları həcz ediliyor. Hətta vəqt olmuş ki, idareyi-rəsmiyyədə xidmət edən reminqtonistikalar üçün belə ixtiyar bir ailə dışarı çıxarılmışdır.

Həczlər son dərəcədə ədalətsiz bir surətdə icra olunaraq bütün ailəyi adətən küçəyə tökmək surətilə vaqe oluyor. Öylə olmuşdur ki, bir ailə bir məmurun xatiri üçün sokaka atılmış, digər bir xişinin evinə sıxılmaq istədikdə orası da həcz olunaraq iki ailə birdən dışarıda qalmışdır.

Bu surətlə vaqe olan həczlər eyni zamanda ev sahiblərinin və bir takım ev icarədarlarının dəxi spikulyasiyasından xaric qalmıyor. Bir kirayənişin əlində "aciz" qalan ev sahibi əksərən məmurin ilə münasibata girişərək odasını "həcz etdirməklə" ticarət ediyor.

Həcz məsələsi o dərəcədə asan bir şəkil almış və ümumi bir hala gəlmişdir ki, əksərən məmurlar mənzil sahibi ikən məhzən kəndisinə xoş gələn digər bir mənzilə sahib olmaq üçün həcz vasitəsinə müraciətdən çəkinmiyorlar. Bəzi idarələrin məhzən məmurları kəndisinə yaxın olsun deyə o həvalədəki odaların idarə məmurları üçün həcz edilməsini tələb edərək həcz komisyonuna müraciət elədigi vaqe olmuşdur.



Böylə bir haldan mütəvəllid suyi-müamilənin və bu müamilədən doğacaq ümumi mənəviyyətsizligin əfkari-ümumiyyə üzərində nə kibi bir suyi-təsir hasil edəcəgini və xalqın hissiyyati-hüquqpərvəranəsinə nə dərəcədə bir xələl verəcəgini əlbəttə təqdir edərsiniz.

Bu son dərəcə müxəlli-hüquq və heysiyyəti-dövlətlə namünasib olan əhvalın önünü almaq üçün atidəki tədbirlərin icrası ümuri-alilərinə aiddir.

1- Rəsmi idareyi-əskəriyyə və mülkiyyədən başqa bir müəssisə və ya şəxs üçün, o şəxs hanki bir məqam və məmuriyyəti haiz olsa da ev və ya oda həczini qətiyyən mən etmək yalnız nazirlər bu qanundan bəlkə müstəsna tutula bilər.

2- Həcz məsələsi bir zərurət halını aldığı zaman ailəyi tamamilə evdən çıxarmaq degil, heç olmazsa uplotneniye deyilən sıxışdırma üsuluna müraciət edilsin.

3- Həcz olunacaq ev və ya odanı boşaltdırmaq və yaxud sıxışdırmaq üçün ev və ya oda sahibinə 5 gündən 1 aya qədər möhlət vermək lazım.

4- Hər halda bir ailəyi 3 gün və ya daha az bir müddət zərfində tərki-məskən etdirmək qədər şiddətli bir tədbirə müraciətdən qismən imtina etmək.

Bu xüsusda sərih bir tədbirin ittixazına lüzum vardır, yoxsa ərkani-hürriyyətdən olan məsuniyyəti-məskən məsələsi Azərbaycan Cümhuriyyəti paytaxtında əngüşt halına gəlmiş bir hal kəsb edərək münafirəti-amməyi mucib olur.

**"Müsavat" fraksiyası**
**rəisi: Məhəmməd Əmin Rəsulzadə**
**Əslinə mütabiqdir: katib imza**

**"Azərbaycan", 21 ağustos (avqust) 1919, №257**

Cəlil – hörmət sahibi
Həcz – müsadirə

Xiş – qohum-əqraba
Müxəlli – boşaldan, boşaldıcı
Mən – qadağa
Ənguşt – barmaqla göstərilən
Münafirəm – bir-birinə nifrət etmə
Ammə – kütlə



## Ərazi məsələsindəki müvəffəqiyyətimiz

Lənkəran düşmənlərdən təmizləndi.

Muğana çəkilən xaxollar Azərbaycan ordusunun vürudi üzərinə silahlarını təslim etməgə başladılar.

Qarabağ ermənilləri Azərbaycan hakimiyyətinə boyun qoydular.

Naxçıvan, Şərur və Dərələgöz qəzaları haqsiz olaraq kəndisinə təhəkküm etmək istəyən erməni soldatlarını məmləkətdən çıxartdılar.

İşdə mətbuatı-milliyyənin son həftələr içərisində nəşr etməkdə olduğu mühüm xəbərlər silsiləsi.

Azərbaycan Cümhuriyyətinin ərazi məsələsindəki maəql tələbatı ilə aşina olanlar bu xəbərləri oxurkən hökuməti-hazirənin müvəffəqiyyətini təslim məcburiyyətində qalacaqlardır.

Deмək olur ki, kabinə proqramının bu fəsli haman-haman tətbiq edilmişdir.

Bu nöqteyi-nəzərdən bundan doqquz ay əvvəlki vəziyyətimizlə şimdiki vəziyyətimiz müqayisə edilərsə görünür ki, bir çox bədbinlərin təsəvvürü ilə imdiki böyük bir müvəffəqiyyət Azərbaycan xəlqinin nəsibi olmuşdur.

Doqquz ay bundan müqəddəm ümumi vəziyyəti-siyasiyyənin dəgişməsi ilə ingilislərin Azərbaycana qədəm qoyduqları zaman bütün mövcudiyyətimiz təhlükədə təsəvvür oluyor, daxilən dəxi Qarabağ, Lənkəran, Borçalı kibi vətənin ayrılmaz parçaları bizi tanımayan yabançı əllərdə bulunuyordu. Naxçıvan, Şərur və Dərələgöz qəzaları ilə Sürməli və sair bu kibi Azərbaycan əhalisi ilə məskun olan vilayətlərimizin müqəddəratı dəxi mərkəzdən uzaq olmaları həsbilə olduqca qaranlıq bir şəkildə idi.

Bu gün ingilisləri dostanə bir şəkildə yola saldıqda ərazi məsələmizin də daha müvafiq bir şəkildə həll edilmiş olduğunu görüyoruz. Təbii fövqdə zikr olunan məsələlərdən başqa ərazi proqramına daxil olub bir an əvvəl həllini tələb edən Zəngəzur məsələsi ilə Borçalı məsələləri vardır.

Fəqət bunlardan birincisi yaxın bir zamanda həll olunacağı kibi o birisi də müttəfiqlərimiz Gürcüstan ilə sülhən həll oluna biləcək bir hala qoyulmuşdur. Hər halda bu məsələ bizi kəndisi ilə bərabər daha mühüm bir təhlükeyi-ümumiyyə qarşısında bulunduğumuz və bu təhlükənin rəfi üçün silah arkadaşı olduğumuz Gürcüstan ilə pozuşduracaq mahiyyətdə degildir.

Şu surətlə Nəsib bəy kabinəsi başlıca məqsədləri içərisində ən mühimini təşkil edən ərazi məsələsini əsasən həll etmiş kibidir.

Şimdi ərazi məsələsi degil, Azərbaycan üçün hüdudunu təyin və təmin etmək məsələsi qalıyor ki, bu bir tərəfdən zamanə, digər tərəfdən tədabili-siyasiyyəyə və ələlümum da qüvayi-əskəriyyəyə bağlı bir məsələdir.

Təbiidir ki, kabinəsinin digər xüsusatı-idarədəki gördüklərini bir tərəfə qoyub yalnız bu xüsusdakı tətbiqatını alırsaq kəndisini təyin ilə iki məqsədlərinin yüzdə əllisində müvəffəq olduğuna hökm etmək məcburiyyətindəyik.

Kabinənin bu xüsusdakı müvəffəqiyyəti heç şübhəsiz ki, əskəri təşkilatımızda göstərilən fəaliyyətlə müvəffəqiyyətə bağlıdır.

Bundan dörd ay əvvəl əskərlərimizdə fərarilik vardı. Xəlq lazım olduğu həvəslə əskər vermiyordu. Təşkilati-əskəriyyəmizdə nöqsan vardı. Bilxassə xəstəlik əskərləri qorxuduyordu. Əskərlər iaşələrindən şikayət ediyorlardı.

İştə o zaman Azərbaycan Cümhuriyyətinin təlimati-mülkiyyəsi də təmin edilmiş degildi. Şimdi tamamiyyəti-mülkiyyəmiz felən təmin edilməgə mütənasib olaraq qüvayi-əskəriyyəmizin kəmiyyət və keyfiyyətini nəzəri-etinaya və mühakiməyə alırsaq görüyoruz ki, bu iki hal arasında bir növ münasibət vardır.

Ordumuz əlhəmdülillah sağlam, fərarimiz yox kibi, xəstəliklər yox, məmləkətin nöqteyi-mühimmisində ümidli olaylar duruyor. Lənkəran, Qarabağ, Naxçıvan təslim oluyor.

Bu gün deyə bilərik ki, qismi-küllisində təmin edilmiş olan Azərbaycan ərazisi üzərində yaşayan türk xəlqində getdikcə möhkəmləşən fikri-istiqlal və fədakarı nəticəsində cümhuriyyətimiz daxili əngəllərdən təmin edilmişdir.



Bu gün bütün xəlqimizi, hər bir vətəndaşı əndişədar edəcək bir məsələ varsa, o da Şimaldakı qüvvənin təhdididir. Fəqət daxildəki məsələmiz həll olunduğu bir zamanda bu kibi təhlükələr istiqlalını göz bəbəyi kibi qorumağa and içmiş olan bir millət üçün qorxulu olamaz.

Yetişər ki, hökumət idarəsi ilə əlaqədar olan bəzi siyasi məhfillərimiz ümuri-idarədəki əsaslı müvəffəqiyyətləri gözdən uzaq buraxıb da əksərən prinsipdən ziyadə bir takım şəxsi təmayülatə qapılıb siyasət oyunu çıxartmasınlar.

Bitərəf xəlq əlbəttə görüyor ki, bu qədər dedi-qodularla bərabər hökumət tutduğu yol ilə ciddiyyətlə gediyor və digər məsail arasında pək həqli olaraq məsələnin canını təşkil edən xarici siyasətlə ərazi məsələlərində gündən-günə müvəffəqiyyətlərə nail oluyor. Böylə iki yeni böhranlar törətməgə mətlub olan "tənqid"lərin cavabı nə olduğunu əfkari-ümumiyyə kəndisi verər.

**"Azərbaycan",**
**28 ağustos (avqust) 1919, №262**

# Məsuliyyətimiz artdı!

Məqaləmizin ünvanını oxuyan qarelər, əcəba, nə oldu? Könül arzu etməyən bir hadisəmi oldu? – deyəcəklərdir.

Fəqət heç də təlaş edilməsin: könlü rəncidə edəcək bir hadisə yox, biləks sevincli vəqələr vardır!

Bir il altı aydan ziyadə ana vətəndən ayrı düşüb müxtəlif rəngli macərapərəstlərin əlində əsir qalan Lənkəranımız, o ərzaq ambarımız lillahülhəmda əda əlindən qurtardı. Yeni ordumuzun ilk səfəri müvəffəqiyyətlə keçərək Muğanda bərkişən igirmi minlik silahlı rus qüvvətini təslimə məcbur edərək onlarca top, pulemyot və minlərcə tüfəng, fişəng və mərmilər aldı.

Qarabağ, vətənimizin o gözəl bucağı həyati-iqtisadiyyəmizi parçalayan, sularımızın başını tutaraq bizi fəlc bir halə qoymaq istəyən inadlı qomşularımızın israrından qurtardı.

Fəzlə qanlara məhəl vermədən erməni əhalisi məsələnin sülhən həllini iltizam edərək Azərbaycan hakimiyyətini qəbul etdilər.

Naxçıvan, şəraiti-təbiiyyəsi ilə həqiqətən də "nəqşi-cahan" olan o Azərbaycan ölkəsinin ayrılmaz qitəsi qəhrəman və fədakar övladının himməti sayəsində aldanaraq ayrı düşdügü vətənə qovuşmaq üçün üsyan həqqindən istifadə etdi. Naxçıvan asi Ermənistan ordusunu hüdudu xaricinə atdı.

Ortada ürək ağrısını və məqsədlərimizi təhdid edərək duran Zəngəzurun da yaxın zamanda zərərsiz bir halə qoyulub Astara çayı və Samur köprüsündən tutub, Araz nəhri ilə Culfa köprüsünə qədər maneəsiz bir yol açılacağını ümid edə biləriz.

Azərbaycan ərazi mətalibi bu surətlə qismi-mühümi ilə həll edilmiş deməkdir. Cümhuriyyətimizin hakimiyyəti təhtinə keçən və ərazi daxilində zamanımızdakı əhvali-fövqəladəyə nəzərən nisbi bir əmniyyət və intizamın dəxi hökmfərma olduğunu inkar olunamaz.

Böylə bir zamanda məmləkətimizdə bulunan xarici ingilis qüvvəti neçə gündür ki, toprağımızı tərk edib getmişdir. Ayın



26-dan etibarən Azərbaycan həqiqətən də müstəqil olub kəndi qüvvətinə qalmışdır.

Bu günə qədər İngiltərə komandanlığının buradakı hüzuri idareyi-məmləkətdəki məsuliyyətimizi bizimlə bölüşüyordu. Bu məsuliyyət təqsimi yalnız maddi və müəyyən şeylərdə degil, mənəviyyatda da vardı. Xəlqin ruhiyyatı bilxassə **türk olmayan azərbaycanlıların mənəviyyatı üzərinə bunun böyük bir təsiri vardı.** Halbuki imdi iş böylə degildir. Tamamilə özümüzə buraxılmış bir haldayız.

Bu vəqtə qədər Azərbaycan daima xarici bir qüvvət sayəsində durmuşdur. Bir zaman türklər gəldilər, bizi mühəqqəq ölümdən qurtardılar. İngilislər zamanında idarə və hürriyyətlərimizin daha ziyadə kökləşməsinə çalışa bildik. Kəndi qüvvətimizə inanmayan bir çox süst ünsürlərimizlə düşmənlərimiz bu dövrlərdəki müvəffəqiyyətlərimizi özümüzdən ziyadə xarici təsirlərə bağlamaq istiyorlar. İngilislər olmasaydı bunu yapamaz, onu doğrultamaz, öz qüvvətinizlə idarə edə bilməzdiniz; diyorlar. Bunu burada bizim üzümüzə qarşı açıq degil, kinayə ilə ehsas etdiriyorlarsa da, xaricdə, Avropada müttəfiq qəzetələrində aşkara söylüyorlar. Diyorlar ki, azərbaycanlılar asiyalı bir millətdirlər. Özlərini hürriyyətlə idarədən acizdirlər. Hələ xristian millətlərini heç idarə edə bilməzlər.

Bu, həqqimizdə söylənən böhtanların ümumi bir şəkli-ifadəsidir. Yoxsa düşmənin qələmindən, dilindən çıxan böhtanları nəql edəcək olursaq tüklər ürpər.

Bu böhtanları daha əvvəlcə də söyləmişlərdi. İngilislər buraya gəldikləri zaman o böhtanlarla zəhərlənmişlərdi. Bunun üçün də bundan doqquz ay əvvəl hissiyyatımıza toxunulmuş, mənəviyyatımız təhqir edilmişdi.

Fəqət əhval ilə vasitəsiz aşina olan avropalılar, əzcümlə ingilislər işin əksini gördülər. Və buradan gedərkən bizim ən iyi məruflarımız olaraq getdilər. Avropadan aldığımız xəbərlər dəxi İngiltərə mənabei-rəsmiyyəsi tərəfindən həqqimizdə verdigi məlumatın lehimizdə olduğunu təyid etməkdədir.

Fəqət imdi tamamilə kəndi-kəndimizə tərk edildigimiz bu zamanda məsuliyyətimiz daha ziyadə artır. Çünki görəcəgimiz işə müdaxilə edən yox, istiqlalımızı təhdid edən nə maddi, nə də mənəvi bir qüvvət var. Bu günə qədər olan müvəffəqiyyətlərimizi düşmənlər xarici təsirə çıxa bilərlərdi. Bu gün isə onu da yapamazlar.

İstiqlalımız təsdiq olunacaqmı? – bu bir sualdır. Fəqət istiqlalımız fеlən mövcuddur – bu bir həqiqətdir.

Bu həqiqəti hüsni-idarə edər, bu həqiqət zamanında özümüzün həqiqətən istiqlala şayəstə bir millət olduğumuzu isbat edərsək, o zaman əmin ola bilərik ki, yuxarıdakı suala müsbət bir cavab alacağız.

Bu sualın cavabı üçün daha bir neçə ay gözləmək lazım.

Ehtimal ki, üç-dörd ay sonra sülh konfransı Zaqafqasiya hökumətləri həqqində bir qərar verər. O qərar alıncaya qədər özümüzü həm daxildə zühur edəcək, həm də xaricdən gələ biləcək əmri-vaqelərdən qorumalıyız.

Bu xüsusda Avropa əfkari-ümumiyyəsi, bilxassə sülh konfransı və müttəfiq məhfilləri üzərinə icrayi-təsir edəcək vəqələr, heç şübhəsiz ki, hazırki vəziyyətin, imdiki nizam və asayişin mühafizəsi şərtdir. Fəqət şəraiti-nizam müsəlman olmayan millətlərlə olan münasibat və rəftarımız olacaq.

Düşmənlərimiz çoxdur – bunu biliyoruz. Düşmənlərimizin bizə qarşı ən böyük silahı bizi özümüzdən olmayan millətləri idarə edə bilməmək töhmətidir. Biz, bizdən olmayanları kəsər, qaba qarşılarmışız.

Bu isnadın sırf böhtan olduğu yenə Lənkəran, Qarabağ məsələləri ilə Gəncədə yaşayan ermənilərin bu günə qədər burunlarının olsa da qanamadığı ilə sabitdir. Fəqət bunu daha qüvvətli bir surətdə isbat etmək günləri şimdidir.

Bu şərtdən sonra məmləkətimizi daxili ixtilallardan, anarşidən, bolşevizm bəlasından saxlamaq dəxi böyük vəzifədir. Çünki bir an əvvəl Qafqasiyaya gəlmək istəyən Denikinin Avropaya qarşı məram anlatması üçün yeganə bəhanə "bolşevizm" bəhanəsidir. Məmləkətimizi bolşevizmdən əmin saxlarsaq bununla Şimal təhlükəsinə qarşı siyasi bir üstünlük qazanarız.



Üç-dörd ay bu surətlə məmləkəti idarə edərsək sülh konfransından bizi tanıyacaq bir qərar almaq ümidi pək o qədər də uzaq degildir. İngilis ordusu buradan gediyorsa da Avropa ilə münasibatımız qət olunmuyor. Sülh konfransı naminə Zaqafqasiya hökumətləri nəzdinə məmur olaraq amerikalı Qaskel təhtiriyasətində bir komissarlıq təyin edilmişdir. Qaskel Ermənistana gəlmiş, Gürcüstana gəlmiş, yaxında Bakıya da gələcəkdir. Bundan əlavə İngiltərə xariciyyə nəzarəti tərəfindən yenə Zaqafqasiya hökumətləri nəzdinə təyin olunmaq üzrə Vurdrop riyasətində bir heyəti-məxsusə göndərilmişdir. Vurdrop müstəşriqlərdən olub olduqca alim bir zatdır. Türkcə, gürcücə və ermənicəyə aşinadır. Vəzifəsi bu vəqtə qədər olan əskəri komandanlıqlar kibi degil, sırf siyasi və iqtisadidəndir. Bunlardan əlavə İtaliya hökuməti tərəfindən dəxi polkovnik Qappa təyin olunmuşdur. Bu dəfə Qappa komandanlığın degil, xariciyyə nəzarəti məmurudur.

Bunlar tamamilə Zaqafqasiya hökumətini tanımaq demək degilsə də, yarım tanımaq kibi tələqqi oluna bilər. Bilxassə Vilsonun sözlərini dəxi burada yada salmalıyız. Amerika Rəisi-Cümhuri Parisdəki sülh heyətimizlə görüşürkən Zaqafqasiyanın bir cümhuriyyəti-müttəfiqə şəklinə girməsinin daha ziyadə mətlub olacağını söyləmişdir. Sülh konfransı tərəfindən Rusiya hökuməti olaraq tanınan Kolçak komandanlığına dəxi Zaqafqasiya cümhuriyyətlərinin vəziyyəti-hazirəsinə təcavüz etməmək yolunda verilən dəstur bu nöqteyi-nəzəri işıqlandırmaqdadır.

Bu əlamətlər, əlbəttə, bizə ümid veriyor ki, hər halda Zaqafqasiya hökumətlərinin müqəddəratı Rusiyadan ayrı olaraq tələqqi edilər.

İştə bu əlamətlərə əhəmiyyət verərək əlimizə keçmiş istiqlal felimizi daha ziyadə ciddiyyət və əhəmiyyətlə müdafiə etməliyiz.

Ayın 26-dan etibarən millət tamamilə kəndi müqəddəratına kəndisi hakim bir vəziyyətdədir.

Bu vəziyyəti qan bahasına, can bahasına olsa da əldə saxlamaq boynumuzun vəzifəsidir.

Bir tərəfdən zövqi-istiqlal, digər tərəfdən vəzifə məsuliyyəti ilə böyük olan bu günlərdə hökumətə tədbir və qətiyyət, firqələrə həmiyyət və etidal, millətə ciddiyyət və fədakarlıq lazım.

Əvət, möhtərəm qarelər, istiqlalımıza felən nail olmaqla böyük bir zövqi-milli duyuruz. Fəqət bu zövq biliniz ki, məsuliyyətimizi artdırıyor.

Məsuliyyətdən qorxalım, vəzifə başına qoşalım!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 29 ağustos (avqust) 1919, №263**

Əda – düşmənlər
Mənabe – mənbələr
Müstəşriq – şərqşünas



# Haqq yerini tutan gün

Azərbaycan türkü mayısın 28-də istiqlalını elan eləmiş, sentyabrın 15-də qasiblər əlində inildəyən paytaxtını xilas etmişdir.

Mayısın 28-i Azərbaycan cümhuriyyət tarixinin ibtida günü isə, sentyabrın 15-i o ibtida qədər qiymətdardır.

Sentyabrın 15-i vaqe olmasa yəqin ki, Mayıs 28-nin ibtidası bir səneyi-dövriyyəsini görmədən intəhayə varar, gedərdi.

Bakının Azərbaycan üçün sadə bir paytaxt degil, adətən əfsanələrdə söylənən bir "Can Şişəsi" olduğunu nəzərə alırsaq, həqiqi istiqlal gününün sentyabrın 15-i olduğunu qəbul etməliyiz.

Mayısın 28-də böyük bir haqq elan olunmuş, sentyabrın 15-də isə bu haqq yerini tutmuş idi.

Hər millət müstəqil olaraq yaşaya bilər – deyə dünyaya qarşı nümayişlər yapan bolşeviklər Bakıyı əldən vermək istəməmişlərdi. "Bakı sovet Rusiyasından ötrü lazımdır" – deyə Azərbaycan demokratiyasına qəsd etmiş, xoşbəxtliklərini türk bədbəxtligi üzərində quran qüvvətlərlə ittifaq bağlamış, mart hadisəsi ilə başlıyaraq Bakıda axıtdıqları qan seylabələrilə Azərbaycan atəşi-müqəddəsini söndürmək istəmişlərdi.

Fəqət Azərbaycan türkü tam bir məyusluq və ümidsizlik dərəcəsinə gəlmiş ikən üzünü böyük qardaşı Osmanlı türkünə çevirib istimdad istəmiş, qardaş səsinin ləbbeyk sədasını eşitmişdir.

Bir tərəfdə bolşevik, daşnaksakan, menşevik, kadet, daha sonra ingilis, əlavə olaraq alman qüvvəti, digər tərəfdə isə Türkiyə-Azərbaycan qüvvəti qarşı-qarşıya gəlmişdi.

Birinci tərəf Bakıyı Azərbaycandan ayırmaq surətilə siyasi bir qital icra etmək istiyor, digər tərəf isə son qətrə qanını axıtmaqla olsa da haqqı yerinə oturtmaq istiyordu.

Bugünki böyük bir gündə, Qurban bayramının ərəfəsində iki qardaş türkün türklük məfkurəsi məbudinə qarşı verdikləri qurbanlar qəbul olunaraq qanlara boyanmış, Bakı küçələri düşməndən təmizlənmiş, haqq yerini tutmuş idi.

Haqq yerini tutduğu bu gündə biz şühədayi-istiqlal və istixlasımızın böyük ruhu hüzurunda şükran borcumuzu ədа etməliyiz.

Bu gün yeni Cümhuriyyətimizin sütununu, ordumuzun paytaxtımız küçələrindəki yürüşünü görüb kökslərimizi qabartırkən şühəda qəbri üzərinə gedib də fatihə verməyi unutmamalıyız.

Onlar, o böyük vücudlar, tam vəqtində bir məlikeyi-nicat kibi yetişərək özləri öldülər, fəqət bizi ölümdən qurtardılar.

Onlar, bu ölümü istehqar edən böyük adamlar bizə yaşamaq üçün ölmənin nə məsud, nə şanlı, nə şərəfli bir xislət olduğunu öyrətdilər. Onlar, o fədakar insanlar Azərbaycan cümhuriyyətinin paydar olmasına, məmləkətimizin cəllad ceyşindən qurtulmasına səbəb oldular!

Şu qara topraqlar altında yatan Anadolunun Məhmədçiki Azərbaycanın hanki bir qarış toprağıdır ki, orayı kəndi fədakar qanı ilə yuyamamışdır. Bilxassə Bakı ətrafının hər hanki bir dərəsini, hər hanki bir təpəsini gəzsəniz, bir şəhid məzarına rast gəlirsiniz. Bu şəhid Çanaqqalayı köksü ilə müdafiə edən qəhrəman türkün igid qardaşıdır. İstanbulu müdafiə eləmiş, imdi də yeni bir türk hökumətinin paytaxtını – Bakıyı düşməndən xilas etmək üçün buraya qədər gəlmiş və şəhid olmuşdur.

Bu gün bu şühədanın məzarı üstündə bir abideyi-şükranın binası vəz olunacaq. Fəqət bilməm ki, bu ayda keçən il sentyabrın 15-də dul qadınların, yetim çocuqların, sevincli gəlinlərin bu xilaskar qardaşlara qarşı bəslədikləri hissiyyatı tamamilə təsvir və sabit edə biləcəkmi?

Haşa, azərbaycanlının sineyi-şükranında həkk olunan qardaşlıq xatirəsini nə bir usta həkk edər, nə də bir daş və yaxud tunc ona təhəmmül edər.

Bu gün bütün Azərbaycan-Qafqasiya İslam Ordusunun Nuru Paşa, Mürsəl Paşa komandalarındakı Osmanlı zabitan və əfradının xatirati-həzinilə həm şad, həm də məhzundur. Şaddır, çünki onların həmiyyəti, onların müavinətilə bugünki bayramı dərk eləmişdir. Məhzundur, çünki kəndisinə böylə bir səadəti qazandıran qəhrəmanların kəndi vətənləri, ana yurdları təhlükələr içində və bizim hürriyyətimizə səbəb olan o böyük vücudlar hal-hazırda hürriyyətdən məhrum bir haldadırlar.



Həqiqi istiqlalımızın guşə daşı qoyulduğu bu gündə, kəndi cəsədləri ilə binayi-istiqlalımızı təhkim edən qəhrəman millətdaşlarımızı salamlarkən onları yetişdirən o böyük Türk Vətəninin xilas və nicatı üçün səmimi dualarımızı bargahi-əhədiyyətə təvcih etməyi də unutamayız. Yalnız kəndisini degil, düşmənlər əlində qalıb həqqi paymal edilməkdə olan qardaşını dəxi müdafiə edə bilən bir millət müşkülat içində qala bilər, fəqət əmin olunuz ki, məhv ediləməz.

Əvət, həqq yerini tutduğu böylə müəlla bir gündə türklügün təmini-istiqbal və istiqlalı üçün ölən şühədanın böyük ruhu hüzurunda:

Əlimizə bir vədiə olaraq tapşırılan bayrağımızı qardaşlarımızın fədakarlığına imtisal edərək şərəf və namusla mühafizə edəcəgimizi əhd edəlim!

Biləlim ki, bu vasitə ilə biz həm türklügi qüvvətləndiriyor, həm müsəlmanlığa, həm də insanlığa xidmət ediyoruz.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 15 eylül (sentyabr) 1919, №274**

Qasib – qəsbkar
Müəlla – yüksək, uca
Ceyş – qoşun, ordu
Vədiə – əmanət

## Nəsib bəyin istefası münasibətilə

Sosialist bloku hökuməti tutan məbusan blokunda ikən idarənin can nöqtəsinə toxunan bir məsələdə, ümumi siyasət həqqində hökumətə əvvəlcə bir sual, sonra da bir istefa verdi.

Sual ittifaqda bulunan hökumətə iştirak edən firqənin həqqidir. İstefa isə parlaman üsulu ilə idarə olunur məmləkətlərdə müxalifət firqələri tərəfindən hökumətə qarşı istənilən bir vasitədir. Sualın məqsədi ələlümum əfkari-ümumiyyəcə işıqlandırılması lazım bir məsələdə hökuməti dindirmək və yaxud hökumətə bir takım ixtarat və irşadatda bulunmaqdır. İstefa isə həmişə bir takım müəyyən qanunsuzluqlardan bəhs edər ki, nəticə etibarilə etimad və ya ədəmi-etimad məsələsi ilə tamamlanır.

Müxalifətdə olan firqə hər fürsətdən bilaistifadə istefa həqqini icra etmək fikrində olur. Bu onun parlamanların tarixi, məşrutiyyət və cümhuriyyətlərin adəti ilə təsdiqlənmiş bir həqqidir. Müvafiqətdə olan firqələr istefa yapınca müxalifətə keçmək istədikləri təbiidir. Hələ eyni mövzuda verilən sualdan sonra qənaət hasil etməyib də istefa yapmaq başqa dürlü təvil olunamaz.

Fəqət bizim sosialistlər istefa yaparkən görünüyor ki, böylə düşünmədilər. İstefanı xəlqi tənvir üçün, hökumətin nə yapıb-yapmadığını öyrənmək üçün yapıyoruz degirlər və nəticədə formullarında nə etimad, nə də ədəmi-etimad göstərdilər. Etimadlarını məşrut buraxdılar. "Əhrar" fraksiyonu da "şimdilik" ədəmi-etimad göstərdi. Müvafiqət əsasına sadiq qalan yalnız "Müsavat" oldu. Hökumət blokunun xaricində qalan bitərəflərlə milli əqəliyyət nümayəndələrinin rəyləri "Müsavat" məbuslarının rəyinə intizam etməmiş olaydı, Nəsib bəyin kabinəsi siyasəti-ümumiyyədəki müvəffəqiyyəti-amməsinə rəğmən bilaşərt və qeyd etimad qazanmayıb bittəbii haman tərki-mövqe etmək məcburiyyətində qalacaqdı.

Şəkil və rəsmiyyət etibarilə Nəsib bəyin kabinəsi parlamandan etimad almış və ələlüsul istefa üçün qanuni bir səbəb yoxdur. Fəqət böylə olmaqla bərabər hökumət rəisi-möhtərəmi kəndi mövqeyini möhkəm görməyərək mənən rəskarda qalamıyacağım qeydlə istefa ediyor. Bu xüsusda Nəsib bəyə həqq verməmək mümkün degildir.

Çünki kabinə istinad elədigi firqələrin kamil bir etimadına malik degildir. Çünki siyasiyyəti-ümumiyyə və bilxassə siyasəti-xariciyyə məsələsindəki hökumətə iştirak etməyən bitərəflərin etimadı "Müsavat" firqəsinə bu dəfə zahir çıxdısa, nə məlum ki, digər xüsusi bir məsələdə bərfərz daxili məsail idarədə dəxi bu müzahirat təmin ediləcəkdir. Kəndi ordusunun degil, kəndisinə təsadüfən iltihaq edən müxtəlif və yaxud bitərəf qüvvətlər sayəsində müzəffəriyyət qazanan bir komandan hər halda kəndisinin ani bir hücuma məruz qalacağından qətiyyən əmin olamaz. Böylə bir əmniyyətə malik olmayan komandan kəndi işini iyi bilir bir məziyyətdə isə lazım gələn manevrayı yapmalı, istinad edilə biləcəgi qüvvətləri yoxlamalıdır.

İştə böylə bir yoxlama üçün Nəsib bəy əfəndi istefa etdi.

° ° °

Nəsib bəy əfəndi ilə istinad elədigi parlaman bloku arasında çıxan soyuqluq əcəba, Nəsib bəy kabinəsinin siyasəti ilə əfkari-ümumiyyə arasındakı əlaqəyə tərcüman ola bilərmi?

Qətiyyən degil, bu istefa Nəsib bəyin əfkari-ümumiyyəyə qarşı ədəmi-müvəffəqiyyətindən degil, biləks blokun ifratçıları ilə mötədilləri arasında çıxan ixtilafın bir nəticəsidir. məlum olduğu üzrə Nəsib bəy həzrətləri mötədil cərəyanın kamilən etimadını qazanmış müfrətlərin yalnız yarım etimadlarına məzhər ola bilmişdi.

Parlaman xaricindəki məhafili-sayasiyyə və milliyyənin təmayülləri nəzərə alınırsa Nəsib bəyin işbu istefası nəticəsində daha möhkəm və daha mətin bir mövqe tutacağıdır. Əfkari-ümumiyyə Nəsib bəyin siyasətinin səmimi təqdirkarıdır. İstefa xəbəri hər tərəfdə təəssüflərlə tələqqi olunmuş, bu xəbər təbəqati-nas arasında bir çox həyəcanlar salmışdır.

Nəsib bəyin istefası qəbul olunmaz deyə cəmaətin imdiki təmayülatı ancaq öylə təlxis oluna bilər.

Nəsib bəyin parlaman firqələrindən ötrü məqbul bir rəisi-vükəla olacağı şübhədən ari kimidir. Hətta şimdiki kabinə və siyasətinə yarım etimad göstərmiş olan firqələr arasında belə hal-hazırda Azərbaycan üçün kəndisindən daha müvafiq bir heyəti-nəzzar rəisi təsəvvür olunmamaqdadır.

Ortada bir kabinə böhranı da yoxdur. Çünki Nəsib bəy ilə heyəti-nəzzar arasında dəxi bir ixtilaf yoxdur. Təqib elədigi siyasəti-ümumiyyə hər halda kəndi arkadaşları tərəfindən etirazı mucib olmamışdır.

Demək ki, ortada yalnız bir parlaman zəifi vardır. Hökuməti-haziraəyi təşkil edən parlaman mərkəzi arasındakı ixtilaf bərtərəf olub və yaxud yeni daha mətin və daha təbii bir mərkəz vücud bulursa hökumət böhranı da bitər.

Böylə bir mərkəzi istəyənə Nəsib bəy və onun bu günə qədər təqib elədigi məsləki-siyasi vücuda gətirə bilər.

Demək ki, Nəsib bəy rəsmən istefa etmişsə də, fələn etməmişdir. İstefa edən hökumət firqələrinin arasındakı anlaşılmazlıq, biri-birindən böyük firqələrlə ayrılan ixtilafi-nəzərdir.

Parlaman işin burasına əhəmiyyət verməli, bir an əvvəl qüvvətli bir hökumət təşkilinə səy etməlidir. Bunun üçün lazımdır ki:

Nəsib bəyin istefası rədd, hökumət məsləkindəki nəzəri-ixtilafların istefası isə qəbul olunsun!

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 17 eylül (sentyabr) 1919, №275**



# Qurtuluş günü

Eylülün 15-də Bakı bir böyük gün daha keçirdi.

Bu gün millət qəhrəman şühədanın bir illik səneyi-xatiratını qabarıq hisslərlə yad edərkən cavan ordumuzun rəsmi keçidini görməklə də köksünü gərmiş, nə qədər sevinmişdir.

Dəniz kənarında qəhrəmanca bir tövrlə yürüyən süngü dəryasını seyr etdikdən sonra bir nəşeyi-istiqbal olaraq istiqlalının guşə duşini təşkil edən şühədanın məzar daşını qoymaq üçün gedən xəlqin bu gün nə qədər böyüdügünü, nə dərəcədə etimadi-nəfs hasil etdigini görməmək qabil degildi.

Xəlqimiz, türk nəslinə məxsus bir mətanətlə günün sevincilə bərabər dərin bir ciddiyyət və həzin bir təsəlliyyət günü olduğunu pək əla dərk eləmişdi. Bugünkü bayramını millət daşqın bir çocuq kibi degil, mütəfəkkir bir fərdiyalığ kibi tutdu.

Gənc ordumuzun əzmkaranə bir surətdə atdığı qədəmləri, ümidli bir surətdə tutduğu tüfəngləri seyr edərkən paytaxtımızın küçələrini dolduran minlərlə əhali, şühəda məzarı üzərində gözəl bayrağımızın daima başlarımız üzərində dik tutulacağı həqqində verilən sözlərin boş nida degil, qüvvətə istinad etmiş bir əhdü-peyman olduğuna inanıyordu.

Əvət, inanıyordu.

Bu imanın bünövrəsini bu gün bünövrəsini qoyduğumuz qurtuluş abidəsi altında yatan şəhidlər qoymuşlarsa da, heç şübhəsiz ki, onu diri bir halda tutan amal, bu məzarı saran igid əskərlərimizdi.

Mətbuatın, ədəbiyyatın millətin qəlbində milliyyət və istiqlal toxumu saçan bir amal olduğu məlumdur. Fəqət imdi anlıyoruz ki, bir alay əskərin milli nəğmələrlə ötərək bir dəfəlik keçişi mətbuatın on sənəlik propağanından – əhali üzərinə – daha böyük bir təsir buraxır.

Gənc şairimiz şühədanın məzarı üzərində əhd ediyordu ki, kəndi nəşidələrilə ədib və mühərrirlərimiz millətin ürəklərində abidələr tikəcək, şühədayı unutmıyacaqlardır.

Öz Cümhuriyyətində, öz əskərlərinin rəsmi keçidini, öz hökuməti, öz ricalı vasitəsilə qəbul edən, öz ordusunun öz generalları, öz zabit və öz nəfərlərindən təşəkkül etdigini görən xəlqin bir il əvvəl yas və hirmanlarla basıq olan qəlbi bu il o qədər açılmış ki, ruhunun tərcümanı olan şairlər artıq qısıq degil, fəsih və bəliğ bir lisanla ona qarşı ərzi-əfkar edə bilirlər.

Əvət, ey millətin "lisanülğeybi" olan şairlər, ədiblər millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz, gənc ordumuz bu ülvi toxumların saçılacağı yurdumuzu qoruyacaq, o böyük duyğuların zərfini təşkil edən köksləri qabartdıqca qabardacaqdır.

Bu gün, yalnız paytaxtımızın qurtuluş günü olmaqla degil, doğma ordumuzun ilk dəfə olaraq bütün ərkan və rüəsasilə birlikdə qüvai-külliyyəsinin nümayəndələri iştirak etmək surətilə paytaxtımızın üzərində parlaq və mütəntən bir surətdə rəsmi keçid icra etdigi gündür. Bu etibarla dəxi eylülün 15-i qurtuluş günüdür.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 18 eylül (sentyabr) 1919, №276**

Hirman – məhrum olma, qovulma

Lisanülğeyb – qeybdən xəbər verən, qeybi bilən (Caminin Hafizə verdiyi ad)

Fəsih – fəsahətlə danışmaq



# "Məşhur" şayiələr

Bəzi uydurma şayiələr var ki, söylənə-söylənə təvatür hökmünü alır və böylə olduqdan sonra məzkur şayiəyi uyduranlar kəndiləri də inanmağa başlarlar.

Daxiliyyə nəzarətində olan firqənin nüfuz hökumətindən istifadə edərək firqəçilik yapdığı və hökumət gücünü firqə mənafeyinə işlətdigi həqqindəki rəvayət işbu qəbildən bir şayiədir.

Bu şayiə "İttihad" firqəsinin siyasəti-daxiliyyəyə aid olmaq üzrə Nəsib bəy kabinəsinə verdigi istizahında dəxi qabarıq bir yer bulmuşdur.

İstizah namı verilən məzkur təhdidnamə aşkara denilir ki, "hökumət xoşuna getməyən firqə adamlarının tərd edildikləri, həbsə alındıqları, həttа öldürüldükləri qətiyyən inkar edilməyən həqiqətlərdəndir".

Böylə "inkar edilməyən həqiqətlər" istizahda çoxdur. Həttа "ricali-dövlətin xəyanətindən" belə bəhs olunuyor.

Bu xüsusda istizah parlaman kürsüsündən mövzuyi-bəhs olunursa kabinə rəisi müstəfisi kəndiləri də cavab verməlidirlər. Bəlkə də istefaya getdikləri üçün buna heç də lüzum verməzlər. Bu bir bəhsi-axır.

Fəqət "Müsavat" firqəsinin rəisi olmaq həsbilə hökumətin, bilxassə daxiliyyə nəzarətinin firqəçiligi həqqində bir neçə kəlmə izahatda bulunmaq istərəm.

Diyorlar ki, daxiliyyə nəzarətinin bütün məmurları "Müsavat"dandır. Daxiliyyə nəzarətində bir məmuriyyət almaq üçün əvvəlcə Müsavata yazılmaq lazım imiş:

Baxalım iş böyləmidir:

1- Qarabağ general-qubernatoru doktor Xosrov bəy Sultanov firqədən istefa vermiş bir zatdır.

2- Qazax general-qubernatoru Zəfər Əşrəfov sosialistdir.

3- Zaqatala valisi Məhəmməd ağa Şahmalıyev bitərəfdir.

4- Bakı valiyi-sabiqi Rəşid bəy Axundov da bitərəf idi. İmdiki Əmir bəy də bitərəfdir.

5- Bakı qradonaçalnikinin müsavatçı olduğuna əcəba isbat varmı? Yoxsa Zaismanmı müsavatçıdır?

6- Gəncə valisinin firqədən olduğuna və firqəçilik yapdığına əcəba firqənin böhranlı günlərdə kəndisinə qarşı aldığı vəziyyəti-tənqidkaranə iləmi hökm edilər?

Məlumdur ki, pristavların müsavatçı olduqlarından bəhs olunub duruyor. Əcəba, daxili idarənin mühüm məmurları müsavatçı degil ikən olur ki, xırda məmurlar həpsi müsavatçı olur?...

Müxalif firqə adamları "təqib, təzyiq və hətta terror" edirlərmiş. Halbuki "müvafiq olan firqə üçün məmurlar mübəlliq rolu oynayırlarmış". Hanki müxalifin harada "terror" edildigini bəlkə söylərlər biləriz. Əgər bir takım qəza və həvadisə uğrayan firqə əzasını nəzərdə tutub da müəyyən bir hökm vermək caiz isə o zaman hər kəsdən ziyadə yenə hökumətdə olan firqələr, ələlxüsus "Müsavat" məzlum çıxar. Məsələn:

1- Qazaxda firqə komitəsinə mənsub Mehdi ağa Qiyasbəyov qətl edildi – hala qatil bulunmamışdır.

2- Salyanda Salyan şöbəsinin katibi İsgəndərzadə kəza qətl edildi ki, hala qatili bulunub cəzasını görməmişdir.

3- Qarabağın yolunda parlaman əzası müsavatçı Cavad Məlikyeqanov yoldaşı mərkəz komitəsinin əzası Zülfüqar Mahmudov və bitərəflikdən "Müsavat"a keçmək ehtiyatsızlığında bulunan Cəlil bəy Sultanov günüz günorta çağı soyuldular. Hala soyanlar tutulmamışdır.

4- Firqənin çalışqan və məmləkəti yolunda xidməti keçmiş əzası Kərbəlayi Vəli Mikayılov Bakıda 6-cı uçastokda adi bir cani kibi həqsiz olaraq təhqirə məruz qaldı.

Yoxsa "İttihad" firqəçilik yapan daxiliyyə nəzarətindən bunlarınmı hesabını görmək istiyor? "Terror"dan bəhs edərkən məqsədi bumudur, yoxsa "Novıy svet" faciəsinimi qəsd edib, fəqət o əcaib bir şəkildə vaqe olan faciəyi dəxi bərfərz "terror" olaraq qəsd etsək belə məzlumlar hər halda müxalifdən degil, koalisyona mənsub firqədən idilər.

Daxiliyyə nəzarəti müsavatçıdır deyə tənqid edənlər eyni zamanda da diyorlar ki, Nəsib bəy pək iyi siyasidir, yeni kabinə



yəşkilinə o layiqdir, fəqət heyfa ki, daxiliyyə işlərinə baxmağa vəqti olmadı da. İşi yalnız müavini Ağabəyova buraxdı. Fəqət Ağabəyov da müsavatçımıdır, firqə ilə bir əlaqəsi varmıdır? – deyə sorunuz. O zaman münəqqidlərin nə kibi kəndiləri uydurduqları şayiəyə söyləyə-söyləyə nəhayət kəndilərinin də inanmaya başladıqlarını görürsünüz!

Daxiliyyə naziri firqəçilik yapıyor dedikləri zaman nədənsə hər vəqt Molla Nəsrəddinin hekayəsi yadıma gəlir:

Molla Nəsrəddinə "arvadın çox gəzəyəndir" dedikləri zaman öylə isə "neçin bizə də gəlmiyor" dedigini əlbəttə siz də xatırlarsınız.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 22 eylül (sentyabr) 1919, №279**

İstizah – açıq izah tələb etmə
Təvatür – ağızdan ağıza yayılma
Tərd – qovma, uzaqlaşdırma

# M.Ə.Rəsulzadə Qubada
## (Xüsusi müxbirimizdən)

Quba müsavatçıları ilə bərabər firqəsiz olan əhali dəxi çoxdan bəri Azərbaycan məbuslarından bulunan möhtərəm Rəsulzadə Məhəmməd Əmin bəyin şəhərimizə vürudini bəkliyorlardı. Son dəfə olaraq sabiq Şurayi-Milli rəisi möhtərəm Azərbaycan xadimi "Müsavat" firqəsinin rəisi cənablarının Qubaya gəlmək xəbəri avqustun axırında yayıldı. Sentyabrın ikisi Quba üçün bir bayram olmuşdu.

Qızılburun istasyonu xalılarla təzyin olunub camaat vaqona müntəzir idi. Rəsulzadə cənabları yoldaşları məbuslardan möhtərəm Abbasqulu Kazımzadə, Quba məbusu Mürtəza Axundov və Quba "Müsavat" mürəxxəsi-məsuli Əbülqasım Rüstəmzadə ilə birlikdə kəndilərini istiqbal edən xəlqin hüzuruna çıxdılar. Kəndisinə qarşı söylənən təbrik nitqinə müxtəsər, fəqət mənidar bir nitqilə müqabilə etdilər.

Bədə xəlqin "Yaşasın Azərbaycan" sədası arasında vaqon hərəkət elədi. Dəvəçi mövqifi kəza bəzənmiş, müsafiri bəkliyordu. Burada da toplanmış xəlq naminə təbrik sözü söylənib, Məhəmməd Əmin əfəndi tərəfindən cavab söyləndi. Burada məhəllə mollası, "Müsavat" şöbələrinin nümayəndələri, mahalın ağsaqqalları toplanmış idi. Oradan vaqon yaşasın sədaları içində ayrılıb Xaçmaz istasyonuna çatdıqda milli zurna sədası qonaqları qarşıladı. Xalılarla və yaşıllarla bəzənmiş mövqif əhali ilə dopdolu idi. Rustov mahalının nümayəndələri, köy şöbələrinin mürəxxəsləri və yerli xəlq tərəfindən böyük bir izdiham toplanmış idi. Rəsulzadə cənabları burada yalnız bir firqə rəisi və məbus sifətilə degil, Azərbaycan fikrinin həqiqi xadimi, Cümhuriyyətin müəssislərindən olması və dəgərli bir camaat xadimi, mümtaz mühərrir və guzidə bir natiq olmaq üzrə alqışlandı. Camaat nümayəndəsindən sonra "Müsavat"ın Quba mürəxxəsi möhtərəm qonaqlara "Xoş gəldin" söylədi. Bədə Məhəmməd Əmin əfəndi Cümhuriyyətin surəti-təşkili, türklərin unudulmaz xidməti, Parlamanın güşadı, fəaliyyəti, ingilislərin gəlişi, gedişi, hökumətimizin vəziyyəti-hazirəsi, əskəri təşkilatımızın əhəmiyyəti, Şimaldan təhlükənin vücudi, Denikin təhlükəsi və siyasəti-xariciyyəmizə aid saat yarım qədər uzun bir nitq söylədikdən sonra "Müsavat" üçün bu bəsdir ki, əvvəlcə yalnız onun fikri olan Azərbaycan şüarı bu gün millətin müqəddəs amalı hökmünə girmişdir, dedi. Natiq dəfələrlə alqışlanaraq sevincli "Yaşasın!" sədası arasında xəlqlə vidalaşaraq istirahətlərinə təxsis olunan dairəyə çəkildilər: ətraf kəndlərdən gələn köy nümayəndələri ilə şöbə mürəxxəsləri xüsusi surətdə məbuslarla oturub gecə keçənə qədər müsahibə ediyorlardı.

Müsahibə məmləkətin əhvali-siyasiyyəsinə, siyasi proqramlara və ətraf kəndlərin ehtiyacatına aid idi.

Müsahibə nəticəsində köylülər idarənin mətanətindən məmnun olduqlarını söylədilər. Dedilər ki, heç Nikolay zamanında böylə əmniyyət yox idi, çünki nə adam öldürülür, nə oğurluq olur, nə də qız qaçırılır. İstədikləri mətləb bundan ibarət.

Burası əskəri bir qərargah olduğundan əskər ləvazimindən ötrü istənilən təhmilatın əksəri ətraf köylərə təhmil olunuyor. Halbuki bu təhmilatə bütün Azərbaycanın iştirak eləməsi müqtəzi. Bura həvalisi anarşi zamanından dəxi çox təərrüzlərə məruz qaldığından bir çox evlər yanmış, yaxılmış, bu yanan evlərin təkrar tikilməsi üçün hökumət yardım etməli, meşədən evləri yananlara müftə olaraq ağac buraxmalı, sonra bu həvali qızdırmalı bir yer olduğundan xəlq həkimsizlik və dərmansızlıq üzündən çox xəsarət görmədədir. Buraya məxsus bir tibb nöqtəsi və bir qədər dəva-dərman və bir həkim göndərilsə. Əskəri xidmətə alınan bəzi əmələnin bəzən pulu verilmiyor.

Bu xüsusda tədabiri-lazimə görülsə qədim zamanda buralardan əhali-islamiyyə yerlərindən, yurdlarından götürülüb başqa yanlara köçürülmüş, onların yerlərinə rus köçbələri oturdulmuş idi.

Anarxiya zamanında onlar getmiş, cəbr olunan müsəlmanlar təkrar öz yurdlarını gəlib tutmuşlardır. Uruslar təkrar dönüb gəliyorlar. Hökumətin siyasətinə zərər verməzsə on-ların

bir daha buralara buraxılmaması üçün bir tədbir görülsə, bu tərəflərin məktəb və maarif cəhətincə dəxi çox əgri vardır. Bu xüsusda ayrıca diqqət verilsə, köylülərin təqaza elədikləri həp bu kibi əsaslı və dövlət nöqteyi-nəzərindən görülməsi zəruri mətləblərdir. Məbuslar bittəbii köylülərin işbu istədiklərinin yerinə yetirilməsi və hüsuli üçün səy edəcəkləri həqqində vəd etdilər.

❂ ❂ ❂

Səhər saat 8-də bir dəstə könüllü xəlq silahdarlarının müşayətilə rast gələn xəlqin salamları arasında məbuslar Xaçmazı tərk edib Qubaya tərəf azim oldular.

Saat 10 radələrində Qubaya yaxınlaşdıqda başda Quba "Müsavat" komitəsinin heyəti-idarəsi olmaq üzrə şəhərdən istiqbalə gələn atlılar qonaqları qarşıladılar. Şəhərin kənarında yapılmış alaqapı yanında xəlq toplanmış idi. Axund həzrətləri ilə əfəndi həzrətləri, bələdiyyə rəisinin müavini, qlasnılar, yəhudi camaatinin nümayəndələri və sair əhali burada cəm idi. Faytonlar burada durdu. Bələdiyyə rəisi müavini möhtərəm Azərbaycan xadimini təbrik elədi. Yəhudi nümayəndəsi dəxi xoş gəldin dedi. Rəsulzadə cənabları hər ikisinə də cavab verdi. Burada Rəsulzadə cənablarına böyük bir gül dəstəsi təqdim edildi. Qonaqlar Axund və Əfəndi ilə müsafihə etdikdən sonra faytonlarına səvar olub bayraqlarla və xalçalarla bəzədilmiş küçələrdən gül və çiçək sabaşları altında Quba nümayəndəsi Murtəza Axundov cənablarının evinə getdilər.

Burada evin yaxınında küçəyə toplanan xəlqə qarşı Rəsulzadə əfəndi saat yarım davam edən nitqində Xaçmazda söylədigi nitqini daha ziyadə təfsil ilə təkrar edərək nəhayət qubalıların həmiyyət və vətənpərvərligini təqdir etdi: "Sizi böylə fədakar gördükdən sonra hüdudumuzu keçmək istəyən düşmən meyitlərimiz üzərindən keçər deyən Nəsib bəyin həqli olduğunu təsdiq edirəm!" – deyə dəfələrlə alqışlanaraq fəth olunan nitqini gurultulu "Yaşasın"larla bitirdi.

Burada nahar etdikdən sonra qonaqlar yol üstündə qəza qaiməqamlıq idarəsi ilə xüsusi bəzədilmiş olan Müsavat idarəsini



ziyarət edərək Qusara ezam oldular. Yol yəhudi məhəlləsindən keçiyor. Yəhudi camaati başda Ravin İshaq olaraq məbusları istiqbal etdilər. Ravin Tövratdan bir dua oxuyaraq qonaqların qədəmini təbrik elədi. Buna qarşı Rəsulzadə cənabları dedilər ki: oxuduğunuz Tövrat bizcə Kitabi-İlahidir. İnandığımız Quran kibi asimanidir.

Quran bizə başqa dinlərə ehtiramı əmr edər. Cinsimiz türkdür. Türk dövlətlərində yəhudi zidligi görülməmişdir. Türkiyə yeganə dövlətdir ki, orası yəhudi qırğını görməmişdir. Yəhudiləri himayə edən dövlət Türkiyədir.

Müsəlman və Türk Cümhuriyyəti olan dövlətimizdə bütün millətlərlə bərabər siz yəhudilər də gərək şəxs və gərək millət etibarilə əmin və amanda olub, rahət yaşayacağınızdan əmin ola bilərsiniz!

Ravin təkrar təşəkkür edərək bu sözlərin zatən həqlərində icra olunduğunu və hökuməti-məhəlliyədən razı olduqlarını söylədilər və "Yaşasın Müsavat!", "Yaşasın Azərbaycan!" nidaları içində qonaqlar yollarına azim oldular. Yəhudi məhləsində qonaqların keçdigi küçələrdə qaravul olaraq yəhudi milisləri görülməkdə idi.

Axşam saat 5 radələrində qonaqlar Qusara yetişirlər. Qusar dəsəbəsi ilə ətrafından gəlmə xəlq Azərbaycanın fəsih natiqini dinləmək üzrə toplaşmışlardı.

Məhəllə Mollası xüsusi bir ehtiram olmaq üzrə məbuslara duz-çörək təqdim elədi. Ovzayi-haziraya aid müfəssəl nitqini burada da təkrar elədi. Xəlq ittihad, ittifaq və qardaşlığa istiqbal bayrağını ucaltmaya dəvət olundu.

Buradan sonra bir az istirahət edərək məbuslar məhəlli alay komandanlığını ziyarət etdilər. Bədə qərargaha getdilər. Əskərlər tərəfindən salamlandılar. O gecəyi Qusarda qalıb sabahı müəllimlər kursunu ziyarət etdilər. Saat 9-da kursdan çıxıb geri Qubaya gəldilər.

Qubada Mürsəl bəygildə şərəflərinə verilən ziyafətdə nahar etdilər. Nahardan sonra Axund ilə Əfəndi həzrətlərinin bazdidinə getdilər. Və bədə müsavat idarəsində firqə əzası ilə xüsu-

si bir müsahibə məclisi qurdular. Müsahibə əsnasında Rəsulzadə cənabları "**firqənin təşəkkülü məmləkətə xidmətdir, firqə əzaları, firqə hökumət üçündür, hökumət firqə üçün degildir**" – nəzəriyyəsinə tabe olmaları haqqında müfəssəl məlumat verdi və tövsiyələrdə bulundu.

Bir takım təşkilati-məsai haqqında qərar verildikdən sonra qonaqlar axşama doğru Xaçmaza ezam olub oradan Bakıya rəvan oldular.

Əsnayi-səyahətlərində yol uzunu məbuslar əhali tərəfindən salamlanıyor və köylülərin nümayəndələri ilə xüsusi olaraq müsahibədə bulunuyorlardı.

**Ə.B.**

**"Azərbaycan", 22, 23 eylül (sentyabr) 1919, №279, 280**



## Türkiyə hərəkati-milliyyəsi

Söz ilə işin Türkiyə haqqində dəxi çox fərqli olaraq meydana çıxdığından sonra Türkiyədə milli bir hərəkət başladı.

Daha aşkar söyləyəlim, Vüsta Avropa dövlətləri ittifaqı kəndi məğlubiyyətlərini etirafla silahlarını yerə qoyduqdan və qaliblərə sülh müzakirəsinə qərar verdikdən sonra mütarikə əsasında söylənilən sözlər mütarikədən sonra görülən işlərlə müvafiq gəlməmişdi.

Söylənən sözlərdən ən müəssiri şübhəsiz ki, Amerika cəmahiri-müttəfiqəsinin məşhur rəisi müsyö Vilsonun 14 maddəsidir.

Vilsonun bu 14 maddəsi adətən Turanın 10 əhdi kibi tələqqi edilmiş, hər kəs – nəuzubillah – yeni bir peyğəmbərin bəsinə inanmış kibi idi.

Vüsta Avropa millətləri mətlubinin acısını Vilsonun ilahi prinsiplərilə təşfi ediyorlardı.

Bu prinsiplərdən 12-cisi dəxi Türkiyə əfkari-ümumiyyəsini ovutuyordu.

Türkiyənin hərbi-ümumidəki vəziyyəti digər dövlətlərdən daha ciddi idi. Türkiyə kəndi mövcudiyyətini təhlükədən qurtarmaq üçün hərbə girmiş idi. Türkiyə şərəfli bir məmatı miskin bir həyata tərcih eləmişdi. Bunun üçün də o mütə düşməni olan və İstanbulunu qəsb etmək istəyən Rusiya komasında bulunamamışdı. Bunun üçün də o Çanaqqalada müdafe haqq olan insanın xariqələr yaratmağa qadir olduğunu bütün dünyaya qarşı isbat eləmişdi. Bunun üçün bütün türk xəlqi soyulub soğana dönmüş, son dərəcəyi-imkanına qədər vuruşmuşdu. Bunun üçün dəxi inanmışdı ki, məğlub olsa da həqqi-bəqasını, bir millət olaraq yaşamaq səlahiyyətini cahani-mədəniyyət qəbul edəcək, inanmışdı ki, heç bir zaman nəşeyi-qalibiyyətlə sərşar olsalar da böylə vazeh bir həqqi danacaq qədər sərməsti-qürur olamazlar.

Böylə bir ümid arzuyi-ümumiyyədən doğan bir inam idi. Ələlxüsus ki, bu inamı Vilsonun 12-ci maddəsi təqviyə ediyordu. Bu inamın nə dərəcədə şamil bir təsirə malik olduğunu türkün sızlar qəlbi mənziləsində bulunan xəlq şairi-həssası Məhəmməd Əmin bəy "Türkün haqqi" ünvanilə nəşr etdigi əsərdir.

Bu əsər, qəlbindən yaralanmış şairin qaliblərin mərhəmətinə inanmış bir təzərrönaməsidir. Bir təzərrönamə olmaq üzrə bəlkə də bən Məhəmməd Əmin bəyin bu əsərinin nəşr edilməməsini istərdim. Fəqət Vilson prinsiplərinin məğlub millətlərdə, əz-cümlə Türkiyədə nə kibi bir ümid və rəca hissi oyatdığına işbu təzərrönamə nə böyük bir bürhan, nə vazeh bir lisani-bəyandır.

Qarelər biliyorlar ki, işə gəlincə Vilson prinsipləri də müharibənin ibtidasından bəri elan olunan bir çox prinsiplər kibi söz olub qaldı. Bilxassə Türkiyəyə aid olan 12-ci maddə heç bir hökmə malik olmadığını göstərdi.

Sülh konfransının qərarını bəkləmədən, türk millətini dinləmədən, qeyri-türk ünsürləri məskun olan Osmanlı ərazisi degil, xalis türklərlə məskun olan Anadolu qitələri üzərində əməliyyati-cərrahiyyə başlandı. İzmir faciəyi-əliməsi vicdanına qarşı təzərrö edilən Avropanın gözü qapandı, bəlkə də onun müavinət və müzahiratı ilə icra edildi.

Türkiyə istiqlalı dildə qalıb, feildə İstanbul məhəllələri qaliblər arasında bölünərək doğrudan-doğruya ümumi-idarəyə qarışıldı. Hər qədəmdə, hər məhəlldə türk izzəti-nəfsi, türk hissi təhqir edildi. Qaliblərin təzyiqi ilə millətin hissiyyati-əmiqəsindən ziyadə qaliblərin qalın çəzmələrinə riayətkar olan İstanbul kabinələri xarici təhlükənin önünü almaqdan ziyadə daxili hesabları çəkməklə məhbəsləri dövlətin bənam ricalı ilə doldurmaqla məşğul oldular.

İştə bir siyasət ki, Anadolu hərəkati-milliyyəsini doğurdu. Məmləkətini sevən, onun bu dərəcə təhqir və təzəllülünə dayanamayan ərbabi-həmiyyət və namus Anadoluya çəkildilər. Ərzurum konqresi, sonra da Sivas məclisi təşəkkül etdi. Bu konqrelərin intixab elədikləri heyəti-təmsiliyyənin başına Çanaqqalanın məşhur qəhrəmanı Mustafa Kamal Paşa ilə Həmdiyyə qruvazorunun kapitanı Hüseyn Rauf bəy əfəndilər keçdilər. Hüseyn Rauf bəy ingilislərlə mütarikə imzalamış mürəxxəs, Mustafa Kamal Paşa da İzmir müdafiəsindən dolayı o zamankı hərbiyyə nəzarəti ilə münaqişə etmiş bir generaldır.



Onlardan heç biri İttihad və Tərəqqinin intriqasına alət olmuş adamlar degil, biləks daima istiqlallarını mühafizə eləmiş adamlardır.

Şu surətlə gündən-günə kəsbi-nüfuz edən Anadolu hərəkatı orada bulunub da daha tərxis olunmayan otuz-qırx minlik bir orduya istinadla bir an əvvəl məclisi-millinin güşadını və məmləkətin hər növ təqsimat və təhqiranə qarşı müdafiəsini tələb ediyordu.

Bu hərəkatın nə kibi bir hərəkat olması haqqında bizim tərəflərdə nəqsəd bir takım təvillər və təfsirlərlə əfkari-ümumiyyəyi təfşiş etmək istəyənlər vardır. Aramızda bolşevizm cərəyanını tərvic etmək istəyənlər, xəlqimizin hissiyyati-milliyyəsini suyi-istemal edərək Anadolu hərəkati-milliyyəsinin də bolşevik olduğunu irəriyə sürüyorlar.

Fəqət bunu Ərzurum təşkilatına dost görünmək istəyən buradakı bolşeviklərlə bərabər hərəkati-milliyyə ilə mübarizə edən İstanbul Fərid Paşa kabinəsinin tərəfdarəni dəxi söylüyorlardı. Onlar da Mustafa Kamal və Rauf bəy hərəkatını milli degil, bolşevik rəngi ilə əlvan edərək avropalılara göstərmək istiyorlardı.

Fəqət bütün əvamil və zəvahiri ilə tam milli və yalnız milli olan bu hərəkatda bolşeviklikdən zərrə qədər də əsər yoxdur. Məmləkətin istiqlalını hərçə badabad müdafiəyə qərar verən bu hərəkat həyin lüzumunda bəlkə bolşevikliklə də təvhidi-hərəkət edər; fəqət bu onun bizzat bolşevik olduğuna qətiyyən dəlalət edəməz.

Anadolu hərəkati-milliyyəsi bu günə qədər rəsmi olaraq Fərid Paşa kabinəsini tanımamışsa da, zati-şahanəyi hər zaman tanımışdır. İmdiki halda yeni təşəkkül edən kabinə ilə bələ münasibətə girişməmişdir.

Mustafa Kamal Paşanın yeni kabinəyə çəkdigi teleqrafın bir nüsxəsi dünki sayımızda dərc edilmişdi. Bu teleqrafa nəzərən hərəkati-milliyyənin hökuməti-mərkəziyyədən tələb elədigi şeylər atidəki üç maddəyə münhəsirdir:

1. Hökuməti-cədidənin Ərzurum və Sivas konqrelərində təyin və tənbit edilən təşkilat və məqasid məşrutəyi-milliyyə rəayətkar qalması.

2. Məclisi-millinin iniqadilə müraqibeyi-feliyə başlayıncaya qədər müqəddərati-millət haqqində guna təahhüd qəti və rəsmiyyə girilməməsi.

3. Sülh konfransında təyini-müqəddərati-millət və məmləkətə məmur olacaq mürəxxəslərin sabiqi kibi naəhllərdən təyin edilməyib millətin behəqq amalını dərk və etimadilə məzhər əhli-vüquf və iqtidardan intixab buyurulması.

Teleqrafda bolşeviklik degil, hətta cümhuriyyətçilikdən belə bir bəhs yoxdur. Hətta teleqrafnamənin bir yerində "millət, qüvvət və iradəsini heç bir vəqt amali-müqəddəseyi-şahanəyə müğayir və mənafei-məlik və millətə mübəyyən bir tərzdə sərf etmək niyyəti-qeyri məquləsində degildir: millət zati-əqdəs xilafətyana heyətin məzhər əmin və etimadı olan zat fəxamətnahilər ilə rəftarı giramınızı müşkül vəziyyətdə buraxmaqdan qətiyyən mütəvəqqi olub biləks tamamən müzahir olmağa bütün səmimiyyətimizlə hazır" denilir ki, əlbəttə "Amali-müqəddəsəyi-şahanəyə" bu dərəcədə sədaqətkar olan bir heyətin olsa da bolşeviklik yanaşılmıyacağını təqdir edərsiniz.

Ərzurum hərəkati-milliyyəsi bolşevik olmadığı kibi imdidən düvəli-etilafiyə ilə hər növ irtibati qət etmiş bir vəziyyətdə dəxi degildir. General Harburd daha dün bütün Anadoluyu səyahət eləmiş, Ərzurum tariqilə İrəvan, Tiflisi ötərək Bakıya qədər gəlmişdi. Anadoludan keçərkən Harburd Anadolu hərəkati-milliyyəsi başında duran zəvat ilə görüşdügündən son dərəcədə məmnun qaldığını zikr ediyordu. Sonra yenə Mustafa Kamal Paşanın teleqrafı etilaf dövlətləri ilə münasibatı təyin edərək bir yerində: "bilcümlə düvəli-etilafiyədə məşrutiyyəti və qüdrəti tanınmış olan təşkilati-milliyyəmizin hökumətin məzahiri olacağı və bu surətlə hökumətin təmini-müqəddəratda müəssir bulunacağı təbiidir", diyor ki, yuxarıdakı iddiamızı tamamilə isbat edər.

Biz hər zaman Anadolu hərəkatı haqqində bir fikirdə idik ki, bu hərəkət sırf millidir. Məqasidi-milliyyənin təmininə fürsət gəlincə bu hərəkət ilə hökumət arasında bir etilaf hüsuli bizcə hər zaman mütəsəvvür idi. İmdi dəxi onu görüyoruz. İstanbul



kabinəsi dəgişiyor. Məhbusin haqqində əfvi-ümumi elan olunuyor. Anadolu ilə İstanbul barışıyor. Vəziyyəti-xariciyyədə dəxi bir növ açıqlıq görünüyor.

Bizim Türkiyə siyasətində görülməkdə olan bu səlah əsərlərini nə kibi bir sevinclə qarşıladığımızı söyləməgə ehtiyac varmıdır?!...

Anca ke əyanəst
Ke hacətcebəyan əst!

**M.Ə.Rəsulzadə**
**Azərbaycan", 28 təşrini-əvvəl (oktyabr) 1919, №307**

Vüsta – orta
Təzərrür – zərərdidə olma
Əna – əziyyət, yorğunluq
Rəca – xahiş, istək
Əmiq – dərin
Təzəllül – zəlil olma
Təvil – təfsir etmə, izah etmə
Əvamil – amillər
Badabad – qoy olsun, qoy olur-olsun
Tovhid – təhdid etmə, hədələmə
Məqasid – məqsədlər
Guna – rəng, növ, qayda
Naəhl – ləyaqətsiz, yaramaz
Mütəvvəq – dövrələnmiş, araya alınmış
Müzahir – hami, kömək edən
Məzahir – bir şeyin zahir olduğu yerlər və ya şəxslər

# İngilis siyasəti

## I

Qəzetələr Lord Kerzonun İngiltərə xariciyyə nəzarətinə təyinini xəbər verdilər.

Daha əvvəlcə də Lord Kerzonun ingilis ümuri-xariciyyəsini idarəyə gələcəgi şiddətlə söylənib durmaqda idi.

London kabinəsinin barometri mənziləsində olan "Tayms" qəzetəsi daha bundan neçə vəqt əvvəl Bilqurun Kerzonla əvəz olunacağını təxmin elədigi sırada ingilis siyasətinin kövşəkligindən və yeni təyin ilə bu kövşəkligin izalə ediləcəgindən bəhs eləmişdi.

"Tayms"a görə ingilis siyasətində bu günə qədər möhkəm bir istiqamət olmamış, iş başında olan siyasət ərləri gah bəriyə, gah da ötəyə dumən (sükan) tutaraq gəlmişlərdir. Halbuki zaman mətin bir siyasət, doğru bir istiqamət istiyor. Bu doğru istiqaməti isə Lord Kerzon verəcəkmiş.

❂ ❂ ❂

Lord Kerzonun mətin siyasəti ilə doğru istiqaməti, əcəba, nədən ibarət ola bilər?

İştə bir sual ki, yalnız "Tayms" qarelərini degil, bizi də əlaqədar edə bilər.

Çünki ingilis siyasəti-xariciyyəsi bu gün hər zamanda olduğundan daha ziyadə olaraq aləmşümul bir mahiyyət halüzdür.

London kabinəsinin bu və yaxud digər bir qərar və istiqaməti hər zaman dünyanın hər bir tərəfində əhəmiyyətlərlə tələqqi edilmiş, İngiltərə hökumətindən başqa digər bəhri və qeyribəhri hökumətlərin siyasət və istiqamətinə dəxi böyük təsirlər yapmışdır.

Dünyanın bu qədər həssas olduğu böylə bir zamanda aləmşümul qüvvətini yeni sınamış və sınaqdan müvəffəqiyyətlə çıxarmış olan İngiltərənin şu və ya bu qərar və hərəkəti bittəb hər zamankından daha ziyadə bir təsirə malik olacaqdır.



Bu təsir bilxassə Şərqdə, İslam aləmində və əzcümlə, Qafqasiyada yeni təşəkkül edən hökumətlər üzərinə ola biləcəkdir.

Çünki qaliblər arasındakı ixtilaf çıxaran məsələ bir tərəfdən Rusiya, digər tərəfdən də Türkiyə ilə Asiyai-Vüsta məsələləridir ki, İngiltərə siyasətinin sahei-əndişəsi də budur.

❂ ❂ ❂

İngiltərənin qədimdən bəri ənənəvi bir siyasəti vardı: Hindistanı və Hindistana gedən yolları qorumaq.

Bir vəqt bu məqsədlə o, böyük Napaleonla çəkişdi. Çox zaman Rusiyanın cənuba doğru olan hərəkətinə sədd çəkməklə məşğul oldu.

Rusiya imperializmi yalnız bu imperializmin yolu üzərində sərilmiş İslam və Türk məmləkətlərinin müqabiləsini degil, eyni zamanda İngiltərənin də siyasi müqavimətlərini görüyordu.

Şeyx Şamilin müridləri rus kazaklarına qarşı qəhrəmanca vuruşduqları əsnada Londona göndərilən elçiləri açıq qucaqla dərağuş edilirlərdi.

Paris konfransında (imdiki degil) İstanbul mürəxxəslərinin bir az cəsarət və müvafiqətləri olsaydı İngiltərə nümayəndələri Qafqasiya istiqlalını mövzui-bəhs ediyorlardı.

Türkiyənin izmehlalına qəsd etmiş olan Rusiya qüvvətlərinə qarşı Krım sahillərində türklərlə yanaşı hərb edən ingilis əskərlərinin qardaş qəbri hala İstanbul məzarıstanında bəllidir.

Fətəli şahın talesiz şahzadəsi Abbas Mirzənin rus ordusuna qarşı Azərbaycan xanlıqlarında İranın hürriyyət və istiqlalını müdafiə edən sərbazları ingilis zabit və müəllimləri tərəfindən təlim və təşkil olunuyorlardı.

İngiltərənin müdafiəsi və müdaxiləsi olmasaydı bu gün az-çox müstəqil bir halda bulunan Əfqanıstan, Buxara və yaxud Xivə əmarəti halında adı var, özü yox bir halə düşəcəkdi.

Bittəbii bu "fədakarlıqları" İngiltərə hökuməti Türkiyənin, İranın və yaxud əfqanlıların qara qaşları və yaxud ala gözləri üçün yapmıyordu. O bu vasitə ilə qabına sığmayan bir sel kibi aşıb

cənuba doğru daşan Moskov axıntısına bir növ sədd çəkmək, bənd bağlamaq istiyordu. Çünki kəndi Hindistanından qorxuyordu. Hindistan İngiltərə üçün nağıllarda söylənən ağ divin "can şişəsi" kibi idi. "Ağ div" qorxuyordu ki, şimalın "ağ ayı"sı gələr də "can şişəsi"ni qamarlar.

İştə bu "can şişəsi"ni qorumaq üçün Rusiyanın başını qarışdırmaq, Rusiyayı zəif düşürmək İngiltərə siyasətinin əs-əsasını təşkil edirdi.

Cənubdan müqavimət görən Rusiya axa-axa yolunu dəyişərək ta Yaponiya sularına qədər getmiş, Koreya və Port-Artur limanlarına dayanmışdı. Burada dəxi İngiltərə müqaviməti müttəfiqi Yaponiya şəklində zühur edərək Rusiya Uzaq Şərqdə qəti surətdə əzilmişdi.

❂ ❂ ❂

İngiltərənin qaradakı böyük rəqibi ilə bərabər digər bir qüvvət daha meydana gəliyordu. Bu qüvvət Rusiya kibi yalnız qara qüvvəti degil, eyni zamanda İngiltərənin bəhriyyəsi ilə də boy ölçüşüyordu. Avropanın mərkəzində böyük bəhriyyə, böyük ordu və böyük ticarətə malik əhənin bir yumruq düyümləniyordu.

Rusiya təhdidini Almaniya qorxusu əvəz ediyordu. Gün keçdikcə Almaniya qüvai-bərriyyə və bəhriyyəsi qüvvətləniyor; bu qüvvət artdıqca və yaşam ilə ricali-dövləti İngiltərənin izzətinəfsini qıracaq bir tövr və əda ilə idareyi-lisan etməkdən kəndilərini alamıyorlardı.

İngiltərə işbu qorxu müqabilində ənənəvi siyasətini dəgişdiriyordu. Yapon müharibəsində dögülmüş, nəticədə Almaniyanın iqtisadi nüfuzu altına düşmüş olan Rusiya ilə anlaşmaq lazım gəliyordu.

Bunun üçün də xarici siyasət İngiltərə mühafizəkarlarından liberallarına keçiyor; Sazonov ilə ser Edvar Keri Orta Asiyayı nüfuz məntəqələrinə bölüşüyorlardı. Nəhayət, 1907 etilafı ortaya gəldi. Türkiyə, İran və Türküstan ərazisi bir zaman Hindistan səngərlərini təşkil etməkdə ikən imdi yiyəsiz mal kibi təqsim olunuyordu.



Ora – sənin, bura – bənim, razılaşalım denilir, ümumi düşmən qarşısında köhnə rəqabətlər unuduluyordu.

Bu gedişlə iş o dərəcəyə gəldi ki, biri-birinin kölgəsini qılıclayan Rusiya-İngiltərə siyasətini hərbi-ümumi əsnasında müttəfiq olaraq gördük. İstanbulu müdafiə üçün Krımda qanını tökən və Apasfanusdakı rus ordusunu İstanbula buraxmamaq üçün bəhriyyəsini Mərmərə dənizinə gətirən Böyük Britaniya eyni İstanbulu eyni ruslara verdirmək üçün bəhriyyəsindən mühüm bir qismini tələf etdirmək, yüz minlərlə əskərlərini dənizə tökdürmək qədər böyük bir inad və fədakarlığa qədər vardı.

Nəticə bəlkə də London siyasilərinin intizarı xilafində olaraq pək parlaq çıxmışdı, bir daşla iki quş vurulmuşdu. Nə İngiltərənin mühafizəkar lordlarını qorxudan böyük Rusiya, nə də liberallarını vəhşətə salan qüvvətli Almaniya qalmışdı.

❂ ❂ ❂

İmdi beş sənəlik müharibəyi bitirmək, müharibədən olduğu kibi müsalihədən də müzəffər olaraq çıxmaq lazımdı. Əsl mərifət də bu idi.

Bunun üçün nə yapmalı idi?

İştə "Tayms"ın bəyənməyib də mütərəddid dedigi siyasət bu siyasətdir.

Lord Kerzonun təyinilə ingilis nimrəsmisi bu mütərəddid siyasətin dəgişəcəgini ümid ediyor.

Bu xüsusun təhlili isə ayrı bir məqaləyə mütəvfəqdir.

**M.Ə.Rəsulzadə**
**"Azərbaycan", 19 təşrini-sani (noyabr) 1919, №325**

İzmehlal – məhv olma
Bərriyyə – çöl, səhra; insan

## Gözlərimiz aydın!

Arzularını qüvvədən-felə gətirməyi əzm edən bir millət heç bir zaman istədiğindən məhrum qalamaz.

Ən müqəddəs bir həqqin verdigi həqqaniyyətlə istiqlalını almaya əzm etmiş olan Azəri Türkünün qulağına çoxdan intizar elədigi ruhnəvaz bir səda gəldi:

Azərbaycan istiqlalı təsdiq edildi!

Gözlərimiz aydın.

İngiltərə xariciyyə naziri Lord Kerzonun təklifi üzərinə Müttəfiqlər Şurayi-Alisi Azərbaycan ilə Gürcüstanın istiqlalını təsdiq eləmişdir.

Böylə bir xəbərin gələcəgindən ildən ziyadə bəkləyən Azərbaycan xəlqi məyusluq əlamətləri göstəriyor idisə də, siyasətimizi idarə edən məhfillər üçün xəbər pək də qeyri-müntəzir degildi.

Ehtimal ki, bu qədər təxirdən sonra müttəfiqlərin bu xüsusdakı təəccüblərinə Denikin qüvvətinin sürətlə inhilalı dəxi səbəb oldu.

Müttəfiqlərin böyük xətası da burada idi ki, onlar bolşeviklərə qarşı təbii hail olmaq üzrə müstəbid Denikinin qüvvəsini iltizam etdilər. Halbuki təbii bir hökuməti-milliyyə şəklində təşəkkül edən yeni dövlətləri lüzumunca təqdir degil, ehmal etdilər. Bu ehmal nəticəsi olaraq bu gün məzkur dövlətlərin təşkilatı arzu olunur bir dərəcədə degildir.

Şimdi gözləməlidir ki, təsdiqi-istiqlal bir əmri-vaqe olduqdan sonra bu günə qədər görülən ehmal siyasəti dəgişərək fəal bir şəkil alacaqdır.

Hər halda məsələnin bu kibi əməli cəhətlərinin təhlilini başqa bir zamana buraxalım, bu gün arzuyi-millimizin beynəlmiləl bir təsdiqindən və bu surətlə mövcudiyyəti-siyasiyyəmizin aləmşümul bir məna və əhəmiyyət aldığından məmnun olaraq bayramlaşalım:

Gözlərimiz aydın!



Fəqət bunu da biləlim ki, bu hal bizi daha ziyadə çalışmaya, daha böyük əzmlərlə irəliləməyə vadar etməlidir.

Yaşasın istiqlal!

**M.Ə.**

**"Azərbaycan", 13 qanuni-sani (yanvar) 1920, №12**

İnhilal – açılma, dağılma, bir-birindən ayrılma
Hail – manеə

## Bolşevizmin təlimi

Rusiya bolşeviklərinin Avropa imperializmi və bu "imperializmin pişdar səngərlərini" təşkil edən Rusiyadan ayrılmış yeni Qərb hökumətləri ilə olan münasibatını təhlil edərkən, Moskva sovet hökumətinin bu xüsusda aldığı vəziyyətə təslimdən başqa ad vermək mümkün degildir.

Kapitalizmə elani-hərb etmiş bulunan Rusiya hökuməti Avropanın qalib dövlətləri ilə icra elədigi müzakirə nəticəsində Avropa və Amerika sərmayədarlarına imtiyazlar verməyi qəbul ediyor. Avropa sərmayədarlarına imtiyaz vermək sosializm üsuli-istehsalından imtina etməkdən başqa bir şey degildir. Bunun böylə olduğunu zatən bolşevik peyğəmbəri Lenin kəndisi dəxi etiraf eləməkdədir. Fəqət Leninin bir tələbi var ki, sosializm birdən-birə təsis edəməz. Sərmayədarlıq üsuli ilə bərabər dəxi tətbiq oluna bilərmiş.

Bu elmi məsələ əfkari-ümumiyyədən ötrü bolşevizm təliminin nədən ibarət olduğunu bəlkə də bütün vüzuhilə açamaz. Fəqət bütün nüfusi biryarım milyondan artıq olmayan Estoniya ilə Rusiya arasında əqd olunan müslühənamə o qədər fahiş bir şeydir ki, bolşevizmin buradakı təslimini siyasətdən anlamayan tifli-əlifbaxan belə görməyə bilməz.

Kəndisi ilə mühasib bulunan kiçik Estoniyaya sülh təklifində bulunmuş olan Moskva hökuməti Baltik dənizindən içəri Rusiyaya Estoniya vasitəsilə tranzit mal keçirə bilmək müqabilində baxınız nə kibi şərtləri qəbul eləmişdir.

1. Moskva ilə Estoniya arasındakı bütün dəmir yollarının imtiyazı Estoniyaya verilir.

2. Estoniyanın ərazi həqqindəki müddəbatı tamamilə qəbul olunuyor.

3. Estoniya Rusiya borcundan hissəsinə düşəcək qismindən tamamilə azad tutulur.

4. Estoniyaya mülahəqq bulunan Rusiya vilayətlərindəki sərvəti-tərbiyyə imtiyazatında Estoniyaya digər əcnəbilərə nisbətlə həqq təqdim veriliyor.



5. Ən fahişi bu ki, Estoniya Rusiyadan qızıl (altun) olaraq 15 milyon rublə təzminat alıyor.

Böyük bir dövlətdən ötrü qeyri-qail təhəmmül bir dərəcədə mucibi-zill olan bu qədər ağır şərait müqabilində Baltik sahili üçün təmin olunan tranzit həqqini bolşevik mətbuatı böyük bir zəfər kibi təsmiyyə ediyorlar. Onlarca, Estoniyanın bu sülhü Rusiyanın xammalına şiddətlə möhtac bulunan Avropanın bolşevizmə qarşı bir təslimi imiş. Fəqət bütün sərvəti-təbiyyəsi ilə bərabər əlində qızılını vermək surətilə imperializmi "təslimə" vadar edən Rusiya bolşevizminin bu gedişilə nərələrə gedəcəgini kəsdirmək müşkül bir şey degildir.

Əski Rusiyanın qərbində təşəkkül edən hökumətlərin Rusiya bolşevizmi ilə əqdi-sülh etmələrini hər halda Antantanın və bilxassə İngiltərənin siyasi bir məğlubiyyəti kibi tələqqi etmək mümkün degildir, çünki teleqraflar bizə Lloyd Corcun Polşayı Rusiya ilə sülh əqdinə təşviq eləməkdə olduğundan xəbər veriyor.

Heç şübhəsiz ki, bir neçə gün sonra Estoniya misilli bir sülhün Polşa ilə əqd olunacağını da eşidəcəgiz. Polşadan sonra əlbəttə ki, Finlandiyaya gələcək və bütün bu dövlətlərə Rusiya bolşevizmi əlindəki altunu ilə bərabər sərvəti-təbiyyəsinə aid imtiyazlarını bol-bol verəcəkdir.

Bu vasitə ilə doğrudur ki, Rusiya pək çox möhtac olduğu ziraət makinalarını və sair ləvazimi alacaq. Fəqət eyni zamanda da bütün xammallarının və təbii sərvətlərinin ixtiyarını əlindən çıxarmış olacaqdır.

Burasını da bilməlidir ki, Estoniyaya verilən imtiyazlar həddizənnində Estoniyaya verilməmişdir. Çünki est sərmayəsinin Rusiya sərvətlərini istifadə edəcək bir qüvvət və imkanda olmadığı aşkardır. Fəqət qəzetə xəbərləri Estoniyanın arxasında Amerika sərmayəsinin durduğunu bildiriyorlar. Adı Estoniyanın olacaq işbazları təbiidir ki, Amerika sərmayəsi işləyəcəkdir.

Öylə də Polşaya veriləcək imtiyazları fransız, Finlandiyaya veriləcək ixtiyarı da bilafərz İngiltərə sərmayəsinin kullanmayacağı nə məlum.

Hər halda bolşevizm ilə hərb etmək fikrindən nükul edərək kəndisi ilə anlaşmaq tərzini iltizam edən Avropa siyasəti üçün bolşeviklər ilk nəzərdə Antantaya təslim oldu – deyə bilərlərsə də, yapılan müsalihələrin mahiyyəti həqqini təslimin kimə aid olduğunu aşkar göstərməkdədir.

M.Ə.

**"Azərbaycan", 11 şubat (fevral) 1920, №29**

Pişdar – avanqard
Fahiş – əxlaqazidd, mübaliğəli
Nükul – vaz keçmə



# Türkiyə məsələsi

Həlli gözlənməkdə olan dünya məsələləri arasında bizi ən çox əlaqədar edən ana məsələlərdən biri yox, bir neçəsi heç şübhəsiz ki, Türkiyə məsələsidir.

Türkiyə məsələsi heç bir zaman biz azərbaycanlılar üçün ürəgimizin ən nazik pərdələri ilə hiss olunur bir məsələ halından xaric olmamışdır.

Aləmi-islamın hər zamanda kəndi daha həssas, daha rəqiq və daha həyəcanlı olaraq duyduğu bir məsələ bizim üçün həm türk, həm də azərbaycanlı olmaq etibarilə daha incə və daha müəssir bir duyğu və qayğı halını iktisab eləmişdir.

Biz qəddar düşmən əlində biaman düşüb də "Ay haray, imdad!.." deyə bağırdığımız pək ümidsiz bir zamanda "harayımıza" çatan "dil və din" qardaşlarımızın əndişəli günlərini nasıl duymaz burada Bakı xilasında şəhid düşən qazilər və orada İstanbulu müdafiə üçün sinələrini sipər edən fədailərin eyni bir vəzifə, eyni bir ümid və məqsəd yolunda ölə bildiklərini nasıl unuturuz?!..

Antantanın Azərbaycan istiqlalını təsdiqi xəbəri yas içində bulunan İstanbulda bir toy kibi tələqqi edilmiş, istiqlalımızı təsdiq günlərində yapdığımız şənliklərdə İstanbulun türklərdən alınacağına aid çıxarılan xəbərlər xəlqimizdə toy içində bir yas təsiri hasil etdirmişdi.

Təbiidir ki, kəndisilə bu dərəcədə mərbut bulunan bir məsələyə Azərbaycan əfkari-ümumiyyəsi heç bir zaman laqeyd qalamaz. Bu xüsusdakı qeydkeşligini Azərbaycan əfkari-ümumiyyəsi ilə bərabər vəziyyəti-siyasiyyəmizin münasib bir şəkildə olmaq üzrə məhafili-siyasiyyəsi dəxi münasib gördükcə bəyan eləmişdir.

Bakının türklərdən alınacağı xəbəri Azərbaycanda nə kibi bir təsir hasil edərsə, İstanbulun türklərdən alınacağı xəbəri də – daha ağır deməək istəməsək – hər halda eyni təsiri hasil edər. Öylə də İzmirin yunanlara təslimi, Naxçıvanın ermənilərə təslimindən az tələqqi olunamaz.

Azərbaycan xəlqinin – türklük, müsəlmanlıq əlaqəsi bir yanda – sadə həqpərvərligi və insani düşüncəsi belə bu qədər məkfinəti-mətanət və mərdlik göstərən əsatürlü türkünü təbiisindən məhrum bir halda görməyi qətiyyən təsəvvür edəməz. Çünki bunu nə hövsələsinə sığdırıyor, nə də vicdani-bəşərə rəva görür.

Çünki o, bütün o alərə rəğmən Anadolu türk qardaşında böyük bir həyat qabiliyyəti görür, bunun dəlili olmaq üzrə də Türkiyənin bugünki halını göstərir "xəstə adam" tələqqi olunan məmləkət bütün talesizligina rəğmən məğlubiyyətin acı təsirlərinə Rusiyadan da, Avstriyadan da daha ziyadə təhəmmül göstərdi. Qəvami-ictimaiyyəsini dağıtmadı, şirazeyi-binasını pozmadı. Həm həqiqətən də öylə: bütün yoxsulluqlar içərisində bu gün səlahinə sarılı hüquqi-təbiisini təkrar bazusi və son qətrə qanı ilə müdafiəyə mühəyya bir millət görmüyormuşuz?!...

Əvət, bir millət görüyoruz ki, Ərəbistanın kəndisindən ayrılmasına tamamilə razı, fəqət kəndisinin əksəriyyətlə oturduğu yerlərdə kəndi hökuməti, kəndi idarəsi, kəndi hüquqi və kəndi hürriyyəsilə yaşamağa azim!

Bir millət ki, onun bugünki bu həqqi-müddələrinə bütün türk millətləri, bütün aləmi-islam degil, Avropa əfkari-ümumiyyəsinin də qismi-mühimmi bu gün boyun qoymaqda davasını həqli görməkdədirlər.

İştə bir azərbaycanlı nöqteyi-nəzərindən böylə milli bir rabitə və mənəvi bir qüdsiyyətlə tələqqi olunan məsələnin surəti həllinə aid varid olan müxtəlif xəbərlər təbiidir ki, pək ziyadə bir diqqətlə təqib olunur.

Keçən nüsxələrimizdən birisində Türkiyə müqəddəratının İstanbula aid fəqərəsində üç surət həllin təsəvvür olunduğunu yazmışdıq. Bu surətlərdən Türkiyə faidəsinə olan qism həqqində ingilis siyasətinin daha pək inkar olmadığını qeyd eləmişdik. Son posta ilə alınan mətbuat ingilis nöqteyi-nəzərində dəxi bu xüsusda getdikcə kəsbi-vüzuh etməkdə olduğunu göstəriyordu. Nəhayət, axırki günlərdə alınan teleqraflar qəti surətdə göstəriyor ki, İstanbul məsələsi türklərin faidəsinə olaraq həll edilmişdir.



Bu xəbər bittəbii əfkari-ümumiyyə üzərində böyük bir hissitəsir hasil edəcəkdir.

Fəqət Türkiyə məsələsinin hüsni-həllinə bir müqəddimə ola biləcək bu xəbər daha məsələnin tamamilə müvafiq bir şəkildə həll olunduğunu göstərəməz. Anadolu hərəkati-milliyyəsi yalnız İstanbul məsələsilə iktifa edəmiyor, ortada bir də İzmir məsələsi var, o da həll olunmalı, o böyük haqsızlıq dəxi təshih olunmalıdır.

Bir İstanbul, bir İzmir məsələlərinin fövqündə bir də Anadolu türklügünün həqiqi istiqlalı və iqtisadi inkişafının təmini məsələsi vardır.

Türkiyə əski ərazisindən, Rumelisindən, Misirindən, Tunisindən, Şamından, Hicazından, İraqından, Beynəlnəhrinindən həpsindən keçər, başərta ki, Anadolu təkrar kapitalyusyunlara məruz qalmasın, başərta ki, artıq qanı, canını kəndi yurduna, kəndi övladına sərf edən türk məhmədcigi yurdunun həqiqi sahibi olsun.

Böylə olursa, o zaman türkün yaralı qəlbi sağala bilər və böylə olursa, o zaman Türkiyənin dostları rahət bir nəfəs çəkib dünyada ədalətin mövcud olduğuna inanırlar! Ümid edəlim ki, böylə olacaq. Çünki türk milləti böylə istiyor, çünki vicdani-bəşəriyyət böylə əmr ediyor!

**M.Ə.Rəsulzadə**

**"İstiqlal" qəzeti, 17 şubat (fevral) 1920, №6**

Rəqiq – incə, həssas

## Qara təəssüb

Dünyada nə olsa "İttihad" onu mütləq "Müsavat"dan görər. Bu kərə çirkin üzünə tutduğu "türklər" pərdəsini birdən-birə sıyrılıb düşdügünü dəxi "Müsavat"dan gördü. Bir ildən ziyadə Əhmədi, Mustafası, Akifi və Süleymanı sayəsində onların təbliğat və təşviqatları özünü türk dostu deyə tanıtdıran firqənin qəzetəsi imdi bir ildən bəri baş mühərriri olan zatə xristiyan olmuş arnaud deyə təhqir ediyor.

Təhqir ediyor, çünki bir ildən sonra olsa da həqiqəti görüb çəkilməgə məcbur qalan və artıq pərdə olmaq istəməyən əfəndilərin bu hərəkəti həriflərin həqir simasını tamamilə üryan buraxıyor.

İştə bu acının təsirilə "İttihad"ın Məmmədbəyovu (qonorarı yüz mini atlamış dava vəkillərindən olmasın) "Müsavat"dan intiqam almaq qəsdilə bir məqalə yazmış və yaxud yazdırtmışdır diyoruz (çünki bizim bildigimiz Məmmədbəyov isə türkcə yazamaz).

Təbiidir ki, ittihad zehniyyəti heç bir şeyi parasız ölçəməz, əgər türklər bir qənaəti-vicdaniyyə nəticəsi olaraq xidmət elədikləri firqənin qaralığını görərək çıxmazlarsa – Məmmədbəyov nəzərində – bunu maddi bir "qonorar" (hədiyyə) olmadan yapamazlardı. Qononarı da kim verəcəkdi. Əlbəttə "Müsavat"!

Fəqət "Müsavat"da bu qədər pul hardan ki, "İttihad"ın min bir ünvan ilə toplanan kassasına rəqabət eləsin?...

Bu suala cavab hazır qaytansız ağıza nə var ki: dövlətin milyonları onlarda!..

Fəqət "Müsavat" bununla qalmamış, istəmiş ki, "İttihad"ın min bir kələklə topladığı mürəxxəsləri "bir həmlə"də döndərib müsavatçı eləsin. Bunun üçün adam göndərmiş "İttihad" mürəxxəsləri "Rəsulzadənın əksini" və "Müsavat"ın proqramını" paylatmışdır. Fəqət Məmmədbəyovun dedigina görə gözünə döndügüm "İttihad" kəndçiləri məramnamə paylayanları döymüş, "müləvvəs" kağızları da alıb para-para eləmiş və ayağ altında tapdalamışlardır.



Bunu "İttihad" dinə girmiş olan xəlq üçün Məmmədbəyov cənabları böyük bir fəzilət kibi tələqqi ediyorlar.

Fəqət züha təəssüb batil, züha cəhalət tam! Zavallı hərif fərqində degildir ki, bu hal, bu təhəmsizlik, bu başqanın kağızını oxutmazlıq, bu təəssüb hər halda bir qüvvət degil, zəif əlamətidir, sonra Rəsulzadənin şəkli denilən şey bir bəyannamə, intibahnamə degil, sadə bir elannamədir.

Ədəbi və milli bir məcmuənin elannaməsi, oradakı Rəsulzadə şəkli bir firqə nümayəndəsi sifətilə degil, Azərbaycan istiqlalı elan edən ilk Şurayi-Milli rəisi sifətilə dərc edilmişdir. Orada yalnız möhtərəm Rəsulzadənin degil, parlaman rəisi Əlimərdan bəy Topçubaşov həzrətlərinin, hökumət rəisi Nəsib bəy əfəndinin, ordumuzun banisi general Səməd bəyin, ilk Azərbaycan hökuməti rəisi Fətəli xan Xoyski ilə bərabər sair ricalı dövlət və parlaman binası, Xan sarayı kibi milli və tarixi binaların rəsmləri vardı, ittihadçıların mütəəssüb çızmaları altında tapdalanan kağız yalnız Rəsulzadənin şəkli degil, millətimizi, tariximizi, Cümhuriyyətimizi, bir kəlmə, bütün müqəddəsati-milliyyəmizi təmsil edən ərkan və abidati müsəvvər bir vəsiqədir.

İttihadçılar firqəçilik naminə bütün bu müqəddəsatı ayaq altına alıb çətfətəkindən bir zövq alıyorlarsa alsınlar...

Fəqət bərəkət versin ki, bu təəssüb "İttihad" qəzetəsinin dedigi kibi qurultaya gələn köylülər tərəfindən degil, Mərkəzi Komitəsi əzası bulunan bir zat tərəfindən vaqe olmuşdur. Köylülər orada duran novldən paylanan elanları həvəslə alıb oxuduqda ikən Bəşir bəy Müsavatın mübəlliği degil, müvazi bulunan uşaqlara hücum eləmiş və köylü mürəxxəslərə də almış olduqları kağızları cırıb ayaq altına salmayı əmr eləmişdir.

Əfəndilər, iyi olmazmıydı ki, daha saf ürəkli olan xəlqi bu sonu pak fənə gələcək qara təəssübə öyrətməyəydiniz və namuskaranə olmazmıdı ki, kəndiniz işlədiginiz qəbahəti sizə inanmaqdan başqa bir qəbahəti olmayan sadə xəlqə istinad etməyəydiniz!

Köylülər ağanə olar qoyunuz oxuyaq görək nə yazıyor – deyirdilər. Fəqət siz bu hər bir məsləkin rəayət edəcəgi hürriyyət əsasına təhəmmül etmiyor:

– Adə, vurun, cırın!.. diyordunuz. Halbuki siz Bəşir bəy, qarşınızdakı vəzifə qulu kağız paylayan uşaqlar idi.

Məmmədbəyov, səndə əgər bir az insaf, bir az həmiyyət, bir az da siyasi mərifət olsaydı bəd xəbəri eşitdikdə xəcalətinizdən heç olmazsa qızarardın.

Fəqət sən də haqlısan, çünki qara imişsən! Qara isə qızarmaz!..

**Niş**

**"İstiqlal" qəzeti, 17 şubat (fevral) 1920, №6**

Müləvvəs – murdar, kirli
Batil – doğru olmayan, puç, boş
Züha – günəş işığı



## Yanlış təfsirlər

Azərbaycanın müttəfiq dövlətlər tərəfindən tanınması pək təbii olaraq Türkiyədə bizə qarşı dostanə təzahürlərə səbəb olmuşdur.

İstanbul mətbuatından milliyyətpərvər olan qismi bu vəqəyə böyük bir əhəmiyyət ətf edərək günlərlə Azərbaycandan bəhs eləmişdir.

Kəndi müqəddəratının qaranlıqlar içərisində bulunmasına rəğmən qardaş bir millətin təsdiqi-istiqlalını böyük bir sevinclə qarşılayan İstanbul məhafili-siyasiyyə və milliyyəsi mümə ssili-siyasimiz bulunan vəzirunə gələrək ərzi-təbrikat etmişlər. Türk ocağının təşəbbüsü ilə darülfünun salonunda türk mühərrirlərindən Xalidə Ədib xanımın təhti-riyasətində böyük bir məclis tərtib edilərək "Azərbaycanın yavru sancağı" (Azərbaycanın bala bayrağı) təziz edilmişdir.

Türklərin fazil və əməlpərvər mühərrirəsi həssas və riqqətavər nitqilə, Yusif Akçura bəy dəqiq və əhatəli natiqəsi ilə, Həmdullah Sübhi bəy atəşin və səmimi bəyanilə, böyük şairi Məhəmməd Əmin bəy də həyəcanlı bir sükuti ilə[1] Qafqasiya çöllərində, Bakı istirdadında axan qardaş qanının bihudə yerə axmadığını zikr etmişlər. Şəhidlər zikr edilmiş, yetimlər, dul qadınlar təsəlli bulmuşdur.

Türkiyə Məclisi-Məbusanı dəxi işbu təzahürata biganə qalamamışdır. Məbuslardan Hilmi bəylə Həmdullah Sübhi bəylər tərəfindən vaqe olan təklif üzərinə Azərbaycan Məclisi-Məbusanını təbrik etmək qərarı alınmışdır.

Biz Osmanlı əfkari-ümumiyyəsinin istiqlalımızın təsdiqi üzərinə vaqe olan dərin təzahüratından bu qədərini təlxis edə biliyoruz.

Oxuyucular buraya qədər oxuduqları ilə məqaləmizin ünvanı arasında ehtimal ki, bir münasibət görmüyəcəklərdir. Həqiqətən

[1] Əmin mütəhəyyic (həyəcanlı) olduğundan kürsiyi-xitabətə çıxmış və "pək ziyadə mütəəssir olduğundan söz söyləmiyorum" – deyə enmişdir. – M.Ə.

də öylədir. Böylə bir təzahüratda yanlışlıq görmək kəndisi böyük bir qəflət və yanlışlıq olardı.

Fəqət yanlış təfsir dedigimiz şey, bittəbii burada degil, biləks bu, sərfi-təbii olan mənəvi təzahüratı yanlış anlamaqdadır.

Böylə yanlış anlayışlar və yaxud bu halilqəsd suyi-təfsir edənlər az degildir.

İstiqlalımızın təsdiqi xəbəri çıxar-çıxmaz İstanbulda nəşr olunan bəzi erməni qəzetələrində haman Azərbaycan ilə Türkiyə arasında gizli bir müahidə əqd edildigi nəşr edildi. Bu xəbər digər Avropa mətbuatı tərəfindən, yenə bizə dost olmayan məhfillər tərəfindən başqa donlara geyindirilib məhafili-siyasiyyə üzərinə təsirlər icra etdirildi. İş o dərəcəyə gəldi ki, İngiltərə fövqəladə komissarı Burdrob rəsmən xariciyyə nəzarətimizdən böylə bir vəqənin mövcud olub-olmadığını xəbər almışdır.

Türkiyə ilə Azərbaycan arasında böylə gizli bir müahidənin mövcud olduğuna bir tərəfdən istiqlalımızın təsdiqi münasibətilə İstanbulda vaqe olan təzahürat, digər tərəfdən də son zamanlarda bəzi firqələr tərəfindən bolşeviklərin tərvic eləməkdə olduqları "şərq siyasətinə" fəzlə məyyal olduqlarını ehtiyatsızca nümayiş etdirmələri mühüm və mənidar bir dəlil və şahid kibi göstəriliyor. Bunlara zəmimə olaraq məmləkətimizdə bulunan türk mühacirlərinə ima olunaraq bunların burada ruyi-qəbul bulmaları dəxi bizim qüsurumuzdanədd olunur.

Düşmənlərin bu kibi vəqələrdən istifadə edəcəgi bittəbii bizim bir o qədər də təəccübümüzə mucib olmaz. Çünki düşmən olduqdan sonra onun vəzifəsi də budur. Düşməndən əhli-insaf və mürüvvət olmasını gözləmək düşmən nə olduğunu dərk etməməkdir.

Fəqət düşmənlərin bu yoldakı iftiraları görüyoruz ki, məəttəəssüf dostlarımızı şübhəyə salıyor. Görüyoruz ki, bu günə qədər bizə, bizim sədaqəti-siyasiyyəmizə etimad edən qomşularımız, bizə inanan siyasi dostlarımıza da bir şübhə və əndişə gəliyor.

Görüyoruz ki, yalnız Türkiyə ilə əqdi-ittifaq etdigimizə degil, daha ziyadə Türkiyə-Azərbaycan-bolşevik ittifaqından da bəhs



edib duruyorlar və bu bəhsə inanılmış kibi qərib bir vəziyyət alıyorlar. Azərbaycanın bu günə qədər təqib elədigi istiqlalçılıq və azərbaycançılıq məsləkindən şübhələnərək bizi müttəfiqlərə qarşı ümumən və qomşularımıza qarşı xüsusən gizli və mütəcaviz bir siyasət bəsləməkdə töhmətləndiriyorlar.

Bizi hər şeydən ziyadə mütəəssir edən müttəfiqimiz Gürcüstan mətbuatının nəşriyyatıdır. Gürcüstan mətbuatı doğrudan da Türkiyənin Azərbaycanla birləşərək təcavüzkar bir politika təqib edəcəgindən əndişə ediyor və yaxud kəndisini öylə əndişənak bir surətdə göstəriyor.

Ən təbii hüquqi-milliyyəsini tanıtdırmaq üçün pək müşkülat içində mübarizə edən Türkiyəyə "təyini-müqəddərat" əsasına dayanan yeni bir cümhuriyyət, mətbuatına yakışacaq surətdə dərdməndlik hissi ərz etməkdən isə Gürcüstan qəzetələri məəttəəssüf Türkiyə hərəkati-milliyyəsinə cahangirlik, Qafqasiyayı tutmaq, xristian milliyyətləri məhv etmək kibi əcib və qərib fikirlər isnadında bulunuyorlar.

Əcəba, bu isnadlarını nə kibi bir dəlilə dayandırıyorlar? – deyə soruyorsunuz!

Azərbaycan istiqlalı münasibəti ilə qardaş hissiyyatı bəyan etmək "xəta"sında bulunan İstanbul mətbuatına:

İstanbul mətbuatı Azərbaycan istiqlalından bəhs edərkən demiş ki:

"Azərbaycanın istiqlalı bizim istiqlalımızdır!"

"Qafqasiyada tökülən qanlarımız əlhədülillah ki, hədər getmədi. Dünyaya yeni bir qardaş hökumət gəldi".

"Biz bir tərəfdən itirdiksə digər tərəfdən qazandıq. Çünki bizi Rusiyadan himayə edəcək bir türk dövləti təşəkkül etdi".

Bu cümlələr kölgələrindən qorxan gürcü dostlarımız üçün məəttəəssüf kafi gəliyor ki, kəndi müqəddərati-siyasiyyəsini qurtarmaq üçün çapaladığı bir zamanda qardaş bir dövlətin səadətinə sevinməklə sevinən və bu sevinclə mənəvi bir təsəlliyat bulan möhnətkeş Türkiyəyə xatir və xəyalından keçməyən fikirlər isnad versinlər.

Gürcü müttəfiqlərimiz bir az insaf etsinlər:

Bakı bolşeviklərin əlində ikən onlar bizə yardım etmiyor, yardıma gələn türklərə qarşı almanları çağırıyor da Bakının istirdadını aylarla geri atıyorlardı. Böylə ikən gərək istiqlal bayramında, gərək isə Denikinə qarşı əqd elədigimiz ittifaq dəmlərində və nəhayət istiqlalımız təsdiq olunduğu günlərdə azmı dedilər, azmı yazdılar və azmı dedik, azmı yazdıq ki:

"Gürcüstanın istiqlalı Azərbaycanın, Azərbaycanın istiqlalı Gürcüstanın istiqlalıdır"

Əcəba, gürcü qəzetələri nə düşünüyorlar:

Böylə deməklə bizim Gürcüstana və yaxud Gürcüstanın bizə nisbət bir təcavüz fikri və yaxud ikimizin birlikdə digər sülusə qarşı hücum qəsdimi vardı?

Əcəba, nasıl olur da Bakımızın istixlası işində bu qədər əngəlli görülən qomşu Gürcüstan bu gün dost bir cümhuriyyət sifətilə "Azərbaycan istiqlalı bizim istiqlalımızdır!" deyə bilsin də, istiqlalımız yolunda bu qədər rəşid övladlarının qanını axıtmış olan və həqiqətən də əlimizdən tutub bizi yıxılmış ikən dikəldən qardaş bir millət bu sözü deyə bilməsin?...

Nədən?!...

İştə "yanlış təfsir" dedigimiz şey budur.

Məəttəəssüf bu yanlış təfsir var və yenə təəssüf ki, bu təfsir müqəddərati-siyasiyyəmiz üzərinə suyi-təsir icra edəcək bir mahiyyət kəsb etmək üzrədir.

Biz heç bir zaman inkar etmədik və yenə də etmiyoruz ki, Türkiyə müqəddəratı ilə mənən mərbutuz. Türkiyə həqqində rəva görülən bir həqsizlik millətimizin vicdanı və ruhu üzərində dərin bir acı buraxacağını heç bir zaman gizlətmədik. İmdi də gizlətmək istəmiyoruz. Demokratlıq və sosialistlik şüarları ilə tərbiyə edildigi ilə iftixar olunan gürcü milləti dəxi zənn etməyiz ki, bu həqsizligi hüsni-tələqqi edə bilsin. Onların vicdanı dəxi İstanbulu, İzmiri hüquqi-iqtisadiyyə və siyasiyyəsi təmamiyyəti-mülkiyyəsi əlindən alınacaq bir millət üçün sızlar zənn edəriz.

Fəqət onlarla bizdə bir fərq var:

Gürcü siyasiləri bugünki həqiqi mənfəətləri xatirinə kütleyinasın pək də həssas bir surətdə duymadığı bir acıyı təsirsiz buraxacaq bir tərzdə idareyi-lisan edə bilərlər. Fəqət biz "siyasəti-həqiqiyyə"nin bu dərəcəsini istəsək də tətbiq edəməyiz. Mütəşəkkir ürəgimizə qardaş qəminə şərik olma deyə bilməyiz.

Yalnız suyi-tələqqi edilməsin, bu o demək degildir ki, biz duyduğumuz mənəvi acı müqabilində macəraçıyanə bir siyasətə qapılıb da hərçe badabad kəndimizi həlakətə soxar və bu vasitə ilə qomşularımızı da məhv edəriz. Bu yenə o demək degildir ki, biz Azərbaycan istiqlalını da həlakə soxmağa hazır olarız.

Yenə işbu məntiqlə biz bu gün bizdə mehman sifətilə bulunan türk mühacir və millətçilərinə hər bir məmləkətin göstərməgə məcbur olduğu mehmanpərəstligi göstəririz. Bilxassə ki, bu mehmanlarla biz xilasımıza qoşan fədakar insanların xatirəyi-şükranı ilə mərbutuz. Fəqət bu yenə o demək degildir Azərbaycan kəndi siyasətindən kəndi xətti-hərəkətindən əl çıkib də təmam idarəyi Türkiyədən gələn millətçilərə veriyor.

Bu gün Azərbaycanda yalnız Türkiyədən degil, Gürcüstandan, Rusiyadan, Krımdan və sair yerlərdən gələn bir çox mühacirlər və millətçilər vardır.

Gürcü qomşularımızla olan bu "umu-küsü" ilə bərabər bir az da kəndi "siyasilər"imizdən bəhs etməliyiz. Bir taqım padrhiva mütəfəkkirlər hind, əfqan və Afrika məsələlərinin həllindən fəzlə bəhs edən siyasilər kəndi nəşriyyat və düşüncələrini bir az mənaca ölçsələr, bolşevizmin "Şərqə doğru" şüarına pək çox uymasalar, burada paşaların iştirakı ilə təsis olunacaq bir "diktatura"dan və toplanacaq 200 minlik bir ordudan bilapərvazanə və macəraçıyanə bir surətdə bəhs etməzlərsə həm həqiqət əhvalə yaxınlaşar, həm bəlkə də istəməyərək məmləkətləri həqqində bu qədər yalan xəbərlərə və bu kibi yanlış təfsirlərə məhəl verməzlər.

**M.Ə.**

**"Azərbaycan", 25 şubat (fevral) 1920, №39**

Müməssil – nümayəndə
Məyyal – çox meyl edən

## Ermənistanın qanlı icraatı

Əvvəlki gün Məclisi-Məbusan "Müsavat" firqəsinin təşəbbüsü və bütün müsəlman fraksiyalarının iştirakı ilə Karsda icra olunan qanlı qitallar səbəbilə hökumətə bir sual verilmiş və verilən sual firqə nümayəndələri tərəfindən müzakirə olunaraq nəticədə bilaetiraz qismi-məxsusimizə dərc olunan formul qəbul edilmişdir.

Bu formul Azərbaycan xəlqinin beynəlmiləl məsələlərin ermənicə şəkli-həllinə qarşı vaqe olan həyəcanından, can guşəsindən gələn etiraz sədası və nifrət nidasıdır.

Dün hökumətin Kars faciələri haqqında verdigi və mühəyyic Azərbaycan əfkari-ümumiyyəsinin əxbarı üçün söylədigi məlumat nədən bahis idi.

Qəzetə sütunlarını dolduran əsəfli xəbərlər yersiz degildir. Bu xüsusda hökumətin də ep-eyi məlumatı vardır. Bu məlumat üzərinə hökumət gərək Ermənistan hökumətinə və gərək düvəli-müttəfiqə nümayəndələrinə notalarla müraciət eləmiş, fəqət şimdilik yalnız Ermənistan hökumətindən cavab almışdır.

Xatisyanın Fətəli Xana verdigi cavabla hüzzar arasında bulunan mötəbər bir yəhudinin dedigi kibi yəhudi qanına girən əski çar hökumətinin cavabından ibarət: müsəlmanlar kəndiləri qırılmaq istiyor, kəndiləri gəlin, bizi kəsin diyorlarmış.

İki hökumət arasında təati edilən notlara birər material olmaq üzrə erməni generalı Ovsepyan ilə əhali-islamiyyə arasında təati olunan vəsiqələr heç şübhəsiz ki, bu qanlı icraatı vazeh bir lisan və şübhə buraxmaz bir bəyan ilə izah edən fəqərələrdəndir.

Ovsepyan kəndi prikazında Xatisyanın notasında denildigi kibi bir takım "müfəttin" müşəvviqlərə və yaxud kənardan gəlmə "macəraçu" agentlərə degil, sülhpərvər əhalinin lap özünə müraciət ediyor. Ermənistan notasında bütün əhali-islamiyyə məəttəşəkkür Ararat hökumətinə tabe ikən o, onları lehinə dəvət ediyor. Fəqət dəvət, nə dəvət! İki saat içərisində ya təslim və yaxud ölümə məram ediyor.



Qismi-məxsusimizdə dərc olunacaq bu vəsiqə erməni siyasətinin cinayətini açan şahkar vəsiqələrdəndir. Bu vəsiqə general Ovsepyana bir qitamati-riyaziyyə ilə isbat ediyor, istədigi şey iki saət içərisində həll olunacaq bir məsələ degildir və yenə bir həqiqət bahirə ilə göstəriliyor. Təbidindən bəhs olunan məhəll əhali-islamiyyəsi Ermənistanı heç bir vəqt tanımamış və hətta Avropa dövlətlərincə təsdiq olunmuş bir Ermənistan mövcud olduğunu Ovsepyanın cinayətkar prikazından ögrənmişlərdir.

Ermənistan hökumətinin rəsmi təkziblərinə rəğmən Ovsepyanvarı vəsiqələrlə dəxi təyid olunan Kars qırğını kəndisindən əvvəl vaqe olan Novobayazid, İrəvan, Zəngəzur və sair qırğınlar kibi bir əmri-vaqedir.

Bu əmri-vaqelərin bir plan və sistem üzərinə icra edilməkdə olduğu isə Zaruşad mahalında vaqe olan vaqeələr və bu vaqeələri təvəllüd edən "prikaz"larla müsbətdir.

Yoxsa "vahid" Ermənistanın paytaxtını təşkil edəcək Karsda ətraf-əknaf etibarilə xalis və xas bir erməni vilayəti təşkil etməlidir və bunu əldə etmək üçün oralarını mətlub olmayan qəsrlərdən xalimi etməkmi lazım gəldi?!...

Son zamanlar Parisdən Nobar paşanın vahid Ermənistan hökuməti lüzumi haqqında çəkdigi teleqram və Ermənistan hüdudunun sülh konfransında həll olunmaq üzrə bulunduğuna aid olan xəbərlər bu məsələ ilə əlaqədar kibi görülə bilər.

Ermənilər Kilikiya tərəfində hüdusindən bəhs elədikləri yeni bir "türk cinayəti" və "erməni qitalı" bağırtısı ilə Avropa əfkari-ümumisini, "Tan" qəzetəsinə görə yalandan bir vəlvələyə verdikləri və bu vasitə ilə zəhərlənmiş Avropa əfkari-ümumiyyəsində türklərə və müsəlmanlara qarşı yeni bir cərəyan doğurduqlarından istifadə ilə caniyanə planlarını tətbiq ediyorlar.

Yalan və mübaliğəli xəbərlərlə Avropa əfkari-ümumiyyəsini "bulandırıyor" və bulanlıq suda "Kars balığını" ovlamaq istiyorlar.

Məclisi-Məbusanda denildigi kibi bir ermənin üzü qanadığı zaman yüz erməni qətl edilmişdir kibi bütün dünya vəlvələyə gəlir, fəqət yüzlərlə müsəlman köyləri xak ilə yeksan edildigi halda kimsənin qulağına bir vızıltı da olsa gəlmiyor.

İştə qeyri-müsavi bir mübarizə.

Fəqət bununla bərabər vəzifəmiz bütün dünyaya eşitdirəcək qədər bağırmaq, Zaqafqasiya demokratiyası ilə bərabər bütün cahani-mədəniyyətə həqiqəti bildirməkdir. Bu vəzifə bu gün münhəsirən bizə aiddir. Zira karslı qardaşlarımızın bizdən başqa vasitəyi-müraciətləri yoxdur.

Biz dörd tərəfdən böyük bir türk aləmi ilə mühat olan Ermənistan xəlqinin müqəddərati-siyasiyyəsini idarə edən zəvatə onun türk xəlqlərinin qeyz və həyəcanını ixbarla bərabər ixtar ediriz ki, ayılın, sapdığınız yanlış siyasətdən dönün, dünki gündən heç olmazsa ibrət alın və bir kərə bilin ki, cəzirə dənizi qurudamaz, fəqət olur ki, dəniz cəzirəyi qərq eləsin, ona qarşı süni bir takım sədlər də kargər olmasın.

۞ ۞ ۞

Məclisi-Məbusan hökumətdən tələb etdi ki, Karsdakı müsəlmanların mallarını, canlarını, irz və namuslarını müdafiə etmək üçün hər növ tədbirlərə təvəssül etsin; bu tədbirlər bir takım diplomasi təşəbbüslər və kağız protestolardan ibarət olmayıb, daha ciddi şeylərdən və təsiri şədid əlaclardan ibarət olmalıdır.

Bu qəbildən olacaq tədbirlər qomşumuza ehsas etdirməlidir ki, hər şeyin də bir əndazəsi, hər fişarın da bir həddi var.

Bunu görsünlər də hədlərini bilsinlər!

**M.Ə.**
**"Azərbaycan", 11 mart 1920, №52**

Mühəyyic – həyəcanlandıran
Təati – dəyişmə, mübadilə
Fişar – sıxışdırma
Ehsas – hiss etmə
Hüdus – yaranma, baş vermə
Mühat – dövrəyə alınmış



# Dövri-hürriyyət

Keçən cümə günü paytaxt Məclisi-Məbusanın fövqəladə iclası və müxtəlif mitinqlər tərtibilə Rusiya inqilabının 3 illik sənəyi-dövriyyəsini təsmiyəd elədi.

Rusiya inqilabı bir nəzərdə bəlkə də müstəqil və müqəddəratını artıq Rusiyadan ayırmış Azərbaycan üçün uzaq bir vəqə kibi görülə bilər. Fəqət biz Rusiya inqilabi-kəbirini rus inqilabı mənasında alırsaq o zaman böylə bir tələqqiyə yer qalmaz.

Rusiya sözü rus imperializmi tərəfindən süni bir surətdə yoğrulmuş millətlər məxmurəsindən ibarət idi.

1917 sənəsinin inqilabı dəxi bu məxmurənin inqilabı idi.

Rusiya istibdadı müxtəlif tarixə, ənənata, həyat və məneviyyata malik olan cəmiyyətləri bir çəmbər arasına alaraq təzyiq ediyordu.

Hər təzyiq müqabil bir təzyiqi tövlid edər.

Rusiya inqilabı tərkiblərindən mühüm bir qismini iştə bu millətlər məsələsi təşkil ediyordu.

İnqilab Rusiyada vətəndaşlıq hürriyyətlərini təmin eləməklə bərabər bu böyük məsələnin də hesabını verməli idi.

Millətlər kəndi müqəddəratlarını təyinə həqlidirlər şüarı iştə inqilabın bu xüsusa verdigi hesab naticəsi idi.

Böyük Fransa inqilabı "hüquqi-bəşər"i elan eləmişdi. Böyük Rusiya inqilabı da "hüquqi-miləli" elan elədi.

Bu nöqteyi-nəzərdən baxılar və Rusiya inqilabının nəticələri mühakimə edilərsə, Rusiya inqilabı müvəffəq olmuşdur, deyə hökm vermək gərək.

Əgər böyük Rusiya parçalanmış, çarlığın hökmran olduğu ərazi üzərində bir çox sabiqən məhkum olan millətlər kəndi hökumətlərini təsis eləmişlərsə, bu təbiidir ki, "hüquqi-miləl"i elan edən bir inqilab üçün müzəffəriyyətdən başqa bir şey degildir.

Rusiyada mart inqilabını mütəaqib bir də oktyabr inqilabı (bolşevik xüruci) vaqe oldu ki, bu artıq Rusiya degil, rus inqilabıdır.

Böyük inqilabın iki mühüm dövrü var: biri Rusiya inqilabı, digəri də rus inqilabı.

12 martda vaqe olan Rusiya inqilabı müxtəlif millətlərin əxlutəsindən ibarət olan süni Rusiya milləti tərəfindən icra edilmiş idi. İkinci bolşevik inqilabı isə sırf bir rus inqilabı idi.

Birinci Rusiya inqilabının böyük amilləri dəxi Çixeidze, Sereteli, Kerenski kibi "Rusiya millətini" təşkil edən müxtəlif millətlərdən ibarət idi. Halbuki rus inqilabının başçısı Lenindir ki, hər cəhətcə tipik bir rusdur.

Rusiya inqilabı Rusiya vəhdəti namilə hərəkət edirkən, mənən Rusiyayı parçalıyordu.

Rus inqilabı isə zahirdə beynəlmiləl şüarlarla mühərrik ikən batinən rus cərəyanı olaraq qalıyordu. Nəticə etibarı ilə "hüquqi-miləli" elan etmiş olan böyük inqilab rusları ayrı, rus olmayanları da ayrı-ayrı olaraq öz kötükləri üstündə gögərməgə vadar ediyordu.

Nəticədə görüyoruz ki, həqiqətən də Rusiya inqilabı bütün sabiq Rusiya ərazisinə şamil ikən rus inqilabı yalnız ruslara şamil olmuşdur.

İnqilabın müxtəlif dövrlərini alsaq hər zaman "hüquqi-miləl" şüarının daha qüvvətli, daha səmərəli bir şüar olaraq qaldığını görürüz. Görürüz ki, hər hanki bir rus firqəsi bu şüarın həqiqi iqtizaatına etina etməmişsə məğlub olmuşdur.

Kerenski məğlub oldu, çünki inqilabın bu hikmətini dərk edəmədi.

İrtica qüvvəti məhv oldu. Çünki bu hikmətlə kökündən zidd idi.

Bolşeviklər ilk dövrdə müvəffəq olamadılar. Çünki bu hikməti əməl degil, bir vasitə olaraq istifadə etmək istədilər.

Əvət, böyük Rusiya inqilabının ən böyük hikməti süni Rusiya millətini təbii milliyyətlərə bölmək və cahangir Rusiya əvəzinə təbii milli hökumətlər təsis etmək idi. Böyük cahan müharibəsinin böyük hikmətini təşkil edən bu hikmət bilxassə Rusiya inqilabında təbəllür etmişdi.

Müzəffəriyyət bu aydın hikmətə hesab verən qüvvətindir.



Süni Rusiya millətinin əsarətində qalan təbii millətlərdən ruslardan sonra ən böyügü türk milləti idi. Rusiya çarizmi türklərin türk əfsanəsində məzkur bir əsarət, bir Kuyi-Qaf, bir "Ərgənəkon" idi. İnqilab isə Ərgənəkondan xilas yolunu göstərən bir pürtəçinə, bir qurtdur.

Bu nöqteyi-nəzərdən bizim üçün Rusiya inqilabının böyük günü bir qurtuluş günüdür.

Bu qurtuluş günündə şühədayi-rahi-hürriyyəti yad edərkən onların böyük ruhi hüzurunda inqilab məktəbatından olan hürriyyət və istiqlalımız yolunda azim olacağımıza və bu yoldan qətiyyən dönməyəcəgimizə əhd edəlim və çalışalım ki, inqilab məktəbatından olan Azərbaycan cümhuriyyətində inqilabın digər qazancları dəxi bütün safiyyətilə hökmran və demokrasi əsasları payidar olsun.

**M.Ə.**

**"Azərbaycan", 14 mart 1920, №53**

Məxmurə – məst, xumarlanan
Mütəaqib – ardınca, bir-birini təqib edən
Xüruc – üsyan etmə
Amil – məmur, icraçı
Təbəllür – kristallaşmaq, saflaşmaq

## Hürriyyət bayramı

Rusiya inqilabının üç sənəligi münasibətilə martın 12-də "Müsavat" firqəsi tərəfindən "Türk ocağı" salonunda böyük bir ictima tərtib edilmişdi. Saat 11 radələrində salon camaat ilə dolmuşdu.

"Müsavat" binası bayırdan və içəridən qırmızı, göy və milli Azərbaycan bayraqlar ilə müəzzən idi.

Salonda rəngarəng bayraqlar arasında "Yaşasın istiqlal!", "Yaşasın təyini-müqəddərati-miləl!", "Yaşasın hürriyyət!", "Yaşasın böyük türk milləti!" şüarlı lövhələr asılmışdı.

Səhnədə bir əlində Azərbaycan bayrağı, digər əlində istiqlal lövhəsi olaraq çəkilmiş bir Azərbaycan köylüsü duruyordu.

Saat 12 radələrində məclisi Abbasqulu Kazımzadə əfəndi açaraq inqilab həqqində müxtəsər bir nitq ibraz ediyor, inqilab içində böyük qurbanlar cərgəsində istiqlal uğrunda verdigimiz şühədanın istirahəti-ruhi üçün ayağa durmayı təklif ediyor. Abbasquludan sonra zeyldəki natiqlər danışıyorlar!

... Bu arada parlamanın təntənəli iclasından qayıtmış Məhəmməd Əmin əfəndi alqışlar altında kürsiyi-xitabətə çıxıyor. Rusiya inqilabının mahiyyəti üzərində danışmaqla Rusiyada vaqe inqilabın – rus inqilabının Rusiya inqilabından ayrılmasını lazım biliyor. Rusiyanın inqilabı əvvəllər Rusiya inqilabı idi. O inqilabı Rusiyada yaşayan bütün millətlər yaratmışdı. Çünki Rusiya istibdadən bu millətləri sıxıb zorla süni bir Rusiya milləti halına salmağa çalışmışdı. Fəqət istibdad məhv olarkən bu süni mərbutiyyət də rəf olmuşdu. Zəncir qırılmışdı və millətlər kəndi mənliklərini meydana çıxarmışdılar.

Fəqət rus inqilabçılarının sonralar Rusiya inqilabını rus inqilabı halına salmalarını, Rusiyanı rus mərkəzinə tabe etmək istəmələrini ətraflı surətdə təsvir etdikdən sonra diyor ki, – təzədən bu mərkəziyyət fikri istər əvvəldə, istərsə indi yalnız ruslar arasında hakim idi. Bu gün bolşevizmin də ancaq velikorus dairəsində dolandığını və oraya təkiyyə etdigini görməkdəyiz.



Natiq Rusiya inqilabı başında duranların bu həqiqəti başa düşmədiklərindən və bunun sayəsində də Rusiya inqilabını bu günlərə götürdüklərindən bəhs etdikdən sonra millətlərin təbii hökumət qurmağa başladıqlarına və bu yolda vaqtilə Rusiya inqilabı başında duranların rus inqilabı başında duranlardan ayrıldıqlarına nəqli-kəlam ilə diyor nasatiqin ittihadı zülm ilə və süni bir surətdə icra ediləməz. Dünyada ən təbii üsuli-idarə milli hökumət quruluşudur.

Dünyada millətlərin sayı qədər milli hökumət olmalıdır. Ancaq böylə olanda sonra millətlərin arasında federasyon əsasilə vücuda gəlmiş bir ittifaq bəşəriyyətin səadətini təmin edə bilər.

Məhəmməd Əmin əfəndinin nitqindən sonra saat 4 radələrində ictima qapanıyor.

**"İstiqlal" qəzeti, 18 mart 1920, №11**

Nasatiq – yalan, sədaqətsiz

## Qurtuluş günü...

Bunun İranın təsirilə bizə keçdigi adı novruzdur.

Novruz, məlum olduğu üzrə yeni gün deməkdir. Bu yeni günə əski türklər qurtuluş gününə bahar kibi baxarlardı. Çünki əski bir türk əfsanəsində məzkur olduğu kibi "Ərgənəkon"da məhsur qalan türklər bu gün qurtulmuşlardı. Bunun üçün də onlar bu günü və 9 marta işarə edən 9 ədədini təfdis edər və bu gün "rəhbər"ləri olan qurd başını daima bir qurtuluş (nicat) rəmzi kibi tələqqi edərlərdi.

Novruz iranilərcə dəxi qurtuluş günü kibi əfsanəvi bir dövrdən başlayaraq tarixi-təsisi Cəmşidə isnad edirlər. Fələn gərək İran və gərək Turanda bir yer yoxdur ki, novruzu bayram sanlamasın.

İran bayramı tələqqi olunan novruz Türküstanda İrandan az tutulmaz. Volqaboyu ilə Türkiyə dəxi novruzu mütəntən bir surətdə degilsə də yad edərlər.

Bu gün təbiət bayramı olmaq həsbilə bütün dünyanın dəxi bayramıdır. Hər hanki millətin adat və ənənatı tədqiq olunursa, yafəs, (pasxa), ya eydi-xızır, ya mayıs və yaxud sair bir ünvan ilə aşağı, yuxarı bir bahar bayramı vardır.

Turan ilə İranın bu xüsusdakı iştirakı bu iki aləmin əskidən bəri yekdigərilə təsadüf, təsadüm və təarüzündən iləri gəlmişdir.

Novruz Cəmşidi, bir vəqt ərəblərin istilasından sonra İranca tamamilə tərk edilmiş və yaxud etdirilmişdi. Yalnız bundan 8 əsr əvvəl türk hökmdarlarından Cəlaləddin Məlikşah Səlcuqi tərəfindən ehya edildi və o gündən etibarən isminə Novruz Sultanı denildi.

Ərəb hökuməti tərəfindən mən edilən bir bayramın türk Sultanı tərəfindən ehyasını "qurtuluş" təsirinin "anlubizm" təriqilə zühura gəlməsi ilə təfsir və izah edərsək günahmı olur?



* * *

Təbiətin qaranlıq və soyuq qış cəngəlindən çıxdığı bu gün, zülm üzündən göylərə çıxmış Cəmşidin nüzuluna və dörd yüz sənəlik bir dövri-əsarəti tərk etmiş böyük bir qurd qurtuluşuna nə gözəl bir rəmz, nə mənidar bir işarətdir.

Bu günün zikrini təşkil edən dua vəqtilə iranlıları zülmdən, turanlıları mühasirədən qurtarmaq surətilə müstəcab olmuş. Fəqət icabını qoyun olunacaq istidalarını tamamilə qane edəməmişdir. Çünki yeni gün daima hərəkətdə və irəliləməkdə olan həyatın daima köhnələnməkdə və təkrar təzələnməkdə olan səhifələrini göstərən bir vərəq başıdır.

Yeni gün köhnəlir, köhnə gün təzələnir. Ortada köhnənin yeniyə təhvili vaqe oluyor. Bu təhvil saətinin kəndinə məxsus duası var. Bu dua ilə hər kəs halını "əhsən halə" təhvilini istida eylər.

Bu duayı bir şəxs, bir ailə zəbani-hal ilə söylərkən təbiidir ki, fərdlərin və ailələrin məcmuindən ibarət olan bir millət də bunu zəbani-hal ilə təkrar ediyor.

Müstəqil bir Cümhuriyyət içərisində gözəl bahar bayramını, qurtuluş gününü təsmid edərkən ilk nəzərdə bəzi fəzlə nikbin olanlarımızca daha ziyadə "əhsən hal" istəməgə bəlkə də məhəll yoxdur.

Fəqət Cümhuriyyəti-mövcudəmizin böyük bir nemət olmasını təqdir etməklə bərabər, burasını dəxi unutmamalıyız ki, "baharı" hər kəsdən daha ziyadə istəyən və qurtuluşa hər millətdən daha ziyadə möhtac olan böyük aləm var ki, daha yeni gününü bulmadı.

Dünyanın mühüm bir qismi ilə bərabər böyük türk aləmi, aləmin şiddətli bir təhvilə məruz bulunduğu bu zamanda mühəvvəlüləhvaldan böyük bir ehtiyacla niyaz eylər və der ki:

"Ya mühəvvəl-ül-hövl və ila hövl
Hövl halina ələhsən-ül-hal!"*

**M.Əmin**

**"Azərbaycan", 19 mart 1920, №58**

## Almaniyadakı hərəkət

Almaniyada iş başına gəlmiş sosialist hökumətini düşürərək yeni bir qüvvət hökumət işlərini əlinə almışdır.

Yeni hökumətin başında manarşik Almaniyanın bənam generallarından Eyrpik kibi cəng adamları və doktor Qup kibi siyasilər durmuşlardır.

Şeydeman, Ebert Snuski koalisyonundan ibarət olan əski hökumət hər nə qədər üsyan çıxaran əskərlərin qatarı qabağında Berlini tərk ilə Drezdenə çəkilmişsə də hökumətdən əl çəkməmiş, biləks hüquqini isterdad üçün tədarükə başlamışdır.

Yeni hökumət hər nə qədər əşxas etibarilə tamamilə manarşik və əski üsul tərəfdarı bir simayə malik isə də dildə kəndisinə "hürriyyət və səlah" hökuməti namını verməkdədir.

Hürriyyət və səlah naminə açılan bu davanın mahiyyəti təhlil edilərsə qarşı-qarşıya gələn adamların şəxsiyyətini birər rümuz kibi alsaq, hər halda Terpiç və Tuska kibi iki mətin adamın toqquşduğunu görüyoruz. Bittəbii toqquşan yalnız iki adam degil, iki qüvvətdir.

Teleqraflar Drezdendə çəkilən sabiq hökumət qüvvələrinin Berlin üzərinə hərəkət etməkdə olduqlarını və bir çox şəhərlərdə əmələlərin tətili-ümumi elan elədiklərini bildiriyorlar. Berlinə hakim bulunan yeni hökumət dəxi siniflərini hazırlamaqdadır.

Başlanan bu daxili müharibədə hankı qüvvətin qalib gələcəgi məsələsini kənarda buraxaraq vaqe olan hərəkəti və bu hərəkətin siyasəti-aləm üzərində icra edə biləcəgi təsiri bir az tədqiq edəlim.

İnqilab hökumətinə qarşı böyük bir protestodan ibarət olan bu hərəkəti doğuran ən böyük amil heç şübhəsiz ki, Versal sülhünün Almaniya haqqındakı amansızlığıdır. Almaniyanın koloniyalarını, gəmilərini, vaqonlarını, itiklərini belə əlindən alan bu amansız sülh və böylə bir amansız təklif qarşısında dərmansız qalan sosialist hökumətinin möv-qeini bittəbii sarsmışdı.

Dünyayı sarsan o ağır başlı millət böylə bir zərbə nəticəsində təməlindən sarsılmaya bilməzdi. Bu sarsıntı ürəklərində pək təbii olaraq bir fikri-intiqam bəsləyən Almaniya təbəqələrini



hərəkətə gətirəcəkdi. Terpiçin başına keçdigi hərəkət böylə bir fikri-intiqam ilə cuşa gələn hərəkət olsa gərək.

Versal sülhünün bir nəticəsi olan bu hərəkət Brest-Litovsk sülhündən sonra da vaqe olmuşdu.

Brest-Litovskda Rusiyanın başına gətiriləni Versalda Almaniyanın başına gətirdilər.

Brest-Litovskdan sonra bolşeviklər dəxi eserlərin qiyamına məruz qalmışlardı. Eserlərdən sonra Kaledin-Kolçak-Denikin kibi bir sıra üsyanlar və qiyamlar oldu.

Bu hərəkətdə, əcəba, cərihədar olan hissiyyati-milliyyəyi bəhanə edərək hökumət davasına qalxmış bir qüvvət, yoxsa Mustafa Kamal Paşa kibi millətin sinei-məcruhundan doğma bir əsərmidir?

Almaniyanın mötədil sosialistləri vəqtilə orasının bolşeviklərini təşkil edən Spartakların ələləcələ öhdələrindən gəlmiş bolşevizm genişlənməsinə meydan verməmişlərdi. Halbuki sağlardan gələn zərbəyə pək o qədər sürətlə cavab verəməyib hələlik paytaxtı tərk etdirdilər. Daha sonra nə yapacaqlar intizarə bağlı bir məsələ.

Əcəba, Rusiyadakı daxili müharibələrdən sonra bir də Almaniya ixtilallarınamı şahid olacağız?

Daxili müharibənin müqəddiməsi zahirdədir. Fəqət Almaniya xəlqinin ifratpərvər olmasından vətən fikrinin oraca daha yüksək olduğundan ehtimal bu müharibat Rusiya qədər uzanamaz və daha çabuq olaraq bir nəticəyə iqtiran edər.

Hər halda Almaniya ixtilalını meydana gətirən amillər içərisində Versal sülhünün amansızlığı böyük bir amil olmuş və bu amansız şəraiti-sülhiyyə baqi qaldıqca müşküldür ki, Avropa aləmi və o münasibətlə də bütün aləm rahət üzü görsün, səlamət sahilinə çıxsın.

**M.Ə.**

**"Azərbaycan", 19 mart 1920, №58**

Bənam – məşhur, şöhrətli
Rümuz – rəmzlər
Məcruh – yaralı; ləkələnmiş
İqtiran – yaxınlaşma
Cəriha – yara

## Məhəmməd Əmin Rəsulzadənin parlamanda çıxışı

**Məhəmməd Əmin Rəsulzadə** – (əsəbi bir halda minbəri-xitabətə çıxıyor). Əfəndilər! Burada müəyyən bir məsələ var. O məsələ budur ki, Qarabağda Azərbaycan istiqlal və hürriyyətinin düşməni olan bir ünsür tərəfindən fəsad və üsyan qaldırılmışdır. Bu fəsad qarşısında hökumət və bütün məmləkət əmri-vaqe qarşısında bulunaraq mübarizə ediyor. Burada digər bir sui-qəsdin şəriki, Qarabağda degil, Bakının özündə, Azərbaycan mərkəzində böyük bir üsyan qaldırmağa iştirak edən birisi, bir asi burada diyor ki, nə qədər siz biz asilər ilə uzlaşmamısınız Qarabağ asiləri ilə mübarizə edəmiyəcəksiniz, binaənileyh bir üsyanı yatırmaq üçün hökuməti, ümuri-idarəni biz asilərin əlinə verməlisiniz.

Əfəndilər! Üsyan çığıranın adı Əliheydərmi olsun, ya Vartazarmı olsun, ikisi də asidir. Qarabağdamı və Bakıdamı çıxışda bulunsun, ikisi də birdir.

Bizə diyorlar ki, ermənilər ilə mübarizə edəmiyorsunuz, bu mübarizəni Azərbaycan davam etdirə bilməz. Qarabağ asilərini təfkil etmək üçün Sovet Rusiyasının qırmızı ordularını buraya gətirməlisiniz... Bu nədir? Bu söyləyən əcəba kimdir? Bunu deyən Azərbaycan xalqının nümayəndəsimidir və yaxud məclisi-məbusan üzvü sifətilə guya bizimlə Azərbaycan müqəddəratı məsələsində şərik görünən Rusiya vəkilidir? Öz içərimizdən bizə ultimatum veriyor, bizi qırmızı Rusiyanın orduları ilə təhdid ediyor?

**Səslər:** Ar olsun.

**Məhəmməd Əmin** – (Qayət hərarətli və həyəcanlı bir halda): Bumudur vətənpərvərlik? Böyləmi danışır bir cümhuriyyət üzvü? Böyləmi sözlər söylər bir xalq nümayəndəsi?

Əfəndilər! Bu kibi ultimatumlara fürsətdən bilaistifadə asi əlini dal qapıdan millətin hüququna uzatmaq derlər. Bən burada



hər halda bir Azərbaycan Məclisi-Məbusan üzvü degil, bir Rusiya vəkilinin, bir Rusiya agentəsinin sözünü eşidiyorum.

**Soldan səslər:** Pravokasiya...

**Məhəmməd Əmin (davamla):** – Əvət, siz pravokasiya diyorsunuz... Nə üçün siz böylə ümid ediyorsunuz ki, Azərbaycan xalqı bir asi ilə mübarizə edə bilmək üçün kəndi hüququnu ikinci bir üsyan hazırlamaqda əli olan Qarayevlərə təslim etməli imiş? Qarabağ asilərini bəgənmiyorlar. Onlar ilə mübarizə etmək üçün buradakı üsyançılara təslim olmağı təklif ediyorlar. Bununçün nəzərə alınmıyor ki, Qarabağda üsyan qaldıran Vartazarlar həmin bu asilərin başındadırlar ki, siz də onda iştirak ediyorsunuz. Əgər siz bəni təmin etsəniz ki, ümuri-idarə əlinizə keçdigi təqdirdə burada Azərbaycan türk hökuməti təşkil edəcəksiniz, əgər mən bilsəm ki, **Azərbaycan hökuməti adı ilə Rusiya Sovetinin bir şöbəsini burada** açmayacaqsınız, o vəqt sizinlə danışa bilərdik. Bu sözlər əvəzində bizi qane edəcək dəlillər göstərə bilsəniz, biz hər vəqt sizinlə danışardıq, fəqət siz həqiqi bir istiqlaliyyətçi degil, digər bir üsyan hazırlayan bir sui-qəsdçisiniz. Siz bu gün bombalar ilə, silahlar ilə əsgər arasına girib onları təftiş etməklə bizi özünüzlə danışdırmaq istiyorsunuz... belə asilər və bombaçılar ilə bomba ilə danışarlar. Əgər siz bəni inandırdınız ki, o böyük şüarlara əməl olunacaq, bu millətin hüququna riayət ediləcək o halda bən sizinlə danışardır. Fəqət həqq və hüquqdan danışmaq əvəzinə bizi təhdid ediyorsunuz ki, hökuməti bizə verməsəniz, dalımızda böyük Rusiya və onun böyük qırmızı ordusu var. Onlar gəlib bizi qıracaqlar. Siz bizi böylə qorxuduyorsunuz.

Əfəndilər! Məsələ qətiyyən pək mühümdür. Zənn etməyiniz ki, bənim könlümdə Rusiya bolşeviklərinə qarşı o qədər böyük inad vardır ki, sui-niyyətə alışaraq onlarla anlaşmaq istəməm. Xayr, həmişə mühakimə etmək mümkündür. Bir takım şəraiti-siyasiyyə ilə uzlaşmaq, barışmaq olur. Fəqət bizə desələr ki, əgər bir üsyançı qüvvətlə barışmazsınız, Rusiya da sizinlə barışmayacaqdır. Biz görsək ki, bizim içərimizdə bir neçə Əliheydərlər varmış, onlarla hesablaşmaq lazım imiş, lakin bir millətin rəyi

və hüququ ilə hesablaşmaq lazım degilmiş, o halda biz böylə bir qüvvətə heç vəqt inanmarız. Axırda bir qurd ilə qoyunun məsələsinə bənzər. Onun üçün siz hər şeydən əvvəl bəni iqna ediniz görək o millətlərin haqqını tanıyıb ada etmək istəyən qüvvə millətlərin hüququnu özünə vermək üçün gəlib Qarabağ məsələsini həll edəcək, yoxsa Qarabağ məsələsi adilə gəlib bizi çiyniyəcəkdir.

Onların pulu ilə burada bombalar alıb bizi o vasitə ilə özünüz ilə hesablaşdırmaq istiyorsanız isə qoyunuz millət öz işini görsün. Əgər o qüvvə sənin kibilərin əqli ilə Şərq məsələsini həll edəcəklər isə və bizlər ilə o yolda hesablaşacaqlar isə onda bən onlara inanamam. Əgər Əliheydər Qarayev kaprizi ilə olanlar buraya gələcəklər isə, o vəqt onlar bizə dost degil, düşməndirlər.

Sonra burada Əli Bayramov məsələsi çıxardılar. Madam ki, bunu meydanda isbat edəcək bir sənəd yoxdur, bən buna böhtan diyoram. Əgər bu dedikləri isbat ola ki, həqiqətdə böylə vaqeə olubdur, onda əmin olunuz ki, hökuməti düşürmək istəyən şəxslərin əvvəlincisi bən olacağam, çünki hökumət kim olursa olsun, onda caniyə yer yoxdur. Fəqət bunu söyləyən siz, daşnaqların Qarabağdakı xəyanətlərindən istifadə edib hökuməti yıxmaq istiyorsunuz. Olsun ki, fikrinizi yeritmək üçün Əli Bayramovu özünüz gizlədib hökumətə böhtan diyorsunuz. Qaldı ki, Rusiya ilə hesablaşmaq başqa, Əliheydər ilə hesablaşmaq da başqadır. Bu gün bizim nicatımız ondamıdır ki, hökuməti Əliheydər Qarayevlərə təslim edək, bugünki məsələ budur ki, Qarabağda bizə asilər üsyan qaldırdılar. Həqiqi bir millətpərvər olursaq, əldə silah oraya koşmalıyız. Bu gün bundan başqa məsələ ola bilməz. (Alqış).

**"Azərbaycan",**
**1 nisan (aprel) 1920, №67**



# Ordumuz zəfərdə

Müşkülatlı günlərdə dəxi qərəzləri unuda bilməyən, hesablarını sabaha qoymaq istəməyən "siyasi"lərimizin, giriftarlığımızdan istifadə eləməyi unutmayan rəqiblərimizin, talein qaş çatmasını görüncə zəhərxəndələrlə gülən düşmənlərimizin bilərək-bilməyərək əfkari-ümumiyyədə doğurduqları böyük bir şübhə vardı.

Əcəba, Əskəranı təkrar alacaq, Qarabağ üsyanını basdıra biləcəkmiyiz?!...

Aprelin birində Məclisi-Məbusan kürsüsündə hökumət naminə məlumat verən daxiliyyə naziri hər kəsi düşündürməkdə olan bu suala:

"Yaxın bir zamanda Qarabağda bərhəm olan intizam və asayiş təkrar bərqərar olur!" deyə cavab veriyordu.

Fəqət ürəkləri siyasəti-vəsvas ilə döğünən, dilləri isə xeyrə pək də alışqın olmayan münəqqid məbuslar isə bu mətin bir etimadla söylənən bəyanata qarşı zəhərxənd istehza fırlataraq:

– Bu hökumət yapamayacaqdır! – diyorlardı.

Məbusanda bu qədərlik bir kinayə ilə millətin ümid və imanına rəxnə vuran "bədniyyətlik" əfkari-ümumiyyəyi yasamiz xəbərlərlə əziyor, ümumi bir həyəcan doğuruyordu.

İmanları qəvi, təbiətləri nikbin olanlarımız hər nə qədər bunun "iki günlük" bir məsələ olduğunu bəyan ediyorlardısa da təvəhhüm tamamilə ortadan qalxmıyordu.

Böylə ikən mübahisəyə gənc ordumuz müdaxilə etdi. Bütün Azərbaycanı başdan-başa sürurə qərq edən bir xəbər gəldi:

– Əskəran alındı!

Əskəran erməni asilərinin əhdi-şəkinanə bir surətdə gecə basqını yaparaq ələ keçirdikləri bir istehkam idi.

Bu istehkam bir boğaz üzərində vaqe olub iki tərəfində vaqe olan yüksək sərtlər tamamilə erməni köyləri tərəfindən məskundur.

Qarabağın Dardanelini təşkil edən bu keçid tarixdə çox böyük orduların qabağını saxlıyaraq çox böyük müdafiələrə şahid olmuşdur. Burada beş yüz fədakar və müsəlləh adam olursa fir-

qələrin qabağını saxlaya bilər. Keçidin ətrafı daxi asi erməni köylərindən ibarət olunca təsəvvür etməlidir ki, cavan Azərbaycan əskəri nə kibi bərk bir səngəri almaq vəzifəsilə müvəzzəf idi.

Qəhrəmanlarımız öhdələrinə götürdükləri vəzifəyi parlaq bir surətdə ifa etdilər. "Ya Allah, Əskəran yenə bizimdir!" deyə millətin qəlbinə girib də vəsvəsələr çıxaran xənnası susdurdular.

Cəbhədən dönüb gələn bir arkadaşımız əskərlərimizin xudapəsəndanə bir surətdə döğüşdüklərini anlatırkən diyordu ki, Daş Başı hücumuna hazırlanan bir əskərə "haraya gediyorsunuz" – deyə sorduğum zaman "Daş Başına gediyoruz ki, onu baş daşı edəlim" cavabını verdi.

İştə həpimizə nümunə olacaq əzm və ümidin şairanə bir misalı!

Əskəran zəfəri ordumuzun yapdığı təcrübələr içərisində demək olur ki, ilk zəfərdir. Lənkəran səfəri yalnız ordunun sərəməti ilə həll olunmuş, orada silah sınamağa ehtiyac qalmamışdı. Zəngəzur hadisəsi hər nə qədər ordumuzun şücaətini göstərmişdisə də, nəticə etibarilə bir zəfər olamamışdı.

Əskəran artıq gənc ordumuz üçün həqiqi bir sınaq oldu. Lillahilhəmd ki, bu sınaq Azərbaycanın taleinə inanan bütün mömin qəlblərə sevinc verdi, vəsvəsəli ürəklərə dayaq oldu.

Düşmənin xəyanətinə qarşı mahiranə bir surətdə müqabilə edən Şuşa və Xankəndi qarnizonları ilə vuruşacaq bu qəhrəman qüvvətlərimiz artıq əmin olalım ki, erməni macəraçılığına qəti bir intəha verərək Qarabağ məsələsini birdəfəlik həll edəcəkdir.

– Yaşasın gənc ordumuz! Ulu tanrı zəfərlərini çoxaltsın!...

Ordumuzun zəfərindən bəhs edərkən məmləkətin hər tərəfindən axıb gələn fədakar könüllülərimizdən uzun-uzadıya bəhs etmək istəmədim, çünki ordu millətin qabiliyyəti-müdafiəsini təsdiq edən bir qüvvətdir. Ordunun zəfəri millətin, millət fədailərinin zəfəri deməkdir.

Müzəffər ordumuza verilən səlah ordu ilə bərabər qanını axıdan bütün fədailərə aiddir. Səyləri məşkur, ruhlar şad olsun!

**M.Ə.**

**"Azərbaycan", 6 nisan (aprel) 1920, №68**



Firqə – bölük, dəstə
Təvəhhüm – vahimələnmə
Müvəzzəf – vəzifəli
Xənnas – iblis, şeytan
Vəsvas – yoldan çıxaran, iblis
Məşkur – təşəkkürə layiq, yaxşı
Sürur – şadlıq, sevinc

# Məclisi-Müəssisan seçkiləri münasibətilə bütün Azərbaycan Cümhuriyyəti vətəndaşlarına elan

Azərbaycan Cümhuriyyəti Məclisi-Müəssisan mərkəzi intixab komisyonu qərarına görə həmin nisan ayının 20-ci günündə cümhuriyyət ərazisində icra olunacaq Azərbaycan Məclisi-Müəssisan seçkiləri münasibətilə təhriri-nüfus yapılaraq seçkiçilər siyahısı tərtib ediləcək. Qanuna görə Məclisi-Müəssisan seçkilərinə seçki siyahılarına daxil edilmiş iyirmi, yaxud ondan artıq yaşı olan arvad, kişi, məzhəb və millət fərqi olmadan hər bir Azərbaycan vətəndaşı iştirak edə bilər.

Vətəndaşlara lazım olan məlumatı toplamaq və sizləri seçicilər siyahısına yazmaq məqsədilə sizlərə xüsusi şəhadətnamələrə malik müqəyyidlər tərəfindən qələmdən düşürülmüş hər vətəndaşa seçki həqqindəki qanunun 29-cu maddəsinə görə kəndisini siyahıya qeyd etdirmək üçün on gün vəqt veriləcəkdir. Bu vəqt əlahiddə olaraq elan ediləcək, fəqət bəzi rəsmiyyət tələb edən bu qeyd üsulu seçkilərin bir çox vəqt sərf etməsinə səbəb olar. Bunun üçün seçki həqqinə malik vətəndaşların seçkilərə iştirak etməsini yüngülləşdirməyə çalışan Azərbaycan Məclisi-Müəssisan mərkəzi intixab komisyonu göndərəcəgi müqəyyidlərə inanaraq onlara lazım gələn məlumatı verməklə geniş bir surətdə kömək etməyi qənə edər. Bununla bərabər məzkur təhriri-nüfusun fövqdə göstərilmiş məqsəddən başqa heç bir məqsəd və niyyət bəsləmədigini mərkəzi komisyon əlavə edər.

**Komisyon rəisi: Məhəmməd Əmin Rəsulzadə**
**Katib: Mehdi bəy Hacınski**

**Azərbaycan", 20 nisan (aprel) 1920, №78**



# Birlik lazımdır

Bulunduğumuz vəziyyətin, keçirdigimiz dəmlərin ciddiyyət və məsuliyyəti hər zamandan daha ziyadə bizi tənbeh etməsi bir tərəfdə aramızdakı cərəyanların salim və əmin bir istiqamətdə durmamaları, digər tərəfdə artıq həpimiz üçün bir şüarı, bir vəzifəyi bütün əhəmiyyəti ilə bərabər təlqin ediyor:

– Birlik lazımdır!

Tarix müşkül vəziyyətləri, möhlək dəmləri hər zaman təkrar etmiş və hər təkrarda millətlərə bir təcrübə və təcrübə ilə bərabər də həqiqi bir vəzifəyi də əmr eləmişdir.

Bir millətin hali-rəşadətdə olduğu bir cəmaətin müqtədir və vəzifəşünas bulunduğu o zaman məlum olur ki, o millət mucibitənqid dəmlərdə əql və mühakiməsini itirmədən müəyyən bir yol ilə sələmət və istiqbalına təmas edən məsələlərə hakim oluyor.

Macəraçuluğun nəticədə daima müvəffəqiyyətsizlik və peşimançılıq hüsula gətirdigi bizim bu Rusiya dövri-inqilabında bizzat öz həyatımızda dəxi görüb bildigimiz bir həqiqətdir.

Macəraçuluğa bir siyasət xəyalda, əməldə nə qədər dadlı olsa, nə dərəcə cazib bulunsa da həqiqətdə bir çox acılıqları, bir çox xəsaratlıqları mucibdir ki, bir məmləkətin və bilxassə bizim kibi yeni və gənc bir dövlətin həyat və istiqbalına ancaq mənfi bir təsir yapar.

Bu gün bizə bir şimal təhlükəsi bütün vüzuhilə vardır. Bu təhlükənin faidəsini təsəvvür edənlər, bu təhlükədən istifadə etməgi düşünənlər bugünki millətlər siyasətinin, dövlətlər ahənginin həqiqi simasına az vaqif olan gərək əqldə, gərəksə məntiq cəhətincə zəif bulunduqlarındandır ki, iştə biz bunlara da bütün səmimiyyət və ciddiyyətimizlə deyiriz: birlik lazımdır. Birligimiz bir qüvvət, bir müdafeə sipəri meydana çıxara biləcəgi halda birliksiz, bərabərsizlik, zəifiyyət ricətdən başqa bir nəticə hüsula gətirəməz.

Bütün siyasi firqələr Müsavat, İttihad və sosialist, Əhrar və hər əqlli-başlı, siyasətdən, zamandan xəbərdar şəxslər şimdi

möhkəm bir qala və hasar kibi camaat və məmləkəti əhatə etməli bir şüar, bir fikir, bir vəzifə ilə də hökumətimizə pişrov olmalıdır.

Bugünki vəziyyət bizim üçün bir müdafiə vəziyyətidir. Bu müdafiə nə qədər intizam və qaidə ilə, nə dərəcə inzibat və intizam ilə olursa, o qədər də hal və istiqlaldan əmin qala biləriz.

Şimdi hər vətəndaş kəndi bacara biləcəgi vəzifə ilə müttəhid bir qüvvət halında hazırlanmalı və hökumətimizin bütün əmrlərinə, bütün qərarlarına riayət edərək bir müdafe halında gözükməlidir. Biz əminiz ki, bu birliklə bugünki vəziyyətdən biz zərərsiz, xəsarətsiz çıxa bilir və istiqlal tariximizin bugünki səhifəsini də qurtarıb yolumuzda ilərilərız.

İstiqlal tarixi filhəqiqə bizə bir çox müzahim və müşkülatı çıxardı. Fəqət hər bir zamanda biz bu müzahim və müşkülatı iqtisam etdik. Yenə yüksələn bir bayrağı göz bəbəgi kibi hifz edilən istiqlalı aslan kibi mühafizə və müdafiə etdik; bizim qüvvətimiz həqqimizdir. Həqq yoluna imanımız istiqlalımızda ən baş bir şüarı olduğu kibi bütün müvəffəqiyyətlərimizin də bir ələmdarıdır.

Bu cəhətlə şimdi hər vətəndaş vəzifə başına ştab etməli, vəzifəsinə sadiq qalan vətəndaşın istiqlal və vətənə də müdafe və xadim ola biləcəgini iman etməlidir.

İman, iman! İştə bu günün ən qüvvətli müdafei, ən qüvvətli amili budur.

Əvvəl baəvvəl məmləkətimiz daxilində asayiş və intizamı xələldar edəcək ünsürlərə qarşı vətənini sevən hər azərbaycanlı təyəqqüz durmalıdır ki, daxildə kiçik bir intizamsızlığın xaricdəki əhvala əksi bir təsiri yapması məmuldur.

"Qalayı daxildən zəbt edərlər" deyərlər.

Filhəqiqə qalanın daxili hər zaman hər dürlü hiylə və intriqalara bir zəmin olur.

Qalayı daxildə haman mühafizə etməklədir ki, bugünki vəziyyətimizi lehimizə çevirə bilərik.

Bizim qalanın ən çox zərərverici ünsürləri macəraçular, macəraçuluq olduğuna görə bittəbii əvvəl baəvvəl bunlardan təhəffüz etməlidir.



Binaənileyh bütün vətəndaşlar sükun və intizamla bərabər bir şüar ilə də amal olmalıdır ki, o da:

Birlik! Birlik!

**"Azərbaycan", 28 nisan (aprel) 1920, №85**

Müzahim – zəhmət verən, çətinləşdirən

Təyəqqüz – oyanma; *məc.* gözüaçıqlıq

# ƏLAVƏLƏR

Tam məxfi

# Rəsul Zadə Məmməd Əmin haqqında

## ARAYIŞ

Rəsul Zadə Məmməd Əmin, 1884-cü ildə doğulub, azərbaycanlıdır, peşəcə jurnalistdir, antisovet millətçi "Müsavat" təşkilatının lideri və ideoloqudur. Azərbaycan sovetləşdikdən sonra xaricə mühacirət edib.

Rəsul Zadənin mühacirətdə apardığı və başçılıq etdiyi antisovet işi Azərbaycanda sovet hakimiyyətinin devrilməsinə və kapitalizmin bərpasına yönəlmişdir. Bu məqsədlə Rəsul Zadə Müsavatın gizli fəaliyyətini təşkil etmək, casusluqla məşğul olmaq, üsyançılıq hərəkatı yaratmaq və təxribatlar törətmək üçün müntəzəm olaraq SSRİ-yə emissarlar göndərmişdir.

Xaricdə yaşadığı ilk gündən Rəsul Zadə xarici ölkələrin (Polşa, Yaponiya və Türkiyənin) kəşfiyyat idarələri ilə əlaqəyə girmiş, bütövlükdə onların himayəsinə keçmiş, SSRİ-yə qarşı düşmənlik fəaliyyəti ilə bağlı onların bütün tapşırıqlarını yerinə yetirməyə başlamış və beləliklə də həmin kəşfiyyat idarələrinin agentinə çevrilmişdir.

1942-ci ilin mayında Qafqaz mühacirət nümayəndələrinin qurultayında iştirak etmək üçün almanlar Rəsul Zadəni Berlinə çağırmışlar; bundan sonra o, ROZENBERQİN yaratmış olduğu "Azərbaycan Milli Komitəsi"nə başçılıq etmişdir. Almaniya ordusu komandanlığının tapşırığı ilə Rəsul Zadə azərbaycanlı əsirlərdən ibarət "Milli legionerlər" deyilən qurum yaratmaq yönündə geniş fəaliyyət göstərmişdir. Ona Qızıl Ordunun arxa cəbhəsinə göndərmək üçün casuslar və təxribatçılar hazırlanması ilə bağlı tədbirlərin keçirilməsində Almaniya kəşfiyyatına kömək və yardım etmək tapşırığı da verilmişdi.

1943-cü ilin sonunda guya səmərəsiz işinə görə almanlar Rəsul Zadəni "Azərbaycan Milli Komitəsi"nin rəhbərliyindən

kənarlaşdırmışlar. Bundan sonra o, Buxarestə qayıtmışdır və indi də orada yaşamaqdadır; Türkiyənin Rumıniyadakı səfiri vasitəsilə Türkiyə hökumətindən pul müavinəti alır.

SSRİ XDTK I İDARƏSİNİN RƏİSİ (PAVEL FİTİN)
**17 iyul 1944-cü il.**

**Rusiya Dövlət Arxivi. Sosial-siyasi tarix, fond 82 (Molotov fondu), siy. 2, iş 10-20, səh. 142-143**



**Bütün müsəlmanların Seym fraksiyalarının birgə iclasının protokolu № 8**
**6 aprel**

M.Ə.Rəsulzadə ("Müsavat" partiyasının lideri) sədrlik etmişdir. Katib: R.Vəkilov.

Seym üzvü M.Ə.Rəsulzadə (müsavatçı) qeyd edir ki, biz Zaqafqaziyaya qayıdan hər hansı Rusiya ilə əldə silah vuruşacağıq.

Seym üzvü M.Ə.Rəsulzadə. Biz öz gücümüzə inanırıq və ağır məqamda cənubdan-qərbdən kömək çağıra bilərik.

**Bütün müsəlmanların Seym fraksiyalarının birgə iclasının protokolu № 9**
**7 aprel**

M.Ə.Rəsulzadə sədrlik etmişdir. Katib: R.Vəkilov.

Seym üzvü M.Ə.Rəsulzadə mötədilliklə deyir: menşeviklərin Trabzon sülh nümayəndə heyətinin mövqeyini dəstəkləyən cərəyanından istifadə etmək lazımdır. Qalanı içəridən almaq gərək.

**Bütün müsəlmanların Seym fraksiyalarının birgə iclasının protokolu № 10**
**9 aprel**

M.Ə.Rəsulzadə sədrlik etmişdir. Katib: R.Vəkilov.

İclas M.Ə.Rəsulzadənin məsul fraksiyaların nümayəndələri ilə keçirilmiş və Seymin qarşıdakı iclasının gündəliyini hazırlamış müşavirənin nəticələri barədə M.Ə.Rəsulzadənin məruzəsi ilə açılır. Gündəliyin birinci məsələsi Zaqafqaziyanın müstəqilliyinin elan olunması, ikinci məsələsi isə bəyanilmək üçün Seymə təqdim ediləcək aşağıdakı qətnamədir: "Seym sülh nümayəndə heyətinin məruzəsini dinləyərək və ona dayandırılmış danışıq-

ları davam etdirməyi təklif edərək hökumətə tapşırır ki, hərbi əməliyyatları təcili olaraq dayandırmaq və sülh müqailəsi bağlamaq üçün tədbirlər görsün".

Seym üzvü M.Ə.Rəsulzadə məsələnin hüquqi cəhətdən formalaşdırılmasından çox onun mahiyyətinə diqqət yetirir. Hakimiyyətin sülh nümayəndəsinin sədri, Seym üzvü Çxenkeliyə keçməsi faktı göstərir ki, sülh məsələsi birdəfəlik həll edilmişdir. Zaqafqaziyanın müstəqilliyi elan olunarkən Batum, Qars və Ərdahan vilayətləri nəzərə alınmadan və Şimali Qafqazın kazak ərazilərinə qədər olan hissəsi daxil edilməklə ölkənin ümumi sərhədlərini göstərmək lazımdır.

## Azərbaycan Milli Şurasının Gəncə Şəhər İdarəsinin binasında keçirilən qapalı iclasının protokolu
## 17 iyun

İclas Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə açılır. Katiblər: Mustafa Mahmudov və Rəhim Vəkilov.

Məhəmməd Əmin Rəsulzadə. Əfəndi hökumətin təşkili barədə bizim fikrimizi xatırlatdı. Paşa dedi ki, o, əsgər olduğuna görə mülki işlərlə lazımınca tanış deyil, buna görə də hökumətin təşkili məsələsi ilə bağlı onun mülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğluya müraciət edib onunla danışmağı məsləhət görür. Bunu nəzərə alaraq biz Əhməd bəy Ağaoğlu ilə şəsən söhbət edərək ona məlumat verdik ki, hökumətin təşkili barədə məsələnin həlli iki əsas nöqteyi-nəzərə söykənməlidir. Birincisi: indi mövcud olan qayda-qanunu dəstəkləmək və Milli Şuranı buraxmaq. İkincisi: Milli Şuranın nüfuzunu və gücünü artırmaq üçün yenilərini dəvət etməklədeputatların sayını artırmaq. Onlar Gəncə quberniyasının Milli Komitəsindən (10 nəfər), Bakı şəhər İdarəsindən (10 nəfər), qəzalardan (hərəsindən 2 nəfər) dəvət edilməli, keçmiş Mərkəzi Milli Komitə üzvləri də buraya əlavə olunmalıdır.



Milli Şura yarandıqdan sonra hökumət onun qarşısında istefa verə bilər. Bu halda Şura sədri yeni hökumətin təşkilini kimsə həvalə edir.

Danışıqlar zamanı Nuru paşanınmülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğlu dedi ki, Türkiyə hökuməti və onun sədri Azərbaycanın daxili işlərinə, müvafiq olaraq hökumətin yaradılması işinə müdaxilə etməyəcək. Siz hökuməti istədiyiniz kimi qura bilərsiniz.

